

AYRILIĞIN SONU YOXMUŞ



BİRİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Ayrılıq var — sonu şirin vüsaldı.
Ayrılıq var — sonu yoxmuş, ay aman.

Bir yarımçıq şerdən.

Ölüm insanı soyundururmuş, ölüm hər şeyin üstündən pərdəni götürürmüş: sən daha vücudunun heç bir əzasını — gözəlliklərini də, əgər varsa, eyiblərini də mürdəşirdən gizləməyə qadir olmadığın kimi, ömrün boyu tutduğun yaxşı-pis əməllərini də kimsədən pünhan saxlamağa qadir olmursan — ancaq ölüm sənin gözlərini öz soyuq və rəhmsiz əlləri ilə qapayandan sonra sənin haqqında gizli-aşkar əsl həqiqətlər meydana çıxır, unudulan, çoxdan olmuş yaxşılıqların, unudulmayan, ancaq dilə gətirilməyən pisliklərin xatırlanır, söylənir; çünki heç kəs daha sabah sənlə üz-üzə gələcəyindən, utanacağından ehtiyat eləmir, kimsə daha səndən qorxmur, çəkinmir. Sənin yoxluq dünyan başlayan andan həyatda necə olmusansa, eləcə də qiymətini alırsan: yaxşı olubsansa, yaxşı, pis olubsansa, pis... Daha o anlarda, günlərdə deyiləndərdə yalan olmaz, riya olmaz, ikiüzlülük olmaz, haqq olar, həqiqət olar. Bəli, əsl haqq söz məhz o anlarda, o günlərdə söylənər sənin barəndə və deyilənlər yaxşıdırsa, sən sevinə bilməzsən, fərəhlənə bilməzsən, qürrələnə bilməzsən; əgər deyilənlər acıdırsa, zəhərdirsə, böhtandırsa, ən məxfi sirrindirsə, sənin adına-sanına ləkə gətirirsə sən qəzəblənə bilməzsən, etiraz eləyə bilməzsən, inkar eləyə bilməzsən, bax, bu, elə deyil, belədir, sən səhv eləyirsən «gör sənin başına nə oyun gətirəcəyəm» — deyə bilməzsən, çünki artıq sən ölmüsən, sən artıq öz taxt-tacından düşmüsən və ölümün sükuta qərq olmuş səltənətində qərar tutmusan. Ölümün dəhşəti də məhz bu lal-kar sükutundadır, sənin sükutundadır, əbədilik sükutundadır!

Bəli, aylarla içində yaşayan, ürəyini iti və zəhərli caynaqları ilə zərrə-zərrə didib-parçalayan və nəhayət, dırnaq boyda bir qurğuşuna çevrilib öz əlilə öz qəlbinin başına sancılan bu nagahani ölüm ağayi Nəcməddin kimi qüdrətli bir kişini də soyundurmuşdu.

...Nəcməddin güllü-naxışlı Herat xalçasının üstünə üzüqoylu düşmüş və elə dərhal da, güllə səsi eşidiləndən azca sonra canını tapşırmışdı. İrəli uzanmış sağ əlində balaca, qara tapança vardı — bu, o tapança idi ki, kişi iyirmi ildən çox yanında gəzdirmiş və bu müddət ərzində bircə dəfə də atmamışdı; bu, həmin tapança idi ki, onun üç gülləsini özündən də çox sevdiyi, əzizlədiyi, inandığı, sonra isə bütün bəxş elədiyi səadətləri əlindən alıb əvəzində zəhər dolu camla, dözülməz əzablarla olmazın işgəncələr verən Dünya xanımın ürəyinə boşaltmışdı. Barmaqları qıc olduğundan, sonra o tapançanı çox çətinliklə Nəcməddinin əlindən «ala» bildilər. Ürəyinə atəş açıbmış, sol sinəsi, döşünün üstü dağım-dağım olmuşdu. Qanı naxışları od tutub yanan Herat xalçasının üstünə axıb tökülmüş və gül butalarını birbirinə qarışdırmışdı.

Zərrintac xanım dünyada hamıdan artıq istədiyi, sayəsində arın-arxayın yaşadığı atasını yerə sərilmiş görəndə özünün də birinci dəfə eşitdiyi vəhşi bir səslə bağırmış, kişinin üstünə atılıb başından tutaraq arxası üstə çevirmiş:

— Qibləgahım-qibləgahım! — deyə fəryad qoparmışdı; Nəcməddinin hələ də diri olan, nurunu hələ də itirməmiş gözləri geniş açılmış halda ona zillənmişdi və eləcə də donub qalmışdı. Zərrintac yalnız bu zaman başa düşmüşdü ki, kişi bu «səfərə» əməlli-başlı hazırlaşırmış: yoxsa o dəllək əhvalatı, o şəkil çəkdirmək mərasimi nə üçün imiş bəs? Və elə o anda dəhşətli səhv elədiyini başa düşmüşdü — gərək onu tək qoymayaydı, tək qoymayaydı... Bu təəssüf hissi onu iliklərinəcən yandırmışdı, ancaq neyləyə bilərdi— gec idi. Güllə səsi eşidəndə qucağındakı uşağı yerə atıb hövlnak içəri qaçan Əbdül gördüyü mənzərədən şaşırmış olsa da, Nəcməddinin açıq baxışlarında işığın donduğunu fəhmlə duyanda dizlərini yerə qoyub kişinin kirpiklərini sığamış və gözlərini bağlamışdı. Sonra dönüb çaşqın-çaşqın Zərrintac xanıma baxmışdı. Qız atasının başını

dizinin üstünə qoyub oturmuş, gözlərini yaş boğa-boğa onun hələ də qan fışqıran sinəsinə nəzər salmış və ağlar səslə:

— Sən niyə belə elədin, qibləgahım, niyə belə elədin?— demişdi. — Bəs məni kimə tapşırıb getdin, qibləgahım? — Bu, fəryadın müqabilində ağayi Nəcməddin susmuş, susmuşdu. Balaca Nəcməddin isə özünə qarşı bu gözlənilməz rəftardan — yerə atıldığından, ağladığına kimsənin əhəmiyyət vermədiyindən sanki qəzəblənmişdi — bir az da bərk qışqıra-qışqıra iməkləyərək ara qapının ağzına gələrək otaqdakı mənzərəni görüb bir neçə an kirimiş, sonra nə isə sanki dəhşətli bir hadisə baş verdiyini duyub təzədən ciyərdolusu bağırmağa başlamışdı.

İlk dəqiqələrdə nə edəcəklərini bilməyən Zərrintac da, Əbdül də karıxmış halda gah meyidə, gah bir-birinə baxıb ah-uf etmiş, ağlamışdı. Sonra Əbdül uşağın qışqırtısına dözməyərək əyilib onu yerdən götürmüş, sinəsinə basıb yırğalamış, sakitləşdirməyə çalışmışdı. Uşaq nəhayət, Əbdülün qucağında səsini kəsmiş, maraq, heyrət və yaşla dolu gözlərini ortalıqda uzanmış Nəcməddinə və onun başını dizi üstə qoymuş Zərrintaca zilləyib içini çəkə-çəkə dayanmışdı.

Gərgin anlar, dəqiqələr, ilk sarsıntılar ötüb-keçəndən sonra Zərrintac ayağa qalxmış, Əbdülə sarı gələrək uşağı ondan almış, bağrına basıb təzədən hönkürtü vura-vura:

— Can qardaş, biz yetim qaldıq! — demişdi. — Sən də, mən də yetim qaldıq, qardaş!

O belə deyəndə balaca Nəcməddin də təzədən ona qoşulub ağlamışdı. Bunu görən Əbdül:

— Ağlama, xanım. Sən ağlayırsan, o körpə də sənə qoşulub özünü öldürür, — demişdi.

Zərrintac xanım içini çəkə-çəkə:

— Ağlamayım bəs neyləyim, Əbdül! — söyləmişdi.— Nəcməddin kimi atası ölən də ağlamazmı? Əbdül də bu sözlərdən kövrəlmişdi:

— Ağlar, xanım, ağlar!

— Allah sənin ananın ciyərini yandırsın, qardaş!—deyə Zərrintac burnunu çəkərək qucağındakı uşağa müraciət etmişdi. —

Bu müsibətlərin hamısına o baisdi, bala, o çərxi dönmüş baisdi. Qoy başım açılsın, o həyasızı, o çörəyi dizinin üstündə olanı yerin deşiyində olsa da axtarıb tapacağam, öz əllərimlə tikə-tikə doğrayacağam. Mənə, o kişiyə yazığı gəlmirdi, heç olmasa sənə yazığı gələydi. Gəlmədi, rəhm eləmədi. Allah cəzasını verəcək onun…

Dünyanı deyirdi. Əbdül Zərrintacın yana-yana söylədiyi bu sözləri eşidəndə qeyri-iradi gözlərini yummuş və xəyalında üç ay bundan qabaqkı o dəhşətli gecə canlanmış, yerdə, qabağında uzanan Nəcməddinin meyidi harasa yox olmuş, əvəzində Dünyanın vücudu, qanlı sinəsi, açıq gözləri peyda olmuşdu...

Elə bil bu hadisə indicə baş vermişdi— bax bu, o idi, Dünya xanım idi, hələ bədəninin istisi də soyumamışdı.

Əbdülün vücudu titrəmiş, dizləri əsmiş və o, özünün də xəbəri olmadan yerə çöküb titrək əllərini meyidə sarı uzadaraq;

— Dünya!.. — deyə inləmişdi. Yaxşı ki, elə bu an Zərrintacın səsini eşidib huş-xəyal aləmindən ayılmışdı; gözünü açanda Nəcməddinin meyidini görüb çaşmışdı.

— Əbdül! — demişdi Zərrintac xanım, — dur get, Elməddinə zəng elə, qoy gəlsin! Demə xanım çağırır, öz adından de.

Əbdül tələsik qalxmış, özünü ələ alıb: «İlahi, mənim başıma hava gəlir deyəsən!» — deyə ürəyindən keçirib:

— Baş üstə xanım! — demiş və yan otağa qaçmışdı. Az sonra qayıtmışdı:

— Bu saat gəlir, xanım.

— Sən ona dedin kişi özünü öldürüb?

— Bəli, xanım.

— O nə dedi?

— O, eşidəndə... dili topuq çaldı, xamım… Elə şey olmaz! dedi. Dedim belədi, ağa, Dedi vay-vay... Gəlirəm... Zərrintac xanım daha heç nə xəbər almamış, Əbdülə tapşırmışdı:

— Sən düş həyət-bacanı sahmana sal, indi eşidən-bilən gələcək. Elə et ki, hər şey qaydasında olsun.

— Baş üstə, xanım, — deyərək otaqdan çıxmışdı Əbdül. Zərrintac xanım meyidlə bir yerdə tək qalmaqdan hövllənərək qucağındakı uşaqla eyvana çıxmış və darvazaya nəzər salmışdı. Özünü bu

nöqtədə tutmuşdu ki, o, indi məhz Elməddin üçün darvazaya baxmışdı...

Ərini evdən qovduğu gündən bir aydan çox keçmişdi. Bu müddətdə Elməddin o həyətə ayaq da basmamışdı, zəng belə eləməmişdi. Peşman-peşman gəzib-dolaşmış, işə getmiş, axşamlar isə evlənməmişdən əvvəl ağayi Nəcməddinin onun üçün ayırdığı təkotaqlı mənzilinə qayıtmış, nə rahat yata bilmiş, nə də yazı-pozu ilə məşğul olmuşdu. Fikri, hissləri çarpaşıq, qat-qarış idi. Ağayi Nəcməddinin vəziyyəti isə onda elə idi ki, əhvalatı ona demək faydasız olardı; bu, həm də kişinin dərdinin üstünə dərd qoymaq kimi çıxardı. Şəfiyə də, Məleykəyə də dərdini deməmişdi — utanmışdı. Başına gələn qəziyyədən təkcə Əhədullanın xəbəri vardı — çünki ona Zərrintac xanımın yanında qalan qızı Siminbər söyləmişdi.

Zərrintac xanımın isə bu ötən vaxt ərzində fısı-fısqırığı yatmamış, ərinin qarasınca o ki var deyinmiş, asıb-kəsmiş, kölgəsini qılınclamışdı. O da Elməddin kimi, əhvalatı atasına danışmamışdı. Əvvələn, kişi söz eşidib məsləhət verəsi halda deyildi; ikincisi də, əlinin içi kimi bilirdi, desəydi, Nəcməddin qızını danlayacaqdı, günahı onda görəcək, əsəbiləşəcəkdi. Yəqin idi ki, Elməddini çox istəyir, nəsə quşu yaman qonub ona. Buna görə də hadisələri öz axınına buraxaraq susmağı daha üstün tutmuşdu Zərrintac xanım.

Siminbər isə — hər axşam ağasının qayıdacağına gizli bir ümid bəsləyən və pünhan-pünhan gözünü darvazadan çəkməyən Siminbər isə içəridə, qəlbinin dərinliklərində Zərrintac xanıma dərin bir nifrət hissi duymuş, ancaq açıb-ağarda bilməmiş, sözünü udmuşdu. Başa düşmüşdü ki, onun xanıma heç nə deməyə ixtiyarı yoxdur. Lakin buna baxmayaraq Siminbər bir dəfə kin-küdurətini mümkün qədər gizləməyə çalışaraq mülayim-mülayim;

— Xanım, yaxşı düşbərə bişirmişəm, götür ağama zəng elə, gəlsin. Həm barışın, həm də o, düşbərə yesin — demişdi. Ancaq Zərrintac xanım jurnal stolunun arxasında qəzəblə qıçını qıçının üstünə aşırıb:

— Kim? Mən, mən ona zəng eləyim?!—çımxırmışdı, — Bunu, qulağının dibini görəndə görər. Ölmüşdü Zərrintac xanım. İt kimi sürünə-sürünə, şırvana-şırvana gəlib ayağımın altına düşməsə, ömründə bağışlamaram onu. Belədi də bu kətçi-kütçü. O saat qudurub cızığından çıxır, başlayır tanrısına şıllaq atmağa. Sənin ağan da çox tez qudurdu, qız.

Bu sözlərəin müqabilində Siminbər heç nə söyləməmiş, məyus-məyus mətbəxə keçib pəncərədən yenə darvazaya — həmişə Elməddinin gəldiyi yola boylanmışdı.

Bəli, Zərrintac qüruruna sığışdırmamışdı ərini geri çağırsın, Elməddin də endirməmişdi. İndi ağayi Nəcməddinin qəfil ölüm xəbərini eşidəndə qaribə idi ki, Zərrintacın yadına birinci Elməddin düşən kimi, onun da yadına Zərrintac xanım düşmüşdü.

....Elməddin darvazanın ağzında maşından sıçrayıb həyətə cumdu. Qabağına çıxan Əbdülü görən kimi dayandı. Həyəcanlı idi, sifəti ağarmışdı. Əbdül baş endirib salam verdikdə o, tələsik:

— O beçə, bu, həqiqətdi? — deyə soruşduqda Əbdül:

— Bəli, ağam, həqiqətdi, — söylədi. — Bu, boyda zarafat olar? Mənim sizinlə belə zarafat eləməyə nə haqqım var.

Elməddin taqətsiz halda hasarın içərisində, divarın dibindəki taxta oturacaqda əyləşdi:

— Necə oldu bu?

Əbdül, kişinin son saatlarını qırıq-sökük cümlələrlə Elməddinə şərh elədi və danışdıqca özünü saxlaya bilməyib ağladı. Elməddin onun söhbətini dinləyib:

— Kişi pozulmuşdu son vaxtlar, — dedi. — Mən bilirdim ki, o, çox yaşamayacaq... Dünyadan sonra o... — Elməddin sözünə ara verib həyətə baxındı: — Bəs Dünyadan bir xəbər çıxmadı?

Əbdülün canından bir gizilti keçdi və çaşqın halda.

—Yox, çıxmadı, ağam,— dedi.

Elməddin ona ciddi, sınayıcı bir nəzər saldı:

— Sən onun yerini bilmirsən yəni?

— Kim? Mən?

— Yox, mən! Əlbəttə, səni deyirəm. — Elməddin hövsələdən çıxdı.

— Yoox, ağam...

Araya ani sükut çökdü. Əbdül baxışlarını yayındırdı. Elməddin onu başdan-ayağa süzüb:

— Yaxşı, bu barədə sənlə sonra danışaram, — dedi,— mənə elə gəlir ki, sən çox şey bilirsən, Əbdül...

Əbdül udqundu, kəkələyə-kəkələyə nə isə demək istədisə də ancaq xoşbəxtliyindən Elməddin daha ona əhəmiyyət verməyib yuxarı qalxmaq üçün ayağa durdu. Pilləkənləri çıxanda Zərrintacı eyvanda qucağında uşaq dayanan görüb ani olaraq nə edəcəyini bilmədi. Hiss olundu ki, Zərrintac xanım da eyni, çaşqın hisslər keçirirdi. Çünki o, Elməddinlə üz-üzə gəlməmək üçün çevrilmək istədi, ancaq bacarmadı və baxışları rastlaşdı. Elməddin, nəhayət, özünü ələ alıb irəli yeridi və Zərrintacın qabağında başını əydi, sonra əlini irəli-uzadaraq sol əlini qaldırıb ehmalca öpərək:

— Müsibətinizə şərik oluram, xanım! — dedi. Sonra dikəlib onun gözlərinin içinə baxarkən yanaqları aşağı axan ağ qətrələri görüb doluxsundu və qəhərli səslə: — Ölməli kişi deyildi, hayıf oldu... Min təəssüf....— deyə bildi.

— Lap başımı itirmişəm... — dedi Zərrintac xanım, — heç bilmirəm...

Onun nə dediyini o dəqiqə Elməddin anladı və təskinlik verdi:

— Darıxma, xanım. Hər şeyi necə lazımdırsa, eləcə də edəcəyik.

Elməddin belə deyib içəri keçdi, Zərrintac xanım isə düşündü: «Mənə «xanım» deyir, adımı dilinə də gətirmək istəmir...»

Elməddin otaqda üzünə qara örtük çəkilmiş Nəcməddinin başı üstündə xeyli dayandı, xalçanın qanlı parçasına tamaşa elədi, hannan-hana örtüyü qaldırıb ona çox yaxşılıqlar eləmiş o qəribə, məğrur və şerpərəst kişinin ağappaq ağarmış sifətinə ötəri nəzər saldı və ürəyində: «Allah sənə rəhmət eləsin! - dedi, — Amma sən hələ ölməzdin, ağam, səni Dünya məhv elədi, ağam. Təfərrüatını bilmirəm, amma mənə gün kimi aydındır ki, səni ocağının başında oturan mələikə sifətli o iblis qadın məhv elədi, ağam. Qəbrin nurla dolsun…»

O, eyvana çıxanda Əbdül Zərrintacın yanında idi—uşaq indi onun qucağındaydı. Elməddin Zərrintaca baxmadan:

— Məktubdan-filandan yazıb qoymayıb kişi? — deyə Əbdülə müraciət elədi.

Zərrintac:

— Bilmirəm! — söylədi.

— Səhər məndən qələm-kaqız istədi ağam. — dedi Əbdül.

— Bir şey yazmadı?

— Nə isə yazırdı.

— Hanı bəs?

— Bilmirəm... Qoy baxım... — O içəri qaçdı, onun dalınca onlar da otağa keçdikdə Əbdül Nəcməddinin yastığının altından iki bükülmüş bir vərəq götürüb Elməddinə uzatdı. O, əlləri əsə-əsə kağızı açıb ürəyində oxumaq istəyəndə Zərrintac dilləndi:

— Ucadan oxu...

Elməddin ilişikli səslə ucadan bu sözləri oxudu:

— «Mən yaşaya bilmədim. Ölümümdə heç kəs təqsirkar deyil. Bankda saxlanılan yüz milyon pulumun əlli milyonu qızım Zərrintacın və onun əri Elməddinin, qalan əlli milyonu isə sonbeşik oğlum Nəcməddinin və onun dayəsi Əbdülün adına keçirilsin. Bundan əlavə indi yaşadığım mülk Nəcməddinin və Əbdülün olmalıdır, oğlum on səkkiz yaşına çatandan sonra bütün şirkət və onun idarəsi ona təhvil verilməlidir. Ona qədər bu işləri qızım Zərrintacla əri Elməddinə həvalə edirəm. Böyük oğlanlarımın hamısını vərəslikdən məhrum edirəm».

— İmza qoyub, möhür vurub?—Zərrintac xanım, atasının başına doğrudan da hava gəldiyini yəqin eləyib narahat halda tələsik soruşdu.

— Bəli! —dedi Elməddin. — İmza da eləyib, möhür də vurub...

Susdular. Əbdül bu söhbəti kişinin öz dilindən eşitdiyinə görə və cibində belə məzmunda ayrı bir kağız da olduğuna görə heç nəyə təəccüblənmədi və başını yana döndərib həyətə baxdı. Zərrintac isə özünü saxlaya bilməyib:

— Kişi dəli olubmuş? — dedi. Və onun nə demək istədiyini yaxşı başa düşən Elməddin kinayə ilə:

— İndi bu söhbətlərin yeri deyil, xanım! — dedi. — Kişinin meyidi hələ ortalıqdadır. Onun dəfnini təşkil eləmək lazımdır. — Elməddin bu sözləri deyib telefon olan otağa keçdi. Yarım saat sonra radio ilə ağayi Nəcməddinin ölüm xəbəri elan olundu, çox keçməmiş məscidi-camedən molla və mürdəşir gəldi. Qəbristana məzar qazdırmaq üçün adam göndərildi. ...Həyətdə, hamamdan o yanda, hasarın dibində, xəlvət bir guşədə mürdəşir Ağayi Nəcməddinin meyidini lay taxtanın üstündə yuyurdu. Köməkçisi su tökür, o isə qüsl verirdi. Mürdəşir arıq, uzun, qabaq dişləri tökülmüş ağsaçlı bir kişi idi. Hərəkətindən, rəftarından hiss olunurdu ki, çox can-dildən işləyir. Ağayi Nəcməddinin bir sümük, bir dəri olan vücudunu taxtanın üstündə həvəslə o yan-bu yana çevirir;

— Su tök, atam, su tök! — deyə tez-tez öz köməkçisinə müraciət eləyirdi. — Suya qənaət eləmə, atam, bu ağaların o qədər günahı var ki, yer üzündə, bu su ilə təmizləmək olmaz, gərək bunları qır qazanında yandırasan, bəlkə onda günahlarından çıxa bilərlər. Su tök, atam.

— Sən tanıyırdın məgər ağayi Nəcməddini? — deyə köməkçi xəbər alanda mürdəşir kənara tüpürüb:

— Dabbaqda gönünü tanıyıram, atam, — dedi, — Bir vaxt onun nəssacı şirkətində işləmişəm. Onda cavan idim, təzə evlənmişdim. Körpəmiz vardı. Arvad-uşağı dolandırmaq üçün çox iş axtardım. Heç yerdə iş tapa bilmədim. Ya dilənməli, ya da oğurluq etməli idim. Acından arvadımın südü qurumuşdu, uşaq gecə-gündüz ağlayırdı, yemək istəyirdi. Nəhayət, bu ağayi Nəcməddinin yanına gəldim— onda cavan idi. Məni işə götürdü. Yalvardım ki, mənim tanqahımdan bir qədərini bu başdan versin, uşağım ölməsin. Dedi yox. Mən isə əlacsız qalıb elə birinci gün işdən çıxanda bir köynək oğurladım ki, satım, arvad-uşağımı ölümün cəngindən xilas eləyim. Ancaq tutdular məni. Bax bu ağa, indi sənin, mənim hüzurumda uzanmış bu ağa özü məni o qədər döydü ki, ağzımdan-burnumdan qan sel kimi axdı. Bununla da ürəyi soyumadı. Məni polisin əlinə verdi, apardılar, atam. O gedən getdim, düz bir ildən sonra qayıtdım. Gəlib gördüm uşağım

acından ölüb, arvadımı da bir hacı siğə eləyib saxlayır... Yazıq çarəsiz qalıb razı olub. Ağladı biçarə, dedi siğəmi geri oxudum, qayıdım yanına. Dedim yox.…Göz yaşı tökə-tökə çıxıb getdi... İndi, atam, bunlar belə murdar adamlardılar. Tök, sudan tök, atam. Ürəyini güllə gör necə dağıdıb? Qabırğasının da ikisini qırıb. Belə ürək dağılmalıdı, atam, Özüm onun qulaqlarını hələ tıxamıram. O mənim dediklərimi eşidir, atam. Qoy eşitsin.

— Necə yəni eşidir?

— Eşidir də, o hələ təzə ölüb.. Ürəyi ölüb. Beyni hələ oyaqdı, qulaqları da eşidir.

— Vay...

— Bəs nə bilmisən? Eşidir, ancaq cavab verə bilmir, hə, necəsən, ağayi Nəcməddin? Məni tanıdın? Yox? Tanımazsan, ağa. O qədər mənim kimilərin bədbəxt eləmisən, əlimin zəhmətinin haqqını yemisən, ürəyimin qanını içmisən ki, məni haradan yadında saxlayarsan, ağa? Allaha qurban olum, gec eləyir, amma güc eləyir. O milyonlar sənə qismət ola bilməzdi, ağa. O var-dövlət mənim kimi fəqir-füqurun, biçarənin alın tərindən qazanılıb — onu sən necə rahat yeyə bilərdin, ağayi-möhtərəm? Su tök, atam, yatma. O, haradasa sənin də, sənin də olmasa, atanın, qardaşının, əminin, qohumunun çörəyini, son qəpik-quruşunu əlindən alıb öz milyonlarının üstünə yığıb. Yatma, tök. Hə, bax, belə. İndi o pambıqdan bir az mənə ver, qoy qulaqlarını da tıxayım. Sidr-kafiri də ver bəri. Bax, belə. İndi o kəfəni at bura. Ay sağ ol, atam... Hə, indi hazırsan, ağayi Nəcməddin gedə bilərsən. Amma, atam, dünyada qaniçənlərdən birinin də dalından belə dəydik getdi.

Mürdəşir işləyə-işləyə ara vermədən beləcə danışdı, köməkçisi qulaq asdı. Kişi yorulub oturdu. Kəfənə bürünmüş ağayi Nəcməddinin vücudu çox kiçik görünürdü, yeniyetmə cənazəsinə oxşayırdı. Mürdəşir baxıb-baxıb dedi:

— Dünyanın işinə bax ey, atam. Adı-sanı, varı-dövləti, əzəməti bir məmləkətə sığışmayan bu cənabın vücuduna bax ey, sən allah, Bu ad-san, bu əzəmət sənin deyilmiş, ağa, sənin milyonlarının imiş...

...Şəfi, Ziyaülhəqq və Elməddin hamının yanında dayanıb söhbət edirdi. Onun ölümünün təfsilatını Elməddin dostlarına danış-

mışdı və onlar, ağayi Nəcməddini yaxından tanıyan adamlar kimi, onun belə nagahan həyatdan getməsinə kədərlənirdilər. Dostların fikrincə, o, mərd adam idi, sözü-bütöv idi. Şeri-sənəti çox sevirdi; o, deyən-gülən, şerə ləzzətlə qulaq asmağı bacaran bir insan idi, bundan əlavə o, əlahəzrət sarayına uzanan əlləri idi—oradakı ab-havanı Nəcməddinin vasitəsilə tez və vaxtında öyrənə bilirdilər. Məhz bu cəhətləri ağayi Nəcməddini onların gözündə ucaltmışdı. Xüsusilə Elməddin onun yaxşılıqlarını unuda bilmirdi, xatırlaya-xatırlaya həyatın qəribəlikləri haqqında düşünürdü. Şəxsiyyətli, müqtədir, qılıncının dalı da, qabağı da kəsən bir adam, həyatsevər, yeyib-içən, xoşxasiyyət bir qoca — sonra bədbəxtliyi üzündən dəlicəsinə sevən, bəxtəvər olan bir aşiq... lap sonra isə... bir vəfasız qadının dönüklüyü üzündən əriyən, qətiyyətini itirən, yaşamağı bacarmayan, zəlil olan və sınıb tökülən bir kişi... Varına-yoxuna Əbdül kimi bir nökəri, Elməddin kimi bir yoxsul qələm sahibini şərik eləyən bir səxavət kanı.. Və qürurundan, hikkəsindən. axırda özünə əl qaldıran bir dəli... Bu idi ağayi Nəcməddinin keçdiyi enişli-yoxuşlu, tərəqqili-tənəzzüllü həyat yolu... Bu yolu izləmək, o qocanın ürək aləmini, beyninin içini, düşüncələrini, hisslərini təzədən canlandırıb kağız üzərinə köçürmək, onu təzədən diriltmək və yaşatmaq maraqlı olardı və Elməddin fikirləşirdi ki, haçansa bu qəribə ömür yolunu qələmə alacaq, onun bir insan kimi könül aləmini yenidən canlandıracaq...

Elməddin özünün varisliyi barədə dostlarına hələ heç nə deməməyi qərara aldı... «Qoy görək bu işlərin axırı nə ilə qurtarır».

...Get-gedə çoxalan camaatın arasında Dünya xanımla bir gündə tanınmaz-bilməz adamlar tərəfindən öldürülmüş qonşu Vəli-xanın qardaşı Əlixan çalmalı kişi ilə yanaşı dayanıb söhbət edirdi. Kişi deyirdi:

— Rəhmətliyin adını eşitmişdim, üzünü görməmişdim. Deyirlər yaxşı adam imiş...

— Ba, yaxşı da sözdü, qızıl kimi kişi idi, rəhmətlik. Xeyrə-şərə yarayan adam idi. Bizdə yas düşəndə dağ boyda kişi gəlib özü hüzrdə oturdu, başsağlığı verdi, gedəndə də mənim özümə üz tutub dedi ki, bəlkə bir şeyə ehtiyacınız-zadınız var, utanma, bala, de. Nə lazımsa eləyək. Dedim çox sağ ol, ağa. Ondan o qədər razıydım ki... Allah

rəhmət eləsin... Yaxşılar gedir, pislər qalır—bu dünya bilmirəm niyə belə qurulub ey..,

— Dəqiq bilən yoxdu ki, bu kişi niyə özünu öldürüb? Siz qonşusuz da, hayana dönsə ucundan-qulağından eşidib bilərsiz.

—Nə deyim, vallah? Hərə bir söz deyir. Bu rəhmətliyin su sonası kimi cavan-qəşəng bir arvadı vardı. Birdən-birə yoxa çıxdı arvadı. Göyə uçdu, yerə batdı, bilən olmadı. Deyirlər, kişi rəhmətlik onu çox, lap çox istəyirmiş. Ayrılığına dözməyib, başına hava gəlib...

— Yox əşi, onun vaxtı keçmişdi. Eşq-filan söhbəti ola bilməz....

— Nə bilim, vallah....

...Azca onlardan aralı isə iki kişi dayanmışdı:

— İndi başa düşdün ağayi Nəcməddin o Vəlixanı bizə niyə öldürtdü? — deyə təsbehli kişi siqaret çəkən çəpgöz adamın qulağına pıçıldadı.

— Niyə ki?

— Bu Vəlixanla onun arvadının arasında nə isə varmış. Kişi bizim əlimizlə onu aradan götürdü, arvadın da başını ya özü yedi, ya da başqasına öldürtdürdü.

— Hə... Ola bilər. Ağlabatan sözdü.

— Amma xam düşdük — əlli min az idi. Yüz də istəsəydik, verəcəkdi...

— Hayıf...

Ağayi Nəcməddinin qırxı çıxan günün səhəri, Elməddin, günortaya yaxın yuxudan ayılıb əl-üzünü yuyandan sonra Zərrintaca üz tutub dedi:

— Allah rəhmət eləsin, xanım. Son qəminiz olsun. İcazə versəydiniz, mən mürəxxəs olardım. Neçə vaxtdı işdən-filandan xəbərim yoxdur. Nə vaxt lazımınız olsam, xəbər göndərərsiniz, qulluğunuzda hazır olaram.

Elməddin ani sükut elədi və gözlədi ki, bəlkə Zərrintac bir söz deyər. Amma o susdu, heç nə söyləmədi — deyə bilmədimi, demək istəmədimi — anlamaq olmadı. Onda Elməddin başını sinəsinə endirib ağır addımlarla otaqdan çıxdı. Əbdül qucağında uşaq həyətdə idi. Elməddinin getmək istədiyini anlayıb qabağa yeridi:

— Ağam, gedirsiz?

— Hə, Əbdül. Gedirəm... Salamat qal. Sən olmasaydın, bu boyda məclisi yola verə bilməzdim. Sağ ol.

— Borcumdu, ağam. Ağayi Nəcməddin yaxşı insan idi —Allah onun qəbrini nurla doldursun. Mən ondan çox razıyam, ağa.

— Hə, yaxşı insan idi. Sən də onun ciyərparasına yaxşı bax, Əbdül. Uşaq anasız qaldı—onu böyütmək, tərbiyə etmək çətin olsa da, gərək var gücünlə çalışasan... O biri tərəfdən bu, həm də sənin mənəvi borcundu: Atası səni evə, pula — az pul deyil, ha, əlli milyon sənə zarafat gəlməsin, — şərik eləyib. Sən indi bu şəhərin ən varlı adamısan, Əbdül.

— Eh, ay ağam, o pul mənim nəyimə lazımdı? Mən nökər babayam, elə nökər olaraq da qalacağam. Mənə bir qarın çörək, bir isti bucaq lazımdı ki, gecələr yata bilim, vəssalam. Qaldı ki, uşaq. Əlbəttə, onu öz ciyərparam kimi böyüdəcəyəm. Ondan arxayın ola bilərsən — nə qədər nəfəsim gəlib-gedir, onun nökəri olacağam.

— Sağ ol, Əbdül!—deyib gedərkən Əbdül gözlərinə inanmaq istəmədi, çünki gözləyirdi ki, ağa Dünya xanım barəsində onu sorğu-suala tutacaq və qorxurdu bu söhbətdən. Axı kişi ölən günü demişdi ki, sənin lə sonra danışacağam. Və o vaxtdan Əbdül səksəkə içərisində yaşayırdı. İndi Elməddinin yadından çıxmışdımı, ya özü bu məsələni təzələmək istəmirdi? — Əbdül bilmirdi.

— Yaxşı yol, ağa. Ancaq elə birdəfəlik getmə, ağa. Hərdən bizim əhvalımızdan bir xəbər tut, ağa.

— Yaxşı...

Elməddin ağayi Nəcməddinin evindən beləcə getmişdi. Zərrintacın o kobud rəftarından kəlmə də kəsməmişdi. Özünü elə aparmışdı ki, guya o, heç bunun arvadı deyil və aralarında da heç bir qanqaraldan söz-söhbət olmayıb. Zərrintac da o məsələni təzələməmişdi, yəqin ilk addımı Elməddinin atmalı olacağını düşünüb gözləmişdi — hər necə olmasaydı da, o, ağayi Nəcməddinin qızı idi, qürurunu sığışdırardımı? Hələ üstəlik atası çox böyük (Zərrintacın fikrincə — çox böyük axmaqlıq) alicənablıq göstərərək — dünənəcən ac-susuz, yersiz-yurdsuz olan Elməddini əlli milyon nəğd pula şərik eləmişdi. Kişi, əlbəttə, bunu ancaq qızının xatirinə etmişdi.

Kişinin fikrincə, indi gərək Elməddin onun ayağınıi altından öpəydi, qabağında qul kimi dayanaydı. Amma sən onun hikkəsinə bax ki, heç nə demədən çıxıb getdi. «Yaxşı, Elməddin. Sən sən ol, mən də mən» — deyə Zərrintac hirsindən-hikkəsindən az qala partlamaq dərəcəsinə gələrək hönkürtü vurub ağlamışdı o, darvazadan çıxandan sonra. İki gün də atasının evində qalıb Əbdülə lazımi göstərişlər verəndən sonra maşına minib öz mənzilinə yığışıb getmişdi.

Zərrintacın burda olmadığı günlərdə Siminbər gündüzlər tək, gecələr isə atası Əhədulla ilə bu evdə qalmış, həyət-bacaya həyan olmuşdu...

Zərrintac xanım qaşqabaqlı idi, acıqlı idi. Siminbər ondan qorxurdu, heç nə deyə bilmirdi. Yalnız özü bir şey istəyəndə dərhal yerinə yetirirdi. Vaxtlı-vaxtında çörək də yemirdi, çay da içmirdi. Demək olar ki, bütün günü yatırdı, ayıq vaxtlarında da radioya qulaq asır, yorulandan sonra yenə yatırdı. Bütün bunları Siminbər ancaq və ancaq atasının ölümü ilə bağlayırdı. O bilmirdi ki, atasının ölümündən əlavə, burada iyirmi beş milyon məsələsi var, Elməddinin qayıdıb-qayıtmayacağından yana böyük nigarançılıq var — Siminbər bunları bilə bilməzdi.

Zərrintacın gəldiyinin dördüncü günü Siminbər, nəhayət, yazığı gəldiyinə görə, özündə cəsarət tapıb onun çarpayısının yanında dayanaraq:

— Xanım, qurban olum, belə getsə, siz məriz olarsınız, — demişdi. — Üzülərsiniz. Ölüm Allah əmridi, xanım, kim bu dünyanı tutub durub ki?!

Zərrintac xanım Siminbərin səsindəki kövrəklikdən onun həqiqətən halına yandığını duyub yerində quncuxmuş, kədərli gözlərini ona sarı döndərib:

— Eh, Simin, — demişdi. — Kaş qibləgahımın əvəzinə mən öləydim, kaş mən öləydim, Simin.

— Elə demə, xanım. Allaha acıq gedər. Siz hələ cavansınız, xanım...

Elə bil, Zərrintac bu sözlərə bənd imiş, dolmuş gözlərinin selini-suyunu saxlaya bilməyib hönkürtü içində:

— Mən bədbəxtəm, Simin! — demişdi...

***

Siminbər mətbəxdə idi, Zərrintacın stəkan-nəlbəkisini yuyurdu və şirdəhəndən[1] axan soyuq suyun şırıltısı altında xanımının bayaq dediyi «Mən bədbəxtəm, Simin!» sözlərini təkrar-təkrar eşidir, səsindəki kədəri, əlacsızlığı, acizliyi xatırlayır, ona yazığı gəlirdi. Dağ boyda atası əlindən getmişdi, öz səadətini, xoşbəxtliyini özü qapısından qovmuşdu. Xanım dilinə gətirməsə də, danışığından, fikirli-qayğılı gəzib-dolanmasından hiss eləyirdi ki, o, Elməddinin qayıtmasını gözləyir, hər gün, hər saat gözləyir. Peşman olub. Hirsini-hikkəsini boğa bilən adam deyildi, ağlına gələni dilinə gətirən idi. Bu hərəkət, bu söz nə nəticə verə bilər — qarşısındakını öldürərmi, küsdürərmi — fikirləşməzdi, deyəyrdi, eləyərdi. Sonra isə peşman olardı. Ancaq deyilən sözü geri qaytarmaq, sınmış ürəyi təzədən yamamaqmı olur?... Siminbər bu xanimanda yaşadığı bir neçə ay ərzində xanımını belə tanımışdı; ona indi yazığı gəlsə də, Elməddin kimi ipək təbiətli, həlim, mehriban bir adama elə sərt üz göstərməsi, qışın qarlı-şaxtalı günündə evdən qovması, qapını üzünə açmaması qızın hər yadına düşəndə od tutub yanırdı, içini yandıran qəzəbi boğsa da, ürəyində deyirdi: «Öl, əcəb oldu. Elə bəlkə atan da ona görə öldü ki, elə insanın ürəyini qırdın. Göydən Allah baxmır? O kişi heç kəsi pis əməlinə görə cazasız qoymur, xanım! Elməddin yaxşı eləyir, qayıtmır. Mən də olsam qayıtmaram».

Ancaq qəlbinin dərinliklərində o, Elməddinin bir də bu evə qayıtmasını arzulayırdı, heç olmasa qısa müddətə, heç olmasa bir günlüyə, bir saatlığa. Bu, qızın onu görmək istəyi idi və istək bəzən o qədər güclü olurdu ki, darvazaya baxmaqdan, hər maşın səsi eşidərkən səksənib pəncərədən küçəyə boylanmaqdan yorulandan sonra, baş götürüb buradan qaçmaq, Elməddinin işlədiyi yerə getmək, ona uzaqdan-uzağa, heç nə demədən baxmaq istəyirdi. Lakin bunu bacara bilmirdi. Onda qız, mətbəxdə, xəlvətdə gizlədiyi «Əfsanəli

[1] Şirdəhən — kran.

mahnılar»ı götürür, oradakı yazıları dönə-dönə oxuyurdu—şerlərin çoxunu əzbər bilirdi: hərdən onlardan birini mahnı kimi dodağaltı zümzümə eləyirdi. Sonra, kitabın arasında saxladığı şəkli — qarlı bir qış gecəsində, getməmişdən xeyli qabaq Elməddinin çəkdiyi rəsmi açıb baxar, baxar, doymaq bilməzdi...

O gecə Siminbərin başından-ürəyindən silinib getmirdi, şirin bir xatirə kimi yaşayır və onu da yaşadırdı. ...Elməddin ehmalca mətbəxin qapısını açdı və... divarları daş kömürün hərarətindən pul kimi qızarmış dəmir buxarının dibində, dizlərini qarnına yığmış, donunu ayaqlarının ucuna qədər çəkmiş, əllərini dizləri üstünə qoyub boynunu bükmüş Siminbəri görəndə... nədənsə özünü itirən kimi oldu. Qız fikrə getmişdi, qızarmış dəmirə baxırdı. Buxarının hərarətindən yanaqları qıpqırmızı qızarmışdı, saçının biri sağ çiynindən aşağı sürüşüb düşmüşdü. Dərin xəyala daldığından qapı aqzında dayanıb heyran-heyran ona baxan Elməddinin gəldiyini də hiss eləməmişdi. Bu şairənə mənzərə Elməddini elə cəzb edib əfsunlamışdı ki, o, nəfəsini dərməyə, cınqırını çıxarmağa belə qorxurdu. Anlar əriyib keçirdi, o isə sehrlənmiş kimi yerindən tərpənə bilmirdi.

Siminbəri həbsxanadan gələndən sonra, demək olar ki, hər gün görürdü. Yemək gətirəndə, çay verəndə, süfrə yığışdıranda... Ancaq heç fikir verməmişdi, ona uşaq kimi baxmışdı. Atası evindən gələrkən əynində olan paltarı da Zərrintac səxavət göstərib dəyişmişdi, ona təzə don, baş yaylığı almışdı. Buna baxmayaraq o, Elməddinin nəzərində uşaq olaraq qalmışdı. Lakin indi, bu axşam... o Elməddinə ayrı cürə — qəşəng, böyük, gözəl qız kimi göründü nədənsə... heç özü də bilmədi necə oldu — qəlbinin dərinliyində ilıq, məhrəm bir hiss qımıldandı. Buna heyrətləndi. Bir də buna heyrətləndi ki, azca əvvəl arvadı ilə elədiyi qanqaraldan söhbət də və bu söhbətdən sonra haradansa gəlib yadına düşmüş Əfsanə də unudulmuşdu. Fikrində ürəyində nə Zərrintacın hirsi-hikkəsi qalmışdı, nə Əfsanənin xəyalı, xatirəsi... O indi, ancaq və ancaq Siminbəri, onun şairanə oturuşunu görürdü, başqa heç nə barədə düşünə bilmirdi.

Özündən xəbərsiz köks ötürdü və bu incə hənirtini duyan qız hürkmüş ceyran kimi başını qaldırdı, səs gələn səmtə boylananda... Elməddini gördü. Nəzərləri bir anlığa tuş oldu. Bütün bu aylar ərzində ilk dəfə idi ki, onlar beləcə göz-gözə baxırdılar. Siminbər, yəqin ki, özündən asılı olmayaraq, mehriban-mehriban gülümsünəndə, Elməddin də eyni şirin təbəssümlə ona cavab verdi. Sanki ikisi də sehrlənmişdi — nə qız yerindən qalxırdı, nə Elməddin qapının çərçivəsindən çiynini çəkib tərpənirdi. Nəhayət, daxili bir təkanın təsiri altında, ehmal addımlarla irəli yeridi. Ancaq bu zaman Siminbər ayağa durdu, məktəbli uşaq müəllimini görəndə əlini yanına salan kimi, qollarını aşağı saldı.

—Niyə indiyənəcən yatmamısan, Simin? — deyə nəhayət Elməddin aradakı ağır və eyni zamanda ləzzətli sükutu pozdu. Siminbər eynən bayaqkı mehribanlıqla (amma indi o təbəssümə azca da təşviş qarışmışdı deyəsən) gülümsünə-gülümsünə!

— Elə-belə, ağam. Yuxum gəlmir! — dedi.

— Nə fikirləşirdin, Simin?— Elməddin bu dəfə «Simin» sözünü elə şirin, elə məlahətlə söylədi ki, qızın ürəyi əsdi içəridə. Bu vaxta qədər heç kəs onun adını belə şirincə şəkildə dilinə gətirməmişdi — hətta doğma ata-anası da... Və bu, ona xüsusi ləzzət elədi. Elə olanda da qız bütün vücudunda nəyinsə dəyişdiyini yeni, maraqlı bir duyğunun — qadınlıq duyğusunun baş qaldırdığını, yarandığını tutqun-tutqun hiss elədi, ancaq mahiyyətini başa düşə bilmədi. Bircə-onu bildi ki, daha o uşaq deyil, bircə onu duydu ki, qabağında dayanan da sadəcə Elməddin deyil, kişidir, bəli kişidir. Və o, ilk dəfə Elməddinə məhz indi kişi kimi baxdı. Üzünün qızartısı daha da artdı — sifətinə elə bil, köz yapışdırırdılar. O, simasında əmələ gələn bu dəyişiklikdən utanaraq başını aşağı saldı, xırdaca, nazik donunun sinəsini qabardan döşünün üstündən sürüşüb sallanan xurmayı saçının ucunu oynada-oynada:

— Heç nə, ağam, heç nə...—deyə bildi.

Elməddin onu təpədən-dırnağacan oğrun-oğrun süzdü. Xurmayı saçları, nar çiçəyi kimi qızaran yanaqları, qəşəng alnı, düz, mütənasib burnu, xırdaca ağzı, əndamı, ayaqları. Heç nə, heç nə onun gözlərindən yayınmadı. Və Elməddin qeyri-iradi olaraq pıçıldadı:

— Nə qəşəng imişsən, ay ölməmiş... — dedi.

Bu sözlərdən... Siminbərin yanaqları daha da allandı və o, baxışlarını qaldırıb Elməddinə utancaq bir nəzər saldı. Bu ani baxışda o, qız qəlbinin dərinliklərindən gələn bir minnətdarlıq oxudu... Gözlənilmədən, düşünülmədən yaranmış bu vəziyyət birdən-birə Elməddinə yersiz — təhlükəli göründü və o, özünü ələ alıb:

— Çayın varmı? — deyə xəbər aldı...

— Bu saat, ağam. Siz gedin işləyin, mən sizə təzədəm çay gətirərəm, ağam...

Elməddin ona baxmamağa çalışaraq qanrılıb çıxdı. Ancaq Siminbərin son sözləri içində «Siz gedin işləyin» kəlmələri nə üçünsə ona xüsusi ləzzət verdi... «Siz gedin işləyin...» Elməddin yazı masasının arxasında oturanda da qızın bu sözlərini eşidirdi... «Siz gedin işləyin...» «Nə işləyim, Simin! Məni işləməyə qoyurlar? Nadan əlinə düşmüşəm. Sənin bu Zərrintac xanımın məni başa düşmür, Simin!»

Belə düşünə-düşünə qara qələmlə ağ kağız üzərində nə isə çəkirdi. Nə isə yox. O, Siminbərin şəklini yaradırdı. Buxarı, pul kimi qızarmış buxarı... Buxarı üstündə çaydan... Yanında da, bir az əvvəl gördüyü vəziyyətdə... Siminbər... Burda təxəyyül lazım deyildi. Elməddin ağ kağıza həyatın gözəl, şairanə bir parçasını rəsm edirdi. On beş-iyirmi dəqiqə sonra, Siminbər əlində sini içəri girdi—çay gətirmişdi. Piyaləni, noğulu, çaydanı mizin üstünə düzdü, başını qaldırmadan:

— Nuşican, ağam! — deyib getmək istəyəndə Elməddin sol əlini yuxarı qaldırıb asta səslə:

— Dayan, Simin,—dedi. Siminbər ayaq saxladı. Elməddinə utana-utana baxdı.

— Al, bunu sənə yadigar verirəm, Simin! —deyə vərəqi ona sarı uzatdı.

—Nədi bu, ağam?

— Bax, gör nədi.

Siminbər vərəqi gözünün önünə tutub tamaşa elədi.

— Bıy... bu ki, bizim buxarıdı.

— Hə, buxarı dibində oturan gözəl də sənsən, Simin.

— Bıy, necə də oxşayır, ay allah. Bıy, altında yazısı da var.

Bura nə yazıbsız, ağam? Qoy görüm? Hm... «Gözəl... Simin... buxarı qırağında...»

Siminbər başını qaldırıb Elməddinə minnətdarlıqla dolu bir nəzər saldı.

— Xoşuna gəlir?

— Hə, ağam. Çox gözəldi. Sağ olun. Əziyyət çəkmisiniz, ağam. İndiyəcən heç kəs mənim şəklimi çəkməyib.

Elməddin görürdü ki, qızın seviici yerə-göyə sığmır; əli titrəyirdi. Bunu o tək vərəqin əsməsindən başa düşürdü. Yan otaqda Zərrintac öskürdü. Hər ikisi səksənən kimi oddu. Yataq otağının qapısına tərəf baxdılar. Siminbər, indicə xanımın gecə köynəyində qapı ağzında görünəcəyindən ehtiyat edərək, tələsik:

— Gecəniz xeyrə qalsın, ağam! — deyib getmək istərkən Elməddin pıçıltı ilə:

— Xeyrə qarşı, Simin — söylədi və yenə yataq otağının qapısına tərəf baxıb əlavə elədi: — Ancaq onu elə saxla ki, xanımın əlinə düşməsin... yoxsa...

— Hə, hə, ağam. Arxayın ol!.. — Və elə oradaca qız kağızı iki büküb qoynunda gizlədi, Elməddinə baxmadan, demək olar ki, qaçdı...

...Xəyal, arzu bəzən həqiqət olur: Siminbər bu şirin xatirəsini, kim bilir, neçənci dəfə yad edib fikrən yaşamışdı ki, darvazanın yanında maşın dayandı. Qız ürək çırpıntısı ilə pəncərədən boylanıb baxanda... Elməddini taksidən düşən gördü və ayaqyalın, başıaçıq özünü həyətə atdı. Ürəyi şiddətlə döyünürdü. Əli əsə-əsə qapını açdı, Elməddini qarşısında görüb sonsuz bir sevinc içində:

—Xoş gəlibsiz, ağam, xoş gəlibsiz, ağam. — dedi. Elməddin ilıq, şirin bir baxışla onu süzdü, üz-gözünə yazılmış sevinci oxudu və bu fərəh, istər-istəməz ona da sirəyət elədi, Zərrintac xanımla eləməli olacağı: açıq, qəti söhbətin ağır nəticələrini də bir anlığa unudub şadlıqla:

— Xoş gördük, Simin! — dedi. Necəsən, Simin?

— Yaxşıyam, ağam? Təki siz yaxşı olun. Elməddin gümrahlaşdı, zarafata salıb:

— Maşallah, böyümüsən, bir az da qəşəngləşmisən! — söylədi. — Heç məndən sarı darıxmamısınız?—Elməddinin bu sualı Siminbərin ürəyincə oldu lap: çünki istəyirdi desin ki, ağam, səndən sarı bərk darıxmışdım! — ancaq sözləri dilinin ucunda ilişib qalmışdı. Həya eləyib ürəyindən keçəni deyə bilmirdi. Göydən düşən bu fürsəti itirmək istəmədi Siminbər:

— Darıxmışıq, ağa. Çox darıxmışıq. Elməddin gülə-gülə:

— Darıxmışıq, ya darıxmışam? — deyə xəbər alanda Siminbər bir anlığa duruxdu, nə cavab verəcəyini bilmədi. Elməddin izah elədi:

— Yəni deyirəm ikiniz də mənim üçün darıxmısınız, ya tək sən darıxmısan, Simin?

Qız ağanın mətləbini indi başa düşdü;

— İkimiz də, ağam, ikimiz də. Xanım da, mən də...

— Xanımın darıxmağına inanmıram — o, ciddiləşdi. — Bəlkə sən...

— Hə, mən də çox darıxmışam, ağam.

Elməddin yanınca addımlayan Siminin çiyninə, kürəyinə tökülmüş saçlarına əl çəkdi:

— Mən də sənin üçün darıxmışdım, Simin!

Qızın nitqi batdı, ayaqları taqətini itirdi və o, Elməddindən geri qaldı. Siminbər ona arxadan baxdı: onun şax yerişi, enli kürəyi gözlərinin qabağında idi—əynindəki qara kostyum, qara ayaqqabı ona çox yaraşırdı və Siminin qəlbini nəhayətsiz bir sevinclə doldururdu.

Elməddin geri qanrılıb:

— Evdədi? — deyə yuxarıya işarə elədi.

— Hə, ağam! Yatıb. Qoy bu saat çağırım...— deyərək pillələri qaça-qaça yuxarı çıxdı.

...Zərrintac xanım divanda, qıçlarını altına yığıb oturmuşdu. Yuxulu idi, hələ tamam-kamal ayılmamışdı. Tez-tez əsnəyirdi. Əsnəyəndə əlini ağzına tutur, xalatının ətəyini açıq dizinin üstünə çəkir, yaxasını düzəldirdi. Elə bil, naməhrəm bir adamın qarşısında idi. Elməddin isə kresloda, onun qarşısında əyləşmişdi. Aradakı kiçik mizin üstünə Siminbər iki piyalə, dolu çaynik və noğul qoyub mətbəxə çəkilmişdi. Zərrintac xanımın Elməddinə «xoşgəldin» elə-

məməsi aradakı gərginliyi daha da artırmışdı. Əhvali-ruhiyyəsindən, susmasından məlum olurdu ki, Zərrintac xanım bu görüşə o qədər də əhəmiyyət vermir. Ancaq Elməddin gəlmişdi və danışmalı idi. Fikrini ona deməli idi. Ona görə də, piyalədəki çaydan bir qurtum içib:

— Güzaranın necədir, Zərrintac xanım? — deyə xəbər alanda Zərrintac xanım yenə açılmış dizinin üstünü örtməyə çalışıb:

— Əladır, — söylədi, — heç nədən və heç kəsdən şikayətim yoxdur.

Səsindəki kinayə aşkar duyulurdu:

— Təki olsun...

— Sağ ol.

Araya sükut çökdü. Elməddinin fikirlərini onun bu saxta təsir bağışlayan qüruru vurub dağıtdı, duruxdu, çaydan yenə bir udum alıb piyaləni yerə qoyduqdan sonra:

—Gördüm dağ mənə sarı gəlmir, dedim mən dağa sarı gedim, — söylədikdə Zərrintac xanım açıq rişxəndlə:

— Dağın yerindən oynayıb bu gün burda, sabah orda olduğunu hələ heç kəs görməyib, — dedi.

— Düzdür. Odur ki, özüm gəldim.

—…

— Gəldim ki, bəzi məsələləri aydınlaşdıram. Zərrintac xanım qıçlarını aşağı saldı, çəkələklərini ayağına aldı:

— Əvvəl mən bəzi məsələləri aydınlaşdırmalıyam.

— Eşidirəm...

Zərrintac xanım başını silkələyib saçlarını arxaya ataraq yerini rahatladı:

— Ruznamənizyenə çıxır?

— Hə, çıxır!

— Bəs bağlatmamışdılar?

— Bağlatmışdılar.

— Təzədən çıxır?

— Bəli, təzədən Şəfi icazə aldı, İndi, beş-altı ay fasilədən sonra yenidən nəşr edir. Bilirsən, çox yaxşı ruznamədir. «Pərçəm»i camaat yaman oxuyur. Əl-əl gəzir, adamlar oxuyub bir-birilərinə

ötürür, tikə-tikə olunca mütaliə edirlər. — Yaxşı-yaxşı. Mən sənin üçün kətçi-kütçü deyiləm təbliğat aparırsan.

— Mən həqiqəti deyirəm, Zərrintac xanım, təbliğat aparmıram.

— Bəs... Şəfiyə dərs olmadı? Dırnaqlarını çıxartdılar, dişlərini vurub tökdülər—niyyətindən əl çəkmir?

— Sən Şəfini yaxşı tanımırsan. Çox mərd, qorxmaz, dönməz adamdı. Məqsədi yolunda ölümə də gedər. Bəzi adamlar kimi hərdəmxəyal deyil. Mən o cür mərd adamları xoşlayıram. Dünya elə kişilərin üstündə qərar tutub, məncə. — Bilirəm, Şəfi sənin gözünə yaman kül üfürüb. Vurulubsan ona. Nəticəsini isə gördük. Neçə ay dörd divar arasında dizlərini qucaqlayıb oturduğun, gərək ki, yadından çıxmayıb. Mərhum qibləgahım olmasaydı, yəqin ki, hələ də həbsxana güncündə çürüyürdün.

Bu sözlər Elməddini yamanca tutdu; pərt halda Zərrintaca baxıb dişlərini qıcadı, nə isə demək istədi, ancaq susmağı lazım bildi.

— Şəfi sənin başını cəfəngiyyatla elə doldurub ki, gözün ayağının altını görmür. İş o yerə çatıb ki, məndən də yazmağa başlamısan. Utanmadan, qızarmadan. Məndən utanmadın, utanmadın, bəs o kişidən—çörəyini yediyin, paltarını geydiyin, kölgəsinə sığındığın qibləgahımdan utanaydın heç olmasa?

—…

— Dillənmirsən? Sözün yoxdu? «Həqiqət», «həqiqət» deyirsən. Bu da həqiqətdir də. Niyə susursan?

— Zərrintac xanım, sən bir şeyi başa düş ki, o, hekayədir, tək səni nəzərdə tutmamışam: Dünyada o qədər elə nadan adamlar var ki...

— Nadan özünsən. Bildin?

—…

— Bildin, özünsən nadan!

— Mən bura sənlə dava eləməyə gəlməmişəm. Zərrintac xanım durub gəzindi, pəncərədən həyətə nəzər saldı, sonra nə fikirləşdisə, gəlib yerində oturdu:

— Sözümün canı odur ki, həbsxanaya düşməyin, o hekayə əhvalatı sənə dərs olmadı. Gərək nə qədər axmaq adam olasan ki, bu

qədər yaxşılıqdan, izzət-ehtiramdan sonra sən ağayi Nəcməddinə, onun qızına hörmətsizlik edəsən; xəyanət edəsən.

— Mən ağayi Nəcməddinə heç bir xəyanət eləməmişəm, xanım. Mən elə namərd deyiləm.

— Nə fərqi var, mənə ki eləmisən!

— Sənə də xəyanət eləməmişəm.

— Bəs o hekayə xəyanət deyil, səncə?

— Yox. Sən hekayənin nə demək olduğunu bilsəydin, belə düşünməzdin, xanım. Təəssüf ki, bilmirsən nədir hekayə?!

— Heç bilmək də istəmirəm. Kor-kor, gör-gör. Gecə mənimlə bir yastığa baş qoy, gündüz get məni bütün məmləkətdə biabır elə ki, mənim arvadım nadandı. Sən mənim kim olduğumu nahaq unutdun — bu, sənə baha başa gələcək. Başa düşməli idin ki, sənin vəzifən belə axmaq-axmaq işlər deyildi. Sən bir milyonerin kürəkəni idin — o da bütün karxanalarını, şirkətlərini sənə tapşırmışdı. Sən elə yarımpadşah idin. Hayıf ki, bunu başa düşmədin, düşmək istəmədin. Hər nə elədinsə, özünə elədin. Yel qayadan nə apara bilər ki?

—…

— Yenə o ruznamədə iştirak eləyirsən?

— Hə.

— Demək, sən mənim sözlərimi heç vecinə də almırsan, eləmi? Bu qulağından alıb - o qulağına verirsən, eləmi? İndi ki belə oldu, onda qulaqlarını yaxşı aç, yaxşı eşit. Sən axmaq, qaragüruhçu dəstə ilə, bu yazı-pozu ilə birdəfəlik qurqarmalısan, eşidirsən? Ya mən, bu cah-calal, bu milyonlar — ya da... ya da onlar, sənin qələmin, kağızın. Başa düşdün?

—…

Elə bil onun başına qaynar su tökdülər, bütün vücudu pörşələnib yandı. Bu ağır, sarsıdıcı hökmdən qıçları əsdi, bədəni uçundu. Bu, ona ölüm hökmü kimi ağır və amansız görünürdü. Xeyli nə edəcəyini, nə deyəcəyini bilmədi, çaşqın-çaşqın Zərrintacın qəzəbli sifətinə, parıldayan gözlərinə baxdı, baxdı. Fikri çözələndi, xəyalı qanadlandı — ömrünün bəxtəvər günləri, doğma kəndləri, Əfsanəsi yadına düşdü; səadətdən başqa hər şeyi olan bu cah-calallı ev-eşik, maşın, vəzifə, milyonlar unuduldu, kasıb daxmalarında hiss elədi

özünü. Haradasa anası ona çay gətirdi, haradasa Əfsanənin həsrətli baxışları zilləndi ona, haradasa toy çalındı, sonra Yusifin məzarı göründü gözlərinə… Sonra isə... Əfsanənin səsi gəldi qulaqlarına, kədərli, doğma səsi, nəsə deyirdi, ancaq o başa düşmürdü... Daha sonra xəyal qırıldı, Zərrintac xanımın hökmlü sözləri eşidildi: «Ya mən, bu cah-calal, bu milyonlar—ya da... ya da onlar, sənin qələmin, kağızın!»..

Elməddin baxışlarını qaldırdı və qətiyyətlə:

— Onlar Zərrintac xanım, onlar mənim dostlarım, mənim qələmim, kağızım, Zərrintac xanım!!! Sən bunu başa düşməyə qadir deyilsən, ola da bilməzsən. Sən məni balıq kimi dəryadan çıxarıb torpağın üzərinə atırsan və deyirsən ki, yaşa! Balıq susuz yaşaya bilmədiyi kimi, mən də dostlarsız, qələmsiz yaşaya bilmərəm. Sən elə bilirsən ki, mərhum atanın gözqamaşdıran var-dövləti, milyonları, bu süslü saraylar mənim üçün əqidəmdən, məsləkimdən qiymətlidi? Yox Zərrintac xanım. Yox! Yox! — Bu son sözləri o, demək olar ki, qışqıra-qışqıra söylədi və özü də buna təəccüb elədi. Və ayağa qalxdı: —Mən gedirəm, həmişəlik gedirəm.

—…

Zərrintac xanım söhbətin belə şəkil alacağını ağlına da gətirmədiyindən çaşıb qalmışdı—eləcə, heyrət dolu baxışlarla ona baxır və susurdu. Elməddin isə ciblərini axtarırdı. Nəhayət:

— Hə. Tapdım. Bilirəm, bir məsələdən yaman çox nigaransan.

—…

— Buyur, Zərrintac xanım, bu mənim imtina məktubumdur. Mən mərhum ağayi Nəcməddinin adıma yazdırdığı milyonlardan könüllü surətdə imtina eləyirəm. — İmzalamışam, möhürləmişəm. Mənə o kişinin xoş xatirəsindən başqa heç nəyi lazım deyil. — O, kağızı stolun üstünə qoydu.

—…

— Hə, bu da Dəftərin açarıdır. Xahiş edirəm sabahdan məni işimdən azad edəsiniz...

— Başqa bir sözünüz yoxdur ki?

—…

— Hə, talaq... Talaqı da sabah həll edərik. Yox, elə bu gün. Sabaha niyə qalsın ki?!

—…

O, yenə ədəblə baş endirdi, otaqdan çıxdı. Zərrintac xanımın dili tutuldu. Təkcə gözləri parıldayırdı… Azca sonra o parıltılı gözlərdən yaş axmağa başladı».

ÜÇÜNCÜ FƏSİL

Şəfi, həbsxanadan çıxandan sonra, xeyli müddət özünə gələ bilməsə də, dostlarının ürək-dirək verməsi, Məleykə xanımın fədakar qulluğu sayəsində, nəhayət, dirçəlmişdi, kökəlmişdi. Dişlərini düzəltdirmiş, zarafatla hərdən dediyi kimi, daha adam içinə çıxan olmuşdu. Onu tanıyanlar görürdülər ki, Şəfi zahirən əvvəlki Şəfi idi: ancaq tək o özü bilirdi ki, batində, içərisində nə isə qırılmışdı, onu sındırmışdılar — təkcə dişlərini yox, mənliyini də, şəxsiyyətini də sındırmışdılar. Qəlbində yıxmağa, uçurtmağa, məhv etməyə çalışdığı bu mənfur dünyaya qarşı bəslədiyi nifrət, qəzəb daha da çoxalırdı — yaşamaq, mübarizə aparmaq üçün bu nifrət bütün ömrü boyu bəsi idi. İndi, o, başa düşürdü ki, dünyada təkcə məhəbbətlə yaşamaq mümkün deyil — yaşamaq və qalib gəlmək üçün nifrət etməyi də bacarmaq gərəkdir. Məhəbbət kimi, nifrət də insanı güclü və qüdrətli eləyə bilər. Qəzetini yenə nəşr edirdi. Cəmiyyətdə, həyatda gördüyü qüsurları, yaramazlıqları qorxmadan, çəkinmədən qələmə alır, sözünü deyir, hezbin[1] məramını oxucularına çatdırırdı. Doğrudur, o, indi bu işləri, qabaqlarda olan kimi, birbaşa, açıq-saçıq yazmırdı, düşünüb-daşınıb yeni formalar tapır, böyük mətləbləri az sözlə, kiçik işarələrlə bəyan eləyirdi. Bəbir, Ziyaülhəqq, Elməddin bu işdə onun ən yaxın köməkçiləri, məsləhətçiləri idi. Onlar bütün qüvvələrini qəzetin vaxtlı-vaxtında və sanballı çıxmasına sərf edir, gecə-gündüz işləyir, yoruldum demirdilər. Bəbir gizli iclaslarda, görüşlərində dönə-dönə tapşırırdı ki, son dərəcə ehtiyatlı olmaq lazımdır, nəyin bahasına olursa-olsun, ruznaməni yaşatmaq gərəkdir, çünki hələlik bizim yeganə silahımız odur. Onu itirmək, hər şeyi itirmək deməkdir,

[1] Hezb — partiya.

kütlələrlə əlaqəni kəsmək deməkdir. Bu isə bizim üçün ölümə bərabərdir.

Buna görə də Şəfi bütün imkanlarını, bacarığını ancaq və ancaq qəzetin yaşamasına sərf edirdi və bundan xüsusi bir zövq alırdı. Yorğunluq, yuxusuzluq, işin çoxluğu onu əsla qorxuzmurdu. O, təkcə Elməddindən nigaran idi — çünki son vaxtlar Elməddin gözünə birtəhər görünürdü—fikirli, qayğılı, qanıqara. Evdə Məleykə ilə bu barədə dəfələrlə söhbət olmuşdu. Məleykə qadın həssaslığı ilə Elməddinin qanıqaralığını evlə, ailə ilə bağlamışdı.

İndi «Pərçəm»in redaksiyasında, Elməddinlə üzbəüz oturan Şəfinin fikri-zikri ancaq bu idi ki, onun dərdini öyrənsin, qarnının altındakını bilsin. Elməddin yenə tutqun idi. Gizlənməyə çalışsa da, gözlərindəki kədəri Şəfi aydın görürdü. Elməddinin əzablarının üstünə indi bir əzab da əlavə olunmuşdu; o, ailə həyatı kimi mühüm məsələni həll edərkən təkbaşına hərəkət etmişdi. Qardaş hesab elədiyi Şəfiyə, bacı dediyi Məleykə xanıma heç nə söyləməmişdi. Srağagün kəbinini də geri oxutdurmuşdu — Zərrintacdan, demək olar ki, tamamilə üzülüşmüşdü. İşinn də, idarəni, haqq-hesabını, seyfi, gecələr yatdığı tək otağı da təhvil vermiş, «kəbinim halal, canım azad» deyib rahatlanmışdı. İndi Elməddin, neçə il əvvəl bura gələrkən olduğu vəziyyətdə idi — nə ev-eşiyi vardı, nə işi. Fərq bircə bunda idi ki, indi onun dostları və pulu vardı. Vəssalam! Dostlarına da bu boyda işi deməmişdi, onlar buna necə baxacaqdılar? İnciyəcəkdilərmi? Elməddini bu suallar üzürdü. Lakin qəlbinin dərinliyində düzgün hərəkət elədiyinə əmin idi — bu, azca da olsa, ona təsəlli verirdi.

Şəfi mətləb üstünə gəlmək üçün uzaqdan başladı:

— Hə, Elmi, belə-belə işlər. Bizim ümumi fəaliyyətimiz, ruznaməmizin müvəffəqiyyəti məni çox sevindirir. Bu saat bizim ruznaməmiz kimi oxunan, əl-əl gəzən ikinci bir ruznamə tapmaq mümkün deyil. Bəlkə var, mən bilmirəm, hə?

—Yoxdu, ustad. Şəbnamələrimiz[1] də camaat arasında maraqla oxunur.

[1] Şəbnamə — inqilabi vərəqə.

— Görəsən, — mənim üçün maraqlıdı, — sənin Zərrintac xanımın bu işlərə necə baxır, Elməddin?

Elməddin Zərrintacın adını eşidən kimi, yerində qurcalandı, siqaret yandırdı:

— Eh, ustad. Zərrintac xanımın işi.uzun dəsgahdı.

— Niyə ki?

— O, ruznamə-filan oxuyan deyil, ustad.

— Pis tərbiyə eləmisən, Elmi. Öyrətməmisən.

— Gecdi, ustad.

— Neyçün ki? Hələ cavandı, başa salmaq, öyrətmək olar.

Məncə, o qədər də qabiliyyətsiz olmasın gərək Zərrintac xanım. Elməddin ustadın üzünə baxdı, hiss elədi ki, məsələni daha gizlətməyin heç bir mənası yoxdur. Gec də olsa, demək lazımdır. Odur ki, siqaretin kötüyünü külqabına basıb:

— Ustad, — dedi və udqundu, — ustad, mən neçə gündü sizinlə elə bu barədə danışmaq istəyirəm, ancaq bacarmıram. Utanırammı, xəcalət çəkirəmmi, bilmirəm.

— Axı nə olub? Danış görək!

Elməddin əhvalatı necə olmuşdusa, yerli-yataqlı, bütün təfsilatı ilə ustadına nağıl elədi. Şəfi eşitdiklərinə inanmaq istəmədi, ancaq Elməddinin yana-yana, kədər dolu bir səslə danışdığını görəndə bütün bunların həqiqət olduğuna inandı və dilxor oldu. O da siqaret yandırdı, Elməddinin üzünə baxıb fikrə getdi. Nəhayət, ah çəkib dedi:

— Mən hiss edirdim. Sən sözlü, dərdli adama oxşayırdın. Ancaq dərdini nədənsə bizdən gizlədirmişsən. Məleykə bacının da, mənim də xətrimə dəyir bu? Axı biz sənə yad adamlar deyilik. Sən bizdən gərək heç nə gizləməyəsən, Elmi.

— Düzdü, ustad. Mənim sizdən başqa kimim var ki? Sadəcə istəmirdim sizə dərd verim. İndiki zəmanədə dərdsiz-qayğısız adam yoxdu, ustad. Əvvəl deyirdim keçib gedər. Amma gördüm yox. Uçurum getdikcə dərinləşdi, dərinləşdi. Axırı da ki, belə.

— Təəssüf, min təəssüf. Mən Zərrintacı bu qədər nadan və belə qürurlu bilməzdim. Baxırsan, mədəni, müasir qızdır. Ancaq sən demə...

— Hə, ustad, sən demə, buynuzları içəridə imiş. Mən heyfsilənmirəm, ustad, ondan ayrılmağıma. Mən ömrümü onunla çürüdə bilməzdim. O məni qətiyyən başa düşmürdü, ustad. Nəylə yaşayıram, nəylə nəfəs alıram — maraqlanmırdı. Üzr istəyirəm səndən, mən onun üçün ancaq və ancaq bir kişi idim. Mən ona ancaq gecələr, ipək yorğan-döşəyində lazım olurdum. Vəssəlam. Mən olmayım, başqa kişi olsun — onun üçün fərqi yox idi. Bəzən lap heyrət eləyirdim: elə gözəl, zərif qız olasan, şeri, sənəti sevməyəsən, anlamayasan, qiymətləndirə bilməyəsən — savadsız olsaydı, məni o qədər yandırmazdı, deyərdim oxumayıb, qanmır. Əfsanə biçarə savadsız idi, güclə yazıb-oxuya bilirdi. Onunla belə mən evdə olmayanda şer dəftərimi tapıb yazılarımı əzbərləyərdi, sevinərdi mən şer oxuyanda. Yaxud Dünya xanım şer ölüsü deyildimi? Ağayi Nəcməddin şersiz onun yanına getməyə ehtiyat eləyirdi. Nəcməddin kimi şerpərəst, əhli-zövq bir kişinin qızı bilmirəm niyə belə kobud, bədrəftar, incə hisslərdən məhrum olsun. Ha fikirləşirəm, başımı sındırıram, axırını bir yana çıxarda bilmirəm, ustad.

— Doğrudan da qəribədir.

— Məni bilirsiz niyə qovdu ilk dəfə evdən?

— Yox.

— «Nadanlıq» hekayəsinə görə.

— «Nadanlıq» hekayəsinə görə? O ki yaxşı hekayədir, balam.

— Məsələ onun yaxşı, ya pis olmasında deyil. Çoxdan, biz təzə evlənəndən sonra belə bir əhvalat olmuşdu: kağız-kuğuzumu stolun üstündə qoyub işə getmişdim. Gələndə gördüm yoxdu yazı-pozum. Axtardım, yoxdu. Axırda haradan tapsam yaxşıdı? Zibil qutusundan. Sən demə, açıq pəncərədən külək vurur, vərəqləri salır yerə, o da süpürüb atır zibil qutusuna. Hirsləndim, əsib-coşdum. Nə desə yaxşıdı? Deyir çox böyük şey olub? Dünya-zad dağılmayıb ki? Balam, bu zəhrimarı özündən, öz başından yazmayıbsan? Kağız-qələm qıtlığı deyil ki. O kağız, o qələm. Zəhmət çək, otur, təzədən yaz. Elə bil başıma çəkiclə vurdular. Hələ indiyəcən məni heç nə belə yandırmamışdı, ustad.

Şəfi qəmli-qəmli gülümsündü:

— Doğrudan da nadan imiş bədbəxt!

— Nadan dedin qoydun?! Sonra mən özümü saxlaya bilməyib siz çap eləyən o «Nadanlıq» hekayəsini yazdım. Çap olunan günü...

— Sənət adamının arvadı sənət pərəstişkarı olmalıdı. Elməddin. Ruhən şair olmasa da, heç olmasa zövq əhli olmalıdı. Ərinin ilk tənqidçisi, ilk oxucusu, ilk məsləhətçisi olmalıdı, yaxşı sirdaş, köməkçi olmalıdı, qardaşım. Bunları da bacarmasa, heç olmasa kitabxanaçı, arxiv müdiri təbiətinə malik olmalıdı ki, sənin yazdıqlarının yerini bilsin, onları qoruyub saxlaya bilsin. Bunların heç biri görünür, Zərrintacda yoxmuş.

— Bəli, yox idi, ustad, yox idi.

— Bu barədə mənim Məleykəmdən olmaz. Yazıq ömrünügününü mənə həsr eləyib. Demək olar ki, o, özü üçün yaşamır, Elməddin; o, mənim fədakar Məleykəmdir. Gecə səhərəcən işləsəm, o da yatmır, tez-tez gəlir, baş çəkir, çayımı verir. Hər hansı yazımı qurtaran kimi ilkin ona oxuyuram, məsləhətinə qulaq asıram.

— Siz xoşbəxtsiniz, ustad, sizin xoşbəxtliyinizin təqribən yarısı Məleykə xanımdandır, ustad. Şəfi güldü:

— Yox, səhv eləyirsən, Elməddin. Mənim xoşbəxtliyimin hamısı ondandır. Bilirsənmi, o, mənim əsərlərimin altında imzasını yazmaqdan könüllü surətdə imtina eləyən ikinci fədakar müəllifidir.

DÖRDÜNCÜ FƏSİL

Oğlu ilə barışandan sonra sanki qıvraqlaşıb cavanlaşmış Əziz xan «Pərçəm» qəzetinin darmadağın edildiyi, Rəhgüzərin, Elməddinin həbs olunduğu o ağır günlərdə, həftələrdə, aylarda Bəbirin necə sarsıldığını, canını qoymağa yer tapmadığını, gecəli-gündüzlü ora-bura qaçdığını, yeməyini-içməyini, hətta şirin yuxusunu belə özünə haram etdiyini görüb bir ata kimi çox nigaran olmuşdu. Əvvəllər guşənişin olub oturan, keçmiş illərin xatirələrini qələmə almaqla, günlərini keçirən və bazneşəstə[1] olandan sonra həyatında yaranmış boşluğu bununla doldurmağa çalışan qoca general, son

[1] Bazneşəstə — təqaüdə çıxmış.

aylarda özü də hiss etmədən məmləkətin siyasi hadisələrinə maraq göstərməyə, şəhərdə çıxan və bir-biri ilə ideya mübarizəsi aparan qəzetləri mütaliə etməyə, asudə vaxtlarında Bəbirlə bnr çox siyasi-itcimai məsələlər barəsində fikir mübadiləsi eləməyə başlamışdı. Bu söhbətlərdə məmləkətin ümumi iqtisadi-ictimai həyatının bir çox dumanlı, pərdəli məsələləri qoca generala aydın olmuş və mövcud quruluşu saxlayan möhkəm zəncirin hansı həlqələrinin sürtülüb incəldiyini, qırılmaq üzrə olduğunu anlamışdı. Qoca general bunu da başa düşmüşdü ki, onun gözünün ağı-qarası olan tək balası necə də həssas bir təbib məharəti ilə bu xəstə bədənin dərdini düzgün müəyyən edir, onun kəsilib atılması üçün heç nəyini əsirgəmirdi. Şəhərdə nəşr olunan qəzetləri hər gün böyük diqqətlə oxuyan Əziz xan görürdü ki, «Pərçəm» məsələlərə tam başqa nəzərlə—ayıq və kəskin bir mövqedən yanaşır və camaatı düşündürən nöqtələri işıqlandırmağa çalışır. Məhz buna görə idi ki, «Pərçəm»in tərəfdarları getdikcə artırdı və məhz buna görə idi ki, hökumət, baş nazirin göstərişi ilə, ilk növbədə «Pərçəm»i yaxalamış, onun baş mühərriri Məhəmməd Şəfi Rəhgüzəri və rəssamı Elməddini həbs etmiş, neçə ay davam edən sorğu-sualdan sonra, xalqın tüğyana gəlmiş qəzəbindən çəkinərək, nəhayət, azad eləmişdi. Əziz xan oğlu Bəbirin gücünü, nüfuzunu və onun başçılıq etdiyi təşkilatın qüdrətini ancaq bu zaman layiqincə anlayıb qiymətləndirmişdi. Şəfi və Elməddin həbs olunan günlərdə, Bəbir qolu-qanadı sınmış qartala dönmüşdü elə bil. Fikirli gəzib-dolanmış, üzü gülməmişdi. Rahatlıq nə olduğunu unutmuşdu. Çox vaxt gecələr də evə dönməmiş, vaxtını iclasda, gizli yığıncaqlarda keçirmiş, dara düşmüş yoldaşlarını xilas etmək üçün, azadlıqda qalan həmkarları ilə birlikdə əlindən gələni əsirgəməmişdi. Bu fədakarlıqlarını görəndə Əziz xan həm sevinmişdi, həm də nədənsə qəlbinin dərinliklərində bir gizli qorxu hiss eləmişdi. Ona görə sevinmişdi ki, Bəbirdə öz xasiyyətlərini, ürəyinin bir parçasını görmüşdü — dost, yoldaşcanlı idi Bəbir də onun kimi. Dostunu, yoldaşını darda qoymurdu, onların dadına çatmaq üçün canından belə keçməyə hazır idi. Əziz xanın fikrincə, bu, indiki zamanda böyük kişilik idi, mərdanəlik idi və həmin sifətə malik adamlar hər cür şərəfə, təhsinə layiq idi. Ona görə qorxurdu ki, yuxarıdan üzüaşağı

kükrəyib gələn bu siyasi tufan Məhəmməd Şəfi Rəhgüzər kimi şöhrətli, adı-sanı dillərdə gəzən bir şairi qabağına qatıb həbsxana güncünə ata bilmişdisə, Bəbir kimi cavan və hələ sən deyən bərkiyib bişməmiş bir adamı da öz qoynuna alıb daşa-qayaya çırparaq məhv edə bilər: burada zirək olmaq, çeviklik lazımdır ki, ələ keçməyəsən və dostlarını xilas eləmək üçün çarpışa biləsən. Bu qorxu son vaxtlar Əziz xanın qəlbində lap güclənmiş, kişinin rahatlığını pozmuşdu. Oğlu ilə görüşəndə, dərdləşməyə imkan tapanda qoca general tez-tez bu sözləri təkrar etməyi unutmurdu:

— Oğul, ehtiyatlı ol ki, bu gələn tufan səni də aparmasın. Xahiş edirəm, can oğul, özünü qoru.

Bəbir adəti üzrə mehriban-mehriban gülümsünməklə atasına cavab verir və onu arxayınlaşdırırdı.

Ancaq Əziz xan şəhərin küçələrində ucu-bucağı görünməyən izdihamı müşahidə eləyəndə, Şəfinin şəkillərini əllərdə görəndə, şerlərini bir-birini əvəz edən natiqlərin dilindən eşidəndə — bu qüdrətli nümayişin əzəmətini dərk eləyəndə oğlu sarıdan nigarançılığı qəlbini tərk etmişdi, sinədolusu nəfəs almışdı və hardansa ürəyinə sonsuz bir qürur hissi axıb dolmuş kişi, uşaq kimi sevinərək yerə-göyə sığışmamışdı. «Bu qüdrətin, bu qüvvətin qabağında heç kəs heç nə ilə dayana bilməz» — deyərək özü də fərqinə varmadan səsli-küylü izdihamın böyrüncə xeyli addımlamış və fəxrlə düşünmüşdü ki, bu izdihamın arxasında, onu təşkil eləyən, odlu-alovlu sözlərlə, şüarlarla «silahlandıran» bir qadir təşkilat var ki, onun da başında oğlu Bəbir dururdu. Nümayişçilərin, natiqlərin hər addımında, hər sözündə, qəzəbində, sevincində Əziz xan oğlunun ürəyinin bir parçasını, qəzəbini, sevincini görür, sözlərini eşidir, doğma nəfəsini duyurdu. Qoca general üçün bu əvəzsiz bir sevinc idi və uzun illərdən bəri heç nə, heç bir hadisə onda təzədən cavan olmaq, təzədən dünyaya gəlmək, yenidən yaşamaq arzusunu beləcə dərindən yaratmamışdı, qocaldığına beləcə dərindən təəssüflənməmişdi. Ancaq indi Əziz xan təəssüflənirdi. Lakin kim keçmişi geri qaytara bilərdi, kim yaşanmış ömrü geri qaytarmağa qadir idi, hansı böyük adam təzədən dönüb uşaq olmuşdu? Heç kim, heç vaxt...

Tufan artıq keçmiş, şəhərin tələtümü yatmış, zaman gərgin əsəbləri öz biganə və laqeyd nəfəsi ilə toxtatmışdı; Şəfi, Elməddin azad olunmuşdu, «Pərçəm» yenə öz sevimli oxucuları ilə dərdli-dərdli danışırdı, Bəbirin neçə vaxtdan bəri gülməyən üzü gülürdü, çatma qaşlarının düyünü açılmışdı. Əziz xan da oğlunun rahat olmasına tamaşa edib ata kimi fərəh içində yaşayırdı. Lakin qoca general hiss edirdi ki, bu rahatlıq, bu fərəh zahiri rahatlıqdı, zahiri əmin-amanlıqdı, müvəqqətidi. Mübarizənin böyüyü, kəskini, bəlkə də qurbanlısı hələ irəlidədir, necə deyərlər, bu xəmir hələ çox su aparacaqdı, bu torpaq hələ çox qanlar içmək üçün susamışdı.

— Yox, balam, dilinizə görə dilçəyiniz də varmış. Güclü imişsiniz! — deyə bu qış axşamında ata-oğul üzbəüz oturub dərdləşəndə Əziz xan oğlunu söhbətə çəkdi. Bəbir əlindəki qəzeti kənara qoyub atasına baxaraq gülümsündü:

— Nə barədə, qibləgahım?—atasının nəyə işarə elədiyini fəhmlə anlasa da, özünü o yerə qoymadı, istədi ki, kişi fikirlərini açıq söyləsin.

— O barədə ki, oğul! — deyə Əziz xan yerini rahatladı və sözünə davam etdi, — təşkilatınız güclü imiş, həmrəy imiş.. Düzü, mən əvvəllər sən deyən inanmırdım, şübhə ilə baxırdım.

— Təəssüf ki, sizin kimi bizim gücümüzə inanmayanlar, şübhə ilə baxanlar çox olub, hələ də var.

— Bu təbiidir, oğul. Başqalarını iiandırmaq üçün gördüyün işin haqq olduğuna gərək özün hamıdan çox inanasan, əmin olasan — ancaq onda sənə inana bilərlər, dalınca gedə bilərlər.

— Bəli, düzdür.

— Bu son hadisələrdən mənə aydın oldu ki, siz bu qüdrətə maliksiniz və xalq arasında məhbubiyyət qazana bilibsiniz. Bu, çox yaxşıdı, oğul, Xüsusilə sənin həbsxanaya düşmüş yoldaşlarının dəyanəti, mərdliyi məni heyran elədi. Həqiqətən çox dözümlü və ləyaqətli yoldaşların varmış, Bəbir. Ümumən həyatda dost seçəndə də belələrini seçsən, belələrinə arxalansan, söykənsən, peşman olmazsan, oğul.

— Bizim bu işimiz, mübarizəmiz elə bizim həyatımızdır, qibləgahım. Bundan kənarda bizim həyatımız yoxdu, ola da bilməz.

Gördün ki, Şeyx Əhməd özünü öldürdü, ancaq bizi satmadı. Ağayi Rəhgüzər olmazın əzablara, işgəncələrə tab gətirdi, lakin namərdlik eləmədi. Elməddin, cavan və təcrübəsiz olsa da, dəyanətini itirmədi. Bizim hezbimizin bayrağı qarşısında diz çöküb içdiyimiz and müqəddəs anddı, qibləgahım—bizlərdən heç kəsin o anda xəyanət eləməyə haqqı yoxdur.

— Təki elə olsun, oğul. Təki axıra qədər elə olsun. Yoxsa, kimsə yarıyolda sizə xəyanət etsə, arxa çevirsə, içdiyi anda naxələf çıxsa, sizin hamınız, bəli, hamınız məhv olarsınız və məqsədiniz yerinə yetməmiş qalar. Çünki mən bu dəskahı[1] çox yaxşı, sizdən min dəfə yaxşı tanıyıram və onun nələrə qadir olduğunu gözəl bilirəm, bala. Mən hələ inşallah, işiniz baş tutsa, məramınız yerinə yetsə—ayrı şeyləri də fikirləşirəm.

— Nələri, məsələn? Maraqlıdı, qibləgahım. Əziz xan ani olaraq fikrə getdi və sonra qaşlarını çatıb söylədi:

— Bir anlığa təsəvvür elə ki, siz bu qan üstə dayanan səltənəti; taxt-tacı sərnigun eləmisiniz. Bəli, tutaq ki, eləmisiniz. İşin lap həlledici məqamında da sizin aranızda birlik, sədaqət, həmrəylik olmalıdır. Yoxsa, qırğın düşə bilər aranızda, oğul.

Bəbir dikəldi. Bu, nə isə, mühüm nöqtə idi, qoca nə isə çox incə bir məsələyə toxunmaq istəyirdi, ancaq ya demək istəmirdi, ya fikrini dəqiq ifadə eləyə bilmirdi. Odur ki, Bəbir çiyinlərini azca qaldırıb:

— Başa düşmədim, qibləgahım, — dedi. — Açıq danışsana!

— Açığı budur ki, — Əziz xan mənalı bir təbəssümlə oğluna baxdı, — budur ki, sən hələ bilmirsən rəyasət, hakimiyyət nə deməkdir, oğul. Vəzifə, məqam bəzən o qədər şirin olur, o qədər qiymətli olur ki, adam onu heç kəsə vermək istəmir, hətta öz atasına, qardaşına, can-ciyər hesab elədiyi dostuna belə vermək istəmir, can bala. Tarixə nəzər sal. Taxt-tac üçün oğlunun gözlərini çıxardanlar, qardaşını, atasını məhv edənlər azmı olub?

Bəbir güldü:

[1] Dəskah — quruluş, sistem.

— Onda taxt-tac olmayacaq ki, biz də bir-birimizi məhv edək, qibləgahım. Bizim mübarizəmiz elə bunun üstündədir ki, taxt-tac aradan götürülsün, onun üstündə qanlar tökülməsin, qibləgahım. Hakimiyyət xalqın olsun, elin olsun—xalq kimi istədi, sevdi, onu da seçsin, inansın, arxasınca getsin.

Əziz xan da eyni əda ilə güldü:

— Sən hələ, görürəm, cavansan, oğul. Amma mən dünyagörmüşəm, bilirəm ki, insan kimi mürəkkəb, hələ axıra qədər kəşf olunmamış, düyünlərinin hamısı açılmamış ikinci bir məxluq yer üzündə yoxdur. Sən elə bilirsən özünü yaxşı tanıyırsan? Ya mən özümü yaxşı tanıyıram? Yox, insan heç vaxt özünü axıra qədər təsəvvür elədiyi kimi tam şəkildə tanıya bilmir və bilməz də. Hər halda, mənim bu sözlərimi sırğa elə, qulaqlarından as, oğul. Son məqamda, siz hakimiyyəti ələ aldığınız ən məsul anda özünüzü özünüzdən qoruyun, düşmənlərinizdən çox bir-birinizdən gözləyin və çalışın ki, kimin haqqı nədir, qabiliyyəti nədir, onu da verin. Tamah, mənsəbpərəstlik şöhrətpərəstlik etmək, «mən birinci olum» kimi iyrənc fikirləri ürəyinizdən uzaq eləyin. Sizin aranızda təfriqə yaratsa-yaratsa, bax, ancaq bu hisslər yarada bilər, oğul. Bəbirin enli, çatma qaşları düyünləndi; qoca dünyagörmüş atasının sözlərinin mənasını bütün incəliklərinə qədər anlamaq üçün düşünmək lazım idi. Çünki Əziz xan, Bəbirin yadına gələni, hələ heç vaxt mənasız söz danışmamışdı.

BEŞİNCİ FƏSİL

Üzdə özünü tox tutsa da, sındırmasa da, içəridə, dərində bu hadisə Elməddini çox silkələmişdi. İyirmi beş illik ömründə az sarsıntılar keçirməmişdi, qəlbinə az zərbələr dəyməmişdi, hərəsi də bir cür göynətmişdi. İlk eşqi daşa dəyib parçalanmışdı — bu, həyatında daddığı ilk acı, göz yaşardan ağrı idi. Deyirdin daha yaşamağına dəyməz. Amma ağrılı canını dişinə tutub yaşamışdı. Sonra Yusif ölmüşdü — qardaş itkisi də onu yaman yandırmışdı. Sonra, Əfsanəsini itirmişdi — o vaxtdan özü də evdən-eşikdən didərgin düşmüş, tale onu bu böyük şəhərə gətirib çıxartmışdı. Daha sonra anası

ölmüşdü — o, anasının ölümünü, dəfnini. görməmişdi deyə bu dərdə nisbətən asan dözmüşdü, daha doğrusu hardasa ürəyinin dərinliklərində bu ölümə inanmaq istəmirdi, tutqun bir ümid yaşayırdı varlığında — hərdən özü də bilirdi, dərk edirdi ki, özünü aldadır, anasının ölməyi həqiqətdir.

İndiyə qədər görüb-yaşadığı əzabları unutmağa çalışdığı, nisbətən rahat yaşamağa başladığı vaxtda Zərrintac xanım da ona — çəkdikləri az imiş kimi — belə bir zərbə vurmuşdu, dostlarının və tanıyıb-bilənlərin yanında da onu yamanca pərt eləmişdi. «Zərrintac xanım—ağayi Nəcməddinin qızı Zərrintac xanım atası rəhmətə gedən kimi əri Elməddini evdən qovmuşdur!» — xəbəri ildırım sürəti ilə dostlar arasında yayıldı, istəyənləri məyus, istəməyənləri şad elədi. Elməddin döyülmüş, təhqir olunmuş kimi gəzib-dolanırdı. Şəfi, Məleykə, Ziyaülhəqq, Ətiqulla, Əhədulla ona təsəlli verirdilər, bu isə onu daha da sıxıb balacalaşdırırdı. Məleykə xanım zarafata salıb aradakı gərginliyi dağıtmaq, Elməddini yumşaltmaq istəyirdi. Söhbət ciddiləşdikdə isə, Şəfi də Elməddinin tərəfinə keçmişdi:

— Yox, Məleykə, bu adicə ər-arvad savaşı deyilmiş, əzizim. Burada daha ciddi məsələlərdən söhbət gedir. Zərrintac milyoner qızı olsa da, çox nadan və qansız bir qadın, imiş. Elməddin adi əmələ, kəndli-filan olsa da, mən sənin razılaşardım. Axı o, qələm əhlidi, sənət adamıdı—onu evdə başa düşən bir qadın olmalıdı. O isə buna qabil deyilmiş, əsla qabil deyilmiş. Necə yəni ya sənin kağız-kuğuzun, yazın-pozun, ya da mən? Bu nə sözdü? — deyə Şəfi lap əsəbiləşmişdi, — Ya mən, ya dostların? Bu nə sözdü?

— O məgər elə deyirdi?

— Bəli, Məleykə xanım, məhz belə deyirdi! Elə bilirdi milyonları var, hamı onun qulu olmalıdı. Elə bilirdi mil-yonlara hər şeyi satın almaq olar. Xeyr! Mən öz azadlığımı milyonlara dəyişən oğul deyiləm, bacı.

— A, onda bu qudurubmuş. Fəxr eləmək, sevinmək əvəzinə, tanrısına şıllaq atırmış. Başı xarab olubmuş deyəsən! — deyə bu söhbətləri eşidəndən sonra Məleykə də hirslənmişdi. Şəfi bir az sakitləşib demişdi:

— Fikir eləmə, qardaş. Bir ölümə çarə yoxdu. Hər şeyi öz yoluna qoyarıq. Hələlik bizdə yaşarsan, sonra sənin üçün bir ev alarıq. Pulumuz ki var, elə deyil?

— Var.

— Bəli, bir ev alarıq, orada yaşayarsan. Yaxşı eləmisən, əhsən. Xoşum gəldi səndən. İndi elə kişi az tapmaq olar ki, o qədər var-dövlətə tüpürüb çıxsın. Sən öz ömrünü elə nadanla çürütməyəcəkdin ki.

— Əsla!

— Bu, cinayət olardı. Mən buna ömrümdə razı ola bilməzdim. Belə qalsaydı biz bir sənətkarı itirə bilərdik — bu isə bizim üçün bağışlanılmaz günah olardı, Elməddin.

Şəfi və dostları bu ağır günlərdə də Elməddinə dayaq oldular, əlindən tutdular, darıxmağa qoymadılar. Vaxt ötüb keçdikcə Elməddin yavaş-yavaş özünə gəldi və bu hadisəyə də həyatda insanın başına gələ biləcək adi əhvalat kimi baxmağa başladı. Ancaq şəhərdə, idarədə, şirkətlərdə, kombinatlarda söz-söhbət kəsilmir, adamlar qəribə bir hərisliklə onu görən kimi qoşalaşıb pıçıldaşır, deyib-gülürdülər, bu isə ona çox ağır təsir eləyirdi. Unutmağa çalışdığı zaman kiminsə rişxəndlə gülümsündüyünü, yanındakının qulağına nə isə pıçıldadığını görür və dilxor olurdu — təzədən hər şey yadına düşür, Zərrintaca qəlbində nifrət hissi güclənir, əzəldən belə yanlış addım atdığı üçün özünə acığı tuturdu. Hələ kənddə ikən, qəryədar Qulamın evində tanış olduğu Ətiqulla xan bu günlərdə görüşərkən işarə eləmişdi ki, «Sülh» qəzetinin redaktoru şair Əli Tüğyan Elməddinin başına gələn ailə müsibətini mətbuat səhifələrinə də çıxartmaq istəyir. Əlbəttə, Əli Tüğyan üçün müxtəlif cəbhənin hər bir nümayəndəsini camaat içində rüsvay eləmək xüsusi bir ləzzət verərdi. Əli Tüğyan düşməni vurmaq, gözdən salmaq üçün elə belə fürsətlər gözləyirdi. Əbəs deyildi ki, «Pərçəm»in nəşri dayandırılanda bu məsələni böyük məmnuniyyət hissilə, rənglərini, boyalarını, tikanlı sözlərini əsirgəmədən işıqlandırmış, onları hətta ələ salıb gülmüşdü.

Elməddin bu mühitə düşəndə əvvəl-əvvəl bir cəhətə heyrət eləyirdi: görürdü siyasi, ədəbi mühitdə bir-birinə düşmən olan, bir-birinin kölgəsini qılınclayan adamlar uşaq kimi küsü saxlamır,

görəndə yolunu dəyişmir, «filankəs filan məclisdədi, mən ora getmirəm» demir, yeri düşəndə, arada heç bir şey yoxmuş kimi deyib-danışır, yeyib-içirdilər. Görürdü bu gün bir məclisdə oturmuş iki adam, səhər mətbuatda bir-birini biabır etdi. Bu, Elməddinə həddən artıq müəmmalı və anlaşılmaz görünürdü. Ancaq zaman keçdikcə o da buna öyrəşdi, buna ikiüzlülük kimi yox, adi bir qayda kimi baxmağa başladı. «Əqidə düşməni ayrı şeydi, şəxsi düşmənlik isə ayrı məsələdi» — deyə kimdənsə eşitdiyi sözlər Elməddini bu mühitə tez alışdırmışdı. O özü də yeri gələndə belə eləyirdi. Yadına düşdü ki, Əli Tüğyan Şəfini tənqid atəşinə tutanda o da Əli Tüğyanın karikaturasını çəkmişdi—hələ ondan sonra onlar Ətiqulla ilə bir yerdə «Bağibala» restoranında bir stol arxasında əyləşib çörək də yemişdilər, mübahisə də eləmişdilər. Ondan sonra da Elməddin, bir neçə dəfə Əli Tüğyanın təkidilə onlara getmiş, evi, ailəsi ilə tanış olmuşdu. Çox ötəri görsə də Əli Tüğyanın arvadı Xəyalədən xoşu gəlməmişdi. Deyəsən, qarağabaq, qonaq-qara sevməyən arvad idi. Əli Tüğyan onun yanında bir kişi kimi yox, bir nökər kimi sıxıla-sıxıla, çəkinə-çəkinə gəzib-dolanır, danışırdı. Bunu o zaman Elməddin təbii bir şey hesab etmişdi, çünki Xəyalə Ətitullanın bacılığı, milyoner Mumtazın ikinci arvadının birinci ərindən olan qızı idi. Xəyalə səsini çıxardanda Əli Tüğyan, necə deyərlər, siçan deşiyini satın alırdı. Evə gələn qonaq-qaraya özü qulluq eləyirdi. Xəyalə isə o biri otaqda qıçlarını altına yığıb divanın üstündə oturaraq özünə paltar toxuyardı. İki dəfə gəlmişdi Elməddin onlara, ikisində də onu eyni vəziyyətdə oturub cürbəcür-rəngli saplardan nə isə toxuyan görmüşdü: birinci gəlişi ilə ikinci gəlişi arasında neçə ay fasilə olsa da, deyərdin bəs bu arvad elə o vaxtdan heç yerindən tərpənməyib, elə oturub hey toxuyub, toxuyub...

…Elməddin hündür laylı, kəhraba rəngli qapının zəngini basdı. İçəridən çox həlim, mehribanlıqla dolu qadın səsi eşidildi: — bu, Xəyalənin səsi idi. Elməddin təəccübləndi, o, ömründə gələn adamın üzünə qapını özü açmazdı. Həmişə Əli Tüğyan gələrdi qonağı qarşılamağa.

— Bəli, bu dəqiqə... gəldim. — Sonra o tərəfdən soruşdu: — Kimdi?

— Mənəm, Elməddindi, Xəyalə xanım.

Qapı cırıltı ilə açıldı. Xəyalə çiyninə ağ ipək yundan toxunmuş şal atmışdı. Əynində zərli ev xalatı vardı. Qulaqlarından asılmış brilyant qaşlı sırğalar, sinəsindəki qızıl sinəbənd işım-işım işıldayırdı, alaqaranlıq dəhlizə nur saçırdı.

— A, Elməddin qardaş, xoş gəlmisiniz. Buyurun, buyurun.

— Evdədi? — Elməddin içəri keçib soruşdu.

— Hə, evdədi, buyurun.

Xəyalə onu böyük otaqdan keçirib kabinetə buraxdı. Ara qapı açıq idi. Kabinet təmtəraqla bəzənmişdi. Tavandan büllur çilçıraq asılmışdı. Döşəməyə qalın herat xalçası salınmışdı. Divar boyu qoyulmuş şkaflar nəfis kitablarla dolu idi. Qarşı divardan, iki hündür pəncərənin arasında Əli Tüğyanın böyüdülmüş şəkli zərli çərçivəyə salınmışdı. Görünür, bu, onun ən çox xoşladığı şəkil idi — çünki kitablarında, qəzet və jurnallarında həmişə bu şəklini verirdi. Əli Tüğyan yazı masasının arxasında oturmuşdu. Qarşısında bir qalaq kağız və kitab vardı. Sol əlinin barmaqlarını cod saçlarının içində gizləmişdi. Fikir dəryasına elə qərq olmuşdu ki, deyəsən Elməddinin gəlişindən belə xəbəri olmamışdı. Elməddin səssiz addımlarla gəlib onun başının üstündə dayandı, qabağındakı kağızlara baxdı. Aman allah, bu nə yazı idi? Yazıb, pozub, yazıb, pozub! Səhifənin bir qırıq salamat yeri yox idi. Pozulub təzədən yazılmamış, yenidən pozulmamış nəinki bir cümlə, hətta bir söz belə tapmaq çətin idi. Yox, var idi, yazılıb ancaq pozulmamış bir «və» var idi.

Elməddin əlini ehmalca onun çiyninə qoydu. O, başını qaldırmadan, cana doymuş kimi narazı bir şikayətlə, yanındakının arvadı olduğunu güman edib:

— Çıxmır, zəhrimar, Xəyal, — dedi, — çıxmır.

— Çıxmır, zorlama özünü! — deyə Edməddin gülümsünə-gülümsünə dilləndi. Əli Tüğyan səksənmiş halda qanrılıb çiyni üstündən Elməddinə baxdı, qızıl haşiyəli eynəyi altından iri gözlərini qırpa-qırpa:

— O, sənsən? Nə vaxt gəlmisən, heç xəbərim olmayıb! —deyə onun gəlişindən şad olduğunu bildirən bir ədayla dilləndi, — nə yaxşı gəlibsən. Lap darıxmışdım...— O, qələm-kağızını bir kənara itələyib

eynəyini çıxartdı, ovuclarının içi ilə gözlərini ovxalayıb belini düzəltdi, şirin-şirin gərnəşərək sinəsinə bir yumruq ilişdirdi: — Səndən nə əcəb, ay Elməddin? Elə biryolluq getdin!

— Nə bilim...— deyə Elməddin qeyri-müəyyən cavab verdi.

Ucaboylu, qarayanız, itibaxışlı Elməddinə Əli Tüğyan tanış olduqları vaxtdan bəri həmişə daxili bir həsəd və qibtə hissilə baxmışdı. Şer məclislərində, ədəbi gecələrdə özünün səmimi, ürəyəyatan, ən başlıcası isə ürəkdən gələn şerlərini sakit, həlim bir səslə, başqaları kimi əl-qol atmadan oxuyan Elməddinin səs-sorağı yayılıb çoxaldıqca xeyirxahları artdığı təki, istəməyənlərin, üzə vurmasalar da, daxili bir paxıllıq və küdurət hissi ilə alışıb-yanan bədxahların da sayı çoxalırdı. Onlardan biri də Əli Tüğyan idi. Onun istedadda, qabiliyyətdə özündən qat-qat üstün olduğunu gördükcə, az bir müddətdə yazanlar arasında adının hörmətlə çəkildiyini hiss elədikcə Əli Tüğyan, neçə kitabın müəllifi olsa da, gecəni gündüzə qatıb çalışır, özünü oda-közə vurur, görüş gecələrində, şairlər müsabiqəsində sürəkli, sakit olmaq bilməyən alqışlar eşitmək həsrətilə yanıb-yaxılırdı, Ancaq hər dəfə belə gecələrdə istəyinin əksinə olaraq soyuq qarşılanırdı, təzə çıxan kitabına susmaqla cavab verirdilər. Bu dərd onu içəridən qurd kimi yeyirdi. İndi onun saçına yavaş-yavaş dən düşürdü. Baxanlar, oxucular, dost-tanışlar onun saçlarının söz üzərində tər tökməkdən, səhərə qədər şam kimi yanmaqdan ağardığını güman edirdilər, o özü də adam yanında buna açıq-gizli işarələr edirdi — fəxrlə. Ancaq özü çox yaxşı bilirdi ki, saçlarının belə erkən ağarmasına səbəb oxucu könlü fəth edə bilməməsi, ədəbi mühitdə ona qarşı tükürpədən soyuqluq və biganəlik dərdi idi. Və o, bu çəkilməz dərdi tək çəkirdi, heç kəsə deyə, açıb-ağarda bilmirdi. Bundan əlavə Əli Tüğyan başqa bir şeyi də xeyli müddət özünə dərd eləmişdi: Elməddin, onun fikrincə, çox xoşbəxt adam idi, nə yoğurmuşdu, nə yapmışdı, hazırca kökə tapmışdı. Ağayi Nəcməddin ona yaxşı iş vermişdi, maşını vardı, hələ bunlar azmış kimi, su sonası kimi gözəl-göyçək qızını — Zərrintac xanımı da vermişdi, ev almışdı. Ağayi Nəcməddin dağ təki Elməddinin dalında dayanmışdı, daha o nə istəyirdi?.. Lakin son zamanlar kişinin ölümündən sonra Zərrintacın onu «qovması» söz-söhbətini eşidib xeyli sevinmişdi,

ürəyindən necə deyərlər, lap tikan çıxmışdı. «Köpək qaya kölgəsində yatar, elə bilər öz kölgəsidi—deyə düşünmüşdü. — İndi bir az burnu ovular. Yoxsa çox yuxarıdan gedirdi».

Həmin günlərində qəribə bir istək də duymuşdu; Elməddinlə qabaq-qənşər gəlmək, ona baxmaq. Zərrintac onu evdən qovandan sonra düşdüyü halı görmək istəyirdi. Bu, nə üçünsə ona çox maraqlı gəlirdi. Neçə dəfə hətta məxsusi axtarmışdı da Elməddini. Ancaq tapa bilməmişdi. Onu soraqlaşanda kitab mağazalarında yenicə satışa buraxılmış «Əfsanəli mahnılar»ını tapmış, qəribə bir hisslə götürüb vərəqləmiş, «alım», «almayım?» — deyə çox götür-qoy eləyəndən sonra, nəhayət, iyirmi rupisinin başından keçib almışdı. Axşam evdə, sakit bir guşəyə çəkilib, kitabı diqqətlə oxumuş, düşünmüş, düşünmüşdü. Şerlərini, hekayələrini dönə-dönə nəzərdən keçirmişdi, onlarda camaatı əfsunlayan cəhətləri axtarmağa çalışmış, sirrini açmağa can atmışdı. Lakin bu yazılarda heç bir qeyri-adilik görməmişdi. Sadə sözlər idi, adi sözlər idi. Vəssalam. O sözlər idi ki, onları Əli Tüğyan da bilirdi, işlədirdi. Bəs sirr nədə idi?! Baxırdı, deyirdi bu şerləri mən də yaza bilərəm. Ancaq yaza bilmirdi. Sən demə, hikmət sözdə deyilmiş, hikmət hissdə imiş, ürəkdə imiş. Sən demə, sənətin canı-cövhəri səmimiyyətdə imiş, təmtəraqlı, hay-küylü sözlərdə deyilmiş. Yaşanan hissi, duyulan dərdi, həsrəti, sevinci yazanda əsl şer meydana gəlirmiş. Sözlər ürək qanında çiməndə, hisslərin gah həzin, kövrək, gah da tufanlı dalğalarında, göz yaşlarının büllur saflığında yuyulub cilalananda şerə çevrilə bilirmiş. Sözün bağrının başına öz dərd qığılcımından bir damcı qoyanda o alova çevrilib başqalarını — dinləyənləri yandıra bilərmiş; sözün bağrının başına öz həsrətinin yanıq ciyər iyi verən bir qətrəsini qoyanda o söz həsrət rənginə — sarı rəngə bürünüb həsrətlə ağladırmış. Sözün bağrının başına gah ağlayan, gah gülən məhəbbətinin hamısını yox, bircə parçasını qoyanda ürəklərdə məhəbbət odu, məhəbbət çırağı yandıra bilirmiş... Bəli, bunlar sənətin, şerin əzəli qanunuymuş — bunu Əli Tüğyan bilmirmiş — indi hiss eləyirdi. Ancaq öz yazılarında bunlara əməl edə biləcəkdimi? Gərək bunlar ürəyində, xilqətində olsun, olmasa, tapa bilməzsən, olmasa yarada bilməzsən.

Onlar ordan-burdan söhbət elədilər, son hadisələrdən danışdılar, söz dönüb-dolanıb yazı-pozu üstünə gəldi.

Əli Tüğyan dedi:

— Sənin kitabını almışam, təbrik edirəm. Vaxtım olmayıb hələ oxuyam. İşim o qədər çoxdur ki, başımı qaşımağa imkanım yoxdur.

— Əşi, elə-bir şey deyil, — Elməddin təvazökarlıq elədi. — Kitabdı da.

— Amma «Nadanlı»ğını oxudum. Yaxşı hekayədi. Ürəyimdən tikan çıxartdı.

Elməddin ürəyindən keçirtdi: «Sənin ürəyindən tikan çıxartdı, məni isə onun üstündə evdən çıxartdılar». Güldü:

— Hekayədi də, yazmışdım.

— Deyirlər evdə olan əhvalatdı, hə? Eşitmişəm Zərrintac xanım bərk qəzəblənib səni evdən-eşikdən də qovub? Düzdü? — Bu sözləri deyəndə nədənsə Əli Tüğyanın gözləri parıldayırdı — o, sınayıcı nəzərlərlə müsahibini süzür, nə isə öyrənməyə çalışırdı. Elməddin pərt olmuşdu, qızarmışdı. İrəlicədən bilirdi ki, belə söhbət olacaq və əslində onu bura çəkib gətirən də bu məsələ idi, İstəyirdi ki, Əli Tüğyan onun ailə məsələsini qəzetdə işıqlandırmaqdan daşınsın — çünki, fikrincə, bunun əsl mətləbə heç bir dəxli yox idi, şəxsi məsələ idi. Arvad onu qovub, o, Zərrintacdan tamam-kamal ayrılıb, bunun kimsəyə bir dəxli varmı?..

— Hə, — dedi. — Bir az olmuş əhvalatdı, bir az da özüm bəzəmişəm.

— Öz aramızdı, yaxşı eləmisən. Mənim də neçə dəfə fikrimə gəlib ki, belə nadan, qanmaz qadınları ifşa eləyim. Ancaq, düzü, evdəkindən ehtiyat eləmişəm. Sən isə...

— Həqiqət sənət üçün hər şeydən ucadı, Əli. Həqiqət sənətin tanrısıdı. Gördüm, ağrıtdı ürəyimi, yazdım. Sonrasını düşünmədim. — Bu ara Əli Tüğyan stolun böyründəki ağ düyməni basdı, o biri otaqdan zəng cingiltisi eşidildi. İki saniyə keçməmiş Xəyalə qapının ağzında göründü:

— Nə buyurursan, Əli can?

— Yeməyə bir şey hazırla.

— Hazırlayıram, — deyib çıxdı. Bu mehriban danışıq və ümumən bayaqdan Xəyalə xanımın tərzi-rəftarında hiss elədiyi dəyişikliklər Elməddinin diqqətindən yayınmırdı, düşündürürdü. «Xəyalə tanınmaz dərəcədə dəyişib. Səbəbi nədir görəsən? Lap möcüzədi».

— Xeyir ola, Əli, bu nə məsələdi, arvad sənin lə nə mehriban-mehriban danışır? Əli Tüğyan bic-bic güldü:

— Dünyada, — o, səsini alçaldıb ehtiyat edirmiş kimi astadan cavab verdi, — dünyada bircə arvadın boş damarını tuta bilməmişdim, ona görə də bu neçə ili anadan əmdiyim süd burnumdan gəlib, olmazın əziyyət çəkmişəm. Şükür, indi arvadın da dilini tapmışam. İndi işlərim yağ kimi gedir. Evdə nə dedi-qodu, nə dava-dalaş. Rahatlıq, asudəlik. Yoxsa arvad məni bir gün hirsləndirəndə on gün özümə gələ bilmirdim. Fikrim dağılırdı, heç bir şey yaza bilmirdim. Bircə bizi yaradan bilir ki, bu arvadın axmaq xasiyyəti ucbatından mənim yazı-pozu işimə nə qədər böyük ziyanlar dəyib. Elə vaxtlarım olurdu ki, az qala özümü öldürmək istəyirdim.

— Eh! Bunları təsəvvür edirəm, Əli, — deyə Elməddin bu möcüzəyəbənzər işin sirrini gec də olsa öyrənməyə can atdı,— əsl mətləb üstünə gəl, de görüm necə olub ki, arvadı mələyə döndərə bilibsən?

— Sirri çox sadə və asan imiş, sən demə.

— Nədi axı?

— Bunun üçün, hər şeydən əvvəl, zəmanə adamı olmaq lazımdı, Elməddin. — O, səsini bir az alçaldıb əlavə etdi:— sənə bir söz deyəcəyəm, ancaq gərək acığın tutmasın.

— Tutmaz, de!

Əli Tüğyan şəhadət barmağının ucu ilə öz alnının sağ tərəfinə vurub tıqqıldatdı: — Sənin kəllən bir balaca... xarabdı.

— Necə yəni xarabdı?

— Yəni zəmanə kəlləsi deyil!

— Niyə axı?

— Ona görə ki, —Əli Tüğyan mühüm bir məsələni izah edirmiş kimi, kresloda yerini rahatladı. — Sən zamanın nəbzini tuta bilmirsən, Elməddin. Öz aramızdı, sənin aşığın yaman alçı durmuşdu. Dünən qəryədən gəlmişdin, bu gün hər şeyin var idi—vəzifən, yaxşı

maaşın, maşının, evin-eşiyin, hətta Zərrintac xanım kimi arvadın, ağayi Nəcməddin kimi qayınatan—arxan. Bu, hər adama nəsib olan səadətdi məgər? Oğullar var ki, səndən min dəfə qabiliyyətlidir, ancaq bu həyatın dəyirmanında başı daşdan-daşa dəyib, əzilib un olub, ehtiyac içində boğulub məhv olub. Amma sənin gətirmişdi, yamanca gətirmişdi. Mən paxıllıq eləmirəm, ümumiyyətlə mən paxıl adam deyiləm—əsl həqiqəti bilmək istəsən, indi mənim sənə heyfim gəlir. Çünki əlinə düşən yağlı tikənin qədrini bilmədin, şadlığına şitlik elədin. Qoşuldun Şəfiyə, axırını da gördün. Sənin həbsxanada nə işin vardı, baş nazirlə nə işin vardı? Söz açılıb deyirəm ey, mənimlə nə işin var idi?

— Bunlar əqidə, məslək məsələsidi, Əli.

— Eh, nə əqidə, nə məslək, Elməddin? Bizim əsrimizdə bu sözlər boş və mənasız sözlərdir. İndi ağıllı adam odur ki, beşgünlük ömrünü yaxşı yaşamağı bacarsın, həyatını xoş keçirsin. Daha sənin kimi gəmidə oturub gəmiçi ilə dava eləməsin. Sən nəinki zamanın nəbzini, uzağa getmək lazım deyil, heç öz arvadının da nəbzini tuta bilmədin. Belə, sən heç yana gedib çıxa bilməzsən, ağa! Sən elə bilirsən indiki zamanda həqiqəti demək böyük qəhrəmanlıqdı? Yox, bağışla məni, bu, indi axmaqlıqdı, ancaq axmaqlıqdı.

— Həqiqəti məm deməyim, sən demə, o deməsin, bəs kim desin, Əli?

—Elə bilirsən sənin dediyin-həqiqətləri səndən başqa heç kəs bilmir? Görürlər, bilirlər, ağa. Amma ağıllı adamlar ağrımaz başına buz bağlamırlar. Uzağa niyə gedirsən, özündən hesabını apar, həqiqəti dedin, həbsxanaya düşdün, bu sənə dərs olmadı, sonra yenə həqiqəti yazdın, öz halalca arvadın səni evdən qovdu. Elədirmi? Dinmirsən?

Elməddin qulaq asa-asa fikirləşirdi ki, ilahi bu, necə də dəhşətli, simasız, mənliksiz bir adam imiş. Onun tutqun gözlərinin içinə baxırdı, bulanıq, ilan-qurbağalı. Ürəyini görürdü və çimçəşirdi. Gəldiyinə peşman olmuşdu, ancaq gec idi, daha gəlmişdi.

Hövsələsi təngimiş halda:

— Müxtəsər elə, ay Əli, lap adamın ürəyini çəkənsən ha!

— Hə, hə! — deyə o, nədən danışdığını unutmuş təki, bir az duruxdu, sonra davam etdi. — Hə, onu deyirdim axı. Hə, arvaddan danışırdım. Düzü, çox götür-qoy elədim. Gördüm beləcə bu arvadnan bacara bilməyəcəyəm. Söyməgnən deyil, döyməgnən deyil, ağlına yerləşəni dədəsinə də verməyəcək və məni də dirigözlü öldürəcək. Odur ki, siyasəti dəyişdim.

— Nə cür?

— Mən gündəlik yazıram, gördüyümü, eşitdiyimi. Bu da son vaxtlar dəb düşüb. Gərək camaatdan geri qalmayasan. O irəlilər eləmədim tənbəllik, həmin gündəliyimdə arvadı bir təriflədim, bir təriflədim ki, gəl görəsən. Yazdım, ki, mənim şair olub ortalığa çıxmağımda, ad-san qazanmağımda, rahat, xoşbəxt həyat keçirməyimdə, mehriban, ağıllı həyət yoldaşım Xəyalə xanımın (həyət yazmışdım, həyat yox a — belə incə mətləblərdən baş açan deyil) çox böyük və əvəzsiz xidməti vardır. O, dünyanın ən həssas və ağıllı qadınıdı mənim gözümdə. Mən ömrüm boyu ona minnətdar olacağam, bundan sonra qalan ömrünü də gözəl xanımıma sədaqətlə yaşayacağam, yazacağım əsərləri ona həsr edəcəyəm, nə bilim dəmdəsgah. Altdan da imza-filan. Hə, bax belə. A kişi sözdü də, bu da satın deyil ki, deyəsən bahadı, tapılmır, filan-bəsməkan. Qardaş sənsən, gündəliyi beləcə mizin üstündə açıq qoyub getdim. Axşam evə qayıdanda gördüm ki, pəh, arvad necə dəyişib, ilahi? Mənimlə necə mehriban-mehriban danışır. Burda oturma, orda otur, onu yemə, bunu ye. Dedim hə, dərman əsər eləyib. O vaxtdan üz-gözündən zəhrimar yağan, məni qoz qabığına soxan arvad dili-ağzı bağlı quzuya dönüb..

Elməddin Əli Tuğyanın «sirrini» anlayıb güldü.

— Niyə gülürsən?

— Heç, elə-belə.

— Tərif. Bildin? Tərif, Elməddin, — deyə o, uzada-uzada göz vurdu. — İndi zamana da belədi, dost. Zamana da qadın kimi bir şeydi, tərif sevir. Onu təriflə, xoşun gəlməsə də, görməyə gözün olmasa da, təriflə, başını sığalla. Onda o da səni sevəcək, səni yaşadacaq, sənə çörək, paltar, yüksək vəzifə verəcək, qulluğunda duracaq, mənim arvadım kimi. Amma onu çərtəndə, sancanda, ağına qara

deyəndə, ələ salıb güləndə səni düşmən hesab edəcək, nifrət edəcək, bədbəxt-zəlil edəcək, həyatına zəhər qatacaq, bütün qapıları, hətta öz evinin qapısını da sənin üzünə bağlayacaq; sənin arvadın kimi!

Elməddin fikrə getmişdi, onun sözlərini dərk etməyə çalışırdı. Handan-hana başını mənalı-mənalı tərpədərək:

— Amma elə bu da yaxşı yazmalı əhvalatdı, Əli! — dedikdə Əli Tüğyan təəccüblə:

— Nəə? — deyə bildi və süstəldi. Gizli bir qorxu içində gözlərini döydü.

ALTINCI FƏSİL

Əhədulla son günlər Elməddinin gözünə fikirli dəyirdi. Kişinin elə bil, rəngi də qaralmışdı, beli də donqarlaşmışdı. Demək olar ki, «salamdan», «əleyküssalamdan» başqa sözünü eşitmirdi. Elməddin özü də pərişan olduğundan, başı öz dərdinə qarışdığından onun əhvalının niyə belə pozulduğunu ətraflı soruşa bilməmişdi. Hərdən ona elə gəlirdi ki, Əhədulla amirinin o təmtəraqlı, firavan həyatının belə asanlıqla və kökündən dağıldığını anlayıb xiffət eləyir, təəssüflənir. Əhvalatı lap elə ilk günlər Əhədullaya qızı danışmışdı. Zərrintac xanımın evə ac-susuz, ancaq kefikök gəlmiş Elməddinin üzünə qapını necə rəhmsizcəsinə açmamasını, onu o şaxtalı-ayazlı havada «çöldə qoymasını» qız, böyük bir müsibət üz vermiş kimi, az qala ağlaya-ağlaya atasına söyləyəndə kişi əvvəlcə qulaqlarına inanmamışdı, Siminbərə «özündən şey toqquşdurma, qız» — deyib üstünə çımxırmaq da istəmişdi. Lakin Siminbər balaca, ailədə indi hamının müqəddəs and yeri olan Vətənyarın canına and içəndə o, Zərrintaca qarşı ürəyində qəribə bir qəzəb duymuşdu. O gözəl, cavan, ipək paltarlar içində itib-batan, brilyant, qızıl-gümüş içində bərq vurub parıldayan Zərrintac xanımın nə qədər rəzil, alçaq nifrətə layiq adam olduğunu ürəyində etiraf eləmişdi. Onun aləmində, Elməddin kimi mələk xislətli təmiz, mehriban bir adamın ürəyinə dəymək, könlünü sındırmaq dunyada ən ağır cinayət idi, günah idi. «Bunu Allah sənə heç vaxt, yüz il dərgahında qolubağlı, dizin-dizin sürünə-sürünə ibadət eləsən də bağışlamaz!» — deyə düşünmüşdü. Həqiqətən bu pis xəbərlər Əhə-

dullanın kefinə soğan doğramışdı, qanını möhkəm qaraltmışdı, Ancaq kişi baxıb görmüşdü ki, Siminbər ondan da yaman hala düşüb. «Mən burda daha qalmaq istəmirəm, qibləgahım, — deyib dururdu. — Apar məni evimizə, apar, qibləgahım!» —deyib yalvarırdı.

— Yox, hələ qal, qızım! Qayıdıb gələrsən, bundan sarı xiffət eləmə. Ər-arvaddırlar, savaşıblar, yəqin barışarlar da. Yaxşı deyil, hər necə olsa, ağamız Nəcməddinin qızıdı,— deyirdi Əhədulla ona.

— Kimin qızı olur-olsun, qibləgahım. Ondan zəhləm gedir, elə zəhləm gedir ki, görəndə az qalıram üstünə atılım, parçalayım.

— Eh, qızım, səbrin olsun. Əvvələn, bu söz-söhbətin sənə heç bir dəxli yoxdur. İkincisi də, yadında saxla, dünyada yaxşılar çox vaxt xar olublar, qızım. Sən hələ nə görübsən ki, can bala! — deyərək Əhədulla qızını birtəhər dilə tutub fikrindən daşındırmışdı.

Sonrakı günlər Əhədulla Elməddini Zərrintac xanımın yanından yox, əvvəl yaşadığı təkotaqlı mənzildən gəlib işə apardıqda Siminbərin dediklərinin həqiqət olduğunu anlamışdı. Əhədulla ona heç nə deməmişdi, Elməddin də açıb-ağartmamışdı, Bilirdi də ki, Əhədulla, Zərrintac xanımın tapşırığı ilə gündə bir dəfə bazarlığa gedir, lazım olan şeyləri alıb gətirir, qapının ağzındaca Siminbərə verib qayıdırdı, ancaq bir kərə də Zərrintacı ondan soruşmamışdı. Əhədullanın əzvayışından məlum idi ki, o da — Zərrintac xanım da onunla maraqlanmır. Yox, Zərrintac xanım qürurunu sığışdırıb sürücüdən Elməddini soruşmazdı. Buna ehtiyac da duymurdu yəqin. Ehtiyac duysa yəqin, əlinin altında telefon vardı, götürüb zəng eləyərdi heç olmasa. Atasıgilə zəng eləyə bilir, ona yox? Sadəcə istəmir, gərək deyil sadəcə! Bax, bu zaman Elməddin Zərrintacın ona, özünün Zərrintaca bəslədiyi hisslərin ötəri, keçici hisslər, gözqamaşdıran parıltılar olduğunu daha dərindən anlayır və tutduğu bu işə elə peşman olurdu ki, daha sözlə demək mümkün deyildi. Sən demə, ürək boşmuş, sən demə, göz iş görübmüş burda, ürək yox, ağıl yox. Bu izdivac ötəri bir duyğunun nəticəsi imiş ki, gözlənilmədən başladığı kimi, gözlənilmədən də uçulub dağıldı. Bu ev yanıb kül oldu — nə atəşinə qızınmaq mümkün oldu, nə də tüstüsündən göz yaşardı. Elməddin belə anlarında ürəyinə diqqət yetirirdi, boş imiş, aman allah. Onda acı təəssüfdən başqa heç nə qalmamışdı — nə şirin

bir xatirə ki, sonralar yad eləyəndə səni yandıra, göynədə; nə unudulmaz bir gün ki, yad eləyəndə kədərli gözlərini nur çeşməsi kimi işıqlandıra. Necə ki, illər boyu, üstündən neçə-neçə sənələr etməsinə baxmayaraq, Əfsanəni xatırlayanda qəlbi odsuz-alovsuz yanırdı, bağrının başı göynəyirdi. Onun uzaq-uzaq illərin arxasından gələn səsi də yadında idi, uzaq-uzaq illərin arxasından baxan gözləri də yadında idi. Amma Zərrintacdan ayrıldığı dünən idi, nə qalmışdı ondan xatirində, gözlərində, beynində, ürəyində nə qalmışdı? Heç nə! Heç nə! Yalnız yad bir qadın bədəninin ağ kağız kimi məzmunsuz gözəlliyinin hərdən-birdən yanıb-sönən işıltısı, parıltısı. Vəssalam. Bir də acı peşmançılıq hissi. Düşüncələri onu yormuşdu. Stolun arxasından qalxıb pəncərədən bayıra baxdı. İndi redaksiyada, Elməddinin, Şəfinin yanında kuryer işləyən Əhədulla küçədə, ağacın dibində oturmuşdu. Yatmışdımı, fikir eləyirdimi — başa düşmək olmurdu. Pəncərənin bir layını açdı, Əhədullanı çağırdı. O, səsi eşidən kimi yerindən sıçrayıb Elməddinin yanına yüyürdü. İçəri girəndə, heç cür tərgidə bilmədiyi adəti üzrə əlini sinəsinə qoyub:

— Bəli, qurban! — dedi və əmrə müntəzir kimi dayandı.

— Keç otur, — dedi Elməddin və yer göstərdi. Əhədulla idarədə başqa adamların olub-olmadığını yoxlayırmış kimi o yan-bu yana baxındı, kimsəni görməyib ehtiyatla keçib qənşərdəki stulda əyləşdi, Elməddin, görünür, hardan başlamağı aydınlaşdırmağa vaxt qazanmaq üçün siqaret yandırdı və bir qullab vurub Əhədullaya tüstü pərdəsi arxasından nəzər saldı. Əhədulla nə isə ciddi söhbət olacağını anlayıb yerində qurcalandı və nədənsə büzüşdü. Elməddin təmkinlə sözə başladı:

— Hə, — dedi, — indi danış görək nə var, nə yox? Niyə iki-üç gündü qəm dəryasına batıbsan? Yoxsa... — o güldü, — yoxsa səni də mənim kimi arvad evdən qovub, hə?

Əhədulla sözün deyilişindən o saat anladı ki, söhbət məhrəmanə söhbətdi, qorxulu heç nə yoxdu, ürəkləndi:

— Yox, Elməddin qardaş. Bizim arvadın ağzı nədi məni evdən qovsun... «yəni bu deməkdi ki, mən səndən yaxşı kişiyəm» — deyə Elməddin ürəyindən keçirtdi, mehribai-mehriban gülümsünməyə çalışdı, ancaq deyəsən, bu, heç alınmadı.

— Əlbəttə, zarafat eləyirəm, Əhəd. Bilirəm ki, sənin arvadın səni çox istəyir. Mən bunu elə-belə dedim. Ancaq görürəm iki-üç gündü heç özündə deyilsəi. Bəlkə bir hadisə-zad üz verib, məndən gizləyirsən?

— Yox, Elməddin qardaş, heç nə olmayıb.

— Nə isə olub, mənə demirsən. Mən axı görürəm ki, nə isə olub, Əhədulla. — Əhədulla Elməddinin incə yerdən tutduğunu hiss edib çarəsiz halda əlini saqqalına çəkdi, başını azca əyib gülümsündü. Bilirdi əvvəlcədən, ondan gizləmək mümkün olmayacaq. Çünki bir yerdə işlədikləri bu müddət ərzində Elməddinlə onun arasında elə səmimi və qardaşyana münasibət yaranmışdı ki, deməmək olmazdı; Elməddindən sirr, dərd gizləmək kimi çıxırdı. Siminbər də bir yandan kişini lap çaşdırmışdı.

— Düzü budu ki, qız Zərrintac xanımın yanından qaçıb, qurban!

— Qaçıb? Haçan?

— Üç gündü. Elə o vaxt sən evdən çıxan kimi, bu da dedi ki, mən də gedirəm, qalmaq istəmirəm. Dedim yox, hələ qal, görək işin axırı necə olacaq. Hər görəndə yazıq yalvarırdı ki, qibləgahım, məni apar evimizə. Qoymurdum. Srağagün bir də görürəm qaçıb gəlib. Danlamışam, «qayıt» demişəm. Dirənib üzümə ki, getmirəm, öldür məni, getmirəm.

Əhədullanın əksinə, Elməddin bu xəbərdən çox xoşhal oldu. Səbəbini dürüst anlamasa da, nə üçünsə sevindiyini duydu. Siminbərin buxarı qırağındakı oturuşu gəldi gözünün qabağına. Şəklini çəkdiyini xatırladı, həmin şəkli qızın ürkək bir hərəkətlə qoynunda gizlətdiyini xatırladı. Son gecə yadına düşdü — Zərrintac onu evə buraxmayanda Siminbərin pərt və pərişan olmuş sifəti xəyalında canlandı. Sonra, Elməddin axırıncı dəfə Zərrintacdan üzülüşmək üçün gedəndə onu necə həyəcanlı gördüyünü, darvaza ilə pilləkən arasındakı söhbətlərini xatırladı və Elməddinin yorğun, pəjmürdə üzündə işıqlı bir təbəssüm gəzib-dolaşdı.

— Yaxşı eləyib gəlib, Əhəd! — dedi nəhayət. — Zahiri bəzək, içi təzək olan o mühitə düşən nə qədər bədbəxtdirsə, vaxtında ordan

qaçan, uzaqlaşan adam da bir o qədər xoşbəxtdi. Çirkabdı, üfunətdi başdan-başa o mühit!

Əhədulla ah çəkdi:

— Qaçmağı cəhənnəm, qıza neyləyibsə, büsbütün dəyişib. Qız havalı kimi olub. Boğazı tıxanıb elə bil, allah verəndən yeyib-içə də bilmir—gözləri elə hey yol çəkir. Gecələr rahat yata da bilmir. Anası nə qədər soruşursa, heç nə demir. Bir az da bərkə çəkəndə gözlərinin qorasını sıxıb ağlayır... Bilmirəm neyləyim, başımı lap itirmişəm, qurban, Gül parçası kimi uşaqdı, gözümün qabağında şam kimi əriyib sönür, solur...

Elməddin hər şeyi başa düşdü: Siminbər deyəsən ona vurulmuşdu. Buna o, heç şübhə eləmirdi; Onun xiffətini eləyir qız yəqin. Elməddin qəlbində nə isə bir bəxtiyarlıq duydu. Ancaq bu hissi özündən uzaqlaşdırmağa çalışdı. «Tələsmə, Elməddin, hələ tələsmə! Təzədən yağışdan çıxıb yağmura düşməkmi istəyirsən?» — deyə tamam yad bir adama nəsihət verirmiş kimi öz-özünə söylədi. «Görünür sən daha xoşbəxt ola bilməyəcəksən, Elməddin. Adamın ilk bəxti, gözünün-könlünün ilk ovu. Sənin xoşbəxtliyin Əfsanə ilə getdi, qardaş. Ondan sonra sən çətin bəxtəvər ola bilərsən.»

Ancaq Siminbər fikrindən silinib getmirdi. Yemir, içmir, solub gedir—ona yazığı gəldi. Sonra o, xeyli susub nəhayət, Əhədullaya təskinlik verdi:

— Sən narahat olma, Əhəd, — dedi, — o keçib gedəcək. Bu yaşda qızlarda belə-belə şeylər olur. Elə bu gün o sağalacaq. Onun üçün dava-dərman lazım deyil—sadəcə yorğundu qız. Al bu pulu — o, qırmızı beşyüzlük çıxartdı, stolun üstünə qoydu,— get bazardan yaxşı qoyun əti al, un, göy-göyərti al, apar evə. Siminbər xanıma de ki, bir qazan düşbərə bişirsin; könlümə yaman düşbərə düşüb, Əhəd. Sabah axşam sizə gələcəyəm, düşbərə yeməyə.

—…

YEDDİNCİ FƏSİL

Məhəmməd Şəfi Rəhgüzar Elməddinin Zərrintacdan ayrıldıqdan sonra, onlarda yaşadığı günlərdə oğlanın sarsıldığını, ümidsiz-

ləşdiyini görüb onu təzədən, kim bilir neçənci dəfə danlamış, təsəlli vermişdi. Əhədulla isə Siminbər haqda söhbət etdiyi gün axşam Şəfi yenə Elməddini danlamışdı:

— Darıxma, qardaş, Bu, həyatdır. Onun tərəqqisi də var, tənəzzülü də. Bəzən o, sənin başına gül-çiçək çələngi qoyur, bəzən ayaqlar altına salıb tapdalayır, qədir-qiymətsiz edir. İnsan gərək dözümlü olsun, iradəli olsun, nazik çubuq kimi tez .sınmasın. Amma görürəm ki, sən belə hallarda tez pərt olursan, darıxırsan; eybi yoxdur, hələ cavansan, nə görübsən ki, sən həyatda?... ...

— Daha nə görməmişəm, ustad?!

— Yox, gördüklərin, çəkdiklərin, düzdü, çox olub; ancaq sən bundan da pislərinə gərək hazır olasan, qardaşım. Həyat səni hələ çox qamçılaya bilər—bundan pis qamçılaya, döyə bilər. Unutma ki, dəmir döyülə-döyülə bərkiyir. Sən gərək xoş günündə də, pis günündə də müvazinətini itirməyəsən, eyni qaydada yaşamağı bacarasan. Ancaq belə adamlar dünyada yaşamağa, qalib gəlməyə qadirdirlər. Sən «Bu da keçər» əhvalatını eşidibsən? Yox? Hə, bu çox ibrətamiz bir hekayətdir. Deyir, bir padşah öz vəzirini çağırır yanına, söyləyir ki, vəzirsən, mənə belə söz de, xoş günümdə də, dar günümdə də məni eyni qaydada saxlaya bilsin. Vəzir iki gündön sonra padşaha bir üzük gətirir, üstünə ikicə kəlmə söz yazdırıbmış: «Bu da keçər!» Padşah bunun hikmətini anlaya bilməsə də, susur», heç nə demir. Ancaq az sonra hər şeyi anlayır padşah.. Eyş-işrət məclislərində oturubmuşlar, yeyib-içirmişlər, rəqqasələr oynayırmışlar, musiqi çalınırmış. Padşah meyin, gözəl qızların yaratdıqları xoş təəssürat altında özünü cənnətdə hesab edirmiş, bu eyş-işrətin, bu bəxtəvərliyin əbədi olacağına inanırmış, lakin birdən gözü barmağındakı üzüyə sataşır, «bu da keçər» sözlərini oxuyur və ayılır. Doğrudan da yorulub, məst olub yatıb durandan sonra o dünənki nəşədən, kefdən bir əsər-əlamət qalmadığını görür və inanır ki, o cür gözəl, şirin dəmlər də keçib gedə bilərmiş. Vaxt ötüb dolanır, düşmən məmləkətin padşahı bu padşahın üstünə hücum çəkir, qoşunu qırır, şəhərlərini, kəndlərini dağıdır, lap paytaxta girir. Padşah qorxuya düşür, hər şeyin məhv olduğunu zənn edir, düşmən əlinə əsir düşməmək üçün özünü öldürmək istəyəndə yenə gözü üzükdəki

sözlərə sataşır: «Bu da keçər!» Doğrudan da, ən son məqamda dostu olan qonşu padşah qoşun çəkib gəlir, onun düşmənini darmadağın edir, dostunu da xilas edir. Padşah düşünür ki, nə yaxşı özümü öldürməmişəm, bu da keçərmiş! İndi qardaş, bu da keçər, sən heç darıxma, səbirli ol.

— Nə gözəl hekayətdi, ustad! — deyə Elməddin gülümsünüb dirçəlmiş, dərdini unutmuşdu. Gecəyarıdan keçənəcən iki dost üzbəüz oturub söhbət etmiş, Məleykə xanım qulluqlarında durmuşdu. Səhər Şəfi ilə birlikdə, qonşuluqda qapısına satılmaq elanı vurulmuş evə getmiş, baxmışdılar. Ev üç otaqdan, bir mətbəxdən ibarətdi. Palçıq hasarı vardı, həyəti vardı. Doğrudur, baxılmamışdı, ağacı, gülü yox idi, bir az səliqəsizlik nəzərə çarpırdı. Ancaq otaqlara söz ola bilməzdi.

— Hə, necədi, xoşuna gəlir?—deyə Şəfi soruşmuşdu.

— Gəlir, ustad. Şəhərin mərkəzidi, həm də ən ümdəsi sizə yaxındı. Neçəyə deyir görəsən?!

— İndi danışarıq, əsas budu ki, sənin xoşuna gəlsin.

Həyətdə iki nəfərin gəzdiyini, görən ağsaqqallı, başı çalmalı, bir kişi artırmada görünəndə Şəfi irəli yerimişdi, salam vermişdi:

— Oho, ustade-möhtərəm xoş gəlib, səfa gətirib! — deyə qoca ev sahibi yaşına yaraşmayan bir cəldliklə qabağa gəlib iki əlilə Şəfinin əlini sıxıb ehtiyzamla baş endirmişdi.

— Xoş gününüz olsun, baba! Necəsən, günün-rüzgarın necə keçir?

— Əlhəmdullah, pis keçmir. İçəri buyurun, ustad.

— Çox sağ olun, baba. Bu cavan oğlan mənim dostumdu, özü də şairdi.

— Lap gözəl, çox gözəl, — deyə qoca Elməddinə təpədəndırnağa nəzər salmışdı. — Özünüz bilirsiniz ki, mən şairlərə necə böyük ehtiram bəsləyirəm. Allah sizin hər ikinizə ömür versin, balalarım.

— Onun üçün ev almaq istəyirəm, baba. Dedim elə... sizin evi..

— Nə olar, mən sevinirəm ki, mənim evim şairə qismət olur. Baqqala, tacirə, lotuya-qumarbaza yox.

— Uşaqları deyəsən göndərmisən, hə?

— Bəli, ustade-möhtərəm, göndərmişəm, Qəndəhardadırlar. Bilirsən, ustad, ömrüm-günüm keçib, qocalmışam daha, əcəl, görürəm addım-addım yaxınlaşır. Vətəndə ölmək istəyirəm, oğul. Torpaq çəkir, torpaq yaman çəkir, oğul.

— Bəs bura vətən deyil, ay baba? Bu torpağın hansı guşəsinə qədəm bassan, ora sənin üçün vətən deyilmi, baba? Bir şəhərdən başqa şəhərə köçüb yaşamaq məgər qürbətdi, qəriblikdi?

— Düz buyurursan, oğul, bu vətənin hər qarışı, hər guşəsi mənim üçün əzizdi, doğmadı. Ancaq, insan üçün ən əziz yer ən müqəddəs yer onun dünyaya göz açdığı, iməklədiyi, gəncliyini keçirtdiyi torpaqdı, bala. Ondan şirin şey mən təsəvvür eləyə bilmərəm, dünyada oğul. Öz dilimdə danışmışam burda, öz millətimin arasında yaşamışam burda, ancaq həmişə, nədənsə özümü qərib hesab eləmişəm, can oğul.

— Sənin sözlərin vətənindən uzağa düşmüş, qəriblik çəkmiş bir şairin sözlərini yadıma saldı, baba. Vətən, doğma torpaq həsrəti burnunun ucunu göynədəndə bu şeri yazıb. Deyir ki:

Ömrümün gülləri bükdü boynunu,
Əsdi, yaman əsdi, yeli qürbətin.
Başıma dağlar tək qar ələndi, qar,
Gəzdi saçlarımda əli qürbətin,

Həsrətdən quzu tək mələyir ürək,
Çarə yox, hər dərdə dözəsən gərək.
Yağ-bal yedirsə də, ögey ana tək —
Zəhər tuluğudur dili qürbətin.

Vətənsiz dünyada, Allah, neylərdim,
Vətənə çatsaydım, olmazdı dərdim.
Ana qucağında rahat ölərdim,
Axmazdı gözümdən seli qürbətin.

Elin öz qəmidir mənim öz qəmim,
Eldən ayrı düşsəm, el olar qənim.
Qəbrimi qürbətdə qazmayın mənim,
Üstümdə bitməsin gülü qürbətin.

Şəfi şeri söyləyib qocaya baxmışdı, qoca gözləri yaşara-yaşara:

— Bah, bah, dilinə qurban olum, ay oğul. Nə gözəl deyib, ilahi, nə gözəl deyib o şair? Yanıb deyib, ustad, yanmasaydı deyə bilməzdi, — demişdi.

— Bəli, ürək yanmasa, gözdən yaş çıxmaz; baba. Ocaq yanmasa, tüstüsü də çıxmaz, baba...

Sonra qoca şerin yadında qalan son misralarını təkrar eləmişdi:

...Qəbrimi qürbətdə qazmayın mənim,
Üstümdə bitməsin gülü qürbətin.

— Mən də istəmirəm üstümdə qürbət gülləri bitsin, oğul; ona görə doğulduğum torpağa can atıram, qoy o torpağın gülləri bitsin qəbrim üstündə, o güllərin gözü ilə dünyaya təzədən baxım, bala... O şerin elə bu beyti mənim ev-eşiyimdən qiymətlidi, ustad. Allah xeyir versin, xoşbəxt yaşa, oğul—deyə o, Elməddinə üzünü tutmuşdu, — səadət dolu bir ömür sür bu evdə, bala.

— Çox sağ olun, baba can!—bayaqdan heyranlıqla qocanı dinləyən Elməddin nəhayət dillənmişdi, — ömrün uzun olsun, baba can. Ancaq qiymətini deyin evin, elə-belə olmaz, götürmərəm.

— Eh, sağ olmuş, dünya malı dünyada qalandı. Kim özü ilə indiyənəcən kəfəndən başqa bir şey aparıb ki, bu fani dünyadan?

Xeyli söz-söhbətdən sonra axır ki, dil tapıb sövdələşmiş, kişinin bütün səmimiyyətinə baxmayaraq, əlli min rupiyə sövdələşmiş, açarı almışdılar. Açarı əlinə alanda Elməddin yaman sevinmişdi — bu, onun öz xanımanının açarı idi, daha onu heç kəs əlindən ala bilməzdi, heç kim. Elməddinin şadlığını görən Şəfi gülmüşdü:

— Gördün bu da keçərmiş?

— Hə, ustad. Hikmətli sözlər imiş. Gərək biz də o üzükdən bir dənə düzəltdirək, taxaq barmağımıza.

— Olar. Biz o padşahdan tez-tez gərgin vəziyyətə düşürük, bizə ondan daha çox lazımdı elə üzük. Amma, öz aramızdı, evə söz ola bilməz, Elməddin. İndi onu yaxşı-yaxşı bəzəmək, təmizləmək gərəkdi. Ev əşyası, ayın-oyun almaq gərəkdi.

— Onları eləyəcəyəm, ustad. Burda bir səliqə-sahman yaradım ki, cənnət guşəsi kimi gözəl olsun. Mən kəndli balasıyam, əlimdən hər iş gəlir. Eh, axır ki ev-eşik sahibi olduq. Amma evi çox ucuz aldıq—elə o müdrik qoca ilə tanış olmağın özü əlli min rupiyə dəyərdi. Aləm kişi idi!

Şəfi Elməddinin eyninin açıldığını görüb sevinmiş və zarafat eləmişdi:

— Bəli, qardaş. Bazar yaman qəribə olub—bir şairin bir beytinin qiyməti bir evə dəyərmiş, bir kişiylə tanışlıq əlli min rupiyə dəyərmiş!

Hər ikisi gülmüşdü.

SƏKKİZİNCİ FƏSİL

Elməddinin ağlına gələn fikir onu sevindirdi. Geriyə dönərək mizin üstünə çayniki qoyan Əhədullaya müraciət elədi:

— Əhəd:

—Əhədulla—illərlə silib-təmizlədiyi, başıma pərvanə kimi dolandığı, çörək ağacı hesab elədiyi maşından ayrılıb Şəfinin köməyilə redaksiyaya cüzi bir maaşla işə girən və elə o vaxtdan əsla qırışığı açılmayan Əhədulla ölgün-ölgün başını qaldırıb donuq gözlərilə ona baxdı;

— Bəli.

— Sən bilən, maşın neçəyədi?

— Hansı maşın, qurban?

— Maşın da. Adi maşın... Minik maşını...

— Baxır da. Təzəsi bahadı, ancaq işlənmişi ucuz olar.

Elməddin əyləşdi. Çayniki götürüb piyaləsinə yaşıl çay süzdü. Fikrində götür-qoy elədi. Əhədulla qapının ağzındakı stulda əyləşib soruşdu:

— Neynirsən ki, qurban?

Elməddin çaydan bir qurtum içib diqqətlə Əhədullanın kədərli gözlərinə baxa-baxa:

— Deyirəm, gəl sən bir maşın al! — dedi. Əhədulla ah çəkdi, istehza andıran bir təbəssümlə gülümsündü:

— Nəynən, qurban? Bilirsən ki, mənim imkanım...

— Onu bilirəm. Sən onun fikrini çəkmə. Ancaq, sən mənə de görüm, bir maşının olsa, gündə nə qədər qazana bilərsən? Ora-bura getməknən, adam aparıb-gətirməknən...

—Özümün maşınım olsa... — o, dikəlib belini düzəltdi; gümrahlaşdı, səsi dirildi. — Maşınım olsa, ölüsü beş yüz, min rupi qazana bilərəm, qurban!

Əhədullanın birdən-birə belə dirçəlməsi, beş yüz, min rupi qazanmaq imkanının olması Elməddini də sevindirdi. O da şən bir əhvali-ruhiyyə ilə:

— Əla! — dedi. — Onda gəl belə eləyək. Mən sənə bir maşın alıram. Yəni pulunu mən verirəm. Görürəm, burdakı işin sənin ürəyincə deyil, səni heç açmır. Külfətin böyükdü. Maşının olsa balalarını babat dolandırarsan. Qazanarsan, yavaş-yavaş əlin maya tutar, onu satıb təzəsini alarsan...

Elməddinin dedikləri onun çoxdan ürəyində yaşatdığı arzu olsa da bu işii qeyri-mümkün olduğunu kəsdirən Əhədudla etiraz elədi:

—Yox, Elməddin qardaş, siz nə danışırsınız? Mən borcdan ölümdən betər qorxuram. Borcum olanda yaşaya bilmirəm — yediyim, yatdığım haram olur. Dünyasında mən o qədər borcun altına girə bilmərəm, qurban.

— Borc nədi, ay kişi? Mən sənə borc vermirəm ki, Əhəd! Elə-belə verirəm....

— Yox, qurban, çox sağ ol. Mən buna razı ola bilmərəm ömrümdə. Ac qalaram, amma buna qol qoya bilmərəm, vallah.

Belə deyirdi Əhədulla: ürəklə deyirdi bu sözləri. Ancaq bu, onun çoxdankı istəyi idi — özünün şəxsi maşını olsun. Hərdən balalarını da mindirib gəzdirsin. Onda daha ehtiyac onu belə sıxmazdı. Çünki, çox yaxşı bilirdi ki, təkəri fırlanan maşın pul gətirir, özü də lap çox. Neçəsini tanıyırdı, bir köhnə maşınla var-dövlət sahibi olmuşdu! Əhədulla illərdi ki, bu arzu ilə yaşayırdı — lakin son vaxtlar dolanışıq, güzəran onu elə sıxmışdı ki, maşın sövdası tamam-kamal yadından çıxmışdı. İndi birdən-birə... belə təklif...

Əhədulla fikrə getdi... Maşın sürdüyü günləri yadına saldı. Nəcməddinin idarəsindən çıxandan sonra ehtiyacın quduz canavar kimi ağzını açaraq doqquz balasının üstünə qədəm-qədəm yaxınlaşdığını xatırladı. Uşaqların solğun simaları gəlib durdu gözünün qabağında.

Bu təklifə razı olmaq istəyirdi, ancaq qürurunu sığışdıra bilmirdi, heç cür sığışdıra bilmirdi. Əgər Elməddin bir daha təkid etməsəydi, çətin ki, o özü bir şey deyə biləydi. «Hə» ilə «yox» arasında çırpınan Əhədullanın köməyinə yenə Elməddin çatdı:

— Görürəm, ayrı cür razı olmayacaqsan! Gəl belə eləyək, Əhəd. Maşın alırsan, işlədirsən, ailəni dolandırırsan. Artıq qalan pulundan ayda yüz, yüz əlli rupi, mən misal üçün deyirəm ey, atırsan bir tərəfə qalır, mənə pul lazım olanda verirsən. Yaxşımı?

— Yəni şərik oluruq, eləmi, qurban—Əhədullanın gözləri parıldadı.

— Nə cür adlandırırsan, adlandır. Borc, şərik... Bu, Əhədullanın döşünə yatdı:

— Hə, bu, başqa məsələ, qurban... Səni də dolandıraram, özümü də qurban. Bəy kimi, xan kimi. Maşına verdiyimiz o pulu uzaqbaşı bir ilə çıxardaram. Sonrakı qazancı da qalar bizə.

— Lap gözəl! Deməli, danışdıq.

Əhədullanın bütün dərdi-səri yadından çıxmışdı, üzü gülürdü. Qınayan olmasaydı, Elməddini bağrına basıb öpərdi:

— Allah sənin ürəyinin bütün mətləbini versin, Elməddin qardaş. Nə yaxşı ki, sən varmışsan. Ömrüm boyu sənə borcluyam, qardaş. Tək mən yox, bütün balalarım da sənə borcludu, qardaş!

— Dəyməz, Əhəd. Sabah bu məsələ ilə məşğul ol, axtar, bir babat maşın tap, qiymətini danış. Bu gün isə, nahardan sonra mənimlə gedəcəyik—təzə ev almışam. Gedək sən də bax. Axşam da sizə düşbərə yeməyə gedəcəyik.

— Təzə ev almısan?

— Hə.

— Hardadı?

— Şəfigilin küçəsindədi.

— Nə yaxşı, nə yaxşı. Mübarəkdi, can sağlığı ilə yaşayasan, ağam.

— Sağ ol, Əhəd...

...Elməddinlə Əhədulla axşamçağı təkotaqlı evin kiçik, darısqal həyətinə girəndə boya-boy düzülmüş səkkiz qız uşağının ona maraqla, heyranlıqla baxdığını görüb gülümsündü. Siminbər yuxarıda, qapının ağzında, qucağında ailənin yeganə oğlunu tutmuş yaşmaqlı anasının yanında dayanmışdı. Əhədulla irəli çıxıb hədsiz sevinc içində:

— Ay uşaq, görün bizə kim gəlib! — dedi,

Elməddin nəzərlərini uşaqların üzündə dolandırıb Siminbərin çöhrəsinə baxdı: baxışları rastlaşan kimi qızın yanaqları eynən o unudulmaz gecə, Zərrintac xanımın mətbəxində buxarı dibində oturanda qızardığı kimi allandı, gözləri parıldadı və köhnə tanış kimi ərklə yerə-göyə sığışmayan bir şadlıqla irəli yeridi, titrək səslə:

— Xoş gəlmisiniz, ağam! — dedi.

Səs Elməddinin ürəyini titrətdi. Haçandı ürəyi belə tərpənməmişdi.

DOQQUZUNCU FƏSİL

— Ustad, anam yuxuma girib, qəryəmiz yuxuma girib. Görürəm arvad gileyli-gileyli deyir ki, əcəb etibarsız oğul imişsən, bala. Elə biryolluq getdin, gör neçə ildi gedibsən, bircə kərə də dəməyibsən ki, anamı tək, dörd divar arasında qoyub gəlmişəm, baş çəkim görüm ölüb, qalıb? Getmək istəyirəm, ustad. İstəyirəm gedəm anamın qəbrini ziyarət eləyəm, o doğma yerləri görəm. Baba demişkən, burnumun ucu göynəyir, ürəyim titrəyir, ustad, o yerlərdən sarı. — Elməddin bu sözləri böyük həyəcanla söylədi, elə həyəcanla ki, daha Məhəmməd Şəfi etiraz eləyə bilmədi və ürəyindən keçirdi ki, Elməddini indi danışdıran hisslər müqəddəs hisslərdi, onların qarşısında durmaq, susdurmaq, öldürmək özü günahdı. Nə qədər ki insan ürəyi belə döyünür, anaya, doğulduğu, boya-başa çatdığı, pərvazlanıb uçduğu torpağa qarşı ılıq, isti məhəbbət duyğuları ilə çırpınır, demək, o ürək sahibi əsl insani keyfiyyətlərə malikdi, o, həyatın, yaşamağın

mənasını anlayır, qədrini bilir. Şəfinin şəxsən tanıdığı bir çox cavanlar vardı ki, onlar belə təmiz, ülvi hisslərdən məhrum idilər: günləri harda xoş keçsəydi, ora vətən idi, hansı ağbirçək qadın üzlərinə mehriban baxsaydı, o, ana idi onlar üçün! Bələləri üçün müqəddəs heç nə ola bilməzdi dünyada. Ancaq, nə yaxşı ki, Elməddin belə deyildi. Elməddin indiyənəcən Şəfinin nəzərində ağıllı idi, bacarıqlı idi, dözümlü, təmkinli idi, qabiliyyətli idi. İndi isə başa düşürdü ki, o, üstəlik, nəcib bir insan imiş. Onun nəcibliyini Şəfi çoxdan hiss eləmişdi — o, həbsxanada olarkən ailəsinə pul verməsi ilə (bəlkə bu borc idi? O qədər borclu olduğunu bilə-bilə belə işlərə biganəlik göstərən görmüşdü ki, Şəfi!), adi bir sürücü olan Əhədullaya bəslədiyi ehtiram ilə bu nəcibliyini sübut eləmişdi. Əslində Şəfi düşünmüşdü ki, burda sən deyən elə fövqəladə nəciblik də yoxdur, bu, adi insanın borcudur, vəzifəsidir. Lakin indiki zamanədə—biganəliyin, laqeydliyin, öldürücü «eh, mənə nə dəxli» fəlsəfəsinin hökmran olduğu, insanların çoxunun, böyük əksəriyyətinin bu mərəzə tutulduğu zəmanədə bunlar, bu keyfiyyətlər qeyri-adiləşir, təəccüb, heyrət və çox vaxt sevinc doğururdu.

Şəfi razılıq hissilə başını tərpətdi:

— Nə olar, Elməddin, ürəyin istəyir, get. Kəndə gedəndə adam saflaşıb qayıdır. Ancaq mən sənin yerinə olsaydım, evi sahmana salardım, Əhədullanın maşın məsələsini düzəldərdim, sonra gedərdim.

— Açarı vermişəm Əhədullaya — o, həyət-bacanı təmizlətdirəcək, ev-eşiyi sildirib-süpürtdürəcək, tapşırmışam, divarları da ağartdırsın, pul vermişəm, lazım olan şeyləri — xalça, kilim, çarpayı, miz, kətil, qab-qaşıq alsın, bir sözlə, nə gərəksə alsın.

Şəfi zarafat üçün söylədi:

— Gərək pul verəydin, sən qayıdanacan sənin üçün bir arvad da alaydı Əhədulla.

— Yox, ustad. Onu eləyə bilməyəcəyəm, — Elməddin də gülmüşdü, — indiyənəcən yalan-gerçək iki dəfə evlənmişəm, ləzzətini görmüşəm. Birini mən didərgin saldım, biri də məni didərgin saldı. Daha çətin evlənəm. Gözüm qorxub, ustad. Qaldı ki, maşın, onu Əhədulla özü alacaq — pulunu vermişəm.

— Çayın soyudu, niyə içmirsən, Elməddin? — deyə mizin üstündəki piyaləni Şəfi ona sarı itələdi. — Düzdü, yaxşı dəmlənməyib. Mən özüm dəmləmişəm. Ancaq Məleykənin çayının yerini heç kəsin çayı verə bilməz.

— Doğrudu, ustad. Bizim Əhədullanın qızı da əla çay dəmləyir.

— Hə, doğrudan, düşbərə qonaqlığın necə keçdi, Elmi! Heç danışmırsan?

Elməddin azca qızardı:

— Yaxşı, çox yaxşı oldu, ustad. Yeriniz məlum, gözəl düşbərə bişirmişdi qız. İki boşqab yedim. Evləri darısqaldı— bir otaqda on bir baş adam. Güzəranları ağırdı, yaman ağırdı, ustad. Adamın ürəyinin başı soyulur. Əhədullanın uşaqları elə qəşəng uşaqlardı ki, iki göz istəyir tamaşasına dursun. Di gəl ki, ehtiyac yazıqları gül kimi soldurub. Fərli yeməkləri yox, əyin-başları yox. Amma mənim gəlişimə elə sevinirdilər, uçmağa qanadları yox idi. Əhədulla da necə şad idi! İşdən çıxarılmağını da unutmuşdu. Balaca Vətənyar qucağımdan düşmürdü, bacıları alıb apardılar, bir də gördüm yıxıladura özünü çatdırıb mənə. Nə isə, o günüm qəribə gün idi. Bir gözüm ağlayırdısa da, bir gözüm gülürdü.

Telefon zəng çaldı. Şəfi dəstəyi götürdü, kiminləsə danışmağa başladı. Elməddin isə, üç gün əvvəl Əhədullagildə keçirdiyi saatların xoş təəssüratından ayrıla bilmədi: Siminbərin onun gəlişindən çiçək kimi açılmasını, can-başla qulluq göstərməsini, hərdən də oğrun-oğrun ona baxıb məsumluqla gülümsəməsini xatırlayırdı, sən demə, o yazığı da Zərrintac xanımın xofu, bərli-bəzəkli evi sıxırmış. Qız, — Elməddin indi yadına salırdı, — orda qorxa-qorxa gəzirmiş, ehtiyatla danışırmış. Sən demə, Siminbər dilli-dilavər, mehriban, işli-güclü bir qız imiş. Bax indi, öz atasının evində o necə sərbəst idi, arxayın idi. Burada o, əsla sıxıntı çəkmədən gəzib-dolanır, danışırdı: Elməddinə düşbərədən də çox, Siminbərin özünü sonsuz dərəcədə xoşbəxt hiss eləməsi ləzzət verirdi. Bu xoşbəxtlik onun gözlərinə yazılmışdı, qızarıb allanmış yanaqlarına yazılmışdı və bunu, Elməddin oxumaya bilməzdi, görməyə bilməzdi. hələ o şəkil... Elməddinin çəkdiyi «Gözəl Siminbər buxarı qırağında» şəklini o, divara vurmuşdu.

Yuxarıda vurmuşdu ki, uşaqların əli çatmasın, cırmasınlar: Evdə də fəxrlə, sevinə-sevinə bildirmişdi.

«Bunu Elməddin ağam çəkib!» hələ deyəsən kitabı da göstərib demişdi: «Bu kitabı da Elməddin ağam özü yazıb, öz başından yazıb!» — Bütün bunları, Siminbərii kiçik bacıları öz aralarında danışanda eşitmişdi: «Bacı, o şəkli bu əmi çəkib?» «Hə. Bacı oxuyan o kitabı da, deyir, bu əmi özü yazıb»...

Şəfinin telefonda danışdığı adama:

— Bəli, özü də burdadı! — deməsi fikirlərini qırdı və başa düşdü ki, ustad kiminləsə onun barəsində danışır. Qulaq asmaq istədi, ancaq artıq gec idi, Şəfi «sağ olun» — deyib dəstəyi yerinə asdı, nigarançılıqla ona baxan Elməddinə söylədi: — Bəbir idi. Sənin işlərinlə maraqlanırdı.

— Çox sağ olsun.

— Mən o gün iclasdan sonra sənin başına gələn oyunları danışmışdım Bəbirə. Əlbəttə, çox təəssüflənmişdi. Bir şey fikirləşərik demişdi və həmin günün səhəri zəng edib tapşırdı ki, səni «Pərçəm»in heyəti-təhriyyəsinə[1] daxil edək, şərait yaradaq ki, işləyə biləsən. Deyir onu qoruyun, qədrini bilin, bizim elə adamlara ehtiyacımız çoxdu.

— Təşəkkür edirəm... — Elməddin deməyə sanki söz tapa bilmirdi.

— Axırda dedi ki, mənim dilimdən ona çatdır: darıxmasın, igidin başı qalda gərək!..

Elməddin ona Bəbirin göstərdiyi qayğıkeşlikdən mütəəssir olmuşdu, sevincinin həddi-hüdudu yox idi. O özünü bu mübariz, amalı işıqlı gələcək olan dəstənin ən kiçik, hələ indiyə qədər faydalı bir iş görməmiş əsgəri hesab edirdi.

Hələ o neyləmişdi ki?.. Amma gör Bəbir kimi bir insan onun haqqında nələr deyir, necə qayğı göstərir? Bundan böyük fəxr, fərəh ola bilərdimi? Elməddin həyəcanını gizləməyə çalışaraq:

— Bəbir böyük şəxsiyyətdir, ustad! — dedi.

[1] Heyəti-təhriyyə — redaksiya heyəti.

— Bəli, Bəbir bizim təşkilatın görən gözü, vuran qəlbi, düşünən beynidir, Elməddin...

...Beş il əvvəl bu yolla getmişdi, onda yay idi. Yenə bu yolla qayıdırdı—indi qışdı, hər yan, ağ dona bürünmüşdü. Uzaqdan Ədnan — doğma kənd görünürdü. Üstünə qar yağmış evlər ağ çadırlara, təpələrə oxşayırdı. Onların arasında bir uca təpə vardı—bu, qəryadar Qulamın evi idi. Yük maşını ağır-ağır irəlilədikcə, kəndə yaxınlaşdıqca Elməddinin ürəyinii döyüntüləri artır, ağlı-qaralı, acılı-şirinli xatirələr bir-birini əvəz edirdi. Əfsanənin dalınca getmişdi, tapacağına, geri qaytaracağına ümidlə getmişdi, Ancaq əliboş qayıdırdı — Əfsanəsiz qayıdırdı. Nə olaydı, — düşünürdü və bütün yol boyu düşünmüşdü, — gedə görə Əfsanə kənddədi, qayıdıb gəlib. Onun yolunu gözləyir. Möcüzə baş verəydi, belə olaydı...

Kəndə xeyli qalmış Elməddin sürücüyə sarı döndü:

— Burda saxla, qardaş. Burdan bu yana piyada gedəcəyəm!— Pulunu verdi, minnətdarlıq eləyib kabinədən düşdü. Maşın dövrə vurub geri qayıtdı; o isə yumşaq qarı xışıldada-xışıldada yoldan çıxdı, qəbiristanlığa tərəf üz tutdu. «Mənim bu qəryədə sizdən başqa kimim var, anam, qardaşım. Sizi ziyarət eləməyə gəlmişəm» — deyə düşünə-düşünə addımlayırdı. Qar olsa da, şaxta yox idi. Havada bir istilik vardı. Ətraf kimsəsizdi — ins-cins gözə dəymirdi. Bu da qəbiristanlıq... Ölülər diyarı... Burda onun əzizləri uyuyurdu. Qardaşının qəbrinin yeri yadındaydı. Yəqin anasını da onun yanında dəfn eləmişdilər. Axtardı, tapdı. Yusifin baş daşından tanıdı... Böyründə bir uzunsov təpəcik vardı — bu da anasının məzarı... İki məzarın arasına keçdi, dizlərini yerə qoydu, əlinin birini qardaşının, o birini anasının qəbri üstünə uzatdı... Sakit-sakit dayandı... Gözlərinin yaşını saxlaya bilmədi... Əvvəl səssiz, için-için ağladı, ancaq sonra hönkürdü... «Mənəm, Elməddinəm, ana, gəlmişəm, Yusif, mənəm, gəlmişəm... Eşidirsiniz? Eşitmirsiz? Eşitmirsiz? Ana, qurban olum, məndən incidiyinə görə cavab vermirsən, eləmi? Gözünü yollarda qoydum. Gecikdim, ana. Bəs sən niyə gözləmədin, ana? Küsdün məndən, ona görə öldün, hə?! Son mənzilinə özgələr çiynində gəldin, oğul çiynində yox. Ac öldün, susuz, davasız-dərmansız öldün, eləmi? Nigaran öldün, eləmi, sənə qurban olum ay ana! Səndən ayrılandan

sonra başıma çox qəzavü-qədər gəldi, ana. Pis gün də gördüm, yaxşı gün də. Şəhər uddu məni, məhv etmək istəyirdi, yemək istəyirdi, şəhər məni. Yaxşı adamlar qoymadılar, əlimdən tutdular. Xoş günə çıxartdılar. Əfsanəni — sənin çox istədiyin o bədbəxt Əfsanəni çox axtardım, ana. Ancaq gördüm deyən olmadı, soraq verən olmadı. Ümidimi kəsdim, əlimi üzdüm ondan. Hələ evləndim də. Ancaq xoşbəxt ola bilmədim, ana. Yəqin ona görə ki, xeyir-duamızı sən verməmişdin. Eşidirsən, ana, xeyir-duamızı sən vermədiyin üçün xoşbəxt ola bilmədim. Dinmirsən, küsübsən, haqqın var, qurban olum. Yenə yaxşı ki, burda tək deyilsən. Yusifnən bir yerdəsən, bir torpaqdasan. Mən təkəm, ana, məni tək qoyduz, tək-tənha qoyduz...»

Elməddin beləcə xeyli öz-özü ilə həsb-hal elədi əzizlərinin qəbri üstündə. Doyunca ağlayıb ürəyini boşaltdı, yüngülləşdi. Qalxdı. Sonra təzədən əyilib əlilə qarı eşələdi, hər iki qəbrin nəm torpağından öpdü...

«Gedirəm, anam, qardaşım... Kim bilir, bir də qismət olacaqmı gəlib sizi ziyarət eləyim», — deyərək ağır addımlarla qəbiristanlıqdan uzaqlaşdı...

ONUNCU FƏSİL

Adamın öz evi, öz isti ocağı necə yaxşı imiş, rahat imiş! Ata yurdundan çıxdığı gündən keçən bu illər ərzində Elməddin haralarda yaşamamışdı? — çayxana günclərində, təpə üstündə açıq havada, Şəfigildə, ağayi Nəcməddinin işlər müdiri üçün ayırdığı tək otaqda, nəhayət, nəhayət, bərli-bəzəkli gəlin otağında — Zərrintacla birgə!..

Bunların hamısı — hərəsi bir cür onu sıxmışdı, əzmişdi. Özgə paltarı geymiş adam kimi hiss eləmişdi özünü Elməddin. Hətta Zərrintacla yaşadığı o gen-bol, muzəyyən otaqlarda da o, qonağa oxşamışdı.

Ancaq indi... indi bu qədər sıxıntıdan sonra; Şəfinin köməkliyi və bələdçiliyi ilə aldığı otaqlarda yazıq rahatlığa çıxmışdı, sıxıntısız, çəkinmədən yaşayırdı; bu otaqlar elə bil, daha geniş idi, daha işıqlı idi. Düzdü, Zərrintacın otaqları kimi zəngin, bahalı mebellə, xalılarla, çilçıraqlarla bəzənməmişdi, müqayisədə çox sadə idi, kasıbyana idi.

Nə olsun, bunun heç bir eybi yoxdu. Ona ləzzət verən bu idi ki, özünün idi hər şey — yerli mebel də, daş-divar da, həyət-baca da onun idi. O, kəndə, anasının, qardaşının qəbrini ziyarətə gedəndən sonra Əhədulla evə nə lazım idisə alıb gətirmişdi. O gələnə qədər isə, arvadı və qızı Siminbər ev-eşiyi silib-süpürmüş həyət-bacaya əl gəzdirmiş, alınan şeyləri səliqə-sahmanla otaqlara yerləşdirib bəzəmişdi. Bu işi elə həvəslə və ölçüb biçə-biçə görmüşdülər ki, heç nəyin yerini dəyişmək lazım gəlməmişdi.

Elməddin heyran-heyran otaqları gəzmiş, bəyənmişdi, yanındakı Əhədullaya minnətdarlıq dolu nəzərlərlə baxaraq dil-ağız eləmişdi. Həyətə açılan pənəcərənin ağzına qoyulmuş yazı stolunun arxasında oturmuş, rahat olub-olmadığını yoxlamaq istəmişdi və bu zaman düz gözləri önündəki divara vurulmuş şəkli görəndə heyrətlənmişdi — bu, Siminbərin Elməddin tərəfindən çəkilmiş şəkli idi. Onu Əhədullagildə divarda görmüşdü. Şəfi də... Elməddin də qanrılıb Əhədullaya baxanda o, qəribə bir sıxıntı içərisində cavab vermişdi:

— Hə, onu bizim qız vurub. Dedim, ay bala, onu Elməddin əmin sənə bağışlayıb, qoy qalsın evdə. Dedi, yox, bizdə uşaqlar cırarlar, həm də çırağın hisi qaraldar.

— Nə olar, qoy burda qalsın, — deyə Elməddin nədənsə şəklin bura gəlib çıxmağına qəlbən çox sevindiyini duymuşdu. Və bu nə cür sevinc idisə, Əhədulla çıxıb gedəndən sonra da onu tərk etməmişdi. Evdə hərlənib-fırlanıb təzədən bura qayıtmış, divara vurulmuş o sadə, lakin mənzərəli-mənalı şəklə dönə-dönə baxmışdı; hətta ona elə gəlmişdi ki, bu şəkil olmasaydı, onun evi daha kasıb və işıqsız görünərdi. Bu nə hiss idi? Öz əsəri olduğuna görəmi belə doğma gəlirdi həmin şəkil? Yaxud onda təsvir olunan o məsum qız qəlbini ovlamışdı?.. Gözünün qabağına gəldi: Simin öz əksinə necə maraqla, hətta deyəsən heyrətlə baxmışdı. «Elə et, Zərrintac xanım görməsin!» deyəndən sonra necə ürkək bir hərəkətlə onu qoynunda gizlətmişdi?! Və indi, bu şəkli evlərindən gətirib bura, Elməddinin gözləri önünə vuranda nə düşünürmüş görəsən? Hələ Elməddini həyətlərində görərkən düşdüyü o həyəcanlı vəziyyət? Bütün bunlar kino lenti kimi birər-birər onun xəyalında canlanır, qəlbini qəribə hisslərlə doldururdu. Şübhəsiz idi ki, Siminbər ona vurulmuşdu, —

bunu görməmək, duymamaq mümkün deyildi. Ancaq... Elməddin daha evlənmək barəsində düşünmək istəmirdi. «Lazım deyil, — deyirdi, — mən daha evlənməyəcəyəm. Zərrintac kimi qəşəng və varlı qızla xoşbəxt ola bilmədimsə, demək, mən heç vaxt xoşbəxt ola bilmərəm. Əfsanənin ahı tutub məni yəqin. O bədbəxt məni çox istəyirdi, ağladı, göz yaşları axıtdı — yaxın durmadım. Arada nə maniə vardı? Kəbin kəsilmişdi, hamı «mübarək olsun, xoşbəxt olsunlar!» — demişdi. İkimiz bir otaqda idik — arada bir yorğan vardı, ancaq bir nazik yorğan. Yorğanın o üzündə o idi, bu üzündə mən. Bircə soyunub yorğanın altına girmək qalırdı — bunu etmədim, edə bilmədim. O nazik yorğanı adlayıb keçə bilmədim. Yox, yorğan söhbəti boş söhbətdi. Arada Yusif vardı, Yusifin ruhu, Yusifin nəfəsi vardı. Bəli, mən bunların üstündən adlayıb keçə bilmədim—ən uca hasar bunlar idi qabağımda. Sənin tökdüyün o göz yaşları qoymadı mən xoşbəxt olam, Əfsanə. Mənim o vaxt sənin hıçqırıqlarına rəhmim gəlmədi. Bəlkə də daşürəkli bir adam belə göz yaşlarından yumşalıb rəhmə gələrdi. Ancaq mən yox... İndi... budur qabağıma çıxır. Düzdü, mən onun — Zərrintacın qabağında ağlamadım, ağlamazdım da. Lakin onun məni saldığı vəziyyət ağlamalı idi. Əfsanə. Sənin xəbərin yoxdu, ola da bilməzdi. Onunla baş yasdığa qoyduğum gün sən bütün varlığınla gəlib önümdə dayanmışdın, Əfsanə. O ağ gəlinlik libasında səni görürdüm. Elə bilirdim bu toy bizim — sənlə mənim toyumdu. Onda axı bizim toyumuz olmamışdı. Onda elə-belə: səssiz-küysüz kiçik bir məclis qurulmuşdu. Halbuki bu mənim ən böyük arzum idi, Əfsanə. Qismət olmadı, neynim? Hə, onu deyirdim axı, həmin gecə elə bildim sənlə toyumdu. Gözümü açırdım, onu görürdüm, yumurdum səni.

Sən gəlib onun paltarını geyirdin, sən idin qucağıma alıb öpdüyüm, əzizlədiyim. Sən idin, sən idin... O danışanacan sən idin, o, səsini çıxardanda sən küsüb gedirdin elə bil, o gəlirdi. İşıq yanmamış qaranlıqda qoynumda sən idin; işıq yanandan sonra sən yenə küsüb gedirdin, o gəlirdi. Nə qədər istəyirdim sən, ancaq sən qalasan yanımda, bu mümkün olmurdu—o qətiyyətlə, həqiqət kimi gəlirdi, sən isə kölgə kimi, xəyal kimi çəkilib gedirdin, küsüb gedirdin... Getdin, sonra daha gəlmədin. Gəldi, sonra daha getmədi. Əfsanə. Getmədi...

Yox... ancaq xeyli müddətdən sonra mən getdim, qayıtmadım, qayıtmayacağam da... Deyirəm, insan ürəyi nə qəribədir, Əfsanə. Zərintac gəldi, getdi, heç nəyi qalmadı ürəyimdə. Sənin o küskün xəyalınla gizli döyüşdə tab gətirə bilmədi. Sən yenə varsan, sən yenə mənimsən. Ancaq budur, bu divardakı qızı görürsən? O da gəlib, Əfsanə. O da gəlib ki, sənin yerini tutsun ürəyimdə, səni mənə unutdursun, sənin kövrək xətrinə dəysin. Gəlib, öz şəklini də asıb başımın üstündən. Deyəsən, bərk gəlib, tufanla gəlib, təmiz ürəklə, xoş niyyətlə gəlib, qova bilmirəm onu. Niyə dillənmirsən, Əfsanə? Eşitmirsən səsimi? Yox, eşitmirsən, Əfsanə. Heyf, min heyf ki, eşitmirsən...»

Elməddin yuxarı baxanda görmüşdü ki, Siminbər divardan, başını dizinin üstünə qoyub fikirli-məhzun baxışlarını ona zilləyib. Lal-dinməz baxır... Dəmir buxarı yanır, Siminbər baxır...

Elməddin ah çəkib ayağa qalxmış, siqaret yandırıb çəkə-çəkə var-gəl eləməyə başlamışdı. Təzə mənzilində yatdığı ilk arxayın, rahat kecə də çalpaşıq, cavabsız suallarla dolu düşüncələrin içində səhər olmuşdu.

Maşın Elməddinin xoşuna gəlmişdi. Elə də köhnə deyildi. Əhədullanın uçmağa qanadı yox idi. Elə bilirdi ki, bitib-tükənməz bir xəzinə tapıb. Əslində isə, o, çörək tapmışdı, paltar tapmışdı uşaqlar üçün, xoş gün, xoş güzəran tapmışdı. Bu isə, onun üçün xəzinə kimi qiymətli idi. İlk qazancını gətirib Elməddinə göstərmişdi. Bir dəstə pul idi, onluq, iyirmilik, əllilik, hətta üç dənə də qırmızı yüzlük vardı pulların içində. Bu birgünlük qazancı idi. Bu qazancı onun Nəcməddinin idarəsindən bir ay ərzində aldığı puldan iyirmi-otuz rupi az idi... Əhədulla bir günün içində bu qədər pul qazanmağına sevinirdisə, Elməddin onun sevincindən ləzzət alıb fərəhlənirdi. Hələ təsəvvür eləyəndə ki, Əhədullanın ailəsi, balaları necə sevinəcək, bu fərəh birə-on artırdı. Onun gözünün qabağına doyunca çörək, ət, meyvə yeməyə imkan tapan, köhnə, cır-cındır paltarını dəyişən, qəşəngləşən o doqquz uşaq gələndə Elməddinin uçmağa qanadı olmurdu. Günlər beləcə keçirdi, Əhədulla maşınla şəhərdə fırlanıb, istədiyi yerə gedib-gəlirdi. Elməddinə vacib maşın lazım olanda isə, yenə, əvvəlki qaydada, şəxsi sürücüsü kimi qulluğunda dururdu. İstədiyi yerə aparıb-gətirirdi. Əhədullanın ciddi səylərinə baxmayaraq Elməddin

mümkün qədər maşından az istifadə etməyə çalışırdı, çünki ona sərf edilən vaxt Əhədulda üçün pul idi. Məhz buna görə Elməddin bu işdən bacardıqca boyun qaçırırdı.

«Pərçəm»də də günü iis keçmirdi. Xeyli vardı burada fəaliyyətə başlamışdı. Şəfi orada olduğu üçün özünü qərib hiss etmirdi,yoldaşların çoxu da, əvvəldən tanıyırdılar deyə heç bir sıxıntı çəkmirdi. Nəhayət, uzun çətinliklərdən, məhrumiyyətlərdən sonra, deyəsən, o, əsl yerini tapmışdı. İş o qədər də ağır deyildi; hərdənbir «Pərçəm» üçün günün vacib məsələlərinə aid karikaturalar çəkir, gələn məktubları çapa hazırlayır, qalan vaxtlarını isə öz yazıları üzərində işləməyə sərf edirdi. Daha şirkətlərə, toxucu kombinatlarına getməkdən, göz qamaşdırıcı pul bağlamalarını saymaqdan, cürbəcür məsuliyyətli sənədlərə, pul çeklərinə qol çəkməkdən canı qurtarmışdı. Onda fikri neçə yerə parçalanırdı, yazı üçün, düşünmək üçün imkanı olmurdu; axşamacan ora-bura qaçmaqdan, lüzumsuz şeylər barədə düşünməkdən beyni-başı yorulan Elməddin indi ancaq və ancaq yaratmaq haqqında düşünürdü. Buna görə o, Bəbirə, Şəfiyə minnətdar idi. Onların etimadını doğrultmaq Elməddinin indi yeganə borcu - idi, vicdani vəzifəsi idi. Ona elə gəlirdi ki, bu vəzifəni, bu borcu ödəmək üçün bir ay, bir il yox, illər boyu, bəlkə də ömrünün sonuna qədər canına, yuxusuna, istirahətinə, ömrünə belə heyfsilənmədən çalışmalıdı, vuruşmalıdı, heç nəyi, heç nəyi əsirgəməməlidi. Düşünürdü ki, həyatının mənası elə budur, — yazmaq, yaratmaq Bəbirin, Şəfinin, ümumən isə «Pərçəm»çilərin yüksək amalı, müqəddəs məqsədi uğrunda mübarizədir ömrünün mənası. Onun üçün bundan uca, bundan şərəfli amal yoxdur, ola da bilməz. Elməddin belə fikirləşirdi və bu, onun qəlbini sonsuz bir qürur hissilə doldururdu. Qürurla yaşamaq isə nə gözəl imiş!

ON BİRİNCİ FƏSİL

Elməddin imtina sənədini, idarənin, seyfin açarlarını Zərrintac xanımın gözünün qabağında stolun üstünə qoyandan, ertəsi günü talağı geri oxutdurandan sonra da milyoner qızı nə eşitdiklərinə, nə gördüklərinə inanmaq istəməmişdi. Doğrudur, o, evdən çıxan kimi

Zərrintac xanımı ağlamaq tutmuşdu, ha eləmişdisə, gözlərilə bacara bilməmişdi. Onlar söhbət etdiyi müddətdə yan otaqda dayanıb Elməddinin dediklərini eşidən, işin axırının belə qurtaracağını ağlına belə gətirməyən və buna görə də qulaqları guruldayan, çox sözü ayırd eləyə bilməyən Siminbər özünə gələndə artıq Elməddin çıxıb getmişdi. Zərrintacın hönkürtüsünə içəri girən Siminbər Elməddini orada görməyib ətrafa baxınmış, görməyib təəccüblənmişdi. Adi olaraq, qız ürəyində ondan incimişdi də: «Gedirsən, heç olmasa xudahafizləşəydin mənimlə, Elməddin!» — deyə fikrindən keçirmişdi. Ancaq bilməmişdi ki, Elməddin bu xanimanı tərk eləyəndə elə pərişan, elə həyacanlı idi ki, Siminbərlə xudafizləşmək belə yada düşməmişdi; onu ancaq küçədə, iti addımlarla getdiyi zaman xatırlamışdı, təəssüf eləmişdi, geri qayıtmaq isə mümkün deyildi. Siminbər bunu bilmirdi.. O, Zərrintac xanımın yanında dayanaraq təsəlli vermək istəmişdi, lakin deməyə söz tapmamışdı. Eləcə: —Ağlama, xanım!—söyləmişdi. Zərrintac xanım özünü Siminbərin yanında sındırmamaq üçün arada olan söz-söhbəti dilinə gətirməmişdi. Həqiqətdə o, Elməddini tamam-kamal atacağını heç xəyalına da gətirmirdi. Qulağı ilə eşitdiklərinə, gözü ilə gördüklərinə inanmaq istəmirdi. Buna Elməddinin «kişilənməyi», adicə şıltağı kimi, baxırdı: «Məni qorxuzmaq istəyir. Gözümün odunu almaq istəyir. Amma bacarmazsan, Elməddin. Mən Nəcməddinin qızıyam, mənimlə sən bacarmazsan!» — deyirdi öz-özünə. Hətta talağı geri oxunandan sonra da uzun müddət özünü tox tutmuşdu, ürəyində sınsa da, çəksə də, üzə vurmamış, deyib-gülmüşdü; sanki heç bir şey olmamışdı. Talaq nə idi ki, quruca kağız deyildimi, məgər insanları bir-birinə bağlayan kağızdı?! Yox, o, ümid eləyirdi ki, hər necə olsa, gec-tez Elməddini öz ayağına gətirəcək, təslim edəcək. Arada bu qədər var-dövlət var. Hələ bu var-dövlət bir yana dursun, Zərrintac kimi gözəl, cavan gəlindən kim imtina edər? Gərək nə qədər nadan olasan ki, taleyin sənə bəxş etdiyi belə cah-calaldan, belə gözəl bir can sahibindən imtina edəsən!—Zərrintac belə fikirləşmişdi. Lakin vaxt dolanıb-keçdikcə Elməddindən səs-səmir çıxmadığını görəndə narahat olmağa başlamışdı. Siminbər də çıxıb gedəndən, lap tək-tənha qalandan sonra o, bərk sarsılmış, qəlbində Elməddinə dərin nifrət

hissləri duymuşdu. Yaralanmış aslana dönüb gizli-gizli inləmişdi. Elməddin onun poladdan möhkəm olan qürurunu yaman sındırmışdı. Hərdən belə düşünürdü ki, indiyə qədər bir yana qalsın, bundan sonra yaşayacağı illərdə də heç kəs onu belə alçalda bilməz, bilməyəcək də. Bu, çox ağır bir zərbə idi ki, Elməddin ona vurmuşdu. Zərrintacın bədbəxtliyi bunda idi ki, özündə heç bir günah görmürdü. Xasiyyətindəki tündlüyü, «mənəm-mənəmliyi» başa düşmürdü, elə bilirdi ki, var-dövlət, gözəllik qadının ən ümdə keyfiyyəti və bəzəyidir; bunlara malik olan qadın hakimi-mütləq ola bilər, onun hər sözü qanun olmalıdı. Daha anlamaq istəmirdi ki, qadını gözəl edən, sevdirən, əziz eləyən onun var-dövlətindən, gözəlliyindən çox ürəyinin gözəlliyidir, hisslərinin səmimiliyidir, məhəbbətidir. Bax, bunu o, başa düşə bilmirdi.

Aylar keçdikcə o qisməti ilə barışır, Elməddini yavaş-yavaş unudurdu. Ancaq içərisində həmişə bir qırıqlıq, bir nisgil yaşayırdı və zaman-zaman onu incidirdi. Yaxşı ki, o, Elməddinin işlərini öz öhdəsinə götürmüşdü və elə çox məşğul olurdu ki, dərdini yadından çıxardırdı. Təkcə axşamlar yorğun-ərğın evə qayıtdıqda taleyinin acılığını xatırlayır, darıxırdı. Atasının qırxı çıxandan sonra o evə ayaq basmırdı. Ürəyi gəlmirdi. Balaca Nəcməddin də nə isə bir qardaş kimi, ata yadigarı kimi Zərrintacı cəlb eləmirdi. Nə sirr idisə, o uşaq dünyaya gələndən qəlbində ona qarşı heç bir duyğu hiss eləməmişdi. Bəlkə də bu ondan irəli gəlirdi ki, uşağı özünə ögey qardaş hesab edirdi, qanı qaynamırdı. Əbdül balaca Nəcməddinlə tək qalmışdı. Zərrintac atasının vəsiyyətinə əməl edərək evdə heç nəyə əl vurmamışdı. Əbdülün uşağa yaxşı baxdığını, ana kimi qayğısına qaldığını, gözündən iraq qoymadığını, yeməyinə, təmizliyinə, yuxusuna fikir verdiyini görüb sakit olmuş, axırıncı gün çıxıb getməmişdən qabaq nökərə bəzi məsləhətlər vermiş, hətta qorxuzub hədələmişdi də:

— Mərhum qibləgahım səni çox istəyirdi, Əbdül! — demişdi, — Gör nə qədər istəyirdi ki, ev-eşiyini də, körpə balasını da, var-dövlətinin böyük bir hissəsini də sənə tapşırıb getdi. Mənə yox, sənə ha. Bunu sən başa düşürsən?. İstədiyin kimi yaşa, ye, dolan, uşağa korluq vermə. Sənin ömrünün axırına qədər bu sərvət bəsindi. Ancaq səndən bir tələbim və bir xahişim var: tələbim budur ki, bu evə qadın

gətirməyəcəksən, hətta qulluqçu adı ilə belə, bura qadın ayağı dəyməyəcək.

— Arxayın ola bilərsiniz, xanım... Siz nə danışırsınız, xanım?

— İkinci xahişim odur ki, başqa fikrə — xəyanət fikrinə düşməyəsən. Onu bil ki, yerin deşiyində olsan belə, səni tapdıraram, cəzalandıraram.

— Əstəğfürulla, xanım. Mənim dünyada heç kəsim yoxdu. Nə fikrə düşə bilərəm, xanım? Bu uşaqdan, yəni ağamın bu əziz yadigarından başqa mənim kimim var? Mən bütün ömrümü ona sərf eləyəcəyəm, onun həm atası olacağam, həm anası.

— Bəli, başını sal aşağı, yaşa. Tale sənə də bir gün ağladı—bu evin həm nökəri oldun, həm də ağası.

— Allah ağamın qəbrini nurla doldursun, xanım. Cənnətməkan oldu o kişi. Mən onu ölən günəcən unutmayacağam, ruhuna dua oxuyacağam. Elə şərif və ləyaqətli insan dünyaya nüdrətən gələr. Tək idi o yer üzündə...—hıçqıra-hıçqıra əlavə etmişdi.

Əbdülün bu sözlərində böyük həqiqət vardı. Doğrudan da ağayi Nəcməddini onun kimi yaxından tanıyan, sevinclərini də görən, kədərlərinin də şahidi olan, faciəsini dərindən-dərinə anlayan ikinci bir adam yox idi. Bunların bir qismini Dünya xanım bilirdi; indi o da yoxdu. Dünyadan sonrakı günlərini isə Əbdül görmüşdü, başqa heç kəs. İnsan necə haldan-hala düşərmiş, ilahi! İnsan necə xoşbəxt olarmış, ilahi! Həmin insan bir xəyanət üzündən necə də dönüb ən bədbəxt adama çevrilərmiş, aman allah! Əvvəllər dünyanın bir çox əsrarından xəbərsiz olan, həyatın ancaq bir qarın çörəkdən, bir dəst paltardan, bir isti bucaqdan ibarət olduğunu zənn edən, Nəcməddinin evində sakit, aram bir ömür sürən Əbdül, Dünya xanım bu ocağın başına gələndən sonra nələr görmədi, nələr anlamadı?! Dünya xanım zahirən səadət gətirmişdi, ancaq sən demə, ondan da böyük fəlakət gətiribmiş. Əbdül onun gəlişindən sonra xoşbəxtliyin nə demək olduğunu, məhəbbətin sevincini, əzabını gördü, duydu, qısqanclığın acı zəhərini daddı, şərab içdi, yaxşılıqdan başqa heç nə görmədiyi ağasına xəyanət etdi, günaha batdı. Sonra bu günah getdikcə dərinləşdi, böyüdü, uçuruma çevrildi. Və mələk libasına bürünmüş o gözəl

qadın «bəsdi» demədi, dayanmadı. Özünü də məhv elədi, Nəcməddini də. Bu əzabları çəkmək üçün Əbdülü qoyub getdi, böyüyəndə sınmaq üçün, gözükölgəli yaşamaq üçün balaca Nəcməddini qoyub getdi.

İndi Əbdülün gözü açılmışdı, ağlı itiləşmişdi. O indi dünyanın hər üzünü görmüş, istisini-soyuğunu, şirinini-acısını dadmış müdrik qocaya bənzəyirdi. İndi o düşünə-düşünə, ölçüb biçə-biçə yaşayırdı. O bundan sonra oğlu üçün yaşayırdı—balaca Nəcməddin üçün. Onun üçün çəkdiyi əzab-əziyyətlərə görə bəlkə Allah böyük günahlarından keçə?! Keçərmi görəsən?!

Balaca Nəcməddin böyüyürdü, yavaş-yavaş danışırdı, kəlmə-kəlmə şirin sözlər söyləyirdi; Əbdülün sevinci qəlbinə sığışmırdı. Yeganə həmdəm kimi danışır, dərdləşir, bağrına basıb öpür, daha kimsədən ehtiyat eləmədən «oğlum»! — deyirdi.

— Nə yaxşı sən varmışsan, oğul, Sən mənim böyük sevincim, təsəllimsən, oğul, eyni zamanda sən mənim ən böyük günahımsan, bala, Bəlkə tanrı günahlarımı hər an mənə xatırlatmaq üçün səni mənə bəxş eləyib, hə? — deyə düşünürdü.

Balaca Nəcməddin Əbdülün başını elə qatırdı ki, günün nə vaxt axşam olduğunu bilmirdi, gecələr də, yatanacan xalça üstə ata-bala oynayırdı, güldürürdülər bir-birini. Ancaq Zərrintac xanımın vəziyyəti dözülməz idi. Təklik onu məngənə kimi sıxırdı, əzirdi. Axşamlar radioqəbulediciyə qulaq asmaqdan başqa heç bir məşğuliyyəti yox idi. Yenə Siminbər burda olanda yaxşı idi — danışırdılar, o yandan-bu yandan söhbət eləyirdilər. Nə sirr idisə, — Zərrintac bunu anlaya bilmirdi, — Elməddin gedəndən sonra qız da evdən-eşikdən soyudu, qaraqabaq, qaradinməz oldu və günlərin birində də ona heç nə demədən çıxıb getdi. Bunun səbəbini o, Əhədullada görmüşdü.

Bəli, indi Zərrintac, o qüruru yerə-göyə sığmayan Zərrintac tək-tənha qalmışdı, unudulmuşdu. Təklik əzabından, unudulmaq dərdindən qovrularkən, bir axşam radioda Elməddinin şerlərinin oxunduğunu eşitdi. Əvvəl söndürdü, sonra özünü saxlaya bilməyib axırıncı şerə qulaq asdı. Diktor qız armonun[1] həzin melodiyası altında deyirdi:

[1] Armon — Əfqan milli musiqi alətidir.

Könlüm səndən dönən deyil,
Gəlmir xoşuna, gəlməsin.
Mən sevirəm, qədrimi bil,
Nadan tuşuna gəlməsin.

İncit, necə istər kefin,
Əzabıma baxıb sevin!
Ölsəm, ağla, qoy heyifin
O göz yaşına gəlməsin.

Taleyimin üzü sərtdi,
Eşqindən dönən namərddi.
Unudulmaq yaman dərdi —
Gülüm, başına gəlməsin.

Zərrintac şeri dinləyib köks ötürdü, kövrəldi. Görəsən Elməddin bu şeri kimə yazmışdı? Əfsanəyə? Ya... Kimə?

ON İKİNCİ FƏSİL

Günortanın cırhacır vaxtı idi. İçəridə — otaqlarda, eyvanda bürküdən oturmaq mümkün olmadığından Əbdül ərik ağacının dibinə yığışmışdı: uşağın asma yüyürüyünü yam-yaşıl yarpaqlar arasında ərikləri saralıb yetişməyə başlayan ağacın yana əyilən iri budağından asmış, balaca Nəcməddini də nazik ipək tor köynəkdə yüyürükdə yatırmış, özü də balaca, girdə mizin arxasında oturmuşdu. Mizin üstündə çaynik, piyalə və şəkərdan vardı — piyalədəki yaşıl çay çoxdan soyumuşdu. Ərik ağacının sol tərəfində dördbucaq şəklində gül kolları əkilmişdi — həmişəbahar gülləri idi. Zahirən ləkə oxşayırdı. Ancaq əslində bu, ləkə deyildi, bu, Dünyanın qəbri idi və indi dünyada Əbdüldən başqa heç kəs bilmirdi ki, burada, bu həmişəbahar güllərinin arasındakı qara torpaq altında Dünya xanım uyuyur. Buranı Əbdül öz əlləri ilə belə səliqə-sahmana salmışdı və onun üçün nə qədər ağır olsa da hər gün bir neçə dəfə bura baş çəkir,

yanında oturur, çıxan alaq otlarını vurur, gülləri sulayır, dilinə bircə söz belə gətirmədən ürəyində özü ilə, Dünya xanım ilə, ağayi Nəcməddin ilə danışır-danışır və bir də görürdü ki, gözlərindən yaş axır. Qəlbi sıxılıb hövl eyləyəndə o, ya yerdə palaz üstündə oynayan, ya beşikdə uzanmış körpəni götürüb bağrına basır, öpüb-oxşayırdı.

Əvvəllər, hələ ağayi Nəcməddin sağ olanda Əbdül Dünyanın qəbrinin üstünə az-az, ancaq gül kolu əkmək, onlara su vermək bəhanəsi ilə gəlirdi. Özü də gündüzlər, gecələr isə, öz hücrəsinə çəkilməmişdən qabaq, dərdli-dərdli, təəssüf hissi ilə başını yırğalaya-yırğalaya bu ərik ağacının dibinə baş çəkər, qəbrin ayaq tərəfində xeyli dayanar, xəyalında Dünyanı məzardan çıxarır, gah öpüb-oxşayır, gah da nifrətlə acı sözlər deyib ürəyini boşaltdıqdan sonra gedib yatırdı. Ağayi Nəcməddin də dünyadan köçəndən, qonaq-qaranın, Elməddinin, Zərrintac xanımın əl-ayağı çəkiləndən, o, balaca Nəcməddinlə burada tək qalandan sonra isə həyət-baca suyu sovulmuş dəyirmana oxşayanda, kişi tənhalaşanda beyni ayazımış, hissləri durulmuş, başına gələn qəzavü-qədər barədə arxayın-arxayın düşünməyə macal tapmışdır. Və Əbdülün ürəyində böyük bir cinayətin gizli məhkəmə prosesi başlanmışdı. Bu məhkəmə prosesinin iştirakçıları Nəcməddin, Dünya xanım, Vəlixan və Əbdül özü idi, şahid-filan yox idi — bəzi işlər balaca Nəcməddinin gözü qabağında olmuşdu, ancaq o şahidlik eləyə bilməzdi, çünki onun gözü ilə gördükləri hələ yaddaşının maqnit lentinə həkk olunmamışdı, olunanı da o, hələ insan dilinə tərcümə eləməyə qadir deyildi, çünki bu dili o özü də bilmirdi hələ.

Əbdül ümumiyyətlə yuxu aləmindən ayılmamışdı elə bil. Bu xannmana düşəndən üzü bəri başına gələn bütün əhvalatlar ona həqiqətən röya kimi görünməkdə idi, bəzən elə hallara düşürdü ki, gözləri ilə gördüyü şeylərə də inanmaq istəmir, «yox, məni qara basır mənim başıma hava gəlir!» — deyə xoflanırdı. Məsələn, cibində ağayi Nəcməddinin əli ilə yazdığı məktub vardı və o kağıza əsasən bu ev onun idi, filan qədər pul onun idi—ancaq Əbdül buna inanmaq istəmirdi; inansaydı, indiyə qədər bir toyuq hini boyda daxması olmayan Əbdülün sevinci yerə-göyə sığmayaydı gərək, inansaydı, ömrü boyu qəpik-quruşdan başqa pul görməyən Əbdül milyonların

sahibi olandan sonra gərək şadlığından atılıb-düşəydi, fərəhindən ürəyi dağa dönəydi. Ancaq o, bütün bunlara başqasının başına gəlmiş nağıl kimi baxır, zərrəcə sevinə bilmirdi. Yenə əvvəlki kimi özünü nökər sayırdı, elə bilirdi ki, ağa da, xanım da harasa gedib, gecmi-tezmi gələcək. Elə bilirdi ki, onlar gedəndə həyət-bacaya, ev-eşiyə, uşağa yaxşı baxmağı tapşırıblar, o da ağasının, xanımının sözünə itaət edərək öz vəzifəsini vicdanla yerinə yetirir. Halbuki Əbdül uşaq deyildi, hamıdan, hər kəsdən gizli saxlamağa çalışsa da yaxşı bilirdi ki, bax indi o yüyrükdə mışıl-mışıl yatan körpə ağayi Nəcməddinin oğlu deyil, onun öz oğludur, öz ciyərparasıdır. Və bu boyda həqiqət də çox vaxt ona yalan kimi, nağıl kimi, yuxu kimi görünürdü. Bax məhz belə anlarda o çaşıb qalır, düşüncələrinin kələfi pırtlaşır, nəyin haqq-həqiqət, nəyin yuxu, yalan olduğunu ayırd edə bilmirdi. Topdağıtmaz ev-eşik, qızıl-gümüş, pul-filan o yana qalsın, uşağın özü Əbdülə gah munis, doğma, baldan şirin görünür, gah da yad, uzaq, əfsunlaşmış təsiri bağışlayırdı və bu zaman o, körpəyə qorxa-qorxa baxır, onda nə isə qəribə, anlaşılmaz sehr olduğunu hiss edir, dilsiz-ağızsız uşaqdan vahimə içində qaçmaq, uzaqlaşmaq istəyirdi. «Sən cinsənmi, əcinnəsənmi, bala, sənin ayağın nə ağır imiş, oğul. Sən dünyaya gəlməmiş ağayi Nəcməddində, anan Dünya xanım da, mən də arın-arxayın, rahatca ömür eləyirdik, bala. Ağam Nəcməddin cavan, qəşəng Dünyanın məhəbbətindən xoşbəxt idi, Dünya isə ərinin ad-sanından, var-dövlətindən, uşaq nəvazişlərindən bəxtəvər idi, mən də — dünyada bir qarın çörəyi, bir isti bucağı səadət sanan mən də Dünyanın hər şeydən şirin, hamıdan gizli vüsalından sərxoş idim, oğul. Dərdsiz-qayğısız yaşayırdıq, bu dərdlərlə dolu dünyada. Ancaq sən gələndən sonra — ayağın nə ağır imiş?! — aləm qarışdı bir-birinə. Dünya dəyişdi, bala. Dünya qorxaqlaşdı. Dünya məndən üz çevirmək istədi, o kürən köpək oğluna meyl salmaq fikrinə düşdü. Mən də buna dözmədim, oğul. Yox, bunları sənə niyə deyirəm, bunları sən bilməməlisən, bala, bu sirlər mənimlə qəbrə getməlidi, qəbrə, oğul» — deyərək xoflu-xoflu əyilib yatan uşağa baxırdı, yuxu aləmində olduğunu yəqin edəndən sonra arxayın nəfəs alıb toxtayırdı. Sonra özünü bu nöqtədə tuturdu ki, axı o, bu sözləri bərkdən demirdi, ürəyindən keçirirdi, uşaq bunları necə eşidə bilərdi?

Hətta oyaq olsaydı belə, yenə eşidə bilməzdi. Bu həqiqəti dərk eləyəndən sonra Əbdül lap arxayın olurdu. Çox keçməmiş ağayi Nəcməddinin solğun, arıq siması gözləri qabağında peyda olurdu — o, həyətin o başından ağır, ləngərli addımlarla bura, ərik ağacının dibinə gəlir, əvvəl boylanıb beşikdə yatan körpəyə diqqətlə baxır, onu sağ-salamat görüb gülümsünür, sonra baxışlarını döndərib Dünyanın çiçəklik-güllük içində uyuyan qəbrinə nəzər salır, kirpik çalmadan dəqiqələrlə ora tamaşa edir, yanaqlarından yaş axmağa başlayanda üzünü çevirib Əbdülü görürdü. Əbdül, təbiətinə uyğun olaraq, əlini sinəsinə qoyub baş endirəndə kişinin sifətinin ifadəsi dəyişir, yanağındakı yaş quruyur, üzündəki təbəssüm yoxa çıxır, gözlərində bir qəzəb odu yanırdı və o, addım-addım irəli yeriyərək damarları çıxmış uzun əllərini onun boğazına sarı uzadır, xırıltılı səslə:

— Səni boğacağam, Əbdül! — deyirdi. — Sən xəyanətkarsan, sən namərdsən, Əbdül. Mənim çörəyim, mənim çəkdiyim əzablar gec-tez səni tutmalı idi. Bax, indi səni mən öz əllərimlə boğacağam, cəzana çatdıracağam, namərd!

Bu zaman Əbdül oturduğu yerdə özünü geri atır və hərəkətindən səksənib xəyaldan ayılırdı və hərəsan halda əlini göylərə qaldırıb:

— Allah, sən özün keç günahımdan!—deyə yalvarırdı. Ağayi Nəcməddinin xəyalının zəhmi o qədər ağır olurdu ki, Əbdül uzun müddət özünə gələ bilmir, gözləri hədəqəsindən çıxmış halda o yan-bu yana boylanır, indicə burda olan kişinin hara çəkilib getdiyini öyrənmək istəyirdi — onun gəlişi nə qədər aydın olurdusa, gedişi bir elə mübhəm, anlaşılmaz olurdu və Əbdül yenə də burada həqiqətlə xəyalın bir-birinə qarışdığını aşkarca hiss eləyirdi.

Az sonra qonşunun kürən oğlu peyda olanda... — bax, tək onda Əbdül ağzını açmağa, kəlmə kəsməyə imkan vermədən onun üstünə atılır, o da lal-dinməz çəkilib gedirdi. Əbdül, qəribə idi ki, ölüb gedəndən sonra da ona qarşı ürəyində çox güclü bir kin bəsləyirdi və bu kin Əbdülə əcaib bir güc verirdi. O, yalnız kürəni düşünəndə, onun vücudunu, maşınını gözünün qabağına gətirəndə dirçəlir, özündə qüvvət-qüdrət hiss eləyir, tutduğu bütün günah işlərin hamısının

cəzasını, əzabını çəkməyə qadir olduğunu anlayır və bundan qəribə bir sevinc duyurdu. «Səni ağayi Nəcməddinə mən öldürtmüşəm, kürən, əcəb də eləmişəm. Rədd ol get buradan, yoxsa, səni təzədən özüm öldürərəm, kürən. Sən mənim səadətimə göz dikmişdin— mən o gözləri oyum-oyum elərəm, kürən. Get, təzədən ölmək istəmirsənsə, get, kürən! — deyə qarasınca asıb-kəsərdi. — Dünyanı görməyə gəlmisən? Ay özün öləsən. Onun nəinki özünə, hətta qəbrinə də yaxın düşməyə qoymaram səni, kürən».

Əbdül kürəni beləcə «qovandan» sonra azca asudə nəfəs alardı, qalxıb Dünyanın «gizli» qəbrinin başına dolanar, yenidən gəlib yerində oturardı. Gözlərini qəbrə zillərdi, baxardı, baxardı. Bu zaman sanki torpaq yarılardı, Dünya xanım zahir olardı. Əbdül bihuş kimi gözlərini yumardı, onun yüngül qədəmlərinin səsini, ipək xalatının xışıltısını eşidərdi. Əbdülün qorxudanmı, həyəcandanmı—ixtiyarı və iqtidarı olmazdı ki, yerindən tərpənsin, ona bir söz desin, ayaqları altına yıxılsın. Olmazdı. Dünyanın gəlişinin ilk anları Əbdülün yaddaşında məhəbbətli günlərin xatirələrini oyadardı; Dünya gözəlliyi ilə, iltifatı ilə, məhəbbət və nəvazişi ilə onun dərdli-ələmli, günahlı ürəyində anlaşılmaz duyğular yaradardı. Dünya xanım səssiz-səmirsiz, qanlı sinəsini (aman allah, hələ də o qan qurumayıb?) saçlarının pərişan tükləri ilə örtməyə çalışaraq oğlunun başı üstünə gələr, əyilib onun iri alnından, yumşaq, qonur tüklərindən, öpər, öpər, səyriyən dodaqlarının arasından bu sözlər çıxardı. «Can oğul, can oğul. Mənsiz necə dolanırsan, can oğul?» —Ağlayardı Dünya xanım. Onun ağlamasına Əbdül tab eləməzdi, dillənərdi:

— «Ağlama, Dünya».

Dünya o an qanrılıb ona nəzər salar, xeyli — diqqətlə-məhəbbətlə, nifrətlə baxdığı bilinməzdi — onu süzüb cavab verərdi:

— «Necə ağlamayım, Əbdül? Ciyərparamdan ayrı düşmüşəm, Əbdül, necə ağlamayım?»

— «O tək sənin ciyərparan deyil, Dünya. O ikimizin ciyərparasıdı, Dünya».

— «Sus, Əbdül. Sənə deməmişəm o sözü dilinə gətirmə?»

— «Mən heç kimə demirəm o sözü, Dünya, sənin özünə deyirəm təkcə.

— «Heç mənim özümə də demə, bildin? Mən onda özümü pis hiss edirəm, Əbdül!»

— «Baş üstə, Dünyam. Sənin özünə də demərəm daha. Ancaq sən ondan nigaran qalma, onu mən sənin ürəyin istəyən kimi saxlayacağam, Dünyam».

— «Sağ ol, Əbdül. Deyirəm nə yaxşı sən varmışsan, Əbdül. Yoxsa o tifil neylərdi? Mənim gorum da yanardı, sümüklərim də yanardı, Əbdül».

— «Arxayın ol».

— «Nəcməddin nə qəddar adam imiş, Əbdül. Mənə rəhm eləmədi, Əbdül. Ağladım, yalvardım, rəhm eləmədi. Çox daşürəkli adam imiş».

— «Onda günah yox idi, Dünya».

— «Bəs kimdə idi, Əbdül?»

— «Sən özün günahkarsan, Dünya».

— «Mən neyləmişəm ki?»

— «Sən... sən... o kürənə uymuşdun, Dünya».

— «Mən kürəni sevmirdim, Əbdül. Onunla elə-belə, əylənmək istəyirdim.»

— «Bax sənin bədbəxtliyin elə onda oldu, Dünya. O sənin nəyinə lazım idi axı? Sən odla oynamağa başlamışdın və od da səni yandırdı.»

— «Mən başa düşmədim ki, o, haradan duyuq düşdü. Sənin lə məni tuta bilmədi, heç ağlına da gəlmədi, Əbdül. Ancaq onunla aramızda heç bir şey olmamış, telefon söhbətindən tutdu.»

— «Yenə günah özündə oldu, Dünya!»

— «Niyə?»

— «Ona görə ki, mən var idim arada və mənim o cür böyük məhəbbətimə sənin xəyanət etmək fikrinə düşməyə haqqın yox idi — bu məhəbbət müqəddəs məhəbbət idi və ona xəyanət eləmək günah idi, böyük günah idi. Ancaq sən bunu eləmək istəyirdin. Özü də mənim gözümün qabağında. Məni adam saymadın. Buna isə mən dözmədim, Dünya. Mən sənin qulun idim, ancaq axı mən kişi idim — bax sən bunu unutmuşdun. Sənin bu xəyanətinə — telefon xəyanətinə mənim ürəyim dözmədi və mən səni o kürənin murdar

nəfəsindən qorumaq üçün, hər şeyi o gecə dəhşətli dərəcədə içəndən sonra ağama dedim. Ayıq olsaydım bəlkə də elə eləməzdim — cəzanı özüm verərdim. Ancaq sərxoş olub ona dedim, Dünya! Sənin əsl qatilin mən oldum, Dünya...»

— «Eh, yox, Əbdül, öz qatilimi mən son anda—ölümqabağı o dəhşətli anda yaxşı tapdım, tanıdım».

— «Kim idi, Dünya?»

— «Qatilim özüm oldum, özüm, Əbdül!..» Dünya belə deyib ağlar, sonra çəkilib gedərdi. Bu və bunabənzər xəyali söhbətlər, görüşlər o hər dəfə ərik ağacının dibinə gələndə baş verərdi və Əbdül bundan çox əzablar çəkərdi. Bu əzablar nə qədər ağır və dözülməz olsa da, Əbdül buraya gəlməkdən qorxmazdı. Kim bilir, bəlkə bununla o, Nəcməddinin, Dünyanın, körpənin qarşısında öz günahlarını yumaq istəyirdi, kim bilir?

* * *

Axşamçağı idi. Hava sərinləşmişdi. Günəş qərbdəki dağların başı arxasında gizlənməkdə idi. Əbdül xeyli vardı ki, balaca Nəcməddini götürüb evə gəlmiş, eyvanda yedirtmiş, sonra döşəmənin üstünə qoyub otaqlara əl gəzdirməyə başlamışdı. İş görə-görə düşünürdü ki, əcəb tək qaldıq, nə Zərrintac, nə dost-tanış — heç kim qapını açıb içəri girmir, ölübsünüz-qalıbsınız deyənimiz yoxdu. Nəcməddinin qırxı çıxandan sonra bircə nəfərin də bu həyətə ayağı dəyməmişdi və həmişə qonaqlı-qaralı olan ev-eşik sanki məzar sukutuna dalmışdı. Əlində supürgə otaqları, xalıları süpürən, səliqə-sahmana diqqət yetirən Əbdül ürəyində təklik hiss edir, xəyalında ağayi Nəcməddinlə, Dünya xanımla, hərdənbir də kürənlə, Elməddinlə həsb-hal eləyir, sözünü-söhbətini gah qəlbində, gah da ucadan söyləyir, demək olar ki, öz-özünə danışırdı.

Balaca Nəcməddin onun arxasınca yıxıla-dura gəzirdi, təzəcə danışmaq istədiyindən öz anlaşılmaz dilində nə isə deyirdi, Əbdül ha dinləyirdisə, heç nə anlamayır, axırda naəlac, «dilinə qurban olum, oğlum, hə, düz deyirsən!» — deyirdi. Arada bir uşaq kürlük eləyəndə, onu yerdən qaldırıb bağrına basır, ağ-qırmızı üzündən şirin bir nemət kimi öpüb təzədən xalçanın üstünə qoyurdu.

Pəncərənin qabağına qoyduğu yapon tranzistoru—«Sonya» əfqan mahnılarından ibarət konsert verirdi. Əbdül şüşələri silə-silə qulaq asır, beynindəki gərginliyi, qatmaqarışıq hissləri qovmağa çalışaraq nəğmələrin ahənginə uymağa, onlarda ifadə edilən vüsal, hicran anlarına aid nöqtələri seçməyə və özü ilə Dünya arasında olan eşq məcarasında o anları axtarıb tapmağa çalışırdı. Vüsala aid misra olanda o nəğmələrdə, Əbdül sevinirdi və düşünürdü ki, mənim də belə xoş günüm, saatım olub. Dünya eynən beləcə xoşbəxt eləmişdi məni. Ayrılıq dəmlərindən bəhs eləyən misraları eşidəndə Əbdülün qeyri-iradi olaraq ürəyinin başı göynəyirdi və fikirləşirdi ki, bu ayrılıq — Dünya ilə onun arasında yaranmış bu ayrılıq əbədidir, bir də Dünya geri qayıtmaz, bir də onu xoşbəxt edə bilməz, yox, yox, edə bilməz.

Belə düşünə-düşünə, o, şkafa əl atdı və birdən bir ovuc üzük, sırğa, boyunbağı, qolbaq, xal-xal görüb təəccübləndi. «Bunları buraya kim qoyub?» — deyə düşünərkən birdən yadına düşdü ki, bu qızıllar, brilyantlar Dünya xanımındır, o məşum gecə, bunlar hamısı onun barmaqlarını, qulaqlarını, biləklərini, sinəsini, topuqlarını bəzəmişdi, bərq vururdu çilçıraq işığı altında. Dünyanın vücudu onları, onların varlığı Dünyanın vücudunu bəzəyirdi, yaraşığa mindirirdi. Onları görən kimi Əbdülün halı dəyişdi. Bu dilsiz-ağızsız daş-qaş, hamısı bir yerdə bir ovuc belə olmayan ləl-cəvahirat o boyda Dünya xanımı torpağın altından çəkib dərhal çıxartdı, nəfəs verdi, qaytarıb bu otağa gətirdi. Əbdülün nəzərində Dünya canlandı, Dünya gülümsündü və az sonra arxası üstə — qan içində çapalayan, gözləri tavana zillənən bir varlığa çevrildi. O xatırladı ki, içəri girəndə Dünya beləcə uzanmışdı — sinəsindən, sol döşünün altından qan fışqırırdı, iri, geniş açılmış gözləri çilçıraға dirənmişdi. Ağayi Nəcməddin əlində tapança başının üstündə dayanmışdı, sifətində qəzəbqarışıq bir təəssüf ifadəsi vardı. Əbdülün o anda dediyi sözlər öz qulaqlarında canladı.

— Ağa, sən neylədin? — Və o, vaxtilə dediyi bu sözləri yenidən eşidəndə Dünyanın öldüyünü, artıq bu aləmdə olmadığını xatırladı və bu da yadına düşdü ki, bax, bu ləl-cavahiratı ağayi Nəcməddinin əmri ilə, gördüyü mənzərədən heç nə dərk etməyən, sarsılmış Əbdül özü Dünyanın boyun-boğazından çıxartmışdı, harada

gizlədiyi də yadında deyildi, üstündən neçə ay keçəndən sonra onlar bax indicə tapılmışdı. Tapılmışdı və hərəsi ayrı-ayrılıqda ona yüz əzab vermişdi. Bax, bu brilyant qaşlı üzüyü görürsən? Bax, o üzük Dünyanın ağ, şümşad barmağını bəzəyirdi — Əbdül neçə dəfə Dünyanın əlini öpəndə onu dodaqlarına, gözlərinə sürtüb öpmüşdü, əvvəlcə sinəbəndi öpmüşdü, sonra Dünyanın sinəsini. Əvvəl sırqaları öpmüşdü, sonra onun boyun-boğazını; əvvəl xalxalları öpmüşdü, sonra topuqlarını, ayaqlarını. Hələ bu da yadında idi ki, Əbdülün ilkin daş-qaşı, sonra onun vücudunu öpüşlərə qərq etdiyini müşahidə eləyən Dünya bir dəfə zarafata salıb nazla demişdi:

— Deyəsən, yaman daş-qaş pərəstişkarısan ha?

— Necə bəyəm, Dünyam mənim? Nəyə görə belə deyirsən ki?

— Ona görə deyirəm ki, sən əvvəl bu daş-qaşı öpürsən, sonra məni! Əbdül bəxtəvərliklə gülüb cavab vermişdi:

— Səhv eləyirsən, gülüm. Ona görə əvvəl onları öpürəm ki, onlar sənin bu gül, bu nazik, bu ətirli bədənini hər gün öpmək səadətinə malikdilər, gülüm. Mən onları qısqandığımdan öpürəm, gözlərimin işığı.

— Yaman bicsən ha, — demişdi Dünya, — yaman şeytansan, Əbdül. Nəcməddin belə şeyləri, belə dilləri bilmir, Əbdül.

Əbdül dərindən bir ah çəkib ovcunda tutduğu daş-qaşa, sırğaya, üzüyə baxdı, baxdı. Dünya xanımın siması gözünün qabağında ötəri bir rəqs eləyib keçəndə yanaqlarını ilıq-isti yaşın islatdığını hiss elədi, əlinin içindəki parlaq daş-qaş öləziyib söndü, Dünya da, o daş-qaşın parıltısı da harasa uçub getdi. Elə bu zaman balaca Nəcməddin onun qıçlarına sarıldı. Təmasdan Əbdül huş-xəyal aləmindən ayrıldı, qanrılıb arxaya, ayağının dibinə nəzər saldı. Körpə, Əbdülün qıçlarına sarılıb nə isə deyirdi. Əbdül çevrilib aşağı əyildi və ovcundakıları Kaşan xalçasının üstünə tökdü. Uşaq onların parıltısından gözü qamaşa-qamaşa bir Əbdülə, bir də onlara baxıb kiridi və çömbəldi. Totuq, ətli barmaqları ilə daş-qaşı qurdalamağa, oynatmağa başladı. Əbdül sağ əlinin arxası ilə gözlərini tutan yaşı silib nisgilli bir səslə:

— Bunlar sənindi, oğul, — dedi.— Bunlar sənin anandan sənə qalmış yadigarlardır, bala. Əhd eləmişəm, onların hamısını sənin seçib-bəyəndiyin qızın barmağına, boyun-boğazına özüm taxacağam.

Anan axıra qədər gəzdirə bilmədi bu daş-qaşı, arzu eləyirəm ki, sənin alacağın qız onları halallıqca, ömrünün axırınacan gəzdirə bilsin, can bala!!!

Balaca Nəcməddin daş-qaşı oynadır, onları oyuncaq sanır və arabir Əbdülə baxaraq ağappaq süd dişlərini göstərib qayğısız-qayğısız gülürdü.

ON ÜÇÜNCÜ FƏSİL

...Bu gün Zərrintac xanım işdən gələn kimi hamamı yandırıb çimmişdi. Uzun tiftikli qətfədə yataq otağına getmiş, iri bədənnüma güzgünün qabağında qurulanmış, öz mərmər bədəninə, sinəsinə kənar adam gözü ilə baxıb öz gözəlliyindən ləzzət alsa da, kövrəlmişdi də. Elməddin burda olanda belə hallarda onun yanında dayanır, qurulanmağına kömək eləyir, alt paltarını geyməyə imkan verməmiş, qucağına alaraq çarpayısının üstünə gətirir, «neynirsən geyinirsən, onsuz da soyunduracağam!» — deyib özü də yanına girirdi. Bu anları indi o qəribə bir nisgil və həsrətlə xatırlayırdı. Güzgü qabağında özünü tək görüb sinədolusu ah çəkdi və əlini uzadıb çarpayının başına atdığı paltarlarını həvəssiz-həvəssiz geyindi. Kresloda oturdu, boş, sahibsiz çarpayıya baxdı, gözləri doldu. Böyründəki radioqəbuledicinin düyməsini burdu və otağa Rəxşanənin[1] məlahətli səslə oxuduğu mahnının ilıq nəfəsi doldu. Zərrintac xanım ağır əhvali-ruhiyyəsini unutdu, azca yüngülləşdi və qeyri-iradi yan otağa tərəf:

— Simin, mənə bir piyalə çay gətir! — dedi və səsindən özü də səksəndi. Səhv elədiyini, hissə qapılıb hər şeyi unutduğunu xatırlayıb köksünü ötürdü. Və qalxıb özü üçün çay gətirdi. Ancaq çay içmək həvəsi öldü nədənsə. Piyalədəki çaya baxa-baxa fikrə getdi. Rəxşanə oxuyurdu, Zərrintac xanımın kədəri getdikcə artırdı. Təklik hissi bütün vücuduna hakim kəsilmişdi — inan ki, bu an, bax elə bu dəm Elməddin qapını açıb içəri girsəydi, Zərrintac durub qabağına qaçar, onun uca boynuna sarmaşıb: «Xoş gəlmisən, əzizim — deyərdi. — Bağışla məni, bilməmişəm. Keç günahımdan». Ancaq El-

[1] Rəxşanə xanım — Əfqan müğənnisidir.

məddin gəlmirdi. Gəlməyəcəkdi də. Bu həqiqəti bir daha dərk edib Zərrintac məst adam kimi ayağa qalxdı, küçəyə baxan pəncərənin qabağına addımladı, şəhadət barmağının ucu ilə tül pərdəni aralayıb çölə baxdı. Hava qaralmışdı. Cadədən tək-tük maşınlar, piyadalar keçib-gedirdi. Lap pəncərənin qabağından keçən iki kişidən birinin bu sözlərini eşitdi:

— İnsanın həyatda gərək dostu olsun, bala. Dostsuz insan düzdə bitmiş tək ağac kimi bir şeydi. Külək onu... — daha arxasını eşidə bilmədi Zərrintac xanım. Keçib getdilər. Lakin o kişinin sözləri beyninə işlədi onun. Yenə ümidsizləşib geri çevrildi, kresloda əyləşdi.

«Mən vəhşi kimi yaşamışam, aman allah. Bu boyda bir şəhərdə bir ürək dostum, munisim, rəfiqəm yoxdu. Kimsə qapımı açıb girməz, halımı soruşmaz. Mən dünyadan ayrı, tək, özüm üçün yaşamışam. İndi ürəyim partlayır — bir adam yoxdu ki, duram zəng eləyəm, yanıma çağıram, oturaq dərdi-dil eləyək, yoxdu, aman allah! — deyə düşünə-düşünə başını yırğaladı. — Bu nə ömürdü mən yaşayıram, ilahi?»

Çay artıq soyuyub buza dönmüşdü. Zərrintac xanım ovuna bilmirdi, canını qoymağa yer tapmırdı. Gözü hər dəfə boş çarpayısına sataşanda özünü və Elməddini orada görüb içində doğulan qəribə, sehrli hissi boğa bilmirdi, bütün vücudunu xoş bir gizilti gəzib-dolaşırdı. Elməddinin isti, iri əlləri onun sinəsində, boyun-boğazında, incə belində gəzir, nəfəsi üzünü yandırıb-qarsırdı. Ancaq bu bir an davam edirdi, Zərrintac gözünü açanda özünü kresloda oturmuş görür və ürəyini bir təəssüf hissi yandırıb-yaxırdı.

«İçmək istəyirəm. Yaman içmək istəyirəm! — deyə düşündü. — Qoy Əbdülü çağırım gəlsin. Ağam ona içməyi öyrədib. Dünya bir dəfə danışmışdı ki, o, içəndə necə məzəli olur; qoy gəlsin, onu ağlı başından çıxanacan içirdəcəyəm, qoy məni bir az əyləndirsin». Bu fikirlə ayağa durdu, mətbəxə keçib yemək tədarükü gördü, ayın-oyunu elə bura, yataq otağına gətirdi; soyuducudan bir viski şüşəsi, iki də piyalə qoydu stolun üstünə. «Qoy gəlsin, hazır görsün. Birdən məndən ehtiyat eləyib içməz». Sonra telefona yaxın getdi. Əlini dəstəyə uzatmışdı ki, küçə qapısının zəngi çalındı. Zərrintac xanım

duruxub dilləndi. Yox, kim idisə, zəngi aramsız basırdı. Zərrintac xanım həyətə düşdü, darvazaya yaxın gəlib açmamış soruşdu:

— Kimsən?

Qapının arxasından ilişikli—xırıltılı kişi səsi eşidildi:

— Mənəm, Zərrintac xanım.

— Sən kimsən axı?!

— Tanımadız, Zərrintac xanım? Mənəm—ağayi Siracəddinəm. «Ağayi Siracəddin» adını eşidən kimi Zərrintac xanım qapı arxasında olanı tanıdı — bu, atasının evdə tez-tez adını çəkdiyi, şəhərdə əhli-kefliliyi ilə məşhur olan, ağıllı qadınların qorxduğu, yüngül kişilərin ehtiram bəslədiyi ağayi Siracəddin idi. Zərrintac xanım öz evlərində onu bir neçə dəfə görmüşdü, qibləgahı ilə yeyib-içmişdi o. Nəcməddinin dəfnində də ağayi Siracəddin təşrif gətirmişdi, gedəndə isə, «səbirli ol, qızım!» — deyə təsəlli vermişdi. Zərrintac xanım bunu da bilirdi ki, Dünya xanımı qibləgahına o «bağışlayıb». Buna da fikir vermişdi ki, Dünya xanım Nəcməddinin evinə gələndən sonra Siracəddinin ayağı bu qapıya dəyməmişdi — görünür, kişi özü gətirməmişdi. Siracəddin Nəcməddindən bir az cavan olardı — saçları gümüşü idi, xırda, ancaq iti baxışlı gözləri vardı. Şax yerişi, şax qaməti onu yaşından cavan göstərirdi. Siracəddin Zərrintacın xatirəsində belə qalmışdı. «Bundan nə əcəb? deyə heyrət və maraq içində qapını açdıqda Siracəddin həyətə daxil oldu və mehriban bir ədayla:

— Salamunəleykum, qızım! — dedi.

— Salam, Sirac əmi, xoş gəlmisiniz.

— Xoş günün olsun, qızım.

— Buyurun yuxarı.

— Elə burdan keçirdim, dedim görüm necəsiniz.

— Lütfunuz artıq olsun, ağa...

Qabaqda Zərrintac xanım, arxada da o, yuxarı qalxdılar. Bayaqdan beynində içmək həvəsi dolanan Zərrintac xanım qeyri-iradi olaraq onu stol açılmış otağa gətirdi.

— Oho, əməlli-başlı yemək-içmək üstünə gəlib çıxmışam ki, — deyə Siracəddin dillənəndə Zərrintac xanım onu bu otağa gətirməkdə səhv elədiyini anladı, lakin gec idi.

— Hə, — deyə gülümsündü, — qayınananız sizi çox istəyirmiş.

— İndi istəməsin, — dedi Siracəddin və bununla qayınanasının öldüyünü bildirdi.

— Əyləşin, ağa,

Siracəddin kresloda əyləşib süfrəyə göz gəzdirdi. İki piyalə görüb xırda gözlərini bir az da qıyaraq bic-bic qımışdı: «hə, qonaq gözləyir hərif. Kimdi görəsən? Elməddini qovub — o gəlməz. Amma maraqlıdı. Qəribə vaxt gəlib çıxmışam». Sonra başını qaldırıb Zərrintac xanıma nəzər saldı — onun çimdiyini dərhal başa düşdü. Çünki hələ saçları tamam qurumamışdı. Ərə gedib çıxandan sonra Zərrintac bir az da qəşəngləşmiş, gəlinləşmişdi. «Doğrudan da o Elməddin axmaq imiş. Belə xanım-xatın arvadı qoyub getmək ən azı divanəlikdi. Hələ onun malı-dövləti bir yana, özü bir aləmdi» — deyə qəlbindən keçirən Siracəddin gəlib qənşərində əyləşən Zərrintac xanıma müraciətlə soruşdu:

— Günün-rüzgarın necədi, qızım?

— Sağ olun, ağa. Yaxşıyam.

— Bir ara eşitdim ki, — deyə o, balaca yaraşıqlı, gümüş haşiyəli qəlyanını və tənbəki kisəsini cibindən çıxarıb doldura-doldura sözünə davam elədi, — eşitdim ki, bəs ağayi Elməddindən ayrılmısan.

Zərrintac xanım kəskin bir tərzdə:

— Onu özüm evdən qovmuşam, ağa!! — dedi, — xahiş edirəm, onun barəsində danışmayaq. Olarmı?

— Əlbəttə, əlbəttə. Mən bunu ona görə soruşdum ki, bu xəbəri eşidəndə, düzü, bərk nigaran qaldım. Hər necə olsa, biz ağayi Nəcməddin mərhumla yoldaş olmuşuq, duz-çörək kəsmişik. Özümə borc bildim ki, bir sizə baş çəkim, görüm nə var, nə yox, bəlkə bir şeyə ehtiyacın-zadın var.

— Sağ olun, ağa. Mənim heç bir şeyə ehtiyacım yoxdür. Özünüz bilirsiniz ki...

— Bəli, bəli, — tez onun sözünə qüvvət verdi ağayi Siracəddin, — orası elədi, qızım. Amma yenə borc bildim.

— Lütfünüz artıq olsun, ağa.

Siracəddin qəlyanını yandırdı. Tüstünü ciyərlərinə çəkə-çəkə fikirləşdi ki, qız onunla çox tünd danışır və səbəbi də bu ola bilər ki, indicə yanına kimsə gələcək, ona görə məni başından eləmək istəyir. Ancaq maraq onu almışdı — gələn kim olacaq? Bəlkə içəridədi elə, Siracəddinin gəldiyini görüb otaqların birində gizlənib? Olmazmı? Siracəddin—ömrünü qadın ağuşunda keçirən, saysız-hesabsız qadın dünyası, məhəbbəti, məkri görən Siracəddin bu işin axırına çıxmadan, elə-belə durub getmək istəmirdi. Lakin Zərrintac xanım elə üz göstərirdi ki, kişinin getməkdən özgə çarəsi qalmırdı. Odur ki, qızın ağzını arayıb əsl fikrini bilmək üçün bir də fikrindəkinin üstünə qayıtdı:

— Deyəsən qonağınız gələcək.

— Yox, yox.

— Bəs... bu nə dəm-dəsgahdı. — deyə o, süfrəyə, xüsusilə piyalələrə işarə elədikdə Zərrintac xanım:

— Qonaq-filan gəlməyəcək, ağa. Ovqatım təlx idi. İstəyirdim ki, bizimkiləri—yəni Əbdülü, uşağı çağırım, oturaq o yandan-bu yandan danışaq. Elə zəng eləmək istəyirdim ki, siz gəldiniz.

«Gör necə quraşdırır — toxuyur. Nəcməddinin qızıdı da».

Siracəddin belə düşünə-düşünə, araya çökmüş sükutdan istifadə edərək, otaqları, səs-səmiri dinşədi, qəlyanına bir qullab vurub ətrafa göz gəzdirdi, kişi paltarı — ayaqqabı, papaq, külqabı, siqaret nişanəsi axtardı, amma gözünə bir şey sataşmadı, təəccüb içində donub qaldı. «Bu nə sirdi, xudaya. Ağayi Nəcməddin özü, rəhmətlik sirr içində yaşadı, kimsə bilmədi ki, o, haradan gəlib, hara gedir, sirr içində də öldü — niyə öldürdü özünü, heç kəs bilmədi. İndi də qızı. Qız da əsrarlı qızdı deyəsən. Əsli-nəsəbi olmayan bir gədəyə ərə getdi — müəmma. Necə yaşadı — müəmma. Niyə o oğlan buna da, milyonlara da tüpürüb papağını götürərək çıxdı — bu da müəmma. İndi tək oturub, qabağına da iki piyalə qoyub — bu da müəmmadı, vallah. Yox, burda nə isə var.»

Bu zaman Zərrintac xanım kresloda yerini rahatlayıb çatma, alınmış qaşlarını yuxarı qaldıraraq viski şüşəsinə işarə ilə:

— Ağayi Siracəddin, bəlkə zəhmət çəkib o şüşəni açasınız, bir xidmət göstərəsiniz, — dedi və özünəməxsus bir rişxəndlə

gülümsündü. Ağayi Siracəddin onun bu kinayəsini dərhal anlayıb tez qəlyanını yerə qoydu və şüşəni götürüb rizəli qapağını buraraq açdı:

— Məmnuniyyətlə, xanım. Bizə lap xəcalət verirsiniz...

Zərrintac xanım kreslosunu stola yaxınlaşdırdı. İngilis gilaslarına[1] şərbət süzdü. Birini ağayi Siracəddinin qabağına, birini öz önünə qoydu. Ağayi Siracəddin də eynən belə elədi—viski süzdüyü piyaləni Zərrintac xanımın qənşərinə qoyub sual dolu bir nəzərlə onun ağ, ancaq kədərdən solğunlaşmış sifətinə baxdı, gözlərində nigarançılıq, narahatlıq oxumaq istədi. Lakin onun siması da, gözləri də arxayınlıq ifadə edirdi. O, yol, qonaq gözləyən adama əsla oxşamırdı.

Zərrintac xanım eynən atası kimi, belə gözlənilməz, gəlişi bivaxt qonaqların hüzurunda etdiyi kimi, ağayana bir hərəkətlə piyaləsini qaldıraraq;

— Siz bizim xanimana xoş gəlmisiniz, ağayi Siracəddin,— dedi. Ağayi Siracəddin də piyaləsini götürdü, ağsaçlı başını sinəsinə endirməklə:

— Sağ olun, — dedi. — Lütfünüzə qarşı minnətdaram. — Dayanıb gözlədi. Ancaq Zərrintac xanım piyaləsini nazik, qırmızı dodaqlarına yaxınlaşdıraraq iri, uzun kirpikli gözlərini qıyaraq:

— İçin, için, ağa, — dedi. — Mən sizi gözləyirəm. Ağayi Siracəddin qıyıq gözləri ilə gülümsünüb:

— Diqqətinizə görə mütəşəkkirəm, xanım,— söylədi,—izn versəydiniz, mən bu piyaləni sizin şərəfinizə nuş edərdim.

— Buyurun.

Və ağayi Siracəddin yenə ağsaçlı başını sinəsinə endirdi, piyaləni dodaqlarına yapışdırıb viskini içdi. Xiyardan bir dilim götürüb yedikdən sonra:

— Badrəng[2] viskinin dərmanıdı, xanım — dedi və sözünün yerinə düşmədiyini anlayaraq utancaqlıqla Zərrintac xanıma nəzər saldı. Bu zaman onun piyaləsini hələ içmədiyini görüb: —Xanım, bəs siz... içmirsiniz?!—deyə soruşduqda Zərrintac xanım:

[1] Gilas — stəkan.
[2] Badrəng — xiyar.

— Sağ olun, ağa, bizi yad eləyib gəldiyiniz üçün sağ olun, — deyərək piyaləsini başına çəkdi. Ağayi Siracəddin tez bir narıngi soyub ona tərəf uzatdı.

— Bu məltəni[1] buyurun.

— Sağ olun!—Zərrintac narıngidən nazik bir dilim qoparıb ağzına atdı.

Yemək yedilər azca. Sonra yenə ağayi Siracəddin viski süzdü. Viski artıq Zərrintacı bayaqkı gərginlikdən, kəmhövsələlikdən qurtarmışdı — o, bir az şənlənmişdi, sərbəstləşmişdi. Ağayi Siracəddinin də onun düçar olduğu böhranlı anların keçib getdiyini anlayıb qırışığı açılmışdı. Zərrintac xanımın heç bir nigarançılıq keçirmədiyini, rahatca oturub nə qapıya, nə səs-səmirə fikir vermədiyini görüb ağayi Siracəddin şübhədən çıxmağa başlamışdı. «Yazıq dərdlidi. Təkdi. Bəlkə də hövlündən belə eləyir biçarə?»—deyərək onun saçlarına gözucu, qorxa-qorxa baxır, yeyə-yeyə ordan-burdan danışırdı. Bu dəfə o qabağa düşdü. Piyaləni götürərək:

— Zərrintac xanım, siz yaxşı bilirsinnz ki, mərhum qibləgahınız, indi olmasın, mənim həmsöhbətim, yaxın adamım idi. Səxavətli idi o kişi, həyat adamı idi. Yeyib-içən, məclis yaraşığı idi, o olan yerdə insan insan olduğunu anlayırdı, o olan məclisdə insan başa düşürdü ki, biz bu fani dünyaya bir dəfə gəlirik, ikinci dəfə gəlməyəcəyik — ona görə ancaq şənlənirdik, dünyadan ləzzət alırdıq, nəfsimiz, ürəyimiz istəyən şeyə yox demirdik. Mən ömrümdə çox adamlarla oturub-durmuşam, yemişəm-içmişəm, ancaq ağayi Nəcməddinin, — Allah onun qəbrini nurla doldursun, — yerini heç biri verməyib. Mən o kişi ilə keçirdiyim günləri ömrümün ən xoş, ən unudulmaz günləri hesab eləyirəm və harda otursam, kiminlə otursam onu yad eləyirəm. Hara gedirəm, onun yeri görünür. Elə bir kişi yoxdu indi bizdə, bala. Vaxta ki indi onun ciyərparası ilə rubəru oturmuşam, o kişini mən gərək karratla, şükranlıqla yad eləyəm, qızım.

— Lütf edirsiniz, ağa.

[1] Məltə — narıngi.

— Bəli, o yad edilməyə layiq kişi idi. Sizin icazənizlə, mən təklif edirəm ki, bu piyalələri onun ruhi-əbədisinin şərəfinə içək, ona xudavəndi-aləmdən rahat axirət dünyası arzu edək.

— Sağ olun, ağa. Qədrdanlığınız üçün mütəşəkkirəm, ağa.— İçdilər, yedilər.

Növbəti piyalələrə viskini Zərrintac xanım özü süzdü. Onun rəngi allanmışdı, gözlərində bir xumarlıq əmələ gəlmişdi. Damağında uzun amerikan siqareti tüstülənirdi. Bir-iki saat bundan əvvəl hiss elədiyi sıxıntı, kədər, tənhalıq onu tərk etmişdi, beyni dumanlanmış, dərdi yadından çıxmışdı. Bayaqdan bəri Siracəddinin buraya gəlişi ona müəmmalı görünürdüsə, indi fikirləşirdi ki, nə yaxşı oldu bu kişi bizə təşrif gətirdi. Və bu hissini gizləməyib;

— Nə yaxşı oldu, ağa, siz bu gün Allah və bəndələr tərəfindən unudulmuş xanimanımıza təşrif gətirdiniz? Mən buna çox şadam, ağa. Çünki çox darıxırdım, çox pəjmürdə idim, ağa, bu gün. Nə üçün gəlmisiniz mən deyə bilmərəm, ancaq sizin bu gəlişiniz mənim üçün göydəndüşmə bir səadətdi, ağa.

— Mən heç bir şey üçün gəlməmişəm, qızım. Sadəcə olaraq, burdan keçirdim, dedim sənə baş çəkim, görüm necə dolanırsan.

Ömrünüz uzun olsun, ağa!

—Görürəm, sən çox mükəddərsən, mən səni başa düşürəm, ağayi Nəcməddin kimi ata itirən, sonra namərd kişi tərəfindən yalqız qoyulan bir cavan qadın üçün, bu dərdlər qayət dözülməzdir. Bunlar sənə—naz-nemət içində böyüyən, həyatda heç bir çətinlik görməyən sənə çox ağır və fəna təsir bağışlaya bilər. Ancaq gərək sən heç vaxt unutmayasan ki, kimin qızısan, necə dəyanətli-dözümlü bir kişinin qızısan.

— Hə, qibləgahım, doğrudan da qəribə kişi idi. Ancaq o, özü-özünü məhv elədi — Zərrintac xanım belə deyib ani susdu və birdən düz ağayi Siracəddinin gözlərinə şax baxıb əlavə elədi: — Əslində onu sən, sonra da Dünya xanım məhv elədiniz. Bəli, siz.

Ağayi Siracəddin yerində qurcalandı və irişə-irişə:

— Mən? — deyə sual etdi. — Mən?

— Bəli, ağa. Sən o Dünya xanımı qibləgahıma verməsəydin, o bu günə düşməzdi, ağa.

Araya sükut qanad gərdi. Bu sükutdan istifadə eləyən Siracəddin qəlyanının başına köz qoydu və dedi:

— Yox, xanım, sənin qibləgahın mənim yaxın adamım idi. Sən bilməzsən, amma mən yaxşı bilirəm ki, o, necə hal əhli idi, necə qadınpərəst idi. Lap cavan vaxtından, lap elə sizin mərhum ananızın sağlığında o, mənim yanıma tez-tez gəlib-gedərdi. Pulu çox idi, canı saz idi — gəlirdi, xərcləyirdi. Elə gecələri vardı ki, iki-üç qadını səhərəcən yanında saxlayırdı sənin qibləgahın. O, uzun illər mənim bir nömrəli müştərim olmuşdu. Mənim xanımlarımın hamısı onun əlinin duzunu dadmışdı və qəribə idi ki, hamısının ondan xoşu gəlirdi. O, bizim xanimana ayaq basanda xanımların gözləri parıldayırdı və ayrı-ayrılıqda hərəsinin ürəyindən keçirdi ki, ağanın hüzuruna getsin. Çünki ağa onları çox əfsunlamışdı. Çünki qadın cəzb eləyə biləcək hər şey vardı sənin qibləgahında — sənin qibləgahın aləm idi, xanım. Sonra da, lap axırda bu Dünya xanıma rast gəldi və mənə yalvardı-yaxardı ki, Dünyanı ona verim. Mən də dostluğumuz xatirinə verdim, xanım. Vurulmuşdu ona bədbəxt.

— Hə, yaman vurulmuşdu. Amma nanəcib çıxdı, qoydu, getdi və bu gedişi ilə yazıq qibləgahımın axırına çıxdı, ağa. Sizin tərəflərə qayıtmadı ki, o?

— Kim?

— Dünyanı deyirəm.

— Yox, xanım. Qayıtsaydı, nə dərdimiz vardı? Məncə, onu kimsə uzaq bir şəhərə aparıb — burda olsaydı, səs-sorağı çıxmışdı. Burda olsaydı, mən onu çoxdan tapmışdım. Şeytanın balası. Çox qəşəng idi. Elə arvadı olan, təcrübə göstərir ki, axırda həmişə bədnam olur. Gözəllik hardasa səadətdirsə, xoşbəxtlikdisə, hardasa da bədbəxtlikdi, müsibətdi, xanım. Sən cavansan, sən bəlkə də bu hikməti bilmirsən, ancaq mən, ömrümü-günümü bu işdə çürütmüşəm deyə bu həqiqəti çox yaxşı dərk eləmişəm, xanım yeri gəlmişkən, xanım, bunu da deyim ki, siz də qəşəngsiniz, olduqca qəşəngsiniz.

Zərrintac, başı dumanlı halda, bu sözlərdən səksənən kimi oldu, ancaq sonra canında, ürəyində incə, xoş bir duyğu oyandı, o, başını aşağı endirib sinəsinə, bədəninə, ayaqlarına ötəri nəzər salıb gülümsündü və:

— Kim? Mən? — deyə qəribə bir nazla soruşanda Siracəddin gözlərini onun məst baxışlarından çəkmədi:

— Bəli, siz, xanım, — dedi. — Siz, mən cəsarətlə deyərdim ki, siz Dünyadan da gözəlsiniz. Mən bu sözü, qadın gözəlliyindən başı çıxan bir kişi kimi, tam ciddiyyəti ilə deyirəm.

Zərintacın dodaqlarını təbəssüm araladı, yaraşıqlı bir boyda, bir biçimdə olan ağ dişləri göründü:

— Elə şey olmaz, ağa!

— Siz mənə inanın, inanın ki, bu, belədi.

Ağayi Siracəddinin sözləri Zərrintac xanımın canına yağ kimi yayıldı, bir anlığına o, bütün kədərini, dərd-qəmini unudub özünü xoşbəxt saydı, qonağını unudaraq ayağa qalxdı, stolun başına fırlanıb bədənnüma güzgünün qənşərinə keçdi və süzgün baxışlarla özünə tamaşa elədi, barmaqlarını daraq eləyib çiyninə tökülmüş saçlarına çəkdi. Bu zaman Siracəddin əlində iki piyalə güzgünün qabağına gəldi, piyalənin birini Zərrintac xanıma uzatdı və ona güzgüdə baxa-baxa:

— Bir fikir verin, —dedi və sağ əlinin şəhadət barmağını aynadan baxan xanımın qaşları, gözləri, dodaqları üstündə, sinəsində gəzdirdi — Dünyada belə qaş-göz vardı, belə dodaq vardı? Yox, xanım, yox.

Ağayi Siracəddin danışırdı, Zərrintac ancaq səsini eşidirdi və xəyalında özünün gözəlliyinə, zəifliyinə həmişə daxili, gizli bir qibtə hissilə baxdığı Dünya xanımla müqayisə edir, onunla özü arasında duyduğu gözəllik fərqləri qonağın şirin-şirin söylədiyi sözlərin təsirilə yavaş-yavaş silinib əriyir, Dünya onun nəzərlərində adiləşirdi. Ağayi Siracəddinin sözləri onun cavan ürəyini xoş bir əhvali-ruhiyyə ilə, xoşbəxtlik duyğusu ilə doldururdu. Zərrintac xanım güzgüdə dayanan əksinin boyun-boğazında, sinəsində gəzən əli görüb xoşhallanırdı. Şirin, ləzzətli sözlər deyən səs birdən susdu—bu sükutdan Zərrintac, xanım təəccüblənən kimi oldu— elə bu zaman ağayi Siracəddin piyaləsini irəli uzadıb artıq özünü hisslər aləmində hiss eləyən, dərdini, qayğısını unutmuş, yalnız qadın olduğunu xatirində saxlayan Zərrintac xanıma sarı döndü:

— Bu piyalələri, xanım, icazənizlə, şəxsən sizin, sizin gəncliyinizin, gözəlliyinizin şərəfinə içmək istəyirəm.

— O... Lütf... edirsiz, ağa... — Zərrintac xanım gözlərini süzüb.... piyaləsini başına çəkdi, Siracəddin də içdi... Və birdən:

— Bu piyalənin məzəsi gül dodaqlar olmalıdı —deyib onun dodaqlarından öpdü. Zərrintac xanım qəhqəhə çəkib güldü.

ON DÖRDÜNCÜ FƏSİL

Əbdül hasarın dibindəki qarajın qapısını açmışdı ki, maşına hava dəysin. Özü isə ortalıqda dayanıb göyərçinlərə dən səpirdi. Gün günorta yerində idi və istisi yandırıb-yaxırdı. Əbdül əyninə ağ köynək keymişdi, başıaçıq idi—günəşin hərarəti seyrək tüklü başını, kürəklərini xoş bir gizilti ilə qarsalayırdı. Boynu zəncirli, iri, hündür köpək, qabaq ayaqlarını irəli uzadaraq qırmızı dilini çıxarıb ləhləyirdi. Toyuq-cücə ağac, dam-divar dibində kölgələnirdi.

Darvaza döyüləndə Əbdül geri qanrıldı. Kim idisə, nabələd adam idi, zəngi basmaq əvəzinə dəmir qapını əlilə, bir az da ehtiyatla döyəcləyirdi. Əbdül dən qabını yerə qoyub irəli gəldi. «Kimsən, nəçisən» deyə soruşmadan kiçik qapını açanda çarşablı-yaşmaqlı bir qadının dayandığını görüb təəccübləndi. Yalnız gözləri işıldayırdı, sifəti, burnu örtülü olan qadın çəkinə-çəkinə Əbdülə nəzər saldıqda o, soruşdu:

— Kimi istəyirsən, a bacı? Qadın azca irəli yeriyib:

— Bəradər, bu ev ağayi Nəcməddinin evidir? — deyə xəbər aldı.

— Bəli, onun evidir. — Sonra marağını boğa bilmədi,— siz kimsiniz, həmşirəm?

— Mən... Bilirsiz, bəradərim, mən... Dünyanın bacısıyam... Bu sözləri eşidəndə Əbdülün başı gicəlləndi, gözləri qaraldı. Və o, heyrətdən böyümüş nəzərlərini qadının gözlərinə zilləyib diqqətlə baxdı — aman allah, bu gözlər necə də Dünyanın gözlərinə oxşayırdı? Əbdülə bir anlığa elə gəldi ki, Nəcməddin gözünün qabağında Dünyanı öldürməyib, o, öz olilə onu aparıb basdırmayıb, yox, basdırmayıb. Yəqin basdırdığı adam tamam başqa adam imiş, Dünya deyilmiş. Budur Dünya, indi gəlib. Ağa da deyirdi axı, o, harasa gedib.

Gedibmiş, görünür. İndi qayıdıb gəlib. Aman allah. Əbdülün bədəni od tutub yandı və o, çaşqın halda:

— Sən... sən Dünyanın bacısısan? — dedi və ondan ağıllı-başlı bir cavab almamış qadını içəri dəvət elədi: — Gəl həyətə, gəl görüm.

Qadın arxaya, yan-yörəsinə baxmadan, lal-dinməz, ayağını darvazadan içəri qoydu və girən kimi həyət-bacaya ötəri nəzər salıb sinədolusu ah çəkdi, — bu, Əbdülün diqqətindən yayınmadı. Əbdül qapını içəridən bağlayıb qadının yerişinə, boy-buxununa baxa-baxa onu eyvana çıxartdı. Balaca Nəcməddin iç otaqda, çarpayıda yatmışdı, ona görə səs-küyü gəlmirdi. Qadın eyvana, qapıya tamaşa eləyə-eləyə ortalıqda dayanmışdı. Əbdül handan-hana özünə gəlib:

— Əyləş,— dedi,— ayaq üstə niyə durmusan? — və ona divanı göstərdi. Qadın oturdu. Əbdül arxasını eyvanın sütununa söykəyib elə ayaq üstə, qənşərində dayandı. Araya ağır bir sükut çökdü, Əbdül gözlərini naməlum arvaddan çəkmirdi; o isə, kişidən çox həyət-bacaya, ev-eşiyə diqqət yetirir, nəyisə axtarırdı sanki. Birdən Əbdülün ürəyinə hardansa qorxulu bir şübhə axdı; bəlkə bu, onun bacısı deyil, oğrudu-əyridi? Azmı olur şəhərdə belə hallar? Ancaq qadının gözlərinin eynən Dünya xanımın gözlərinə oxşaması bu fikri beynindən dərhal qovub çıxartdı və o gözlərə bir də baxanda, nə zamansa — ah, o bəxtəvər günlər hanı, ilahi? — Dünya ona qırıq-qırıq, ordan-burdan — öz həyatını nəql edərkən bir bacısı olduğunu da söylədiyini xatırladı, ancaq o ad yadına düşmədi ki, düşmədi. Bax bu qadın adını desə, xatırlardı. Təkcə desə bəsdi. Onda Əbdül qadının həqiqətən Dünya xanımın bacısı olub-olmadığını, yalan danışıb-danışmadığını dərhal bilər və nigarançılıqdan çıxardı. Yeganə çıxış yolunu bunda görən Əbdül gözlərini qıyaraq xəbər aldı:

— Deyirsən sən Dünyanın bacısısan, hə?

— Hə, ağa.

— Sənin... sənin adın nədi, qız?

Qadın ona şax baxdı və tərəddüd etmədən:

— Mənim adım Heyrandı, ağa, — dedi... «Heyran» sözünü eşidərkən Əbdülün qulaqları guruldadı və əhvalı yenə dəyişdi. Hə, o da — Dünya xanım da «Heyran» demişdi bacısının adını. Hə, o da demişdi. Demək, bu qadın yalan demirdi, o, həqiqətən Dünyanın

bacısı idi. — Hə, düzdü, o da mənə Heyran adlı bacısının olduğunu söyləmişdi. — Bəli, ağa, biz dost-doğma bacıyıq. Mən onun böyük bacısıyam, ağa. Əbdül nigarançılıqdan qurtardığı üçün rahat nəfəs aldı və onu — hələ də bürüncəkdə oturan bu qadını ev-eşiyə, özünə məhrəm sandı. Demək o, balaca Nəcməddinin xalası idi, özgə adam deyildi. Belə olan surətdə, daha çəkinmək, hürkmək nəyə lazım idi? Əbdül onu yad adam kimi qarşılamışdı, ancaq qohum kimi yola salmalı, hörmət eləməli olduğunu anlayıb ehtiramla:

— Rahat oturun, Heyran xanım! — dedi. — Bura özgə yer deyil.

— Sağ olun, ağa.

— Mən... gözlərinizdən sizi Dünya xanıma oxşatdım o saat. Ancaq ürək eləmədim, inanmaq istəmədim. Siz əyləşin, mən bu dəqiqə çaydan-filandan təşkil eləyim...

— Yox, yox, mənə heç nə lazım deyil, ağa. Zəhmət. çəkməyin, siz allah. Mən eləcə gəldim ki, görüm... bacımdan bir xəbərətər öyrənə bilərəmmi? Siz allah, mənə danışın görüm... bacım hanı, başına nə qəzavü-qədər gəlib?..

Əbdül sanki indi ayıldı—başa düşdü ki, Heyran xanım bura təsadüfən gəlib çıxmayıb, o, yəqin bilirmiş ki, Dünya xanım bu evdə yaşayıb. Hələ bəlkə başqa şeylər də bilir... Və indi Əbdül ona nə deməli idi, necə deməli idi? Həqiqəti deməli idi, ya ağayi Nəcməddinin uydurduğu o yalanı söyləməli idi? Hansını? Dünya xanım onun əzizi olmuşdu, onun gizli şirin, unudulmaz, indi yuxu kimi görünən, nadanlığı ucundan məhv etdiyi məhəbbəti olmuşdu, yer üzündə yeganə yadigarının — balaca Nəcməddinin anası idi. Bunları Heyran xanıma deməkmi, susmaqmı? Yox, yox, bu sirr qəbir evinə qədər onun qəlbində qalmalı, kimsəyə bir kəlmə də olsa deməməlidi. Qərarı belə idi, belə də qalmalı idi. Ancaq Əbdül lap əvvəldən qəbul etdiyi bu qərarın Heyran xanımın qabağında laxladığını, uçulub dağıla biləcəyini — axı o, bacı idi, yad adam deyildi — hiss edib vaxt qazanmaq xatirinə qonaq üçün çay gətirməyə getdi, qayıdıb oturandan sonra, qəmini-nisgilini gizləməyə çalışaraq:

— Hə, — dedi, — Dünya xanıma çox oxşayırsız, Heyran xanım. Elə bil, bir almasınız — yarı bölünübsüz..

— Ağa, sizi and verirəm o bir olan Allaha, mənə ondan danışın, — bacımdan danışın, ağa. Mənim ürəyim partlayır, ağa. Deyin görüm hanı mənim bacım? Ölüb ya sağdı?

— Mən onu on beş ildən çoxdu görməmişəm, az qala şəkli-şəməyili də yadımdan çıxıb, ağa. Təkcə gözləri yadımda qalıb bədbəxtin. Mən «hurilər dərəsi»ndən çıxıb bu şəhərə gələndə, o, səkkiz-doqquz yaşında bir qız idi. Evimizin sonbeşiyi idi. Qibləgahım da, anam da, mən də o bədbəxti çox istəyirdik. Şeytan qız idi — deyən-gülən, atılıb-düşən şıltaq bir qız idi. Elə də gözəl idi ki, anam baxıb hərdən deyərdi: «Bu gözəl bir qız olacaq böyüyəndə. Allah eləsin bəxti də gözəl olsun!» Anadan olanda adını Səxavət qoymuşdular. Ancaq atam, onu çox istədiyindən «Dünya» deyə çağırırdı. Sonralar elə biz də Dünya deyirdik ona. Eləcə «Səxavət» adı unudulmuşdu, özü də biz də «Dünya» adına öyrənmişdik.

— Demək, onun əsl adı Səxavət imiş?

— Bəli, ağam. Səxavət idi. Mən qəryəmizə gedib öyrənəndən sonra ki, onu kimsə alıb şəhərə gətirib, neçə ildi burada axtarıram. Hər iki adla axtarmışam, ağa. Nəhayət, lap bu yaxınlarda onun ağayi Nəcməddin adlı bir kişinin evində yaşadığını öyrənmişəm...

— Hardan öyrəndiniz, Heyran xanım?

— Bilirsiz, ağa... Mən bu şəhərə düşəndən sonra dünyanın çox əcaibliklərini, qəribəliklərini, dəhşətlərini görüb eşitmişəm və başa düşmüşəm ki, insanlar vəhşiləşməyə doğru gedirlər; həyatda yaxşı adamlar olduğu kimi, pis adamlar da var. Pislər yaxşılardan da çoxdur və getdikcə də çoxalırlar. Bu da təəccüblüdü ki, pislərdən heç kəsin dönüb yaxşı olduğunu görmürəm, amma yaxşıların yavaş-yavaş dönüb dəyişdiyini, əclaf olduğunu çox görmüşəm, ağa.

Heyran xanım bura çatanda Əbdül yerində qurcuxdu, ona elə gəldi ki, qarşısındakı arvad onun özünü nəzərdə tutur. «Deyəsən bu arvad çox şey bilir axı?» — deyə düşündü və onu, sözünün axırını döndərməyə məcbur elədi:

— Onlar məlum şeylərdi, xanım. Siz mənə deyin görüm haradan bildiz ki, Dünya xanım — sizin bacınız, ağayi Nəcməddnnin arvadıdı?

— Hə, onu deyirəm də elə. Bizim məhəllədə ağayi Mumtaz adlı bir varlı kişi yaşayır. Onun Ətiqulla, adlı bir oğlu var. Kefcil, arvadbaz bir oğlandı. Oğlandı deyəndə ki, yəni yekə kişidi. Dörd arvadı var, pullu olduğuna görə, şəhərdə elə bir gözəl qız, gəlin tapa bilməzsən ki, o, ələ gətirməsin. Çox qızları bədbəxt eləyib, küçələrə salıb, çox evləri dağıdıb. Əlində o qədər qız-gəlin olduğuna baxmayaraq o şəhərin günc-bucağında saxlanan ümumxanalara da gedir. Hə, ağam, bu Ətiqulla dediyim belə bir kişidi. Bir dəfə kefinin kök vaxtında üzümə üz bağlayıb ona dedim ki, ağa, sizin tanış qadınlarınızın arasında Dünya adlı bir xanım olar birdən. «Dünya?» — deyib fikrə getdi, gözlərini yumub xəyalında nə isə araşdırdı və «yox» dedi. «Ağam, sizə yalvarıram, işdir, birdən sizə rast gəlsə, mənə deyin.» — dedim. «Yax...şı...ı» — deyib maşınını sürüb getdi. Neçə vaxt ondan səs-səmir çıxmadı. Mən daha ürək eləyib heç nə soruşmadım. Bu yazda, ağayi Nəcməddinin ölüm xəbəri şəhərə yayılandan az sonra bir gün o, məhəllədə məni görüb: «Sən Dünya xanımı soruşurdun deyəsən?» «Hə, ağam!» — dedim. «Tapmışam». O, elə deyəndə bilmirəm nədənsə ürəyim içəridə əsdi, halım dəyişdi... «hardadı, ağam» — deyə zorla soruşa bildim. «O, bu yaxınlarda özünü öldürmüş, ağayi Nəcməddinin arvadı imiş. Onu qoyub harasa qaçıb. Xa, xa. Qaçıb ey, bilirsən?».. Mən daha ondan heç nə soruşmayıb evə yüyürdüm.

— Eviniz hardadı, xanım?

— Daruləman[1] tərəfdədi, ağa. Ev deyəndə ki, adı evdi. Palçıqdan hörülmüş yastı-yapalaq bir daxmadı, ağa.

— Orda kimlə yaşayırsız, xanım?

Heyran xanım qəhərləndi, səsi ilişdi, piyalədəki çaya baxıb udqundu və təklif gözləmədən əlini çarşabın altından çıxardıb piyaləyə uzatdı. Əbdül onun əlinə fikir verdi — aman allah, əli də Dünyanın əlinə oxşayırdı. Ancaq bu əl bir az qara idi, kobudlaşmışdı, Dünyanın əlləri kimi ağ deyildi, barmaqlarını brilyant qaşlı üzüklər bəzəmirdi. Əbdülün xəyalı dumanlandı ani olaraq, nəzərində canlanan o parıltılı, daş-qaşlı əlin sahibi bir anlığa Heyran xanımın yerində cilvələndi, qəmli bir təbəssümlə baxıb.. yenə harasa yox oldu...

[1] Kabilin rayonlarından biridir.

Bu ani sarsıntıdan özünü itirən Əbdül tamamilə yersiz olaraq;

— İçin, xanım! — dedi. Bunu o zaman söylədi ki, Heyran xanım yaşmağını üzündən kənar edərək artıq piyalədəki ilıq çayın yarısından çoxunu içmişdi. Onun çay içməyində də nə isə Dünya xanımdan bir şey vardı — bu, nə idi, Əbdül tapa bilmirdi.

Heyran xanım piyaləni boşaltdı. Əbdül çaydandan təzə çay süzdü və sual dolu nəzərlə ona baxdı:

— Hə, xanım... Sizin bu şəhərdə kiminiz var? Heyran çaydan sonra deyəsən bir az toxtamışdı, ancaq səsindəki kədər çəkilib getməmişdi.

— Mən... burda...Ərimlə yaşayıram, ağa!

— Əriniz kimdi ki? Heyran ah çəkdi:

— Əvvəl barkəş[1] idi, indi heç nə.

— Necə yəni heç nə?

— İndi mərizdi[2], ağa. İflic vurub, beş ildi yorğan-döşəkdən dura bilmir.

— Vay... bəs ona hardan rast gəlibsiz, xanım?

— Eh, uzun söhbətdi, ağa. O vaxt o, bizim «hurilər dərəsi»nə gəlib çıxmışdı. Qədd-qamətli, enlikürəkli bir oğlan idi. Kasıb olduğu əyninə, üst-başına, gözlərinə yazılsa da, vuruldum, ağa, ona. Üzr istəyirəm sizdən, belə açıq danışıram.

— Eybi yoxdu, xanım. Burda özgə adam yoxdu.

— Bəli, qızın, qadının elə bir vaxtı olur ki, allah ağlını-kamalını əlindən alır, başı işləmir. Təkcə gözü görür, vəssalam. Mən də elə oldum. Gözlərim məni bədbəxt elədi. Nə isə, ona qoşulub qaçdım. Neçə illər xoşbəxt yaşadıq, ağa. Kasıb olanda nə olar? Səhərdən axşamacan gedib şəhərdə işləyirdi, axşamlar evə qayıdırdı. Gündəlik yeməyimizi-içməyimizi qazanırdı. Beləcə yaşayırdıq, ağa. Ancaq, allaha qurban olum, axırda bunu da bizə çox gördü. Kişi birdən elə oldu... Biz... — o, nə isə demək istədi, ancaq qəhərləndi, susdu. Əbdül öskürdü, nə isə təsəlliverici bir söz tapıb deməyə çalışdı, lakin ağlına heç nə gəlmədi. Fikrinə gələni soruşdu:

---

[1] Barkəş — yükdaşıyan.

[2] Məriz – xəstə

— Bəs... oğuldan-uşaqdan... nəyiniz var, xanım?

Heyran xanım dolmuşdu, bu sualdan sonra daha gözlərinin yaşını saxlaya bilmədi. Gün altında yanıb qızarmış yanaqlarından üzüaşağı yaş süzüldü. Əbdül yenə Dünyanı xatırladı — onun ağladığını yadına sala bilmədi. Yox, Dünya sağlığında heç vaxt Əbdülün qabağında ağlamamışdı. Birdən o son, məşum an gözləri önündə canlandı — ölüm anı. Əbdül güllə səsinə hövlnak içəri qaçıb Dünyanı xalça üstündə uzanmış görəndə... onun tavana dirənmiş gözlərinin bulaqlarında dəhşətli qorxunun arasında gilələnmiş yaş damcıları vardı, civə giləsi kimi titrəyirdi o yaş damcıları. Əbdül onun uzun kirpiklərini sığayıb gözlərini qapayanda — o damcılar yanaqlarına düşüb donmamışdımı? «Allahım, bu qadın hayandan gəldi, niyə gəldi? Mənə əzab vermək üçünmü tanrı onu bura göndərdi?» — deyə düşünən Əbdül, üşüdüyünü hiss elədi, piyaləsindəki soyumuş çayı eyvandan aşağı atıb təzə çay süzdü və tələsə-tələsə içməyə başladı. Arada dedi:

— Ağlamayın, xanım.

— Yox, ağlamıram. Elə-belə, ürəyim dolu idi... Özümü saxlaya bilmədim. Bağışlayın, siz allah... — o, ani olaraq duruxub əlavə elədi, — oğuldan, uşaqdan... heç nəyimiz yoxdu, ağa, olmadı, Allah vermədi, məsləhət bilmədi. Əvvəllər bunun xiffətini çox çəkirdik. Ərim də, mən də.... Ancaq indi... sevinirəm, sevinirəm ki, nə yaxşı, övladımız olmayıb. Mən onları necə saxlardım, aman allah...

— Bəs... indi... necə dolanırsınız, xanım?

— Dolanırıq da, ağam. Qonşularıma həyət-baca, ev-eşik işində kömək eləyirəm, paltar yuyuram, su gətirirəm, bir qarın çörək verirlər, mən də azını özüm yeyirəm, çoxunu Cabbara gətirirəm.

— Cabbar kimdi?

— Ərimin adıdı, ağa.

— Hə... — Əbdül köksünü ötürdü və qarşısında oturan bu qadının — öz Dünyasının doğma bacısının ağır, məşəqqətli, fərəh və sevincdən uzaq həyatını gözünün qabağına gətirdi, qəlbi sıxıldı. Düşündü ki, o, bacısının sorağı ilə bura gəlib çıxıb. Bir az qabaq dəfələrlə «siz allah bacımdan danışın mənə. Ölüb ya sağdı?» — deyən bu qadın öz dərdini xatırladan kimi bacısını unutdu — demək,

gör nə qədər dərdlidi bu qadın. Həyat nə qəribədi, ilahi. İndi mən ona bacısının da müsibətini danışsam, onun halı necə olacaq?!. — Əbdülün Heyrana yazığı gəldi və Heyran özü barədə danışdıqca Dünya haqqında nə deyəcəyini, nələri gizli saxlayacağını müəyyən elədiyi şəkildə söylədi. Dedi ki, bəli, tamamilə düz məlumat verib Ətiqulla. Ağayi Nəcməddin onu alıb bu evə gətiribmiş. Dünya cahcəlal içində yaşayırmış: bax, gördüyün bu imarət, həyət-baca, milyonlar onun olmuşdu. Bəxtəvər idi, Dünya. Ağayi Nəcməddin onu çox, lap çox — bunu dillə heç cür demək olmaz — sevirdi. Mən ömrümdə, — deyirdi Əbdül,— elə məhəbbət görməmişdim. Divin canı şüşədəki göyərçində olan kimi, ağayi Nəcməddinin də həyatı, ömrü Dünyaya məhəbbətdə idi. Ağa onu sevə-sevə yaşayırdı. İki il bundan qabaq Dünya onun üçün oğlan da doğmuşdu.

— Hanı uşaq? — deyə o, bura çatanda özünü saxlaya bilməyib soruşdu.

— Yatır. — dedi sakitcə Əbdül.—Duranda göstərəcəyəm.

— Aman allah, bacımın yadigarı qalıb!.. — deyə Heyran həyəcanlı əllərini dizlərində gəzdirdi. Çadrası başından sürüşüb düşmüşdü. Ən çox otuz beş yaşı olardı. Amma alnında, eynən Dünyanın gözlərinə oxşayan gözlərinin ətrafında qırışlar vardı, qapqara saçlarının arasında ağ tüklər görünürdü. Köynəyinin ilmələrn qaçmışdı, yuyulmaqdan rəngini itirmiş parça süzülmüşdü. Əbdül ona fikir verəverə deyirdi ki, Dünya xanım gözəl günlərin birində, nə ağasına, nə də mənə bir söz demədən yoxa çıxdı. Hara getdi, niyə getdi, kimsə bilmədi. Nə üçün belə elədi—bunu da özündən başqa heç kəs bilmir, xanım. Gözünün ağı-qarası bircə uşağına da yazığı gəlmədi. Gərək onu düşünəydi, gərək onun taleyini heç vaxt unutmayaydı.

Əbdül bu sözləri deyirdi, özü də yana-yana deyirdi. Əbdülün qənaəti beləydi ki, Dünya xanım heç kəsi, heç nəyi — nə bu cahcəlalı, nə ağayi Nəcməddini, nə onun özünü də düşünməsəydi, qonşunun oğlu Vəlixanla him-cimə başlamamışdan əvvəl gərək bu dilsiz körpəsinin taleyini düşünəydi. Bunu fikirləşsəydi, o, belə addım atmaq fikrinə düşməzdi və yerində oturub taleyinə min şükür eləyəeləyə yaşardı. Heyf ki, onun ağlının gücü buna çatmadı. Buna görə idi ki, Əbdül onun haqqında hər dəfə nisgil və həsrətlə danışmağa,

düşünməyə başlayanda, axırda istər-istəməz heyfsilənir, bəzən lap qəzəb içində boğulurdu. İndi də belə idi Əbdül. Heyran Dünyanı onun yadına yamanca salmışdı və o, indi açıqca qəzəbini gizlədə bilmədi. O, belə anlarda birdən yumşalırdı; çünki yadına düşürdü ki, hər necə olsa, Dünya ağayi Nəcməddinin qara tapançasından çıxan odlu güllə ilə ölsə də, qanı onun — Əbdülün boynundadır. Və bu zaman o, sustalır, balacalaşır, Allahın yazıq, günahkar bəndəsinə çevrilirdi; ona bəslədiyi məhəbbət də, onunla keçirdiyi xoş, unudulmaz günlər də, qısqanclıqdan doğan qəzəb-kin də qəribə bir qüdrətlə içərisində, xəyalında, xatirələrində baş qaldırır, nəfəsini tıncıxdırır. boğurdu. Onda Əbdülə elə gəlirdi ki, axırı çatıb, o, öləcək indicə. Amma ölmürdü, ölə bilmirdi. «Görünür, Allah mənim cəzamı belə verəcək» — deyə düşünürdü.

Heyran xanımın səsi onu bu böhran içindən çəkib çıxartdı:

— Bəs... o tifilə kim baxır?

— Tifilə? — Əbdül fikrini cəmləşdirdi. — Tifilə mən özüm baxıram, xanım. Ağam onu mənə özü tapşırıb, xanım. Mən ağamın, xanımımın ciyərparasına öz ciyərparam kimi baxmağa söz vermişəm, xanım. Ölənəcən o uşağın qabağında dəstbesinə dayanacağam, and içmişəm buna, xanım.

— Allah ömrünü uzun eləsin, ağam. Savabdı, böyük savabdı. Ancaq, mən bir şeyi başa düşmürəm, ağam.

— Nəyi?

— Dünya niyə belə etdi? Bunun səbəbi olmamış deyil.

— Mənə elə gəlir ki, əgər Dünya indi... — az qalmışdı desin ki, dirilib gəlsə, tez sözünü uddu — indi gəlsə, ondan bu səbəbi soruşsan, özü də heç nə deyə bilməz, xanım. Mən səndən bir on yaş böyük olaram, bilirəm ki, bəzən qadın nə istədiyini özü də bilmir. Qadın yer üzünün ən böyük müəmmasıdı, xanım.

Heyran nə isə söyləmək istəyirdi ki, içəri otaqdan Nəcməddinin ağlamaq səsi gəldi. Əbdül o dəqiqə ayağa durdu və:

— Bizim ağamız oyandı yuxudan!—deyərək qaçdı. Az sonra o, qucağında gül parçası kimi qəşəng, ipək kimi yumşaq və kəhrabaya çalan saçları olan, totuq-potuq bir uşaqla qayıtdı. Uşaq uzun kirpikli

gözlərini qalxızıb ona sarı gələn yad qadına zilləyərək təəccüb içində baxırdı.

— Can bala, bacımın yadigarı... — dedi Heyran xanım, özünü saxlaya bilməyib hönkürdü. — Necə də ona oxşayır, aman allah. Dünyanın körpəliyidi elə bil, gəlib durub qabağımda... Gəl qucuma, gəl, başına dönüm, gəl, — deyirdi.

Heyran xanım göz yaşları içində, boğula-boğula uşağa «gəl» — deyirdi. Ancaq Nəcməddin birinci dəfə gördüyü qadının qucağına getmək istəmirdi. Əbdülün boynunu qucaqlayıb ona sığınmışdı.

— Xalandı ey, Nəcmi! — deyə Əbdül də dilləndisə də, uşaq ondan qopmadı. Buna baxmayaraq Heyran irəli yeriyib zorla da olsa onun totuq əlindən öpə bildi.

— Yazıq bacım, yazıq bacım... —deyirdi Heyran xanım.

....Sonra Əbdül nahar vaxtı olduğunu xatırladı. Mətbəxdə ertədən hazırladığı xörəyi qızdırdı, süfrə açdı. Qonağını da dəvət elədi. Heyran xanım dilucu etiraz eləsə də, ac olduğundan gəlib süfrə başında oturdu. Ordan-burdan danışa-danışa yedilər. Bütün bu müddət ərzində qucağından düşməyən Nəcməddini də yedirtdi Əbdül. Ona firni verdi. Sonra şüşədən alma şirəsi içirtdi. Tez-tez də ona deyirdi:

— Bax, gör nə qəşəng xalan var? Xalandı ey, sənin, Nəcmi.

Xala isə uşaqdan gözlərini ayırmırdı, nəmli baxışları tez-tez yol çəkirdi.

Yeyib doyandan sonra Heyran Əbdülə dua-sənа eləyə-eləyə ayağa qalxdı, süfrəni, qab-qaşığı yığışdırdı. Əbdül razı olmasa da, Heyran bu işləri qəribə bir səliqə və zövqlə gördü. Bu, Əbdülün çox xoşuna gəldi.

— Deyirəm nə yaxşı siz varmışsınız, ağa,—dedi Heyran,— yoxsa bu biçarə uşağın aqibəti nə olardı?

— O tək deyil, xanım. Onun bir bacısı da var. Ağamın o biri arvadındandı. Böyükdü. Ərdə idi. Ayrı yaşayır.

— Hə?

— Hə.

— Gəlib-gedirmi barı?

— Yox.

— Bəs elə siz ikiniz bu dam-daşın altında tək yaşayırsız?

— Hə.

— Qorxmursuz?

— Nədən?

— Belə də... Oğrudan-zaddan...

— Bu həyətdə ağayi Nəcməddinin nəfəsi var, ruhu var, xanım. Kimsə cürət eləyib bura ayaq basa bilməz, xanım.

— Düz deyirsiz. Eşitmişəm, çox nüfuzlu kişi imiş mərhum.

— Bəli.

Onlar danışa-danışa otaqları bir-bir gəzdilər.

Əbdül izahat verirdi. Əbdül Dünyanın bu otaqlarda keçən həyatından qırıq-qırıq danışırdı. Nəhayət, onlar Dünyanın öz otağına gəldilər. Divardan asılmış şəkli görəndə Heyran içini çəkdi, Dünya divardan ona baxırdı. Üzündə xoşbəxt, məmnun bir ifadə vardı Dünyanın. Yadında idi — bu şəkli Nəcməddin böyük bir sevinclə evə gətirmişdi, özü divardan asmışdı. Dünyanı ölüdürəndən sonra isə yenə çıxarıb divanın dibində üzü divara sarı qoymuşdu. Onu bu yaxınlarda Əbdül təzədən götürüb əvvəlki yerinə asmışdı.

Heyran şəklin qabağında üzünü xalıya sürtüb ağlayırdı.

Sonra çəkilib şəklə baxa-baxa göz yaşları içində:

— Hardasan, ay bacı, başına dönüm, cavab ver! Mənəm, gəlmişəm, səni görməyə gəlmişəm. Dünyada səndən başqa kimim-kimsəm qalmayıb. Gəl, qayıt ev-eşiyinə, balana yiyəlik elə, bacı. Yetim qoyma uşağını... — deyirdi. Dünya isə susurdu, eləcə təbəssümlə ona baxır, heç nə demirdi.

Heyran xanımın ağlaması, bacısı üçün yanması, yana-yana dediyi sözlər Əbdülü çox kövrəltmişdi. O gələndən bəri — üç-dörd saat ərzində yaman gərgin hallar keçirtmişdi və öz aləmində bu əzabları çəkdiyinə görə haradasa təskinlik tapırdı, ona elə gəlirdi ki, bu əzablar onun günahının — böyük günahının heç olmasa kiçik bir hissəsini yuyub aparar, yüngülləşdirərdi. Bu da bir təskinlik idi Əbdül üçün—yoxsa o, dəli ola bilərdi.

...Gün artıq əyilmişdi. Uzun illərdən bəri axtardığını tapan, azca da olsa yüngülləşən Heyran uşağın əlindən öpüb:

— Mən gedim! — deyəndə Əbdül bilmədi nə desin. O qədər tək qalıb darıxmışdı ki, əlinə bir adam düşəndə buraxmağa ürəyi

gəlmirdi. Gedəndən sonra elə hala düşürdü ki, dərdi-var başına dolanırdı, ürəyi hövl eləyirdi.

— Gedirsiz?..

— Hə, gedim, ağa. Kişi nigaran qalar. Gəldim sizə də əziyyət verdim, ağa, halal eləyin.

— Xoşdu, xanım. Siz özgə adam deyilsiz. Nə vaxt istəyirsiz, gəlin.

— Çox sağ olun, ağa. Gələrəm, ağa. Uşaqdan...— nə isə də söyləmək istədi, ancaq yenə gözləri doldu Heyranın.

Pilləkənləri endilər. Birdən nə yadına düşdüsə Əbdül tələsik dedi:

— Dayanın, dayanın.

Heyran ayaq saxladı. Əbdül yuxarı qalxıb tez də qayıtdı: onun əlində bir dənə qırmızı yüzlük var idi:

— Bunu alın, xanım. Bazardan ayın-oyun alıb apararsız evə.

— Yox, yox.

— Götürün, xanım. Bunu sizə bax bu Nəcməddin ağa verir. Öz xalasına verir. Elə deyil, oğul?.

Nəcməddin nə isə başını tərpətdi. Əbdül güldü.

— Ay bərəkəllah. Götürün, xanım. — Və o, pulu Heyranın ovcuna zorla basdı. Heyran heç nə demədi, minnətdarlıqla dolu baxışlarını Əbdülün və Nəcməddinin sifətində gəzdirib doluxsundu.

ON BEŞİNCİ FƏSİL

Zərrintac xanım gözlərini açdı—nəzərinə ilk sataşan şey tavan oldu. Pəncərənin açıq pərdəsindən içəri günəş şüası düşmüşdü, qızıl şərf kimi uzanıb döşəmədən keçərək çarpayısının baş ucuna dirənmişdi. Demək səhər çoxdan açılmışdı.

Başı dumanlı idi, ağrıyırdı. «Nə bir tünd qəhvə içərdim!» — deyə ürəyindən keçirtdi. Köhnə adəti üzrə ya Elməddin, ya da Siminbəri səsləmək istədi, səslədi də. Ancaq kimsənin hay vermədiyini görüb xatırladı ki, onlar yoxdu. Ona qəhvə gətirən olmayacaq.

Yorğan-döşəyin içində dikəldi... dikələndə özünü çarpayıda lüt, anadangəlmə görüb təəccübləndi. Hürkmüş, qorxmuş kimi tez əlini sinəsinə atdı: o, heç vaxt alt köynəksiz yatmazdı. Yana boylandı — ipək alt köynəyi kreslonun üstünə atılmışdı, əzik-üzük idi. Birdən gözü üstü şüşə və piyaləli, qab-qaşıqlı stola sataşanda bədənindən sarsıntılı bir gizilti axıb keçdi. Və dərhal ağayi Siracəddini xatırladı, onun ağ başı, xırda, qıyıq gözləri, arıq, uzun, tüklü əlləri gözlərinin qabağında canlandı. Əvvəl əti çimçəşdi, ancaq bu hal tez ötüb keçdi. Bir qadın kimi, bu gözlənilməz görüşdən qabaq özünü narahat eləyən hisslərinin, daxili narahatlığın və naməlum istəyin öləziyib söndüyünü, bədəninin və duyğularının nisbətən rahatlandığını anlayıb işin nə yerdə olduğunu başa düşəndən sonra yenidən başını balışa atdı, axşam baş verən söz-söhbəti yadına salmağa çalışdı. Ağayi Siracəddinin gəlişi, yeyib-içmələri, hətta özünün qalxıb güzgü qabağına getməyi — hər şey, hər şey yaddaşına yazılmışdı. Güzgü qabağında ağayi Siracəddinin şəhadət barmağını aynadakı «Dünyadan gözəl» qadının — Zərrintac xanımın dodaqlarında, qaşlarında, sinəsində gəzdirdiyi, bu anlarda bədənində duyduğu xoş gizilti və hətta kişinin söylədiyi şirin sözlər də, birdən onu özünə tərəf çevirib piyaləni verməsi də, içməsi də, qəfildən dodaqlarını öpməsi də xatırında idi. Özünün məstanə gülüşünü də eşidirdi indi. Lakin ancaq bura qədər... bundan sonra heç nə yox idi, heç nə olmamışdı. Xatırlaya bilmirdi ki, bilmirdi. Zərrintac xanımın qaşları çatıldı: axı o, qibləgahı ilə, lap Elməddinin özü ilə belə çox içmişdi, ancaq belə hala düşməmişdi, yaddaşı silinib getməmişdi, yox, heç vaxt bu hala düşməmişdi.

— Ax, alçaq, əclaf! — deyə o, birdən bütün olub-keçənlərin nə demək olduğunu anlayıb üzüüstə çevrildi, başını balışın arasında gizləməyə çalışaraq hönkürtü vurub ağladı. Onun ağ, açıq çiyinləri qalxıb-enir, çarpayı silkələnirdi. Sakitləşdirən, təsəlli verən yox idi deyə o, tez kiridi və bir müddət key kimi heç nə düşünə bilməyərək hərəkətsiz uzandı. Anlar, dəqiqələr ötüşdü, nəhayət, fikri duruldu və özünü danlamağa başladı: «Mən necə böyük səhv elədim, ay allah. Mən axı bilirdim o kişi adlı canavar nə yuvanın quşudur, nə ilə məşğuldu. Bunu mən axı bilirdim! Mən dünən başımı itirmişdim, dünən Elməddinin nəfəsi, özü yadıma düşmüşdü, onu ürəyim istəyir-

di. İstəyirdim gəlsin, barışmasın da, danışmasın da, eləcə soyunub yanımda bir saat yatsın, mən onun tüklü sinəsini sığallayım, o məni qüvvətli qolları arasına alıb sıxsın və sonra da hansı cəhənnəmə itilib gedirsə getsin. Bu arzu hardansa beynimə düşmüşdü. Amma gör nə oldu. Onun əvəzinə o qoca köpək gəlib çıxdı. Qibləgahımın yoldaşı olmağı yəqin məni arxayın salıb. Heç mənim ağlıma gələrdimi ki, o qoca köpək belə bir iş tutmaq üçün bizim evə qədəm basıb? Yox, gəlməzdi, gəlmədi də. Sən demə, qoca qurdun məqsədi varmış, sən demə, o, məni boş yerə tərifləmirmiş. «Dünyadan da gözəlsən, qaşın belə, gözün belə!» Tfu, sənin vicdanına. Eh, nə vicdanbazlıqdı. Onun üçün nə vicdan, canım?

Amma bu sirdən baş açа bilmirəm. Mən niyə elə sərxoş oldum axı?! A... Bəlkə o, son piyaləyə yuxu dərmanı qatmışdı? Hə. Hə. Yəqin mən güzgü qabağına gedəndə o, badəyə yuxu dərmanı atıbmış. Hə, ancaq belə ola bilər, ancaq belə!,.»

Zərrintac əl atıb alt paltarını geyindi, tələsik döşəmənin üstə düşüb stola yaxınlaşdı və piyaləsini götürüb iylədi. Nə qədər qoxuladısa da bir şey hiss eləmədi. «Görəsən bu bihuşdarı zəhrimarın iyi olur, ya olmur?» — deyə fikirləşdi; görməmişdi, bir kimsədən də eşitməmişdi deyə bir qərara gələ bilmədi. Piyaləni stolun üstə atdı, piyalə böyrü üstə düşdü. Sonra o, bədənnüma güzgünün qabağına keçdi, üz-gözünə açıq sinəsinə baxdı. Sinəsində diş yeri qalmışdı. «Qoca köpəyin dişləri də varmış!» — dedi öz-özünə. Diş yerində qəribə, şirin bir ağrı gəzib-dolaşırdı. Birdən Zərrintac xanım sol böyründə dayanıb nə isə deyən ağayi Siracəddinin səsini eişdən kimi oldu və kəskin bir hərəkətlə əlilə onu kənara itələyirmiş kimi:

— Rədd ol, alçaq, qoca qurd! — dedi və əlinin boşa çıxdığını görüb toxtadı: «Məni qara basır deyəsən».

Sonra o, əzgin, yorğun halda geyindi, stolun üstündəkiləri yığışdırdı, mətbəxdə bir tünd qəhvə dəmlədi. Kəmşirin eləyib qurtum-qurtum içdi. Tələsmirdi, işi-gücü yox idi — bu gün cümə günü idi. Yavaş-yavaş halı yaxşılaşırdı. Kreslonu yırğalaya-yırğalaya fikirlə-şirdi, öz ürəyini, hisslərini təhlil eləyirdi. Və iki duyğu arasında çaşbaş qaldığını aydınca dərk edirdi.

Dünən onun ürəyi Elməddini istəyirdi, o gəlmədi, o yox idi onun üçün. Adətmi eləmişdi ona, sevirdimi, bilmirdi— ancaq dünən o bütün günü beyninə, ürəyinə, hisslərinə hakim kəsilmişdi. Dünən o, Əbdülə zəng eləməyə hazırlaşanacan möcüzə baş verəcəyini, Elməddinin qapını açıb içəri girəcəyini gözləmişdi, lakin onun əvəzinə ağayi Siracəddin peyda olmuşdu. O da belə bir iş tutub getmişdi. Bəzən Zərrintac xanım Elməddinin əlindən elə qəzəblənirdi ki, öz-özünə deyirdi: «Əcəb oldu, əcəb oldu sənə. Sənin kimi kişinin arvadı Siracəddin kimi çaqqallara qismət olmalıdı. Əcəb elədi, yan, yaxıl, Elməddin. Bu gecə sənin arvadının ağuşunda yad kişi yatıb! Hə, necədi, sənə ləzzət eləyir! Bilsən, bağrın çatlayar!»

Bundan o, dəhşətə gəldi. İçəridə ürəyi sıxıldı, nəfəsi təntidi. «Yenə bir fərli-başlı kişi olsaydı, yadımda bir şey qalsaydı, məni yandırmazdı. Yoxsa kaftarın biri, heç nədən xəbərim olmadan...»

Bu duyğu onu özündən çıxartdı. Qəzəblə qalxaraq balaca, nazik kağız cildli telefon kitabçasını tapdı və ağayi Siracəddinin nömrəsini yığdı. Dəstəkdə ilişikli kişi səsi eşidiləndə Zərrintac vahimələndi, istədi səsini çıxartmasın, ancaq hirsi-hikkəsi ilə bacara bilmədi:

— Ağayi Siracəddindir?—deyə qəzəblə soruşdu.

— Bəli, mənəm. — dedi kişi səsi.

— Sən nə alçaq adam imişsən, ağa!

— O, səsinizdən tanıdım, bu sizsiniz, Zərrintac xanım, sabahınız xeyir.

— Zəhrimar sabahın xeyir, dərd sabahın xeyir. Utanmırsız, ağa? Bu nə müsibətdir mənim başıma gətirirsiniz? Mən sizin qızınız yerində...

— Xi, xi... — Ağayi Siracəddin xırıltı ilə güldü. — Dünya xanım da ağayi Nəcməddinin qızı yaşında idi.. Onda heç nə demirdiniz... İndi nə olub, xanım qız!

— Ağayi Nəcməddinlə kəsdiyiniz duz-çörək gözünüzü tutar, ağa.

— Tutmaz, xanım qız. Çörək göz tutan olsaydı, onda ağayi Nəcməddin gərək çoxdan kor olaydı. Bir də, nə sənin qibləgahın, nə də mən ömrümüz boyu öz çörəyimizi yeməmişik, özgə çörəyi isə göz tutan olmur, quzum. Bir də, sən nahaq yerə əsib-coşursan, qız, arada

qan olub qada düşməyib, dünya dağılmayıb sadəcə sən şirincə yatmışdın, mən də sənin o gözəl vücuduna baxıb ləzzət alırdım, quzum. Hirslənməyə dəyməz, quzu bala. Sən Elməddinin arvadı olmasaydın, bəlkə də belə eləməzdim. O gədə, eşitdiyimə görə məndən nə isə çərən-pərən yazmaq istəyir; mən sadəcə ondan qabağa düşmək istədim. Qibləgahın həmişə deyərdi gördün ki, birinin ürəyindən səni vurmaq keçir, qoyma əvvəl o səni vursun — sən ilişdir. Onun vəsiyyətinə əməl eləyib bəri başdan mən ilişdirdim...

Zərrintac xanım heç nə deməyib dəstəyi asdı.

ON ALTINCI FƏSİL

Əbdülün verdiyi yüzlük köz parçasına dönüb Heyranın əlini yandırırdı. Əvvəlləri yadına gəlmirdi, ancaq Cabbarla yaşadığı bu on beş-on altı ildə Heyran heç vaxt əlində yüzlük tutmamışdı, gördüyü pullar qəpik-quruş olmuşdu, ən çox dəmir pullar. Barmaqla sayıla biləcək qədər də onluq və iyirmilik görmüşdü. Cabbarın axşamlar şəhərdən — bazardan evə dönərkən gətirdiyi pullar arasında göy rəngli iyirmilik görəndə Heyran özünü xoşbəxt sayırdı, dövlətli hesab eləyirdi. Ancaq indi, birdən-birə yüzlüyü vardı və onu tanımadığı, birinci dəfə gördüyü bir şəxs vermişdi. Bacısının nökəri, indi Dünyanın uşağının dayəsi olan Əbdül. Pulu ovcunun içində bərk-bərk sıxmışdı, əlinin tərlədiyini də hiss eləmirdi. İti, tələsik addımlarla bazara tərəf gedə-gedə Allaha yalvarırdı ki, qan-qada bacısının başından uzaq olsun, qayıdıb balasının yanına gəlsin; o gəlsə, uşaq yetimçilik görməz, o gəlsə, Dünya Heyran xanıma da—xəstə əri ilə dörd divar arasında tək-tənha, köməksiz, ehtiyac içində çırpına-çırpına boğulan bacısına da əl tutar yəqin, bu qədər var-dövlətdən onlara da hərdən bir görüm-baxım eləyər. Ürəyində bacısından ötəri allah dərgahına əl qaldırıb dua-səna elədikdən sonra o, Əbdülü zahirən sakit, adicə bir nökər təsiri bağışlayan, əslində isə o cah-cəlallı ev-eşiyin sahibi olan, bacısının yeganə yadigarına öz doğma balası kimi baxan, ömrünün axırınacan da baxacağına and içən, nəha-

yət, yumşaq qəlbli, dar gündə başqasına əl tutmağı bacaran Əbdülü xatırlayır, ona uzun ömür arzulayırdı. Əbdül sadə idi, qayğıkeş idi, qonaqpərvər idi. O, necə də Heyranın danışığından vəziyyətlərinin ağır olduğunu başa düşmüşdü, minnətsiz-filansız ona yüz rupi gətirib vermişdi. Bunu indiki zamanada kim eləyərdi? Qonşunun evində axşamacan işləyəndə ona beş-on rupi pul verirdilər, onu da necə? Gecə yatanda da əlləri, ayaqları zoqquldayırdı, sümükləri sızıldayırdı? Ancaq Əbdül... yəqin bacısı Dünya evdə olsaydı, görüşüb-qucaqlaşıb ağlaşandan, sakitləşəndən, onun gününü-güzəranını öyrənəndən sonra lap çox pul verərdi. Yox, onun pulu da lazım deyil, təki özü sağ-salamat olsun, qayıdıb balasının üstünə, isti xanimanına qayıdıb gəlsin — ona, Heyran xanıma heç nə lazım deyildi.

Heyran bu qatmaqarışıq düşüncələr əlində çırpına-çırpına özünü Çaharrahi meydanındakı bazara yetirmiş, ət, pendir, yağ, meyvə, göy-göyərti almış, Daruləmana gedən avtobusa minərək evə gəlmişdi. Bir əlində tor zənbil, o birində pulun qalanını—altmış beş rupini tutmuşdu. Ürəyi sevinc-qarışıq bir həyacanla döyünürdü. Dayanacaqdan evə gələnəcən düşünmüşdü ki, gedən kimi isti xörək bişirəcək, son vaxtlar lap zəifləyib əldən düşmüş Cabbarı doyunca yedirdəcək, alma verəcək. Cabbar yeyəcək, gözlərinə işıq gələcək, Heyrana «çox sağ ol» deyəcək. Ondan sonra necə gedib bacısının evini tapdığını, bacısı balasını gördüyünü danışacaq və Cabbar da sevinəcək.

Bu, alçaq, dairəvi pəncərəli, palçıqdan hörülmüş bir daxma idi. Kiçik həyəti vardı. Onunla bir cərgədə tikilmiş evlərdən işıq gəlirdi, səs-küy eşidilirdi. Arvad-uşaq ucadan danışır, həyat qaynayırdı. Təkcə Heyrangilin evi sükut içində səssiz-səmirsiz mürgü vururdu. Bu, hər dəfə şər qarışan vaxtı qayıdanda olduğu kimi, indi də Heyranın qəlbini didib-parçaladı, qüssəli-qüssəli ah çəkdi. Qıfılsız-cəftəsiz taxta qapını ayağı ilə itələyib açdı. Zülmət qaranlığına qərq olmuş otağın güncündən, quyu dibindən gəlirmiş kimi, zəif səs eşidildi:

— Heyran, sənsən?..

— Hə, mənəm, Cabbar! — dedi Heyran və bu səsi eşitdiyinə çox sevindi. Son vaxtlar belə bir qorxu heç vaxt onu tərk etmirdi ki, günlərin birində, qapını açıb içəri girəndə o zəif, taqətsiz səsi eşitmə-

yəcək və elə o anda dəli olacaq. Ona görə hər dəfə evə girərkən ərinin səsini eşidəndə sevinirdi, rahat olurdu, üstündən elə bil, dağ götürülürdü. İndi də belə oldu. «Şükür, sağdı», — deyə düşünüb əlindəki zənbili yerə qoyaraq:

— Necəsən, əzizim? — söylədi.

— Nə gec gəldin, Heyran? Həmişə iki-üç kərə gəlib baş çəkərdin mənə, bu gün gəlmədin...

— Hə, bu gün gələ bilmədim, Cabbar. Uzağa getmişdim...

— Uzağa getmişdin?..

— Hə, — dedi Heyran və pəncərə taxçasındakı çırağı yandırdı. Otağın içi işıqlandı və qadın güncdəki taxta yaxınlaşıb əlini ərinin alnına qoydu və bayaq verdiyi sualı bir də təkrar elədi:

— Necəsən, əzizim? Gəl sənin yerini təzələyim. — O, qolunu Cabbarın nazik boynuna saldı, əriyib yumağa dönmüş vücudunu ehmalca qaldırdı, o biri təmiz taxtın üstünə qoydu. Üfunət iyi verən mələfəni açıq qapıdan çölə atdı. Təzədən qayıdıb Cabbarın başı üstə qayıtdı. Bu taxt çırağa yaxın idi deyə xəstənin düz üzünə işıq düşürdü. Cabbarın uzun, çatma qaşlarının altından çuxura düşmüş bir cüt qara göz baxırdı. Sivri burnunun ucu saralmışdı. Üzünü tük basmışdı. Saçlarında, saqqalında bircə dənə də ağ tük gözə dəymirdi. Həmişə arvadı gələn kimi zarıyan, ya su, ya yemək istəyən, ya da sorğu-sual eləyən Cabbar bu gün nədənsə danışmırdı, eləcə gözlərini Heyranın üzünə zilləyib sükut içində tamaşa edirdi. Elə bil sifətindən nə isə oxumağa çalışırdı.

— Sənə, nə olub, canın ağrıyır?

Cabbar qaşlarını yuxarı dartmaqla «yox!» —dedi.

— Acsan, hə?

Yenə eyni tərzdə «yox» söylədi.

— Gör sənə nələr almışam, kişi! Ət, yağ, alma... İndi bir yaxşı xörək bişirərəm, doyunca yeyərsən.

Heyran zənbilə tərəf gedəndə Cabbar başını yana əydi, həsirin üstəki şeylərə baxdı. Gözləri çuxurda dəbərişdi, qəribə bir parıltı yanıb-söndü o gözlərdə. Sinəsinin üstə çəkdiyi üzsüz yorğan körük kimi qalxıb-endi. Heyran bazardan çox şey almışdı. Onları bir-bir zənbildən çıxarıb həsirin üstünə düzdükcə Cabbar lal-dinməz bazar

məzənnəsi ilə qiy-mətlərini hesablayırdı. Heyran eyni zamanda danışırdı bugünkü macərasını:

— Kişi, bacım Dünyanın — Səxavətin evini tapmışam...— o danışırdı, lakin qəribə idi ki, Cabbarın qulaqları guruldayırdı, heç nə eşitmirdi. Heyranın tərpənən dodaqlarını görürdü, ancaq sözlərini ayırd eləyə bilmirdi. Eləcə tutqun, keyləşmiş, küt baxışlarla Heyrana diqqət yetirir, heç nə demirdi.

— Kişi elə yaxşı adamdı ki, Cabbar. Dünyanın nökəri olub, qapısında işləyib. İndi Dünya xanım gedib, Ağayi Nəcməddin də ölüb, amma o, elə nökərliyində qalıb. Uşağa da, deyir, nə qədər sağam özüm baxacağam. Göz bəbəyim kimi saxlayacağam onu — deyir. Mən vəziyyətimizi ağızucu demişdim, elə-belə, söhbətarası. Bu pulları o verdi. Dedi xərcləyərsiz. Otuz beş rupisini xərclədim, qalanı da budur, iki-üç həftəmizə çatar. Allah ömrünü uzun eləsin o kişinin.

Heyran əti doğramışdı, ocağı yandırmışdı. Xörəyi asmışdı. Bu gün gördüklərinin hamısını, bircə nöqtəsini belə buraxmadan ərinə danışmışdı. Birdən ayıldı ki, Cabbar heç dinib-danışmır. Nə isə həmişəki Cabbar deyil elə bil. Heyran qorxu içində ona yaxın gəlib böyründə əyləşdi.

— Sənə nə olub, canım-ciyərim? Bu gün, deyəsən, özünü yaxşı hiss eləmirsən, hə?

Cabbarın gözləri Heyranın şadlıq, fərəh yağan üzündən yayındı, taxta səqfə dirəndi. Eyni nöqtəyə xeyli baxandan sonra sinədolusu ah çəkib:

— Ölmək istəyirəm, Heyran! — dedi.

— Allah eləməsin, bu nə sözdü danışırsan, Cabbar?..

— Ölmək istəyirəm, Allah!? — deyə təkrar etdi və bu dəfə Heyrana yox, Allaha üz tutdu sanki. Heyran qorxu, həyəcan içində Cabbarın solğun üzünə, nəmlənmiş gözlərinə baxdı. Sonra başını «yox» mənasında tərpədə-tərpədə düşündü ki, yazıq daha canından bezib. Adam da beş il, hə, düz beş il arxası üstə, qolsuz-qıçsız qala bilərmi? Biçarənin kürəyinin, yancaqlarının dərisi də gedib, qırmızı əti görünür. Bütün bu illər ərzində onun ancaq gözləri diri olub, bir də dili. Bədəni ölü olub bu beş ildə. Və Heyran da incimədən,

qaşqabaq tökmədən, canla-başla onun qulluğunda dayanıb həmişə. Bir dəfə də olsa könlünə dəyməyib, bir sözünü iki eləməyib, ona vicdanla qulluq göstərib. Evin də işini görüb, onun-bunun da. Bir tikə çörək qazanıb gətirib, çox vaxt özü ac qalıb, «mən filankəsgildə indicə yemişəm, bunu sənin üçün gətirmişəm» — deyərək şamsız yatıb. Bunları Cabbar bilməsə də, hiss eləyib, duyub. Ona görə Cabbarın qəlbi həmişə Heyrana qarşı dərin minnətdarlıq hissilə dolu olub. Ölməyibsə, yaşayırsa — bu, ancaq və ancaq Heyranın fədakarlığının, sədaqətinin nəticəsidi. Bunu Cabbar hər gün azı beş-on dəfə ürəyindən keçirib və elə anlar olub ki, Cabbar onun bu dəyanətini qiymətləndirmək üçün:

— Səni bezdirdim lap! — deyib. O zaman Heyran əlini onun qansız dodaqlarının üstünə qoyaraq:

— Sus, sən allah. Bir də elə desən, inciyərəm səndən!— söyləyib.

Və onda Cabbarın qara gözlərində yaş gilələnib. Ancaq bu beş ildə o, bircə dəfə də indiki kimi ölmək istədiyini dilinə gətirməyib...

Bütün bunlar Heyranın beynində dolandı və ona çox yazığı gəldi. Qəlbi təmiz, vicdanı xəstə ərinin qabağında pak olan qadın ürəyinə heç nə gətirmədən:

— Ölmək nədi, ay dəli. Hələ sən sağalacaqsan, ayağa duracaqsan, işləyəcəksən! — söylədi və əyilib onun qanı qaçmış dodaqlarından öpmək istədi. Cabbar dodaqlarını yana qaçırtdı.

ON YEDDİNCİ FƏSİL

Ağayi Siracəddin şəhərə «ova» çıxmışdı. Maşınsız idi. Ləbidərya ilə sırayla düzülmüş dükanların qabağından keçə-keçə küçəyə, gəlib ötənlərə göz yetirir, əlsiz-ayaqsız, yurdsuz-yuvasız, sahibsiz qız-gəlinə rast gələcəyi ümidilə addımlayırdı. Əlindəki sür təsbehin dənələrini şıqqıltı ilə çevirir, dodağaltı zümzümə edir, hərdən, tanış dükan sahibləri, tacirlərlə salamlaşırdı.

Havanın nəfəsi soyumuşdu, hardansa uzaqlardan ağır-ağır gələn payızın hənirtisi duyulurdu. Kefi kök, damağı çağ ağayi Siracəd-

dinin əlində təbiətə hökm eləmək iqtidarı olsaydı, yağışlı leysanlı payızın gəlişini daha da sürətləndirər, bacardıqca onu tez yola salar, qarlı-çovğunlu, qasırğalı-tufanlı qışı gətirər, dağların ovcunun içində yerləşən bu şəhərə soyuğun hökmü ilə hökmranlıq edərdi. Bunun da səbəbi vardı — səbəbi bu idi ki, məhz qışda ağayi Siracəddinin «ovu» uğurlu olurdu, yazda-yayda — isti havalarda özünə yüngülvarı sığınacaq yeri tapmış yetim qızlar, ehtiyacın küçələrə saldığı qadınlar soyuğun kəskin qılıncının küt zərbələrinə dözməyərək küçələrə, bazarlara, dükan qabaqlarına çıxır, sadəcə, sığınacaq üçün gəlib-gedənlərə əl açır, bir qarın çörəyə, bir isti bucağa hər cür təklifə razı olurdular. Məhz bu zaman ağayi Siracəddin yağlı dilini, pulunu, «xeyirxahlığını» işə salır, toruna düşənləri öz «müəssisəsinə» gətirirdi. Bu gün də o, bu məqsədlə şəhərə çıxmışdı. Qəlbində müvəffəqiyyətə o qədər də inamı yox idi, amma hər halda «gəzən ayağa daş dəyər» deyərək küçələri dolaşırdı. Qocanın ürəyində xoş bir əhvali-ruhiyyə vardı, nəzərləri orda-burda olsa da Zərrintac xanımla keçirdiyi o qəribə gecəni tez-tez xatırlayıb gülümsünür, onun ağ bədənini, sərxoş baxışlarını, üstündən aydan çox keçsə də, unuda bilmirdi. Zərrintacın telefonda qışqır-bağır salmağını yad eləyib öz-özünə deyirdi: «heç çapalama, quzum. Sən daha mənim əlimdəsən, heç yana qaça bilməzsən, quzum.»

Elə bu zaman kimsə çiyninə əlini toxundurdu. Qanrılanda böyründə addımlayan Əli Tüğyanı görüb sevindi:

— Oho, ağayi Əli Tüğyan, xoş gördük səni.

— Xoş günün olsun, ağa! Necəsən? Görürəm, maşallah kefin kökdür, öz-özünə gülə-gülə gedirsən. Deməli, ağa, gülürsə, işləri yaxşıdır. Elə deyilmi?

— Əlhəmdülillah. Şikayət eləməyə heç bir əsas yoxdur. Yuxarıda qadir Allahın, aşağıda əlahəzrətin sayeyi-himayəsindən, sizin kimi dostların sayeyi-mərhəmətindən, babat yaşayırıq.

— Olsun, olsun, ağa.

Onlar yanaşı addımlayırdılar. Əli Tüğyan gümüşü qaragül papaq qoymuş, qara yağışlıq geymişdi. Əlində bürmələyib tutduğu qəzeti hərdənbir qıçına vurub şappıldadırdı.

— Heç görünmürsən, balam? Neçə vaxtdı bizim tərəflərə ayaq basmırsan?

— Hə, bir az başım qarışıqdı ağa, işim çoxdu. Gələcəyəm, hökmən gələcəyəm. Təzə cücədən-zaddan nəyin var? — deyə o, bic-bic ağayi Siracəddinə göz vurdu.

— Hələ bir şey yoxdu, ağa. Sən bilirsən ki, təzə bir şey olanda mən səni yaddan çıxartmıram.

— Təşəkkür edirəm, ağa. Düzü, ora, sənin yanına gələndə mən sözün əsl mənasında yaşayıram, zövq ala-ala yaşayıram. Yaxşı, o, türkmən qızı yenə ordadı?

— Türkmən qızı, İnci xatunu deyirsən?

— Adı yadımda qalmayıb. O qaragözlü türkmən qızını deyirəm.

— Hə, İnci xatun. Bəli, burdadı.

— Çox xoşuma gəldi, ağa. Mən çox qadın görmüşəm ömrümdə, ikisi-üçü yadımda qalıbsa, biri də odu, ağayi Siracəddin!

— Sən zövq əhlisən, xoşum gəlir səndən. Sən mənim tanıdığım adamların içində ən ağıllısısan, mən səni əsl həyat adamı hesab eləyirəm, şair! Siyasətlə də məşğulsan, yazırsan da, yaşayırsan da. Bu əsrin, adamı odu ki, yaşaya bilir. Yoxsa sənin ağayi Elməddinin kimi? Mənə bir daha aydın oldu ki, o, qətiyyən ağıllı adam deyil. O qədər pulu, elə gözəl arvadı qoyub gedəsən? Sonra da qələmi götürüb əlinə ona-buna sataşasan?.. Bu, ancaq axmaqlıqdır,başqa bir şey deyil.

— Bəs nə! Mən sənə nə deyirdim?

Birdən ağayi Siracəddinin yadına nə isə düşdü və küçənin ortasında dayanıb:

— Bilirsən nə olub? — dedi.

— Yox?..

— Hay-hay! Sənin onda dünyadan xəbərin yoxdu, şair, — sonra o, ətrafa göz gəzdirib yavaşcadan: — Arvadını... ələ gətirmişəm! — dedi.

— Elə şey olmaz, canım? — Əli Tüğyan qaşlarını yuxarı dartıb heyrətlə içini çəkdi, — Ağayi Nəcməddinin qızını ha?

— Bəli, ağayi Elməddinin arvadını! — O, «ağayi Elməddinin» sözlərini xüsusi bir vurğu ilə söylədi, çox böyük bir qoçaqlıq eləyən

və öz işindən son dərəcə məmnun qalan bir adam kimi məğrur-məğrur donqar belini düzəltməyə çalışdı, xırda gözlərini qıyıb için-için güldü.

Əli Tüğyan inanmaq istəmirdi:

— Əşi, elə şey olmaz?

— Sənin əziz canın üçün, ağa. Sən özün bilirsən ki, mən özünə böhtan deyən kişilərdən deyiləm. Mən imanımı yandıra bnlmərəm, ağa.

— Baho... Yaxşı, bu necə oldu, axı? O hara, sən hara?

— Bəs sən məni nə bilmisən, ağa? Qulaq as, danışım. — Və o, Əli Tüğyanın qoluna girdi, ağır-ağır addımlayaraq əhvalatı olduğu kimi ona danışdı. Qəribə idi ki, ağayi Siracəddinin bu hərəkəti Əli Tüğyana ləzzət eləmişdi, nə üçünsə sevinirdi yaman. O, Zərrintacı bir neçə dəfə görmüşdü, bədəninin biçimindən, qəşəngliyindən xoşu gəlmişdi, fikrində onu öz arvadı Xəyalə ilə müqayisə eləyərək Zərrintaca üstünlük vermişdi və Elməddinə ürəyində qibtə də eləmişdi. Ancaq onu ələ gətirmək, onun vüsalına çatmaq barədə qətiyyən ağlına heç nə gətirməmişdi. İndi onu, o gözəl gəlini bu xırdagöz qocanın ağuşunda təsəvvür eləyəndə istər-istəməz paxıllıq qurdu baş qaldırdı içində və ağayi Siracəddinə həsəd hissilə baxdı. Sonra Elməddinlə olan söhbətlərini, aralarında olan əqidə, məslək düşmənçiliyini xatırladı, az bir zamanda adı, sanı, şöhrəti ilə, istedadı ilə, ecazkar qələmi ilə onu üstələyib yavaş-yavaş kölgədə qoyduğunu yada salıb qəribə bir rahatlıqla nəfəs alaraq ağayi Siracəddinin çiyninə bir şapalaq vurdu.

— Əjdahasanmış, vallah!!!

Ağayi Siracəddin məmnun bir görkəmlə:

— Ağayi Elməddin indi gedib cəmiyyəti bürüyən əxlaqsızlıqdan nə qədər yazır qoy yazsın!!—dedi. — O elə bilir ki, Amerika kəşf eləyir. Mən fikir vermişəm—yazı-pozu adamı olmasam da —o da, Rəhgüzər də hamıya məlum həqiqətləri qələmə alırlar və elə bilirlər ki, heç kəsin bundan xəbəri yoxdu. Məndən nə yazır, yazsın, qətiyyən qorxmuram. Məni nəxost-vəzir özü tanıyır, məni şahzadələr yaxşı tanıyırlar. Şahzadə Əhmədşah bura az gəlib-getməyib. Ağayi Elməddin elə bilir ki, mən...

Əli Tüğyan ağayi Siracəddinin qolunu dümsüklədi:

— Adını tut, qulağını çək, budur özü gəlir! — deyə qarşıdan ağır-ağır irəliləyən Elməddini ona göstərdi. O, əlləri yaxası açıq yağışlığının cibində vitrinlərə, dükan qapılarına baxa-baxa onlara sarı addımlayırdı. Görməyib keçəcəkdi, ancaq Əli Tüğyanın səsi onu saxladı:

— Ağayi Elməddin? Salam! O, Əli Tüğyanı görüb dayandı:

— O, salam şair! — deyərək irəli gəldi və onunla, sonra da yanındakı ağayi Siracəddinlə səmimi görüşdü. Elməddin ağayi Siracəddini tanıyırdı, kim isə, haçansa tanış eləmişdi onları, onun nə işin-peşənin sahibi olduğunu yaxşı bilirdi. Ona qarşı elə ilk görüşdən, qəlbində anlaşılmaz bir ikrah hissi oyanmışdı və həmin ikrah duyğusunun hələ də ürəyində yaşadığını indi də bu bir neçə.anın içində anladı və üzünü Əli Tüğyana çevirib:

— Necəsən, Əli? Xəyalə xanım necədi? —deyə soruşdu.

— Yaxşıyıq — o da, mən də. Sənin əhvali-şərifin nə təhərdi, ağa?

— Mən də yaxşıyam...

Bu ara ağayi Siracəddin özünə xas bir sırtıqlıqla söhbətə qarışdı və tum gözlərini bir az da qıyaraq gülə-gülə:

— Ağa, indiyənəcən ağayi Nəcməddinin qızının qorxusundan bizim tərəflərə təşrif gətirmirdiniz, indi, eşitdiyimə görə, daha bu qorxu aradan götürülüb. Subay adamsınız. Gəlin, bu qoca əminiz sizə yaxşı bir istirahət təşkil eləsin, gözəl, huri kimi xanımlarla vaxt keçirin, əylənin.

— Yox, ağayi Siracəddin, ağayi Elməddinin elə şeylərlə işi yoxdur. Ətiqulla danışırdı ki, bir dəfə necə onu tovlayıb aparıb «İnsaf hotelə» və bu ordan necə qaçıb. Yox, bu elə yerlərə gedən deyil. Xi, xi. — deyə Əli Tüğyan şit-şit güldükdə ağayi Siracəddin əlavə etdi:

— Qayınatasına — ağayi Nəcməddinə oxşamayıb da! Kişi mənim daimi müştərim idi, rəhmətlik. Ölənəcən gəldi-getdi yanıma. Ölənəcən kefindən qalmadı. — Bu son sözlərin yalan olduğunu özü yaxşı bilirdi. Çünki ağayi Nəcməddin Dünyanı aparandan sonra bircə dəfə də olsa bura ayaq basmamışdı — ancaq deyirdi. Həqiqət kimi deyirdi. Bu sözlərin yalan olduğunu Elməddin də bilirdi, çünki ağayi

Nəcməddin Dünya çıxıb evdən gedəndən sonra heç yana getməmişdi, həyətdən belə çıxmamışdı. Ancaq Elməddin bu ləyaqətsiz adamla söz güləşdirmək fikrində deyildi, mümkün qədər onlardan tez aralanmaq istəyirdi. Odur ki, ağızucu:

— Sağ ol, ağa. Mənim elə yerlərə getməyə nə vaxtım, nə də həvəsim var. — dedi.

Onda ağayi Siracəddin:

— Vaxtınız yoxdur, ünvanınızı deyin, yanınıza göndərim. Su sonası kimi qızlar var. Ən qəşəngini sizə göndərərəm, inan, ağa. Siz bəlkə də bilmirsiniz, ancaq mənim sizə çox böyük hörmətim var, ağa!

— Hörmətiniz artıq olsun, ağa.

— Sizin kimi aliqədr şəxsiyyətə ehtiram bəsləmək mənim kimi kiçik bəndələrin borcudur.

— Məni bağışlayın, tələsirəm! Sağ olun, —deyərək ayrılanda onların ucadan şaqqanaq çəkib güldüklərini eşidib pərt oldusa da, əhəmiyyət verməyərək iti addımlarla uzaqlaşdı. O gülüş — nə sirr idisə — qulaqlarından getmirdi. «Poli xeştiyə çatanacan, oradan burulub «Spinzər» restoranına girənəcən bu qəribə, mənası ona müəmmalı görünən gülüş beynini döyəclədi, ürəyini sıxcaladı...

...Elməddin «Sinema-Pamirin» qənşərindən keçərkən, yolun qırağında dayanmış qara rəngli «Şeverele» maşınının açıq qapısının tininə əlini qoymuş Ətiqullanı görəndə şadlandı: ancaq bu sevinc çox ani oldu. Ətiqullanın üzünə baxanda dəhşətə gəldi. Onun burnunun əti əcaib bir şəkildə tökülmüşdü. Ağ sümük və iki burun deşiyi gözəl, qədd-qamətli Ətiqullanın sifətinin quruluşunu tamam dəyişmişdi. O, Elməddini görən kimi, deyəsən, xəcalətindən başını yana çevirdi, ancaq gec idi — başa düşdü ki, Elməddin onu tanıyıb və düz üstünə gəlir. Elməddin sevindiyi-kədərləndiyi bilinməyən bir tərzdə:

— Salam, Ətiqulla! —dedi və həmişə görüşərkən etdiyi kimi, əlini ona sarı uzatdı. Lakin əli havadan asılı qaldı. Ətiqulla çevrilib:

— Salam! — dedi, ancaq əl vermədi və utana-utana: — Xəstəyəm, Elməddin, — dedi, — görüşmürəm, sənə də keçə bilər...

Elməddin heyfsilənə-heyfsilənə onun üzündə göz gəzdirdi. Ətiqulla bu baxışdan xəcalət çəkdi, yerə girməyi arzuladı. O, köhnə tanışlarından kimə rast gəlirdisə, beləcə, ölməyi arzulayırdı. «Gərək heç yaxınlaşmayaydım!»— deyə Elməddin onun çəkdiyi əzabı duyub gözlərini ağaran-qızaran burnundan yayındırdı:

— Sənə nə olub, qardaş?

— Eh... Yaman yerdə ilişmişəm, Elməddin! — dedi. Səsində artıq düzəldilməsi mümkün olmayan bir səhvin sonrakı peşmançılığı vardı.

— Axı bu nədən belə oldu, Ətiq?

— Heç bilmirəm harda, necə tutdu bu mərəz məni. Dava-dərman da kömək eləmir... Çürüyürəm qardaş, gözüm baxa-baxa çürüyürəm...

Ətiqulla ilə xeyli söhbət elədi və ayrılıb evə gələndən sonra da uzun müddət onun əcaib sifəti gözünün qabağından çəkilib getmədi: «Çürüyürəm, qardaş, gözüm baxa-baxa çürüyürəm» sözləri elə hey qulaqlarında səsləndi. Onun getdiyi ümumxanaları xatırladı. Arvadlarının ikisi bu mərəzə tutulub. Küsüb ataları evinə getmiş iki arvadı isə, ərlərinin sağalmaz mərəzə mübtəla olduğu xəbərini eşidib daha evə qayıtmayıblar!..

Ətiqulla çox əzab çəkirdi. Ağrıları dəhşətli imiş, sən demə. Ən dəhşətlisi isə, gözün görə-görə, hər gün bir az çürümək imiş!

«Fəsadlarla dolu cəmiyyət özü çürüyür və Ətiqullaları da da çürüdür. Ətiqulla da, onun arvadları da, hələ izsiz-soraqsız çürüyən başqaları da bu cəmiyyətin qurbanlarıdı!» — deyə Elməddin yerinə girib gördüyü dəhşətli mənzərəni unutmaq üçün yorğanı başına çəkdi.

ON SƏKKİZİNCİ FƏSİL

Ziyaülhəqq maşının içində, sükan arxasında oturmuşdu, «Şorbazar» qarışqa yuvası kimi qaynaşırdı: müxtəlif geyimli, müxtəlif biçimli adamlar ora-bura vurnuxur, kimsə nəsə alır, kimsə nəsə satırdı. Ziyaülhəqq qoltuqlarında qəzet bağlaması saxlayıb müştəri

haylayan uşaqlara fikir verirdi. Onlar qışqıra-qışqıra özlərini adamın gur yerinə verir, əllərində tutduqları qəzetləri havada yelləyə-yelləyə bir-birinin səsini batırmağa çalışırdılar:

— «Sülh» ruznaməsi alın. Əli Tüğyan bu gün tüğyan eləyib!

— «Tərcüman» var ha. Gülmək istəyən bura gəlsin. Gülmək istəyən bura gəlsin!

— «Şöleyi-cavid»in yeni nömrəsi...

— «Pərçəm» alın, ağalar, «Pərçəm» alın. Ağayi Rəhgüzərin şerini oxumağa tələsin.

Bu son sözləri deyən başı-yaxası açıq oğlanın əlində qəzet lap az qalmışdı: keçib-gedənlərin ona tez-tez yanaşdıqlarını, qəzet alıb getdiklərnii bayaqdan müşahidə edən Ziyaülhəqq fərəh içində gülümsünürdü. «Pərçəm» başqa ruznamələri kölgədə qoyur, getdikcə daha çox satılırdı: bu o demək idi ki, o, ətrafına çoxlu oxucu toplaya bilmişdi, səsi xalqa çatırdı. Bu o demək idi ki, «Pərçimçilər xalqın, cəmiyyətin yaralı yerinə toxuna bilir, çamaatı düşündürən məsələləri qələmə alırdı. Ziyaülhəqq Şəfinin sözlərini xatırlayırdı: «Ruznamə nədir? Ruznamə sənin yaşadığın cəmiyyətin həssas güzgüsüdür, əfkar-ümuminin tərcümanıdır. Sən insanı təhrif eləyib göstərən güzgüyə kimsənin baxdığını görübsənmi? Yox. Görə də bilməzsən. həyatı, varlığı, bu günün həqiqətlərini yanlış əks etdirən ruznamə də belədir, Ziya. Onu kimsə oxumaq istəməz. Mənim bu sözlərim eyni dərəcədə bədii əsərlərə də aiddir, qardaşım». Şəfi düz deyirmiş, elə bax burdan, maşının şüşəsi arxasından Ziyaülhəqq aydın görürdü ki, «Sülh» ruznaməsi satan oğlanın, bütün ciddi-cəhdlərinə və boğazını yırtmağına baxmayaraq, qoltuğu hələ də dolu idi. Və bu, bir əqidə, məslək müxalifi kimi, Ziyaülhəqqə ləzzət verirdi. Bazar iqtisadiyyatın, pulun, qızılın, güzəranın dəqiq havasənci[1] olduğu kimi, siyasi əqidələrin də hansının düz, hansının puç və aldadıcı olduğunu güzgü tək əks etdirən bir yer imiş, sən demə. Pulun öldüyünü, qiymətdən düşdüyünü bilmək istəyirsənsə bazara çıx. Həyatın, güzəranın yaxşımı, pismi keçdiyini təyin etmək istəyirsənsə, bazara çıx. Böyük vəzifə sahiblərindən kimin hardan çıxarılacağını, hara qoyulacağını,

[1] Barometr.

bilmək istəsən, bazara çıx. Mətbuat işçilərindən kimin dalınca daha çox adam gedəcəyini, kimin həqiqət carçısı, kimin yalançı olduğunu bilmək istəyirsənsə, yenə bazara çıx!!! Bazar cəmiyyətin bir həssas parçası imiş, sən demə», Ziyaülhəqq belə düşünə-düşünə... «Pərçəm»i satan, adını da bilmədiyi uşağa baxır, qarabuğdayı sifətinə həkk olunmuş sevinci görür, qəzetçi yoldaşlarının arsında matahının yaxşı işə getdiyindən qürrələndiyini duyurdu. «Bizim qürrələnməyə haqqımız olduğu kimi, sənin də haqqın var, bala» — deyə ürəyindən keçirə-keçirə maşını işə saldı, dar, gəliş-gedişin çox olduğu kiçik meydanda hərlənib geri çıxanda, ərzaq dükanlarının düzüldüyü cərgənin qənşərində çoxlu adam yığışdığını gördü. Nə isə olmuşdu. Ziyaülhəqq maşını əylədi, yan qapının açıq pəncərəsindən səs-küy gələn səmtə boylandı, ancaq adamlar çəpər çəkdiyindən heç nə ayırd eləyə bilmədi. Maraq hissi güc gəldi. Təbiətən narahat, hər şeyin axırına çatmağı, öyrənməyi xoşlayan o, yerə düşdü. İki-üç addım getməmişdi ki, ağ kəmərli, tapançası yanbızının üstündə, əli ağ dəyənəkli polis nəfərinin adamları o yan-bu yana ayıraraq irəli çıxdığının və başıqırxıq, köynəyi cırıq yalın ayaqları palçığa batıb qapqara olmuş bir oğlan uşağını darta-darta dalınca sürüdüyünün şahidi oldu. Oğlan çırpınıb uzun, caydaq polisin əlindən çıxmağa çalışırdı. Gücü çatmadığından özünü gah yerə sürtürdü, gah qalxır və ağlaya-ağlaya qışqırırdı:

— Burax məni, burax məni.

— Gəl bura, pədər suxtə! Səni polis məntəqəsinə aparacağam.

— Polis əmi, burax məni, anam gözləyir, sən allah, məni burax.

Uşağın burnundan qan axırdı, ağzından, çənəsindən süzülüb açıq sinəsinə də damcılamışdı qan. İri, alma gözlərində yaş gilələnmişdi. Ziyaülhəqq bu ürək ağrıdan mənzərəyə baxa-baxa fikirləşirdi; «Aman allah, bizim camaatımız niyə belə laqeyddi? Bax, uşaqlı-böyüklü hamı baxır, görür ki, bu əclaf polis o biçarə uşağı sürüyə-sürüyə aparır, döyür, onunla bir heyvan kimi rəftar edir. Ancaq bir kişi yoxdu bu dəstənin içində, çıxıb bu caydaq polisə desin ki, niyə belə rəftar edirsən. Polis eləyir, demək haqlıdır. Döyülürsən, demək günahkarsan. Olsun, bəlkə günahı var, ancaq onunla belə rəftar

eləməyə sənin haqqın yoxdur, ağa polis! — deyən yoxdur. Yox, bizim camaatda bu böyük nöqsandır. Sən bilməlisən ki, bax, bu polis nəfəri sabah eyni qayda ilə səni də qabağına qatıb apara bilər, səni döyə bilər, təhqir edə bilər. Onda da heç kəs sənin harayına hay verməz. Bu biganəliyi, bu laqeydliyi, «tanımıram, mənə nə dəxli var?» fəlsəfəsini bu camaatın qanından, canından çıxartmaq lazımdır». — polisin qabağını kəsdi: polis onun uca boy-buxununa, enli sinəsinə, geyim-keciminə ani olaraq nəzər salıb duruxdu:

— Bu uşağı niyə belə döyüb qanına qəltan eləmisən, ağayi polis?

Polis oğlanın əlini buraxmadan:

— Oğurluq edib, ağa, — dedi. — Nanfuruş Hacı Abbasın dükanından çörək oğurlayırdı.

Polis belə deyəndə Ziyaülhəqq çevrilib daha ağlamayan, kiriyib ona qahmar çıxan yad kişiyə zənlə tamaşa eləyən oğlana baxdı və:

— Hə? Düz deyir, sən çörək oğurlamısan? — deyə soruşanda uşaq birdən özünü ona tərəf ataraq:

— Əmi, bu sənsən, əmi?... — deyə fəryad qopardı və ürəklənib təzədən ağlamağa başladı. — Məni tanımadın, əmi? Mən... — o, sözünün dalını deyə bilmədi.

Ziyaülhəqq çaşqın halda uşağı təpədən dırnağa süzür, ancaq ona «əmi» deyən oğlanın kim olduğunu anışdıra bilmirdi.

— Kimin oğlusan, bala?

— Mən... — mən... — o, içini döydüyündən qırıq-qırıq cavab verdi. — Mən sənin dostunun oğluyam, əmi. Yadındadı, bizə... gəlmişdin ha, qibləgahımdan məktub və pul gətirmişdin ha...

Ziyaülhəqqin başına bu soyuq havada elə bil isti su tökdülər— bütün bədəni pörşələnib yandı. Dərhal Möhsünü xatırladı, qulağına güllə və «ax» səsləri gəldi. Sonra balaca, darısqal həyətdə yanbayan düzülmüş dörd uşağın arasından birinin — böyüyünün «əmi, qibləgahımı görsəz, deyin tez gəlsin» sözləri təzədən qulaqlarında səsləndi. Və o, ağzı-burnu qan içində olan oğlanın həmin uşaq olduğunu yəqin edib sarsıldı.

— Hə, Munis... Munis... — deyə ayrı söz tapa bilmirmiş kimi təkrar elədi və dərhal nə fikirləşdisə, üzünü polisə tutub hökmlə:

— Ağa, o bizim uşaqdı. Get işinlə məşğul ol, onu mən özüm aparacağam — dedi. Qarşısındakının kimsə böyük və nüfuzlu adam olduğunu zənn edən polis gözlərini döyə-döyə:

— Beçeşm, ağa! — dedi və nallı polis çəkmələrinin dabanlarını bir-birinə vurub şaqqıldadaraq uzaqlaşdı. Tamaşaya yığılan boş-bikar adamlar, maraqlı əyləncənin qurtardığını görüb kənara çəkildilər; hərə öz işinin dalınca getdi. Ziyaülhəqq Munisə dedi:

— Dalımca gəl, bala.

Munis arxasına baxa-baxa — sanki polisin qayıdıb yenidən onu tutacağından qorxurdu — adını bilmədiyi kişinin dalınca addımladı. Maşına çatanacan Ziyaülhəqq onun yalın, palçığa bulaşmış ayaqlarına, cırıq köynəyinə bir də baxıb köksünü ötürdü. Oğlan əlinin arxası ilə ağız-burnunu silirdi, tez-tez içini çəkirdi. Ziyaülhəqq onu maşına mindirdikdə o, bir az toxtamışdı. Munis ömründə belə maşına minməmişdi deyə, azca əvvəlki müsibətini unudaraq salona, sükana, sükanın yanındakı yaraşıqlı cihazlara, saata baxır və fikirləşirdi ki, nə qəşəng maşındı, ilahi. Adamın belə bir evi ola! Ziyaülhəqq sükanı ehtiyatla hərləyə-hərləyə qarşısındakı güzgüdən oğlanı gözucu seyr edir və düşünürdü: «Çörək oğurlayırmış! Demək pulları qurtarıb. Gör o vaxtdan neçə il keçir! On beş min nə puldu ki, bu od tutub yanan bazarın qabağında?!»

Munis, deyəsən, ilk heyranlığın əlindən yaxasını qurtarıb yenə əvvəlki qayğılı, kədərli, göz yaşı və qanla süslənmiş, çörəksiz dünyasına qayıtdı ki, soruşdu:

— Bəs... qibləgahımı görmürsüz daha, əmi? Ziyaülhəqq xəyaldan ayıldı:

— Nə?

— Deyirəm... qibləgahımı görməmisiniz ki, əmi? O, ah çəkdi:

— Yox, oğul. Elə o görənəm. Ondan sonra görə bilməmişəm.

— Gəlib çıxmır!..

—…

— Siz yerini bilirsiz onun?

—…

— Deyirəm, siz yerini bilirsiz onun?

— Yox, oğul... Təəssüf ki, bilmirəm...

— Bilsəydiz gedərdim, axtarıb tapardım, qaytarıb gətirərdim...

— Elə tapmaq olmaz... Munis, pulunuz qürtarıb, hə?

— Siz verən pul?

— Hə də, qibləgahın göndərən pul!

— Çoxdan qurtarıb, ağa. İndi biz acıq. Anam, uşaqlar acdılar. Mən daha məktəbə getmirəm, bazara çıxıram...

— Oğurluq eləyirsən?..

—…

— Oğurluq eləyirsən?

— Yox ağa, onun-bunun yükünü, zənbilini daşıyıram, çörək pulu qazanıram. Təkcə bu gün...

— Təkcə bu gün... oğurluq eləmisən, hə?

— Ac idim əmi. Gözlərim qaranlıq çalırdı, başım gicəllənirdi. Ona görə...

Ziyaülhəqq susdu. Daha uşağı sorğu-suala tutmaq istəmədi.

Ehtiyacın necə dəhşətli bir qüdrətə malik olduğunu hələ uşaq vaxtı yaxşı-yaxşı dərk eləmişdi. Bilirdi ki, ehtiyacın əli hansı ömrə, hansı ürəyə yol taparsa, talayıb viran qoyur. Güllər əkibsənsə, yerlə yeksan eləyir; ev qurubsansa başına uçurur. Ümid bəsləyibsənsə, rəhmsiz tar-mar eləyir. Əsl insansansa, oğruya, qatilə çevrilirsən; vicdanlısansa, vicdansız eləyir səni ehtiyac!. Bunları Ziyaülhəqq yaxşı bilirdi və həmin hikmətləri arxada oturan əl boyda uşağa danışıb söyləməyin də mənası yox idi indi — bəlkə də o, bu həqiqətləri hələ başa düşməkdən çox uzaq idi. Ancaq Ziyaülhəqq bayaqdan görürdü ki, ehtiyac öz murdar əllərini dünyanın isti-soyuğunu layiqincə dadmamış, bərkiyib bişməmiş bu yetim uşağa tərəf uzadır necə də onu yavaş-yavaş çəkib öz ağuşuna almaq, sıxıb-sıxıb məhv eləmək istəyir. Yəqin onun atasını da — satqın kimi güllələdikləri Möhsünü də ehtiyac bu yola salmışdı. Bəli, bu, şübhəsiz idi. Ziyaülhəqq ürək ağrısı ilə düşündü ki, yox, onu məhv olmağa qoymaq insafdan, insanlıqdan uzaqdı. Munisi təkcə polisin əlindən almaq hünər deyil, ehtiyacın əlindən almaq lazımdı:

— Neçəncidə oxuyursan, bala?

— Beşincidə.

— Deyirsən məktəbi buraxdın, hə?

— Hə, əmi.

— İşləmək istəyirsən, eləmi?

— Bəli, əmi. İşləmək istəyirəm. Pul qazanmaq istəyirəm, qibləgahım gələnəcən... uşaqlar ölməsin, əmi.

«Sən özün də elə uşaqsan, bala. Amma səni ehtiyac vaxtından tez böyüdüb həyat meydanına salıb!» — deyə acı-acı düşünən Ziyaülhəqq geri qanrıldı:

— Mətbəədə işlərsənmi?

— Mətbəədə? Mətbəə nədi, əmi? Ziyaülhəqq yenə acı-acı gülümsündü.

— Mətbəə bilmirsən nədi?

— Yox. Orada nə daşıyacağam?

— Heç nə daşımayacaqsan, Munis. Hərfləri ki tanıyırsan, elə deyil?

— Hə, tanıyıram, əmi.

— Bax, həmin hərfləri yan-yana düzüb dəmir sözlər yazacaqsan...

— Dəmir söz? — Hə...

Bu ona çox qəribə göründü. Ömründə ilk dəfə idi ki, belə söz eşidirdi. «Dəmir söz»... Ziyaülhəqq Munisin heç nə başa düşmədiyini anladı, daha dərinə getmək istəmədi, qısaca dedi:

— Sabah səni bax burda, Çaharrahie ye-Tur Abbasxanda gözləyəcəyəm. Elə bu vaxt, yaxşı?

— Yaxşı, əmi.

— Sabah gələrsən. Anana məndən salam deməyi unutma. Səni Teyyubun yanına apararam.

— Teyyub kimdi?

— Sənin ustan olacaq o. Sən onun yanında şəyird işlərsən. Yaxşı oğlandı. Maaşın da yaxşı olar. Daha oğurluq eləməzsən.

Munis başını aşağı saldı. Ziyaülhəqq hiss elədi ki, uşaq bu sözlərindən utandı. Odur ki, söylədi:

— Utanma, bala. Qoy zəmanə sənin əvəzinə utansın!. Sənin nə günahın var?

—…

— Hə, indi düş get bazara, anan üçün, uşaqlar üçün nə istəyirsən al, apar! — deyə meşin pul qabını döş cibindən çıxarıb Munisə üç dənə əllilik uzatdı — götür.

—…

— Götür, götür, bala.

Oğlan üstündə qan qurumuş titrək əlini irəli uzatdı.

ON DOQQUZUNCU FƏSİL

Qapı astaca döyüldü. Elməddin yazı masasının arxasından çıxdı və mil-mil xalatının yaxasını düymələyə-düymələyə irəli yeriyib cəftəni çəkdi. Qapının ağzında Siminbəri görəndə gözlərinə inanmadı. Xəyalın, düşüncənin belə həqiqət olacağını heç vaxt ağlına gətirməzdi. Qəribə idi, çünki elə həmin anlarda o, Siminbər haqqında düşünürdü. Onu neçə vaxtdı görmürdü. Elə bil, həyatında nə isə çatışmırdı. Əhədullagilə getməyə utanırdı. Onunla rastlaşanda tez-tez «uşaqlar necədir» — deyə ümumi halda soruşurdu və bu «uşaqlar» sözü altında da ən çox Siminbəri nəzərdə tutduğunu anlayıb öz aləmində gülümsünürdü. Əhədulla da «əlini öpürlər, ömrünə dua eləyirlər!» deyə ümumi cavab verirdi. Ancaq Elməddin hiss eləyirdi ki, Simin heç cür yadından çıxmır, getdikcə onu daha çox məşğul eləyir, düşüncələrinin ən şirin, ən ləzzətli parçasına çevrilir. Və tez-tez qızın divardan öz əlilə asdığı şəklinə baxırdı. Elə indi də onun haqqında fikirləşirdi — özü öz ayağı ilə gəlib çıxdı.

— Salam, Simin, xoş gəlibsən!

— Sağ olun, ağa.

— Keç içəri, qapıda niyə durubsan?!

Siminin yanaqları qızarmışdı. Qara saçından ayrılmış iki-üç tel alnına düşmüşdü. Əynində qara rəngli nazik palto vardı. Təzə almışdılar deyəsən. Ayaqqabısı da təzə idi. yaylığı da. Simin qətiyyətsiz addımlarla otağa daxil oldu. Ancaq bu zaman Elməddin gördü ki, qızın əlində tor zənbil, içində göy rəngli qazança var. O, qazançanı

divarın dibinə qoyub bayaqdan bəri ilk dəfə baxışlarını qaldıraraq Elməddinin üzünə nəzər saldı və utana-utana gülümsündü:

— Sənin üçün düşbərə bişirib gətirmişəm, ağam! — dedi. Səsi titrəyirdi. Bədəninin uçunduğunu Elməddin də hiss eləyirdi.

— Nə əziyyət çəkirdin, Simin?!

— Dedim bu gün istirahət günüdü, evdə olarsan. Bişirdim, gətirdim...

— Çox sağ ol, Simin!.. Elə indicə yadıma düşmüşdün,— dedi Elməddin və özünün də qızardığını duydu. Həyəcanlanmışdı. Heç bilmirdi nə desin, nə eləsin. Deyəsən, qız da çaşıb qalmışdı. Birdən Elməddin xatırladı ki, o, paltosunu soyunmayıb, dedi: — Balapuşunu çıxart, Simin — və özü əl yetirdi, qıza kömək elədi, paltosunu alıb mıxçadan asdı. Simin altdan qırmızı jaket geymişdi. Əyninə kip oturduğundan balaca, daş kimi döşləri qabarıq görünürdü. Elməddin qızın sinəsinə baxmamağa çalışaraq geri çəkildi, onu yuxarı başa dəvət elədi.

— Gəl otur, Simin. Evdə nə var, nə yox? Anangil, uşaqlar necədi, balaca Vətənyar neyləyir?! Qız oturmadı, ayaq üstə cavab verdi:

— Hamısı yaxşıdı, ağam.

— Əhədulla evdədi?

— Yox, sübhdən gedib. Maşın alandan sonra daha qibləgahımın üzünü az-az görürük, ağam. Səhər gedir, bir də gecəyarısı qayıdır.

— Neylək, qoy işləsin. Gəzən ayağa daş dəyər. Qoy qazansın...

— Dilindən düşmür sənin adın qibləgahımın, ağam... Elməddin onun sözünü kəsdi:

— Simin!

— Nədi, ağam?

— Səndən bir xahişim var...

— Xahiş? — Simin nazik qaşlarını çatdı. — Nə xahiş, ağam?

— Mənə «ağam» demə, olar?

— Deməyim?

— Hə!

— Bəs nə deyim, ağam? Elməddin ürəkdən güldü:

— Əcəb yerinə yetirdin xahişimi! Mən deyirəm mənə «ağam» demə, sən yenə deyirsən «ağam». Simin də güldü:

— Dilim öyrəşib, a… E, yenə çaşmışdım... Yaxşı, bəs nə deyim?

— Elə-belə, adımı de, Elməddin... Yaxşımı?..

— Baş üstə... Ancaq çaşanda məni qınama... Yaxşı?

— Yaxşı... Gəl otur, sənin üçün çay hazırlayım...

— Yox, yox, nə danışırsan? Mən... sən otur... mən xörəyi də qızdırım... çay da qoyum...

— Sən qonaqsan axı... Ev yiyəsinin borcudur ki, qonağına qulluq eləsin...

— Mən elə qonaq deyiləm, a... Elməddin... — dedi və az qala çaşacağına yenə güldü. Sonra evə göz gəzdirdi, soruşdu:

— Xoşuna gəldi? Yaxşı bəzəmişik evi?

— Hə, Simin. Əladı. Xoşum gəldi. Hər şey öz qaydasındadı, yerindədi. Ancaq o şəkli, — divara işarə elədi, — mən sənə bağışlamışdım axı. Bura niyə gətirib vurmusan?

Simin indiyənəcən görmədiyi bir şəklə baxırmış kimi, gəlib qənşərində duraraq öz əksinə xeyli tamaşa elədi va asta səslə dedi:

— Onun yeri elə burdadı... O sənin əsərindi, mənə həsr eləsən də, gözünün qabağında olmağı yaxşıdı, Elməddin. Qonşumuzun qızından bir kitab alıb oxumuşdum, orada yazırdı ki, sənətkarın əsəri onun ömrünün, ürəyinin bir parçasıdı, ona görə o əsərlər övlad kimi yaradanı üçün əziz olurlar. Yəqin bu da sənin üçün əzizdi, Elməddin...

— Düzü, çox əzizdi, Simin. Ona görə əzizdi ki, orda sən varsan, Simin!..

Yeniyetmə, dünyanı təzə-təzə dərk eləməyə başlayan, qızlar bulağından yenicə su içib sonalanan Simin üçün bu anlar çox şirin idi, fərəh, sevinc dolu anlar idi bu anlar. Hələ heç kəslə oturub-durmayan, kimsədən belə sözlər eşitməyən bakirə xəyallı qız üçün; dumanlı da olsa, bu səadət böyük və unudulmaz səadət idi. Bunu dərk eləyirdi, bədəni, bütün vücudu od içində yanırdı. Yerindən tərpənməyə qorxurdu, elə bilirdi, hərəkət eləyərsə, bir söz deyərsə, o xoş, sevinc dolu anlarla bəzənmiş səadət dünyasını uçura bilər...

Sükut davam eləyirdi, Elməddin isə düşünürdü ki, gör Simin necə də başa düşəndi; kitab oxuyub, sənətkarın əsərinin onun üçün necə əziz olduğunu anlayıb və şəkli gətirib bura, Elməddinin gözünün qabağına vurub. Bunu şübhəsizdi ki, Zərrintac eləməzdi. O, birgə yaşadıqları müddət ərzində laqeydliyi, kobudluğu, qanmazlığı üzündən Elməddinin çox fikirlərinin—yaşamağa, yaşatmağa qadir olan çox fikirlərinin qatili olub onları doğulmamış, kağız üzərində dünyaya gəlməmiş məhv edib, öldürüb, boğub. O, Elməddinin ürəyini də, qələmini də öldürmək istəyirdi. Ancaq, xoşbəxtlikdən, bacarmadı, gücü çatmadı. Nə yaxşı ki, bacarmadı, gücü çatmadı. Nə yaxşı ki, o təslim olmadı, ürəyini, qələmini, azadlığını, süslü həyata, milyonların göz qamaşdıran işığına qurban vermədi. Onun qəlbində yatan sərvət hara... Zərrintacların, Nəcməddinlərin sərvəti hara? Şairanə hisslər, məhəbbət dolu duyğular aləmində o parıltılı sərvət necə də sönük görünür.

Simin o sözlərdən sonra Elməddinin üzünə baxmağa cəsarət eləməyərək yan otağa sivişib keçdi. Xörəyi qızdırdı. Stolun üstünü qaydaya saldı. Çörək, boşqab, duz, istiot qoydu. Sonra Elməddini səslədi:

— Gəl, hazırdı, Elməddin... Elməddin süfrəyə nəzər saldı:

— Bəs boşqab niyə birdi, Simin? Axı biz iki nəfərik?

— Yox, mən yemirəm, Elməddin. Evdə yeyib gəlmişəm.

— Elə şey yoxdu, sən yeməsən, mən də yeməyəcəyəm.

— Vallah, toxam.

Elməddin başını buladı, heç nə demədən mətbəxdən boşqab, qaşıq gətirdi, özü qazançadan iki çömçə xörək çəkdi, stolun üstünə qoydu. Stulu irəli itələdi, pəncərənin qırağına söykənib dayanmış Siminbərin əllərindən tutub stulda oturtdu:

— Sən burda, mən orda... Yeyəcəyik, Simin. Simin ona baxıb yenə gülümsündü:

— Sən ye, mən sənə baxım.

— Yox, sən ye, mən sənə baxım.

— Onda gəl belə eləyək; ikimiz də yeyək, ancaq bir-birimizə baxmayaq...

— Hə, o da olar.

İkisi də qaşığı götürdü, yeməyə başladılar. Lakin Simin ikinci qaşıqda hiss elədi ki, Elməddin ona baxır. Kirpiklərini qaldırmaq istəyəndə Elməddin boşqaba nəzər saldı. Bir azdan sonra isə gördü ki, Simin baxır ona bu dəfə. Və ikisini də gülmək tutdu. Simin çeçədi. Elə çeçədi ki, gözləri yaşardı. Elməddin onun yaşarmış gözlərinə fikir verdi: indi o gözlər daha da qəşəng idi.

Sonra çay içdilər. Zərrintacdan danışdılar. Sən demə, o uğursuz gecə, Zərrintac Elməddini evə buraxmayanda Simin səhərəcən yata bilməyib. Zərrintaca elə nifrət eləyib ki... Elməddinin ondan tamamkamal ayrıldığını eşidəndə çox sevinib Simin. Elməddinə hədsiz yazığı gəlirmiş, sən demə. Elə arvada rast gəldiyinə görə... İndi ondan uzaqlaşdığına çox şaddı.

Axşamçağınacan oturdu Simin. Evi sildi-süpürdü. Qab-qaşığı yuyub yerinə qoydu.

— Hə, indi mən gedim!—dedi. Ancaq bu sözləri dili deyirdi, əslində heç getmək istəmirdi. Lakin getməli idi.

— Gedirsən?.. — Elməddin onun hazırlaşdığını görüb kədərləndi.

— Hə.

— Simin! — deyə o, ani sükutdan sonra çətinliklə dilləndi. — Sənə bir söz demək istəyirəm.

— De, nədi ki?

— İstəyirəm... Sən... mənim yanımda qalasan...

— Bu gecə?..

— Yox, həmişə...

— Qulluqçu?

— Yox... İstəyirəm ki, bəzəyib düzəltdiyin bu evin... xanımı da özün olasan...

—…

İKİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Topu yerə nə qədər bərk vursan, göyə o qədər çox qalxar» — bu həqiqət, ağıllı və müdrik adamların haçansa, haradasa söylədiyi bu hikmət, qolları qandallı halda dar, rütubətli, qaranlıq həbsxanaya düşəndən, dişləri vurulub sındırılandan, dırnaqları çıxarılandan sonra Məhəmməd Şəfi Rəhgüzər üçün inkaredilməz bir həqiqətə çevrilmişdi. Üstündə gəzdiyi, yaşadığı, hər qarışını müqəddəs sandığı şirin vətən torpağına, onun əsrlər boyu haqqı tapdanan, gecə-gündüz rahatlıq bilmədən çalışsa da, qarnı ac, əyni çılpaq, ayağı yalın övladlarına qəlbində doğulub pərvəriş tapmış məhəbbət nə qədər böyük və sonsuz idisə, bu torpağın, bu xalqın qədrini bilməyənlərə, adil adı ilə zalimlik eləyənlərə, vətənin taleyi ilə oynayanlara, əlinə düşən vəzifədən, məqamdan ancaq öz xeyri üçün istifadə edənlərə nifrəti bir o qədər artıq və nəhayətsiz idi. Bu qəzəb, nifrət günlər, aylar keçdikcə çoxalırdı. Şəfi həbsxanadan çıxandan sonra, elə bil qəflət yuxusundan ayılmışdı, keçən ömrünə heyfsilənirdi. Düzdür, o, qabaqlar da bu hisslərlə yaşamışdı. Qəlbində vətən eşqi yaşamışdı, onun düşmənlərinə nifrəti yaşamışdı — ancaq bu, necə də az imiş. O, əvvəllər də xalqının, doğma torpağının dərdlərindən yazmışdı — ancaq bu da az imiş, sən demə. Sən demə, məmləkətdə zülm ərşə dirənibmiş ədalətsizlikdən yer-göy qan ağlayırmış, haqq deyən ağızlar tikilirmiş, qapılar bağlanırmış!!!. Elin-obanın sevimlisi olan, məmləkətin hər guşəsində uşaqdan tutmuş böyüyə qədər hamının sevdiyi, pərəstiş etdiyi, adı gələndə fərəhdən göz yaşaran bir sənətkara hörmət edilməyəndə, adi, bəlkə də heç adını belə yaza bilməyən polis tərəfindən qoluna qandal vurulanda, çiyni çinli məmur tərəfindən dişləri vurulub salınanda daha hansı ədalətdən, haqdan danışmaq olardı? Şəfinin özünün içində elə bil nə isə sınmışdı: Zahirən süst, yorğun və küskün görünürdü: ancaq əvəzində qəlbində bir nifrət məşəli yanmışdı ki, daha onu heç nəylə söndürmək olmazdı. Hətta

onu öldürsəydilər də, o məşəlin göylərə zəbanə çəkən qırmızı dilləri torpağın altında belə sönməzdi, yanardı, yandırardı. Və bu nifrət onu son dərəcə qorxusuz, cəsur bir adama çevirmişdi. Qəlbində sanki bulağın gözü daşdan, çınqıldan təmizlənmişdi. Şer qarşısıalınmaz sel kimi, ağ vərəqlar üstünə axırdı. Bu şerlərdən qan iyi gəlirdi — çünki şairin qəlbini qanatmışdılar. Həzinlikdən, kövrəklikdən əsər qalmamışdı o misralarda. Sevən aşiqin vüsal həsrəti, hicran əlindən şikayəti yox idi daha o misralarda. İnsan azad olmasa, məhəbbət də azad ola bilməz. «İnsan azad olmasa, məhəbbətin qisməti ayrılıqdı, göz yaşıdı, həsrətdi» — deyirdi şair. Siyasi-ictimai mövzular Şəfinin başını elə qatmışdı ki, son vaxtlar bircə dənə də lirik şer yazmamışdı. Qələmindən çıxanları aşkarda-xəlvətdə oxuyan Məleykə xanım da ərinin yazılarının büsbütün kəskin xarakter aldığını görür, bir tərəfdən sevinirdisə, bir yandan da kədərlənirdi. Sevinirdi ona görə ki, ərinin böyüklüyünün, əzəmətinin, sevilməyinin sirrinin bu cür əsərlərdə olduğunu yaxşı bilirdi: bu şerlərdə söylənilən həqiqətlər xalqın, elobanın dərdləri, qayğıları, faciəsi idi, bugünün həqiqətləri idi; o, həbsxanaya düşəndə məhz belə şerlər üstündə düşmüşdü, xalq, camaat onu azad etdirmək üçün əldə qırmızı bayraq küçələrə nümayişə çıxanda da onun məhz bu cür siyasi, kəskin şerlərini deyirdi. Ancaq Məleykə bu sevinclə bərabər gizli bir qorxu hissi də keçirirdi: — onu belə şerlər üstündə yenə apara bilərdilər.

Məleykə kədərlənirdi, ona görə ki, bu qədər şerin içində bir misra da olsa, məhəbbət şeri yox idi. Heç olmasa Məleykəsinə də bircə şer yazmamışdı. Halbuki, qabaqlar həmişə ona şer həsr edərdi, onu şerin sehrli dili ilə əzizlər, öpüb oxşar, nəvaziş göstərərdi. Bu, Məleykədə gizli, daxili bir qürur doğurardı və o, bu qürurla özünü dünyanın ən xoşbəxt qadını sayardı. İndi isə... belə misralar tapmayanda... Məleykə yüngülcə köks ötürər, qüssəli gözlərini ərinin ağarmış saçlarında gəzdirər, «qocalır mənim əzizim!»—deyə xiffət eləyər, ancaq heç nə deməzdi.

Şəfi son vaxtlar çox işləyirdi. Məleykənin dili ilə desək, lap canına qəsd eləyirdi. Redaksiyada çəkdiyi zəhməti-əziyyəti görmürdü Məleykə, ancaq evdəki işi gözünün qabağında idi. Kabinetinə girərdi, elə hey yazardı, oxuyardı. Məleykə onun çayını, çörəyinn elə

buradaca təşkil elərdi. Qonaq-qarası olanda da o, burda oturardı, olmayanda da. Vacib, əlimyandı iş olmasaydı, Şəfi heç yerə getmirdi.

Bir dəfə Məleykə onun çox işləyib özünü əldən saldığından giley eləyəndə Şəfi qələmi yerə qoyub.

— Heyf, ömür birdi, Məleykəm, — demişdi. — İndi isə... nə ömrə etibar var, nə də onlara...

— Onlar kimdi, Şəfi?.. — deyə Məleykə yaxın gəlib əlini ərinin çiyninə qoymuşdu. — Onlar... yəni kim?

— Onlar... «Dostlarım». Bir də gördün çağrılmamış qonaq kimi, yenə gəldilər, apardılar...

— Allah eləməsin, Şəfi.

— Allah eləmir, Məleykə. Nə eləyir, bəndə eləyir! Mənim nə ömrə etibarım qalıb, nə də o «dostlarıma». Yatdım, durmadım. Olurmu? Olur. Getdim, gəlmədim! Olarmı? Olar! Bu dünyada təəccüb və heyrət eləməyə daha heç nə qalmayıb, Məleykəm mənim.

— Son vaxtlar çox ümidsiz olmusan, Şəfi!

— Yox, Məleykəm mənim. Əksinə, mənim qəlbimdə böyük və güclü bir ümid məşəli yanır indi, əzizim. Mən işimizin, mübarizəmizin haqq olduğuna, qalib gələcəyinə son vaxtlar daha çox inanıram, Məleykə. Biz indi dünənkindən qat-qat güclüyük. Zülm də dünənkindən qat-qat çoxdur — zalım zülmünü artırdıqca, öz ölümünü daha da tezləşdirir. Bu, mənim qəti inamımdır.

— Hər halda, mən səndə gizli bir ümidsizlik görürəm və pərişan oluram, Şəfi.

Şəfi azca fikrə getmiş, arvadının daxili bir kədər və nigarançılıq ifadə eləyən gözlərinə baxmış və:

— Onu düz deyirsən, ay mənim həssasım. Bu ümidsizlik məndə var. Nədənsə, axır zamanlar ölüm məsələsi məni çox düşündürür. Elə bilirəm ki, məqsədimə çatmamış öləcəyəm.

— İraq candan, Şəfi!

— Yox, o öz yerində. Ancaq ölüm haqdır, Məleykə. Elə bilirəm sözümü deməmiş, arzuma çatmamış... Odur ki, gecəmi gündüzümə qatıb işləyirəm, ürəyimi boşaldıram, gülüm. Dünyada əbədi heç nə yoxdur, Məleykə. Hər şey, hər kəs ölümə məhkumdur. Bircə əbədi şey var—o da xalqdır, xalqın tarixi, mübarizəsi və xalqın

hafizəsidir. Bir də adını xalqın ürəyinə, tarixinin, mübarizəsinin şanlı səhifələrinə, hafizəsinə həkk etməyə qadir olanlar ölməzdi, gülüm. Mən bu həqiqətə gün kimi inanıram!!!

Məleykə Şəfinin hansı arzularla yaşadığını çoxdan bilirdi, ancaq heç vaxt o, fikrini beləcə aydın şəkildə dilinə gətirməmişdi. Məleykə daxili bir qürur hissilə əyilib onun saçlarından öpmüş və:

— Ağıllım mənim! — demişdi və sonra barmaqlarını daraq kimi tellərində gəzdirib: — Saçlarını tamam ağartdım, — deyə əlavə etmişdi. Bu zaman Şəfi baxışlarını dolandırıb altdan-yuxarı arvadının sifətinə, gözlərinə tamaşa eləmiş və günahkar kimi başını aşağı salmışdı:

— Yadımdadı, sən mənim qara, cod saçlarımı çox xoşlardın... İndi onlar ağarıb... və sənə dərd-qəm gətirir hər baxanda...

— Yox, yox, mən bunu ona görə demədim ki, sən kədərlənəsən, yox, Şəfi. Mən sənin ağ saçlarını da çox sevirəm. İnan ki, lap çox. Bir də... bir də elə bilirsən tək sənin saçın ağarıb? Bax, mənim də saçlarım ağarır, Şəfi!! Bir bura bax!?

Şəfi, Məleykənin sinəsinə sığınmış başını əlləri arasına alıb tağından öpmüş, qara telləri arasına yuva salmış ağ tükləri görüb bulud kimi dolmuş, titrək səslə:

— Sənin də saçlarını mən ağartdım, əzizim! —demişdi...

Sonra tutqun-tutqun otaqda var-gəl eləmiş, pəncərədən həyətə, qayğısız-qayğısız oynayan uşaqlarına baxmış, Məleykə xanım əlində çay dəstgahı içəri qayıdıb gələndə, çevrilib bu şeri bədahətən demişdi;

«Saçlarım ağarır» — söylədin, aman!
Söküldü bağrımın başı, ah, bu dəm.
Qəm yemə, gözəlim, o ağ saçları
Oxşaya-oxşaya qaralda billəm.

Günlər görmüşəm ki, qaradan qara,
Ahlar çəkmişəm ki, güllər saralıb.
Səni göz yaşımda çimizdirərəm —
Bir də görərsən ki, saçın qaralıb.

Sönməsin qəlbimin odu, atəşi,
Qoyma haqdan yanan bu ocaq sönə.
Mən yanım, tüstümdən saçın qaralsın,
Ağlıq bəxş eləyim o ağ bədənə!!!

Nə vaxtdan bəri Şəfidən belə isti, belə şer eşitməyən Məleykə xanım sinini haçan stolun üstünə qoyduğunu, haçan ona sarı qaçdığını onu qucaqladığını, başını sinəsinə söykəyib ağladığını bilməmişdi. Şəfi yenə onun saçlarından öpmüş, kürəyinə, çiyinlərinə əl gəzdirib:

— Niyə ağlayırsan, Məleykəm? — demişdi. O, başını qaldırıb yaşlı gözləri ilə gülümsünə-gülümsünə:

— Heç, elə-belə Xoşbəxtliyimdən ağlayıram, Şəfi, — söyləmişdi və təzədən başını ərinin sinəsində gizlətmişdi. Şəfi də ürəyində qəribə, anlaşılmaz bir nisgil üçüncü dəfə Məleykənin saçlarında dodaqlarını gəzdirmiş və təkrar etmişdi:

Qəm yemə, gözəlim, o ağ saçları
Oxşaya-oxşaya qaralda billəm.

— Gözəl şerdi, Şəfi. Çox sağ ol, əzizim. Haçandı ürəyinin səsini eşitməmişdim.

...Bəbrək qapını açıb içəri boylanaraq:

— Qibləgahım, səni bir oğlan görmək istəyir!—dedikdə, Şəfi qələmi yerə qoyub başını dikəltdi:

— Kimdi?

— Arıq bir oğlandı.

— De gəlsin.

İki dəqiqədən sonra həqiqətən arıq, almacıq sümükləri çıxmış, uzun bir oğlan içəri girəndə Şəfi ayağa qalxdı və mehriban bir ədayla:

— O, Teyyub xan, sən xoş gəlibsən, səfa gətiribsən bizə! — dedi və yaxın gəlib ona əl verdi.

— Xoş gününüz olsun, ustad. — Teyyub otağa göz gəzdirdi, kimsənin olmadığını görüb sıxıntıdan azad oldu. Teyyub arvadlardan yaman utanırdı və gələ-gələ hey düşünürdü ki, Allah elə eləyəydi şairin arvadı evdə olmayaydı.

— Gəl əyləş, ayaq üstə niyə durmusan? — deyə Şəfi onun qoluna girib kresloya tərəf çəkəndə Teyyub yerindən tərpənmədi.

— Yox, ustad, sağ olun. Mən gedəcəyəm, beşcə dəqiqəliyə gəldim...

— Elə şey yoxdu, ömründə bir dəfə bizə gəlibsən, onda da beləcə qapıdan qayıdıb qaçırsan? Məleykə xanım hələ gör səni buraxır, ya yox? Gəl, gəl otur. Görüm necəsən, səhhətin, işlərin necədir?

— Yaxşıyam, ustad! — dedi Teyyub, — səhhətim də yaxşıdı, işlərim də.

Şəfi işlərini deyə bilməzdi, ancaq aşkar görürdü ki, Teyyubun səhhəti elə də yaxşı deyil. Dodaqlarında elə bil bir damcı qan yox idi. Gözlərinin altı kölgələnmişdi. Çiyinləri qalxıb az qala qulaqlarının tuşuna çatmışdı. Cavan idi, Şəfinin heyfi gəlirdi ona. Neçə dəfə demişdi ona çıxsın mətbəədən, qurğuşun tozu axırına çıxar. Ancaq Teyyub başqa bir sənət bilmədiyini bəhanə edərək qol qoymamışdı. Əvəzində burada işləyə biləcək bir adam tapılmadığından, Şəfi çarəsiz qalıb susmuşdu. Son vaxtlar, Teyyubun köməkçisi olduğundan, vəziyyət az da olsa, yüngülləşmişdi. Ziyaülhəqq Bəbirin, Şəfinin icazəsi ilə Munisi onun yanına köməkçi qoymuşdu. Munis başıaşağı, sözəbaxan, zirək uşaq idi — gördüyünü tez götürürdü, yorulmaq bilmirdi, hara buyursaydın ora gedirdi. Həm də Teyyuba qulaq yoldaşı olmuşdu. Əl-ələ verib işləyir, deyib-gülür, günlərini keçirirdilər. Çıxan qəzetləri, kitabları ilk növbədə Munis oxuyur, hərəsindən bir söz öyrənir, bilmədiyi şeyləri Teyyubdan xəbər alırdı. Munis kimi çevik, əldən iti bir oğlanın Teyyubun yanında olması Şəfini xeyli arxayınlaşdırmışdı.

— Səndən nə əcəb, ay Teyyub?. Yoxsa bir hadisə-filan baş verib mətbəədə?

— Xeyr, ustad. Hər şey öz qaydasındadı. Bu gün bizim rüsxəti[1] günümüzdü. Ancaq işləmişik. İstədik sizi sevindirək — kitabınızın nüsxəsini hazırlayıb cildlədik, indi onu gətirmişəm, ustad, — deyə əlində tutduğu bükülünü açdı və Şəfiyə qara cildli bir kitab uzatdı.

[1] İstirahət.

— Oho, siz nə yaxşı iş görmüsünüz! — deyə Şəfi hədsiz bir sevinc içində kitabı Teyyubdan aldı. Kitabdan mətbəə qoxusu— qurğuşun və rəng iyi gəlirdi.

— Mübarəkdi, ustad!

— Çox sağ ol, əzizim.

Kitab gözəl çıxmışdı. Üst tərəfdə, qara cildin üzərinə iri hərflərlə «Məhəmməd Şəfi Rəhgüzar», ondan aşağıda isə «Qırın zəncirləri» sözləri həkk olunmuşdu. Bu sözlərin altında isə halqalarından bir neçəsi qırılmış zəncir parçası çəkilmişdi. Bu, Şəfinin son illərdə, xüsusilə həbsxanadan çıxandan sonra qələmə aldığı şerlərini əhatə edən bir kitab idi. Bir müəllif kimi, o, buradakı yazılardan çox razı idi — ürəyinin qəzəbini, kinini tökmüşdü bu şerlərə. Şəfi uşaq kimi sevinirdi. Teyyub şair sevinci görməmişdi deyə, bu fərəh ona qəribə gəlirdi, buna baxmayaraq o da ustada belə böyük sevinc bəxş elədiyinə görə sevinməyə bilmirdi.

Şəfi üzünü qapıya tərəf tutaraq:

— Məleykə, ay Məleykə! — deyə arvadını səslədi. — Gör Teyyub xan bizə nə gətirib? — Şəfi istəyirdi Məleykəni də sevindirsin. Lakin qapını Bəbrək açdı:

— Bazara gedib, qibləgahım! —dedi.—Nə lazım idi ki?

— Heç...! — dedi Şəfi və təzədən Teyyuba sarı döndü: — Afərin, afərin, Teyyub.

Teyyub icazə alıb gedərkən Şəfi onun pencəyinin cibinə bir dənə əllilik qoyaraq:

— Gedəndə kabab al, apar, Munislə yeyin, — dedi. — Kitabın şirinliyidi, Teyyub! Heyf, gözləmirsən, yoxsa Məleykə xanım sənin üçün...

— Sağ ol, ustad! — deyərək o, qapıdan çıxdı.

Şəfi otaqda tək qaldı. Gəlib mizinin arxasında əyləşdi. Qəribə bir qəlb çırpıntısı ilə kitabını vərəqləməyə başladı. Hər şerə baxırdı, oxumurdu, elə-belə gözdən keçirirdi. İlahi şer nə sehrkar bir varlıq imiş — ürək qanı ilə yazıldığı üçünmü belə doğma idi hər misra ona? Elə bil, ciyərparası dünyaya gəlmişdi. Yaşayacaqdımı görəsən? Yaşada biləcəkdimi görəsən?! Bu nigarançılıq hissi də Şəfiyə tanış

idi: bir ata kimi övladlarından da belə nigaran idi, bir sənətkar kimi — kitablarından da!!.

Məleykə isə kitabın çıxdığını görəndə elə sevindi, elə qanadlandı ki, Şəfinin fərəhdən gözləri yaşardı. Qadın özünəməxsus bir əda ilə, kitabı əvvəlcə kənardan süzdü, sonra dodaqlarına yaxınlaşdıraraq ərinin adı yazılan yerdən öpdü, daha sonra isə sol döşünün üstünə qoyub:

— Şəfimə qurban olum!—dedi.—Şəfimin kitabına da qurban olum, özünə də.

Şəfi bəxtiyarlıqla gülümsündü, irəli yeriyib onun saçından öpdü və:

— Bax buna görə, sənin saçlarını öpə-öpə, oxşaya-oxşaya qaraldacağam, gülüm. Qoymayacağam sənin saçların ağarsın, Məleykəm mənim! — dedi.

İKİNCİ FƏSİL

General Əziz xan öz otağında, üstündə kitablar, qovluqlar olan iri, dördkünc stolunun arxasında əyləşmişdi. Otaq çıraqban idi, qapının ağzında qoyulmuş dəmir buxarı asta-asta yanırdı. Bayırda dəli bir külək əsir, qapı-pəncərəni titrədirdi. Qış dörd gündü girmişdi. Ancaq hələ qar yağmamışdı.

Qar hardasa yaxında idi, qar hardasa yavaş-yavaş yol gəlirdi — bunu havanın şaxtalı nəfəsindən, səhərlər damların, ağacların, kolların üstündə görünən qırovdan bilmək olurdu.

Qoca general belini əyib çeşməyini tez-tez düzəldərək kitab oxuyurdu. Xeyli vardı oturmuşdu, yorğunluğunu hiss eləyirdi, ancaq necə deyirlər, kitab onu «buraxmırdı», durmağa«qoymurdu». Bu, Şəfinin yenicə nəşr olunmuş kitabı idi — müəllif özü üstünü yazıb Bəbir vasitəsilə generala göndərmişdi. Neçə gün o, kitaba əl vurmamışdı, şeri o qədər də xoşlamırdı. Xüsusilə müasir şerdə bir şey anlamırdı. Onun nəzərində yer üzündə tək bircə şair var idi indiyənəcən — o da Hafiz: Hafiz öz zərif, şirin, oxuduqca doyulmayan, min dəfə də oxusan təzə görünən qəzəlləri ilə bütün dövrlərin,

zamanların şairlərini əvəz eləmək, «öldürmək», kölgədə qoymaq qüdrətinə malik idi generalın aləmində.

Lakin bu gün Hikmətəlidən eşitmişdi ki, Şəfi axşam onlara gələcək, kitab yadına düşmüşdü. «Götürüb bir vərəqləyim, görüm axı bu Şəfi nə deyir? Bilsə oxumamışam inciyər» — fikrilə kitabı axtarıb tapmışdı. Əvvəl əhəmiyyət verməmişdi, ancaq indi kitabın adı, üstündə çəkilən qırılmış zəncir ona maraqlı və mənalı görünmüşdü: «Qırın zəncirləri».. Bu iki söz onun xəyalında haçansa oğlu ilə elədiyi söhbətləri xatırlatmışdı, Bəbirin atasından gizləmədiyi böyük məqsədi, məramı fikrində canlanmışdı. Qoca general yaxşı bilirdi ki, Şəfinin məmləkət dolusu adı-sanı, şöhrəti var. Uzun illərdi ki, bu torpağın uşağı da, cavanı da, qocası da onun qələmindən çıxan şerləri oxuyur, o şerlər dildən, ağızdan düşmür. Şəfi həbs olunarkən şəhər cavanlarının, məktəblilərinin, əmələlərin küçəyə böyük izdihamla çıxmasının şəxsən şahidi olan qoca general, bunun oğlu tərəfindən təşkil olunduğunu zənn etmişdi və buna çox sevinmişdi: oğlunun mərdliyi, dostu dar gündə qoymaq istəməməsi kişiyə ləzzət eləmişdi. Ancaq, indi, o, Şəfinin kitabını oxuduqca başa düşürdü ki, o izdihamlı nümayişlər, o şüarlar təkcə oğlu Bəbirin xidməti deyilmiş — bu, Şəfinin özünün camaat, el-oba arasındakı şöhrəti, nüfuzu ilə də çox bağlı imiş. Yoxsa, Bəbir kim olsaydı da, nə eləsəydi də, xalqı beləcə ayağa qaldıra bilməzdi. Demək, camaatın, el-obanın ürəyində Şəfiyə məhəbbət varmış, ehtiram varmış. Və bu ehtiram, bu məhəbbət havayı deyilmiş — şair el-obanın dərdinin, qəminin tərcümanı imiş, danışan dili imiş!! Xalq sevmədiyi adamın dalınca getməz. Qoca, kitabı oxuduqca bu həqiqəti başa düşür, şerlərdəki od-alov qəlbini isindirir, zahirən sakit, mülayim təbiətli bir adam təsiri bağışlayan Şəfi gözündə böyüyür, mərd, qorxmaz, cəsarətli bir adama çevrilirdi. O bilirdi ki, son dəfə həbs olunanda şairə necə əzablar verilmişdi — dişlərini vurub tökmüşdülər, dırnaqlarını çıxartmışdılar,— ancaq o, dəyanətlə susmuş, nə Elməddini, nə Bəbiri, nə də hələ gizli yaşayan, təzəcə göz açan təşkilatlarını satmışdı. Qoca düşünürdü ki, ayrı adam olsaydı, bu zülmlərdən sonra çəkilib evində oturar, bir daha əlinə qələm almazdı. Ancaq Şəfi susmamışdı, Şəfi yenidən ruznaməsini nəşr etməyə başlamışdı. «Qırın zəncirləri» kitabını buraxdırmışdı, demək, o

təslim olmamışdı, silahını — qələmini yerə qoymamışdı. Demək o da Bəbir kimi inadından, yolundan məsləkindən dönən adam deyil, məslək ömürdən də qiymətlidi onun üçün! — Əziz xan belə düşünəndə sevindi: gör Bəbirin nə yaxşı dostu var! O, tək deyil.

Bəbir atasının otağına girəndə kişinin xəbəri olmadı. O, başını mizin üstünə doğru əyib şer oxuyurdu. Bəbir sağ əlini astaca atasının çiyninə toxunduranda o, belini düzəldib yana çevrildi:

— Hə, sənsən, bala? — dedi və kitabın vərəqinin qanadını qatlayıb kənara qoydu, — otur, oğul.

Bəbir divarın dibindəki kresloda əyləşdi, atasının yorğun üzünə baxıb gülümsündü:

— Nə oxuyursan belə, qibləgahım?

— Dostunun kitabını oxuyurdum, bala! Bəbir yenə gülümsündü:

— Səndən nə əcəb, qibləgahım? Şer oxuyursan...

Əziz xan ayağa qalxdı, buxarıya sarı getdi, üşüyən adam sayaqı əlini sobaya tutdu, arıq, uzun barmaqlarını açıb-yumdu, sonra xırda addımlarla geri döndü:

— Hə, oğul. Şəfi böyük sənətkar imiş, bala. Heyf, mən indiyənəcən bunu dərk eləməmişəm. Bu kitabdakı şerlər böyük, qorxmaz bir insanın ürəyinin çırpıntılarıdır. Üsyan qoxusu gəlir o kitabdan, bala. Ancaq...

— Ancaq... nə, qibləgahım? — deyə Bəbir maraqla atasına baxdı? Bilirdi, o, nə isə gözlənilməz bir şey deyəcək. Dedi də:

— Ancaq, mənə elə gəlir ki, vaxtsız açılmış bir gülə bənzəyir bu kitab, vaxtsız atılmış bir gülləyə bənzəyir bu kitab, oğul.

— Niyə ki? — Bəbirin ürəyi əsdi.

Əziz xan əllərini arxasında daraqlayıb ortalıqda dayandı, Bəbirin gözlərinin içinə baxa-baxa:

— Sənə elə gəlmirmi ki, zəncirləri qırmaq hələ tezdi? — dedi. — Sənə elə gəlmirmi ki, bu dəsgah hələ çox güclüdür və şairin dediyi zəncirlər hələ tam çürüməyib? Siz bu barədə fikirləşibsiniz?

Əziz xan belə deyib susdu, sanki suallarına cavab gözləyirdi. Bəbir atasının duruşundan, baxışından bunu anlamışdı; ancaq birdən-

birə cavab verməyə tələsmirdi. General olduqca incə bir nöqtəyə toxunmuşdu. Burda da onun uzaqgörənliyi, ağıl və məntiqlə hərəkət etmək prinsipi özünü göstərirdi. Odur ki, Bəbir ani olaraq kişinin hansı cəhətləri, siyasi mübarizədə hansı mühüm nöqtələri nəzərdə tutduğunu fikrində götür-qoy eləyərək aramla söylədi:

— Mən sizi yaxşı başa düşürəm, qibləgahım. Siz belə düşünürsünüz ki, əlahəzrətin taxt-tacı möhkəm sütunlar üstündə qərar tutubdur, ordu, kapital onun əlindədir, silah və hərbi texnika onun əlindədir. Ona görə o qəvidir, məğlubedilməzdir. Elədirmi, qibləgahım?

— Bəli, oğul, düz tutmusan. — Sonra... deyirsiz ki, o zəncirlər hələ tam çürüməyib.

— Bəli.

— Kənardan baxanda, sizin dediklərniz tamamilə həqiqət kimi görünür. Doğrudan da səltənətin zahiri parıltısı göz qamaşdırır; mətbuatda, radioda, təbliğat maşınında cəmiyyətimiz son dərəcə ədalətli, humanist bərabərlik prinsipi üstündə qurulan, yaşayan bir cəmiyyət kimi qələmə verilir. Ancaq bu, kağız üzərində belədir, təəssüf ki! Əslində, ayıq gözlə o süslü parıltıların arxasına nəzər salanda ədalətdən əsər-əlamət yoxdur—görürsən, bərabərlikdən əsər yoxdur — görürsən. Siz tam mənası ilə insanın şəxsiyyətini, mənliyini, vüqarını, arzularını tapdayıb çirkablar içinə atmış bir quruluş görürsünüz, qibləgahım. Bunları mən deməsəm də, siz də, bir çox başqaları da çox yaxşı bilirsiniz. Məsələ bunun üstündədir ki, o zəncirlər — bizim adamlarımızın mənəviyyatını, əl-qolunu buxovlamış o paslı zəncirlər çürüyübmü?! Sizin fikrinizcə, hələ tam çürüməyib, qibləgahım! Lakin mənim də, Şəfinin də, Nur Məhəmmədin də, Mir Ələkbərin də, qalan yoldaşlarımızın da əqidəsincə, o zəncirlər çürüyüb, kövrəlib, qibləgahım. Onu qüdrətli, vahid bir əllə çəkib qırmaq, parçalamaq lazımdır, qibləgahım. Bax, bu nöqtədə sizinlə şərikəm. Şəfinin bu kitabı, bu çağırışı vaxtsız açılan güldür, vaxtsız atılan güllədir. Niyə? Ona görə ki, biz hələ təşkilat kimi zəifik, siz deyən gücümüz yoxdur, qibləgahım. Biz hələ çox işləməliyik, ətrafımıza çoxlu tərəfdarlar toplamalıyıq, əmələlərin,

sahibmənsəblərin[1] içində bizim adamlarımız — özü də etibarlı adamlarımız olmalıdır. Biz kütlənin ürəyinə girməliyik, qibləgahım. Məhz o zaman biz güclü olacağıq, qüdrətli olacağıq, məhz o zaman biz həmin zəncirləri qırmaq iqtidarına malik olacağıq.

— Düz buyurursan, oğul, Demək, hələ vaxtı çatmayıb. Mən də bunu demək istəyirdim.

— Ancaq bu o demək deyil ki, Şəfi bu kitabı nahaq çap elətdirib. Yox, qibləgahım, bu, elə deyil. Bu, bizim kütlə içində, xalq arasında aparmalı olduğumuz müəzzəm təbliğat işinin mühüm tərkib hissəsidir, qibləgahım — biz hər gün, hər saat bu işi ən müxtəlif şəraitdə, ən müxtəlif təbəqələr arasında ehtiyatla, lakin dönmədən görməliyik. Şəfi şairdir, Şəfinin sözünün kəsəri, təsiri çox böyükdür — o, hər hansı bir təbliğatçıdan qat-qat güclüdür, qibləgahım. Onu sevənlər, sözünə inananlar, ardınca gedənlər daha çoxdur. Şairin sözü bizim əlimizdə indi ən kəsərli silahdır. Qoy yazsın, qoy sözünü desin, qoy ürəklərdə qan içində üzən taxt-taca, səltənət xanədanına, haqsızlıqlara qarşı nifrət, kin toxumu səpib cücərtsin, qoy avamlıq və çəhalətin pəncəsində boğulan, zülmət içində yaşayan adamlarımızın gözü açılsın, qibləgahım. Ona görə sən bu kitabı vaxtsız açıpan gül, vaxtsız atılan güllə hesab eləmə, qibləgahım. O hədəfinə dəyir, ancaq səsi sonra çıxacaq, qibləgahım.

Bəbirin sözləri, deyəsən, qoca generalın ağlına batdı, o, razılıq əlaməti olaraq başını tərpədə-tərpədə keçib kreslosunda əyləşəndən sonra:

— Doğru deyirsən, bala söylədi. —Ancaq mən Şəfi üçün qorxuram, çox qorxuram, oğul. Çünki o bu şerlərdə quruluşun açıq və qatı düşməni kimi çıxış edir. Qorxuram başını yeyərlər şairin oğul, heyfdi.

Bəbir fikrə getdi. Qocanın sözlərində həqiqət çox idi, ancaq bu qayğını ürəyinə yaxın buraxmaq istəmədi: həm də bu an o, Şəfi həbsxanada olarkən xalqın onu necə böyük məhəbbətlə müdafiəyə qalxdığını xatırladı, gülümsündü:

[1] Sahibmənsəb — zabit.

— Əlahəzrət də, naxost-vəzir cənabları da Şəfinin gücünü, qüdrətini gördü, qibləgahım, daha, mənim fikrimcə, ona toxunmağa cəsarət eləməzlər, qibləgahım.

Əziz xan qüssəli-qüssəli köksünü ötürüb:

— Məncə, sən hələ əlahəzrəti yaxşı tanımırsan, bala. — dedi. O, daha nə isə demək istəyirdi ki, Hikmətəli başını içəri uzatdı:

— Ağam ağayi Şəfi təşrif gətirib! —söylədi. Bəbir cəld ayağa qalxdı, qapıya sarı gedə-gedə saatına baxdı—ona işləmişdi. Az sonra Bəbir Şəfi ilə otağa girəndə, qonağa ehtiram naminə general kreslosundan durdu və çeşməyinin altından gözlərini qıyaraq mehribancasına gülümsünərək əlini ona doğru gələn şairə uzatdı:

— Möhtərəm şairimiz xoş gəlib, səfa gətirib, — dedi. Şəfi onun arıq əlini hərarətlə sıxaraq:

— Xoş gününüz olsun, ağa!—söylədi və sifətinə ani olaraq nəzər salıb kişinin kefinin kök olduğunu yəqin etdikdən sonra əlavə etdi: — Sizi şad-xürrəm görməyimə çox şadam.

— Lütf edirsiniz, şair! — deyərək general ona oturmaq üçün yer göstərdi. Şəfi Bəbirin bayaq əyləşdiyi kresloda rahatlanıb gec gəldiyinə görə üzr istədi:

— Qonağım var idi, gecikdiyim üçün məni bağışlayın, — dedi.

General stolun üstündəki qara cildli kitaba işarə ilə:

— Eybi yoxdur, şair, sən çoxdan burdasan,—söylədi və kitabı götürərək:—Bayaqdan mən sənlə tək-tənha oturub söhbət edirdim. Mənə təbliğat aparırdın, ürək sözlərini deyirdin. Sonra dostun gəlib çıxdı və biz ata-bala sənin barəndə danışırdıq, — dedi. — Sizi, kitabınızın çıxmağı münasibətilə təbrik edirəm, şair.

— Sağ olun, ağa. Zəhmət çəkib oxuyursunuz.

— Ən böyük zəhməti siz çəkmisiniz, Şəfi. Belə bir kitab yazıbsınız...

Bəbir söhbətə qoşuldu:

— Qibləgahımın kitab haqqında maraqlı mülahizələri varmış, Şəfi.

— Doğrudan? General həzrətlərinin — qocaman bir hərbçinin fikirlərini dinləmək mənim üçün xoş olardı, — deyərək Şəfi generala

sual dolu nəzərlərlə baxıb susduqda Bəbir, atasının dediklərini qısaca Şəfiyə təkrar elədi. Şəfi diqqətlə Bəbiri dinləyib:

— Ümumiyyətlə, general həzrətləri düz buyurur, — dedi. — Ancaq daha susmaq mümkün deyil, ağa. Daha necə deyərlər, bıçaq sümüyə dayanıb. Ürək hökm eləyir ki, susmaq cinayətdir, xəyanətdir, bu torpağa, bu məmləkətə xəyanətdir. Ürək nifrətlə dolu olanda ölüm qorxusu da yox olub gedir, ağa. Ölüm labüd bir şeydir, gec ya tez öləcəyəm. Şərəfli ölüm isə şərəfsiz həyatdan min qat yaxşıdır, — dedi.

General Şəfinin danışığından şairin qəlbinin dolu olduğunu, qəzəb və kin ilə qaynadığını, hələ bax bu kitabda yazdıqlarından da artıq nifrət hissilə yaşadığını anlayıb Şəfinin parıldayan gözlərinə, dizlərinin üstünə qoyduğu əllərinin dırnaqlarına ötəri baxdı və nədənsə ona elə gəldi ki, şairin içinin qırmızı əti çıxan barmaqlarının ucundan damcı-damcı qızıl qan axır. Və o, tez gözlərini dolandırdı, şairin sifətində saxladı baxışlarını:

— Vaxtında ölmək hamısından yaxşıdır, Şəfi,— söylədi. —Siz hələ cavansınız. Görünür, ömrün nə qədər şirin, təkrarolunmaz bir nemət olduğunu hələ yaxşı başa düşmürsünüz, bala. Ox, ömür necə şirin şeymiş, aman allah. Adam istəyir elə hey yaşasın və bu kidi dünyanın axırını görsün, sonra ölsün. Yox, sonra da ölməsin. Elə hey yaşasın, yaşasın...

Şəfi qoca generalın həyat, ömür barədə nə üçün belə yanıqlı danışdığının səbəbini yaxşı başa düşürdü — kişi ömrünün çoxunu yaşamışdı, azı qalırdı. Ölüm qorxusu onun par-par prıldayan mundirlərindən də, tapançasından da çəkinməyərək, canına, ürəyinə yol tapmışdı deyəsən, bütün düşüncələrini işğal eləmişdi deyəsən. Bunu Bəbir də hiss elədi və çox istədiyi atasına baxıb onun haçansa öləcəyini düşünərək kədərləndi.

Bu zaman Hikmətəli əlində çay dəsgahı içəri girdi. Güncdəki stolu ortalığa çəkdi, çayı, piyalələri, noğulu üstünə qoydu və baş endirib getdikdə Şəfi döş cibindən bükülü bir vərəq çıxarıb:

— Elməddin təzə bir hekayə yazıb, Bəbir! — dedi. — Bir az bundan əvvəl gəlmişdi bizə. Oxudu. O qədər sevinmişəm ki, Bəbir. Mənim fikrimcə, çox dərin mənalı hekayədir.

Bəbir sevindi.

Əziz xan çayını içməmiş durdu:

— Siz söhbətinizi eləyin, məni bağışlayın. Bir az yorğunam.

— Çayını içəydin, qibləgahım.

— Yox, yatarqarına çay əziyyət verir, bala. Özünüzə baxmayın, siz cavansınız... — Sonra üzünü Şəfiyə tutdu: — Gecəniz xeyrə qalsın, şair. Mənim dediyim odur ki, özünüzü qoruyun, bala.

Şəfi də, Bəbir də qalxıb onu qapıya qədər ötürdü.

Təzədən qayıdıb yerlərində oturduqda Bəbir ah çəkib dedi:

— Kişi yaman qocalıb!

— Hə.. Ömrü uzun olsun. Bəbir piyaləsini götürdü:

— Çayını iç, Şəfi. Soyutma. Şəfi çaydan bir qurtum içib:

— Qulaq as, Bəbir, Elməddinin hekayəsini oxuyum, —dedi.

— Buyur, Şəfican, dinləyirəm. Şəfi vərəqin qatını açıb oxumağa başladı: «Çərəz dükanının qapısı açıq idi. Başına buxara papaq qoymuş, yanaqlarından qan daman, qızıl dişli Dövlət xan taxtın üstündə bardaş qurub əyləşmişdi, əlindəki kəhrəba təsbehi arxayın-arxayın çevirir, dərdsiz-qayğısız halda dodağaltı nə isə zümzümə eləyirdi. Dükanın düz qabağında cavan qələmənin dibində arıq, cırıq köynəynndən çiyni görünən, pırtlaşıq saqqalının tükləri düyün düşmüş bir kişi oturub dərinlikdə dəbərişən ac gözlərini taxta tabaqlardakı çərəzlərə — kişmişə, qoza, fındığa, xurmaya zilləmişdi. Baxışlarından, tez-tez başını yana əyib tüpürməyindən bilinirdi ki, yazıq acdı. Tükü çoxdan tökülüb dərisi ağaran çirkli papağını qabağına qoymuşdu — gəlib-keçən, rəhmi gələn beş üç qran xırda pul atdı bəlkə.

Dövlət xan sarı kəhrəba dənəsi kimi parıldayan xurmadan tənbəl-tənbəl ağzına atır, çərdəyini çıxarıb iki barmağı arasına alır, sıxır, çərdək sapand ağzından qopmuş daş kimi düz ağacın dibində əyləşən dilənçinin açıq, tüksüz başına dəyib yerə düşürdü. Hər dəfə, çərdək kişinii daz təpəsinə dəyərək kənara sıçrayanda o, gözlərini açanda əvvəl yerə düşən çərdəyə, sonra isə Dövlət xana qəribə, anlaşılmaz bir nəzərlə baxıb dodaqaltı nə isə deyirdi. Bunu Dövlət xan maraqlı əyləncə sayıb hər iki-üç dəqiqədən bir həmin hərəkətini təkrar eləyir və göbəyi tərpənə-tərpənə gülürdü. Günortaya yaxın

kişi əllərini yerə dayaq verib küclə ayağa qalxdı, papağını götürdü, boşqab kimi ovcunun içində tutaraq yavaş addımlarla dükana girdi. Dövlət xan elə bildi ki, o, yığdığı qəpik-quruşa xurmadan-çərəzdən almaq istəyir. Boylanıb papağının içinə baxanda gördü ki, səhərdən yediyi xurmaların çərdəyi ilə doludur papağın içi. Heyrətləndi... «Nə axmaq adamlar var ey, dünyada. Neynir görəsən bu çərdəkləri?» — deyə düşünən Dövlət xan kişinin boz üzünə baxıb gülümsündü və nə isə demək istəyirdi ki, dilənçi xırıltılı səslə soruşdu:

— Ağa, daş-tərəzin var?

— Hə! —dedi Dövlət xan. —Nə almaq istəyirsən?

— Heç nə, — dilənçi sakitcə cavab verdi, — Heç nə almaq istəmirəm, ağa.

— Bəs daş-tərəzini neyləyirsən onda, kişi? Kişi papağı irəli uzatdı:

— Bu xurma çərdəklərini çəkmək istəyirdim, ağa! Dövlət xan şaqqanaq çəkib bərkdən güldü:

— Çəkib neyləyəcəksən, ay kişi?

— Lazımdı, ağa. Dövlət xan uğuna-uğuna:

— O daş, o da tərəzi, götür çək! — dedi. Kişi piştaxtaya yaxınlaşdı, papağının içindəki xurma çərdəklərini tərəzinin bir gözünə, ovuca yerləşən çaylaq daşını o biri gözünə qoydu. Necə deyərlər, kişi heç yalan danışmamışmış, düppədüz gəldi. O, üzünü Dövlət xana tutub:

— Bu daş nə qədərlikdi, ağa? — deyə soruşduqda o dirsəkləndiyi döşəkcədən dikəlib baxaraq:

— Bir paodur![1] — söylədi. Kişi hamar, çopur daşı əlinə alıb iki-üç dəfə atıb tutdu.

Dövlət xan dişlərini ağarda-ağarda:

— Demək, bir paodur, hə? — deyə irişdi — İndi neyləyəcəksən?

Kişinin əli sıxıldı və yuxarı qalxdı:

— İndi bu daşı sənin başına çırpacağam, ağa. Səhərdən mənim başıma vurduğun bu çərdəkləri bir-bir sənin başına qaytarıb çırpmağa məndə hövsələ hardaydı, ay rəhmətliyin oğlu. Sən çərdək-çərdək

[1] P a o — 423 q.

vurubsan mənim başıma səhərdən, mən birdən çırpacağam, ağa! — deyərək kişi daşı Dövlət xanın kəlləsinə tolazladı. Dövlət xan vəhşi bir səslə bağırdı».

Rəhgüzər vərəqi dizinin üstünə qoydu və bununla da sanki hekayənin bitdiyini bildirdi. Sifətində qəribə bir sevinc ifadəsi gəzib-dolanırdı. Elə bil, deməyə söz tapmırdı. Nəhayət, ayağa qalxdı, əllərini arxasında daraqlayıb otaqda gəzinməyə başladı. Şəfi onun uca boynuna, bəri dönəndə sifətinə baxır və anlaşılmaz nigarançılıq hissi keçirirdi.

Şəfi sükutu pozmaq üçün soruşdu: — Deyəsən xoşuna gəlmədi, hə, Bəbircan?

Bəbir yerində fırlanıb ortalıqda dayandı:

— Yox, nə danışırsan, Şəfi! Mən mətləbi o saat anladım, xüsusilə axırda qəhqəhə çəkib gülmək istədim. Çünki bu hekayədə çox təbii, bir gülüş də var. Axırında. Ancaq mənası o qədər dərin və gözəldi ki, o gülüşü kölgədə qoyur, Şəfi.

— Bəli. Mən də, Məleykə xanım da çox güldük, lakin sonra dərin fikrə getdik.

— Hə, doğrudan, düşündürən hekayədir, Şəfi. Əhsən Elməddin, çox tutarlı hekayədir. Dükançının adını da nahaq yerə Dövlət xan qoymayıb, məncə.

— Əlbəttə. Rəmzdir, Bəbir.

— Eynən bizim dövlətin surətidir — hər gün bu biçarə xalqın başına bir müsibət açır bu dövlət. Xalq da hələ səbirlə, təmkinlə dözür. Elməddin deyən kimi, başına, ürəyinə, vicdanına vurulan zülm daşlarını bir-bir tutub yanına yığır, saxlayır. Gün gələcək ki, daha bu xalq da, o kişi kimi dözməyəcək, hövsələsi tükənəcək, birdən ayağa qalxıb o daşları bu ağayi dövlətin başına çırpacaq. — Elməddin bunu demək istəyir, belə demək istəyir.

— Bəli, Bəbir, mən də elə yozdum və Elməddini bağrıma basıb öpdüm. Çox sağ ol, dedim, qardaş! Gözəl hekayədi, yazan əlin var olsun!!!

— Elməddin bayaq dediyim kimi çox istedadlı adamdır, Şəfi. Onu nəyin bahasına olursa-olsun, qorumaq lazımdır. Şərait yaratmaq gərəkdir ki, işləyə bilsin. Məncə, elə indidən çalışıb onun adına da

bir ruznamə çıxarmaq icazəsi almalıyıq, hər ehtimala qarşı. Keçən dəfə sən həbs olunanda ruznaməmiz də «həbs» olundu, bağlandı. Onda biz lap necə deyərlər, əliyalın, silahsız qaldıq. Əgər bir də elə hadisə olarsa, həmin icazəsini aldığımız ruznamə vasitəsilə sözümüzü camaata çatdıra bilərik. Elə deyilmi?

— Tamamilə düz buyursan, Bəbir. Yaxşı fikirdir.

— Bu işlə günü sabahdan məşğul olun. Kağız, kadr məsələsini mən həll edərəm.

— Yaxşı.

— Elməddinə mənim təşəkkürümü yetirməyini xahiş edirəm. Deyərsən ki bu hekayə onun hələlik şah əsəridir, inanıram ki, gələcəkdə o, bundan da yaxşı əsərlər yaradacaq və bizim mübarizəmizə kömək edəcəkdir. Həqiqətən, Şəfi, bu hekayədə mövcud ictimai dərdimiz, mübarizəmizin gedişi, məğzi və nəticəsi çox düzgün və böyük məharətlə ifadə olunmuşdur, — deyə Bəbir təzədən hekayənin üstünə qayıtdı. — Sənin şerlərində, mənim yazılarımda da elə həmin fikir söylənilir — ancaq, öz aramızdı, ədalət naminə gərək deyək, belə tutarlı nə mən demişəm, nə də sən.

ÜÇÜNCÜ FƏSİL

Əbdül son vaxtlar təsəvvürə gətirilməz dərəcədə dəyişmişdi. Saqqalını qırxdırmış, özünə iki-üç dəst müxtəlif rəngli kostyum, köynək, ayaqqabı almışdı. Kostyumlarına münasib papaq və palto tikdirmişdi. Yeməyini özü hazırlamırdı, lazım olan şeyləri «spinzər» restoranına telefon vasitəsilə sifariş verirdi. Nəcməddin xəstələnəndən qarajda qalan maşını çıxarmışdı, əvvəl həyətdə, məhəllədə sürmüş, əl-ayağı öyrəşəndən sonra küçəyə, şəhərə belə çıxmağa cəsarət eləmişdi. Balaca Nəcməddin şən, qayğısız böyüyürdü, yavaş-yavaş danışır, yeriyirdi. Əbdül bir an da olsa ondan nəzərlərini çəkmir, qayğısından, əzabından yorulub usanmır, can-dildən ona qulluq eləyirdi. Böyük adam kimi uşaqla danışır, məsləhətləşirdi — onu taleyin verdiyi bir nemət hesab eləyir, varlığına güvənirdi. Uşaq Əbdülün başını qatır, darıxmağa qoymurdu, tez-tez öz cinayətini,

Dünya xanımı xatırlatsa da, bu əzabı da qanuni bir şey sayıb yaşayırdı.

Son günlər Əbdül Zərrintac xanımın zəhmi-zabitəsi barəsində düşünməyi unutmuşdu. İndi onun fikrini Heyran xanım zəbt eləmişdi. Gecə-gündüz yadından çıxmırdı Heyran, hər gün o gələn vaxt Əbdülün gözü yolda, qulağı səsdə olurdu. Gözləyirdi, gözləyirdi, o isə gəlmirdi. Vaxt-vədə keçəndə isə Əbdülün qəlbini anlaşılmaz bir kədər çulğalayırdı. Eyni intizarla səhər də gözləyirdi, birisi gün də. O isə gəlib çıxmırdı ki, çıxmırdı. Dəqiq ünvanını soruşmadığına görə özünü danlayırdı. Pul verdiyinə görə özünü danlayırdı. «Pul verməsəydim, bəlkə indiyə gəlmişdi. Ehtiyacı nə bilmisən». Sonra özünə təsəlli verirdi ki, pulu qurtaran kimi gələcək. Heç olmasa bacısının uşağına baş çəkmək üçün harda olsa gələcək!

Əbdül bu istəyinin mənasını anlaya bilmirdi. Nə üçün Heyranı belə ürək çırpıntısı ilə gözləyirdi. O gəlsəydi, nə dəyişiləcəkdi, fövqəladə nə baş verəcəkdi? Bəlkə, Heyran ona Dünya xanımı xatırlatdığı üçün lazım idi? Onsuz da bu evdə, bu həyətdə hər şey Dünya xanımı xatırlatmırdımı ona, odsuz-ocaqsız yandırmırdımı onu? Bəlkə Əbdülün qapısını kimsə açıb girmədiyindən ona belə ehtiyac hiss eləyirdi?.. Həmsöhbət, qulaq yoldaşı kimi!! Kim bilir, bəlkə də, Dünya xanımın—Əbdülün ömründə sevdiyi yeganə insanın doğma bacısı olduğuna görə?

Əbdül bu çalpaşıq suallar əlində qalmışdı və yozub axırını heç yana çıxarda bilmirdi. İndilikdə ona bircə şey aydın idi — Heyranın yolunu səbirsizliklə gözləyirdi, vəssalam.

Belə üzüntülü günlərin birində, nəhayət, Əbdülün qorxduğu şey baş verdi. O, yaxşı geyinib-kecinmiş halda, balaca Nəcməddin də yanında maşınla şəhərə gəzməyə çıxan günlərin birində gözlənilmədən Zərrintaca rast gəldi. Bu o zaman idi ki, Əbdül maşını «Sinema-Kabil»in qənşərində yenicə saxlamışdı, Nəcməddinin əlindən tutub oturacağın yanında bapbalaca, əyninə alabəzək paltar geydirilmiş meymunu oynadan kişiyə tərəf addımlayırdı. Elə bu anda kinoteatrın qapısından çıxan, ayağında qara lak çəkmə, sonra şalvar geyinmiş və sir-sifətindən gülüş yağan Zərrintac xanımla baxışları rastlaşdı. Əbdül onu görən kimi özünü itirdi — qeyri-ixtiyari Nəcməddinin totuq əlini

əlindən buraxdı, ovsunlanmış qurbağa ilanın ağzına özü gedən kimi, o da heç nə düşünmədən Zərrintac xanıma sarı addımladı. Yaxşı ki, uşaq da ondan üzülmədi, dalınca gəldi. Zərrintac xanım gördüyünə inanmırmış kimi, uzun, sürməli kirpiklərini bir neçə dəfə endirib-qaldırdı və səhv eləmədiyini, qarşısına gələnin Əbdül olduğunu yəqin edib gözlərini geniş açaraq:

— Əbdül? Bu, sənsən? — deyə xəbər aldı, səsindəki təəccüb və heyrət aydınca sezilirdi: — Ədə, Əbdül, bu sənsən? — deyə onun cavabını gözləməyərək təzədən soruşdu.

Əbdül günahkar kimi üst-başına, parıldayan ayaqqabısına qorxaq bir nəzər salıb:

— Hə, xanım, mənəm, —dedi və gülümsündü: —Necəsiz xanım?

—…

Zərrintac xanım Əbdülün sualını cavabsız qoyaraq onun dizinin yanında dayanmış uşağa nəzər saldı. Qəlbi qəribə bir təlaşla döyündü, gülməli hind filmindən aldığı şən əhvali-ruhiyyə bircə anın içində harasa uçub getdi. Uşaq barmağını ağzına salıb altdan-yuxarı ona diqqətlə baxan qadına tamaşa edirdi. Zərrintac xanım dizlərini büküb çömbəldi, oğlanı qucaqlayıb öpmək üçün bədənini irəli uzatdı. Ancaq uşaq Əbdülün qıçına sığınıb özünü kənara çəkdi. Əbdül Zərrintacın duruxduğunu görüb:

— Bacıdı ey, Nəcmi —dedi. Lakin uşaq Əbdülün qıçından bir az da bərk yapışdı. Bu zaman o, əyilib Nəcməddini qucağına götürdü, sol əlini uzadıb barmağını qırmızı dodaqları arasından çıxartdı və:

— Adam barmağını ağzına salmaz! —dedi. Sonra Zərrintac xanıma üz tutub: — Yadına gəlmirsiz deyəsən! —söylədi.

— Hə, — dedi Zərrintac fikirli-fikirli və gözlərini uşağın sifətindən çəkmədi. Onun bu baxışları Əbdülün yadına ağayi Nəcməddinin ölümündən azca əvvəl körpəyə diqqətlə baxdığı, üzündə, gözlərində, alnında, çənəsində, burnunda nə isə özünəməxsus cizgilər axtardığı o dəhşətli anları saldı və anlaşılmaz bir qorxu sardı ürəyini. Ona elə gəlirdi ki, Zərrintac xanım da uşağa belə diqqətlə göz yetirməklə nə isə atasının əlamətlərini axtarır sifətində. Handan-hana Zərrintac xanım nə üçünsə kədərlə köksünü ötürüb:

— Eynən anasına oxşayır! — dedi.

— Ağaya oxşarlığı daha çoxdu, xanım! — deyə Əbdül tələsik əlavə elədikdə Zərrintac xanım mənalı-mənalı başını yırğaladı:

— Hə, düz deyirsən, Əbdül!..

Araya sükut çökdü. Zərrintac xanım dönüb təzədən Əbdülü başdan-ayağa süzdü. Bu, xüsusi bir baxış idi və Əbdül bunun nə demək olduğunu yaxşı başa düşürdü. Buna görə o, elə bu anda yenidən nökərləşdi; elə bil kimsə onu elə küçənin ortasında soyundurdu, o təzə, şıq kostyumu əynindən çıxartdı, yenə əvvəlki köhnə, yamaqlı paltarlarını geyindirdi: Əbdül yığılıb balacalaşdı. Ağzını doldurub xanımdan bu özbaşınalığı üçün, israfçılığı üçün üzr istəmək istəyirdi ki, Zərrintac xanım gülümsünüb söylədi:

— Bax səndən indi xoşum gəldi, Əbdül! Yaxşı eləyirsən. Geyin-kecin, yaşa. Adam kimi yaşa. Başına şahlıq quşu qonub, elə bil. Ancaq ağlını əldən vermə heç vaxt, Əbdül. Qibləgahım sənə də bir gün ağladı getdi.

— Xanım, Allah onun qəbrini nurla doldursun. Mən gecə-gündüz onun ruhuna rəhmət oxuyuram xanım. Mən, mən istəyirəm onun adına layiq yaşayım, xanım. Ağanın bu hərəkəti, yəni məni də öz varisi hesab eləməsi onun şöhrətini bütün şəhərdə dillərdə dastan eləyib, hatəm Tai kimi hamı onun səxavətindən danışır. Məni— dünənki nökəri bu cah-cəlalda görənlərin hamısı ona min rəhmət oxuyur, xanım.

— Maşını da sürürsən, deyəsən, hə?

— Maşını? — o, az qala bura maşınla gəldiyini unutmuşdu, odur ki, maşın sözünü eşidəndə əvvəlcə döyükdü, sonra birdən xatırladı: — Hə, xanım. Fikirləşdim ki, qarajda qalıb çürüyəcək. Həm də ağazadənin təfrihi, gəzintisi üçün dedim sürsəm yaxşıdı, xanım. Maşallah, uşaq da öyrəşib, yeməyini yeyib yatıb-durandan sonra əlimdən tutub maşına tərəf çəkir, deyir dedək. Gedək deyə bilmir, bacısı, hələ «dedək» deyir.

Zərrintac güldü, baş barmağını uşağın qırmızı dodaqlarına toxundurub:

— Dedək, Nəcmi? — dedi və güldü. Bu zaman uşaq əlini azca kənarda dayanmış maşına uzadıb:

— Dedək! — söylədi.

Bu sözə hər ikisi güldü. Əbdülün qırışığı açıldı:

— Mən elə istəyirdim sizin yanınıza gələm, xanım. Əvvəlcə sizə məsləhət eləyəm. Düzü fikirləşdim ki...

— Fikirləşdin ki, xanım razılıq verməz, hə?

— Yox.

— Yaxşı eləmisən, Əbdül. Elə bircə bu uşağa yaxşı, lap elə öz uşağın kimi baxdığın üçün sənə hər şey halaldı, Əbdül.

— Ömrünüz uzun olsun, xanım. Bu, mənim ömürlük borcumdu, xanım. Buna qurban olum mən. Buna mən gözümün işığı kimi baxacağam, xanım. Onu qibləgahının adına-sanına layiq bir oğlan kimi böyütməyə and içmişəm, inanın buna. Nə qədər canımda can var, onun qabağında qul kimi dayanacağam, xanım. Ən böyük arzum onun toyunu görməkdi. Siz yaxşı bilirsiz ki, xanım, mənim ondan başqa mehr saldığım ikinci bir varlıq yoxdu dünyada..

Onlar elə ayaqüstü xeyli danışdılar. Əbdül fərəh içində idi. Sevinirdi ki, ən çox qorxduğu şey belə gözlənilmədən, danlaqsız, tənəsiz qurtardı, həll olundu. Sən demə, Zərrintac xanım da atası kimi genişqəlbli, qədirbilən bir insan imiş. Ona elə gəldi ki, Elməddin həqiqətən ağıllı adam deyilmiş. Yoxsa belə insanı, bu cür var-dövləti qoyub getməyə başqa nə ad vermək olardı? Zərrintacın indiki söhbətini öz aləmində belə yozan Əbdülün, əlbəttə, ayrı cür yozmağa da haqqı yox idi. Çünki o, Zərrintac xanımın ürəyindən, hisslərindən xəbərsiz idi. Zərrintacın gözündə indi də nə var-dövlətin, nə ad-sanın bir qara quruşluq dəyəri yox idi, onun həyatı pozulmuşdu, səadəti yox idi; qatma-qarışıq hisslər, duyğular aləmində yaşayırdı, çox vaxt öz-özündən də baş açа bilmirdi, nə istədiyini anlaya bilmirdi, nə üçün yaşadığını da aydın dərk eləyə bilmirdi, hər şeyə laübalı bir baxışla güzəran keçirirdi. Laqeydlik bütün varlığına hakim kəsilmişdi.

Bütün bu aləmdən xəbərsiz Əbdül, xoş və münasib təsadüfün verdiyi imkandan istifadə edib Dünya xanımın bacısının — Heyran xanımın da tapıldığını Zərrintaca danışdı. Əhvalatı olduğu kimi, yerliyataqlı söylədi. Zərrintac xanım buna da elə-belə münasibət bəslədi. Özü burda, fikri haradasa ola-ola:

— Tapıb, daha yaxşı. Qoy uşağın xalası da olsun, — dedi. — Təklik pis şeydi, Əbdül. Qohum-əqrəbası çox olan adamlar pulu çox olan adamlardan daha xoşbəxtdi, məncə.

DÖRDÜNCÜ FƏSİL

Havada bərk şaxta olsa da, qapı-pəncərəni cingildədən külək əssə də, içəri isti idi. Yan otaqda daş kömür sobası asta-asta yanır, çaydan həzin-həzin cızıldayırdı. Ara qapı açıq olduğundan bu biri — iri otaq da isinmişdi. Elməddin ev paltarında yazı masasının arxasında əyləşmişdi; qabağındakı piyalədə təzəcə süzdüyü çay buğlanırdı.

Elməddinin kefi kök idi. Stolunun üstündə qatı açılmış qəzet vardı, ora-burasına göz gəzdirirdi; Oxumurdu, çünki bir az əvvəl onu başdan-ayağa qədər oxumuşdu. Bu, «Pərçəm»in növbəti nömrəsi idi; burada onun iki yazısı çıxmışdı; biri son hekayəsi idi—«Xurma çərdəyi». İkincisi isə məqalə idi — «Fəsad» adlandırmışdı. Onu çoxdan yazmışdı, ürəyi ağrıya-ağrıya yazmışdı. Qəryadar Qulamın qardaşı oğlu, köhnə tanışı Ətiqullaya o dəhşətli vəziyyətdə rast gələndən sonra qələmə almışdı. Şəfiyə oxuyanda çox bəyənmişdi, çünki burada qoyulan məsələ—şəhərin xəlvət evlərində, qanundan kənar, Siracəddin kimi, İnsaf xanım kimi adamların gəlir mənbəyi təkin saxladıqları xəlvətgahların qurbanları məsələsi Şəfini də çox-dan düşündürürmüş, sən demə, Elməddin Ətiqullanı şəxsən tanıdı-ğını, onun milyoner Mümtazın oğlu olduğunu və indi yavaş-yavaş çürüyüb töküldüyünü Şəfiyə danışanda kişi çox fikrə getmişdi və məqaləni fürsət düşən kimi çap edəcəyini bildirmişdi. Sonra nə isə baş qarışmışdı, material çox olmuşdu, məqalə xeyli yubanmışdı. İndi budur, ruznamənin bugünkü nömrəsində Elməddinin hər iki yazısı işıq üzü görmüşdü. Şəfinin dediyinə görə, Elməddinin bu yazıları aləm idi — hər ikisində son dərəcə vacib, ağıllı adamları düşündürən ciddi məsələlər qoyulmuşdu və çox səs-küyə səbəb olacaqdı. Əlbəttə, ustadından belə tərifli sözlər eşitmək Elməddin üçün çox xoş idi, həm də üstəlik, Bəbirin onun hekayəsi barədə dediklərini xatırlayanda Elməddin, bir qələm əhli kimi fərəhindən yerə-göyə

sığışmırdı. Bu şirin əhvali-ruhiyyə ilə qəzetin sütunlarına baxa-baxa çayını içir, fikrində, xəyalında bunlardan da tutarlı yazılar yazmaq əzmində olduğunu yəqin edib sinəsi qabarırdı. Bəbirin, Şəfinin onun qələmindən çıxanları belə yüksək qiymətləndirməsi qəlbini coşqun sevinc hissilə doldurmuşdu və kiməsə, ən müqəddəs adamına söz verirmiş kimi ürəyində demişdi: «Yol budur, mənim əsl yolum budur. Bu yolda öldü var, döndü yoxdur! Mənim yolum Bəbirin, Şəfinin yoludur. Son nəfəsimə qədər bu yolla gedəcəyimə söz verirəm, çünki, qəlbən inanmışam ki, bu yol haqq yoludur, həqiqət yoludur».

O, piyaləsini stolun üstünə qoydu, ayağa qalxıb gərnəşdi, gəzinməyə başladı, geri dönəndə baxışları qarşı divardakı şəklə — «Gözəl Siminbər buxarı qarşısında» şəklinə sataşdı, baxdı, baxdı və kədərlə gülümsündü. Sonra şəkil dumanlandı, Siminbər buxarı qırağından harasa çəkilib getdi, yerində bədbəxt Əfsanə peyda oldu. Bu zaman Elmədinin ürəyi titrədi, olub-keçənlər pərdə-pərdə səhnə-səhnə xəyalında canlandı, hətta Əfsanənin səsini eşidən kimi oldu. O, haradansa uzaqdan, lap uzaqdan gələn səsi ilə nə isə deyirdi, deyirdi, ancaq Elməddin sözlərini ayırd eləyə bilmirdi. Ayırd eləyə bilmədiyinə görə də cavab verə bilmirdi. Cavab verə bilmədiyinə görə də səsi getdikcə öləziyir, uzaqlaşırdı. Və nəhayət, eşidilməz olanda o, tələşlə, gözlərini geniş açaraq divardakı şəklə bir də baxdıqda Əfsanəni yox Siminbəri gördü. Buna sevindimi, kədərləndimi? — demək mümkün deyildi. Qatma-qarışıq, dumanlı hisslər əlində çırpına-çırpına bu otaqdan o biri otağa keçdi, buxarının yanına gəldi, çaydanı götürüb yerə qoydu. Elə bu zaman həyət qapısının bərk-bərk döyüldüyünü eşitdi və üşürgələndi. Gecənin bu vaxtı kim olar görəsən? Yəqin Ziyaülhəqdir, ya ustaddır! Ya bəlkə... yenə həbsxanaya aparmağa gəliblər?

Mıxçadan pencəyini götürüb çiyninə saldı və həyətə çıxdı. Həyət çıraqban idi. Ağaclardan tökülmüş xəzəlləri külək qabağına qatıb ora-bura qovurdu.

Darvazanın dalından soruşdu:

— Kimdi?

— Elməddin, sənsən?—deyən səsi o, tanıya bilmədi birdən birə. Məlum idi ki, bu, nə Ziyaülhəqdi, nə Əhədulladı. nə Şəfidi— heç biri deyil. Şübhə axıb doldu ürəyinə.

— Hə, mənəm. Kimsən? — deyə-deyə qapının cəftəsini açmağa başladı: «Kimsə tanışdı, adımı deyir».

Qapının ləng açıldığını hiss eləyən adam özünü nişan verdi:

— Mənəm, Ətiqullayam, Elməddin!

«Ətiqulla» sözünü eşidən kimi Elmədinin tükləri biz-biz oldu, elə bil çöldə-bayırda əsən külək içində əsməyə başladı. İlk növbədə o boyda adamdan ancaq əti tökülmüş, sümükləri ağaran, iki qaraqançır deşiyi görünən burnu gözünün qabağına gəldi. Lakin qarşısında Ətiqulla dayananda burnunu görə bilmədi, çünki şərflə boynunu, ağız-burnunu bağlamışdı.

Adəti üzrə əl uzatdı Elməddin, amma Ətiqulla qolunu tərpətmədi də. Eləcə dedi:

— Axşamın xeyir, Elməddin. — Səsi şərfin altından gəldiyinə görə boğuq idi.

— Axşamın xeyir, Ətiqulla. Xoş gəlibsən.

— Sağ ol.

— Buyur içəri. Burda niyə dayanmısan?

Ətiqulla qanrılıb maşınına baxdı, sonra həyətə keçdi. İçəri keçənəcən heç nə danışmadılar. Sanki ikisi də danışmağa söz tapmırdı.

Ətiqulla palto geymişdi. Çal quzu dərisindən olan yaxalığını da qaldırmışdı. Başında da eyni dəridən papaq vardı. Elməddin onun ağız-burnuna baxmamağa çalışaraq, şərfi görməməyə çalışaraq tüklü çatma qaşları altında xəcalətli bir tərzdə işıldayan gözlərinə ötəri nəzər saldı:

— Sən bu kasıb daxmamıza xoş gəlibsən. Ətiq —dedi.

— Xoş günün olsun. Evin mübarəkdi, Elməddin.

— Çıxart balapuşunu. Çıxart, çıxart, əyləş, görək nə var, nə yox, Elə o dəfəki görüşümüzdən sonra tez-tez səni xatırlayırdım, səndən, düzü nigaran idim.

Ətiqulla gözlərini Elmədinin nəzərlərindən yayındırmağa cəhd edərək paltosunu soyundu, papağını çıxartdı, Elməddin irəli

yeridi ki, alıb asılqandan assın. Ancaq o vermədi, asılqandan da asmadı, murdar bir əski kimi güncə atdı. Elməddin etiraz eləmək istədi, ancaq o;

— Sən allah sən əlini vurma, qoy elə burda qalsın, — dedi. — Özüm də oturmayacağam. Elə burda ayaqüstü söhbət eləyək, Elməddin onun bu hərəkətinin mənasını yaxşı başa düşürdü; qəlbində ona qarşı bir qibtə hissi baş qaldırdı — bu, alicənablıq idi, qorxurdu ki, xəstəliyi Elməddinə də sirayət eləyə bilər. Elməddin eşitmişdi ki, belə xəstələr adətən xəbis olurlar, istəyirlər ki, başqaları da bu mərəzə mübtəla olsunlar, o çəkən əzablardan özgələri də çəksin. Ancaq Ətiqulla belə deyildi. O dəfə də əl vermədi, indi də. Paltosunu da quru torpağın üstünə atıb. Bulanmağından, çirklənməyindən də ehtiyat eləmir. Elməddinin ona yazığı gəldi.

— Əşi, gəl otur sən allah.

— Yox, yox. Oturmayacağam Elməddin. Elməddin çarəsiz halda onun gözlərinə baxdı:

— İndi necəsən, Ətiq? Ətiqulla ah çəkdi:

— Daha necəliyimdən keçib. Parijə getmişdim. Çarəsi yoxdu, Elməddin. Gecikibsən — dedilər həkimlər. Belə... Bir həftədi qayıtmışam. Daha dözmək, daha yaşamaq mümkün deyil, qardaş.

— Bəs...

— Bax, çürüyürəm — deyib şərfi sinəsinə sürüşdürdü; Elməddinin əti ürpəşdi. Üst dodağının da xeyli hissəsi çürüyüb tökülmüşdü. — Bax, bu gündəyəm, qardaş! Özü də çox xahiş edirəm, mənə nəsihət, təsəlli verməyə çalışma, əbəsdi. Olan olub, keçən keçib, Elməddin. Heç nəyi geri qaytarmaq mümkün deyil daha.

— Bəs... Neyləmək fikrindəsən? — deyə Elməddin dərin təəssüf içində xəbər aldıqda Ətiqulla titrək əlilə cibindən bir siqaret çıxarıb alışdırdı, ciyəri yanırmış təki tüstünü içəri çəkdi, əti tökülmüş, qaraqançır sümük deşiklərdən ağappaq tüstü çölə çıxanda Elməddin başını aşağı saldı. Görməsin deyə bu dəhşətli mənzərəni.

— Sənin bugünkü ruznamədə «Fəsad»ını oxudum. Yaxşı yazıbsan, həqiqəti yazıbsan. Ancaq gec yazıbsan, qardaş, çox gec. Sənin dediyin o qurbanlardan biri mənəm, mən bədbəxt. Mənim

adımı çəkmirsən orda, ancaq mən bilirəm ki, «bir nəfər tanışım» deyəndə məni nəzərdə tutubsan.

— Mən...

— Yox, sən elə güman eləmə ki, mən sənin yanına buna görə gəlmişəm. Qətiyyən yox. Lap adımı da çəksəydin, etiraz etməzdim. Çünki mənası yoxdu. Tək bunun yox, indi heç-bir şeyin mənim üçün mənası yoxdu. Mən indi atamın da, özümün də, əmimin də milyonlarını, hər şeyimi, hər şeyimi verməyə hazıram ki, bu mərəz canımdan çıxsın. Ancaq, təəssüf, bu mümkün şey deyil. Sən düz yazmısan, bu, fəsaddır, bu, cəmiyyəti çürüdən onlarla fəsadlardan biridir, qardaş. Onu da düz yazmısan ki, Siracəddinləri, İnsaf xanımları güllələmək lazımdır, dar ağacından asmaq lazımdır. Bir də hər insanın içində, ürəyində nəfs deyilən çox qorxulu bir qurd yuva salıb — bax, onu da gülələmək lazımdır. Amma, hayıf ki, Siracəddinləri, İnsafları məhv etmək mümkündür, lakin o nəfs deyilən qurdu öldürə bilməzsiniz, qardaş.. O insanla bir doğulur, içində yaşayır və çox vaxt onu özü məhv edir. — O, siqaretinə yenə dərin bir qullab vurdu: — Mən bura bunları sənə demək üçün gəlməmişəm, Elməddin. Mən gəlmişəm ki...

Elməddin hiss elədi ki, o, nə üçünsə bir xahişə gəlib.

Köhnə tanışlıqları xatirinə, qəryədar Qulamın xatirinə, həm də sağalmaz bir mərəzə mübtəla olmuş bir insan kimi ona nə kömək lazımsa əsirgəməyəcəyinə hazır olduğunu bildirməyə tələsdi:

— Mən... Mən səni dinləyirəm, Ətiq. Nə xahişin olsa, canla-başla, qulluğunda hazıram, Ətiq...

Elməddinin bu sözləri onu sevindirdi elə bil. Sifətində bir nikbinlik əmələ gəldi. Kədərli gözlərində ötəri bir sevinc hiss eləyib keçdi: ....

— Mən qeyri-adi bir xahişə gəlmişəm, Elməddin. Elməddin dərhal cavab verdi:

— Hər nə olsa, mən hazıram. Təki sənə bir köməyim dəysin.

Ətiqulla susdu. Siqaretini sümürə-sümürə Elməddinə sınayıcı bir nəzər saldı. Sanki çox mühüm sirr deyəcəkdi, ancaq deyəsən, etibar eləmirdi, ya sözünün yerə salınacağından qorxurdu.

Elməddin ona cəsarət vermək üçün dedi:

— Görürəm, çəkinirsən, demək istəmirsən. Ancaq de, Ətiq. Mən sənin hər xahişini yerinə yetirməyə hazıram, çəkinmə, de. Elə hesab et, mən də sənin qardaşın.

Bu sözlərdən sonra Ətiqulla ürəkləndi. Bir addım irəli gəldi:

— Elməddin, sən... sən... Məni öldürməlisən, Elməddin!! Elməddinin qulaqları batdı elə bil. Eşitdiyinə inanmaq istəmədi:

— Nə?

— Deyirəm, sən məni öldürməlisən, başa düşürsən, öldürməlisən.

— Nə danışırsan, Ətiq? — deyə Elməddin qorxu içində geri çəkildi. Gözlərini geniş açaraq qarşısındakı adamı yalnız indi görürmüş kimi, tələş və həyəcanla təkrar elədi: — Sən nə danışırsan, Ətiqulla?!

Elə bil Elməddinin «Sən nə danışırsan?» sözləri... Ətiqullanı yuxudan ayıltdı və o:

— Doğrudan... mən... nə danışıram... — söyləyərək təəccüblə Elməddinə baxdı, baxdı və birdən... dediklərindən utanırmış kimi, əlləri ilə üzünü tutub dəli adam təki... çölə çıxdı...

BEŞİNCİ FƏSİL

Heyran çaşıb qalmışdı. Uzun illərin axtarışından, intizarından sonra doğma bacısının özünü də olmasa, yerini-yurdunu, ciyərparasını tapdığından nə qədər sevinmişdisə, toxtamışdısa da, əlidolu evə qayıtdıqdan sonra Cabbarın qara bulud kimi dolmasından, danışmaq istəməməsindən, uşaq kimi küsməsindən bir o qədər pərt olmuşdu. Qəribə idi ki, Cabbar açıq heç nə deməmişdi Heyrana. Eləcə, mənalı-mənalı arvadına baxmış, dərdli-dərdli köks ötürmüş, o, yaxın gəlib ərinin boynunu qucaqlamaq istəyəndə üzünü yana çevirmiş, «ölmək istəyirəm» demişdi. Arvadının gətirdiyi ərzaqı yeyəndə də elə bil ətini yemişdi! Bədəni, vücudu ac idi. O, bu aclığın qarşısına dura bilməmişdi, əgər buna iradəsi, gücü çatsaydı, Cabbar o yeməyə, o ətə, çörəyə dilini də vurmazdı. Heyranın gətirdiyi pul iki həftəyə çatmışdı — arvad o pulu qırdı-qısdı ilə xərcləmişdi, özü az yeyib

ərini yedirtmişdi. Zorla da olsa yedirtmişdi. Ancaq bu iki həftə ərzində Cabbarın qırışığı açılmamışdı, Heyrana bir kəlmə də xoş söz deməmişdi, hətta ağrılarından belə şikayət eləməmişdi, ciyəri susuzluqdan yansa belə özü ondan su istəməmişdi, çörək istəməmişdi, Heyran gətirib verəndə isə onu da çox ləng qəbul eləmişdi. Neçə dəfə arvadı onun bu qəribə, anlaşılmaz hərəkətinin mənasını soruşmuşdusa da, o, gözünü Heyranın sifətindən çəkmədən, diqqətlə baxa-baxa susmuş, sonra köks ötürüb üzünü yana çevirmişdi.

Cabbar özünə sığışdırıb ürəyinə axıb dolmuş şübhəsini dilinə gətirməsə də, içəridə yanıb-qovrulmuş, bəxtinə, taleyinə min lənət oxumuş, tanrının elədiyi haqsızlıq müqabilində öz gücsüzlüyünü, zəifliyini dərk edib yorğanının altında isti göz yaşları tökmüşdü. Cabbar şəhəri, şəhər camaatını yaxşı tanıyırdı: bilirdi ki, kimsə başqasına havayıdan, boş yerə bir tikə çörək, bir qran pul verməz. Onun arvadı isə, harasa gedib-gələndən sonra, filan qədər pul gətirmişdi. Kim bilir, bəlkə, o, yalan deyir, heç bacısını evini də tapmayıb. Lap tapsa da, bacısının nökəri, tanımadığı, bilmədiyi adama birdən-birə o qədər pulu verərdimi? Yox, verməz. Boş-boşuna verməz. Cabbarın ürəyinə gəlirdi ki, burda nə isə başqa bir məsələ var. Doğrudur, o, arvadından indiyə qədər əsla şübhələnməmişdi. Çünki Heyran ağırtəbiətli, başı aşağı, yad kişilərə gözünün ucuyla da baxmayan bir qadın idi. Birgə yaşadıqları bu uzun illər ərzində o, Heyranda zərrəcə şübhə doğuran bir hərəkət görməmişdi; məhz buna görə də yorğan-döşəyə düşdüyü bu beş ildə də Cabbar arxayın-arxayın, ancaq öz dərdini — çarəsiz dərdini çəkmişdi. Ancaq birdən-birə onun harasa gedib gec qayıtması, gələndə də əlidolu gəlməsi, hələ üstəlik nağılabənzər bir əhvalat da uydurub danışması Cabbarın ağrılı canına daha dözülməz, daha əzablı bir ağrı əlavə eləmiş, dərdini yaddan çıxartmışdı. Kaş o, ölmüş olaydı, Heyranın bu hərəkətini görməyəydi. Ona elə gəlirdi ki, ehtiyac qılıncdan itidir, ehtiyac ən iradəli, ən qorxmaz adamları da dəyişdirə, sındıra bilər, yolundan, əqidəsindən döndərə bilər. Heyran, hər necə olsa, qadındı, zəif məxluqdu, özü də gözəgəlimlidi. Qəsdinə duran olsa, yoldan çıxara bilər, aldada bilər. Bax, bu şübhələr Cabbarın xəstə, taqətsiz ürəyini, vücudunu gəmirir, ona cəhənnəm əzabı verirdi. Heyranın sözlərini, özünü yoxlamaq Cabba-

rın imkanı xaricində idi, hər şeydən çox onu sıxan da bu idi. Tale onu yıxıb, özü də həmişəlik yıxıb, bir də duracağına inamı yoxdu. Hiss edirdi ki, bu şübhə ölümünü daha da yaxınlaşdıracaq. Ancaq o, bu dərdlə ölmək istəmirdi. Bu, ona ikiqat zülm olardı.

Evə gətirilmiş o «haram» pulun qurtardığını eşidəndə Cabbar ürəyində qəribə bir sevinc hissi duymuşdu. «Şükür allaha, —düşünmüşdü. — Quru çörək olsun, halal olsun». Ancaq səhərisi Heyranın quru sənkək çörəyini ortalığa qoyulmuş manqalın odunda qızdırıb ilıq su ilə yediyini görəndə Cabbar yenə tutulmuşdu, gözlərini yumub fikrə getmişdi.

Bütün bu ötən iki həftə ərzində ərinin halının çox dəyişdiyini, dinib-danışmadığını, süstəldiyini görən Heyran, ürəyinə ayrı heç nə gətirmədən kişinin artıq ölümünün yaxınlaşdığını düşünüb için-için ağlamışdı, ölərsə tək-tənha bu dörd divar arasında necə qalacağını düşünüb sarsılmışdı, gecələr taxta çarpayısında balışını islada-islada xudavəndi-aləmdən ona şəfa, sağlamlıq, uzun ömür diləmişdi. Vəziyyətinin ağırlaşdığını görüb onu tək qoymamış, qonum-qonşuya baş çəkməmişdi evdə isə hər şey tükənmişdi. Yayda ordan-burdan yığdığı bir az odun, taxta qırıqları vardı. Qış isə qapının ağzını kəsmişdi. Onsuz da bu azca yanacaqla qışdan çıxmaq mümkün olmayacaqdı. Ərinin halının pisləşməsindən əlavə, ərzaq və odun məsələsi də Heyranın rahatlığını əlindən almışdı, dərdinin üstünə təzə dərd qoymuşdu. Belə anlarında o cür xanimanı, isti cah-cəlallı ev-eşiyi qoyub harasa gedən Dünya xanıma qəzəbi tuturdu, ürəyində onu «dəli», «ağılsız» adlandırır, onun əvəzinə yanıb-yaxılırdı. «Sənin elə gözəl güzəranın olsun, qabağında nökər-qaravaşın olsun, elə qəşəng balan olsun sən də çıxıb gedəsən? Vallah, bu divanəlikdi billah, divanəlikdi». Sonra Əbdülün dediklərini xatırlayır, beynində dolanan şübhə yenidən dirçəlir: «Yox onun başında bir qəza var, o, sağ deyil, onu öldürüblər» — deyə ürək ağrısı ilə düşünürdü. Bir-iki dəfə bu şübhələri o, Cabbara da danışmışdı, ancaq Cabbar qulaq assa da heç nə deməmişdi. «Gör necə də uydurur?» — deyə təəssüf və qəzəb hissilə qəlbindən keçirtmişdi. Ərindəki bu biganəliyi görəndə isə Heyran özünü danlamışdı: «Yazıq canının hayındadı, mən də ona başağrısı verirəm».

Axşamdan evin ortasında yandırdığı manqal gecəyarısı sönmüşdü, səhər otaq buz kimi soyuq idi. Yorğanının altında soyuqdan büzüşüb yumağa dönmüş, fikirdən-xəyaldan çimir belə eləməmiş Heyran tezdən yerindən qalxdı. Yavaş addımlarla ərinin çarpayısına yaxınlaşıb sifətinə baxdı. Cabbar ağır-ağır nəfəs alırdı. Gözləri yumulu idi. Yatdığını zənn elədi Heyran. Cabbar səhərin gözü açılanacan zarımışdı. «Yəqin indicə yatıb. Biçarə ancaq yatanda ağrılarını unudur. Ay bu sübh vaxtının sahibi, özün ona şəfa ver, mən bədbəxtə yazığın gəlsin» — deyə Allaha yalvara-yalvara o, həyətə çıxdı, divarın qar-yağış tutmayan tininə yığdığı odundan bir neçəsini götürüb içəri qayıtdı, manqal alışdırdı. Altını, böyürlərini his-pas tutmuş qara qazançaya güncdəki saxsı kuzədən su töküb axırıncı iki kartofu qazançaya atdı: odun alışıb tutuşandan sonra qazançanı manqalın üstünə qoydu, o biri tərəfinə isə çaydanı yerləşdirdi. Elə manqalın qırağında çömbəlib əlini oda tutaraq qızınmağa başladı. «Dursun, yedirdim, sonra Dünyagilə gedəcəyəm. Yoxsa, işimiz lap fəna olar. Kişi acından ölər. Əbdül yaxşı adamdı Dərdimi başa salaram, bizə bir az kömək eləyər. Dünyanın axırı deyil ki. Ancaq qorxuram. Mən bunu tək necə qoyub gedim, halı heç özündə deyil».. — deyə özözünə danışınca kartoflar bişdi, çaydan qaynadı. Otağın havası isinmişdi, Heyranın bədənindən soyuq gizilti çıxmışdı. Kartofların ikisini də soydu, boşqaba qoydu. Stəkanlara dağ su tökdü. Cabbarın böyründəki kətilin üstünə qoydu. Başının üstündə dayanıb ərinin solğun sifətinə nəzər saldıqda o, çuxura düşmüş gözlərini açdı. Heyran dərd-qəmini unudaraq gülümsəməyə çalışdı və sağ əlini onun alnına qoyub:

— Necəsən, əzizim? — deyə soruşdu. Cabbar qanı qaçmış dodaqlarını dili ilə yalayıb nə isə demək istədi, lakin səsi çıxmadı.

— Bu gecə səhərəcən inildəmisən. Ağrıların mənə gəlsin, Cabbar.

Cabbar nədənsə ikrah edirmiş kimi üz-gözünü qarışdırdı, ah çəkdi.

Heyran mehribanlıqla:

— Sübhə yaxın bir az çimir elədin deyəsən, —dedi. — Sənin gözünə yuxu gedəndə elə rahat oluram ki. Razıyam günlərlə yatmayım, ancaq sən şirin-şirin yatasan, Cabbar.

—…

— Sənin üçün kaçalu[1] bişirmişəm. Çay gətirmişəm. Yedirdim? Cabbar çuxura düşmüş gözlərinn dolandırıb kətilin üstündəkilərə baxdı və «yox» mənasında başını buladı. Onu əsəbiləşdirməmək üçün övürüb-çevirmədi Heyran. Evdə hər şeyin qurtardığını bildirib ərini kədərləndirmək istəməsə də, çarəsiz qalıb deməyə məcbur oldu:

— Bilirsən, əzizim. Hər şeyimiz qurtarıb evdə. Qonşumuz da ağayi Məşdi Kərimi deyirəm—arvad-uşağını yığıb Cəlalabada yaylağa gedib. Qış düşən kimi onlar hər il ora köçürlər. Ona görə, bizim heç nəyə gümanımız qalmır. Mən bu qərara gəlmişəm ki, gedim bacımgilə. Allah kərimdi, bəlkə Dünya qayıdıb gəlib. Hətta qayıdıb gəlməsə də... Əbdül bizə əl tutar. Ondan başqa kimsəyə gümanım gəlmir. Həm uşağa dəyərəm, həm də, Allah kərimdi, bəlkə Əbdül bir az puldan-paradan verdi. Rəhmli adamdı — Allah köməyi olsun.

Cabbarın gözləri geniş açıldı, yenə dili ilə dodaqlarını isladıb nə isə söyləmək istədi, ancaq səsi haradasa içəri də qırılıb qaldı. Əvəzində gözünün bulaqlarında yaş gilələndi. Bunu Cabbarın darıxmağı ilə izah edən Heyran təsəlli üçün söylədi:

—Qurban olum, özünü darıxdırma. Hər şey yaxşı olacaq, Allah rəhmdil Allahdı.

—…

— Mən tez gələcəyəm, Cabbar, lap tez!. Ancaq sən söz ver ki, kaçaluları mən gələnəcən yeyəcəksən. Cəmi dörd dənə kaçalumuz qalmışdı, ikisini mən yedim, ikisini də sənin üçün saxlamışam. Çayını da soyutma, qurban olum.

—…

Heyran çarqatını götürdü, tor zənbilini büküb köhnə jaketinin cibində gizlədi, əyilib Cabbarın soyuq alnından öpdü. Cabbar dilsiz-

[1] Kaçalu — kartof.

ağızsız kimi inlədi, sinəsi qalxıb-endi. Heyran çarqatını başına salıb qapıdan çıxanda təkəm-seyrək qar yağdığını görüb üşüdü. Qayıdıb manqalın üstünə iki-üç dənə də odun atdı öz-özünə danışırmış kimi:

— Qar yağır! — dedi və evdən çıxdı... Cabbar eşitdimi, eşitmədimi — bilmədi.

* * *

Əbdül Heyranın bu qarlı havada, ümidini tamam kəsdiyi, gözlərini yoldan yığdığı gündə gəlişindən özünü itirmişdi. Heyran darvazadan içəri girəndə ağappaq idi — elə bil, ağ xələt geymişdi. Eyvanda rezin çəkmələrini yerə döyəclədi, üst-başını çırpdısa da, qarın hamısı tökülmədi. Qaşına, kirpiklərinə qonmuş qar, soyuqdan avazımış sifətinə qəribə bir bəyazlıq verir, onu yaşından çox qoca göstərirdi. Gözləri qızarıb sulanmışdı. Bilmək olmurdu ki, bu soyuqdandımı, ya ağlayıb. Əbdül Heyranın yuxa paltarına baxıb üşüyə-üşüyə onu tez içəri apardı. Mətbəxə. Otaq isti idi. Daş kömür buxarısı gurhagur yanırdı, pəncərələrin şüşələri tərləmişdi. Əbdül heç özü də fərqinə varmadan — elə bil, Heyran ona məhrəm adam idi, — əlini uzadıb qadının çarqatını çiynindən götürüb qapının ağzındaca qarını çırpdı, gətirib stulun başına atdı, Heyrana yaxınlaşıb:

— İrəli gəl, buxarının qırağına gəl, qızın, — dedi. — Lap donmusan ki? — Belə deyib onun qızarmış əllərinə, otağın hərarətindən əriyib damcıya çevrilən və sifətini ağ mirvari dənələri kimi bəzəyən qar suyuna baxdı, ürəyinə axıb dolan sevinci nə üçünsə gizləməyə çalışdı və qayğılı bir görkəm alıb susdu. Sanki deməyə söz tapmırdı. Heyran bir qadın həssaslığı ilə gəlişindən Əbdülün çox şad olduğunu duysa da, buna heç bir pis məna verməməyə çalışaraq buxarıya yaxınlaşmış, əllərini oda tutmuşdu. Dırnaqlarından, barmaqlarından, ovcunun içindən keçən isti onun bütün bədəninə xoş bir gizilti yayırdı. Heyran yaxşı bilirdi ki, hava elə də soyuq deyil, qar da belə üşütməzdi, qadın sadəcə olaraq ac idi, dünən günorta yediyinin üstündə idi. Ona görə belə üşüyürdü Heyran. Əbdül isə onun bu cür əsməyini-üşüməyini əyninin yuxa olmağında görürdü. Beynində o dəqiqə dolandırdı ki, bacısının—Dünya xanımın ağzı bağlı sandıq-

larda qalan isti paltarlarından birini ona vermək lazımdı, yoxsa o, belə qışdan çıxmaz, soyuqlayar, xəstələnər, onsuz da o paltarlar göz dağıdı, qalıb orda, çürüyür!! Və bu fikrin ağlına gəlməsindən bir az da artıq sevindi Əbdül. İşgüzar ev yiyəsi kimi boş kətillərdən birini Heyranın altına qoydu, oturmağını xahiş elədi; sonra çay dəmləməyə başladı.

Heyran gözaltı Əbdülün hərəkətlərinə fikir verə-verə düşünürdü ki, Dünyanın-səsi-səmiri yoxdu—gəlməyib. Bəs uşaq hanı görəsən? Gəlişindən bəri ötən bir neçə dəqiqənin ərzində o, səksəkə ilə ya Dünyanın, ya da balaca Nəcməddinin qapını açıb içəri girəcəyini gözləmişdi — ancaq bu ümidi boşa çıxmışdı. Aclıq bir yandan, nigarançılıq da bir yandan Heyranın qəlbini üzüntülü-sıxıntılı bir hisslə doldururdu. Buxarının qızarmış dəmirinə baxa-baxa ürəyindən keçirtdi ki, bu buxarıdan biri də bizim evdə olsaydı, Cabbarın canı qızardı. Görəsən Cabbar kaçaluları yedi?.

Bu vaxt Əbdül piyaləyə buğlanan çay süzüb Heyranın böyründəki mizin qırağına qoydu, özü də qənşərindəki kətildə əyləşdikdən sonra:

— Necəsiz, Heyran xanım? — deyə soruşdu. Bu sualı gec verdiyini özü də bilirdi, ancaq neyləmək olardı — o, çaşqınlığını, Heyranın bu gəlişindən çox xoşhal olduğunu indi ona izah eləyə bilməzdi. — Yoldaşınız necədi?!

Heyran bayaqdan bəri yalnız indi yaş kirpiklərini qaldırıb Əbdülün sifətinə ötəri baxdı:

— Babat. Yoldaşımın halı o qədər də yaxşı deyil, ağa.

Əbdül bəlkə də ayrı vaxt olsaydı, bəlkə də ayrı adamdan bu sözləri eşitsəydi, özünəməxsus həssaslıqla, qayğı və canıyananlıqla, şirin, təsəlliverici bir söz söylərdi. Heyranı sakitləşdirərdi; ancaq indi bu, onun özünə də çox təəccüblü göründü o, küt baxışlarla qadını süzdü, daha nə deyəcəyini gözlədi. Qəribə bir hissiyyatla asta-asta tərpənən dodaqlarına, sifətinə nəzər saldı və yenə qarşısında eynən Dünyanı görüb mat-məbhut taqətsiz halda qımıldanmadan susdu, o, nə isə deyirdi, ancaq Əbdül fikrən, xəyalən Dünya ilə idi deyə heç nə eşitmirdi, heç nə başa düşmürdü. Əbdülün ayrı aləmə daldığını, dediklərini dinləmədiyini Heyran o dəqiqə duydu və əri haqqında

danışığına ara verib, təzədən, bu dəfə nisbətən davamlı, bir az da təəccüb ifadə eləyən nəzərlə qarşısında oturan, gah yaxın xeyirxah, gah da nə isə müəmmalı adam təsiri bağışlayan kişiyə baxıb:

— Siz, deyəsən... kefsizsiniz, ağa? — deyə uca səslə müraciət etdikdə Əbdül günahkar adamsayağı başını buladı, beynini çulğalayan xəyalları özündən kənar etmək üçün:

— Yox, yox, — dedi,— kefsiz deyiləm, xanım. Sadəcə, sizi görəndə çox sevindim, elə bildim Dünya qayıdıb. İndi, bax, indicə siz danışanda mənə elə gəldi ki, Dünyasız, oturubsuz qabağımda. Siz ona elə oxşayırsız, elə oxşayırsız, xanım. Bilmirəm necə deyim? — Bu sözləri deyəndə Əbdülün qonur gözləri dolmuşdu. Həyəcanından əllərini gah buxarıya sarı uzadır, gah sifətində gəzdirirdi:

— Hə, — dedi Heyran və kədərli-kədərli yenə qapıya sarı boylandı. Sonra uşağın da səs-səmirinin çıxmadığını xatırlayıb: — Bəs Nəcməddin hanı, ağa? Heç gözümə dəymir uşaq? — deyə soruşdu. Əbdül qalxıb Heyranın boşalmış piyaləsini doldurmaq istəyəndə o, əlini piyalənin üstünə tutdu:

— Bəsdi, ağa, sağ olun.

— Soyuqdu, için, xanım.

Heyran ac olduğu üçün udqundu və başını bulamaqla kifayətləndi. Əbdül çaydanı yerinə qoyub cavab verdi:

— Nəcmi yatıb. Elə sizin qabağınızca yedizdirib-yatırtmışdım. Gecə qulağı ağrıdığına görə çox pis yatmışdı. Səhərəcən qışqırıb ağlayıb yazıq. Bir az gənəgərçək yağı tökdüm — sakitləşdi. İndi xurd düşüb...

— Yəqin soyuğa vermisiz!..

— Nə bilim... Çətin imiş uşaq saxlamaq, çox çətin imiş. Xüsusilə anasız uşağı saxlamaq lap müsibət imiş. Mən şikayət eləmirəm, ha. Onun qulluğunda durmaq mənim borcumdu, Elə-belə, sözgəlişi deyirəm, — deyə sözlərinin giley-güzar kimi anlaşılacağını duyan Əbdül tez dediklərinə düzəliş verməyi lazım bildi. Əslində belə deməkdə məqsədi vardı. Məqamının çatdığını anlayıb ikibaşlı bir söz işlətdi: — hərdən istəyirəm bir dayə tutam. Gəlib baxsın. Yeməyini, geyməyini verərəm. Təki baxsın uşağa... Sonra da fikirləşirəm ki, yad

adam nə baxacaq? Qıymıram düzü onu başqa adama uspurd olam. Gül kimi uşaqdı...

Heyran doğrudan da balaca Nəcməddinin taleyindən nigaran idi. Keçən dəfə gəlib bacısının bu dağılmış tifaqını, atasız, anasız qalmış körpəsini görəndən sonra öz dərdi yaddan çıxmasa da, üstünə bir dərd də gəlmişdi. Və bu, onun rahatlığını əlindən lap almışdı. Hətta fikirləşmişdi ki, imkanı, şəraiti olsaydı, Cabbar sağlam olsaydı, bacısının yetimini aparıb saxlar, böyüdərdi. Dörd divar arasında oturmaqdan, oturub dizini, durub özlərini görməkdən canları qurtarardı. Cabbar elə insan idi ki, bu işə qətiyyən etiraz eləməzdi. Hayıf, bu onların imkanından uzaq idi, çox uzaq idi. Həm də Əbdül— körpəyə can-dildən bağlanan, onu öz ciyərparası kimi sevib-əzizləyən, qulluğunda dayanan bu qəribə kişi onu yəqin ki, gözündən uzağa qoymazdı, heç kəsə etibar eləməzdi. Buna baxmayaraq, Heyran Əbdülün ağzını aramaq məqsədilə soruşdu:

— Mənim imkanım olsaydı, aparıb saxlardım. Özgə adam deyil ki, bacımın balasıdı.

— Yox, nə danışırsız, xanım. Mən onu bu qapıdan qırağa çıxarılmağa qoymarm... Bir addım da qoymaram. Ancaq, xanım, mən istəyirdim ki, sizə deyəm, əgər razı olsaz, siz gəlib burda baxardız uşağa. Hayana dönsə, siz doğmasız, siz xalasısız, xanım. Başqasını yaxın qoymaram uşağa, ancaq sizi..

Heyran Əbdülün bu sözləri çox ürəklə, səmimiyyətlə söylə-diyini duyub sevindi. Ona görə sevindi ki, bu, heç onun ağlına da gəlməmişdi. Səbəbini isə elə indicə anladı; — bu ev, həyət-baca, xanıman elə cah-calallı idi ki, Heyran özünün, xəstə ərinin burada yaşaya biləcəyini ağlına belə gətirə bilməzdi. Bu səadət ömrünün ən yaxşı çağlarının — gənclik illərinin alçaq soyuq, nəm və alaqaranlıq daxmada ehtiyac məngənəsində sıxıla-sıxıla yaşamış Heyran xanımın fikrinə haradan gələ bilərdi?! İndi budur, Əbdül onu bu süslü imarətə — öz bacısının evinə dəvət edir! Ancaq axı o tək deyil. Onun Cabbar kimi müsibəti var—xəstə əri var! Onu tək qoyub gündə bura gəlmək, xəstəni baxımsız qoymaq olarmı? Yox. Bunu Heyran qətiyyən eləyə bilməz. Beləcə də dedi:

— Mən, əlbəttə, gəlib baxardım, ağa. Çox böyük məmnuniyyətlə baxardım. Ancaq siz yaxşı bilirsiz ki, mən tək deyiləm, xəstə ərim var və o, uşaqdan da çox qayğı istəyir məndən. Mən onu heç cürə qoyub gələ bilmərəm, ağa.

Əbdül gümrahlandı:

— Mən demirəm ki, xanım, siz onu qoyub gəlin. Nə olar, elə onu da gətirərsiz. Bax, aşağıda, həyətdə ayrıca isti bir otaq var — yaşarsız orda. Çox yaxşı otaqdı.—Az qalmışdı çaşıb desin mənim öz otağımdı, — özünü saxladı. Daha danışmayıb sözlərinin Heyrana necə təsir elədiyini yoxlamaq üçün sual dolu nəzərlərini ona dikdi.

Heyranın aclığı keçdi, daha ürəyi qazınmırdı acından. Bədəni də isinmişdi. Yanaqları qızarmışdı. Bütün vücuduna qəribə, anlaşılmaz bir rahatlıq axıb süzüldü haradansa. Əbdülün təklifi onu hədsiz dərəcədə sevindirsə də, özünü tox tutmağa çalışdı. Nəhayət, gözlənilmədən, lap axırda, necə deyərlər, bıçaq sümüyə dayanan vaxt onların da həyatına günəş doğduğunu, soyuğun, ehtiyacın, təkliyin əlindən xilas olmaq məqamının gəlib çatdığını dumanlı şəkildə olsa da dərk eləyib ağrısını-acısını unudan kimi oldu. Ancaq ha əlləşdisə özünü saxlaya bilməyib Əbdülü minnətdarlıq ifadə edən bir baxışla süzdü və qəribə, ilıq, məhrəm bir təbəssümlə gözlərindən güldü. Əbdül o an hiss elədi ki, bu təklif Heyranın ürəyincədi, lakin nə isə qətiyyəti çatmır fikrini bəyan eləsin. Ona görə o fırlanıb qadının qənşərində dayanaraq:

— Hə, nə deyirsiz, Heyran xanım?— deyə soruşdu. Onun səsində həlim bir xahiş tonu vardı və anlamaq çətin deyildi ki, bu, nə üçünsə Əbdülün özünə daha çox lazımdı — uşaqdan da, Heyranın özündən də çox lazımdı. Əbdülün sifətində vardı, müqtədir bir adamın üzündə ola biləcək amiranəlik, hökm və tələbkarlıq yox idi, hərçənd o, ürəyində özünü məhz belə hiss eləyirdi indi.

— Mən razıyam, ağa. Ancaq…

— Ancaq, nə, xanım? Sizin üçün hər cür şərait yaradacağam, yaxşı yaşayacaqsız. Heç nəyin dərdini çəkməyəcəksiniz, xanım. Bu işin ən yaxşı cəhəti olacaq ki, siz də rahat olacaqsız, o körpə də, mən də... Bir ailə kimi əl-ələ verib yaşayacağıq. Deyirsiz «ancaq», nə ancaq, xanım?

— Deyirəm yəni bu işə Cabbar necə baxacaq, ağa.

— Cabbar nə deyəcək? Siz yaxşı-yaxşı başa salın onu. Deyin ki, bacımgilə köçürük. Yeyər-içər, bəlkə əmələ gəldi, sağaldı. Məncə, razı olar, xanım.

Heyran köksünü ötürdü:

— Allah ağzınızdan eşitsin. Ancaq razı olmasa, baş tutmayacaq, ağa. Mən onun iradəsi xilafına bu on beş ildə bircə addım da atmamışam. İndi isə — o, xəstə ikən heç eləyə bilmərəm, heç!! Siz onu tanımırsız, ağa. Kasıb olsa da, çox məğrurdu, heç kəsdən minnət götürməyi xoşlayan deyil. Beş ildən çoxdu, yorğan-döşək bimarıdı, biçarə, onu mən — öz arvadı qazandığım qəpik-quruşla saxlayıram, o, bunu da özünə bir dərd eləyib, inan, ağa. Bu mənada ki, o, Cabbar, arvad çörəyi yeyir, arvad ümidinə yaşayır. Belə kişidi mənim kişim ağa!

Heyran danışdıqca Əbdül sakitcə dayanıb qulaq asır, istər-istəməz onu bacısı ilə müqayisə edirdi. Heyranı iki dəfə görmüşdü, az tanıyırdı. Amma buna baxmayaraq ehtiyacın sıxıb əzdiyi bu qadının illər boyu bimar yatan əri haqında belə ağızdolusu danışması Əbdülün çox xoşuna gəlmişdi. Ərinə—evin kişisinə hörmət, hətta o, ölümə məhkum olsa belə, uca tutmaq, nazı ilə oynamaq, bir sözünü iki eləməmək xasiyyəti Heyranı Əbdülün gözündə ucaldırdı. Sir-sifətindən, sözündən onun yalan danışmadığı dərhal bilinirdi. Məkrdən, hiylədən uzaq olar belə qadın. Heyran ayağa qalxdı, getmək istədiyini bildirmək üçün stulun başındakı çarqatını götürdü.

— Gedirsiz? — deyə Əbdül soruşdu.

— Hə, gedim.. — o, pulsuz idi, yol pulu belə yox idi. Ancaq deməyə də utanırdı. Evdə isə yeməyə heç nə yox idi. Həyası ehtiyacdan güclü çıxdı Heyranın. Pul istəməməyi qərara alıb çarqatı çiyninə salanda birdən Əbdül nə isə xatırladı və tələsik:

— Dayanın! — dedi, əl atıb çarqatını çiyindən götürdü: — Sizə belə soyuq olar, xanım. Donarsız. Gəlin bura. — O, belə deyib uşaq kimi Heyranın əlindən yapışdı, arxasınca çəkib iri otağa gətirdi. Heyran çaşıb qalmışdı. Əbdülün nə eləmək fikrində olduğunu anlaya bilmirdi. O, əlini Əbdülün əlindən çəkib çıxartmışdı. Lakin elə bil, əli daha onun deyildi, murdarlanmışdı elə bil, paltarına toxundurmağa belə cəsarət eləmirdi. Cinayət işləmiş adam kimi çaşqın halda

əlmaridə[1] nə isə axtaran Əbdülə baxırdı. O, göz qamaşdıran, bir-birindən qəşəng paltarların içindən—Heyran o saat başa düşdü ki, bunlar Dünyanın libaslarıdır və Əbdül ona bacısının paltarlarından vermək, geyindirmək istəyir — boynu xınayı rəng dəridən olan palto, yun jaket çıxartdı və Heyrana sarı döndü:

— Bunları geyin, Dünya xanımındı — bacınızındı, xanım. Onsuz da qalıb... çür...

— Yox, yox, lazım deyil, ağa...

— Necə lazım deyil? Geyəcəksiz. — O, jaketin qatını açdı, əlində tutdu. — Geyin! Qolunuzu bəri eləyin, hə, bax, belə... Lap əyninizədi elə bil. İndi bu balapuşu geyin, xanım. E, bu olmadı ki, siz özgə yerdə deyilsiz ki, öz bacınızın evindəsiz də. Burda niyə utanırsız, mən başa düşmürəm. Əla!

Əbdül paltonu da demək olar ki, Heyrana zorla geyindirdi. Onun görkəmi dərhal dəyişdi.

— Bir bu yana çevrilin. Sağa, sağa. Hə, indi güzgüdə özünüzə baxın!

Heyran iri bədənnüma güzgüyə sarı çevriləndə özünü tanıya bilmədi. O, ömründə belə qəşəng və isti palto geyinməmişdi. Bədəni od tutub yanırdı elə bil. Yəqin ki, bu təkcə paltonun istisi deyildi. Heyran güzgüdə özünə baxmaqdan utanıb yana çevrildi.

Əbdül dedi:

— Əgər bildiz nəyiniz çatmır?

— Heç nə. Daha heç nə lazım deyil, Sağ olun.

— Yox, dayanın. Sizə baş şalı, bir də ayaqqabı verəcəyəm.

— Ağa, vallah, lazım deyil

Əbdül onun etirazına baxmadı. Əlmaridən ağ yundan toxunmuş bir isti şal gətirdi, onu öz əlilə Heyranın üstünə atdı. Heyran şalı havada tutub başına bağladı. Sonra hardansa bir cüt uzunboğaz ayaqqabı tapdı, onun qabağında cütlədi.

[1] Əlmari — şkaf.

— Siz ayaqqabıları geyinin, mən bu saat gəlirəm —deyib o biri otağa keçdi. Heyran tərəddüdlə də olsa ayaqqabıları da geyindi. Xəlvətə salıb güzgünün qabağında özünə əməlli-başlı diqqət yetirdi və heyrətdən donub qaldı. İlahi, o necə də dəyişmişdi, necə qəşəngləşmişdi. Paltar adamı necə də dəyişərmiş, aman allah. Yaxşı geyinən, daş-qaş taxan qadınları az görməmişdi və az həsəd hissi keçirməmişdi ömründə Heyran xanım. Belə şeylər ona əlçatmaz bir səadət kimi görünmüşdü həmişə. Və ona görə də — məhz əlçatmaz səadət kimi göründüyünə görə də o, bu hissi qəlbinin dərinliyində çoxdan, lap-çoxdan — on-on iki il bundan qabaq birdəfəlik boğub unutmuşdu. Ancaq indi... o hiss təzədən doğuldu, təzədən dünyaya gəldi, Heyranın sifətini də, gözlərinin baxışını da, işığını da dəyişdi. Heyran bu ani tamaşadan doymurdu. Əgər Əbdülün qayıtmaq qorxusu olmasaydı, Heyran beləcə, saatlarla güzgü qabağından çəkilməz, elə hey özünə tamaşa edərdi. Ancaq Əbdül tez qayıtdı, əlində neçə dənə qırmızı yüzlük vardı. Heyran pulu görən kimi qeyri-iradi olaraq gülümsündü. «Bu kişi lap adamın ürəyini oxuyur! Möcüzədi, vallah».

— Alın bu pulu. Bir maşına kişini qoyun, yığışın gəlin. —deyə o, pulları irəli uzatdı, lakin Heyran əlini tərpətmədikdə o, yüzlükləri onun ovcuna basdı. — Başa düşdüz? Gedin, yığışıb gəlin. Mən özüm gedərdim, ancaq uşağı qoyub gedə bilmərəm.

Pul Heyranın əlini köz kimi yandırırdı.

ALTINCI FƏSİL

Elə həmin gün, səhər tezdən evdən çıxarkən Heyran qar yağdığını görüb üşümüş, kədərlənmişdisə, şəhərin bu başında, yataq otağının həyətə açılan pəncərəsindən qarladığını görən Məhəmməd Şəfi çox sevinmişdi. Şair qarı çox sevirdi — soyuğunu, şaxtasını yox, sadəcə sakit-sakit, lopa-lopa yağmasından olmazın ləzzət alırdı həmişə. Xüsusilə Kabilin küləksiz qış günləri gözəl olurdu, havada elə bil saysız-hesabsız ağ kəpənəklər uçurdu, bir-birini qovur, birləşir, fırlana-fırlana, ləngər vura-vura yerə, ağacların, adamların, damların, hasarların üstünə düşürdülər. Şəfi üçün qar havada uçarkən

gözəldi — yerə düşdümü, olurdu adicə qar. Belə havalarda o, yaxşı işləyirdi: elə bil, ilham çeşməsinin gözü açılırdı, beynində, ürəyində qar dənələri kimi bir-birini təqib edən, dünyaya gəlməyə çan atan fikirlər ağ vərəqlər üstünə tökülür, yenicə doğulmuş körpəsinə baxıb sevinən ana kimi şair də onlara baxıb sevinirdi. Belə günlərdə, lap vacib işi olsaydı, o, evdən çıxmazdı!. Otağına çəkilib yazardı. Məleykə xanım uzun illərin təcrübəsindən bilirdi ki, Şəfi bu cür havada heç yerə getmir. Odur ki, onun çayını, çörəyini verir, özü isə çəkilib gedir, ev işləri ilə məşğul olurdu. Nahar vaxtı çatanda isə, Məleykə içəri girib onu stulundan qoparır, yemək otağında açdığı süfrə başında uşaqlarla birlikdə oturub xörəklərini yeyir, ordan-burdan danışır, deyib-gülürdülər. Şəfi özü üçün xüsusi rejim yaratmışdı; bu barədə Məleykəyə heç nə deməmişdi, çünki Məleykə təşvişə düşə bilər, nigarançılıq çəkərdi. Həbsxanaya düşəndən sonra Şəfi başa düşmüşdü ki, bir çoxlarınınkı kimi, onun da ömrü təkcə taleyindən asılı deyil; taleyindən başqa — əgər varsa — bir də «yuxarıda» əyləşən ağaların hökmündən asılıdır onun ömrü. Bilmək olmaz harda, haçan şairin ömür kəndirini kəsmək əmri veriləcək. Ona görə, qalan vaxtı-ömrü ağılnan, düşünə-düşünə yaşamaq gərək-di. Şəfi indi, qalan pullarını ağıllı işlərə sərf etmək, mənfəət gətirə bilən şeylərə xərcləmək qərarına gəlmiş bir tacirə oxşayırdı. Hərdən özünə, bu fikirlərinə gülürdü. Neyləmək olardı, həyat belə qurul-muşdu. Şair qəlbində, beynində gəzdirdiyi, vaxtın azlığı, çatışmazlığı üzündən ildən-ilə adlatdığı əsərlərini kağız üzərinə köçürməklə yanaşı, başqa bir səhvini də düzəldirdi: o, bu çağa qədər evə, ailəyə, uşaqlarına az fikir vermişdi, lazım olduğundan az diqqət yetirmişdi. Evin dərd-səri Məleykənin boynunda idi, o, bu işləri böyük həvəslə görürdü, ancaq Şəfi başa düşürdü ki, hardasa o da əl yetirməlidi, kömək olmalıdı Məleykəyə. Uşaqlar da ata qayğısını tam mənası ilə hiss eləməmişdilər, onların təsəvvüründə ata həmişə yazı masası arxasında oturan, gündüzlər harasa gedən, kitab yazan, kimlərlə isə oturub saatlarla nəsə danışan bir adam kimi qalmışdı indiyəcən. Şəfi bilirdi ki, bu, düz deyil; onların da atalıq haqqını qaytarmalıdı Şəfi. Buna görə son vaxtlar Şəfi həftədə iki dəfə arvadını, uşaqlarını yanına salıb «Sinema-Kabul»a aparırdı, Bəbrəkin dərslərinə baxır,

qızları Jaləni, Rəbiəni əyləndirir, onlara nağıl danışır, şer oxuyur, şer öyrədirdi. Qış aylarında onları qalın geyindirib bayıra çıxarır, qartopu oynayır, balaları üçün qar adamı düzəldirdi. Belə oyunlardan uşaqlar da ləzzət alırdı, o da. Elə bil təzədən özü də dönüb uşaq olurdu Şəfi. «Qoy məni tam varlıqları ilə hiss etsinlər balalarım, sevsinlər məni, sevə bilsinlər. Bir də gördün gözlənilmədən «getdim». Balalarımın yadında nə qalacaq? Heç nə? «Bu fikir Şəfini evə, ailəyə daha möhkəm bağlayırdı. Həmin qərara gəldiyi ilk günlərin birində Şəfi uşaqların otağına keçib onlara qoşularaq top-top oynayanda heç birisi gözünə inanmamış, təəccüblənmişdilər. Jalə heyrətlə Rəbiəyə baxıb:

— A, qibləgahım top-top oynaya bilirmiş ki? — dedikdə Rəbiə atasından soruşmuşdu:

— Şair də heç top-top oynayar?

Şəfi uşaqların bu təbii təəccübünün mənasını anlayaraq:

— Niyə oynamır, qızım? — demişdi. — Şair adam deyil? Şair də vaxtilə sizin kimi uşaq olub, bala. Şair top-top da oynayar, hələ istəsən mayallaq da aşa bilər, qızım! — deyərək xalçanın üstündə çevik bir hərəkətlə mayallaq aşmışdı, bu, onlara qəribə görünsə də, çox xoşlarına gəlmişdi. Sevinmişdilər, gülüb-uğunmuşdular. O gündən sonra Şəfi sanki balaları ilə yenidən qaynayıb-qarışmış, uşaqlaşmış, övladları isə ona daha çox isinişmişdilər. Məleykə isə bundan hədsiz fərəh duymuşdu və ehtiyat üçün onlara tapşırmışdı:

— Daha gedib orda-burda danışmayın ha qibləgahınız belə eləyir. Gülərlər.

— Mənim ballarım ağıllıdır, Məleykə. Onlar yaxşı bilirlər ki, adam evin söz-söhbətini orda-burda danışmaz. Elə deyil?

— Elədi, qibləgahım! — deyə qızlar birağızdan cavab vermişdi. Həmin gün qızlarla oynayıb eyinlərini açandan sonra o, Bəbrəkin otağına keçmişdi. O, mizin arxasında oturub dərslərinə hazırlaşırdı. Şəfi onun başı üstə dayanıb yazısına diqqətlə baxandan sonra:

—Yazını qurtardın, oğul? — deyə soruşmuşdu.

— Hə.

— Gəlsənə sənlə bir şahmat oynayaq?

— Şahmat? — deyə Bəbrək eşitdiyinə inanmamış kimi xəbər almışdı.

— Hə,

— Oynayaq!

Onlar bir saat, «döyüşmüşdülər!» Şəfinin fikri başqa yerdə olduğundan tez-tez səhv eləmiş və nəticədə uduzmuşdu.

— Mən təslim, oğul. Sabah oyunumuzu davam etdirərik. Demək bir sıfır sənin xeyrinə!. Sabah səni udacağam!. Bəbrək atasını udduğuna sevinməmişdi:

— Özünüz bilə-bilə uduzdunuz! — demişdi.

Bəli, Şəfi günlərini belə yaşamağa başlamışdı.

Bu gün qar yağdığını görəndə işə getmək fikrindən daşındı. «Pərçəm»in redaksiyasına zəng edib Elməddinlə danışdı, lazımi tapşırıqlarını verdi, gələn nömrə üçün gedəcək materialları makinadan sonra bir də diqqətlə oxumasını xahiş elədi. Eyni zamanda öyrəndi ki, Elməddin bu gün nahardan sonra Poli-Çərxiyə, hərbi fabrikə gedəcək. Tapşırdı ki, onda axşam mənə dəyərsən, görək orda vəziyyət necədir. «Yaxşı!» — dedi Elməddin.

Çay-çörəyini yeyəndən sonra o, iş otağına qapılıb yazmağa başladı. Əhvali-ruhiyyəsi yaxşı idi. Bu gün xeyli işləyəcəyini nəzərdə tutmuşdu. Ancaq, mümkün olmadı. Saat on birdə Sansur Seyfəddinin gəlib çıxması onun fikirlərini, həvəsini alt-üst elədi. Sansur Seyfəddin Şəfinin pərəstişkarlarından idi. Onu sevirdi, əsərlərini sevə-sevə oxuyurdu. Bütün kitablarının çapına Dövlət senzura idarəsində işlədiyindən o, icazə verirdi və bir qayda olaraq Şəfinin hər çap olunan kitabının ilk siqnal nüsxələrini özünə götürür və münasib fürsət düşəndə şairə üstünü yadigar olaraq yazdırırdı. Seyfəddinin sənəti-şeri başa düşməsi, hər milçəyi böyüdüb fil eləməməsi Şəfinin çox xoşuna gəlirdi. Onların arasında indiyəcən açıq siyasi söhbət olmamışdı. Hər ikisi başa düşürdü ki, eyni fikirli adamlardı, dərdləri, məramları birdi. Onun barəsində Şəfi Bəbirlə də söhbət eləmişdi. Bəbir demişdi:

— Axtarsan bizim cəmiyyətdə elə adamlar çoxdur, Şəfi. Sənlə, mənimlə həmfikir olan adamlar indi hər idarədə var, ancaq məsələ burasındadır ki, heç kəs bir-birinə etibar eləmir, ürəyindəkini açıb demir, çünki qarşısındakına inanmır, qorxur. Sansur Seyfəddin də qəlbən bizimlədir, ancaq ehtiyat eləyir. Eybi yoxdur, qoy hələlik

belə işləsin. O, bizə böyük kömək edir — haçansa açılacaq, inanacaq, özü gələcək dəstəmizə. Sansur Seyfəddinin bu qarlı qış günündə Şəfinin evinə gəlməyini şair yaxşı əlamət hesab eləməyib narahat oldu. Ehtimalı düz çıxdı şairin. Seyfəddin təmkinlə, aramla o gün nazirin kabinetində Asəf xanla olan söhbəti Şəfiyə danışdı, üç gün sonra isə əmrinin verilib işdən çıxarılmasını söylədi.

— Mənim bura gəlməkdə məqsədim o deyil ki, sizə işdən qovulmağımı xəbər verim, şair. Mən istəyirəm sizi xəbərdar eləyim ki, sizin kitabınız və Elməddinin hekayəsi deyəsən yuxarının kürkünə birə salıb. Nazir cənabları demişkən, siz «bizim» qapımızdan qapıçının — yəni mənim qəflət etməyim üzündən bir top keçirmisiniz. Hər oyunda gəlməyə adət etmiş timin[1] qapısından müxalif cəbhə top keçirəndə o, təbii ki, quduzlaşır, qəzəblənir, şair! Mən bu qəzəbin şahidi kimi bura gəlmişəm və sizi xəbərdar etməyi özümə borc bilirəm.

— Çox sağ ol, Seyfəddin. Belə şeyləri bizim bilməyimiz çox vacibdir, qardaş!

— Xüsusilə Elməddinin hekayəsi barədə çox sərt sözlər dedi ağayi vəzir! Dilənçi — xalqın obrazıdır, tacir Dövlət xan da bizim dövlətimizdir — deyir. Özü belə nncə mətləbləri başa düşən deyil, onu, mənim fikrimcə, kimsə başa salıb. Yoxsa ağayi Asəf xan özü kitab-ruznamə oxuyan deyil.

Şəfi ah çəkdi:

— Bizim bədbəxtliklərimizdən elə biri də budur, Seyfəddin. Sənətin, mətbuatın, kitabın, sözün nə demək olduğunu bilməyən adamı gətirib vəzir qoyublar! Niyə? Ona görə ki, Asəf xan baş nazirin qohumudur, vəssalam. Vəzifə — qabiliyyətinə, ləyaqətinə görə verilmir adamlara bizim cəmiyyətdə. Bu isə böyük fəlakətdir, qardaş!!!

Xeyli söhbətdən sonra Şəfi Seyfəddinin indi nə iş gördüyü ilə maraqlandı o, qəmli-qəmli gülümsünüb:

— Mətbəədə fəhlə işləyirəm! — dedi. — Başqa çarəm yoxdu. Uşaqları dolandırmaq lazımdı.

— Tanqahında çox fərq var?

[1] T i m — komanda.

— Səkkiz yüz əfqani.

— O, çoxdu, çoxdu, — dedi Şəfi və tamam məyus oldu. İstər-istəməz Seyfəddinin paltarına nəzər saldı: pencəyi lap köhnə idi, qollarının ağzı sürtülüb süzülmüşdü. Təsəlli verdi şair:

— Darıxma, deyirlər, yaman günün ömrü az olar.

— Hə, — dedi Seyfəddin. — Amma belə görünür ki, o yaman günün az ömrü bizim ömrümüzdən çox-çox uzundu, şair!—Seyfəddin gedərkən belə söylədi və bu sözlər bütün günü, axşam Elməddin onlara gələnəcən Şəfinin beynində dolandı, onu işləməyə qoymadı. Qanıqara halda otaqda gəzindi, uşaqların yanına getmədi. Elə hey düşünürdü. Məleykə xanım onun qanının qaraldığını otaqda var-gəl eləməyindən, siqareti siqaretə calamağından başa düşmüşdü. Ancaq, adətincə, o dəqiqə başının üstünü kəsdirib; «axı nə oldu sənə?» — demirdi. Belə hallarda onu tək buraxır, müəyyən vaxt keçəndən sonra, əgər deməli sözdürsə, Şəfi özü açıb danışırdı, əgər deməli deyildisə susur, üzdə olsa şad-xürrəm görünməyə çalışırdı.

Axşam Elməddin kefi kök, damağı çağ qayıdıb gəldi. Məleykə xanımla, uşaqlarla mehriban-mehriban görüşüb, hal-əhval tutandan sonra Şəfinin otağına keçdi. Şəfi onu şən qarşıladı. Lakin Elməddin onun gözlərindəki kədəri, sifətindəki gərginliyi dərhal sezmişdi.

— Deyəsən, ustad bu gün çox işləyib. Yorğun görünürsünüz!? Şəfi könülsüz halda:

— Hə! — dedi. — Yorğunam oturun, danış görək necə getdin, necə gəldin? Vəli Məhəmmədi görə bildinmi?

Elməddin divanda oturdu. Yenicə rahatlanmışdı ki, Məleykə çay gətirdi və səssiz-səmirsiz də çıxıb getdi.

— Hə, yaxşı oldu, ustad. Əhədulla gəlib məni Poli-Çərxiyə apardı. Mən hərbi zavodda heç olmamışdım. Deyirdim girərəm içəri, ətraflı tanış olaram. Ancaq qoymadılar. Təfrih[1] vaxtı Vəli Məhəmmədi tapdım. Yaxşı kişi imiş. Boylu-buxunlu, təcrübəli. Sən demə, doqquz yaşından burda işləyirmiş. Atası da burda əmələ imiş. Qırx il hərbi fabrikdə külüng çalıb Vəli Məhəmməd. Özü tüfəng sexində çalışır, Kartuz[2] sexi də ona baxır.

[1] Təfrih — tənəffüs.
[2] Kartuz — patron.

— Bir iş görə bilirlər?

— Hə. Necə tapşırmısınız, o taydada da işləyirlər. Hər gün parça-parça iki-üç tüfəng, on-on beş qatar kartuz çıxara bilirlər fəhlələr. Deyilən yerdə—anbarda. Gizləyirlər.

— Bu, çox yaxşıdır, Elmi. Şübhələnən-filan yoxdu ki?

— Deyir yoxdur.

— Silah bizə çox lazım olacaq. Atalar demiş, bismillahla donuz darıdan çıxan deyil. Yəni təkcə sözlə, kitabla, ruznamə ilə işimiz aşmaz bizim. Sözlə ürəklərdə, beyinlərdə məşəl yandırmaq olar, amma gərək beyni, ürəyi alovlanmış adamların əlində kəsərli, odlu da silah olsun. Yoxsa bizim qələbəmiz mümkün olmaz.

— Düzdü, ustad. Ancaq o silahla—yəni tüfənglə, tapança ilə bu qart əjdahanı gəbərtmək çətin işdi, məncə.

— O, sözsüz elədir. Onun üçün biz ordunun içində işləməliyik — xüsusilə zabitlərin arasında. Ən müasir silah — tank, təyyarə, helikopter[1] top onların əlindədir. hərbi fabrikdən çıxan silah bizim yardımçı vasitəmizdir, Elmi. Bizim əsas gücümüz orduya söykənməyimizdir.

Onlar xeyli söhbət etdilər, Məleykənin hazırladığı şamı yedilər. Şəfi yalnız süfrə yığışdırılıb ortalığa çay gələndən sonra Vəzarate İttilaat və Kulturda, ağayi vəzir Asəf xanın Sansur Seyfəddinlə olan danışığını Elməddinə nağıl elədi. Elməddin ustadının qanının qaralığının əsl səbəbini ancaq indi başa düşdü. Demək, atılan güllələr hədəfə dəyib! Demək düşmən sevər yerindən yaralanıb; şübhəsiz, buna görə də quduzlaşacaq. Lakin hər ikisini bir cəhət düşündürürdü indi: kitabın və hekayənin çap olunmasından xeyli vaxt keçirdi, ara isə sakitlik idi, nə Şəfiyə, nə Elməddinə kimsə bir söz belə deməmişdi. Sanki heç nə olmamışdı. Bu, nə idi? Siyasət idi, siyasi manevr idi, ya nə idi? Düşmən yaralanandan, necə deyərlər, qapısından top keçirilməndən sonra susurdusa, dərhal əks-hücuma keçmirdisə, burada, şübhəsiz başqa bir şey olmalı idi.

Elməddin çox fikrə getmişdi. Ustadın mülahizələrinə qulaq asdıqca, onun həbsxanada başına gətirilən müsibətləri birər-birər

[1] Helikopter — vertolyot.

xatırlayır, ondakı dözümə, iradəyə, üstündən nə qədər vaxt keçəndən sonra, təzədən heyrətlənməyə bilmirdi. «Bu dəfə aparsalar öldürəcəklər. Şübhəsiz öldürəcəklər» — deyə düşünür, özü haqda əsla ağlına heç nə gətirmirdi. Halbuki Sansur Seyfəddinin danışığından yaxşı məlum idi ki, onun vəziyyəti daha ağırdı. Hekayəsinin necə deyərlər astarını üzünə çevirmişdilər, içindəki gizli mənanı tapmışdılar və yəqin ki, onun arxasından heç cür qaçmaq mümkün olmayacaqdı. Ancaq bütün bunlara baxmayaraq, Elməddin işin məhz bu şəkil almasında, nə qədər qəribə olsa da, gizli bir nəşə və sevinc duyurdu. O böyük, o qart və qorxulu əjdahaya atılan güllələr içərisində onun da gülləsi var idi və bu güllə, lap tutarlı yerdən — ürəyinin başından dəymişdi. Və belə görünürdü ki, bu güllə onu, heç də başqa güllələrdən, Bəbirin parlamentin iclasında vurduğu açıq zərbədən, Şəfinin yeni kitabında atılan, özü də dalbadal atılan güllələrdən az incitməmişdi.

— O, məsələni bilir, ustad?—deyə Elməddin Bəbiri nəzərdə tutaraq soruşanda Şəfi cavab verdi:

— Yox. hələ bilmir. İndi gedəcəyəm yanına, hər şeyi danışacağam. Görək nə məsləhət eləyir.

YEDDİNCİ FƏSİL

Heyran Darüləmanın mərkəzində, Kabil muzeyinin qabağında servisdən düşdü, əlindəki zənbili yelləyə-yelləyə, iti addımlarla evə tələsdi. Yüngülvarı bazarlıq eləmişdi, acından başının hərləndiyini, gözlərinin tor gətirdiyini görüb küçədə isti çuğundur satan oğlandan bir qıça qırmızı çuğundur alıb elə ayaq üstə yemiş, açlığını dəf eləmişdi. Uçmağa qanadı yox idi. Əynindəki paltar onun haçandan sevinməyən ürəyini hədsiz bir fərəhlə doldurmuşdu. Əbdül onun gözündə yox yerdən peyda olmuş bir xilaskara dönmüşdü. Necə də xeyirxah adamlar varmış bu dünyada?! Desəydilər, Heyran bəlkə də buna inanmazdı — nağıl, əfsanə hesab eləyərdi. «Ərini də götür, gəl. Burda yaşarsız. Yeməyinizi-yerinizi verərəm». — Bu sözləri o özü Əbdülün dilindən eşitmişdi. Necə inanmaya bilərdi?! «Görünür, zatən

yaxşı adamdı. Həm də, deyəsən, Dünya bacım da ona yaxşı baxıb. Yoxsa... Mən onun nəyiyəm ki?» Heyran bütün yol boyu ürəyində beləcə danışmışdı, ancaq söz-söhbəti qurtarmamışdı. Fikri paltardan, Əbdüldən, cibindəki pullardan qopub Cabbarın üstündə qərar tutmuşdu: «İndi məni bu paltarda görəndə heç tanımayacaq Cabbar. Həmişə arzusu idi məni yaxşı geyindirib-keçindirsin. Axır görəcək məni gözəl paltarda, sevinəcək yazıq. Özü üçün də yaxşı olacaq — isti otağımız olacaq, yeməyimiz bol olacaq. Biçarə haçandı doyunca xörək yemir, yoxdur. Bəlkə əmələ gələr, Allah kərimdi. Yoxsa lap üzülüb, canı-cəsədi qalmayıb».

Heyran Darüləmanın kənarındakı yastı-yapalaq evlərin arası ilə iti addımlarla yeriyirdi. Bura artıq öz məhəllələri idi. Qabağına tanış qadınlar, uşaqlar çıxırdı, ancaq salam verməmiş keçib gedirdilər. Deyəsən, təzə paltarda Heyranı tanımırdılar. Bunu o, evə lap az qalmış, qonşu arvadla üz-üzə gələndə müəyyən etdi. Kürəyində dəri su tuluğu olan, ağzı yaşmaqlı qadın qarşısına çatanda Heyran addımlarını yavaşıtdı, nəfəsini dərib:

— Salam, ay Nisə xala, — dedikdə arvad ayaq saxlayıb gözlərini qıyaraq zənlə ona baxıb:

— Əleyküməssalam, — dedi və azca duruxdu. Tanımadığını anlayıb Heyran sevincini gizləyə bilməyərək gümrah səslə:

— Mənəm ey, Nisə xala, Heyranam, — dedi.—Tanımadın məni?

Nisə xala gözlərini geniş açaraq:

— Bıy, sənsən? And olsun allaha, tanımadım. Ağız, bu sənsən, Heyransan?.

— Hə, mənəm, Nisə xala!

Nisə xala yoxlayıcı-sınayıcı bir nəzərlə onu təpədən-dırnağacan süzüb qəribə şəkildə qımışdı:

— Dövlətli olacaqsan! — dedi, nə isə soruşmaq istədi, ancaq fikrini dəyişib yoluna düzəldi. Qalan məsafəni Heyran nədənsə sıxıla-sıxıla getdi, hətta qabağına çıxan adamların üzünə də baxmadan keçib həyətə girdi. Qapını necə örtmüşdüsə eləcə idi. Bura şəhərə nisbətən çox qar düşmüşdü, çünki yüksəkdə yerləşmişdi məhəllə. Evin görkəmi elə qərib və müztərib idi ki, istər-istəməz Heyranın

qəlbindəki sevinci harasa qovdu bir anın içində və o, süst, əvvəlki kədərlə qapını açıb içəri girdi.

Balaca, böyür pəncərədən düz Cabbarın üzünə qonşu damın üstündən qar işığı düşürdü. Heyran zənbili yerə qoydu, əvvəlcə Cabbara baxdı. Cabbarın gözləri açıq idi. Heyran yaxın gəlib əlini onun alnına toxundurdu:

— Necəsən, əzizim?

Cabbarın səsi çıxmadı. Kətilin üstdəki kartoflar eləcə qalırdı. Heyran dəhşətli bir şey olubmuş kimi içini çəkdi:

— Vay, sən heç nə yeməmisən, kişi? Acından ölərsən sən belə getsə. Al, ye bunu — deyə o, tələsik kartofun birini götürüb Cabbarın ağzına yaxınlaşdırdı. Lakin Cabbar dodaqlarını aralamadı, etiraz əlaməti olaraq başını da yana çevirdi.

— Qurban olum, bax, heç olmasa bu bircə kaçalunu ye, canına qüvvət olsun. Ət almışam, indi bişirərəm doyunca yeyərsən. Hələlik bunuca ye!

Cabbar heç nə demədən çuxurdan qəribə bir parıltı ilə yanan gözlərini Heyranın başındakı yun şalda, əynindəki paltoda gəzdirdi, səssiz-səmirsiz xeyli baxdı. Onun belə təəccüblə baxmağından Heyranın ürəyinə gəldi ki, bəlkə o da qonşular kimi paltarına görə onu tanımır?! Ona görə dedi:

— Mənəm ey, Cabbar. Nə belə diqqətnən baxırsan? Dünyanın paltarlarıdır, bacımın paltarlarıdır. Əbdül gördü üşüyürəm, verdi geydim....

—…

— Pul da verdi Əbdül, Cabbar. Özü də dedi: «Köçün gəlin bizə. Bizdə yaşarsız». İsti evdi. Yeməyimizi də verəcək. Cabbar, eşidirsən? Sən orda Allah qoysa sağalacaqsan! Sənə yaxşı qulluq eləyəcəyəm, inşallah, lap tez sağalacaqsan. Əbdül çox yaxşı adamdı. Elə qayğıkeşdi, elə mehribandı, dilnən deməklə başa gəlməz... Allah qoysa, gedərik, özün görərsən. Xoşuna gələcək.... Canlara dəyən adamdı. Hə, hazırlaşaq?

—…

— Paltarıma baxırsan? Xoşuna gəlir Cabbar? Yadındadı, sən həmişə arzu eləyirdin ki, mənə gözəl-gözəl paltarlar geyindirəsən. Belə paltar istəyirdin mənim üçün? Ya bundan yaxşısını?

—…

— Niyə danışmırsan, Cabbar? Bay, sən ağlayırsan? Niyə ağlayırsan qadası? Nə olub sənə, bir yerin ağrıyır? Ağrıların mənə gəlsin sənin.

Bu zaman Cabbar dolmuş gözlərini geniş açaraq, Heyranın gözləmədiyi halda, birdən-birə vəhşi bir səslə:

— Rədd ol burdan, gözüm səni görməsin, fahişə!—deyə bağırdı. — Rədd ol l l l!!

Heyran qulaqlarına inanmadı. Elə bildi onu qara basır. Ömründə bircə dəfə də olsun Cabbar ona söz deyərkən səsini qaldırmamışdı. İndi çığırır, indi onu «fahişə» adlandırır?! Heyran təəccüb içində:

— Nəə? — deyə bildi və elə o anda sanki daxma başına uçdu, aləm bir-birinə qarışdı. İllərin məhrumiyyəti, acısı-ağrısı, o sözə bənd imiş kimi ürəyində tərpəndi, qövr elədi, nəinki paltarı, hətta həyatın özünü belə gözlərində heçə-puça döndərdi və o, ömründə ilk dəfə bax elə indicə, bax elə buradaca ölmək istədi, yerə girmək istədi. İndi ona hər şey aydın oldu: keçən dəfə o, bacısıgildən gələndə Cabbar köks ötürüb: «Elə ölmək istəyirəm!» demişdi — niyə? Bunu onda Heyran başa düşməmişdi. İndi də belə... Demək, Cabbar onun haqqında pis fikrə düşüb! Aman allah, bu nə dəhşətdi! Cabbar Heyranı heç ağlına gətirmədiyi iyrənc bir işdə ittiham eləyirdi! Bu, onun ürəyini parçaladı, mənliyini sıxıb əzdi. Beş il yox, iyirmi il də Cabbarın əzabını, əziyyətini çəksəydi, bu ağır təhqirin milyonda biri qədər onu incitməzdi, sıxmazdı. «Bəli, yəqin o fikirləşir ki, mən yalan danışıram, onu aldadıram. Fikirləşir ki, kimdi mənə havayı pul, paltar, isti sığınacaq verən? Bu zəmanədə kim əvəzsiz, təmənnasız yaxşılıq eləyir ki? Təmənnasız yaxşılıq eləyənlərə də kimsə inanmaq istəmir! Dəhşətdi!» Belə düşünə-düşünə hiss elədi ki, əynindəki paltar onun vücudunu sıxıb yandırır, başındakı şal boyun-boğazını qarsıb alovlandırır. Hirsindən-hikkəsindən, Cabbara cavab verib qəzəbləndirmədən, əl atıb şalı başından

açdı, paltonu çıxartdı, döşəməyə atdı, murdar bir şey ayaqlayırmış kimi, tapdalamağa başladı. Gözlərindən gildir-gildir yaş axırdı; tor pərdə arxasından Cabbara nəzər saldı. Cabbarın kirpikləri enmişdi. Çənəsi sinəsinə yapışmışdı. Heyran paltarları ayaqlayırdı və istəyirdi ki, Cabbar da bunu görsün. Ancaq Cabbar baxmırdı. O, qeyri-iradi qışqırdı:

— Dincəl. İndi dincəl. Mənə heç kəsin heç şeyi lazım deyil. Eşidirsən, heç kəsin, heç kəsin!!

—…

— Sən məni Əbdülə qısqanırsan? Utanmırsan heç, Cabbar?!

—…

— Niyə dillənmirsən? Zəhərini töküb dincəldin, toxtadın?

—…

Cabbarın susduğunu, qımıldanmadığını görəndə Heyran səsini xırp kəsdi, hardansa qəlbinə müdhiş bir qorxu axıb doldu və bu qorxu içində o, Cabbarın taxta çarpayısına yanaşıb üstünə əyildi, nəfəsini dinşədi. hənirti gəlmirdi. Heyran əlini onun alnına qoydu və astaca silkələdi:

— Cabbar, Cabbar!..

Cabbardan səs çıxmadığını görəndə o, birdən-birə hər şeyi başa düşdü: o keçinmişdi. Heyran vəhşi bir səslə: «Cabbarım!»— deyə qışqıra-qışqıra özünü bayıra atdı...

SƏKKİZİNCİ FƏSİL

Zərrintac xanım boş və mənasız bir həyat keçirirdi. Günləri ağır-ağır, yeknəsəq və sevincsiz ötüşdükcə qəlbinə vahimə çökür. Doğrudanmı həyatının beləcə sıxıntı, təklik məngənəsində sovuşub gedəcəyini ağlına gətirdikcə məyuslaşırdı; hər şeyə biganə olmuşdu. Bir vaxt Elməddinin gördüyü işləri özü yerinə yetirirdi — xeyli müddət bu, onun başını qarışdırır, günlərin hardan gəlib hara getdiyindən xəbəri olmurdu. Ancaq az sonra bu da onu yorub usandırdı. Kinolar da, şirkətin sexlərini gəzmək də. hər şey, hər şey ona artıq bir yük-kimi görünməyə başladıqda o, «belə olmaz, bir çarə tapmaq gərəkdir!» — deyə qərara aldı. Lakin nə etməli? Günlərlə, həftələrlə

götür-qoy elədi, ölçdü-biçdi, ancaq axırını bir yana çıxara bilmədi. Gah istədi bu ev-eşiyi satıb atasının xanimanına qayıtsın, Əbdülün yanına! Uşağı özü saxlayardı, Əbdülə isə Elməddinin vəzifəsini həvalə eləyərdi. Yox, bu mümkün deyildi. Əvvələn, ona görə ki, onun uşaq saxlamağa hövsələsi yox idi, ağlayanda, qışqıranda, sözünə baxmayanda vurub şikəst elərdi yazıq uşağı. O isə özgə deyildi, atasının yadigarı idi. İkincisi ona görə ki, Əbdülün qətiyyən savadı, yazı-pozusu yox idi, təbii ki, o, Elməddinin vəzifəsinin öhdəsindən gələ bilməzdi, yox, bu variant qətiyyən Zərrintac xanımı təmin eləmirdi. Məhz buna görə də iki-üç gün bu barədə düşünəndən sonra bir daha onun üstünə qayıtmamağı qərara aldı.

Siracəddinin təklifini eşidəndə Zərrintac xanımın ayağı lap yerə yapışmışdı. O, yalnız bundan sonra bu kidi dünyanın son dərəcə mürəkkəb, baş çıxarmaq mümkün olmayan qəribə bir aləm olduğunu dərk edib həyata, insanlara çirkin, alçaq, murdar bir varlıq kimi baxmağa başladı. O dəhşətli, ağılsız gecədən — Siracəddin onun yanında olduğu gecədən iki ay sonra kişi qəribə bir həyasızlıqla, əslində isə heç bir şey olmamış kimi, Zərrintac xanıma təklif etmişdi ki, əgər razılıq versə, onu kiçik qardaşının böyük oğluna alardı. Tərifləyirdi qardaşı oğlunu: «Gözəldi, ağıllıdı, əsl sənin adamındı. Tək qalmaq sənə qətiyyən əl verməz, xanım, — deyirdi, — gözəlsən, həm də subaysan. Bu şəhərin yaman adamlarının dilinə-ağzına düşmək dəhşətdi. Sonra dünya dağıla o pis, ləkəli adı üstündən götürə bilməzsən, xanım. Həm sənə qulaq yoldaşı olar Sultan xan, həm də sənin işlərini görər. Bu iş ki, indi sən görürsən, qadın işi deyil, bala. Sən gəl razılıq ver, bu xeyir işi qurtaraq!» — deyirdi Siracəddin. O danışdıqca Zərrintac xanım dinləyir, utandığından kişinin üzünə baxa bilmir, ürəyində düşünürdü ki, bu necə alçaq kişidi, necə şəxsiyyətsiz-heysiyyətsiz insandı. İçərisində ona qarşı sonsuz bir qəzəb, kin qaynadı, bu söhbət küçədə olmasaydı, Zərrintac xanım bəlkə də onun üzünə tüpürərdi, bəlkə də qadın olduğuna baxmayaraq, Siracəddini — bu qoca köpəyi ayaqlar altına salıb təpiklərdi. Həm o gecənin acığını çıxardı ondan, həm indi dediyi sözlərin! Lakin heyf ki, küçədəydilər. Gələn-gedən çoxdu, tanış-biliş çoxdu. Buna görə də o, kəsilə-kəsilə Siracəddinin sözlərini dinləməli olmuşdu. Əlbəttə,

Zərrintac xanım o qədər də ağılsız deyildi ki, Siracəddinin bu alçaq təklifi nə üçün elədiyini başa düşməsin — təbii ki, o, qızın atasından qalan var-dövləti ələ keçirmək üçün bu iyrənc təklifi eyləyirdi, özü də yəqin ki, bu fikir ağlına son vaxtlar gəlmişdi, əvvəlcədən elə məqsədi olsaydı, şübhəsiz, o gecəki addımı atmazdı, adi havavühəvəs üçün milyonları ələ keçirmək yoluna sədd çəkməzdi.

Zərrintac xanım maşının açarını əlində oynada-oynada kinayə ilə Siracəddindən soruşdu:

— Sultan xan sənin doğma qardaşın oğludu, ağa? Zərrintacın məqsədini anlamadığından Siracəddin tələsik cavab vermişdi:

— Bəli, xanım. Dost-doğma qardaşımın oğludu, xanım. Ləyaqətli... — Zərrintac xanım onun sözünü kəsmişdi:

— Bəs... siz nə ürəklə məni... — o, ani olaraq susmuşdu, sözünü demək istəməmişdi, ancaq bu onun təbiətinə zidd idi, ağlına gələni deməli idi, ona görə qəzəbli bir tərzdə: — yatağına girdiyiniz bir qadını öz qardaşınız oğluna almaq istəyirsiniz, ağa, bunu sizin müsəlman vicdanınız necə qəbul, eləyir, ağa? — demişdi. Bu sözləri eşidəndə ağayi Siracəddin bir anlığa özünü itirmişdi, söz tapa bilməyib kəkələmişdi, ancaq sonra, özünəməxsus sırtıqlıqla ən adi bir şeydən danışırmış kimi sözlərini uzada-uzada söyləmişdi:

— O... Siz... xanım... Elə şeyləri unudun getsin. Mən çoxdan unutmuşam, xanım. O da bir iş idi, oldu keçdi... Bir də... Mən onu... Sultana deməyəcəyəm ki... Ümid eləyirəm, əgər bu sevdamız baş tutsa, siz də deməzsiniz, öz mənliyinizə sığışdırmazsınız, elə deyilmi?.. O, bilməyəcək, ömrü boyu bilməyəcək.

— Ancaq mən bilirəm, sən bilirsən, ağa!. Tfu sənin vicdanına, tfu!.. —deyərək ondan ayrılmış və iti addımlarla maşına sarı gəlib minmişdi. Ancaq Siracəddin əl çəkməmiş, onun dalınca gəlmiş, maşının pəncərəsinə ağzını tutub ucadan demişdi:

— Hər halda fikirləşin, xanım. Sizin cavabınızı gözləyirəm, xanım...

— Vicdansız adam!..

— Xi, xi...

Zərrintac xanım hirsindən, hikkəsindən maşını küçələrdə dəli kimi, sərxoş kimi sürmüşdü, hara getdiyini, niyə getdiyini bilmə-

mişdi, yol boyu bu qərara gəlmişdi ki, bu mühit neçə də iyrəncdir, burdan qaçmaq, uzaqlaşmaq lazımdır. Ancaq hara? Xaricə? «Xaricə?» Bu söz beynində fırlandıqca gözünün qabağında reklamlarla alışıb-yanan, təmiz, səliqəli, mədəni bir şəhər canlanmışdı, orda heç kəs səni tanımır, təhqir etmir, keçmişindən, atanın ad-sanından qorxmursan, ürəyin istəyəni eləyə bilərsən, arzunca gəzib-dolana bilərsən — kimsə səni qınamaz, danlamaz, arxanca gülməz!! Pulu vardı — ömrünün axırınacan bəs eləyə biləcək qədər pulu vardı Zərintac xanımın. Lakin atasının şirkətlərini müəssisələrini necə qoyub getmək olardı, onların işini, pulunu, dərd-sərini kimə tapşırmaq olardı?! Bax, o gözəl, rahat, arxayın yolun — xaricə uzanan yolun qabağını belə əsaslı bir əngəl kəsmişdi. Bəlkə hər şeyə tüpürüb getmək? Yox, ağılsızlıq olmazdımı? Bu, onun var-dövlətinin üstünə sel kimi axıb tökülən puldan imtina eləmək olmazdımı?

Nəhayət, Zərrintac xanım çox düşünüb-daşınandan, nəticəsi necə olacağı bilinməyən bir fikrin işığına isinib toxtadı; Elməddin kimi evsiz-eşiksiz, ancaq zirək, yazı-pozu bilən, az-çox tanıdığı, etibar elədiyi, təmizliyinə inandığı bir adam tapmaq, o tək evi də, xidməti maşını da, bütün iş-gücü də ona həvalə etmək, vəkalət vermək, pul-maliyyə əməliyyatlarını tapşırmaq! Bax, ancaq bu yolla Zərrintac xanım əl-ayağına dolaşan bu müəssisələrin, şirkətin əlindən yaxa qurtara bilərdi. Başqa çıxış yolu ağlına gəlmirdi. Ancaq hanı elə adam? Təmiz, ağıllı, etibarlı.

Fikrən, xəyalən tanış-bilişi saf-çürük eləməyə başladı, ancaq elə bir münasib adam üstündə qərar tutub dayana bilmədi. Gecə səhərəcən baş sındırsa da, nəticəsi olmadı. Ertəsi günü, çay-çörəyini yeyəndən sonra Nəssaci kombinatına girərkən fikrinə gəldi ki, bəlkə elə öz işçilərindən birini—bacarıqlısını seçib bu işləri ona həvalə eləsin? Kombinatda gəzərkən, fəhlələrlə, texniki işçilərlə söhbət edərkən onların hamısına neçə deyərlər, müştəri gözü ilə baxır, lakin hərəsində bir eyib tapıb üstündən keçirdi. Çıxhaçıxda, nəhayət, gözü birini tutdu; bu, Nəssaci kombinatının texniki, neçə illər burada səs-siz-səmirsiz işləyən, sakit, başıaşağı, verilən tapşırıqları sözsüz-sovsuz yerinə yetirən Sübhan idi. Sübhanın iyirmi beş yaşı vardı, qəşəng, boylu-buxunlu bir oğlan idi, Zərrintac xanım dəqiq bilmirdi,

amma deyəsən hələ də subay idi. Evli olmamasını bundan təxmin etmək olardı ki, Sübhan, nə vaxt gəlsəydin, buralarda idi — əyninə kombinezon geyərdi, əlində açar, kəlbətin dəzgahların arasında hərlənərdi. Hər hansı texniki nasazlığı o dəqiqə aradan qaldırar, boş dayanma hallarına yol verməzdi. Hətta iş saatı qurtaranda, qız-gəlin ilan ağzından qurtarmış qurbağa kimi ev-eşiyinə, bazara-dükana tələsəndə də Sübhan tələsməzdi, dəzgahları yoxlar, əl-üzünü yuyub paltarlarını dəyişəndən sonra kombinatdan çıxardı. Son zamanlar Zərrintac xanımın bura tez-tez gəlib getdiyindən işçilərinin vəziyyəti ilə, işə necə can yandırıb-yandırmaması ilə üzdən də olsa tanış olmuşdu, elə Sübhana da axır vaxtlar nəzər yetirməyə başlamışdı. Bir də Sübhan onun yadında ona görə qalmışdı ki, hər dəfə Zərrintac xanımı görəndə o, nə üçünsə özünü itirirdi, hərəkətindən, baxışından aydın bilmək olurdu ki, o, Zərrintacdan nə isə qorxur. Bunu Zərrintac gəlişinin ikinci ya üçüncü dəfəsində hiss eləmişdi, ancaq qətiyyən özünü o yerə qoymamışdı, daha doğrusu, əhəmiyyət verməmişdi. Bu fikir ağlına gələndən sonra isə Zərrintac xanım Sübhana üç-dörd gün də xəlvət diqqət yetirmiş, söhbət əsnasında sərincinardan, fəhlələrdən onun barəsində bəzi şeyləri öyrənə bilmişdi. Subaylığı, təkliyi, ərə getmiş kiçik bacısından başqa bir kimsəsi olmadığını, səkkiz sinif həcmində savadı olduğu və s. Zərrintac xanımı təmin edirdi. Onun barəsində məlumat topladığı, hərəkətlərinə fikir verdiyi bu günlərdə Zərrintac xanım arada bir-iki dəfə də Sübhanı öz əri kimi də təsəvvür eləmişdi — cavan idi, qəşəng idi, geyindirsən, kecindirsən, oturub-durmağı öyrətsən, o, heç də pis ər olmazdı. Ancaq yox, Zərrintac xanım, Elməddindən sonra, daha doğrusu, Elməddinin onun başına gətirdiyi oyundan (o, belə düşünürdü) sonra, ərə getmək, taleyini kiməsə tapşırmaq məsələsini həyatının gündəliyindən birdəfəlik çıxartmışdı. Kişi deyilən məxluqa tabe olmamaq, ona həmişə yuxarıdan aşağı baxmaq, incitmək, əzib məhv etmək, əzə-əzə intiqam almaq, süründürmək —Zərrintacın qərarı belə idi, bu qərar, ağayi Siracəddinin o iyrənc hərəkətindən və son təklifindən bəri daha da möhkəmləşib qətiləşmişdi. «Kişi qadının həyatında, ömründə daimi məskən salmamalıdır, bu, adamı bezdirir, usandırır. O sənin gec gəlib tez gedən qonağın olmalıdır, sənin

hakiminə, ağana çevrilməməlidir, onu həmişə ürəyində də, evində də, yorğan-döşəyində də aşağı başda oturtmalısan, sən ona yox, o sənə tabe olmalıdır. Həmişə qorxu içində yaşatmalısan onu — bax indicə, bax bu gün atılacağından, qovulacağından, başqası ilə dəyişiləcəyindən qorxa-qorxa yaşamalıdır kişi! Çalışıb bağlanmayasan, vurulmayasan kişiyə, bağlandınmı, vuruldunmu, uduzdun, qula döndün, hakimiyyətini əldən verdin demək».

Zərrintac hərdən belə düşünməyinə özü də təəccüb eləyirdi, bu qəbil fikirlərin hardan axıb beyninə dolduğuna heyrətlənir, bunların doğru olmadığına inanmaq istəyirdi, ancaq azca sonra «yox, belə yaxşıdır, belə düzdür, mən belə yaşamağı daha üstün tuturam!» — deyirdi.

Nəhayət, elə bir gün gəldi ki, Sübhan haqqında fikrini qətiləşdirdiyini anlayıb, kombinata növbəti səfəri zamanı, toxuculuq dəzgahının böyründə nəyisə yağlayan, gözaltı, xəlvət-xəlvət sərincinarla söhbət eləyən Zərrintac xanıma baxan Sübhana yaxınlaşıb bütün bu müddət ərzində birinci dəfə dedi:

— Bir saatdan sonra Dəftərdə, mənim yanımda olarsan! Gözləyəcəyəm, səni.

— Beçeşm, xanım! — dedi Sübhan, lakin bu təklifin nə üçün edildiyini, nə demək olduğunu anlaya bilmədiyindən çaşqın halda dəzgahların arası ilə uzaqlaşan xanımın dalınca baxa-baxa qaldı. İstədi sərincinardan soruşsun, lakin onun əzvayişindən başa düşdü ki, bu dəvətdən xəbəri yoxdur. Ona görə sərincinara heç nə söyləmədi, yanında şəyird işləyən oğlana lazımi tapşırıq verib yuyunmaq, paltarlarını dəyişmək üçün kombinatın həyətindəki balaca otağa keçdi.

Düz bir saat keçmiş Sübhan Zərrintac xanımın qabağında əyləşmişdi. Sübhanın əynində təzə olmasa da, təmiz mil-mil kostyum vardı. Köynəyi xaki rəngli parçadan tikildiyindən köhnəmi-təzəmi olduğu o qədər də bilinmirdi. Üzü səliqə ilə təraş edilmişdi, nazik, qara bığı burnunun uzun olduğunu bilinməyə qoymurdu. Zərrintac xanım nə isə oxuyurdu, hələ söhbətə başlamamışdı. Əslində isə o qəsdən özünü məşğul kimi göstərir, gözaltı Sübhanı nəzərdən keçirir, səbrini-təmkinini yoxlayırdı. Beş-on dəqiqə sonra o, əlindəki qələmi yerə qoyub oxuduğu kağızı kənara itələyərək Sübhana baxdı. Sübhan

Zərrintac xanımın ona zillənən iti, yoxlayıcı baxışları altında əzilə-əzilə dizinin üstünə qoyduğu iri əllərini yanına salıb gizləmək istədi. Zərrintac xanım, nəhayət, iltifat edib dilləndi:

— Sübhan, sən evlisən?

Sübhan işə aid sual gözləyirdi, daha doğrusu, qorxurdu ki, xanım onu kombinatdan çıxarmaq üçün bura çağırıb və indicə bu barədə ciddi söhbət eləyəcək. Zərrintac xanımın bu sualını eşidəndə o qorxu çəkilib getmədi, əksinə bir az da qüvvətləndi: «Uzaqdan başlayır, xanım!» — deyə ürəyindən keçirib sakitcə:

— Xeyr, xanım. Evli deyiləm, — dedi.

— Niyə evlənməmisən?

— Nə bilim, xanım.

— Evin yoxdur?

— Bir kiçik daxmam var!

— Kimlə yaşayırsan orda?

— Tək, xanım. Mənim heç kəsim yoxdur. Bir bacım var, o da Qəndəharda ərdədir.

— Demək, tək-tənha yaşayırsan?

— Bəli, xanım.

— Bəs niyə yanında işləyən o toxucu qızlardan birini almırsan, Sübhan?

— Yanımda işləyən qızlardan?

— Hə də.

— Onların çoxunun əri, uşağı var, xanım?

— Subay qızlar da var axı orda.

— Düzdü, var.

— Bəs niyə onlardan birini seçib almırsan?

— Nə bilim, xanım.

— Xoşuna gələni yoxdur heç?

Sübhan utancaq nəzərlə xanıma baxıb başını aşağı saldı.

— Utanma, Subhan. Məndən utanma. Sənin haqqında mənim fikrim başqadı. Hə. Demək, xoşuna gələn yoxdur, heç?!

— Yox, xanım. Düzü, yoxdur, xanım.

Zərrintac xanımın üzü nə üçünsə işıqlandı, Sübhana şirin bir təbəssümlə gülümsündü.

— Demək, sənlə işləyən qızları bəyənmirsən? Bəs sən necə arvad istəyirsən, Sübhan?

Sübhan qızarıb başını aşağı saldı, xanımın belə açıq-saçıq danışmağı ona çox qəribə görünürdü. Sübhanın bu cür arvadlardan zəhləsi gedirdi, əgər qabağında oturan Zərrintac xanım deyil, başqa birisi olsaydı, Sübhan iki-üç kəlmə ağır söz deyər və durub qapını da üzünə çırparaq gedərdi. Lakin heyf ki, indi o, bunu edə bilməzdi. Çünki o, vaxtilə xatirini çox istədiyi, əsl kişi saydığı Nəcməddinin qızı idi, həm də onun —Sübhanın böyüyü, çörək verəni idi. O, eyni zamanda, beynində dolandırırdı ki, bunlar — yəni Zərrintac kimi xanımlar həmişə belə olurlar, utanmırlar, çəkinmirlər, abır-həya gözləmirlər. Ona görə ki, dövlətlidirlər, özlərini hamıdan ağıllı, hamıdan qüdrətli sayırlar.

— Hə, sən necəsini istəyirsən arvadın? — deyə o, Sübhanın qızarıb qaldığını görərək sualını təkrar eləyəndə oğlan asta səslə:

— Heç cürünü, xanım! — dedi. — Mən hələ o barədə fikirləşməmişəm, düzü belədi, xanım. Evlənmək üçün çox şərtlər var, bilirsiz. Pulun olsun gərək, evin-eşiyin olsun gərək, aldığın arvadı kişi kimi saxlaya biləsən gərək, xanım. Buna isə mənim hələlik imkanım yoxdur.

— Demək, imkanın, şəraitin olsa evlənərsən, eləmi?

— Əlbəttə, xanım. Şəraitim olsa; mən deyən münasib qız olsa, yalnız o zaman evlənərəm. — Sözü bura çatanda o, heç özü də gözləmədiyi halda, birdən ağlına gələni dilinə gətirib zarafatyana soruşdu: — Yoxsa, xanım, məni evləndirmək istəyirsiniz?

Zərrintac xanım onun belə açıq sualından xoşhallanıb ucadan güldü:

— Ağıllı oğlan olsan, mən deyən adam olsan, səni evləndirərəm də, Sübhan. Niyə evləndirmirəm ki?

Sübhan yenə sifətini ciddiləşdirdi: «Yox, işdən-filandan qovmaq fikri yoxdu xanımın. Nəsə başqa dərdi-səri var. Bəlkə... bəlkə özünü...» deyə beynində dolandırdığı fikri axıra çatdırmağa qorxdu və Zərrintac xanımın sürməli, işıqlı gözlərinə baxıb:

— Ağıllı oğlan olsam? — deyə soruşduqda Zərrintac xanım uzun, rəngli barmağını stolun üstündəki şüşəyə tıqqıldadaraq:

— Hə, — dedi. — Ağıllı oğlan olsan. Sən necə, özünü ağıllı oğlan hesab edirsənmi, Sübhan?

Sübhan çətinlik çəkdi, çiyinlərini ehmalca qaldırıb:

— Nə deyim, xanım? Adam özünün ağıllı olub-olmadığını deyə bilmir. Bunu ancaq kənar adamlar, başqaları görüb qiymətləndirə bilər, — dedi.

— Düzdür, Sübhan. Sən özün indi desəydin ağıllı oğlanam, bu mənə xoş gəlməzdi. Belə deməyin göstərir ki, sən həqiqətən ağıllı oğlana oxşayırsan.

Yalnız bundan sonra Zərrintac xanım ürəyindəkiləri, planlarını açıb Sübhana dedi. Sübhan əsas mətləbi başa düşəndən sonra bayaqdan vücudunu sarıb sıxan, nigarançılıqdan qurtardı. Zərrintac xanım danışdıqca Sübhanın gözləri parıldayırdı, xəyalında tamamilə yeni — yatanda belə yuxusuna girməyən bir aləm canlanırdı. Çox olmuşdu ki, Elməddin—bəy balası kimi tər-təmiz, səliqəli geyinmiş Elməddin kombinata qara maşında gələrkən Sübhan—həm də tək onu? — ona həsəd hissilə baxmışdı. Onda hamı deyirdi: «Yetimin, kimsəsizin biridi, ancaq bəxtinə bax. Düz deyiblər: kiminin əvvəli, kiminin axırı. Padşah balasına oxşayır.» Və sexlərdə, dəzgah arxasında deyilən belə sözləri Sübhan çox eşitmişdi. İndi o səadət Sübhanın özünün üzünə gülürdü. Xanımın arxayın inamla dediyi sözlər ona həqiqətdən çox nağıl, yuxu təsiri bağışlayırdı, inanmaq istəmirdi hətta. Ancaq bunları Zərrintac xanım deyirdi, ona necə inanmaq olardı? Bu boyda zarafat olmazdı axı? Həm də Elməddinin gördüyü iş o qədər də çətin deyildi, onu Sübhan da görə bilərdi. Əvəzində isə ev, yüksək maaş, maşın... Yeni həyat...

— Bir sözlə, mən səni öz vəkilim eyləyirəm, bütün işləri sənə həvalə eyləyirəm, Sübhan. Sənin düz və halal oğlan olmağına inanıram. Əvvəl azca çətinlik çəksən də, eybi yoxdur, öyrəşəcəksən. Səni tam ixtiyar sahibi eləyirəm, Sübhan nə qədər yaxşı işləsən, o qədər pulun da çox olacaq. Mən qəpik-quruş güdən deyiləm. Sən mənim balaca qardaşım Nəcməddin on səkkiz yaşına çatanacan— hələ ona çox var — ağayi Nəcməddinin işlərini aparmalısan. Əlbəttə, ağıllı olsan, elə hesab et ki, bu şirkətlər, bu müəssisələr sənin özünündür, Sübhan. Mən səni maldan, puldan qane eləyəcəyəm,

dünyada heç nəyin dərdini çəkməyəcəksən. Yaşamaq üçün sənə daha nə lazımdır, Sübhan??

—…

Sübhan gözlənilmədən qapısını döyən bu səadətdən elə bil lal olmuşdu. Ancaq gözləri də, sifəti də? «heç nə» deyirdi, «Razıyam!» — deyirdi Sübhanın. Zərrintac xanım təkid edib ağıllı-başlı cavab istəyəndə Sübhan dili-topuq vura-vura:

— Xanım deyəndən sonra... Mənim nə ixtiyarım var!—dedi.

DOQQUZUNCU FƏSİL

Təklik dəhşətli şeymiş! Bunu Heyran əvvəllər bilməzdi, deyən olsaydı, inanmazdı. Ancaq biçarə Cabbarın o qarlı gündə ölümündən sonra keçən bu yalqızlıq aləmində Heyran dünyada kimsəsiz qalmağın, dörd divar arasında tənha yaşamağın nə demək olduğunu anlamışdı, böyüklü-kiçikli, qonaqlı-qaralı olmamışdı, Cabbar səhər gedib axşam yorğun-ərğın qayıdıb gəlmişdi. Bütün günü evdə, həyət-bacada tək qalan Heyran onda heç vaxt özünü yalqız hesab eləməmişdi. Cabbarın axşam, yataqda dediyi bir xoş sözü, bir isti nəvazişi bütün günü yadına salıb rahatca gəzib-dolanmış, səbirsizliklə ərinin işdən qayıtmağını gözləmişdi. Cabbar xəstələnib yatağa düşəndə də o, gah ərilə danışmış, gah da ürəyində allahla həsb-hal eləmiş, ona cansağlığı diləmişdi. Hər iki halda Heyranın başını qarışdıran, ona tək olmadığını hiss etdirən bir şey olmuşdu. Ancaq indi...

Cabbar gözünün qabağında ölmüşdü. Onun qışqırığına yığılıb gələn qonum-qonşu—ağsaqqallar, qoca arvadlar Cabbarın ağır xəstəlikdən öldüyünü zənn edirdilər. Təkcə Heyran bilirdi ki, o, xəstəlikdən ölmədi, bu xəstəliklə hələ çox yaşaya bilərdi, məsələn, hələ beş il də yaşaya bilərdi. Heyran yaxşı bilirdi ki, Cabbarın bağrı çatladı, öldü; əgər onu yarsaydılar, tibbi muayinə eləsəydilər, mütləq təyin edərdilər ki, Cabbarın ürəyi partlayıb! Heyran cənazənin üstündə saç-birçəyini yola-yola, üz-gözünü cıra-cıra ağladıqca, «Cabbarım!» deyə ağı söylədikcə bu məşum hiss — özünün günahkar olmağı hissi azalmırdı və onun ürəyini, beynini yandırırdı. Qonşulardan

yığılıb gəlmiş beş-altı kişi, Cabbarı yuyub kəfənə bükərək, günortadan sonra dəfn eləməyə aparanda da, yaxınlıqdakı qəbiristanda torpağa tapşırıb geri qayıdanda da, yasa gəlmiş beş-on qonşu arvad gecə saat onda dağılışıb evlərinə-eşiklərinə gedəndə də, on beş-on altı il ərzində ilk dəfə damın altında tək-tənha qalıb gecə səhərəcən göz qırpmayanda da, bir-birinin dalınca çox böyük ləngərlə ağır-ağır ötüb keçən bu qırx gün müddətində də—heç vaxt, bircə an da olsa o məşum günahkarlıq hissi Heyranı tərk eləməmişdi, onu köz üstə atılmış ət parçası kimi - cızhacızla yandırmışdı. Qəribə idi, Cabbarla yaşadığı on beş ilin acılı-şirinli xatirələrindən indi bircəciyi də yada düşmürdü; yada düşən ancaq onun ölümqabağı keçirdiyi çılğın vəziyyət idi. — Heyranın təzə paltarda əlidolu qayıdarkən gördüyü anlarda düşdüyü vəziyyət idi. Bəli, on beş illik həyatdan ancaq bu qalmışdı Heyran üçün. İlahi, o da elə ağır idi, elə yandırıcı idi—isti yaranın üstünə səpilən duz kimi cızdağını çıxarırdı. Bu, cəmi üç-dörd dəqiqə çəkməmişdi heç. Amma bir ömrün, özünə görə xoş olan bütün şirinliklərinin, gözəlliklərinin üstündən xətt çəkmişdi. İnsan necə də anlaşılmaz məxluq imiş! On beş ildə Heyran bircə dəfə də olsa, Cabbarda belə sifət görməmişdi, hirsləndiyini, ona güldən ağır bir söz dediyini eşitməmişdi, duymamışdı. Amma onda Cabbar tamam başqa adama çevrilmişdi, tanınmalısı qalmamışdı. Yəqin onun o dəqiqələrdə iqtidarı olsaydı, durmağa taqəti olsaydı, vücudu sözünə baxsaydı, Heyran Cabbarın daha başqa snfətlərini də görə bilərdi. Yəqin ürəyində tüğyan eləyən o lənətə gəlmiş qısqanclıq hissi ilə vücudunun qüdrəti uyğun gəlmədiyinə görə, hirsindən, hikkəsindən ürəyi partlamışdı Cabbarın. Bu faciənin əgər yarısı qəzəbindən baş vermişdisə, yarısı da gücsüzlüyündən, zəlilliyindən meydana gəlmişdi.

Bunlar indi — Heyran tək qalandan sonra bütun incəliklərinə qədər xəyalında varaqlanıb dönə-dönə oxunur, onda gah təəssüf, göz yaşı, gah da qəzəb və təəccüb doğururdu. İndi vaxt çox idi, indi mane olan, qulluq tələb eləyən, ağrıdan zarıyan yox idi; bu da qəribə idi ki, bəzən bu yoxluğu görəndə, hiss eləyəndə Heyranın gözlərindən ixtiyarsız yaş süzülürdü, onun çarpayısını boş görəndə kirpiklərini endirirdi; bəzən isə, bu yoxluqdan, boşluqdan sevinən kimi olurdu —

bu isə ən çox Cabbarın həyatının son anlarını, o ağır sözlərini, qışqırığını xatırlayanda olurdu. Belə anlarda, çox anlaşılmaz idi ki, o, Cabbara da, özünə də nifrət eləyir, dünyanın ən alçaq adamı kimi baxırdı. Ərinə də, özünə də belə həqarət gözü ilə baxanda isə zülüm-zülüm ağlayırdı, varından yox olurdu, elə bilirdi ki, Cabbarın dalınca özü də ölüb və öz ölümünə ağlayır!

Günlər ötüb keçdikcə Cabbarın son anlarında qışqıra-qışqıra, sonsuz nifrət hissilə (bunu Heyran indi başa düşürdü) dediyi o ürək sındıran sözlərin əks-sədası azalmırdı, tərsinə, getdikcə daha güclənir, daha tikanlı olur, Heyranın mənliyini, içərisini, heysiyyətini cırmaqlayıb qanadırdı. Elə bil o sözlər dər-divara yazılmışdı, vaxt-bivaxt eynən o cür, o aydınlıqla, o kəskinliklə təkrar olunurdu. Onları eşitməmək üçün Heyran qalan ömrünü verərdi. Lakin bu, mümkün deyildi. Cabbar özü getmişdi, o acı sözləri qalmışdı və görünür, elə həmişəlik qalacaqdı; çünki dər-divara yazılmışdı, o səs o taxta çarpayıdan gəlirdi sanki.

Vaxt çox idi. Heyran düşünürdü. Cabbarı, özünü saf-çürük eləyirdi, gah onu müttəhimlər kürsüsündə oturdurdu, gah da onun yerində özünü təsəvvür eləyirdi.

Bu ölüm Heyranın bacısıgilə getməyindən başlamışmış, demə. Yadına düşür ki, o, Əbdülün yanından birinci dəfə əlidolu qayıdanda Cabbar çuxura duşmüş gözlərini geniş açaraq tavana baxa-baxa: «İlahi, elə ölmək istəyirəm?!» demişdi. Və bu sözlər havayı deyilməmişdi. Elə o anda yəqin ki, Cabbarın Heyrana olan inamı yaralanıbmış. Yadına düşür ki, elə o gün, ürəyinə ayrı heç nə gətirməyən Heyran, xəstə və üzgün ərinə canıyananlıq, mehribanlıq göstərmək üçün əyilib alnından öpmək istəyəndə o, incik halda, kəlmə belə kəsmədən başını yana çevirmişdi. Bu da şübhə imiş, bu da qısqanclıq imiş. Heyran başa düşməyibmiş.

Cabbar haqsız idi, Cabbar ağlına gəlməyən bir şeydə — xəyanətdə Heyranı — o təmiz qadını təhqir eləmişdi. Hardansa qəlbinə axıb dolan o axmaq şübhəni yoxlamaq imkanı yox idi Cabbarın. İnamını qırmağı isə Heyran bacarmamışdı. Gərək bacısıgilə getməyəydi? Pulu Əbdüldən almayaydı? Axı bəs onda da Cabbar acından ölməli idi. Son iki kartofu əri üçun qoyub getmişdi. Getmə-

yəydi? Yenə o, əri ac qalmalı idi. «Kaş getməyəydim, kaş acından öləydi, onda məni bu qədər yandırmazdı. Mən onun xatirinə, ac qalmağıma, tanımadığım bir kişiyə (bacımın nökəri olanda nə olar?) əl açmağa razı oldum, o isə mənim bu fədakarlığımı başa düşmədi, qiymətləndirmədi. Elə deyil, Cabbar, əzizim, vallah elə deyil, mənim əlimə səndən başqa indiyəcən yad bir kişinin əli toxunmayıb, nəfəsi toxunmayıb. Sənin əziz canına and içirəm, Cabbar». Heyran dəli kimi öz-özünə, gecənin bir aləmi danışarkən birdən gözü onun boş yerinə sataşır və Cabbarın «əziz canının» artıq torpaqlar altında olduğunu xatırlayıb sözünü dəyişirdi: Sənin qəbrinə and içirəm, Cabbar. Bu, belə deyil, sən düşünən kimi deyil, deyil, deyil. O bu sözləri ucadan deyirdi ki, bəlkə uzaqda qəbirnstanlıqda, qara torpaq altında uyuyan şübhəli Cabbar eşidə bildi. Eşidə bilərdimi?

Heyran daha bazara-dükana getmirdi, qonşular, yazıqları gəldiyinə görə, ona öz puluna çörək, ət, kartof alıb gətirirdilər. Əbdül verən puldan hələ xeyli qalırdı. Dəfnə az xərci çıxmışdı, ehsan verməmişdi. Kasıblar ehsan vermək qəmindən azad idilər, onları kimsə də qınamırdı. Kasıbların ehsanı — ürəyi yananların axıtdığı göz yaşları olurdu. Belə yoxsul məhəllələrində ölən çörək — qazanc gətirən idisə, onda ailənin müsibəti daha böyük olurdu. Yox, əgər qoca idisə, xəstə idisə, onda qalanların dərdi-səri bir az yüngülləşərdi, evdə yer boşalırdı, bir qarın çörək qalırdı, bir geyimlik paltar qalırdı ki, bunları tapıb əldə eləmək çox çətin idi. Ancaq Cabbarı Heyran heç cür bu arşınla ölçə bilmirdi. Cabbar onun üçün əziz olmuşdu, qulaq yoldaşı olmuşdu; o, xəstə yatdığı bu beş ildə heç vaxt ərini öz üzərində ağır yük hesab eləməmişdi. Ona görə də, indi tək qaldığı bu günlərdə Heyran Cabbarın yoxluğundan dəhşətli surətdə vahimələnir, təəssüflənirdi, ancaq əli bir yana çatmırdı; gedəni geri qaytarmaq mümkün deyilmiş, sən demə. Bu həqiqəti də — həyatın pozulmaz qanunlarından olan bu hikməti də Heyran məhz indi anlayırdı. Əbdülün verdiyi puldan xərclədikcə, qəribə bir təəssüf hissilə onun özü haqqında da düşünürdü. Hər dəfə döşəyin altından pul götürəndə o ortaboylu, dolubədənli kişi istər-istəməz gəlib yadına düşürdü; necə yaxşı adamlar varmış dünyada. O kişi, demək olar ki, ehtiyac içində boğulan bu kiçik ailəni xilas etmək üçün nə lazım idisə

eləmişdi: «Köçün, gəlin bizə, — demişdi, — bu da pul.» Bu, həqiqətən Cabbarı acından ölməkdən, Heyranı dilənməkdən, pis yola getməkdən xilas etmək demək, idi. Ancaq, əvəzində nə oldu? Cabbar bu xeyirxahlığı necə başa düşdü? Qısqanclıqdan, qəzəbdən və gücsüzlükdən ürəyi partladı biçarənin! Köçmək üçün Əbdülün verdiyi puldan müəyyən miqdarı onun dəfninə xərcləndi—köçdü Cabbar, ancaq təzə və isti evə yox, soyuq və qaranlıq torpaq altına! Hələ üstəlik, neçə vaxtdı da Əbdül yol gözləyir. Gözləyir ki, Heyran xəstə ərini də götürüb bura gələcək. Gözləyir. Qırx gündü gözləyir! Qırx gün! Dünən Cabbarın qırxı tamam olmadımı? Ey vay, gör vaxt nə tez gəlib keçir, aman allah? Demək, qırx gün, qırx gecədi ki, Cabbar qara torpaq altındadı, qırx gün, qırx gecədi ki, Heyran bu dörd divar arasında tək-tənha qalıb, öz-özüylə, boş çarpayıdan gələn o qəzəbli səslə danışır, ağlayır, yatıb durur, təzədən göz yaşı axıdır?! Demək, bir bu qədər vaxtdı da o xeyirxah insan — Əbdül onların yolunu gözləyir, gözləyir? Bəlkə də heç onlar Əbdülün yadına da düşmür. Sadəcə o fikirləşəcək ki, Cabbar razı olmadı, ona görə də gəlmədilər. Ağlına gələrmi ki, Cabbar öldü, ölərkən Heyranın qəlbini parçaladı. Yəqin bu da ağlına gəlməz ki, Cabbarı, nəticə etibarilə o öldürdü? O öldürdü? — Heyran bu, fikrindən diksindi. — «yox, Cabbarı öz qəlbiqaralığı öldürdü. Eh, mürəkkəb məsələdi — bəlkə də onun elə düşünməyə haqqı vardı. Məgər həyatda azmı elə şeylər olur? Mən səhv elədim, Cabbar, əzizim. Mən əgər ora, Əbdülün yanına getməsəydim, o paltarları geyməsəydim onda sən hələ yaşardın, Cabbar. Getməyəcəyəm onun yanına.»

ONUNCU FƏSİL

Siminbər Məleykə xanımın xoşuna gəlmişdi. Davranışından, baxışlarından, oturub-durmağından ağıllı qıza oxşayırdı. On səkkiz yaşı təzəcə tamam olmuşdu, əti-əndamı, qaşı-gözü, boy-buxunu ona baxan hər kəsdə xoş duyğu, rəğbət hissi doğururdu. Məleykə xanım uşaqlı-böyüklü, balaca otaqda qarışqa kimi qaynayan bu ailədə, oturub çay içə-içə, söhbət eləyə-eləyə gözaltı fikir verdikcə Elməddinlə Siminbəri xəyalən müqayisə eləyir, ikisinin də bir-birinə

yaraşdığı qanaətinə gəlirdi. Siminbəri Zərrintacgildə yaşayanda Məleykə xanım bir, ya iki dəfə görmüşdü — onda, pis paltarda idi, üstündə «qulluqçu» adı vardı. Buna baxmayaraq elə o zaman Simin Məleykənin yadında qalmışdı. İndi, onlarda oturduğu iki-üç saat müddətində o, Məleykəni köhnə tanış kimi qarşılamış, anasına böyük sevinc hissilə başa salmışdı ki, Məleykə xanım böyük şair Şəfinin qadınıdır. Şəfi kimi məşhur bir adamın xanımının onlara təşrif gətirməsindən hədsiz dərəcə sevindiyi üz-gözündən oxunurdu. Və bu da Məleykənin ürəyini fərəh hissilə doldurmaya bilmirdi. Məleykə fikirləşirdi ki, Zərrintac xanımdan Siminbər qanacaqlıdır. Necə deyərlər, o qədər yaxınlıq, gəl-get olmasına baxmayaraq, gəlinləri olmasına baxmayaraq, onlar qaynayıb-qarışa bilməmişdilər: elə bil, Zərrintac xanım tamam yad, uzaq bir dünyadan gəlmişdi, sanki başqa cür düşünən, başqa bir dildə danışan adam idi Zərrintac xanım. Amma Siminbərdə qəribə bir şirinlik, yapışıqlıq vardı. Bu, Məleykəni çox sevindirirdi. Anası Fatimə arvad, uzun illər qonaq qara üzü görmədiyindən, sanki çaşmışdı. Dindirəndə dinirdi, dindirməyəndə yox, o biri tərəfdən də balacalar, xüsusilə Vətənyar ondan əl çəkmir, göz açmağa imkan vermirdi.

Məleykənin gəlişinin səbəbini Siminbər təxmin edirdi. Ona görə çox həyəcanlı idi, qızarmışdı. Uşaqlar evdən çıxmadığından Məleykə mətləbini Fatiməyə açıb deyə bilmirdi. Bunu Siminbər dərhal başa düşdü və uşaqları başına yığıb yandakı balaca, təzə tikilmiş mətbəxə apardı. Yalnız bundan sonra Məleykə xanım əsl məqsədinn Fatiməyə deyə bilmişdi. Fatimə bu xəbəri eşidəndə çox şad olmuşdu. Sevindiyindən nə deyəcəyini bilməmişdi. Məlum olmuşdu ki, Elməddini bu evdə uşaqdan-böyüyə hamı sevir, adını ehtiramla çəkir. Elməddin bu evin ən əziz adamıdı; onu ailənin xilaskarı, çörək verəni, yaxın dostu kimi tanıyırlar.

— Biz istəyirik sizinlə qohum olaq, Fatimə bacı. Elməddini şükür, siz də elə bizim kimi tanıyırsınız. Tərifləmirəm, tanımasaydınız, o ki var tərifərdim. Doğrudan yaxşı oğlandı, o qız — ağayi Nəcməddinin harın qızı onu yola vermədi. Yəqin təfsilatını Simin sizə danışıb. Mən elə bilirəm ki, bu iki cavanın əl-ayağını bir yerə yığsaq, savab iş görmüş olarıq. O da tək oğlandı, biş-düşü, pal-paltarı

var. Hayana dönsə sizə də dayaq olar. Yüngül bir məclislə bu işi yoluna qoymaq istəyirik. Şəfi də, Elməddin də belə məsləhət görüblər. Məncə, qız özü razıdı. Siz də etiraz eləməzsiniz. Elə deyilmi, Fatimə bacı?

Fatimə bacı xoşbəxtcəsinə gülümsünüb başını aşağı saldı. O, əri Əhədulla ilə çoxdan bu məsələni başa düşmüşdü, xeyli götür-qoy eləmiş, axırda bu qərara gəlmişdilər ki, əgər belə bir söhbət araya gəlsə, razılıq vermək lazımdı. Elməddin Əhədullanın nəzərində çox ağıllı, iş bilən və həm də mehriban bir insan idi, belə bir adamla qohum olmaq onun üçün şan-şöhrət idi. Bu məsələni də unutmaq istəmirdi ki, Əhədulla da, onun ailəsi də indi Elməddinin çörəyini yeyir. O vaxtdan bəri Əhədulla özünü Elməddinə həmişə borclu sanır, onu görəndə sıxılır. Düzdü, Elməddin buna kiçicik bir işarə belə eləmir, əslində, özünü lap o pul, maşın məsələsini unutmuş kimi göstərir. Amma yenə də Əhədulla onun çörəyini yediyini unuda bilmirdi: Necə unuda bilərdi? Qohum olsaydılar, qaynayıb-qarışar, bir ailəyə çevrilər, əl-ələ verib yaşardılar. Odur ki, Məleykə xanımın təklifini eşidəndə Fatimə, xeyli fikirləşib qız anası kimi öz razılığını bildirdi, sadəlövhlüyündən əri ilə arasında olan söhbəti də açıb Məleykəyə söylədi. Bu, Məleykənin çox xoşuna gəldi. Fatimədə biclik, məkr yox idi demək. Ayrı qadın olsaydı, bəlkə də bu söhbəti gizlərdi, dilinə gətirməzdi. Məleykə də Fatimənin ürəyinə yatmışdı. O, Elməddinin bacısı kimi, anası kimi danışırdı, böyük adamın arvadı olmasına baxmayaraq, çox sadə geyinmişdi, adamı mehribanlıqla dindirirdi, özünü çəkmirdi. Belə adamlarla qohum olmaq Fatimənin ürəyincə idi. Yoxsa Zərrintac kimi! Siminbər Zərrintacın yanından qaçıb gələndən sonra anasına ondan—tənbəlliyindən, içməyindən, əri ilə kobud rəftarından elə şeylər daşışmışdı ki, arvadın ayağı yerə yapışmışdı. Qız var-dövlətin çoxluğundan da danışmışdı. Fatimə bunu da şirin bir nağıla qulaq asan kimi dinləmişdi. Və başa düşmüşdü ki, elə ailələrdə səadət olmur—deyənlər düz deyirlər. Demək, gör orda necə bir güzəran varmış ki, Elməddin, o qədər var-dövlətə etina etməyərək baş götürüb getmiş, hər şeydən imtina etmişdi. Bu, balaca məsələ deyildi. Məhdud da olsa öz, ağlı, dünyagörüşü çərçivəsində Fatimə bunların mahiyyətini başa düşür, qiymətləndirirdi: bir ana

kimi, qızının gələcəkdə xoşbəxt olmasını istəyir və tamamilə şükür edirdi ki, uşaqlıqdan bir gün görməyən, yarıac-yarıtox yaşayan Siminbər nəhayət, bəxtəvər olacaq, öz evi, ailəsi, səadəti olacaq. O, ailənin ilk uşağı idi, deyirlər, ilk uşaq çox vaxt xoşbəxt olur. Təki olsun.

Hər şeyi ətraflı danışıb həll eləyəndən sonra Məleykə xanım Fatimə bacı ilə öpüşüb görüşüb ayrıldıqda, Siminbər utana-utana da olsa ona yaxın gəlib:

— Gedirsiz, Məleykə xanım?—dedi.

— Hə, qızım. Deyirəm gedim yavaş-yavaş.—Onunla da iki-üç kəlmə kəsmək istədiyindən söylədi: — Məni ötürərsən, qızım?

— Əlbəttə, Məleykə xanım.

Məleykə dönüb uşaqlara «xudafiz» deyəndən sonra əlini böyründəki Siminbərin çiyninə qoyub darvaza qapısına sarı yollandı. Həyətin qarı təmizlənmişdi. Əhədullamı, uşaqlarmı qarı kürüyüb maşın keçə biləcək endə yol açmışdılar. Məleykə heç nəyə fikir vermirdi, onun baxışları Siminin içəridəki istidənmi, çöldəki şaxtadanmı qıpqırmızı qızarmış yanağına dikilmişdi. Qızın sifətində gəncliyin və gözəlliyin solmaz və təbii təravəti vardı; üstəlik gözlərində də sözlə ifadə oluna bilməyəcək bir bəxtəvərlik nişanələri rəqs edirdi. Məleykə xanım Siminin də fikrini bilmək məqsədilə addımlarını yavaşıdıb soruşdu:

— Hə, Siminbər, qızım, belə-belə işlər. Sən özün bu məsələyə necə baxırsan, qızım?

— Hansı məsələyə? — o, bilsə də təkrar soruşdu,—Hansı məsələyə, Məleykə xanım?

— Elməddinlə izdivacı deyirəm. Razısanmı? Siminbər başını aşağı salıb bir az da qızardı.

— Hə, razısanmı?

—…

— Susmaq, deyirlər, razılıq əlamətidir. Elə deyilmi?

— Əksər hallarda, hə. Ancaq mən bilən həmişə yox!

— Lakin indiki halda sənin susmağını mən yalnız razılıq əlaməti sayıram. Məhəbbət var ki, sözsüz-sovsuz doğulur, yaşayır. Mənə elə gəlir ki, sizin ünsiyyətiniz də beləcə, sözsüz-söhbətsiz

yaranıb. Belə məhəbbətlərin daimiliyinə, pozulmazlığına mən daha çox inanıram, Simin. Sən bəlkə də hələ bilmirsən, ancaq bilməlisən, başa düşməlisən — sənətkar arvadı olmaq çox çətin işdi, Simin. Onlar zahirən adi adamlardan seçilmir, ancaq əslində, tamam ayrı aləmdə yaşayan adamlar olurlar — yəni onların öz dünyası, aləmi olur. Gərək sən o aləmi az-çox duyasan, başa düşəsən, ən ümdəsi isə kağız-kuğuzu, qələmi, stolu onu sənin əlindən alan dəqiqələrdə, saatlarda, günlərdə dözəsən, qısqanmayasan, qızım. Əgər buna dözə bildin, demək o sənindi, sən də onunsan. Dözmədin, onun daxili aləminin qapısını açıb oranın əsl sahibi kimi hərəkət eləməyi bacarmadın, onda axırı ayrılıqdı, uzaqlıqdı, yadlıqdı. Onu sən nə pulunla, nə gözəlliyinlə özünə bağlaya bilməzsən, uçub gedəcək. Necə ki, Zərrintac o qədər var-dövlətiylə, o cür gözəlliyi ilə Elməddini əlində saxlaya bilmədi. Bilməzdi də. Çünki mən baxmışdım, fikir vermişdim: onda hər şey vardı — ancaq arvadlıq yox idi.

— Nə? — deyə bayaqdan Məleykə xanımın söhbətini, mühakimələrini dinləyən Simin bu son kəlamını başa düşmədiyindən nazik qaşlarını çatıb soruşdu: — Arvadlıq?

— Bəli, qızım. Arvadlıq. Sən elə bilirsən ki, hər əyninə don geyib başına ləçək bağlayan, döşü-başı olan arvaddı məgər? Yox, qızım. Necə ki hər şalvar geyib başına papaq qoyan da kişi deyil, qızım. Arvadlıq da, mən deyərdim, bir elmdi.

— Elmdi?

— Bəli, qızım. Arvadlıq, hər şeydən əvvəl, namuslu-qeyrətli olmağı bacarmaqdı, arvadlıq təmizlikdi, evdarlıqdı, kişiyə canıyananlıqdı, qulluğunda durmağı bacarmaqdı, bir sözlə, xoşbəxt eləməyi bacarmaqdı kişini, qızım. Bax, bu elmi bilən qadın, nəticə etibarilə, özünün də xoşbəxtliyini təmin etmiş olur. Siminbər Məleykə xanımın söhbətinə diqqətlə qulaq asırdı, hər sözünü yadda saxlamağa çalışırdı. Ona elə gəlirdi ki, bunlar ona su və hava kimi lazım olacaq; onun özünün də səadəti müəyyən dərəcədə bu «elmi» necə tətbiq eləyə biləcəyindən asılıdır. Məleykə xanım həqiqətən, yaxın və canıyanan bir adam kimi, istəyirdi ki, Simin dediklərini yadında saxlasın, həyatını qurarkən ağıllı olsun, gələcək ərinin səadətini təmin etmiş olsun. O yaxşı bilirdi ki, anası Fatimə, əlbəttə, savadsız

qadındı, təcrübəsi çox olsa da, görüb-götürdüyü azdı və qızına belə şeyləri deməyə qadir deyildi. Bunları Elməddinin xatirinə Məleykə xanım bəri başdan Siminbərə başa salmağı öz analıq, bacılıq borcu sayırdı.

— Mənim kişim şairdi, bunu sən yəqin bilirsən.

— Bəli, Məleykə xanım, Elməddin mənə onun barəsində çox danışıb. Siz xoşbəxt qadınsınız ki, elə əriniz var, hamı tanıyır, hamı sevir, hamı ona qibtə hissilə baxır.

— Hə, bunu mən də görürəm və ürəyim fərəh duyğusu ilə doludur. Çoxunun kənardan pərəstişkarlıqla baxdığı, qeyri-adi adam hesab elədiyi Şəfi, — sağlıq olsun görəcəksən, — çox sadə, çox adi bir adamdı, qızım. Məncə, onun böyüklüyü sənətində və eyni zamanda sadəliyində, adiliyindədi. Mən, bir qadın kimi, ömrümü ona həsr eləmişəm, uşaqlarıma həsr eləmişəm. Elə bilmişəm ki, (o da mənim bir övladımdı; mən Şəfiyə yalnız bir ər kimi, kişi kimi baxmamışam; eyni zamanda ona ərköyün, ancaq ağıllı bir uşaq kimi qulluq eləmişəm; o da mənim bu fədakarlığımı qiymətləndirib, başa düşüb, məni heç vaxt ucuz tutmayıb. Bəli, biz belə yaşamışıq, uzun illər boyu belə yaşamışıq və yəqin ki, ömrümüzün axırınacan da elə bu cür yaşayacağıq, qızım. Bunları sənə ona görə deyirəm ki, sən də bu gün-səhər ailə quranda belə işlərə, belə incə mətləblərə diqqət yetirəsən, lap ilk gündən diqqət yetirəsən. Bunlar sənə xırda məsələlər kimi görünə bilər. Ancaq bunlarsız xoşbəxtlik yoxdu həyatda, qızım. Kişi ailə həyatının ilk mərhələsində, başlanğıcında qızmar kürədən çıxarılmış isti və yumşaq dəmir kimi olur. Hansı şəklə saldın isti-isti, elə o cür də qalacaq, axıracan elə qalacaq. Elə qadın da belədi. Vaxt keçəndən, o dəmir soyuyandan sonra onu düzəltmək, istədiyin şəklə salmaq çətin olur, çox çətin, qızım — o, ani duruxdu, qızın diqqətlə qulaq asdığını görüb gülümsünərək əlavə elədi: — Bilirsən bunları sənə niyə deyirəm, qızım?

— Bəli, Məleykə bacı, bilirəm.

— Ay sağ ol, bala. İndi sən daha uşaq deyilsən, bu gün-sabah bir evin xanımı olacaqsan. Elməddin də elə Şəfi kimi bir adamdı, yəni qələm sahibidi, şairdi. Bu şairlər isə, qızım, qəribə məxluq olurlar. Mən deyərdim ki, onlar əskərdirlər, vətənin ömürlük əskər-

ləridirlər. Onlar bəzən müdrikdilər, bəzən ərköyün uşaqdılar. — Sözü bura çatanda birdən Məleykə xanım Siminbərin nazik jaketdə üşüdüyünü, kicgahındakı xırda tüklərin biz-biz olduğunu görüb: — Deyəsən, səni soyuqda çox saxladım, qızım, — dedi. — Üşüyürsən, deyəsən. Get evə, mən də gedim Elməddini sevindirim, bizdədi. Şəfi ilə oturub.

Məleykə belə deyərək qızın cavabını gözləmədən əyilib alnından öpdü:

— Sağ ol, qızım, çox şad oldum.

— Mən də...—söylədi utana-utana Siminbər.

Məleykə ondan ayrılanda bir də qızın allanmış yanaqlarına, nəsə gizləyə bilmədiyi bir səadətlə parlayan gözlərinə baxıb:

— Ürəyimə damıb, sən xoşbəxt olacaqsan, qızım!—deyərək uzaqlaşdı.

—…

ON BİRİNCİ FƏSİL

Elməddinin vəzifəsini icra etmək üçün Sübhanı seçməkdə yanılmadığını Zərrintac xanım elə ilk günlərdən başa düşüb çox sevinmişdi. Sübhan onun gözlədiyindən və təsəvvür elədiyindən qat-qat, zirək, çevik, qılıqlı və işbilən imiş. O, öz öhdəsinə düşən işləri çox tez qavramış, vəziyyətə tez uyğunlaşmışdı. Onun Elməddindən üstün cəhətlərindən biri bu idi ki, şəhərdə böyümüşdü, şəhərin, şəhər camaatının, tacir-tüccarın necə yaşadığını, nə ilə nəfəs aldığını gözəl bilirdi. Nəssaci malları satan tacirlərin yerini-yurdunu, mal dövriyyəsini, müştərilərin çoxluğunu, azlığını Sübhan azca bir əmək sərf etməklə tamam-kamal öyrənmişdi. Halbuki Elməddin bu mətləbləri bilmək üçün xeyli vaxt itirmişdi, xeyli də əsəb. Sübhan isə şəhəri beş barmağı kimi tanıdığından ona bələdçi lazım olmamışdı. Üstəlik ayrıca sürücü saxlamaq xərcindən də Zərrintacı azad eləmişdi. Sən demə, o, lap yeniyetmə vaxtı neçə il klinar[1] işləmiş, maşının dilini beş barmağı kimi öyrənmiş, sürməkdə də ustalaşmışdı.

[1] Sürücü köməkçisi.

Vaxtilə Əhədullanın sürdüyü və Elməddini gəzdirdiyi maşını o, bircə günün içində yuyub təmizləmiş, sazlamış, qarajdan çıxartmışdı. Yaşadığı evini qonşusunun təzə evlənmiş oğluna kirayə verərək Elməddinin nə zamansa yaşadığı o təkotaqlı, münasib şəraiti olan mənzilə köçmüşdü. Üst-başını dəyişmiş, geyim-kecimnnə fikir verməyə başlamış, tamam centlmen bir oğlan olmuşdu. Bunun üçün o, Zərrintac xanımdan pul istəməmişdi—özünün illərlə evlənmək məqsədilə yığıb topladığı pullardan xərcləmiş, əyin-başını düzəltmiş və tanınmaz dərəcədə dəyişmişdi. Danışdıqları gündən üç gün sonra Dəftərə gələndə Zərrintac xanım az qala onu tanımamışdı. Diqqətlə baxandan sonra onu tanıyıb razı halda gülümsünmüşdü. Bir həftə keçməmiş bütün şəhərdə, Nəcməddinin müəssisələrində hamı—tanıyan da, tanımayan da ancaq Sübhandan danışırdı. Elə bil möcüzə baş vermişdi. Dünənki kasıb, səhərdən-axşamacan əlində kiçik alət çantası toxucu dəzgahları arasında gəzən Sübhan indi par-par parıldayan amerikan maşınında gəzir, bir-bir müəssisələrə baş çəkir, işlərin gedişi ilə əsl sahibkar kimi maraqlanır, lazım olanda kimisə tənbeh edir, kimisə böyüdürdü, hər yerdə ondan danışırdılar:

— Yetimin bəxti gətirib, aşığı alçı durub.

— Ey kidi dünya, dünən bu maşında Elməddin gəzirdi, indi Sübhan gəzir.

— Yəqin ağamızın qızını da alıb.

— Bəs nə? Yoxsa onun qara qaşına, qara gözünə aşiq olub Zərrintac xanım ki, bu boyda ixtiyarı verib yetimin birinə?!

— Yox, o Sübhanı yaxın buraxmaz!

— Yaxın buraxmaq bilmirəm sən nəyə deyirsən? Kor-kor, görgör də.

— Özgə atına minən tez düşər, bala!

— Düşənəcən yenə qənimətdi, kişi! Onsuz da dünya bietibar dünyadı. Heç kəs bilmir səhər başına nə gələcək. Ona görə əlinə harda, nədə fürsət düşdü, istifadə eləməsən, axmaq adamsan.

— Düz deyirsən bala. Dünən Sübhan əlimizin altında işləyirdi, bu gün ağamızdı.

Bu söhbətlər Sübhanı yaxından-uzaqdan tanıyan kişilər arasında gedirdi. Qadınlar isə, xüsusilə bu yaxın vaxtlaracan onunla bir yerdə işləyən qadınlar tamam ayrı cür danışırdılar:

— Mən elə əvvəldən hiss eləmişdim ki, Sübhanla onun arasında nə isə var!

— Son vaxtlar xanım bura gələndə elə hey gözaltı Sübhana baxıb yanıqlı-yanıqlı köks ötürürdü.

— Elə şey olmaz, ay qız.

— Həzrət Abbas haqqı, bax bu gözlərimlə görmüşəm. Elə oğlan da onu görəndə hayıl-mayıl olurdu.

— Mən heç fikir verməmişəm.

— Eh, sən nəyə fikir verirsən, ay bədbəxt, ona da fikir verəsən. Sübhan cavandı, qəşəngdi, xanım da şorgözdü yaman. Kişilərə baxanda az qalır baxışları ilə yesin yazıqları. Bəs Elməddin yazıq niyə qoydu qaçdı onu? Elə ona görə. Çox kişipərəst arvaddı bizim ağamızın qızı! Bir kişi onun öhdəsindən gələ bilməz. Mən ölü, siz qalı, baxarsız, kec-tez Sübhanın dalından da dəyəcək. Görərsiz!

Bəli, bunlar da arvad söz-söhbəti idi. Əslində isə, nə Zərrintac xanım, nə də Sübhan belə şeylər barədə düşünürdü. Zərrintac xanım çox şad idi ki, nəhayət, özünü yorub əldən salan, əslində qadına yaraşmayan bu zəhlətökən işi başından eləmişdi, həm də Sübhan kimi ağıllı bir adamın öhdəsinə buraxmışdı. İndi tamamilə arxayın yaşamaq olardı, dərdsiz-qayğısız yaşamaq olardı. Bir azdan xaricə də, məsələn, Parijə, Londona da rahatca gedə bilərdi. Bu da qəribə idi ki, Sübhan nə qədər cavan da, qəşəng də olsa, xüsusilə fəhlə libasından çıxandan sonra nə qədər cazibədar olsa da, bir kişi kimi Zərrintac xanımın diqqətini cəlb eləmirdi. O xanımın nəzərində sadəcə Sübhan idi, sadəcə iş icraçısı qulluqçu idi, vəssalam.

Sübhan da Zərrintac xanıma başqa gözlə baxmağı ağlına belə gətirmirdi. Xanım onun ağası idi, çörək verəni idi, yatanda yuxusuna belə gətirməyən bir səadət bəxş eləmişdi ona. Qəlbi xanıma qarşı minnətdarlıq hissilə dolu idi—ancaq minnətdarlıq hissilə. O, bəzən bu səadətinə inana bilmirdi, bu ona yuxu kimi gəlirdi. Ancaq açarı cibindən çıxarıb Dəftərin qapısını açanda, maşına minib harasa gedəndə, sayıb qurtarmağa vaxtı belə çatmayan pulları aparıb banka

verəndə bunun həqiqət olduğuna inanırdı və şükranlıq duyğusu ilə Zərrintac xanımın ömrünə dua eləyirdi, atası ağayi Nəcməddinin ruhuna rəhmət oxuyurdu. Və bu yaxşılığın altından ancaq sədaqətlə xidmət etməklə çıxmaq mümkün olduğunu başa düşürdü. Zərrintac xanıma düzlük və sədaqətlə xidmət etmək: vəssalam. Bu, Sübhan başa düşürdü ki, eyni zamanda özü üçün də gün ağlamaq, gələcəyini təmin etmək idi!.. Sübhan bunları ürəyində götür-qoy eləyən günlərin birində, küçədə təsadüfən rast gəldiyi dostlarından biri — Mərdan onu yeni işi, yeni vəzifəsi münasibətilə təbrik etdikdən sonra ərkyana göz vurub:

— Deyəsən, xanımın sənin haqqında fikri başqadı, dost. Mən belə güman eləyirəm ki, o sənə ərə getmək xəyalındadır deyəsən, — dedikdə Sübhan narazılıqla başını bulayıb:

— Yox, yox! — demişdi. — O elə fikirdə olsa da, mən qətiyyən buna razı olmaram.

— Niyə? Onda axmaq olarsan, qardaş! Mən bunu qəsdən yadına salıram sənin. Sən indidən öz işlərini bu istiqamətdə qurmalısan, qəlbinə girməlisən, xoşuna gəlməlisən. Onu alsan milyonlar sənin olar. Belə bir imkandan ancaq ağılsız adamlar istifadə eləməzlər, ancaq axmaq adamlar. Sən ki ağıllı oğlansan. Sən...

— Yox, Mərdan. İstəmirəm elə milyonları. Çünki o mənim, daha doğrusu, mən onun tayı deyiləm. Deyirlər, taylı tayını tapmasa, günü ah-vayla keçər. Atalar deyib: ayağını yorğanına görə uzat! Elməddinin axırını görmədin? O, məndən pis oğlan idi? Yox. Qoydu qaçdı, baş götürüb getdi.

— Nə deyirəm, özün bilən məsləhətdi; Ancaq sonra peşman olacaqsan, onda deyərəm sənə.

İki dost arasında baş vermiş bu söhbətdən üç gün keçmiş isə, günortaya yaxın Zərrintac xanım Sübhana zəng eləyib iş-gücü ilə, vəziyyətlə ətraflı tanış olandan sonra oğlanın təəccübünə səbəb ola biləcək və əslində isə ürəyincə olan bir tapşırıq da vermişdi:

—Mən özüm səni çağırmayınca, bizə gəlmə. Eşidirsən?

— Bəli, xanım.

— Nə dolaşıq, çətin işin olsa—məncə bu da çox az-az olar— zəng elə, soruş, amma özün gəlmə.

— Baş üstə, xanım. Siz deyəndən sonra mənim nə ixtiyarım var, xanım.

Sübhan hələ də bu sözlərin mənasını həzm eləməmiş, eşitdiklərinin həqiqət olub-olmadığını dərk etməmiş, o başda Zərrintac xanımın əlindəki dəstəkdə gülüşəbənzər bir səs eşitdi, ancaq ayırd eləyə bilmədi ki, bu gülüşdü ya yox? Əgər gülüş idisə, burda gülməli nə vardı və xanım niyə açıq gülmürdü?

Çaşbaş qalmış Sübhan hardan biləydi ki, onun «Siz deyəndən sonra mənim nə ixtiyarım var?» deməsinə gülürdü xanım. Hardan biləydi?

ON İKİNCİ FƏSİL

Şəfi son iki günü çox həyəcanlı idi. İşdə də, evdə arvad-uşağının yanında da özünü nə qədər tox tutmağa çalışsa da, daxili bir gərginlik, gizli bir tələtüm vardı ürəyində. Srağagün vəzire-dərbar[1] Əli xan şəxsən lütf eləyib zəng çalaraq əlahəzrəti-humayunun onu qəbul etmək arzusunda olduğunu bildirdikdə, Şəfi heç nə düşünməyə imkan tapmadan, tələsik razılıq vermiş, əlahəzrətlə görüşmək səadətinin özü üçün şərəf saydığını söyləmişdi. Vaxtı-vədəsi cümə gününə düşürdü. Bu qəbul nə üçün idi, tək onumu qəbul edəcəkdi əlahəzrət? — Belə şeyləri soruşmaq ədəb dairəsindən kənar olduğu üçün şair heç nə xəbər almamış, qulaqları guruldaya-guruldaya dəstəyi yerinə qoymuşdu. Əsl tələtümlü anlar, saatlar sonra başlamışdı. Qarşısında oturan Elməddin Şəfinin telefon danışığından məsələnin nə yerdə olduğunu anlayıb mat-mat ustadının üzünə baxırdı. Onun yanında birinci dəfə belə iş baş verdiyindən bilmirdi ki, buna sevinsin, ya kədərlənsin! Hər halda onun fikrincə, bu, balaca məsələ deyildi—əlahəzrət bu məmləkətdə hər şer yazıb adını şair qoyanı hüzuruna çağırmırdı; bildiyinə görə, o, ancaq ən nüfuzlu, görkəmli adamları (onların da hamısını yox!) nadir hallarda, bu və ya digər münasib bir gündə, lazım bildiyi məsələ ilə əlaqədar qəbul edirdi. Ona görə də Elməddin belə hesab etdi ki, bu, ustad üçün də,

[1] Vəzire-dərbar — saray naziri.

heç şübhəsiz, bir şərəf olmalıdı, buna ancaq sevinmək olar. Odur ki, Şəfi dəstəyi asan kimi, Elməddin, ani təxirdən sonra, Şəfini təbrik etməyi lazım bilmişdi:

— Nəhayət, əlahəzrətin yadına siz də düşdünüz, ustad. Təbrik edirəm.

Elməddin bu sözləri deyərkən Şəfinin gözlərinin içinə baxmış, onlarda gözlədiyi sevincin əvəzində bir təşviş və nigarançılıq görmüş, elə söyləməyinə peşman olub duruxmuşdu. Şair mənalı-mənalı gülümsünüb:

— Çox sağ ol, Elmi — demişdi və səsindəki istehzanı gizləməyə bilmədiyindən Elməddin səhv elədiyini anlamışdı. Sual dolu gözlərini ustadın ağzına dikmiş, onun nə isə əlavə bir şey deyəcəyini gözləmşidi. Lakin şair, ayağa qalxıb cibindən siqaret çıxararaq yandırmış, otaqda var-gəl eləməyə başlamışdı. Siyasət — riyaziyyatdan qat-qat çətin elm imiş. Bu alamə düşən adam ağıllı, uzaqgörən olmaqla yanaşı, həddən artıq çevik də olmalıdı düz getdiyi yolda birdən sağa, birdən sola dönməyi, bəzən də yerində dayanmağı, hətta, lazım olarsa, geri çəkilməyi bacarmalıdı. Məqsədə çatmaq üçün siyasət adamı məhz belə olmalıdı —Yoxsa onu tez məhv edərlər, aradan götürərlər!

Şəfi gəzinə-gəzinə bunları Elməddinə asta-asta izah elədikdən sonra, qabağında dayanıb demişdi:

— Bax, sən indi məsələyə birtərəfli yanaşdın, Elməddin, mən sənin gözlərindən hiss elədim ki, məni əlahəzrətin yanına dəvət etdikləri üçün sevindin. Hətta, dedin ki, nəhayət, əlahəzrətin yadına siz də düşdünüz, ustad! Mən səni başa düşürəm, Elmi, sən yaşda olanda elə mən də belə, bəlkə bir az da dayaz düşünürdüm, qardaş! Sən yəqin o an düşündün ki, əlahəzrətin qəbuluna düşmək böyük səadətdi, hər kəs bu şərəfə nail olmur və s. Zahirən, məsələyə birtərəfli, bəsit baxanda bu, belədi. Amma dərindən nəzər salsan, bugünkü mürəkkəb daxili vəziyyəti təhlil edərək məsələlərə açıq gözlə baxsan görərsən ki, torbada pişik də ola bilər. Yəni əlahəzrət mənim qara qaşıma, qara gözümə tamaşa etmək üçün yox, tamam başqa, daha ciddi məsələlər barədə danışmağa da çağıra bilər. Başqa

sözlə desəm, mən əlahəzrətin yanına gedə də bilərəm, qayıda da bilərəm. Belə də ola bilər ki, gedərəm, amma qayıtmaram.

— Nə danışırsınız, ustad? — deyə Elməddin də həyəcanlanmışdı; ayağa durmuşdu.

— Bəli, bəli, Elmi, bizim zəmanəmiz elə mürəkkəb, qarmaqarışıq bir zəmanədi ki, gərək heç nəyə heyrət eləməyəsən, daha doğrusu, heyrət eləməli heç nə qalmayıb; qardaşım. İndi elə bir vaxtdır ki, hər gün evdən çıxarkən arvadınla, balalarınla səssiz-səmirsiz (onlar qorxmasın deyə səssiz-səmirsiz deyirəm) xudafizləşəsən, çünki axşam evə qayıtmaya bilərsən, bu gedişin son gediş ola bilər.

— Ustad, siz məni lap... sarsıtdınız! — deyə Elməddin gözləri böyümüş halda ayağının birini götürüb o birini qoyanda Şəfi ahəngini dəyişib mülayim səslə:

— Mən bunları sənə ona görə demirəm ki, qorxuzuram səni — dedi, — yox, mən istəyirəm ki, sən həyata, cəmiyyətə, insanlara, hətta özünə belə açıq gözlə baxmağı öyrənəsən, bacarasan, İstəyirəm bunu da biləsən ki, mən kimdənsə, nədənsə qorxduğuma görə belə düşünmürəm. Xeyr, Elmi. Həyatı qorxa-qorxa yaşamağa dəyməz.

Onların söhbəti xeyli uzanmışdı. Şəfi, yeri gəlmişkən, lazım bildiyi bəzi həqiqətlərin, hikmətlərin, necə deyərlər, sandığını açıb Elməddinin qabağına tökmüşdü. O, eyni zamanda bir həssas şair gözü ilə baxaraq Elməddinin onun üçün çox qorxduğunu, başına bir iş gələcəyindən vahimələndiyini duyub onu arxayınlaşdırmış, başının altına yastıq qoymuşdu. Elməddinin onun bir şair kimi, bir insan kimi, bir böyük qardaş kimi çox istədiyini həmişə hiss eləyəndə o, kövrələrdi. İndi də beləcə kövrəlmişdi Şəfi. Elməddinin ona bəslədiyi məhəbbət övladın ataya bəslədiyi dərin, diləgəlməz məhəbbətə bənzəyirdi: bu, Şəfinin şairliyinə görə idimi, xeyirxahlığına görə idimi — bilmirdi. Elməddin, şübhəsiz, ağıllı və istedadlı oğlan idi, başadüşən idi. O, öz balaları kimi, Elməddinin də taleyini düşünürdü. Elə indi də Şəfi qabağında ayaq üstə dayanmış bu qayğıkeş cavanın —on-on beş gündən sonra ailə həyatı quracaq, Məleykənin çox tərifləyiyi Siminbərlə evlənəcək Elməddinin bu çətin, mürəkkəb mühitdə gələcək taleyinin necə olacağını götür-qoy edirdi. Bir az

əvvəlki danışıqları zamanı Elməddinin heyrətlənməyindən Şəfi lap aydın başa düşmüşdü ki, o, həqiqətən hələ cavandı, həyat burulğanında hələ tamam bişib bərkiməyib. Düzdür, o, neçə il əvvəl qəryədən gələn Elməddin deyil — gözü açılıb, siyasi-ictimai həyatın bir çox qanunlarını və qanunsuzluqlarını görüb, yazılarında, xüsusən son yazılarında kəskin fikirlər, inqilabi məfkurələr söyləmək səviyyəsinə qədər yüksəlib; ən ümdəsi isə, həbsxanaya düşüb. Həbsxanaya düşmək isə mükəmməl həyat məktəbi keçmək kimi bir şeydir.

Hər halda, Elməddin də Şəfinin qayğılarından biri idi. Vəzirdərbar şairə zəng etdiyi zaman beynində sürətlə bir-birini təqib edəedə doğub-batan qayğılarının, dərdlərinin içində Elməddin də var idi. Əlbəttə, bu barədə Elməddinə heç nə demirdi, lazım da deyildi əslində. Ancaq ürəyində balalarının fikrilə qoşa onun da fikri dolanmaqda idi.

Şəfinin əlahəzrətin hüzuruna dəvət olunması xəbəri evdə də müzakirə olunanda (əlbəttə, uşaqlarsız) Məleykə xanım sevinmək əvəzinə, kədərlənmişdi. Ərinin qabağına çay qoyub özü də qənşərində oturaraq sağ əlini çənəsinə dayayıb məyus bir səslə:

— Neynir səni o? Hardan yadına düşdün o ciyəri yanmışın? — deyə xəbər aldıqda Şəfi arvadının təşvişə düşdüyünü hiss edib gülümsündü:

— Əli Tüğyan eşitsə ki, əlahəzrət məni qəbul eləyəcək, paxıllıqdan bağrı çatlar. Sən niyə sevinmirsən, arvad? — Əlahəzrət hər uşaq-muşağı qəbul etmir ki? — deyə zarafatla özünü dartıb boğdu, ovurdlarını köpürtdü, ancaq lovğalanmağın ona yaraşmadığını yaxşı bildiyi üçün pıqqıldayıb ucadan güldü. Bu, Məleykənin kefini xeyli açdısa da, ürəyinə daman gərginliyi tamam apara bilmədi. Məleykə xanım nigaran-nigaran soruşdu:

— Xeyir ola, Şəfi, doğrudan? Ağlınca bu kişi yuxusunda nə görüb?

— Yaxşı şey görər, Məleykəm mənim, nigaran olma. Sənin üçün fəxr deyilmi ki, məmləkətin şəxsi-əvvəli sənin şairini öz mübarək hüzurunda görmək istəyir?

Məleykə hiss eləyirdi ki, Şəfi gərgindi, gözlərinin dərinliyindəki kədəri təbəssümü də, zarafatları da ört-basdır eləyə bilmir. Ona görə Məleykə köks ötürüb:

— Əzrayıl balamı əlimdən almasın, istəmirəm onun verdiyi balanı, — dedi.

— Qorxma, Məleykəm, əzrayıl əlahəzrət sənin balana dəyməz! — deyə Şəfi yenə zarafatla aradakı gərginliyi lap azaltmaq istəmişdi və: — deyəsən «əlahəzrət əzrayıl» daha yaxşıdı. Necə bilirsən, arvad? — demişdi Məleykə də ona qoşulub gülmüşdü:

— İkisi də bir zibildi!

Şəfi barmağını onun dodaqlarının üstünə qoyub:

— Sss... Əlahəzrət haqqında elə danışma. Qabaqlar deyərdilər: «Yerin də qulaqları var!» İndi o məsəli belə deyirlər: «Sazmane-əmniyyənin də qulaqları var!» — söyləmişdi.

Ümumiyyətlə, şair həmin gün Elməddinlə də, Məleykə xanımla da söhbət edib təklənəndən sonra başa düşmüşdü ki, onların heç biri ilə qəlbi istəyən kimi danışmamışdı; çünki Elməddin cavan idi, Məleykə də qadın idi. Onları üzdən, elə-belə, nigaran qalmasınlar deyə bu cür başa salmışdı. Əslində isə bu dəvət, bu görüş çox yerinə düşürdü. Şəfinin illər uzunu ürəyində yığılıb cavabsız qalmış suallar, məsələlər, dərdlər, ağrılar lap çoxdan belə bir görüşün zəruri-olduğunu söyləmirdimi? Şəfi özü neçə dəfə bu fikrə düşməmişdimi? Düzdü, o, hiss elədiklərini, ürəyini ağrıdan əzabları vaxtaşırı öz şerlərində yazırdı, nəşr etdirirdi və müəyyən dərəcədə qəlbini boşaldırdı! Ancaq onları məmləkətin taleyini həll etməyə qadir olan adamlar, deyək, nəxost-vəzir, ya əlahəzrət özü oxuyurdumu? Oxuyurdusa, bəs nəticəsi hanı? Niyə məmləkətin biçarə vətəndaşlarının böyük əksəriyyəti gündən-günə sürətlə artan aclığın, səfalətin, işsizliyin qanlı, rəhmsiz pəncəsində daha çox boğulur, çırpınırdı. Əgər oxuyurdusa, bəs niyə?... Şəfi bir zamanlar bu sualların caynağında çırpınırkən onun ağıllı və müdrik dostu, indiki əfqan cəmiyyətinin ən savadlı və uzaqgörən adamı hesab etdiyi Bəbir özünə xas təmkin və məntiqlə başa salıb demişdi:

— Sən elə bilirsən ki, bu əğayi-nəxost-vəzirlər, o əlahəzrət kordur, savadsızdır, o dərdləri görmür, hiss eləmirlər? Yox, Şəfican,

elə deyil, elə deyil, qardaş. Onlar axmaq adamlar deyillər. Məsələ tamam başqa şeydədi.

— Nədədi axı?

— Mən indi başa salım səni. Bax, indi bir anlığa təsəvvür edək ki, əlahəzrət sənsən. Sən olmusan. Bax, bu saat səni əlahəzrət təyin etmişəm. Gördüyün, duyduğun, qəlbini ağrıdan bu acınacaqlı vəziyyəti necə düzəldə bilərsən? Milyonlarla acın, yalavacın qarnını necə doydurarsan? Milyonlarla evsiz-eşiksizi necə təmin edə bilərsən? Yüz nəfər, min nəfər sərmayədarın, varlının əmlakını müsadirə edib əhaliyə paylamaqlamı? Yox, bu, yol deyil, bu, xilas yolu deyil, Şəfi.

Nəxost-vəzirlər gəlir, gedir. Amma görürsən ki, vəziyyət elə həmən-həməndir. Əlahəzrəti necə? Onu da tez-tez dəyişsək, işimiz düzələr? Yox, Şəfi. Niyə? Çünki sistem özü çürükdür. Çürük olan şey isə ölümə məhkumdur. Evin əgər özülü batırsa, çökürsə, divarlarının çatdaqlarını təmir etməklə rəngləməklə o evi saxlamaq olmaz. O ev uçmalıdır. İndi bizim yaşadığımız bu xanimanın özülü çürüyüb, qardaş. Əlahəzrətlər, nəxost-vəzirlər onu yaşatmaq istəyirlər. Ona görə də biz tamam başqa yolla getməliyik—Lenin yolu ilə.

Bəbirin o axşam ürəyi dolu imiş. Şəfiyə ağzını açmağa belə imkan vermədən uzun-uzadı danışmışdı və şair elə o zamandan Bəbirin savadına, məntiqinə, məlumatına heyran olub, vurulmuşdu. Bu söhbətdən xeyli əvvəl başlamış yaxınlıqları sonralar möhkəm dostluğa çevrilmişdi, illərdi ki, davam eləyirdi. Bəbiri tələbkar, ağıllı, mehriban bir dost kimi sevən Şəfi bütün həyatını, qələmini, istedadını onun dediyi və getdiyi haqq yola sərf etməyə çoxdan and içmişdi. Şəfi, əlahəzrətin huzuruna getməmişdən əvvəl Bəbirlə görüşməyi, dərdləşməyi, məsləhətləşməyi özünə borc bilirdi. Elə həmin axşam şair Bəbirin yanına getdi.

ON ÜÇÜNCÜ FƏSİL

Bu, Məhəmməd Şəfinin çoxdankı arzusu idi; ömür yarı olmuşdu, ad-sanı məmləkəti tutmuşdu, onunla oturub-durmaq, kəlmə kəsmək həvəsində olanların sayı-hesabı yox idi—ancaq o, hələ bircə

dəfə də, «xalqın atası», «məmləkətin sahibi» sayılan əlahəzrətlə bir məclisə düşmək, onunla üzbəüz əyləşib söhbət eləmək, yaxından gözlərinin içinə baxmaq, bir şair kimi özünü narahat eləyən məsələlər barəsində bu «şəxsi-əvvəlin» nə düşündüyünü anlamaq, nəhayət, camaatın nəzərində sirli-sehrli bir dünyaya oxşayan «Ərkeşahi»nin içərisindəki cah-calallı saraya tamaşa eləmək «səadətinə» nail olmamışdı. Əlahəzrət bu sarayda tez-tez qəbullar düzəldərdi, yüksək məqamlı adamları, generalları, gələn xarici qonaqları qəbul edərdi, lakin heç vaxt Şəfi onların arasında görünməzdi. Sadəcə olaraq onu dərbardakılar «görmürdülər». Bu, bir tərəfdən yaxşı idi—dərbardan uzaq olanlar nadir hallarda qəzəbə düçar olurdular. Yaxın olanlar isə nə zaman harada «günaha batacaqlarını» bilmədiklərindən həmişə nigarançılıq içində yaşayırdılar və Şəfi də bunu çox yaxşı bilirdi. O biri tərəfdən isə pis idi «görünməməzlik» dərdi—çünki bu, sayılmamaq demək idi, adilik demək idi, yüksək məqamlara çatmamaq kimi də qiymətləndirilə bilərdi. Şəfi şöhrətpərəst deyildi, heç vaxt da olmamışdı. Bəzən elə düşünürdü ki, əlahəzrətin ətəyinə əli çatanlar qorxaq və yaltaq olduğundan nə xalqın, nə məmləkətin dərdləri barədə ona heç nə demirlər, deyə bilmirlər. Amma o, bu «şərəfə» nail olsa, mütləq hər şey barədə açıq danışar, başa salar, qorxmadan, çəkinmədən əsl həqiqətləri, əsl dərdləri deyər. Şəfi məhz bu arzu ilə yaşamışdı illər boyu və ona elə gəlmişdi ki, bunları əlahəzrət hümayuna söylərsə, bu, mütləq təsirsiz qalmaz.

Şəfi dünən Bəbirlə gecəyarıdan keçənə qədər dərdi-dil eləmişdi, malı bir yerə, gümanı min yerə gedən adam kimi əlahəzrətin bu iltifatından çaşbaş qalan şairi Bəbir xeyli sakitləşdirmiş, dəvətin mümkün səbəbini izah eləmişdi:

— Əlbəttə bu, təsadüfi deyil, dostum. Bunu sənə əlahəzrətin adicə iltifatı kimi qiymətləndirsək səhv eləmiş olarıq. Məncə, artıq sənin ədəbi-ictimai, siyasi fəaliyyətin dərbarın nəzər-diqqətini cəlb eləyibdir. Sən bunu qəbul edirsən ki, dərbarda oturanlar, əlahəzrət cənablarının müşavirləri, məsləhətçiləri ağılsız adamlar deyildirlər və bu da yəqindir ki, hansı küləyin hansı səmtdən əsdiyini bilirlər, çox yaxşı bilirlər. Belə düşünürəm ki, sənin kitabının qopardığı tufan gedib ağalarımıza da çatıb və canlarına lərzə salıb! Sən səbir və

təmkinlə, ədəb-ərkanla əlahəzrət cənablarının əhvali-ruhiyyəsinə fikir ver, gör necə danışır sənin lə. Son sözünü əvvəlcə deməyi məsləhət bilmirəm, qardaş! Sən bir az qürurlusan — əslində şair elə qürurlu olmalıdır —ancaq unutma ki, tarix boyu şahlar ürək və qürur sındırmağa adət ediblər. Mən bilmirəm orda, səndən başqa kimlər olacaq — özünün də, onun da ləyaqətini gözləməyin vacibdir. Mən Vilsi-çirkənin cələsələrində fikir vermişəm — əlahəzrət çox hövsələli adamdır, nadir hallarda özündən çıxır və qəzəblənir. Ancaq çox diqqətlidir — sərraf gözü var, tük də gözündən yayınmaz.

— Diplomatdır bir sözlə.

— Bəli. Diplomat olmasaydı, atasının ölümündən keçən bu uzun illər ərzində bu boyda məmləkətin taxt-tacını əlində saxlaya bilməzdi.

Onlar çox söhbət eləmişdilər. Şəfi Bəbirin tapşırıqlarını, məsləhətlərini yadında saxlamağa çalışmışdı, Gecəni narahat yatmışdı. Səhər tezdən qalxıb üzünü yaxşı təraş etmiş, qara kostyum, ağ köynək geymişdi. Çay-çörəyini nuşcan edəndən sonra evdəkilərlə deyib-gülmüş, zarafatlaşmış və getmişdi. «Ərki-şahi»nin dəmir darvazasından sarayın səliqəli, çarhovuzlu, qış olsa da; yamyaşıl ağacları ilə göz oxşayan həyətindən keçib silahlı, tapançalı dərbanlar[1] tərəfindən cibləri yoxlanıldıqdan (silahı yoxdu ki?) sonra təşrifat[2] salonuna daxil olanda, həm Bəbirin dedikləri yadından, çıxmışdı, həm də çox həyəcanlanmışdı. O, içəridə çoxlu qonaq olacağını gözləyirdi. Ancaq gümanı boşa çıxdı. Əlahəzrət salonun o başında, öz gözəl, gözqamaşdıran mizinin arxasında tək oturmuşdu. Mizin üstündə küreyi-ərzin balaca, yumru maketi, məmləkətin kiçik bayrağı vardı. Arxa divarlardan — kreslonun başı üzərində Nadir şahın çərçivəyə salınmış iri portreti asılmışdı.

Şəfi döşəməsinə naxışları bahar çəmənini xatırladan xalılar salınmış uzun salonun ortası ilə əlahəzrətə doğru addımlamağa başlayanda onu içəri ötürən dikərval qapını örtüb arxasında görünməz oldu. Salonun tavanından asılmış güclü çilçırağın işığı göz qamaşdırırdı, elə bil, içəridə gün doğmuşdu. Şair mizə lap yaxınlaşanda əlahəzrət ağır,

[1] Dərban – qapıçı.

[2] Təşrifat salonu – qəbul salonu.

ləngərli bir hərəkətlə ayağa qalxdı, mizin arxasından kənara çıxdı. O, ucaboylu, irisümüklü, başının tükü tökülmüş, itibaxışlı, uzun və donqarburunlu bir adam idi. Hərbi libasda idi. Açıq-göy rəngli ingilis parçasından tikilmiş paltarı bədəninə kip oturmuşdu və onu, yaşından çox cavan göstərirdi. Qızıl sağanaqlı eynəyinin şəffaf şüşələri arxasından maraqla baxan qara, işıqlı gözlərində qəribə və anlaşılmaz bir təbəssüm vardı. Şəfi ilk anda bu təbəssümü tutdu, ancaq ondakı mənanı aydınlaşdıra bilmədi — rəğbətdən doğmuşdu bu təbəssüm, ya...?

Şəfi baxışlarını aşağı endirdi, əlahəzrətin irəli uzanan əlini görmək istədi, ancaq əl yox idi: onun duruşundan başa düşdü ki, əllərini arxasında daraqlayıb. Özünü ani olaraq itirdi, ancaq tezcə fikrini cəmləyib:

— Salam, əlahəzrəti-hümayun, — dedi, cavab gözlədi. Cavab isə ağır gəldi; əlahəzrət şairin ilk anda tutduğu o qəribə və anlaşılmaz təbəssümlə ona baxırdı və kim bilir nələr düşünürdü. Handan-hana o, bir addım irəli ataraq iri, ağır əlini Şəfinin çiyninə qoyub.

— Şair xoş gəlib! — dedi və o biri əlilə üzbəüz qoyulmuş kreslolardan birinə işarə ilə oturmağı təklif elədikdə Şəfi təşəkkürünü bildirib əyləşdi. Əlahəzrət çevrilib oturanda şair onun belinin azca donqar olduğunu görüb təəccübləndi. Əlahəzrət kresloya yayxanan kimi sol qıçını sağ qıçının üstünə aşırdı, astaca öskürdü; öskürəndə əlini ağzına tutdu.

Üç-dörd dəqiqə keçməmiş iki cavan əskər ortalıqdakı balaca stolun üstünə çay, meyvə, mürəbbə gətirdi. Əskərlər gedəndən sonra Şəfi əlahəzrətə müraciətlə:

— Bizim əlahəzrəti-hümayunun səhhəti-şərifi necədir? — deyə soruşdu və ondan cavab gözləməmiş: — ümid edirəm ki, inşallah, yaxşıdır, — deyə əlavə elədi. Əlahəzrət başını tərpətməklə razılığını bildirdi. Bu, ümumiyyətlə, onun adəti idi — yanına dəvət elədiyi adamı ilk dəqiqələrdə öz zəhmi ilə, ağır, saymazyana hərəkətləri, ləng cavabları ilə necə deyərlər, əzir, yumşaldır, qüdrətini nümayiş etdirir, sonra, əgər qonağı yaltaq və şəxsiyyətsiz deyildisə, onunla açıq və səmimi söhbət edirdi. On doqquz yaşından, atası öldürüləndən az sonra bu otaqda hökmranlıq eləməyə başlamış əlahəzrəti-hümayunun huzuri-şərifində əyləşim?» — deyərək əzilib - adamlar (qorxaq, yaltaq,

ikiüzlü, həmçinin mərd və qorxmaz, dəyanətli) görmüşdü ki, kimin nə təbiəti olduğunu elə ilk anlarda təyin edirdi, bu sahədə çox ustalaşmışdı. Şəfi onun «səhhəti-şərifini» soruşub əyləşəndən sonra — bunu o, çox sərbəst elədi və elə onda da əlahəzrət Şəfini «tanıdı». İndiyə qədər bu otağa gələnlərdən bir-iki nəfəri belə eləmiş olardı. Qalanları hamısı: «Mən kiməm ki, əlahəzrəti-humayunun huzuri-şərifində əyləşim?» — deyərək əzilib-büzülmüşdülər. Şəfi daha heç nə söyləməmiş «ev sahibi»nin danışmağını gözləmişdi. Bu da əlahəzrətin xoşuna gəlmişdi. Məhz bu iki cəhəti fikrində götür-qoy eləyən əlahəzrətin az sonra üzündəki o müəmmalı təbəssüm yoxa çıxdı, o şən və mehriban bir görkəm aldı. Yanına gəlib gedən yaltaqlar, simasız adamlar, görünür, onu bezdiribmiş; belə adamlar isə harda olur-olsunlar, müxtəlif qiyafələrdə olsalar da hamısı bir-birinə oxşayırlar və bezdirirlər.

Əlahəzrət qənşərindəki üstü aynalı mizə qoyulmuş qızıl piyalədəki xoş ətirli çaydan bir qurtum içib, nəhayət, dilləndi:

— Yəqin şairi-möhtərəmimiz fikirləşir ki, birdən-birə nə münasibətlə onu hüzurumuza dəvət etmişik. Elə deyilmi?

— Tamamilə düz buyurursunuz, əlahəzrəti-hümayun. Lütf etmisiniz, əlbəttə,

— Siz də, ağayi Rəhgüzər, sizin həmkarlarınız da — boynunuza almasanız da, mən bilirəm — elə güman edirsiniz ki, mən «Ərki-şahi»də əyləşmişəm, məmləkətin ümuri-siyasisi[1] ilə məşğulam və sizi — qələm sahiblərini görmürəm. Lakin əslində, işimin çox, başımın qarışıq olmağına baxmayaraq, mən sizin hamınızı — lap kiçiyinizi də — görürəm, tanıyıram və hətta kimin nəylə nəfəs aldığını da gözəlcə bilirəm, şair!

— Düz buyurursunuz, əlahəzrəti-hümayun —dedi Şəfi və ağlına gələn «Sazmani-əmniyyə sizin görən gözünüzdür, siz görmürsünüz, əlahəzrət, Sazmani-əmniyyə görür bizi, hətta necə nəfəs aldığımızı da bilir!»—sözlərini deməkdən özünü güclə saxladı. Çünki Bəbir tapşırmışdı!

—Bəli, çox gözəl bilirəm, ağayi Rəhgüzər!

— Bu, sizin başınızın ancaq ucalığıdır, əlahəzrət. Tarix boyu bütün ağıllı padşahlar məmləkətin dərd-sərini öz doğma evinin dərd-

[1] Ümuri-siyasi — siyasi işlər.

səri hesab eləmiş şəxsiyyətlər olublar. Hansı şahənşahın hakimiyyəti illərində elm, ədəbiyyat, sənət yaxşı inkişaf eləyibsə, biz indi onların bu xidmətlərini çox yüksək qiymətləndiririk. Bizdən sonra gələn nəsillər də, şübhəsiz, bizim yaşadığımız bu günləri də məhz o cəhətdən qiymətləndirəcəklər.

— Məncə, bizim dövrümüzü gələcək nəsillər gərək pis qiymətləndirməsinlər. Çünki biz doğma vətənimizin, əziz həmvətənlərimizin xoşbəxtliyi naminə az iş görməmişik. İndi vətənimiz müstəqildir, xalqımız tərəqqi yolu ilə irəliləyir. Biz istəyirik dövlətimizin adı qonşu dövlətlər arasında özünə layiq izzət və ehtiramla çəkilsin, beynəlxalq aləmdə nüfuz sahibi olsun. Biz nəyin bahasına olsa da, siyasi toqquşmalardan, müharibələrdən qaçmağa çalışırıq. Axırıncı düşmən gülləsi bu torpaqda on doqquzuncu ildə — qeyrətli və qəhrəman xalqımız ingilisləri qovanda açılıb və yəqin ki, düşmən gülləsindən ölən axırıncı əfqanın indi sümükləri də çürümüş olar!

Şəfi əlahəzrətin sözünə fasilə verdiyini görüb əlavə elədi:

— Sümük çürümür, əlahəzrət. Hər şey çürüyür, ancaq sümük çürümür.

Əlahəzrət ona baxdı, bu sözlərin nə demək olduğunu, güman ki, başa düşdüyünü bildirmək üçün gülümsündü, lakin, əhəmiyyət verməyərək sözünə davam etdi:

— Biz məmləkətin hər sahədə, o cümlədən də elmin, ədəbiyyatın, incəsənətin inkişafı üçün əlimizdən gələni edirik və gələcəkdə də edəcəyik. Bu, bizim müqəddəs borcumuzdur, ağayi Rəhgüzər. Bu, elə sizin də vəzifənizdir, hamınızın vəzifəsidir. Biz istəyirik, ağıllı, savadlı, mədəni cavanlarımız yetişsin, biz istəyirik ki, məmləkətimizdə demokratik fikirlər intişar tapsın. Bu cəhətdən, mən etiraf edirəm ki, siz az iş görmürsünüz. Sizin bir şair, bir mühərrir kimi fəaliyyətiniz məni çox məmnun edir.

— Lütf edirsiniz, əlahəzrəti-hümayun. Mənim kiçik xidmətim belə yüksək qiymətə layiq deyil — deyə Şəfi eşitdiklərinə inanmaq istəmədi. Ancaq o, «şəxsi-əvvəli-məmləkət» belə deyirdi və Bəbirin hər şeyi irəlicədən necə düzgün başa düşdüyünü fikirləşib heyrət eləyirdi. Ani olaraq həbsxanada keçirdiyi günlər, çəkdiyi əzablar yadına düşdü və vücudunda bir ağrı hiss elədi.

— Yox, siz təvazökarlıq eləyirsiniz; ağayi Rəhgüzər. Sizi xalq heç də məndən az sevmir. Bu məhəbbəti siz qələminizlə, əsərlərinizlə qazanmısınız. Bilirsiniz, həmvətənlərimin xidmətlərini qiymətləndirməkdə mənim bir əsas meyarım, tərəzim var; o da el-obanın, xalqın məhəbbətidir. Xalq heç kəsi bica yerə sevmir. Xalqın gözü ən dəqiq tərəzidir, şair! Mən baxıram xalqa, onun ürəyinə, gözünə, tərəzisinə — kimi sevirsə, onu qiymətləndirməyi, şərəfləndirməyi öz borcum bilirəm. Bu gün də sizi —məmləkətimizin ən qadir söz ustasını elə ona görə zəhmət verib buraya dəvət etmişəm. Mən, vaxtımın, imkanlarımın məhdud olmasına baxmayaraq, sizin ruznamənizi, kitablarınızı çox maraqla, diqqətlə mütaliə edirəm və düzü budur ki, ürəyim fərəh hissi ilə coşub-daşır. Sevinirəm ki, bizim məmləkətimizin sizin kimi qeyrətli, həssas, düşünən oğulları var, az da olsa var! Mən o yazılarda sizin yanar ürəyinizi görürəm, şair?

— Təşəkkür edirəm, əlahəzrəti-hümayun. Mən belə yüksək qiymətə hələ özümü layiq bilmirəm.

— Bu da sizin yaxşı bir keyfiyyətiniz kimi məni məmnun edir, ağayi Rəhgüzər. Sizin nə ehtiyacınız varsa, deyin. Sizin üçün hər şərait yaratmağa hazıram.

— Lütfünüz artıq olsun, əlahəzrət. Şəxsən mənim heç nəyə ehtiyacım yoxdur.

Əlahəzrət elə bu zaman nə üçünsə qol saatına baxdı və dərhal qapı açıldı, vəzire-ittilaat və kultur ağayi Asəf xan, vəzire-dərbər Əli xan, şair Xəlilullah, iki nəfər tanımadığı mülki paltarlı şəxs əlində foto dəsgahı olan daha iki nəfər içəri daxil oldu. Vəzirlər və şair irəli gəlib artıq ayağa durmuş əlahəzrətə iki-üç addım qalmış şax qamətlərini əyib irəli cumdular, əlahəzrətin qabağında təzim etdilər, növbə ilə əlini epdülər. Qalxandan sonra çevrilib Məhəmməd Şəfiyə salam verdilər. Əlahəzrət dönüb Şəfiyə bayaqkı qəribə təbəssümlə baxdı. Bu dəfə şair onun baxışının mənasını başa düşdü, həm sevindi, həm də sıxıldı. Sevindi ona görə ki, o, bu cənablar kimi özünü əlahəzrətin ayaqları altına atmamışdı, sıxıldı ona görə ki, əlahəzrət şairin, hüzurunda eynən bu qaydada təzim eləməməsini bəlkə də ədəbsizlik, saymazlıq hesab edə bilərdi. Ancaq sövqi-təbiisi ilə, qatma-qarışıq duyğuları içində hiss elədi ki, fərəhi sıxıntısından çoxdu və bu qənaətindən bir az da artıq

sevinc seli axıb doldu ürəyinə. Şəfi gələnlərin hamısının ona diqqətlə baxdığını gördü və nəzərləri saray kitabxanasının müdiri, şair Xəlilullahın girdə, qırmızı yanaqlarında, daz başında ilişib qaldı. Xəlilullahın eynək altından parıldayan gözlərində məmnun bir ifadə vardı— elə bil, əlahəzrət bir az əvvəl Şəfiyə söylədiyi o xoş sözləri onun barəsində demişdi. Şairin çiyninə qoyulan əl fikrini qırdı. Bu, əlahəzrətin iri, ağır əli idi. Şəfi gülümsünərək ona sarı döndükdə əlahəzrət üzünü yanındakılara tutub:

— Ağayi Rəhgüzərin qədrini bilin, o, məmləkətimizin birinci dərəcəli şairidir! — dedi. — Onun üçün şərait yaradın, qoyun işləsin!

Elə bu zaman fotoqrafların aparatı çıqqıldadı; əlahəzrətin əli Şəfinin çiynində olduğu halda şəkilləri çəkildi. Vəzirlər, şair Xəlilullah, mülki paltarda olan iki naməlum şəxs əlahəzrətin sözləri müqabilində hörmətlə baş əydilər. Əlahəzrətə də, Şəfiyə də.

Şair ona göstərilən bu ehtiramın əvəzində nə isə deməli idi, razılıq eləməliydi. O, sol əlini ürəyinin üstünə qoyub həyəcanla:

— Əlahəzrəti-humayun əmin ola bilər ki, mən əziz vətənimizi göz bəbəyimizdən artıq sevirəm və nə qədər ömrüm var, xalqıma, torpağıma sədaqətlə xidmət edəcəyəm, — dedi.

ON DÖRDÜNCÜ FƏSİL

İki gün sonra ər-arvad arasında belə bir söhbət oldu:

— Bu gün işdən bir az tez gəl ha, Şəfi can. Birdən yadından çıxar, axı Elməddin bizi axşama qonaq çağırıb!

— Hə, yadımdadı.

— Sənin bu təntənəli günlərində mən deyərdim ki, Elməddindən çox sevinən yoxdu dostlarının arasında! Elə bil, sənin yox, onun özünün şəkli çıxıb əlahəzrətlə ruznamələrdə. Oğlan şadlığından yerə-göyə sığışmır.

— Bəs qonaq gedirik, Elməddin üçün nə hədiyyə aparaq? Bir şey fikirləşmisən?

— Yox, Şəfi can. Doğrudan a, nə aparaq? Əliboş getmək yaxşı düşməz.

— Mən yaxşı bir şey düşünmüşəm. Əgər ağlına batırsa, elə eləyək.

— Nədi, ay kişi? Sən pis şey fikirləşməzsən.

Uşaqlar eşitməsin deyə Şəfi əyilib Məleykənin qulağına nə isə pıçıldadı: Məleykə əvvəl şaqqanaq çəkib güldü, sonra ciddiləşib bu dəfə o pıçıltı ilə Şəfinin qulağına nə isə söylədi. Şəfi ani fikirdən sonra: «Mən belə məsləhət bilirəm, Məleykə! — dedi. — Sən işində ol. Axşam saat yeddidə orda olarsınız. Qalan hamısı mənim boynuma»...

Məleykə xanım gülürdü—deyəsən ərinin təklifi ürəyincə idi.... Elməddin yaxşı bir süfrə açmışdı. Əhədulla maşını «Spinzər» restoranının qabağında əyləyib ertədən Elməddinin telefonla sifariş verdiyi yeməkləri qazanqarışıq götürüb evə gətirmişdi, sonra bazardan meyvə, göyərti və s. almışdı.

Elməddinin stol açmaqda, süfrə bəzəməkdə səriştəsi olmadığından, bütün işləri Əhədulla öz öhdəsinə götürmüşdü və elə süfrə açmışdı ki, baxan deyərdi ki, bu ən səliqəli bir qadının əlinin işidi. Elməddin sevinirdi. İlk dəfə idi ki, bu mənzildə belə qonaqlıq təşkil olunurdu — onun öz evində qardaş kimi, ata kimi sevdiyi Şəfinin şərəfinə. Elməddinin sevincini qat-qat artıran bir də bu oldu ki, axşamçağı Məleykə xanımla Fatimə və Siminbər də təşrif gətirdilər. Əhədulla təəccüb eləsə də, heç nə demədi, dərhal başa düşdü ki, onları Məleykə xanım dəvət edib. Az sonra kişi arvadının və qızının gəlişindən fərəhləndi də: «Qoy qaynayıb-qarışsınlar!» Elməddin isə qadınlara «xoş gəldin» eləyib sual dolu nəzərlərlə Məleykəni süzdükdə qadın bir bacı mehribanlığı ilə gülümsündü və:

— Biz sizə kömək eləmək üçün gəlmişik, Elməddin qardaş!— dedi

— Əcəb eləmisiniz. Bura sizin evinizdi. — Və bu sözləri elə dedi ki, qadınların hər üçünə aid oldu. Fatimə arvad müştəri gözü ilə gələcək kürəkəninin həyət-bacasına, ev-eşiyinə baxırdı, ürəyində qızına xoşbəxtlik, saadət arzulayırdı. Siminbər qəşəng və güllü don geymişdi. Yanaqları qıpqırmızı idi — eynən buxarı qırağında oturduğu vaxtdakı kimi. Uzun, yaraşıqlı kirpiklərini qaldırıb Elməddinə baxmağa

utanırdı. Nədənsə çox həyəcanlı görünürdü bu dəfə, tək gələndə heç belə sıxılmırdı, özünü sərbəst hiss eləyirdi. İndi isə...

Elməddin arada fürsət tapıb Məleykə xanıma yanaşaraq:

— Nə ağıllı iş görübsən, bacı, bunları da gətiribsən. Düzü, mənim ürəyimdən keçirdi, ancaq dedim yaxşı düşməz! — söylədi.

— Ustadının məsləhətidi, Elmi! Onlar daha bizim ailənin üzvləridir. Niyə sənin sevincinə şərik olmasınlar!? Həm də qız qoy adam içinə çıxsın, açılışsın, görsün, götürsün. — Sonra Məleykə xanım şən bir ədayla: — Yox, əgər istəmirsənsə, qaytarım aparım Siminbəri! — dedikdə Elməddin tələsik:

— Yox, yox, siz nə danışırsız, Məleykə bacı! —deyə cavab verdi. — Böyük savaba batmısınız onu bura gətirməkdə!

— Bəlkə qaynananı qaytarım?— Məleykə yenə zarafat elədi.

— Yox. Onu da yox; Yaxşı arvada oxşayır.

Məleykə xanım Elməddindən aralanıb həyətdə kabab bişirən Əhədullanın yanına gəldi və teştdəki tikələrə, çataçat yanan manqala baxıb:

— Hə, Əhədulla qardaş, eşitmişəm sən əla kabab bişirirsən. Çoxu elə sənin kababına görə gəlmişəm, — dedi.

Əhədulla, kefi kök olduğundan, güldü və Məleykə xanımın tərifini cavabsız buraxmamaq üçün:

— Bu Kabildə mənim kimi ikinci kabab bişirən olsa, bax, bu əllərimi kəsərəm, bacı, — söylədi. Məleykə xanım Əhədullanın arvadının, qızının bura gəlməsindən əvvəlcə tutulduğunu o dəqiqə hiss eləmişdi və indi kişinin ağzını aramaq, necə deyərlər, könlünü almaq üçün münasib fürsət düşdüyünü görüb:

— Şəfi səhər gedəndə, mənə tapşırdı ki, axşam gələndə Fatimə xanımı da, Siminbər xanımı da gətirim. Daha biz özgə deyilik. Su qaba girdi, necə deyərlər, oldu içməli. Doğrudan da, necə ola bilər ki, Şəfinin, Elməddinin şad günündə bizim Siminbər xanım, Fatimə xanım kənarda qalsınlar?! — söylədi.

— Elədir, Məleykə bacı, — dedi. — Sağ olun. Düzü, biz də çox sevinmişik Şəfinin belə böyük şərəfə nail olmasına, söz tapıb deyə bilmirəm,

Əhədullaya bu söhbətdə ən çox ləzzət eləyən onun arvadına, qızına «xanım» deməsiydi Məleykənin...

Şəfi və Ziyaülhəqq saat yeddiyə qalmış gəlib çıxdı, hər ikisinin kefi əla idi. Mehribanlıqla görüşdülər, hal-əhval tutdular. Qadınlar xörəkləri qızdırıb süfrəyə gətirdilər. Hamı yığışıb əyləşdi. Şəfi, ağsaqqal kimi, mətbəxdə oturmaq istəyən Fatiməni, Siminbəri stol arxasına dəvət elədi. Onlar sıxıla-sıxıla olsa da gəlib əyləşdilər.

— Burada bircə nəfər də olsun kənar adam yoxdur. Hamımız böyük bir ailənin üzvləriyik. Xahiş edirəm, özünüzü sərbəst aparın, deyin, gülün, yeyin-için! —deyə Şəfi lap əvvəldən hər cür sıxıntını, gərginliyi aradan götürmək istədi. Və həqiqətən də az sonra oturanlar şirin-şirin yeyir, danışır, gülürdülər. Elməddinin uçmağa qanadı yox idi. Ustadı haqqında xeyli danışandan, özünün taleyində, həyatında onun çox böyük əmək sərf etdiyini, qayğıkeş bir ata kimi həmişə dadına çatdığını, ömrü boyu ona borclu olduğunu söylədikdən sonra, qoltuq cibindən dörd bükülmüş bir vərəq çıxarıb:

— Mən, ustadımın bu şad günündə ona bəslədiyim hissləri şerə çevirmişəm, icazə versəydiniz, həmin şeri sizə oxuyardım» — dedi. Ziyaülhəqq tikəsinn udub:

— Buyuracaqsan, Elməddin! — söylədi. Hamı susdu. Qaşıqlar, çəngəllər yerə qoyuldu. Siminbər gözucu mizin aşağı başında dayanan Elməddinə sonsuz bir fərəh hissilə baxırdı. Elməddin gülümsər gözlərini ustadına tərəf çevirib vərəqi açdı, kağıza ötəri bir nəzər salıb adəti üzrə boğazını arıtlayandan sonra şeri əzbərdən söylədi:

Ömür kitabıma zərlə yazılıb,
Hər müdrik kəlamın, sözün, ay ustad.
Gözlərindən nur veribsən gözümə —
Heç düşməsin nurdan gözün, ay ustad.

«Ana torpaq, səni yada vermərəm» —
Bax, bununçun əllərindən öpərəm.
Çiçəyini yollarına səpərəm —

Dərənin ay ustad, düzün, ay ustad.

Sən bir tacsan, Məleykəndir bəzəyin.
Gözəl-köyçək balaların — ürəyin.
Dəyanətin, mərdliyindir köməyin —
Halaldır çörəyin, duzun, ay ustad.

Qoy var olsun bu büsatın, bu çağın.
Bir atəşsən, od doludur qucağın.
Ürəyimdə yandırdığın ocağın
İndi sən oduna qızın, ay ustad.

Elməddin şeri qurtardıqda məclisdəkilər əl çaldılar. O, stulunu geri itələyib ustad əyləşən tərəfə addımladı, Elməddinin gəldiynni görən Şəfi ayağa qalxdı. Elməddin vərəqi ustadına verib qucaqladı, üzündən öpdü. Şəfi də onun alnından öpüb gözləri yaşarmış halda:

— Çox sağ ol qardaş! — dedi. — Mənə yazıldığı üçün demirəm, ürəklə yazılmış, səmimi şerdir, yazan əlin var olsun!

Elməddin alnının tərini silib yerinə keçdi, əyləşdi. Məclis xeyli uzandı; siyasi söhbətlərdən başqa, hər şeydən danışdılar; lətifə söyləyib gülüşdülər. Maqnitofonu qurdular, əfqan mahnılarını dinlədilər. Oyun havası çalınanda isə, Ziyaülhəqq ayağa qalxıb yaxşıca sındırdı. O, kök və tosqun olduğuna baxmayaraq, elə çevik oynayırdı ki, sanki on səkkiz yaşında bir oğlan idi. Ziyaülhəqq Şəfinin işarəsi ilə Əhədullanı ortalığa çəkdi; Əhədulla əvvəl sıxıldı, amma sonra elə atılıb-düşdü ki, oturanların hamısının xoşuna gəldi. Ziyaülhəqq ustadın qənşərində gəlib dayandı, Şəfi arvadının qulağına nəsə pıçıldayıb ayağa qalxdı:

— Mənim əzizlərim, — dedi, xahiş edirəm bir dəqiqəliyə məni dinləyin. Elməddin, sən o nəvarı[1] geri hərlə, ancaq qulağın məndə olsun.

— Baş üstə, ustad. Eşidirəm sizi, — dedi Elməddin və lenti geri fırlamaq üçün maqnitofonun düyməsini basdı.

[1] Nəvar — lent.

Araya sükut çökdü. Hamı Şəfiyə baxırdı Fatimə və Siminbərdən başqa...

— Əzizlərim! — dedi yenidən Şəfi. — Biz bura şənlənməyə yığışmışıq. Yaxşı da şənləndik. Mən istəyirəm ki, bu gün tarixi bir gün kimi, Elməddinin yadında və Siminbərin xatirində qalsın, həmişəlik qalsın. Elə bilirəm ki, bizim hörmətli Əhədulla dostumuz da, Fatimə bacımız da, biz hamımız da məclisimizdə oturan bu iki kəncin Siminbər xanımın və Elməddinin xoşbəxt ailə həyatının təməl daşını elə bu gün qoymağa, yəni bu iki cavanı elə bu gün, bax, bu gözəl məclisdə birbirinə tapşırmağa razı olarıq. Hə. Necə baxırsınız bu işə?

Elməddin təəccüb içində gah ustada, gah Məleykə xanıma baxırdı. Əhədulla Fatimədən gözünü çəkmirdi. Məleykə qabağa düşdü:

— Allah mübarək eləsin!

Ziyaülhəqq söylədi:

— Xoşbəxt olsunlar, qoşa qarısınlar.

Siminbər durub yan otağa qaçdı. Şəfi üzünü Əhədullaya tutdu:

— Hə, Əhədulla kişi, sənin səsin heç çıxmır? Fatimə xanım, sənin də səsini eşitmirəm.

Əhədulla çaş-baş qalmışdı. Məsələ mahiyyətcə həll olunmuşdu, evdə hər şey ölçülüb-biçilmişdi. Ancaq belə, gözlənilmədən olacağını ağlına da gətirmirdi. Nəhayət, öz aləmində bir ilişəcək nöqtə tapıb sevinən kimi oldu:

— Mənim etirazım yoxdu, ağa, Ancaq... kəbinsiz...

— Hə, kəbin məsələsidi sənin qabağını kəsən? Ziyaülhəqq yerindən saata baxıb söylədi:

— İndi molla Qurban gələcək, Əhədulla. O barədə nigaran qalma.

— O başqa məsələ. — Əhədulla çarəsiz-çarəsiz arvadına baxıb udqundu.

Şəfi zarafat üçün dedi:

— Zənnimcə, Elməddin, sən bu xeyir işə çoxdan razısan, elə deyilmi?

Elməddin başını aşağı salıb gülümsündü.

Şəfi şərbət tökülmüş piyaləni yuxarı qaldırdı:

— Elməddin, Siminbər xanımı o otaqdan gətir bura. Elməddin az sonra Siminbərlə içəri girdikdə Şəfi sözünə davam etdi:

— Elə orada dayanın, ayaq üstə. Bu axşam sizə xeyir-dua veririk, balalarım. Xoşbəxt olun. Şairin xeyir-dua verdiyi ailə xoşbəxt olmalıdı.

Məleykə, al bu üzükləri, cavanların barmağına tax. Sən axı hər ikisinin böyük bacısısan! — deyə cibindən kağıza bükülmüş iki nişan üzüyü çıxarıb arvadına verdi. Məleykə xanım yerindən qalxaraq irəli yeridi, üzüyün birini Siminbərin, o birini isə Elməddinin barmağına taxdı və sonra hər ikisinin alnından öpdü:

— Mübarəkdi. Xoşbəxt olun; qoşa qarıyın. Şəfi üzünü Elməddinə sarı tutdu:

— Hə, təzə bəy, indi o düyməni bas. Mən sizin toyunuzda oynamaq istəyirəm.

Elməddin yanındakı Siminbərin qulağına nə isə pıçıldayıb maqnitofonun düyməsini basdı, otağı oynaq, xoş musiqi sədaları doldurduqda Şəfi qollarını qaldırıb ortalığa çıxdı.

Şəfi oynayır, məclisdəkilər əl çalırdı. Fatimənin isə gözləri yaşarmışdı.

ON BEŞİNCİ FƏSİL

Kiçik çillə çıxhaçıxda idi. Son günlərini yaşadığından quduzlaşmışdı sanki, necə deyərlər, gəlinlərin əlini un çuvalında, yetimyesiri, acı-çılpağı küçələrdə dondurmaq istəyirdi. Qar üstünə qar yağır, axşamlar gölməçələrin, çayın, yolun suyunu palçığını dondurub bərkidən şaxta indi gündüzlər də öz hökmünü göstərir, iliklərə işləyirdi.

Belə şaxtalı sazaqlı bir gündə, ləbi-dəryadakı cında bazarında cındır, köhnə-külə paltar, ayaqqabı alandan çox satan vardı. Kətili, taxta yeşiyi olan oturmuşdu, mallarını qabağına yığıb əsə-əsə müştəri haraylayırdı. Çoxu isə satılan köhnə-küləsini qolu üstə atıb gəzinir, alıcı gözləyirdi. Ayağında uzunboğaz ayaqqabı, əynində dəri yaxalıqlı isti palto, başında yun şal olan bir qadın bayaqdan bazar əhlinin diqqətini cəlb etməkdə idi. O, əlində ağ yundan toxunmuş təzə bir

jaket tutmuşdu, heç nə demədən o tərəf — bu tərəfə gedir, hərdən jaketi silkələyirdi. Geyimindən, rəftarından bazar adamına oxşamadığından adamlar gah ona, gah da əlindəki jaketə baxır, dinib-danışmadığını görüb lal-dinməzcə yanından sovuşub keçirdilər. Qadın isə ayaq üstə güclə dururdu. Acından başı hərlənirdi. Jaketi almaq istəyən olsaydı, dəyər-dəyməzinə verməyə razı idi. Təki pulu olsun əlində, bir loğma çörək alıb yesin, çuğundur, yaxud qaynamış noxud alıb yesin. Sonra allah kərimdi.

Birdən qadın səs eşidib yerindəcə qurudu:

— Heyran? Heyran, bu sənsən?!

Qadın çevriləndə qarşısında dayanan və iri açılmış gözləri ilə gah jaketə, gah da onun soyuqdan yaşarmış gözlərinə baxan Əbdülü görəndə, elə bil, başına qaynar su tökdülər. Azca əvvəl soyuqdan tir-tir əsən bədəni o dəqiqə elə isindi ki, buna özü də təəccüb elədi. Çaşqınlığından əlindəki jaketi gizləmək istədi, ancaq harda gizlədəcəkdi? Günahkarcasına Əbdülə baxdı: O, isti, qulaqlı papaq qoymuşdu, qəhvəyi rəngli balapuşun yaxasını qaldırmışdı, Əgər Əbdül səsini çıxarmasaydı, çətin ki, üz-üzə gələndə Heyran onu tanıya biləydi.

— Bəli, mənəm ağa! — dedi Heyran astaca və sanki od olub əllərini yandıran jaketə baxıb kirpiklərini aşağı endirdi.

— Burda neyləyirsən, Heyran? — deyə Əbdül soruşdu və elə həmin an da belə yersiz sual verdiyinə peşman oldu. Soruşmaq lazım deyildi, onsuz da hər şey aydın idi. Heyran iki aya yaxın idi getmişdi, ərini də götürərək Əbdülün yanına qayıtmaq üçün getmişdi. Ancaq gəlməmişdi. Əbdül o gedəndən sonra aşağıdakı, vaxtilə öz yaşadığı otağı silib-süpürmüş, səliqə-sahmana salmışdı. Gözləmişdi, çox böyük səbirsizliklə gözləmişdi. Ancaq onlar gəlib çıxmamışdılar. Düşünmüşdü ki, yəqin əri Cabbar razı olmayıb. Buna baxmayaraq Əbdül yenə ümidini kəsməmişdi, qulağı səsdə, gözü yolda qalmışdı. Hətta bir-iki dəfə uşağı da yanında oturdub maşınla Darüləman tərəfə getmiş, oralarda yalan olmasın iki-üç saata qədər fırlanmışdı, lakin Heyranı görə bilməyib kor-peşman evə qayıtmışdı. O vaxtdan demək olar ki, hər gün oturub-durub özünü danlamışdı ki, niyə o, dəqiq ünvan almadı Heyrandan?! Keçən dəfə də elə olmuşdu. Söz vermişdi ki, gələn dəfə ünvanı mütləq alacaq. Ancaq bu dəfə də Heyranı görən

kimi ünvan məsələsini yadından çıxartmışdı: həm də söhbət elə olmuşdu ki, daha buna ehtiyac qalmamışdı. İndi budur, Heyran cında-bazarda jaketini — Əbdülün soyuqdan donmasın deyə ona bağışladığı jaketi satır. Demək, pulları qurtarıb! Çarəsizdilər demək!

— Dalımca gəl, Heyran! — deyə o, özünün də adət etmədiyi hökmlü bir ədayla dilləndi. Heyranın əlindən jaketi aldı:— Gəl, gəl. Heyran sehirlənmiş kimi onun dalınca addımladı; buz bağlamış çayın üstdəki taxta körpüdən keçdilər. Körpüdən azca aşağı dayanan albalı rəngli uzun maşının qapısını açıb:

— Otur! — dedikdə Heyran tərəddüd elədi. Bunu duyan Əbdül sözünü təkrar etdikdə o, başını aşağı əyib dal oturacaqda əyləşdi. Ancaq bu zaman Heyran qabaq oturacaqda ayaq üstə dayanmış Nəcməddini gördü. Uşaq ona maraqla baxırdı. Heyran sövqtəbii ilə irəli uzanıb Nəcməddinin qırmızı yanaqlarından öpdükdə Əbdülün səsini eşitdi:

— Sənin qaçaq xalanı tapmışam, bala! Amma bu dəfə buraxdı yoxdu.

...Otaq isti idi. Əbdül kostyumda, Heyran isə tünük paltarında oturmuşdu. Balaca Nəcməddin xalçanın üstündə «özü yeriyən maşınını» oynadırdı. Heyran başına gələn qəzavü-qədəri danışdıqca gözlərindən gildir-gildir yaş axıdırdı. Elə ürəklə ağlayırdı ki, Əbdül də mütəəssir olmuşdu. Yanaqları aşağı axan ağ incilərə baxdıqca — qəribə idi, yadına salmağa çalışırdı ki, o, Dünya xanımın beləcə ağladığını görmüşdü ya yox? Deyəsən görməmişdi. Dünya onun yanında heç ağlamamışdı. Yox, Əbdül onun ağ yanaqlarında göz yaşı görmüşdü — Nəcməddin onu öldürən gecə. O, güllə səsini eşidib içəri girəndə arxası üstə uzanmış Dünyanın ağ sifətində civə dənəsi kimi iki-üç gilə yaş gilələnməmişdimi? Hə, hə. Eləydi...

Heyran ağlaya-ağlaya danışdıqca Əbdülə elə gəlirdi ki, qabağındakı qadın Heyran deyil, Dünya xanımdı, uzaq, qayıdılmaz səfərdən dönüb gəlib, əməllərindən peşmandı, çoxlu ayrılıq çəkdiyindən yanıb qovrulub. İndi ona görə belə göz yaşı tökür. Ancaq bəs niyə o, ciyərparasına bu cür kəmetinadır, onu niyə bağrına basıb duz kimi yalamır, niyə Əbdülü söymür, danlamır, başına gələn müsibətdə təqsirkar bilib evdən qovmur? Yox, bu Dünya xanım deyil, oxşasa da

o deyil; görmürsən, dilindən «Cabbar» sözü düşmür? Cabbar kimdi axı? Hə, hə, əridi. Ölüb. Heyran da onun üçün belə can-dildən göz yaşı tökür!..

— Daha ağlama, Heyran. Qisməti beləymiş. Ağlamaqla gedəni geri qaytarmaq mümkün olsaydı, mən bilərdim kimi qaytarardım. Amma bu mümkün deyil. Tale insan üçün nə yazıbsa, o da olmalıdır.

— Tale qurban olduğum da gərək elə bizim yazımızı elə qara yazaydı? Neyləmişdik ona? O, elə adam idi ki, mən on beş il ərzində, ölən günəcən ondan bir zərrə də inciməmişdim, ağa!

Heyran «ölən günəcən!» — deyəndə Cabbarın son çağında xatirinə dəydiyini, ürəyini yaraladığını yadına salıb duruxdu, çiyindəki örpəyin ucu ilə gözlərini, yanaqlarını sildi. Təhqir olunmuş mənliyi içində baş qaldırdı, ürəyi göynədi nə isə. Son gün Cabbarın qəzəblə, sonsuz nifrət hissilə dediyi sözlər yenidən qulaqlarında səsləndi və istədi Cabbarın onu, üzünü belə görmədiyi Əbdülə qısqandığını, hirsindən, çarəsizliyindən, gücsüzlüyündən bağrı çatlayıb öldüyünü danışsın, haçandan qəlbində qövr eləyən dərdini dilinə gətirib toxtasın, lakin özünə sığışdırmadı, bu qədər ağızdolusu təriflədiyi, dalınca göz yaşı axıtdığı Cabbarı onun nəzərində alçaltmaqdan çəkindi. Cabbarın son sözlərinin yadına düşməyinin xeyri bu oldu ki, o, ağlamağına ara verdi. Yasdan-matəmdən çıxmağa, bədbin əhvali-ruhiyyəsini dəyişməyə çalışdı. Buna Əbdül də kömək elədi:

— Mən səni o gün yola salandai sonra aşağı mənzili təmizlədim. Dedim sizin üçün münasib olsun. Hər necə olsa xəstə adamdı. Amma gəlib çıxmadız. Çox nigaran qaldım.

— Yəqin dediz ki, Heyran pulumu da götürdü, qaçdı.

— Yox, məsələ pulda deyil. Mən sadəcə pərt oldum. Bilirsən, o dəfə də dedim sənə, sən bacına çox oxşayırsan. Mən isə bacını — Dünya xanımı çox sevirdim. E... sevirdim deyəndə, ürəyinə başqa şey gəlməsin, mən onu bir xanım kimi çox istəyirdim — demək istəyirəm. Neçə il bir yerdə, bir həyətdə yaşamışdıq, öyrənmişdik bir-birimizə. O... gedəndən, yox olandan sonra bu həyətin, bu evin nizamı pozuldu, gözəlliyi getdi. Dalıycan da ağam heylə oldu, mən bu körpə ilə tək-tənha qalanda dəli olmaq dərəcəsinə gəldim. Elə gözəl insanları itirmək sənə asan gəlməsin, Heyran. Odur ki, səni

görəndə mən çox — təsəvvür eləməzsən — nə qədər sevindim. Dedim bir yandan bağlayan allah, bir yandan da açır. Gələrsiz, yaşayarsız. Həm özünüz dolanarsız, həm də mən, bu uşaqda bir gün görər. Mərhum ağam bizim üçün o qədər pul qoyub gedib ki, tək bizə yox, bax, bu uşağın nəvəsinə də çatar. Mən, düzü, belə fikirləşmişdim — sən isə getdin, gəlmədin.

— Deyirəm də, mən burdan gedən kimi o öldü. Qonşular yığışıb dəfn elədilər. Mən ərim ölən kimi evdən çıxıb gələ bilməzdim ki. Qonum-qonşu nə deyərdi?

— Heç olmasa, gəlib xəbər verəydin. Məni nigarançılıqdan qurtaraydın. Bəlkə sənə bir köməyim dəyə bilərdi. Yoxsa, tək qadın xeylağı, dörd divar arasında qal ki, nə var, nə var, iş bilmişəm.

— Nə bilim...

— Yaxşı, bəs pulun-paran qurtarandan sonra niyə gəlmirdin? Tutaq ki, bu gün jaketi bazarda satdın, beş gündən sonra əyin-başının hamısını satdın, yedin. Bəs sonra? Sonra da gəlməyəcəkdin?

Heyran başını qaldırıb Əbdülün düz gözlərinin içinə baxaraq:

— Yox, — dedi. — Gəlməyəcəkdim!

— Hə? — deyə Əbdül qaşlarını dartıb alnının ortasına qoydu, — maraqlıdır. Niyə axı, Heyran?

— Yoxsa... xətrinə dəymişəm?

— Kim? Sən? Yox, yox, Allah səndən razı olsun, ağa. Mən səndən çox razıyam — Allah imanını kamil eləsin. Mən, sadəcə olaraq, söz vermişdim ki, sənin yanına gəlməyəcəyəm!

— Kimə? Cabbara?

Heyran yalnız indi başa düşdü ki, ağzı qızışıb, sirrini verir!

Ani olaraq susdu, fikirləşdi, Cabbarın səsini yenə eşitdi, «deyim deməyim» arasında çırpınarkən Əbdül sualını təkrar elədi:

— Kimə söz vermişdin? Cabbara?

— Həm hə, həm yox.

— Başa düşmədim. Necə yəni həm «hə», həm «yox?» Heyran əri ilə arasında olan son söz-söhbəti gizləməyi nə üçünsə artıq mənasız sayıb əhvalatı Əbdülə söylədi. Bu Əbdül üçün tamamilə gözlənilməz idi. Əbdül birinci dəfə də, ikinci dəfə də Heyrana — Dünyanın doğma bacısına pul verərkən də, onları burada yaşamağa

dəvət edərkən də əsla başqa bir şey fikirləşməmişdi. Bacısının sandıqda, şkafda qalan pal-tarlarını da Heyrana geyindirərkən ağlına heç nə gətirməmişdi. Sadəcə olaraq Heyrana da, onun xəstə ərinə də yazığı gəlmişdi, onları kasıb, çarəsiz adam hesab eləyib köməklik eləmişdi. Kimdənsə, haçansa eşitdiyi «Əl tutmaq Əlidən qalıb!» kəlamı onun beyninə həkk olunmuşdu əvvəldən. Bəxti belə gətirmişdi ki, özü uzun illər ələbaxan olmuşdu, kimsənin karına gəlmək haqqında belə düşünə bilməmişdi. Ağası öz ölümü ilə onu — qatilimi, xilaskarımı, dostumu, düşmənimi— bunu hələ də ayırd eləyə bilmirdi — olan Əbdülü var-dövlət sahibi eləyəndən sonra qapısını açan ehtiyac içində çapalayan bu kiçik ailəyə yardım əli uzatmaq, dayaq olmaq istəmişdi. Vəssalam. Amma gör o, Cabbar.... bunu necə başa düşüb, necə qiymətləndirib?! Heyranın o cür tərifləyiyi Cabbar gör neçə də qəlbiqara imiş! Əbdül düşündü ki, insan iiyə belədir, ilahi? Bu sualından özü də səksəndi, çünki hiss elədi ki, hardasa, haçansa özü də belə qəlbiqaralıq eləyib! Sonra, Nəcməddin dünyadan köçəndən xeyli keçmiş əlinə düşən, lent yazılarını — Dünya ilə kürən oğlanın telefon danışığını xatırlayıb: «Mən səhv etməmişdim, mənim şübhəmə əsas vardı. Amma Cabbarın nə əsası vardı? Bəs pul, paltar?» Əbdül yenə dolaşıq-çalpaşıq sualların qarşısında aciz olduğunu anlayıb o fikirləri başından, ürəyindən qovmağa çalışdı.

— İndi başa düşdünmü, ağa, həm «hə», həm «yox» nə deməkdi?

Əbdül öz daxili aləminə qapıldığından Heyranın hekayətini qırıq-qırıq dinləmişdi, ona görə fikir zənciri qırılmışdı. Küt, key baxışlarından Heyran anladı ki, o, tamam başa düşməyib. Dedi:

— Mən sənin yanına getməyəcəyəm deyəndə artıq Cabbar ölmüşdü. Mən onun ruhuna söz vermişdim. Buna görə «hə!» deyirəm. Ona görə «yox» ki, onda Cabbar yox idi, ağa. Mən özümə söz vermişdim. İndi başa düşdün, ağa?

— Bəli, bəli. Anladım. Sən də qəribə adam imişsən.

Belə dedi Əbdül və elə o an da bir daha, səssiz-səmirsiz, dəlilsiz-subutsuz inandı ki, Heyran həqiqətən Dünya xanımın bacısıdır. O da Heyran kimi ziddiyyətli idi, təzadlar aləmində çırpınırdı, gah Nəcməddinə mehriban idi, sadiq idi, gah da ondan zəhləsi gedirdi — belə hallarda Əbdül də yerini dəyişirdi Dünyanın gözündə.

Nəcməddinə sığınanda Əbdül yaddan çıxırdı, ölürdü. Əbdülə qısılanda isə o boyda Nəcməddin əski parçası kimi bir şey olurdu. Cabbar birgə yaşadıqları illər boyu Heyran üçün yaxşı olmuşdu, əziz olmuşdu. Amma lap axırda, son dəqiqələrində dəli bir qısqanclıq üzündən (bu hiss Əbdülə yaxşı tanış idi) hər şeyi vurub dağıtmışdı, Heyranın təmiz qəlbini yaralamışdı və buna görə də onun gözündən düşmüşdü.

— Mən ona sübut eləmək istəyirdim ki, sən səhv edirsən, Əbdül elə adam deyil. Və bura gəlməməyə söz verəndə də ancaq bunu düşünmüşdüm ki, necə olur-olsun, axıracan sənin yanına getməyəcəyəm, acından öləcəyəm, dilənəcəyəm, amma sübut eləyəcəyəm ki, o, səhv eləyirdi.

Əbdül Heyranın bu qəribə sözlərini dinləyirdi, ancaq çaş-baş qalmışdı:

— Yaxşı, sən bunu ölüyə necə sübut eləyəcəkdin axı?

— Ölüyə? Bəs sən bilmirsən insanın bədəni ölür, amma ruhu yaşayır. Ruh ölmür. Hər cümə axşamı ruh öz evinə gəlir. Bax, onda gələndə görəcəkdi ki, mən burdayam, mən acam-susuzam, odunsuz-paltarsız qalmışam, amma sənin yanına getməmişəm. Bax, onda inanacaqdı ki, səhv eləyib. Mənim ürəyimi nahaqdan sındırıb. Bax belə, ağa.

— Onda səndən üzr istəyəcəkdi?

— Əlbəttə.

— Necə, axı? Ölü...

— Yuxuma kirəcəkdi, «məni bağışla!» — deyəcəkdi.

— Heç o vaxtdan yuxuna girib Cabbar?

— Yox! — o, ah çəkdi və astadan yenə təkrar elədi: —Yox!

Əbdül qadının bu qəribə mühakimələrinə diqtətlə qulaq asır, onun mərhum ərinə qəlbən necə vurulduğunu, Cabbara sədaqətli, vəfalı arvad olduğunu bu sözlərdən aydın hiss edirdi. Cabbar bu dünyadan şübhə içində köçüb getsə də, xoşbəxt ər idi Əbdülün nəzərində. Heyran, məlum idi ki, ömrünü ehtiyac içində keçirmişdi, uşaqları da olmamışdı, beş il sərasər yorğan-döşək bimarı olan Cabbara sədaqətlə arvadlıq eləmişdi, özü ac qalıb ona yedirtmişdi; bu, hər hansı bir qadın üçün indiki zamanada böyük fədakarlıq idi.

Halbuki, o, gözəl idi, cavan idi; şübhəsiz, şəhərin, məhəllənin acgöz kişiləri, Ətiqullanın özü ona tamah salmamış deyildi. O isə əyilməmişdi, bir tikə çörək üçün kimsənin ağuşuna atılmamışdı. Əbdül Heyranın bu xüsusiyyətini çox yüksək qiymətləndirir, arada doğma bacısı Dünya xanım ilə müqayisə edir, bütün bildiklərindən, gördüklərindən, eşitdiklərindən sonra, Dünyanı nə qədər sevmiş olsa da, üstünlüyü Heyrana verirdi istər-istəməz. Xüsusilə onun son sözləri Əbdülü lap valeh eləmişdi: Heyran, onu həyatda idarə eləyən daxili inamına görə, son anında təhqir edib dünyadan köçmüş Cabbara sadiq olduğunu sübut eləmək üçün aclığa dözmüşdü, soyuq otaqda təktənha yaşamışdı ki, Cabbarın şübhəli ruhu gəlib onu öz evində görsün, rahatlansın, ondan yuxuda da olsa üzr istəsin. O, məhrumiyyətlərə dözmüşdü, amma Əbdülün yanına gəlməmişdi — rahat, isti otaqdan imtina eləmişdi, qayğısız həyatdan imtina eləmişdi. Kim bilir, əgər bugünkü xoşbəxt təsadüf olmasaydı, Heyrana cında bazarında rast gəlməsəydi o, Əbdülün qapısını bir də döyəcəkdimi?! Güman ki, yox. Bəlkə də başqa yerə gedəcəkdi haçansa, ancaq Cabbar şübhələndiyi üçün bura ayaq basmayacaqdı!!

Heyranın son sözlərini eşidəndən sonra Əbdül onun burada qalıb-qalmayacağı məsələsinin də hələlik qeyri-müəyyən olduğunu anladı, doğrusu, bundan xeyli mə'yuslaşdı. İstəməsə, zorla saxlamaq olmaz. Amma qalmağı Əbdül üçün çox münasib idi. Əvvələn, özgə deyildi, Nəcməddinin doğma xalası idi, — hayana dönsə hər hansı kənar bir qadından uşağa o yaxşı baxardı. İkincisi, gözü-könlü tox, mərd qadına oxşayırdı, var-dövlətdə gözü yox idi. Belə qadını bütün şəhəri çıraqla da gəzsəydi, tapa bilməzdi. Üçüncüsü, o, bədbəxt Dünyaya çox oxşayırdı, burda qalıb yaşardısa, Əbdül üçün böyük təskinlik olardı. Əgər gələcəkdə, ərinin dərd-sərini unutduqdan sonra, könül verərsə, Əbdül onu məmnuniyyətlə özünə arvad etməyə razı idi.

Odur ki, Əbdül Heyranın qalıb-qalmayacağı məsələsini aydınlaşdırmağa çalışıb onu burada yaşamağa sövq etmək məqsədilə açıq danışmağı qərara aldı:

— Heyran xanım, mən Cabbarın ölümünə çox təəssüflənirəm. Sağ olsaydı, sənin üçün yaxşı olardı. Görürəm, o mərhumu ürəkdən

sevirmişsən. Ancaq nə etmək olar, qəzavü-qədər heç vaxt sənlə, mənimlə hesablaşmır. İndi sən o dörd divar arasında tək qalıbsan. Ərsiz, tavansız bir qadının yalqız yaşamasının necə çətin olduğunu sən özün məndən gözəl bilirsən. Bax, bu ev özgə adamın deyil, sənin doğma bacının evidir, bax,o uşaq da sənin bacının balasıdır. Mən belə düşünürəm ki, keçən dəfə də söylədiyim kimi, sənin burada qalıb yaşamağın məsləhətdi. Bu həm sənin üçün, həm uşaq üçün, həm də mənim üçün lazımdı, Heyran. Əl-ələ verib bu uşağı böyüdərik, qoca vaxtımızda o da bizə dayaq olar. — O, ani olaraq susub adəti xilafınca hiyləyə də əl atdı: — Bəlkə Dünya da gözəl günlərin birində qayıdıb gəldi. Bilirsən səni burada görüb nə qədər sevinəcək onda? Təsəvvür edirsən necə bayram olar bu? O biri yandan da, ağam, — sən bilirsən — bizim üçün ağlına-gəlməz əndazədə var-dövlət qoyub gedib. Səni ürəyin necə istəsə elə saxlayacağam, xanım. Ehtiyac nədir bilməyəcəksən, Heyran. İndi, fikirləş, özün seç. Mən istəyirəm sən qalasan. Hə, nə deyirsən, Heyran?

—Çətin məsələdi? Qərara gələ bilmirsən? Heyran başını aşağı salıb:

— Qalıram, ağa! —söylədi və bu sözündən Əbdülün nə qədər sevindiyini hiss eləyə bilmədi, çünki ona baxmırdı. Əbdül yerindən dik atıldı, daxili bir istəklə Heyranı bağrına basıb öpmək istədi, bir addım da irəli atdıqda Heyran baxışlarını Əbdülün gözlərinə zilləyib hökmlü bir tərzdə: — Ancaq bir şərtim var, ağa!—dedi. Əbdül yerində qurudu:

— Nədi, Heyran xanım? Mən sənin bütün şərtlərini yerinə yetirməyə hazıram.

Heyran da ayağa durdu:

— Bu şərtlə ki, ... — deyib birdən susdu, söyləmək istədiyini lap son anda uddu; — Yox, lazım deyil. Mən bilirəm ki, sən ləyaqətli adamsan, ağa.

Əbdül onun dilinə gətirmədiyi şərtini sözsüz-sovsuz da başa düşüb Heyrana qəribə bir heyranlıq hissilə baxıb gülümsündü.

ON ALTINCI FƏSİL

Siminbər tezdən oyandı. Bu, onun uşaqlıqdan elədiyi adət idi. Atası evində olarkən, demək olar ki, anası ilə birgə qalxardı yatağından, sil-süpür, yır-yığış işlərində anasına kömək elərdi. Fatimə bazara gedərdi, o isə uşaqların yanında qalardı, oynadardı, başlarını qatardı. Simin anasının sağ əli idi. Ona görə arvad, demək olar ki, hər gün bir neçə dəfə qızına alqış-sana eləyər:

— Səni görüm xoşbəxt olasan, bala! — deyərdi. Ana bu sözləri o qədər demişdi ki, onun haçansa, haradasa xoşbəxt olacağına ürəyində möhkəm bir inam yaranmışdı. Beyninə batmışdı ki, o, mütləq xoşbəxt olacaq — intəhası geci-tezi var. İndi Simin yuxulu gözlərini açıb özünü qar kimi ağappaq, yumşaq və isti yorğan-döşəkdə, Elməddinin böyründə görəndə sinədolusu nəfəs aldı, şirin-şirin gərnəşdi, həqiqətən xoşbəxt olduğunu anlayıb hədsiz dərəcədə sevindi: anasının dəfələrlə dediyi o sözləri xatırladı və ürəyindəcə, səssiz-səmirsiz: «Sənin arzun çin oldu, ana. Mən bəxtəvərəm, ana!» — söylədi. Gözlərini iki-üç dəfə açıb-yumdu — o qəribə toy gecəsindən bir həftə keçdiyinə baxmayaraq, hər gün səhər yuxudan ayılanda — olanların, keçənlərin, hiss eləyib duyduğu səadətin xəyal yox, həqiqət olmasına sanki inana bilmirdi. Yoxlayırdı, bu yeddi gün ərzində baş verənləri, Elməddinlə şirin söhbətlərini xatırlayırdı, yanında tüklü sinəsi açıq halda uzanan Elməddinin körpə uşaq kimi mışıl-mışıl nəfəs almasını görəndə, öz canında, sinəsində qəribə, dadlı bir ağrının — giziltinin gəzib-dolaşdığını duyanda — yalnız hökümlü gecə yuxusunun unutdura bildiyi səadəti, bəxtəvərliyi təzədən axıb ürəyinə, vücuduna dolurdu və Siminbər ancaq bundan sonra öz xoşbəxtliyinə tam mənası ilə inanırdı.

Siminbər başını yataqdan qaldırdı, Elməddinin qara, cod saçlarını ehmalca sığalladı. Bir-birinə qovuşub onun qəşəng gözlərini gizləmiş uzun kirpiklərinə, nazik, yaraşıqlı bığına, sifətinə xeyli tamaşa elədi; istədi burnuna çırtma vurub oyatsın, ancaq qıymadı. Çünki elə şirin yatmışdı ki, onu yuxudan eləmək günah olardı. «Qoy yatsın» — dedi ürəyindəcə. Özü sürüşüb taxta çarpayıdan düşdü, elə ağ gecə köynəyində iki pəncərənin arasına vurulmuş balaca güzgü-

nün qabağına gəldi, sifətinə, gözlərinə baxdı. Yanaqları solğunlaşmışdı, gözlərində yorğunluq — əzginlik vardı, Bu, onun xoşuna gəlmədi. Azca diqqətlə gözlərinə bir də nəzər yetirdi — bəbəklərində həkk olunmuş xoşbəxtlik, məmnunluq ifadəsini oxuyub toxtadı, gülümsündü. Güzgünün önündən çəkilib geyindi, o biri otağa keçib qapını arxasınca yavaşca örtdü.

Bir az sonra Elməddin Siminbərin astadan oxuduğu mahnı səsinə gözlərini açdı. Başa düşdü ki, gəlin dünənki, srağagünkü kimi, bu gün də ertədən qalxıb, durub getməyindən xəbəri də olmayıb.

Elməddin Siminbərin xoş, ürəyəyatımlı nəğməsini dinləyirdi, istər-istəməz keçmiş günlərini xatırlayırdı. Ədnan qəryəsindən üzü bəri uzanan ağır, məşəqtətli yollar, yaşadığı ağlı-qaralı ömür səhnə-səhnə, vərəq-vərəq gözlərinin qabağında canlanırdı, o, Əfsanənin uzaqdan, lap uzaqdan eşidilən səsini — mahnısını kəsik-kəsik eşidir, o bədbəxtin gözlərini, sifətinin cizgilərini, saçlarının, gözlərinin rəngini tutqun, dumanlı şəkildə olsa da görürdü. Onunla bağlı xatirələr Zərrintaca qədər uzanıb gəlirdi, orada ilişir, qırılırdı. Sonra təəssüflə dolu səhifələr vərəqlənirdi. Elməddin o səhifələri cırıb atmaq, yaddaşından silmək istəyirdi, ancaq bacarmırdı. Sən demə, yaşanan günlər yığılıb ömür olurmuş, sənin ömrün olurmuş! Pisindən də, yaxşısından da qaçıb qurtara bilməzsən, unuda bilməzsən. Onlar sənin ömürlük yol yoldaşın, xatirə qonağındı.

Sonra Elməddin fikirləşirdi ki, səadəti axtarmaq lazım deyilmiş. Əgər sənə nəsibdirsə, gec-tez o özü, gözləmədiyin bir yerdə, vaxtda mütləq qarşına çıxacaq və səni sevindirəcək. Əfsanə onun səadəti idimi? Yolunun üstünə çıxmışdı, lap yaxınında idi, əlini uzat, götür, sənindi. Ancaq əlini uzada bilmədi, götürə bilmədi. O uçub getdi, quş kimi qəfil uçub getdi. Hara? Bilmədi. Zərrintac necə? O da səadət deyilmiş, sən demə! O da xoşbəxtliyə gedən yolun üstündə ötəri bir dayanacaq, keçici bir əyləncə imiş. Əfsanə də, Zərrintac da ona çoxlu əzab vermişdi. Bu əzabların heç biri yaddan çıxan deyildi. Bəlkə bunlar lazım imiş. İndi Siminbərin ona bəxş elədiyi bu göydəndüşmə və eyni zamanda qəribə səadətin qədrini bilmək, qiymətləndirmək üçün gərək imiş bəlkə? Elməddin bəxtindən çox razı idi indi, Simin yaşca ondan balaca da olsa, ağıllı idi, başadüşən

idi, iş-güclü idi. Səliqəsinə, evdarlığına, biş-düşünə söz ola bilməzdi. Bir çox cəhətdən o, Məleykəyə oxşayırdı. Deyib-gülən, mehriban, xoşqılıq bir gəlin təsiri bağışlayırdı. Kaş axıra qədər belə olaydı. Dəyişməyəydi, sonradan buynuz çıxarmayaydı. İlan vuran ala çatıdan qorxan kimi, Elməddin də ancaq bundan ehtiyat eləyirdi. Lakin bu qorxunu Siminbərin onu çox istəməsi yuyub aparırdı, Elməddin rahatlaşırdı. Qadın gərək səni sevsin, — düşünürdü o. — Onda özü də xoşbəxt olar, səni də xoşbəxt eləyə bilər. Sevsə, özünü sənə də sevdirəcək. Sən də onun üstündə əsəcəksən. Sevməsə... bu, həyat deyil, o, buz kimi soyuq olacaq, laqeyd olacaq, nə fərəhinə, nə də kədərinə şərik ola bilməz sevməsə.

Elməddin gözlərini yumub xəyal aləmində yeni qurduğu ailə həyatının ilk günlərini xoş bir duyğu ilə götür-qoy eləyirdi. Bu zaman üzündə hənirti hiss elədi. Kirpiklərini qaldıranda üstünə əyilmiş Siminbəri gördü; onun uzun saçları çiyinlərindən sürüşüb ağ yorğanın əyilmiş qırağına toxunurdu.

— Oyanmısan, əzizim? — deyə Siminbər dodaqlarını Elməddinin alnına ehmalca yapışdırdı. — Elməddin «hə» — deyib qolunu onun boynuna doladı, başını çəkib sinəsi üstünə gətirdi, sonra iki əlilə giçgahlarından yapışıb dodaqlarından öpdü. Bununla ürəyi soyumurmuş kimi, belindən tutub sıxdı.

— Yavaş, qabırğalarımı sındırdın! — deyə nazla çırpınıb qolları arasından çıxmaq istədi, ancaq bacarmadı. Elməddinin gücü qarşısında təslim olub yanında yanakı uzandı. Ayaqları yerdə, bədəni ərinin qucağında idi. Elməddin çoxdanın həsrətlisi kimi Siminbərin üzündən, gözlərindən, dodaqlarından, sinəsindən öpürdü, öpürdü. Gəlin bu nəvaziş müqabilində məst olub susmuşdu, ruhu elə bil quş olub göylərdə uçurdu.

— Çiçəyim, gözlərimin nuru, körpəm mənim!—deyirdi tez-tez Elməddin. — Heç ağlıma gəlməzdi ki, sən mənim olacaqsan. Heç ağlıma gəlməzdi, Simin.

— Mənim də, Elmi! İnanırsan, mən hələ də elə bilirəm yuxu görürəm. İşə bax, deyirəm. Gör sən harda idin, mən harda idim. Sən milyoner Nəcməddinin kürəkəni, Zərrintac xanımın əri idin. O zaman kimə desəydin, belə ağlabatmaz bir iş olacaq, Elməddin elə bir

aləmdən qopacaq, ayrılacaq, Zərrintac kimi bir qadının qapısını üzünə çırpıb çıxacaq, sonra mənim — qabağında qulluqçu olan bir qızın qisməti olacaq — vallah, buna heç kəs inanmazdı. Mənə də desəydilər, deyərdim bu, nağıldı, ancaq nağıllarda belə şeylər olar.

— Görürsən, olanda olur. Dünyamız möcüzələrlə doludur, Simin.

— Məni haçan sevdin, Elmi?

—…

— İstəyirsən mən deyim?

— Hə. De.

— Məni mətbəxdə, buxarının qırağında görəndə, Elmi. Yadında? Elə onda da keçib otağında şəklimi çəkmişdin... «Gözəl Simin buxarı qırağında!»

— Yox, Simin.

— Yox? Bəs haçan? Onda haçan? — deyə o, şux bir hərəkətlə Elməddinin saçlarını qarışdırdı.

— Düzü, deyə bilmərəm necə oldu ki, sən mənim ürəyimə girdin. Ondamı? Ondan əvvəlmi? Bilmirəm.

— Ondan əvvəl ola bilməz, Elmi. Sən onda mənə balaca bir uşaq kimi baxırdın. Çox vaxt heç məni görmürdün də. Çay gətirəndə, xörək gətirəndə bəzən heç üzümə də baxmırdın. Yəqin xanımdan qorxurdun, eləmi? Hə, hə, ondan qorxurdun. Düz tapmışam, hə?

— Yenə yox. Nə isə mən ondan heç vaxt qorxmazdım, Zabitəli, hökümlü, hikkəli olduğunu bilirdim, lakin nədənsə qorxmurdum. Ümumiyyətlə mən qadından qorxmağı heç vaxt ağlıma gətirməmişəm. Yaxşı, bəs sən məni haçan sevdin, körpəm mənim?

— Mən? Mən deyəsən elə o gecə. Sən mənim şəklimi çəkən gecə. Onda səhərəcən yata bilmədim. Çünki sənin baxışların tamam ayrı cür idi o gecə. Bəlkə də sənin özünün xəbərin yox idi, ancaq sən onda mənə ayrı cür baxırdın. İlk anlarda sənə bərk acığım tutdu, dedim a, bu, deyəsən ürəyindən başqa şey keçirdir. Şəkli çəkib gətirəndən sonra hirsim yatdı, sevindim. Hələ elə sevinməmişdim heç vaxt. Sonra fikirləşdim ki, belə şey ola bilməz, sən böyük adam, mən bir yoxsul qız. Sən evli, Zərrintac kimi arvadın. Yox, ola bilməz. Məyus olub ağladım. O gecədən sonra sən yadımdan çıxmadın — evdən çıxıb işə

gedəndən qayıdanacan yolunu necə gözləyirdim, ilahi? Bunu dilnən deyə bilmirəm, Elmi. Sən gələndən sonra rahat olurdum. Nə bilim, mənə elə gəlir ki, sən o gecə girdin ürəyimə, Elmi.

— Adam əsl məhəbbətin harda, haçan başladığını bilmir. Məncə bu, elə də mühüm deyil. Əsl məhəbbət — möhkəm, dəyanətli, riyasız olmalıdı, Simin.

Onlar beləcə göz-gözə, üz-üzə xeyli danışdılar. Simin, tanış olduğu yeni adamlar — Elməddinin dostları haqqında: Şəfi, Ziyaülhəqq barədə çox razılıq elədi. Gözlənilməz toy da, Şəfinin elə məclisdə cibindən çıxartdığı üzüklər də, gecə saat birdə Ziyaülhəqqin molla gətirib kəbin kəsdirməsi də, kişilər ayağa durandan sonra Məleykənin qollarını çırmalayıb Fatimə ilə birlikdə qab-qacağı yığışdırması, böyük otağı səliqə-sahmana salması da, on dəqiqənin içində bəzəkli-düzəkli gəlin otağı düzəltməsi də — o axşam görülən bütün bu işlər Siminin çox xoşuna gəlmişdi. Elməddin tək bunları çətin eləyə bilərdi. Və Simin toydan keçən altı gün ərzində hər dəfə söhbət eləyəndə bu barədə öz fikrini demək, razılığını bildirmək istəmişdi, ancaq nə isə araya söz düşmüşdü, söyləməyə imkan tapmamışdı. İndi ürəyini boşaltdı. Elməddinə gözəl təsir elədi Siminin bu qədirbilənliyi. Sevindi.

— Mən dostlarımsız bir heçəm, Simin! Şəfi mənim atam, Məleykə mənim bacımdı. Mən ömrüm boyu onlara minnətdaram. Sən də çalış, onların hörmətini saxla həmişə, mənim başımı uca eləmiş olarsan!

— Sənin dostlarının hörmətini saxlamaq mənim borcumdu, Elmi.

Simin bu sözləri deyəndə Elməddin onun dodaqlarından hərarətlə öpdü, tellərini sığalladı və astaca:

— Mənim ağıllı körpəm! — dedi.

Ayağa durub geyindi. Simin kiçik otaqda səhər yeməyi hazırladı. Çay töküb ortalığa qoydu. Deyə-gülə yedilər, içdilər. Şəfi toy axşamı Elməddinə bir həftə işə çıxmamaq içazəsi vermişdi. Bu gün Dəftərə getmək vaxtı idi. Ona görə geyinib-kecindi və sual dolu nəzərlərlə Siminə baxdı:

— Mən işə getməliyəm. Mənim körpə gəlinimin etirazı yoxdur ki?

Simin Elməddinin paltosunun yaxasına düşmüş tükü barmaqlarının ucunda götürüb:

— Yox, mənim əzizim! — dedi. — Get. Nə etirazım ola bilər?!

— Tək qalmaqdan qorxmazsan ki?

— Nədən qorxacağam, Elmi? — o, gülə-gülə cavab verdi. — Arxayın gedə bilərsən.

Elməddin razılıq hissilə başını tərpətdi və yadına nə düşdüsə cibindən bir dəstə pul çıxarıb stolun üstünə atdı:

— Yəqin qibləgahın gələcək, pul verərsən, evə nə lazımsa alıb gətirər. Yaxşımı? Ürəyin nə istəyirsə, de, alsın gətirsin. Kişiyə məndən salam deyərsən.

— Baş üstə.

Sonra Elməddin başını azca aşağı əyib Siminin yanağından öpüb çıxdı.

«Pərçəm»in dəftərində iş yoldaşları, xüsusən Şəfi onu gülərüzlə qarşıladı. Hamı bir-bir yaxın gəlib təzə ailə qurması münasibətilə onun əlini sıxaraq təbrik etdi, səadət arzuladı.

Elməddin bu mehribanlıqdan çox mütəəssir oldu. Kimsə onu toyuna dəvət etmədiyindən gileylənəndə Elməddin tutulmuş halda Şəfiyə baxıb gözlərini döydü. Şəfi gülüb söylədi:

— Eybi yoxdu, uşaqlar, bu dəfə Elməddin bir az tələsik evləndi, günahı da məndə oldu. Söz verir ki, sizi gələn dəfəki toyuna mütləq çağıracaq!

Bü sözə hamı şaqqanaq çəkib güldü. Elməddin də cavabında, Şəfinin sözünə qüvvət verdi:

— Hə, mütləq çağıracağam. Ustad demək istəyir ki, mən daha evlənmək işində öyrəncəli olmuşam.

Ancaq bu şən əhvali-ruhiyyə çox davam eləmədi. Tezliklə elə bir iş oldu ki, hamısının qanı qaraldı. Sən demə, elə bu gün «Sülh» ruznaməsində Əli Tüğyan Elməddinin «Pərçəm»də dərc olunmuş «Xurma çərdəyi» hekayəsi barədə kəskin məqalə ilə çıxış edibmiş! Mətbəədə, Teyyubun yanında işləyən Munisin qaça-qaça, təngnəfəs halda gətirdiyi «Sülh»ü əvvəlcə Şəfi oxudu, sonra Elməddinə verdi.

Sonra ruznamə otaqda əldən-ələ gəzdi. Qəribə idi ki, oxuyan susurdu, heç nə demirdi. Elməddin pərt olmuşdu, pəncərənin qənşərində dayanıb küçəyə baxa-baxa siqaret çəkir, məqalədəki acı, tikanlı sözləri xatırlayır, beyni uğuldayırdı. Əli Tüğyan bu dəfə xəsislik eləməmişdi; yazının tonundan açıq-aşkar məlum idi ki, bu, adi tənqid deyildi. Sənət mücadiləsi, xırda sancmaq məsələsi deyildi. O, hekayəni çox ətraflı təhlil etmiş, sətiraltı mənasını daha kəskin, daha qabarıq şəkildə açıb-ağartmış, yazıdan «qan qoxusu» gəldiyini «siniflər döyüşünə çağırış» olduğunu xüsusi şəkildə qeyd eləmiş və onu «cəmiyyətimizi qan dənizində boğmağa» səsləyən bir hekayə adlandırmışdı. Elməddini «siyasi əqidə cəhətdən bizim cəmiyyətə düşmən» olan, nəticə etibarilə «özgə dəyirmanına su tökən» bir adam kimi qələmə verirdi.

Bu ittihamlar onu sarsıtmışdı. Ah çəkib geri dönəndə Şəfinin ona tərəf gəldiyini görüb gözlərinə baxdı. Şəfi onun tutulub saraldığını hiss eləmişdi. Özü ondan az pərt deyildi. Ancaq aradakı gərginliyi azaltmaq, Elməddinin fikrini dağıtmaq üçün söylədi;

— Hə, Elməddin. Bu da Əli Tüğyanın sənə toy hədiyyəsidir,

— Çox ağır hədiyyəyə oxşayır, ustad!

— Ağır olmağına ağırdı, bilirəm.. Ancaq o bizə çox böyük yaxşılıq eləyib — özü də bilmədən.

— Necə yəni yaxşılıq eləyib, ustad!

— Sənin hekayənin mənasını, məğzini bizim avam camaatın çoxu bəlkə də başa düşməmişdi — o sənin hekayənin mənasını açmaqla bizim işimizə xeyli kömək etmişdir. Bu məqaləni oxuyandan sonra başa düşməyən də başa düşəcək — bu isə bizim xeyrimizədi. Deyir «ədu şəvəd səbəbi xeyr, əgər xuda xahəd».[1]

— Nə bilim ustad. Ancaq hekayədən çox, bu məqalədən «qan iyi» gəlir! — Elməddinin bu sözlərində böyük həqiqət olduğunu Şəfi daha artıq hiss eləyirdi. Başa düşürdü ki, bu, təkcə Elməddinin, necə deyərlər, bostanına atılan daş deyildi, bu, eyni zamanda Şəfini, «Pərçəm»çiləri vurmaq, siyasi aləmdə, dərbarda onların mövqeyini sarsıtmaq məqsədi güdürdü heç şübhəsiz. Əli Tüğyanın bu çıxışının

[1] *Tərc.* «Allah istəsə, düşmən də xeyrə səbəb olar».

onların fəaliyyətinə, mübarizəsinə ciddi zərbə vura biləcəyini yaxşı dərk etsə də, Şəfi, Elməddinə ürək-dirək vermək istədi:

— Sədi demişkən, bu da keçər, Elməddin. Qəm yemə, qardaş? Həyatın gözəlliyi mübarizədir. Kim güclüdür, haqq kimin tərəfindədir, bunu gələcək göstərəcək.

Elməddin ustadın inamla, qətiyyətlə dediyi sözləri dinləyir, qəmli-qəmli gülümsünür, ürəyində isə fikirləşirdi ki, şübhəsiz, o yazıdan sonra onu həbs edəcəklər. Bəs Simin necə olacaq?! Bu fikir Elməddini üşütdü.

...Axşamçağı, evə dönərkən o, yolunu bazardan saldı. Hansı yollarla, necə bura gəlib çıxdığını soruşan olsaydı, deyə bilməzdi. Gül satan kişinin qabağında dayananda onun:

— Tər-təzə güllərdi, Cəlalabad gülləridi, indicə gətirmişəm, — deməsindən ayıldı. Bir dəstə yaxşı, qönçədən təzə çıxmış qızılgül aldı. Həyətə girəndə Simin onu əlində gül gələn görüb uşaq kimi qabağına qaçdı, o, gülləri Siminin qucağına qoydu. Simin ətirli gülləri iyləyib:

— Nə gözəl güllərdi, Elmi! — söylədi.

— Sən onlardan daha gözəlsən, mənim körpəm, — dedi Elməddin.

ON YEDDİNCİ FƏSİL

Ətiqulla deyəsən son günlərini yaşayırdı. Daha evdən çıxmağa, şəhərdə görünməyə təhər-töhürü qalmamışdı. Yemək-içməkdən düşmüşdü deyə arıqlayıb çöpə dönmüşdü. Ölüm qorxusu bir an da onu tərk etmir, qorxulu, dəhşətli bir kabus kimi bütün varlığını, ürəyini gəmirir, taqətini əlindən alır, yuxusunu ərşə çəkirdi. Çarəsizlikdən, gücsüzlükdən böyük dərd olmadığını o indi başa düşürdü və həyatında, pulun gücünə — qoca milyoner Mümtaz xanın pulunun gücünə ürəyindən keçən ən namümkün şeylərə belə nail olan, özünü qadir — qüdrətli hesab eləyən o, bu lənətə gəlmiş mərəzin qarşısında aciz qaldığını görəndə uşaq kimi hönkürtü vurub ağlayır, əsəbləri daha dözməyib pozulduğundan bəzən başını dər-divara çırpırdı. Atasını, anasını, Ədnan qəryəsindən gəlmiş əmisi qəryədər Qulamı, bacılarını yaxına buraxmır, onların evinə gəlməsinə icazə vermir, ancaq telefonla

danışırdı. Çox vaxt telefon dəstəyini də götürmürdü, beş zəngdən birinə cavab verirdi, ya vermirdi.

Vaxtilə dörd arvad, on üç uşaq yaşayan, səs-küydən qulaq tutulan hündür hasarlı, bağ-bağatın ucu görünməyən həyət boşalmışdı, qu desəydin qulaq tutulardı. Ətiqullanın sağalmaz mərəzə tutulduğunu başa düşən kimi arvadların üçü uşaqlarını da götürüb getmişdi. Təkcə birinci arvad — Zəhra xanım qalmışdı. Ancaq o da, usta tərpənib oğlunu, qızını babasının — ağayi Mümtazın yanına göndərmişdi. İndi ikimərtəbəli, dördotaqlı aynəbəndli evdə ikisi yaşayırdı — Əgər buna yaşamaq söyləmək olardısa. Ətiqulla yuxarıdakı mərtəbədə idi, Zəhra aşağıdakı mərtəbədə. Zəhra xanım o biri arvadlardan yaşca böyük idi, həm də bu evin birinci gəlini idi. Sonrakı arvadların hamısı onun üstünə gəlmişdi. Zəhra xanım əvvəllər Ətiqullanı çox sevmişdi. Elə Ətiqullanın da ilk sevgisi o olmuşdu. Ancaq sonralar, Ətiqulla bir-birinin dalınca evləndikcə aradakı məhəbbət parçalanmış, xırdalanıb cılızlaşmışdı. Son vaxtlar isə, təqribən iki il olardı ki, Ətiqulla Zəhra xanımı tamam gözdən salmışdı, elə quruca yemək-içməyini, paltarını verməklə kifayətlənmiş, onu arvad saymamış, yorğan-döşəyinə yaxın düşməmişdi. Əlbəttə, bu, Zəhra xanıma çox böyük dərd olmuşdu, üzünə heç nə deməsə də, aşkarda o biri arvadların yanında özünü sındırmasa da, bir qadın kimi qürurunun rəhmsizcəsinə sındırıldığını görüb xəlvətdə az göz yaşı axıtmamışdı. Səbirlə, mətanətlə bu dözülməz dərdə dözmüş, canını dişinə tutub yaşamışdı, uşaqlarını böyütmüşdü. Hərdən hissiyyatını cilovlaya bilməyib asiləşəndə, əlindən heç nə gəlməsə də, üzünü Allahın dərgahına tutub Ətiqullaya qarğış-nifrin eləmişdi, bununla da ürəyini soyutmuşdu. Ətiqullanın xəstəliyi məlum olanda, o biri arvadlar kimi, onun da canına vəlvələ düşmüşdü, o da «neynim, necə eləyim, bu nə müsibət idi başımıza gəldi?» — deyə sızıldayıb sıtqamışdı. Ancaq az sonra o, birdən başa düşmüşdü ki, Ətiqulla həmin mərəzə tutulmamışdan da qabaq onun qapısını açıb içəri girmirdi, keçələrini onun yanında keçirmirdi. Bu onu toxtatmışdı da, açığı, lap sevindirmişdi də. «Allah məni istəyirmiş!» Yalnız bu həqiqəti dərk eləyəndən sonra Zəhra xanım, özünə xas təmkin və tədbirlə, heç nəyi açıb-ağartmadan, aralarına çaxnaşma düşmüş gəlinlərin pərişan

və pəjmürdə halına baxıb təskinlik tapmışdı. Çünki onlar Zəhra xanımla pis rəftar etmişdilər. Ətiqullanın onun yanına getməməsini, arada kiçik söz-söhbət olan kimi, başına qaxmış, yanıq vermişdilər. Bu isə onun yaralı qəlbini bir az da qanatmış, cırmaqlamış, yandırmışdı. Ancaq onlar başlarını və uşaqlarını götürüb fəlakətdən qaçırmış kimi öz ataları evlərinə gedəndə Zəhra xanım qadınlara heç nə deməmişdi. Sadəcə: «Bədbəxtlər, elə bilirsiniz qaçmaqla canınızı qurtaracaqsınız? O mərəz sizin artıq canınızdadı, qanınızdadı!» — deyə təəssüflə düşünmüşdü. Əhvalatdan xəbərdar olan qonum-qonşu, qohum-əqrəba, xüsusilə ağayi Mümtaz xan, Zəhranın getməməsini dəyanət, mərdlik, vəfa kimi qiymətləndirmişdi. Zəhra ilə Ətiqullanın ər-arvadlıq münasibətlərindən xəbərsiz olduqlarına görə!.. Ona görə Mümtaz xan əvvəldən də, ilk gəlini və ilk nəvələrinin anası kimi xatirini çox istədiyi Zəhra xanıma olmazın hörmət bəsləməyə başlamışdı. Zəhra kişinin gözündə çox ucalmışdı. Yeganə oğul övladının taleyinin belə bəd gəlməsindən, özünün var-dövlətinin onu sağaltmaqda aciz qalmasından yana hədsiz kədərlənən, xiffət eləyən ağayi Mümtaz xan belə çətin ayaqda ərini qoyub qaçmadığı üçün Zəhra xanıma gözlərinin yağını da yedirtməyə hazır idi. Kişinin mehribanlığı, şirin sözlər deməsi Zəhranı qanadlandırırdı, Ətiqullanın vaxtilə ona elədiyi zülmləri unutdururdu, ona yazığı gəlirdi. Çayını, xörəyini vaxtlı-vaxtında, gündə üç dəfə hazırlayıb yuxarı qalxırdı. Ya çarpayıda uzanan, ya otaqda var-gəl edib siqaret çəkən Ətiqullanın üzünə baxmamağa çalışaraq (baxanda ürəyi pis olurdu) yeməyini stolun üstünə qoyur, yeyibsə boş qabları, yeməyibsə elə-eləcə dolu qabları götürüb gedirdi. Ətiqulla onu dindirəndə cavab verirdi, dindirməyəndə yox. İki aydan çox idi ki, beləcə yaşayırdılar. Ancaq son günlər Zəhra xanım görürdü ki, Ətiqulla getdikcə əriyir; çünki gətirdiyi xörəklərə əl vurmurdu, ancaq çay içirdi, siqaret çəkirdi. Daha deyəsən gəzə də bilmirdi, çünki Zəhra gələndə çox vaxt onu çarpayıda uzanmış görürdü. Şərəşür, qayır-qayır qaynayan, yoruldum deməyən Ətiqulla indi yorğan-döşəkdən dura bilmir — bu, Zəhranın ürəyini ağrıdırdı. Son günlər o, Ətiqullanın yeyib-içmədiyini hiss eləyib yalvarırdı ki, yesin. Heç olmasa, bir-iki tikə yesin.

Ancaq Ətiqulla danışmırdı, gözlərini tavandan ayırıb Zəhraya baxır, ah çəkib susurdu. Çünki görürdü ki, Zəhra bu sözləri ona deyəndə üzünə baxmır, qab-qaşığa baxır. Dünən Ətiqulla zəif səslə:

— Deyirsən ye, amma heç üzümə baxmırsan, Zəhra, — dedi. — Yəqin iyrənirsən məndən, eləmi?

—…

— Hə, iyrənirsən. Baxma, baxma mənə, Zəhra! Mənim baxılası halım qalmayıb daha. Baxma. İstəmirəm mənə kimsə baxsın. İstəmirəm, başa düşürsən, istəmirəm! — Son sözlərini o, demək olar ki, qışqıra-qışqıra söylədiyindən yəqin ki, özü də xəbərsiz idi. Və Zəhra xanım onu başa düşürdü. Onunla keçirdiyi xoş günlər: sonrakı əzablı günlərin kölgəsində itib-batır, unudulurdu, qəlbini təəssüfqarışıq bir nifrət yandırırdı. Zəhra xanım, yenə onun üzünə baxmamağa çalışaraq, söylədi:

— Başa düşürəm, Ətiq. Ancaq bircə bunu başa düşmürəm ki, kimdi günahkar?

—…

— Mən azlıq elədim sənə! Gedib Hürünü aldın. O da az oldu. Nisəni də aldın. Yenə gözün doymadı. Gedib o qarazırtdığı da aldın. Dörd arvad sənə kifayət eləmədi. Ac qurd kimi, hara gəldi özünü toxudun, bu da nəticəsi... Özünü də bədbəxt elədin, bizi də!!! Hələ uşaqların da hansı, haçan, harda bədbəxt olacaq — bunu bir olan Allah bilir! — deyib Zəhra göz yaşlarını saxlaya bilmədi.

Bayaqdan Zəhranın dediklərini key kimi dinləyən Ətiqulla «uşaqlar» sözünü eşidəndə tamam ayıldı elə bil. Uşaqlar da? Aman allah! Bu, indiyənəcən heç onun ağlına da gəlməmişdi. Hə, Zəhra düz deyir, uşaqlar da, hardasa, haçansa... Lap gələn nəsildə, üçüncü nəsildə... haçansa beləcə, onun kimi, göz baxa-baxa, ayaq üstə çürüyən bir kişimi, qadınmı olacaq dünyada. Onun nəslindən, onu lənətlə yad eləyə-eləyə diri gözlü öləcək kimsə! Çürüyəcək!

Ətiqulla bu dəhşətli fikirdən silkələndi, qalxıb yerində oturdu. Qıçlarını aşağı sallayıb yırğaladı. Zəhra onun tüklü, arıq ayaqlarını görüb dəhşətə gəldi: «Biçarənin bədənində heç əti də qalmayıb» — dedi ürəyində.

Ətiqulla üzün müddət gözlərini döşəməyə zillədi, düşündü və nəhayət:

— Səndən iki xahişim var, Zəhra! — dedi.

—…

— Əvvəl get mənə dərməltundan[1] həbi-xab[2] alıb gətir! Sonra da kişiyə xəbər ver, qoy uşaqların hamısını yığıb bura gətirsin. Özləri də gəlsin — qibləgahım, anam. Arvadlardan da kim istəyir gəlsin, istəmir heç... Zəhra xanım şübhə ilə soruşdu:

— Həbi-xabı neynirsən?

— Mən yuxusuzluqdan ölürəm, Zəhra! Görürsən neçə vaxtdan bəri yata bnlmirəm, nə gündüz, nə gecə. Ölürəm yuxusuzluqdan, ölürəm. Bir saat, cəmi bircə saat yata bilsəm, ölmərəm, Zəhra.

Zəhra heç nə deməyib çıxdı. Yuxusuzluğun necə ağır əzab olduğunu Zəhra yaxşı bilirdi. Çünki Ətiqulla ondan üz döndərən vaxtlar gecələri səhərəcən az oyaq qalmamışdı: Zəhra «Elədiyin zülmlər qabağına çıxır bir-bir» — deyə düşündüsə də, aşağıdan zəng eləyib Mümtaz xana oğlunun arzusunu yetirdi, özü isə geyinib «Darüləman» dərməltunundan Ətiqullanın köhnə dostlarından biri olan qoluyox dərməltunçudan dərman almağa getdi.

Gün günortadan keçmişdi. Ətiqullanın nə vaxtdan bəri sükunətə qərq olmuş həyətində bir qələbəlik vardı. Hava elə də soyuq deyildi. Yuxarıdakı mərtəbədən ata-anasının, uşaqlarının gəldiyini görən Ətiqulla güc-bəla ilə də olsa geyinib aşağı, birinci mərtəbəyə düşdü, ağır ləngərli addımlarla qapının ağzında göründükdə uşaq da, böyük də susdu. Ətiqulla şərflə ağız-burnunu bağlamışdı. Təkcə qara qaşları altından gözləri görünürdü.

Ağayi Mümtaz əlilə yanaşı dayanmış və maraqla tamaşa eləyən, xırdaları irəli — atalarının yanına cummaq istəyən uşaqlara susmaq işarəsi verdi, özü irəli çıxdıqda Ətiqulla başının hərəkətilə «gəlmə» dedi. Ağayi Mümtaz dönüb böyründə dayanan arvadına baxdı. Arvad səssiz-səmirsiz ağlayırdı. Ağayi Mümtaz xan qəhərlənmiş halda:

---

[1] Dərməltun — aptek.

[2] Həbi-xab — yuxu dərmanı.

— Necəsən, bala? — dedi.

Ətiqulla yenə başını tərpətməklə «yaxşıyam!» — söylədi. Sonra boyda-boyda düzülmüş uşaqlara baxdı, baxdı. Böyükləri kədərli idilər, kiçikləri isə, görünür, heç nə bilmədikləri üçün elə-belə — kimisi gülə-gülə, kimisi sakitcə atalarına tamaşa edirdilər və onlara təəccüblü gəlirdi ki, niyə onları öz evlərinə buraxmırlar, ataları niyə ağzını-burnunu bağlayıb qapının astanasında dayanıb? Ətiqulla görürdü ki, arvadları gəlməyib! Qayıdıb arxasında dayanan Zəhraya mənalı-mənalı baxdı. Ağayi Mümtaz xan bu dəqiqə oğlunun nə düşündüyünü anladı və söylədi:

— Onlar naxoşdular.

Ətiqulla heç nə demədi. Eləcə ucdantutma əvvəlcə anasının, atasının, sonra uşaqlarının sifətlərinə, boy-buxununa diqqətlə, sanki hərəsini ayrı-ayrılıqda yaddaşında saxlamaq istəyirmiş kimi baxdı, baxdı və gözləri yaşla dolub onu görməyə qoymayanda o, əlilə «hə, gedin!» işarəsi verdi və özü gəldiyi kimi, ağır addımlarla qayıdıb içəri girdi.

Anasının hıçqırığını eşitdi, istədi qayıdıb nə isə təsəlliverici bir söz desin, ancaq fikrini dəyişdi, dayanmadı. İkinci mərtəbədən aşağı baxanda onların hamısının Zəhranın başına yığışdığını gördü və pəncərənin qabağından çəkildi.

...Səhəri Ətiqulla ölmüşdü. Çoxlu yuxu dərmanı atmış və əbədi yuxuya getmişdi.

ON SƏKKİZİNCİ FƏSİL

Heyranın gəlişi ilə Nəcməddinin çoxdan bəri sükunətə qərq olmuş malikanəsində həyat əvvəlki qaydasına düşürdü yavaş-yavaş. Nə vaxtdan qadın nəfəsi, qadın əli dəyməyən ev-eşik indi isinmişdi, səliqə-sahman yaranmışdı. Ürək sıxan məhzunluq, kədər harasa uçub getmişdi. Tək qalıb çox zaman öz-özünə danışan, körpə ilə oynayan, başını qatmağa çalışan, ancaq bütün bunlarla da həyatında əmələ gəlmiş boşluğu doldura bilməyən, buna görə də son dərəcə üzüntülü günlər keçirməyə məcbur olan Əbdül, Heyranın gəlişini əvəzsiz bir

nemət kimi qiymətləndirir, söhbət etməyə, dərdi-dil eləməyə, məsləhətləşməyə bir həmdəm, bir nəfəs tapdığından uşaq kimi sevinir, yerə-göyə sığışmırdı. O indi bu evin ağası, başıpapaqlısı, külli-ixtiyar sahibi olsa da, özünü lap Dünya xanımın, ağayi Nəcməddinin sağlığında olduğu kimi sadə, demək olar ki, nökər kimi aparır, qüdrətini, gücünü hiss etdirmir, mehribanlığı, qayğıkeşliyi, canıyananlığı ilə Heyranın xoşuna gəlməyə çalışır, burada özünü qərib, kənar adam kimi hiss eləməyə qoymurdu. Danışır, gülür, Heyranın sıxılmasına, çəkinməsinə qətiyyən imkan vermirdi. İstəyirdi ki, o, şad yaşasın, boş-bikar qalıb çox istədiyi mərhum ərinin yoxluğu barədə düşünməsin: unutsun onu da, dərdini də. Lap əvvəl gündən, burada qalacağının razılığını aldığı gündən Əbdül Heyranı yaxşıca yedirdib qonaq eləyəndən sonra yanına salıb otaqları bir-bir gəzdirmiş, evin üzdə olan bər-bəzəyini göstərmişdi. Heyran siftə gələndə bu otaqlara ötəri baş çəkmişdi, ancaq, həyəcanlı olduğundan, heç nəyə diqqətlə, doyunca baxa bilməmişdi, indi arxayın-arxayın hər şeyə tamaşa eləyir, zəngin, müzəyyən bir muzeyi xatırladan otaqlar, ömründə heç vaxt, heç yerdə belə bərbəzəkli ev-eşik görmədiyi üçün onun gözlərini qamaşdırır, könlünü oxşayır, fərəhləndirirdi. Dünya bacısının bu cah-calal sahibi olması ona qəribə, inanılması mümkün olmayan bir nağıl, əfsanə kimi görünürdü. Əbdülün dediyindən məlum olurdu ki, bu otaqlar elə beləcə, bax bu səliqə-sahmanda da qalmalıdı, çünki onu Dünya xanım belə düzəltmişdi, Əbdül istəmirdi ki, bu nizam pozulsun. Heyran evləri silib-süpürəcək, ancaq səliqə-sahman elə-belə, olduğu kimi qalacaq. Sonra Əbdül Heyranı həyət-bacada gəzdirmiş, qarajı, hamamı, anbarı, vaxtilə özünün yaşadığı hücrəni göstərmişdi. Hücrənin içinə baxanda Əbdül ona demişdi:

— Mən buranı sizin üçün nəzərdə tutmuşdum. Demişdim ikiniz yaşarsınız. Ancaq... qismət olmadı. Heyran kədərli-kədərli köks ötürüb:

— Hə, —demişdi və ani fikirdən sonra: — Mən elə burda yaşaram, — deyə əlavə etmişdi. Əbdül dönüb çəpəki nəzər salmışdı:

— Niyə? Sən yuxarıda, bizimlə bir yerdə qalarsan. Tək burda sənin üçün çətin olar, Heyran! — demişdi.

— Yox, elə bura yaxşıdı, çətin olmaz.

— Xeyr, sən uşaqla kəllə otaqda yaşarsan, mən də yan otaqda. Bilirsən, çox narahat yatır gecələr oğlan. Üstünü təpikləyib açır, bəzən durub ağlayır... Sən yanında olsan yaxşıdı...

Heyran susub dinləmişdi. Ürəyində Əbdülün bu sözlərinin mənasını götür-qoy eləmişdi. Kişinin ürəklə, səmimiyyətlə söylədiklərində pis heç nə tapa bilməyib razılıq əlaməti olaraq başını tərpətmişdi. Doğrudan da, əgər Əbdül onu yedirib-geydirirsə, rahat, arxayın yaşaması üçün hər cür şərait yaradırsa — bu, ancaq atasız-anasız qalmış uşağın xatirinə deyilmi? Uşaq isə özgənin balası deyil, doğma bacısının ciyərparasıdır — niyə də uşağın yanında yatmasın, niyə də ona əsl analıq eləməsin?.. Əbdülün uşağa bəslədiyi böyük məhəbbət Heyranı ilk günlərdən valeh etmişdi; o, balaca Nəcməddinə öz balası kimi baxırdı. Hər sözünün əvvəli də, axırı da onunla bağlı olurdu. Heyran başa düşürdü ki, Nəcməddin Əbdülün ürəyidi, nəfəsidi, həyatıdı. O, bu uşaq üçün yaşayır. Əbdülün oğlana bəslədiyi bu ilıq istək Heyrana da sirayət eləyirdi və Əbdülü onun gözlərində ucaldırdı. Heyranın vəzifəsi aydın idi. O, bu evin xidmətçi qadını idi. Uşağa baxmalı, ev-eşiyi təmiz saxlamalı, əskilərini, onun da, Əbdülün də alt paltarlarını yumalı, biş-düş işinə baxmalı idi. Bazarlıq Əbdülün boynunda qalırdı. Belə məsləhətləşmişdilər ki, daha restorandan yemək gətirmək lazım deyil. Heyranın dediyindən elə çıxırdı ki, o, yaxşı, dadlı xörəklər bişirə bilir, O belə söyləyəndə Əbdül də gülüb demişdi:

— Elə mən də pis bişirmirəm. Rəhmətlik ağayi Nəcməddin hərdən zarafata salıb deyərdi ki, anan səni qız doğacaqmış, çaşıb oğlan doğub.

Heyran sadəlövhlüklə deyilmiş bu sözlərə gülmüşdü.

Zahiri, ötəri tanışlıq, «vəzifə bölgüsü» qurtarandan sonra Əbdül özünəməxsus bir təmkin və səmimiyyətlə Heyranın əyin-başını təzələmişdi. Təzələmişdi deyəndə, gedib mağazadan, dükandan, xəyyatxanadan yeni paltar almamışdı: Dünya xanımın cəmi bir-iki dəfə əyninə alıb daha üzünə baxmadığı ipək, qanovuz, qumaşdan tikilmiş paltarlarından seçib bir yaxşı dəstini gətirmiş, ortalığa qoyub:

— Bu köhnə-küləni çıxart, at, bax, bu paltarları gey, — demişdi və özü uşağı da götürüb o biri otağa keçmişdi. Əbdül çıxandan sonra Heyran stolun üstəki ipək paltarlara, mavi rəngli alt paltarına, saçaqlı baş örpəyinə, gödək, yaxası pullu-naxışlı arxalığa baxmış, istər-istəməz yadına o qarlı gündə, təzə, isti geyimdə evə girərkən Cabbarın ona zillənmiş heyrətli, qəzəbli baxışlarını, sonsuz nifrət hissilə söylədiyi o acı sözlərini, ağlaya-ağlaya o paltarları çıxarıb yerə ataraq tapdaladığını xatırlamış, qəşəng, gözəlliyi ilə göz qamaşdıran geyimi görərkən qəlbinə axıb dolmuş fərəh bircə anda yoxa çıxmışdı: o, qəmgin-qəmgin ah çəkib: «yox, geyməyəcəyəm!» — söyləmişdi öz-özünə. Lakin nəzərləri əynindəki süzülmüş, çiyni, dirsəyi nazilib cırılmış donuna sataşanda bu fikrinin qarşısında dura bilməyəcəyini başa düşmüş: «Eh, nə olsun, özgə adamın deyil ki, bacımındır da!» söyləyib dəyişmişdi. Bu paltar da ona çox yaraşmışdı. Paltar sanki bədənindəki əzginliyi də, beynindəki ağır düşüncələri də yox eləmiş, ona gözəllik, təravət bəxş elədiyi kimi, qəribə bir quş yüngüllüyü də bəxş eləmişdi. Heyranın daş-qaş naminə nə barmağında, nə sinəsində, nə biləklərində, nə də qulaqlarında bircə dənə də şey yox idi. Heç əvvəldən olmamışdı, yaxşı paltar kimi, bu qızıl-gümüş, yaqut-mirvari məsələsi də onun ürəyində buza dönüb qalmışdı. Köhnə paltarda gəzəndə, oturub-duranda bu, Heyranın heç yadına düşməzdi haçandı. Ancaq indi... təzə, yaraşıqlı geyim-keçim özü o bəzək şeylərini çağırırdı.

Heyran gözü-könlü tox olduğundan ürəyindən keçən bu hissi dərhal boğmuş, elə bu günə min şükür eləmişdi. Şükranlıq duyğusu ona Cabbarı da, daş-qaşı da unutdurmuş, sevinc içində Əbdülgil olan otağa keçmişdi. Əbdül qucağında uşaq, qarşısında dayanan, paltarlarını geydiyindən daha çox Dünya xanıma oxşayan, solğun sifəti həyəcandanmı, utandığındanmı od tutub yanan, gözləri qəribə bir işıq saçan Heyranı görəndə mehriban-mehriban gülümsünmüşdü. Heyran başını aşağı salıb arxalığının düyməsini qurdalaya-qurdalaya bir qadın sövqi-təbiisi ilə Əbdüldən nə isə eşitmək istəmişdi. O da sanki Heyranın qəlbindən keçəni duyaraq gülə-gülə demişdi:

— Mübarəkdi, Heyran!

— Çox sağ ol... — O, Əbdülə o qədər minnətdarlıq hissi duydu ürəyində, az qala çaşıb Cabbara hər kəlmə başı söylədiyi «əzizim» sözünü işlədəcəkdi. Ancaq tez özünü ələ almış, elə sadəcə «çox sağ ol»u təkrar etməklə kifayətlənmişdi. Ancaq bu üç kəlmə sözü elə demişdi ki, onların axırında «əzizim» deməyə heç ehtiyac qalmırdı — bu söz əriyib həmin üç kəlmə sözün canına hopmuşdu. Və bunu hər ikisi duymamış deyildi. Heyranın gözlərinə, sifətinə yazılmış sevinc Əbdülün bəsi idi.

Bu mavi paltarı Əbdül əbəs seçməmişdi. Özünün də ondan xoşu gəlirdi. Dünya xanım da bu libasını ürəkdən bəyəndiyindən tez-tez geyinərdi. O, Dünyanın bədəninə kip oturardı, yaraşıqlı, qabarıq sinəsini, incə belini rəssam əlilə çəkilmiş bir tablodakı sayaq qəşəng və cazibədar göstərirdi. Əbdülün Dünya ilə bağlı xatirələrinin bircəciyi də yadından çıxmadığından çox yaxşı xatırlayırdı ki, bax indi Heyranın geydiyi o mavi libası iki dəfə Əbdül öz əllərilə Dünyanın əynindən çıxartmışdı, düz iki dəfə!

İndi qənşərində dayanan Heyrana baxırdı və gözləri dumanlanırdı Əbdülün: paltar o paltar idi, ancaq onu geyən Dünya deyildi, ona oxşayırdı, çox oxşayırdı, ancaq o deyildi, yox, o deyildi. Əbdülün kirpikləri ucunda gilələnmiş yaş damcılarını görən Heyran heyrət içində:

— Sənə nə oldu, ağam? — deyə soruşduqda Əbdül özünü ələ alıb:

— Heç — söyləmişdi.— Bu libası gördüm, Dünya xanım yadıma düşdü. Heyran. Bu, sənə yaraşan kimi, ona da gözəl yaraşırdı.

Heyran Əbdülə diqqətlə baxmış, sonra ciddi şəkildə xəbər almışdı:

— Mən fikir vermişəm, Dünyadan danışan kimi sən kövrəlirsən, ağam. Belə başa düşürəm ki, onun xatirini çox istəyirmişsən, hə?

Əbdül gözlərinin nəmini silmişdi:

— Hə, Heyran. Çox istəyirdim, lap çox. Amma heyf!!

— Nə heyf, ağa? — Bacısının tələşdan həmişə nigaran olan, onun müəmmalı şəkildə yoxa çıxmasının səbəblərini daimi ürəyində götür-qoy eləyib axtaran Heyran, nə isə maraqlı bir şey eşidəcəyini

kəsdirib tələsik ikinci dəfə sualını təkrar etmişdi: —Nə heyf, ağa, deyirsiz?

Əbdül Heyranla Dünyadan danışarkən həmişə gərginlik içində olurdu. Çaşıb bircə dəfə «rəhmətlik Dünya xanım!» — deməydi, kifayət idi. Onda Heyran hər şeyi başa düşəcəkdi, sonra isə sorğu-suallar başlanacaqdı. «Niyə?», «Nəyin üstündə?», «Qəbri hardadı?» Bunu isə Əbdül istəmirdi. Bu, həm Heyran üçün ağır zərbə olardı, həm də ağayi Nəcməddinin adının-sanının üstünə kölgə salardı.

— Deyirəm yəni heyf ki, çıxıb getdi.

— Amma heç ola bilməz ki, sən bilməyəsən nəyin üstündə ər-arvadın arasında söz-söhbət oldu, niyə getdi bacım?

— Bilmirəm, xanım. Bilsəydim deyərdim sənə.

— O gedəndə ərinə bir söz deməzdi. Bəs sənə? Sənə də heç nə söyləmədi? Hara gedir? Kimlə gedir, ya kimin yanına gedir?

— Yox, mən onda ayıldım ki, artıq Dünya xanım... uçub getmişdi.

Heyran daha sual verməmişdi, öz-özüylə danışırmış kimi astaca demişdi:

— Hara getsə axırı qayıdıb gələcək. Bu körpə — o, əlini uzadıb Nəcməddini Əbdüldən alıb bağrına basıb öpmüşdü,— bu körpə gec-tez hayanda olsa Dünyanı çəkib bu xanimana gətirəcək, ağa, buna mən inanıram, vallah inanıram!

Əbdül ah çəkib başını aşağı salmışdı.

Birinci günün axşamı, hələ Heyran mətbəxə, qab-qazana alışmadığından, Əbdül öz səliqəsi ilə onun gəlişi münasibətilə yaxşı bir süfrə açmışdı: böyük otaqda çilçırağı yandırmışdı, ev nura qərq olmuşdu. Ortalıqda, miz üstündə toyuq qızartması, şərbət, göy-göyərti, üç-dörd cür meyvə var idi. Balaca qazanda bişirilmiş zəfəranlı plovun ətri içərini doldurmuşdu.

— Sən bu gün qonaqsan, otur bax, ye, dincəl. Sabahdan, inşallah, bu işləri özün görəcəksən! — deyə-deyə Əbdül süfrəyə göz gəzdirib yaddan çıxan bir şey olub-olmadığını yoxlayırdı. Heyran gün ərzində ona xeyli isinişmiş balaca Nəcməddini dizi üstə oturdub ortalığa düzülmüş naz-nemətə iştahla baxır, ömründə belə müzəyyən bir otaqda bu cür zəngin süfrə arxasında oturmadığını acı təəssüf

hissilə düşünür və Əbdülün bu mehmannəvazlığından mütəəssir olurdu.

Əbdül mətbəxdəki soyuducudan indiyə qədər görmədiyi bəzəkli, qəşəng bir şüşə və iki də balaca qədəh gətirib ortalığa qoyanda qadının qaşları çatılmışdı. Əbdül işgüzar əda ilə əlini əlinə sürtüb əyləşəndən sonra əvvəlcə Heyranın qabına xörək qoymuş, sonra öz boşqabını doldurmuşdu.

— Hə, bismillah, — demişdi. — Mən yaman acmışam. Yeməyə başlamışdılar. Heyran uşaq üçün də azca xörək çəkmişdi. Nəcməddin toyuğun budunu sümürürdü.

— O şüşədəki nədi, ağa? Əbdül ağzındakı tikəsini udub:

— Çox xahiş eləyirəm, mənə ağa demə. Eləcə adımı de, yaxşı? Adam-zad yanında deyərsən, ancaq ikimiz olanda nə ağabazlıqdı. Mən Əbdüləm, bu bir. İkincisi, şüşədəki viskidi, Heyran.

— Viski nədi, ağa? Yəni şərabdı da?

— Hə də, bir növ şərabdı.

Heyran matı-mutu qurumuş halda xeyli susub handan-hana:

— Vay, ağa, Əbdül ağa, sən şərab da içirsən? — demişdi. — Axı sən müsəlmansan, Əbdül? Bu, günahdı axı. Əbdül şüşənin qapağını aça-aça:

— Hə. Düzdü. Müsəlmanam. Bir vaxt mən də elə sənin kimi fikirləşirdim. Ancaq rəhmətlik ağam məni öyrətdi. — Bundan sonra o, ağayi Nəcməddinin ilk dəfə necə tapança gücünə onu içirtdiyini gülə-gülə danışmışdı, üstəlik əlavə də eləmişdi: — Hələ Dünya xanım özü də içirdi, desəm, yəqin inanmayacaqsan.

— Dünya da içirdi?

— Hə.

— Elə şey olmaz, Əbdül!

— Vallah.

— Vay, vay. Ta denən ona görə yurdu-yuvası belə viran qalıb da!

— Yox, Heyran. Ondan deyil yurd-yuvasının viran olması. O kişi, — deyə Əbdül başı ilə yuxarı işarə eləmişdi, — o kişi necə məsləhət bilirsə, elə olur. Bəs Cabbar içməmişdi, onunku niyə belə oldu, Heyran?

Heyran bu sual müqabilində çiyinlərini çəkib susmuşdu.

— Ye, ye, hər şeyin dərinliyinə getmə, onda tez qocalarsan. Bu dünyada sənin, mənim başa düşmədiyimiz şeylər çoxdu, Heyran!

Sonra Əbdül ona da içmək təklif eləmişdi, ancaq Heyran daş atıb başını tutmuş; imtina eləmiş və hətta hədəyəbənzər bir tərzdə:

— Bir də mənə belə şeylər demə, Əbdül! — demişdi. Özünü incik kimi göstərsə də, əslində bu, Əbdülün ürəyincə olmuşdu. İki qədəh içmişdi. Heyrana «xoş gəldin!» — eləmişdi.

Gecə saat on ikiyə qədər oturub söhbət eləmişdilər, yatanda isə Heyran kəllə otaqda, uşağın çarpayısı qoyulan otaqda yatmışdı. Özü də qapını içəridən cəftələmişdi. İpək yorğan-döşək ona elə ləzzət eləmişdi ki, iki-üç saat yerinin içində gözünə yuxu getməmiş, o üz bu üzə çevrilmiş, bütün bunları bir yuxu hesab eləmişdi.

O biri otaqda da Əbdülün gözünə yuxu getməmişdi. Qadın onun qəlbinə yatmışdı. Gözəlliyindən, iş-gücündən də çox, Heyranın əxlaqı Əbdülü valeh eləmişdi. Heyran bütün həyatını ona danışmışdı; əgər dedikləri düz idisə, onun Cabbara — öz xəstə ərinə belə səda-qətlə, fədakarlıqla qulluq göstərməsi, ac-susuz, odunsuz-paltarsız qalıb pis yola getməməsi (bundan asan şey yox idi indi şəhərdə, ən çətin şey isə namusla, təmiz adla dolanmaq idi) kifayət idi ki, Heyrana hər cür təhsin deyəsən. Əri ölüb gedəndən sonra da onun xatirəsini uca tutmuş, dərhal Əbdülün yanına gəlməmişdi. Əbdül buna da xüsusi məna verirdi: əsl arvad belə olmalıdı. Bax, ondan Əbdülə yaxşı arvad olardı!. Bu fikir sonrakı günlər də Əbdülün başından çıxmamışdı. Onun evdə, həyətdə yerişinə, bədəninə, saçlarına gizli bir istəklə baxmış, ancaq qəribə bir vahimə də bu istəyin üstünə su çiləmişdi dərhal. Birdən o da bacısı Dünya xanım kimi gözüdağınıq oldu, onda necə? O da xudanəkardə, Dünya xanım kimi, Əbdülə xəyanət elədi, yazıq Nəcməddinin çəkdiyi əzabları o da çəkməli oldu, onda necə? Yox, o əzablar dəhşətli əzablar idi. O əzablara Əbdül dözə bilməz. Yox, hələ tələsmək lazım deyil, tələsmək lazım deyil.

Beləcə on doqquz gün yaşamışdılar, iyirminci günü Əbdüd axşamtərəfi Heyranı öz otağına çağırıb demişdi:

— Heyran, sən yaraşıqlısan, gözəlsən. Əynindəki paltar da sənə çox yaraşır. Ancaq bilirsən nəyin çatmır?

— Yox! — deyə Heyran üst-başına baxmışdı. — Yox!

Bu zaman Əbdül çarpayısından qalxmış, irəli yeriyib qabağında dayanmış və ovcundakı brilyant qaşlı qızıl zənciri Heyranın boynuna taxmışdı. Qadın əvvəl hürküb geri çəkilmiş, qızılı görən kimi dayanmışdı. Əbdülün nəfəsi onun nəfəsinə toxunmuş, o, kişinin titrəyən əlinə baxıb uçunmuşdu. Əbdül sonra Heyranın sol əlini ehmalca tutub barmağına naxışlı, qaşı par-par yanan bir üzük də taxmışdı.

— Sən neyləyirsən, Əbdül? — deyə o, dodaqları təpimiş halda güclə dillənmişdi.

— Heç nə. Qulağını bəri elə, Heyran!

— Qulaqlarım deşik deyil! — demişdi və səsindəki təəssüf hissini Əbdül də duymuşdu.

— Ba, bu olmadı ki... Eybi yoxdur, al, apararam səni şəfaxanaya, deşərlər qulağını, salarsan. Gözəl sırğalardır.

— Sən neylirsən, Əbdül? — Sanki Heyran ayrı söz bilmirmiş.

— İndi dön belə, güzgüdə özünə bax, Heyran!

Heyran onun sözünə bənd imiş kimi, nazla çevrildi, bədənnüma güzgüdə əksini görəndə dodaqları qaçdı, yaxasındakı zəncirə baxdı, gözlərinə inanmırmış təki əlini qaldırıb zəncirə toxundurdu, bu zaman barmağındakı üzüyün də şövqü güzgüdə alışıb-yandı. O işıq gözlərinə də qondu, bütün sifətinə nur çilədi. Qayıdıb minnətdarlıqla dolu baxışlarını Əbdülə zillədi. Əbdülə elə gəldi ki, ömründə heç vaxt belə xoşbəxt olmayan Heyran indicə qollarını açıb onun boynuna sarılacaq, «sağ ol, əzizim!» — deyib dodaqlarından öpəcək. Bax, indicə öpəcək. Bax, bədəni irəli meylləndi. Amma yox. O dayanmışdı. Bu zaman Əbdül, özündən xəbərsiz halda, qollarını qaldırmış, onu qucaqlamaq istəyəndə, Heyran əlini onun sinəsinə dirəmişdi:

— Yox, yox, Əbdül. Səni and verirəm o bir olan Allaha, mənə toxunma, toxunma mənə. Yoxsa, gedərəm. Yoxsa, Dünya gələndə səndən şikayət eləyərəm, səni qovar Dünya burdan. Eləmə belə, Əbdül. Mənə indiyənəcən naməhrəm əli toxunmayıb. Çıxarıb ataram bunların hamısını, mənə sənin heç nəyin lazım deyil.

Əbdül süstəlmiş, qolları yana düşmüşdü. Özünü ələ alıb:

— Sağ ol, Heyran! — demişdi, — Ananın südü sənə halal olsun. Bax, buna görə mən səni xoşbəxt eləyəcəyəm, Heyran. Özün nə vaxt razı olsan, kəbinini kəsdirəcəyəm, halalca arvadım olacaqsan.

—…

...Bir ay sonra Heyran Əbdülün yatağında idi.

ON DOQQUZUNCU FƏSİL

Aylı-ulduzlu, ayazlı mart gecəsi idi. Qar ərimişdi, ancaq şaxtalar hələ sınmamışdı. Xüsusilə gecələr bərk soyuq olurdu, çuxurlarda, gölməçələrdə sular donur, damların üstündən axan damcılar səhərəcən şüşələnib iti, uzun buz parçası olurdu.

Saat on ikidən keçmişdi. Həmişəki adəti üzrə, Şəfi öz otağında oturub işləyir, siqareti siqaretin oduna yandıraraq yazıb-pozurdu. Hərdən də yanındakı başıpapaqlı çaydandan piyaləyə çay süzür, bir-iki qurtum içir, ağzının acısını alırdı. Məleykə də, uşaqlar da çoxdan yatmışdı. Evdəki gecə sükunətini divardakı asma saatın yeknəsəq çıqqıltısından başqa heç nə pozmurdu. Şəfi təzə şer yazmışdı. Qaralama vərəqdən böyük, ümumi dəftərə köçürəndən sonra, «görüm necə səslənir?» — deyə son bəndi ucadan oxumağa başladı:

...Daha nə istərsən məndən, ay canım?
Başına dolanım, oduna yanım,
Qıyma yarı yolda durum, dayanım,
Çalış, zinət olaq zamana, ömrüm.

«Pis səslənmir!» — deyə Şəfi özündən razı qalmışdı, dəftəri büküb kənara qoydu. Sönmüş siqaretini alışdıranda, həyət darvazasının çaxçaxının döyüldüyünü eşitdi. Dinşədi. Bəli, onların qapısı idi döyülən. «Bu vaxt kim ola bilər?» — deyə düşünə-düşünə cəld qalxdı və pencəyini çiyninə salıb çölə çıxanda: «Ya Ziyaülhəqqdi, ya da Elməddin. Görəsən nə hadisə üz verib?» — dedi ürəyində və nigarançılıq içində darvazanın kiçik qapısını «kimsən, nə istəyirsən?» — soruşmadan açdı. Qabağında şala bürünmüş, uzunsifətli tanımadığı

kişini görəndə duruxdu. Kişi üşüyürmüş kimi titrəyirdi. Eyni titrək səslə:

— Ağayi Şəfi? — deyə xəbər aldı.

— Bəli, sizə nə lazımdı, ağa?

Cavab əvəzinə güllə açıldı. Sinəsini nə isə isitdi, o, qeyri-iradi qışqıranda ikinci güllə sifətini, daha doğrusu, sağ gözünü tutdu. Üçüncü güllə atılmadı — kişi, özü də güllə səsindən qorxmuş kimi yerindən qopub qaçmağa üz qoydu. Şəfi səndirləyib yıxıldı. Bir əli sinəsində, bir əli gözünün üstündə idi. Güllə səsinə Məleykə də, Bəbrək də oyanmışdı. Bəbrək köynəkdə — dizlikdə, əynində uzun gecə paltarı küçəyə qaçan anasının dalınca yüyürmüşdü. Darvaza ağzında Şəfini yıxılmış görən Məleykə özündən xəbərsiz dəli bir fəryad qoparmışdı. Var gücü ilə Şəfini yerindən qaldırıb Bəbrəkin köməkliyi ilə içəri gətirmişdi. Şəfinin sifəti qan içində idi, yun köynəyinin sinəsi qıpqırmızı qızarırdı. Məleykə ağlaya-ağlaya donub qalmış Bəbrəkə üz tutub:

— Tez qaç Elməddin əmini çağır. Denən qibləgahımı vurdular! — dedi. Bəbrək alt paltarında qapıdan güllə kimi çıxdı. Yolda çılpaq, ayaqyalın olduğunu başa düşdüsə də, əhəmiyyət vermədi, qaçdı.

Qızlar oyanmışdı. Atalarını qan içində görüb qorxmuş və ağız-ağıza verib ağlamağa başlamışdılar.

— Can, Şəfi, səni hansı əli qurumuş bu günə saldı, sənə necə qıydılar? — deyib gah üzünün qanını silir, gah da sinəsinin yarasının gözünə əski tuturdu, qanın qarşısını almağa çalışırdı. Şəfinin rəngi ağarmışdı. Zarıyır, qorxmuş arvadına təsəlli vermək istəyirdi:

— Qorxma! — deyirdi.

— Necə qorxmayım, ay Şəfi?! Gözümün qabağında... — o, sözünün dalını deyə bilməyib hönkürürdü.

Əvvəl Elməddin özünü yetirdi, dalınca Ziyaülhəqq təngnəfəs içəri girdi. Ona Elməddin zəng eləmişdi. İlk sarsıntılı anlarda Elməddinin də, Ziyaülhəqqin də nə dedikləri heç kəsin yadında deyildi, heç özlərinin də. Məleykənin ağlaya-ağlaya söylədiklərindən başa düşdülər ki, kimsə çağırıb Şəfini, darvazanın ağzında vurub qaçıb. Vəssalam. Ziyaülhəqq arxası üstə uzanmış Şəfiyə baxan kimi anladı ki, sağ gözü çıxıb. Əgər beyni də zədələnibsə, onda heç. Sinəsindəki

güllə yeri qorxulu deyildi. Güllə çəpəki dəymişdi, sol döşünün giləsini və qabırğa üstü dərini siyirib aparmışdı.

— Vaxt itirmək olmaz. Haydı, Elməddin, götür. Aparaq şəfaxanaya. — Elməddin nəmli gözlərini ondan gizləməyə çalışaraq aşağı əyildi. Şəfini qolları üstünə götürdü və həyətə çıxdı. Ziyaülhəqq divanın ortasındakı yorğançanı qapıb gedə-gedə:

— Sən qal uşaqların yanında, Məleykə! — dedi.

— Yox, mən də gedirəm.

— Olmaz!

Ziyaülhəqqin qətiyyətlə dediyi bu sözə o, tabe olub yerində dayandı.

Qara maşın gecənin qaranlığında gözdən itdi.

Ziyaülhəqq sükan arxasında idi, Elməddin arxa oturacaqda Şəfinin yanında oturmuşdu. Şəfi uzanmışdı, başı Elməddinin dizləri üstündəydi.

— Hara aparırsan, Ziya?

— Şurəvilərin səfərətxanasının şəfaxanasına. Bizimkilərin əlinə düşsə, öldürtdürəcəklər. Bu, sui-qəsddir, Elməddin.

...Şəfaxananın qapısının düyməsini Ziyaülhəqq basdı. Elməddin Şəfini qolları üstündə saxlamışdı. Şair ufuldayır, qırıq-kəsik sözlər deyirdi, Elməddin ona təsəlli verirdi. İki-üç dəqiqə keçməmiş ağ xalatlı, ucaboylu, çallaşmış sarı saçlarını yana daramış bir kişi qapını açaraq gecənin bu vaxtı gələn adamlara yuxulu nəzər saldı. Adamların əfqan olduğunu və nəsə ağır yaralı gətirdiklərini görən kimi ciddiləşdi, göy gözlərində həyəcan, təmiz əfqan dilində:

— Befarmayid! — söylədikdə Ziyaülhəqq səlis rus dilində: — O, siz nə yaxşı əfqanca bilirsiz, doktor! —dedi. Ağ xalatlı kişi də bu bığlı, kök əfqanın belə gözəl rusca danışa bilməsindən çox sevindi. Ziyaülhəqqin rusca bilməsi Elməddin üçün də yenilik idi. O, qolları üstündə zarıyan Şəfidən göz çəkməsə də, Ziyaülhəqqə heyrətlə baxmaqdan özünü saxlaya bilmədi. Sonra doktorla Ziyaülhəqq rus dilində nə isə tez-tez danışdılar, doktor onları içəri dəvət elədi. Şəfini dəhlizdəki ağ örtüklü arabanın üstünə qoymağını işarə elədi doktor və ona ötəri baxdı.

Ziyaülhəqq doktora söylədi:

— Onu xilas eləyin, doktor. O bizim böyük şairimizdi. Özü də burda qoymayacağıq, evə aparacağıq. Siz baxın, görün ağır deyil ki. İlk yardım eləyin, doktor.

Xəstə gətirildiyini bilən kimi iki-üç nəfər də ağ xalatlı arvad yığışdı. Heç beş dəqiqə çəkməmiş onu arabada içəri apardılar. Ziyaülhəqqə və Elməddinə burada gözləməyi tapşırdılar. Onlar uzun, gül dibçəkləri düzülmüş dəhlizdə qoyulmuş stullarda oturdular. Elməddinin üst-başı qan idi. Rəngi ağarmışdı. Görünür qorxmuşdu Elməddin. Ziyaülhəqq onun uçunduğunu görüb:

— Qorxma, ölməyəcək ustad!—dedi.

— Ölməyəcək? — deyə Elməddin sevinclə soruşdu.

— Hə, yarası o qədər də ağır deyil. Görünür, sinəsinə atəş açılacağını hiss eləyib özünü qaçırdıb, güllə çəpəki dəyib. Düzünə dəysəydi, ürəyini dərhal dağıdacaqdı. Başına atılan güllə də yanakı dəyib. Amma gözü tökülüb ustadın.

— Demək kor olacaq ustad?!

— Sağ gözsüz qaldı ustad.

Onlar asta-asta, kədərlə danışırdılar. Ustadın vurulması hər ikisinə ağır təsir eləmişdi.

— Gərək Bəbirə də xəbər verəydik, — deyə Elməddin köks ötürüb dillənəndə Ziyaülhəqq:

— Hələ yox. Səhər deyərik. Onsuz da heç nə eləyə bilməyəcəkdi. Nigarançılıq içində çapalaya-çapalaya qalacaqdı. Çünki o özü ciddi nəzarət altındadı.

— Mən onun üçün də qorxuram, Ziya!

— Daha qorxmaqdan keçib, Elməddin. Şəfinin vurulması artıq açıq hücumdu. Daha doğrusu, üstüörtülü açıq hücumdu,

— Yəni deyirsən bu sui-qəsdi yuxarıdan təşkil eləyiblər?

— Əlbəttə. Yoxsa Şəfi kimin toyuğuna daş atmışdı? Bu, ancaq siyasi sui-qəsddi. Şəfini susdurmaq istəyirlər.

— Bəs onda o həngamə nə idi —əlahəzrətin qəbulu, filan.

— Eh! Onlar hamısı siyasi hoqqabazlıq, camaatın, əfkara-ümuminin gözündən pərdə asmaq üçün lazım idi, qardaş!..

— Bu, siyasi ikiüzlülükdü elə isə!

Bir az sonra Elməddin Ziyaülhəqqin səlis rusca danışdığını xatırlayıb:

— Yaxşı, siz rus dilini harda belə öyrənmisiniz, Ziya?

— Mən? — o, ömrünün xoş günlərini xatırlamış adam kimi gülümsündü və astadan:— Rusiyyətdə!

— Rusiyyətdə? Siz Rusiyyətdə olmusunuz?

— Hə. Düz iki il yaşamışam o gözəl məmləkətdə. Mən axı hərbçi idim — təyyarəçi idim. Bizi Rusiyyətdə təyyarəçilik məktəbində oxumağa göndərmişdilər. Rus dilini orada öyrəndim, Elməddin.

— Bəs niyə indi təyyarəçi deyilsiniz?

— Mən orada olarkən bir rus qızı ilə evlənmişdim. Lilya xanıma. Mən ona Leyli deyirdim həmişə. Cavan, ağıllı, gözəl bir qız idi. Məktəbi qurtardıqdan sonra Leylini də Kabilə gətirdim. Gələn kimi isə məni ordudan tərxis elədilər.

— Niyə?

— Hökumətin qərarı var: hərbçi zabit xarici millətin təbəəsi ilə evlənərsə, o, orduda xidmət edə bilməz. Guya etibarsızlıq yaranır. Guya o casus ola bilər, məni də öz devlətinin xeyrinə işləməyə sövq eləyə bilər. Mənim isə əvvəl heç elə fikrim yox idi. Amma onlar mərdi qova-qova namərd eləyənlərdi. Odur ki, mən bu yolu seçdim — sən ki mənə etibar eləmirsən, mən sənin nəyinə qulluq eləyim. O vaxtdan — məni o quş qanadlı təyyarəmdən ayırandan bunlara nifrətim yaranıb, Bu dəstgah, bu rejim — insan arzusunun, insan şəxsiyyətinin adi hüquqlarının düşmənidir.

— Bəs Leyla necə oldu?

— Eh, Leyla adi bir faciənin qurbanı oldu. Bir gün Cəlalabada gedəndə maşınımız aşdı. Mən və oğlumuz sağ qaldıq, Leyla isə... Leyla isə öldü...

— Allah rəhmət eləsin!!

— Sağ ol, Elməddin. Rəhmət oxunmalı adam idi, yazıq. Beş il yaşadıq, ondan bir zərrə qədər incimədim. Dilimizi elə gözəl öyrənmişdi ki, elə gözəl öyrənmişdi ki, danışanda heç kəs bilməzdi ki, bu, rus qızıdı, ya əfqan qızıdı. Hər il o ölən günü oğlumla qəbrinin üstünə gedirik, məzarına gül-çiçək dəstəsi qoyuruq, qayıdıb gəlirik,

— Kabildə dəfn etmisiniz?

— Hə. Valideynimin yanında.

Hava işıqlaşanda Anatoli Filipoviç cərrahiyyə otağından çıxdı, onlara tərəf addımladı. İkisi də ayağa qalxıb qabağına yeridi.

Anatoli Filipoviç əllərini çiyninə atdığı dəsmalın ucu ilə qurulaya-qurulaya:

— Yaşayacaq sizin şair! — dedi. — Güllə atan ya naşı imiş, ya tələsib, yaxud həyəcanlı olub! Bir sözlə, sizin əfqanların tez-tez dediyi kimi, Allah üzünə baxıb! O, alınan hökmə görə, ölməli imiş. Ürəyi və başı hədəf imiş! Xoşbəxt təsadüf üzündən güllələrin ikisi də yayınıb. Ancaq... sağ gözü işdən çıxıb, onu götürməli olduq.

— Sağ olun, doktor. Sizə minnətdarıq, — deyə Ziyaülhəqq onun əlini sıxdı. — Çox minnətdarıq, doktor.

* * *

Sübh çağı idi. Hava təzə-təzə işıqlanırdı. Elməddin düşünürdü ki, indi Siminbər yatmış olar. Ancaq yatmayıbmış. O, həyətə girən kimi Siminbər əlləri qoynunda artırmaya çıxdı. Elməddinin paltarlarını qan içində görüb irəli cumdu, qorxmuş halda:

— Şəfi öldü? — deyə onun boynuna sarıldı və hönkürdü. Elməddin onun başını sinəsinə sıxdı, kürəyində əlini gəzdirə-gəzdirə:

— Ağlama, Simin. Ölməyib. Xoşbəxtlikdən, ölməyib. Yaralanıb. Ağlama. Qorxulu heç nə yoxdu. — söylədi.

— Düz deyirsən, Elmi?!

— Vallah, hə.

— Təki olsun, təki olsun. Əlləri qurusun. Elə adama da qıyarlar?

— Qıyırlar, mənim ağıllım, qıyırlar, — dedi Elməddin və ah çəkib: — Gecə qorxmadın ki?—deyə soruşdu.

Siminbər başını ərinin enli sinəsindən ayırıb nəmli gözlərilə ona baxdı:

— Yox. Nədən qorxacam? İstədim mən də gələm ora. Ancaq evi tanımırdım.

— Hə. Səni hələ onlara aparmamışam. Şəfi o gün deyirdi ki, sizi novruzdan sonra qonaq çağıracam. Deyirdi gərək təzə gəlin üçün «ayaq açdı» eləyək.

Onlar danışa-danışa içəri girəndə Siminbər dedi:

— Paltarlarını dəyiş, yuyun.

— Hə, dəyişməyinə dəyişərəm. Ancaq sən də yuxusuzsan, sən get yat. Mən ölürəm yuxu üçün. Bu gecə heç çimir də eləməmişik Ziyaülhəqqlə.

— Sənin yerini düzəldim, yat. Mən sonra yataram, Elmi.

— Beş dəqiqə keçməmiş Elməddin artıq yatağında idi. Yorğun, yuxusuz olduğundan elə o saat yuxuya getmişdi.Simin su qızdırdı. Elməddinin pencəyini, şalvarını yumağa hazırlaşırdı. Fikri çaş-baş idi. Şəfinin vurulması xəbərini dünən Bəbrəkdən eşidəndən sarsılmışdı. Onun gözündə Şəfi Elməddinin böyük qardaşı idi, atası idi. Elməddin ustadından o qədər ağızdolusu danışmışdı Siminə; gəlin elə bilirdi ki, Şəfini çoxdan, lap çoxdan tanıyır. Tanış olduqları bu az müddətdə şair öz sadəliyi, mehribanlığı, ağsaqqallığı ilə Siminin nəzərində ilahiləşmişdi. İndi onu vurmuşdular. Simin ha istəyirdi ağlamasın, qeyri-iradi gözlərindən yaş axırdı ki, axırdı. Onun ürəyinə dammışdı ki, xoşbəxtlikləri Şəfinin adı ilə bağlıdı — onun başına bir iş gəlsə, Elməddin də məhv olar. Bu hiss Simini dünəndən bəri tərk eləməmişdi və səhərəcən də yatmağa qoymamışdı. Özünün də yuxusu gəlirdi, məmnuniyyətlə uzanıb iki-üç saat yatardı. Ancaq uşaqlıqdan elədiyi adət üzrə, əlində görməli iş olduqda, ev, qab-qaşıq çirkli olduqda rahatlıq bilmədiyindən indi də paltarları yumamış yatmaq istəmirdi. Sobanın üstündəki su qızmışdı, onu qaldırıb ləyənə tökəndə həyətdə danışıq səsi eşidib dikəldi, pəncərədən boylandı. İki polis nəfəri artırmanın qabağında dayanmışdı. Siminin ürəyi ayağı altına düşdü, sifətində qan qalmadı. Buna baxmayaraq o, qapını açıb çölə çıxdı:

— Siz kimi istəyirsiz, ağayi polis? — deyə o, nisbətən yaşlı, ucaboylu polisə müraciət etdi.

— Bura ağayi Elməddinin evidir?

— Bəli.

— Ağa hardadır?

— Yatıb.

— Zəhmət olmasa, onu çağırın.

Simin qıçı qıçına dolaşa-dolaşa geri qayıtdı. İçəri otağa keçib Elməddinin çarpayısına yanaşdı. O, şirin-şirin yatmışdı. Ayrı vaxt olsaydı, Simin dünyasında qıyıb onu yuxudan oyatmazdı. Lakin indi, deyəsən, vəziyyət ayrı cürə idi. Yəqin Şəfinin vurulması məsələsini aydınlaşdırmağa gəliblər. Ya bəlkə?

Simin ağlına gələn fikirdən qorxmuş halda Elməddini silkələdi:

— Elmi, Elmi, qalx.

Elməddin gözlərini açdı.

— Polislər gəliblər! Səni istəyirlər!

— Polislər?

— Hə. Siz ustadın vurulmasını polisə xəbər vermişdiz?

— Yox! — deyərək o, yeriidən sıçradı, Siminin səliqə ilə stulun başına qoyduğu təmiz paltarları geyindi, pencəyini, yaxasını düymələyə-düymələyə çıxanda Simin ağlamsınıb:

— Onlar səni neynirlər, Elmi? — deyə soruşdu. Elməddin cavab verməyib bayıra atdı özünü. Polisləri görəndə tam ayıldı. Salam verməyi də unudub:

— Buyurun, ağa. Elməddin mənəm, — dedi.

Uzun polis nəfəri, rəsmi qaydada cibindən iri bükülmüş bir vərəq çıxartdı və Elməddinə göstərdi:

— Bizə tapşırıblar sizi şəhər polis idarəsinə aparaq, ağa.

— Niyə? Neynəmişəm ki?

— Biz balaca adamlarıq, ağa. Biz əmri yerinə yetiririk. Bizə deyiblər sizi tapıb aparaq. Odur ki, xahiş edirəm hazırlaşın, gedək. Yaxşı olardı ki, bir dəst də yorğandan, balışdan-zaddan götürəsiniz. Lazım olar.

Elməddin düz polisin gözlərinin içinə baxdı. O gözlər soyuq və mənasız idi. Söz güləşdirməyin, etiraz etməyin də yeri deyildi. O, geri dönəndə Siminin arxasında dayandığını görüb özünü itirən kimi oldu. Günahkar kimi onun ağlar və qorxu dolu gözünə şax baxa bilmədi. İkisi də içəri keçdi. Qapını örtdü dalınca Elməddin.

— Səni aparmağa gəliblər, hə?

— Hə, — dedi Elməddin sakitcə. Ancaq bu zaman Simin onun yaxasından yapışdı, sonra, demək olar ki, qucaqladı:

— Yox, səni buraxmayacağam, Elmi. Səni heç kəsə verməyəcəyəm, Elmi.

— Sakit, Simin, sakit ol, rica edirəm, özünü ələ al. Ona sənin gücün çatmaz. Biz hələ gücsüzük onların müqabilində. Yəqin nə isə bir anlaşılmazlıq olub. Tez qayıdacağam. İşdir geciksəm, tək qalma, anangilə get, ya onlardan bir kimsəni gətir yanında qalsın. Pullar evdədir, korluq çəkmə. Yaxşı? Qibləgahına deyərsən Şəfidən tez-tez xəbər tutsun. Ziyaülhəqq gəlsə, deyərsən polis gəlib apardı.

— Elmi, sən nə danışırsan, Elmi? Mən sənsiz... — o, sözünü bitirməyib Elməddini qucaqladı, üzündən-gözündən öpdü. Elməddin də onu bağrına basıb dodaqlarından öpdü.

Sonra Elməddin çölə çıxdı. Simin dalınca artırmaya gəldi. Elməddin həyətin ortasında polis nəfərlərinə çatanda dönüb geri baxdı. Siminin səssiz-səmirsiz ağladığını görüb kövrəldi, bir an ayaq saxlayıb ona əl elədi, dodaqaltı «xudahafiz!» söylədi.

Onlar darvazadan çıxanda qapı ağzında üstüörtülü yaşıl-boz rəngli maşının dayandığını görüb Siminin ürəyi sıxıldı, Bu, dustaq maşını idi..

Uzun polis kabinəyə, arıq, cavan polis isə Elməddinlə arxaya mindi. Maşın tərpəndi, Simin, hərəkətsiz, için-için ağlaya-ağlaya maşının ardınca baxdı. Və bu an, haradansa Məleykənin onlara gələrkən dediyi bu sözlər yadına düşdü:

«Ürəyimə damıb, sən xoşbəxt olacaqsan, Simin!».

ÜÇÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Gözlənilmədən, dalbadal gələn ağır və sarsıdıcı xəbərlər — Şəfinin öz qapısının ağzında vurulması, bir ay əvvəl evlənib yeni ailə həyatı qurmuş Elməddinin həbs olunması xəbərləri onsuz da gizli təşkilatın bütün ağırlıqlarını çiynində daşıyan, gecəni gündüzə qatıb işləyən, qarşıdakı parlament iclasında edəcəyi çıxışın mətnini yazıb-pozan, vaxtlı-vaxtında yeyib-içməyini belə yadından çıxaran Bəbirin ovqatını yamanca təlx eləmişdi. Xəbərin ikisi də ciddi düşünmək, siyasi vəziyyəti qiymətləndirmək və müəyyən nəticələrə gəlmək üçün kifayət qədər əsas verirdi.

Bəbir Şəfini çox sevirdi, onun istedadını yüksək qiymətləndirirdi, sözünün, özünün şöhrətinin hezbə necə də gərəkli olduğunu çox yaxşı bilirdi. Şəfinii — bu qüdrətli sənətkarın, şəxsiyyəti bütöv, əqidəsi sarsılmaz olan bu insanın onların cəbhəsində olması böyük qüvvə idi. Onun el içində, camaat arasındakı nüfuzunu təkcə Bəbir və məslək yoldaşları deyil, onun irəlicədən də düzgün təyin etdiyi kimi, düşmənləri də görürmüşlər. Şairin həbsxanadan azad olunması üçün keçən dəfə Kabilin küçələrini tutmuş o güclü, izdihamlı nümayişlərdən sonra, əlahəzrətin ağıllı tərpənib başqa, daha təhlükəli xətt-hərəkət seçməsini Bəbir elə həmin gün — Şəfi «Ərki-şahi»dəki qəbuldan çıxıb yanına gələndə hiss eləmişdi və bu qabulun nə demək olduğunu bütün incəliklərinə qədər başa düşmüşdü. Hadisələrin sonrakı gedişi Bəbirin yanılmadığını göstərirdi. Şairi vurmuşdular. Bu xəbəri eşidən kimi Ziyaülhəqqin polis idarəsinə gedərək hadisəni şəhər polis rəisinin nəzərinə çatdırmasına baxmayaraq, qatil hələ də tapılmamışdı. Belə qənaətə gəlmək olardı ki, tapılmayacaqdı da.

Çünki, əvvələn, onun axtarılmasına Bəbir inanmırdı. İkincisi qatil yəqin sazmane-əmniyyənin pullu muzdurlarından idi. Ona görə də elə keçməsini, mühakimə olunmasını gözləmək, Bəbirin fikrincə, ağılsızlıq olardı.

Şəfi indi daha çox işləməli, ruznaməni vaxtında və yüksək keyfiyyətlə çıxarmalı ikən yaralı halda yatırdı; həqiqətdə, vurulub döyüş cəbhəsindən çıxarılmış əskərə bənzəyirdi. Halbuki, o, parlament seçkiləri qabağı daha çox iş görə bilərdi. Elə bil, Bəbirin sağ əlini qılıncla vurub salmışdılar. Bütün bu çətinliklərə baxmayaraq, Bəbir şairin yalnız xoşbəxt bir təsadüf üzündən sağ qalmasına çox sevinirdi, Şəfini belə bir vaxtda itirmək əvəzsiz və sağalmaz bir itki ola bilərdi. Bəbir onun ürəyinə, inadına bələd idi, bilirdi ki, o sağalıb ayağa qalxandan sonra daha böyük cəsarətlə, coşub-çağlayan bir nifrət hissilə yenidən qələminə sarılacaq və ağzından od püskürəcək. Bəbir fikirləşəndə ki, indi şairin sağ gözü yoxdur — dəhşətə gəlirdi. O cür yaraşıqlı, qüdrətdən nöqsansız yaranmış insanın uşaq qəlbi təkin təmiz, ləkəsiz qəlbini ayna kimi özündə əks edən o nurlu gözlərin biri indi yoxdur! «Görən gözlər çıxarılır!» Bu fikir Bəbirin beynində elə hey hərlənir, ona rahatlıq vermirdi.

Elməddinin də Şəfi vurulan günün səhəri evdən aparılması, təzə gəlinin üzünü doyunca görmədiyi ərinin dalınca göz yaşı axıtması Bəbiri Şəfinin taleyindən az narahat eləmirdi.

Bəbir onun Zərrintacdan ayrılandan sonra bu tezliklə evlənməsinə əslində razı deyildi. «Məncə, hələ tezdir, Elməddin nahaq tələsir, Şəfi! Bizim işimiz, həyatımız elədir ki, bilmək olmaz sabah başımıza nə gələcək. Bir güllə qurbanı olacağıq, ya dar ağacından asılacaq, yaxud ömürlük həbs cəzasına məhkum olacağıq? Bilmək olmaz, Şəfi», — demişdi Bəbir. Həmişə dünyada kimisə xoşbəxt etmək, səadətə qovuşdurmaq, arzusu ilə yaşayan Şəfi isə «Düz deyirsən, qardaş. Mən sənինlə şərikəm. Ancaq madam bir-birlərini sevirlər, qoy evləndirim. Elməddin də tək oğlandır. Baxanı yoxdur!» — deyə Bəbirə dil töküb razı salmışdı. «Nə deyirəm, xoşbəxt olsunlar. Mən xeyir-duamı verdim». İndi Bəbir haçansa Şəfi ilə elədiyi bu söhbəti xatırlayır, ağlar gözlü Simini düşünür və yenicə qurulmuş ailə üçün bu hadisəni əsl faciə hesab edirdi.

Qoca general, oğlunun neçə vaxtdan bəri qayğılı-fikirli gəzib-dolaşdığını, üzünün gülmədiyini görürdü. Əhvalatı, əlbəttə, o da eşitmişdi. Elməddini şəxsən tanımırdı, ancaq Şəfiyə yaman heyfi gəlirdi Əziz xanın. Oturub-durub onun barəsində fikirləşirdi — lakin

o, Bəbir qədər bu işə heyrətlənmirdi — çünki əlahəzrət ordusunda xidmət elədiyi uzun illərdə Şəfi kimi oğulların birdən-birə yoxa çıxmasını, «xəstələnib, ölməsini», «təsadüfən qəzaya uğramasını»; az eşitməmişdi, az görməmişdi. Bu üsul əlahəzrətin mərhum atasının da çox sevdiyi üsul idi və görünür, atasından əlahəzrətə təkcə taxt-tac miras qalmamışdı. Bu üsullar da irsən keçə bilirmiş! Odur, ki, dünyagörmüş Əziz xan oğlunun baş vermiş hadisələrdən bərk sarsıldığını, günlərlə narahat, nigaran həyat keçirdiyini hiss edib bir gün, Hikmətəli Bəbirin əl vurmadığı naharı qəmgin-qəmgin geri qaytarandan sonra, arıq damarları çıxmış əlini onun çiyninə qoyub dedi;

— Daha qüssə eləməkdən keçib, oğul. Olan olub, nə etmək olar? Sən, görürəm, özünü tamam unutmusan. Yaşamaq və vuruşmaq üçün sağlam olmaq, yemək lazımdır, bala.

Bəbir, başını qaldırıb kədər dolu baxışlarını atasına zillədi, qəmli bir təbəssümlə:

— Mənim əllərim kəsilib, qibləgahım, mən necə yeyim? — söylədikdə Əziz xan onun cod, qara saçlarını qarışdırıb;

— Əlsiz də olsa yeməlisən, — dedi. — Yaşamaq və döyüşmək üçün yeməlisən, bala. — Sonra üzünü açıq qapıya tutub: — O beçə, ay Hikmət, o yeməyi bura gətir! — deyə ucadan səsləndi və yavaşdan əlavə etdi: — Elə mən də acam, ikimiz bir yerdə yeyərik.

Bəbir atasının arzusunu başa düşdü. Və sanki, yalnız indi bərk acdığını hiss elədi və kişiyə baxıb gülümsündü.

Əziz xan oğlunu söhbətə tuta-tuta yedirtdikdən sonra rahatlandı, özü də gümrahlandı. Gülə-gülə dedi:

— Saçın-saqqalın ağarır, ancaq yenə uşaqsan ki uşaqsan, bala. Gərək mən gözümü sənin üstündən çəkməyəm. Yoxsa...

— Şəfinin bir şeri var, deyir ki, övlad valideyin üçün həmişə uşaq olaraq qalır. Baba olsa da.

— Düz deyir Şəfi.

Şəfi nəyi düz demir ki, qibləgahım?

Onlar — ata-oğul yaranmış vəziyyəti hərtərəfli götür-qoy elədikdən sonra Bəbir o günkü ruznamələri nəzərdən keçirməyə başladı. «Pərçəm»in yeri göründü. «Pərçəm» üç həftə idi çıxmırdı. Bəbirin qəlbinin başı göynədi. Mövcud vəziyyət elə idi ki, hələ bu

tezliklə, görünür, «Pərçəm» ruznamələr içində görünməyəcəkdir. Bu isə indi heç arzuolunmaz hal idi.

Əziz xan son günlər xüsusi bir narahatlıq da keçirirdi — o da Mişranu-cirkənin[1] bu günlərdə açılması ilə əlaqədar idi. Oğlunun danışıqlarından kişi başa düşmüşdü ki, məclisdə çıxış eləməyə hazırlaşır. Bilirdi ki, Bəbirin deyiləsi sözü çoxdur — susmaq, nöqsanlara, dərdlərə göz yummaq onun təbiətinə yabançıdır. Məmləkətin bütün vilayətlərindən, ayrı-ayrı nahiyyələrdən olan millət nümayəndələrinin — vəkilləri arasında Kabilin dördüncü nahiyyəsinin vəkili Bəbirin bu yüksək dövlət məclisinin iclaslarındakı cəsarətli, qorxmaz çıxışları camaatı həmişə həyəcana gətirirdi. O, əlahəzrətin özünün də şəxsən iştirak etdiyi belə yığıncaqlarda çəkinmədən hökumətin, siyasətin, iqtisadiyyatın, mədəniyyətin mühüm problemlərini qaldırır, diqqəti həll olunmalı məsələlərə yönəldirdi. Onun mikrofon qarşısında ucadan, qətiyyətlə dediyi sözlər böyük əksəriyyətin ürəyinin sözləri olurdu və ona görə də hamıya ləzzət eləyirdi. Əbəs deyildi ki, məhz buna görə el arasında Bəbirin qeyri-rəsmi bir adı da var idi: «Lisanül-millət!»[2]. Bunu Əziz xan özü neçə dəfə müxtəlif məclislərdə, müxtəlif adamların dilindən eşitmişdi və doğrusu, ürəyində gizli bir iftixar da duymuşdu. Ancaq o, ata kimi, çomağın o biri başını da gördüyündən oğlunun taleyindən bərk nigaran qalmışdı. Bu nigarançılıq indi yaranmış vəziyyətdə həmişəkindən qat-qat artıq idi. Şəfinin, Elməddinin başına gələnlər onun da başına gələ bilərdi. Doğrudur, məclis vəkili toxunulmaz idi — Bəbir toxunulmaz idi. Ancaq Əziz xan gözəl bilirdi ki, bu, bərbəzəkli sözdür. Onlar Bəbiri öldürtdürüb üstündə göz yaşı da tökə bilərlər. Necə ki, Şəfinin qatilini «əlimyandıda» axtarırlar, tapılan kimi ölüm hökmü kəsəcəklərinə söz verirlər.

Əziz xan bu daxili narahatlıq içində Bəbiri «yumşaltmaq» üçün deyirdi:

— Bilirəm, çıxış eləyəcəksən, elə deyilmi?

— Hə, qibləgahım.

[1] Mişranu-cirkə — yuxarı palata.

[2] Lisanül-millət — millətin dili.

— Çalış, bir az yumşaq danış, bala. Başını öz əlinlə aparıb onların bıçağına sürtmə.

— Görək də, qibləgahım. Bacara bilsəm...

— Təmkinli ol, oğul. Hər işdə təmkinli olanlar udurlar. Bunu sən gərək ki, biləsən,

— Düşünən adamın içərisi, ürəyi yanır axı, qibləgahım. Axı bu ağayi nəxost-vəzir neçə ildi sənin hökumətinin başçısıdı, bu xalqın, bu torpağın neçə deyərlər sahibidi. Amma neyləyib? Hə, neyləyib? Heç nə! Dövlət xaricdən çoxlu borc alıb. Məmləkətin iqtisadi dirçəlişi üçün o puldan cüzi bir şey xərclənib. Qalanı hanı? Çırtapırta gedib, dağıdıblar. Vəssəlam. Bu yaxınlarda iranlıların böyük və qeyrətli şairi Eşqinin kitabını oxumuşam. Şəfi gətirmişdi. Zülmün, haqsızlığın ərşə dirəndiyini görən şair «Pənc ruz eydi-xun»[1] nəzəriyyəsini irəli sürür. Həmin nəzəriyyənin əsası budur ki, hər il beş gün qan bayramı keçirilsin, oğrular, əyrilər, xalqın malına, canına qəsd eləyənlər, vətənini satanlar iri bir meydanda camaatın gözünün qabağında dar ağacından asılsın, bu, hər il təkrar edilsin, ta o vaxta qədər ki, cəmiyyət bu müzür ünsürlərdən təmizlənsin, ibrət dərsi olsun hamıya.

— Əcəb fikirdir, oğul.

— Əcəb fikirdir, düz deyirsən, qibləgahım. Bu, cəmiyyəti təmizləməyin yollarından biridir. Ancaq bizim prinsipimizə uyğun gəlmir, qibləgahım. Çünki anarxiyaya aparıb çıxara bilər — biz isə anarxiyanın əleyhinəyik. Bu, dediyim kimi, cəmiyyəti saflaşdırmağın çoxlu yollarından biridir, biz isə bu köhnə binanı təmir etmək, bəzəyib-düzəmək, yaraşığa mindirmək fikrində deyilik, çünki onun artıq bünövrəsi çürüyüb, gec-tez uçmalıdır bu bina. Biz onu uçurtmalıyıq. Yol ancaq budur.

— Bəs o Eşqi dediyin şairin aqibəti nə oldu? — deyə qoca general oğlunun özü də hiss etmədən qızışdığını, fikrini gecə-gündüz məşğul eləyən məsələləri açıb ortalığa tökdüyünü görüb dərdli-dərdli ah çəkdi və söhbətin səmtini dəyişdi. — O, Eşqinin fikrinin axırı nə oldu, bala?

[1] Beş gün qan bayramı.

— Nə olacaq, qibləgahım? Rza xanın nökərləri iyirmi dördüncü ildə elə qapısının ağzındaca cavan yaşında vurub öldürdülər, qanına qəltan elədilər. Öldürüləndə heç otuz yaşı yox idi. — Bəbir susub nə fikirləşdisə, astadan sözünə davam elədi: — Hərdən düşünürəm ki, Eşqi yazıq düz deyirmiş. Bu nəxost-vəzirləri, bu əlahəzrətləri, bu vəzirləri — bu zülmkar ağaların hamısını, hamısını dar ağacından asmaq lazımdır, yalnız dar ağacından!

Əziz xan bu söhbəti saldığına peşman oldu. Bəbirin dərdləri təzələndi, gözərib yandı, içini alovlandırdı. Onun qalın, qara, çatma qaşları dartıldı, gözləri qəzəb qığılcımları saçdı. Bəbirin bu halını görən Əziz xan ayağa qalxdı, söhbətin qurtardığına işarə edərək:

— Allah səni hifz eləsin, oğul!—dedikdə Bəbir də stolun arxasından durdu və:

— Allah dediyin o varlıq özü məgər bu zülmləri görmürmü, — qibləgahım? — dedi. — Əgər varsa, görməlidi axı, qibləgahım!

—…

Əziz xan başını sinəsinə endirib otaqdan çıxdı.

İKİNCİ FƏSİL

Dünyanın işinə bax: bütün varlığı həyat eşqi ilə, gözəllik duyğusu ilə yoğrulmuş Şəfi çox sevdiyi bu dünyaya, günəşə, güllərə, Məleykəsinə, Elməddin şerində demişkən, gözəl-göyçək balalarına indi tək gözlə baxırdı. Kədərli, qaradinməz olmuşdu Şəfi. Əsəbləri sim kimi gərilmişdi, sinəsinin, gözünün yarası sağalmaq üzrə olsa da, qəlbinə vurulmuş yara sağalana oxşamırdı. Gecələrinin, demək olar ki, hamısı əzablı, üzücü düşüncələr içində keçirdi;—doyunca yatmağa həsrət idi. Çimir eləyəndə də quş yuxusunabənzər uyumalarında güllə səsi eşidir, səksənir, tək gözünü hərəsan-hərəsan ətrafa dolandırır, evdə olduğunu yəqin edəndən sonra yenə yatmaq istəyirdi, ancaq yuxu ondan qaçaq düşürdü. Xiffətdən, qüssədən, şikəstlik dərdindən arıqlamışdı, zəifləmişdi. Məleykənin bütün cidd-cəhətlərinə baxmayaraq, iştahsız, həvəssiz yeyib-içirdi. Fikrində gecəyarısı qapısını döyən, ona güllə atan adamın surəti, səsi dolanırdı. Tanımırdı, elə

adam görməmişdi; bəs kim idi o? Niyə onu öldürmək istəyirdi? Və niyə öldürmədi? Axı öldürə bilərdi? Bəlkə?.!. — Bu suallar bir-birinə bənd olub çözələnir, şair onlara cavab tapa bilmirdi.

Bəbirin qəbuldan sonra üstüörtülü olsa da işarə elədiyi şübhələr, nigarançılıqlar yadına düşürdü və bu fikirlər dolana-dolana gedib yuxarılara, saraya çatırdı. Əlahəzrətin qonaqlarının hüzurunda söylədiyi «Ağayi Rəhgüzərin qədrini bilin, o, bizim məmləkətin birinci dərəcəli şairidir! — sözlərini xatırlayırdı və onun əsl mənasını indi-indi anlayırdı. Və bu onu çox məyus eləyirdi. Bəbirin müdrikliyinə, uzaqgörənliyinə heyrət eləyirdi Şəfi və öz sadəlövhlüyündən utanırdı.

Dərdi az imiş kimi, Elməddinin aparılması da fikrini lap çaşdırmışdı. Əvvəl gizləmişdilər ondan. Neçə gün gəlmədiyini, baş çəkmədiyini görüb nigarançılıq içində onu soruşmuşdu. «Xəstədir» — demişdilər. Lakin sonra gizləyə bilmədilər, həqiqəti açıb dedilər. Onda Şəfi pis hala düşdü. Məleykədən Simini soruşdu. Məleykə ərini arxayın elədi ki, ondan sarı fikir eləməsin — atası yanındadı, iki bacısı onunla qalır. «Qızın bəxtini görürsən, sən allah?» — deyə yerində qurcuxmuşdu Şəfi. Məleykə onun yanında qətiyyən ağlamırdı. Özünü tox tutur; sağ qaldığına sevindiyini bildirir, kişinin boynunu qucaqlayıb üzündən öpür, «Allah səni bizə təzədən verib, əzizim» deyirdi. Ancaq otaqdan çıxan kimi gözlərinin yaşını saxlaya bilmirdi. Düşməninə nifrinlər yağdırır, söyüb-söylənir, ürəyini boşaldırdı. «Şəkil kimi yaraşıqlı» Şəfinin şikəst olması — sağ gözünün üstünə yapışdırılan əl içi boyda ağ tənzif Məleykənin gözlərinə ox kimi batırdı, ürəyini göynədirdi. Yanına gedəndə o ağ tənzifə baxmamağa çalışırdı, görməmək istəyirdi. Elə bil Şəfi də şikəstliyindən utanırdı, sıxılırdı — baxışındakı xəcaləti Məleykə duyurdu. Məleykə belə anlarda ona təsəlliverici sözlər söyləmək istəyirdi, ancaq heç nə tapıb deyə bilmirdi, təkcə bunu-təkrar eləyirdi:

— Şükür, sağ-salamatsan, əzizim. Allahın bizə yazığı gəlib. — Şəfi mənalı-mənalı baxır, danışmırdı.

Ruznamə Şəfinin həyatına çevrilmişdi — o, öz ömrünü ruznaməsiz təsəvvür eləyə bilmirdi. Yaralanandan bəri ruznamənin nəşri dayanmışdı — elə sanırdı ki, boğulur, nəfəsi çatmır. Ziyaülhəqqin

«Pərçəm»in çıxması ilə əlaqədar söylədiyi sözlər onu bir az toxtatdı — dikəlib oturdu. Fikrində necə işləyəcəyinin planlarını cızmağa başladı. Xəyalında yenə ruznamənin səhifələri xışıltı ilə çevrildi — ruznamə oxucuları ilə danışdı sanki. Şəfi rahat nəfəs alıb Ziyaülhəqqə razılıq hissilə baxdı. Sonra Elməddini soruşdu. Ziyaülhəqq başını qaşıyıb dedi:

— Dünən getmişdim. Hələ şəhər həbsxanasındadı. Görüş vermədilər. Təkcə yemək götürdülər.

— Həbs olunmasının səbəbi barədə bir şey öyrənə bilmədin ki?

— Yox. Məncə səbəbi aydındır. O hekayəyə görə aparıblar — Bəbir belə deyirdi. — «Xurma çərdəyi»nə görə.

— Hm... Elə hekayənin üstündə yatmağa dəyər. Elməddin daha heç nə yazmasa da, bircə o hekayə bəsidir. Yaşadar onu. - Yaşatmağı sonrakı işdir, ustad. Mən qorxuram o hekayənin üstündə öldürələr onu.

...«Mişranu-cirgənin» iclasları başlamışdı. Şəfi həyəcanlı idi — balaca «sonya» radioqəbuledicisini çarpayısının yanına qoymuşdu— Kabilin radiosu ilə bütün məmləkətə verilən iclasların gedişinə diqqətlə qulaq asırdı. Diktor qadının verdiyi məlumata görə, əlahəzrət-humayun da təşrif gətirmişdi. Yəqin öz lojasında oturub bir-birini əvəz edən natiqləri dinləyirdi. Kimi puştu dilində, kimi dəri dilində danışırdı. Buraya toplaşmış millət nümayəndələri — vəkillər ağayi Nurəhməd Etimadi kabinəsinin — hökumətin fəaliyyətini, gördüyü işləri qiymətləndirir, hər kəs öz nahiyyəsinin, vilayətinin qayğılarından, ehtiyaclarından danışırdı. Nəxost-vəzir cənablarına sual verənlər də vardı. İclaslar çox canlı keçirdi. Şəfi gümrahlaşmışdı. Bəbirin çıxışını səbirsizliklə gözləyirdi. Ancaq o, birinci gün də, ikinci gün də danışmadı. Üçüncü gün, axşam iclasında sədrlik eləyən vəkil ona söz verəndə Şəfinin qulaqları guruldadı:

— Söz verilir Kabil vilayətinin dördüncü nahiyyəsinin vəkili ağayi Bəbir Karməndə.

Kimlərsə salonda əl çaldı. Şəfi hiss elədi ki, əl çalanların sayı az idi. Bu, onun ürəyini ağrıtdı. Kədərlə düşündü: «Azıq, çox azıq məclisdə. Ona görə gücsüzük hələ!»

Bəbirin gur, lakin təmkinli səsi otağı doldurdu. Səsindəki qətiyyət Şəfini ruhlandırdı və yanında oturan Məleykəyə baxıb qımışdı. Bəbir deyirdi:

— Əlahəzrəti-hümayune-möhtərəm. Möhtərəm millət vəkilləri! Biz bu müzəyyən salonda öz doğma hökumətimizin son iki-üç ildə bu millət, bu torpaq üçün-gördüyü işlərin müzakirəsinə toplaşmışıq. Ağayi nəxost-vəzir cənabları özünün hesabat məruzəsində kabinəsinin fəaliyyətindən çox ətraflı məlumat verdi və məndən qabaq çıxış eləyən möhtərəm nümayəndələr iki gündür ki, həmin məruzənin ətrafında danışırlar. Vəkillik səlahiyyətinin və qanuni-əsasiyi-möhtərəmimizin mənə verdiyi imkan və ixtiyardan istifadə edərək bildirmək istəyirəm ki, həm ağayi nəxost-vəzir cənablarının, həm vəkil yoldaşlarımın çıxışları bir millət nümayəndəsi kimi məni təmin etmədi.

Salonda səs-küy, çaxnaşma hiss olundu. Ancaq Bəbir buna əhəmiyyət verməyərək sözünə davam etdi:

— Əgər bir əcnəbi bizim bu məclisdə iştirak edərdisə, ağayi nəxost-vəzirin çox bəlağət və fəsahətlə irad etdiyi nitqindən belə başa düşə bilərdi ki, bizim millətimizin tarixində hələ onun başçılıq etdiyi hökumət olmayıb və bəlkə də olmayacaq, bizim məmləkətimiz dünyanın ən abad, ən varlı, yüksək inkişaf mərhələsini yaşayan bir məmləkətidir, xalqımız bolluq, firavanlıq içində yaşayır. Amma ağayi nəxost-vəzir cənabları özü də, dünəndən bəri onun ünvanına mədhiyyələr söyləyən cənab vəkillər də bilməmiş deyil ki, bu, əsl həqiqəti pərdələmək, qaranı ağ göstərməkdir!! Camaatı, ictimaiyyəti, yumşaq desək, aldatmaqdır, xalqın gözündən pərdə asmaqdır! Mən bu sözləri tam məsuliyyətimlə söyləməyi özümə borc bilirəm ki, bizim bu zavallı xalqı, adi insani hüquqlardan, adi iisani yaşayış tərzindən məhrum olmuş bu, zəhmətkeş, ac-yalavac kütləni aldatmağa ixtiyarımız yoxdur, heç kəsin, heç kəsin buna ixtiyarı yoxdur, ağalar! Siz, təkcə sizə inanan, etibar edib bu yüksək məclisə seçən xalqı deyil, eyni zamanda məmləkətin padşahi-müəzzəmini — gecə-gündüz kölgəsinə belə səcdə elədiyiniz möhtərəm şəxsi də aldadırsınız, əsl vəziyyəti, məmləkətin, xalqın dərdlərini deməkdən qorxursunuz. Bu isə cinayətkarlıqdır, ağalar! Mən əlahəzrəti-hümayunun

bizim məclisimizdə lütf göstərib iştirak etməsindən istifadə edərək bəzi həqiqətləri onun nəzərinə çatdırmağı lazım və zəruri hesab edirəm, çünki bu həqiqətləri məmləkətin möhtərəm əlahəzrəti-hümayununun bilməyi vacibdir, ölçü götürməyi vacibdir.

Salon sükut içində idi. Bəbir danışırdı; O, məmləkətin əsl iqtisadi, siyasi vəziyyətini aydın, məntiqli cümlələrlə — bir güzgü kimi əks etdirirdi. Müxtəlif dəqiq rəqəmlərlə, faktlara əsaslanan bu mülahizələri Bəbir elə qətiyyətlə bəyan edirdi ki, istər məclisin özündə, istərsə də kənarda qulaq asanlar dediklərinin sırf həqiqət olduğuna şübhə edə bilmirdi. Bəbir deyirdi:

—...Bizim oxumuşlarımız, ziyalılarımız çoxdurmu? Yox, azdır, çox azdır. Onlar — bizim savadsızlıq, cəhalət dünyasında elmin, maarifin faydasından məhrum xalqımızın işıq çeşməsidir. Amma onlar nə vəziyyətdə yaşayırlar? Ziyalının, müəllimin günü qaradır, ehtiyac boğur onları. Qələm əhli, bizim ədiblərimiz, şairlərimizlə maraqlanan, onları düşünən varmı? Yoxdur. Mən şair tanıyıram — kiçik bir kitab-füruşi mağazası açıb özünün min zülmlə nəşr etdirdiyi kitablarını, dostlarının kitablarını satmaqla dolanır. İstəyirsiz adını da deyim — Payiz Hənəfi. Özü də dükanı uzaqda deyil — Vəzarəti İttilaat və Kulturun binasının yanındadır, bizim möhtərəm vəzirimiz ağayi Asəf xanın gözünün qabağındadır. Mən şair tanıyıram həyatına sui-qəsd eləyiblər. Adını deyə bilərəm—bu, əlahəzrəti-hümayunun «məmləkətimizin birinci dərəcəli şairi» adlandırdığı Məhəmməd Şəfi Rəhgüzərdir. «Qədrini bilin» demişdiniz, əlahəzrəti-hümayun. Qədrini yaxşı bildilər — güllə ilə vurub gözünü tökdülər. Demək, görən gözlər çıxarılır. Mən buna ancaq belə məna verirəm, başqa cür yox.

Həbsxanalar ağıllı, açıqfikirli, dilinə düz söz gətirməyə cəsarət eləyən cavanlarımızla doludur, ağayi nəxost-vəzir. Bunlardan sizin xəbəriniz yoxdurmu? Əgər yoxdursa, soruşuram, niyə yoxdur? Əgər varsa, yenə soruşuram, niyə belədir. Cənab nəxost-vəzir?

Bəbir danışırdı. Şəfinin sevincdənmi, həyacandanmı gözü yaşarmışdı. Maleykə bunu görüb;

— Söndür onu, sənə həyəcanlanmaq olmaz, əzizim, — dedi.

ÜÇÜNCÜ FƏSİL

Elməddini aparanda elə bil, Siminin başına, ürəyinə ağır bir zərbə vurmuşdular. İlk anlarda, o, polis maşınına minənəcən sanki bunun nə demək olduğunu ağıllı-başlı dərk eləməmişdi, bu gedişə Elməddinin hərdən atasının maşınına minib işə, şəhərə getməsinə oxşar bir şey kimi baxmışdı. Polis apardığını görmüşdü, Elməddinin məsləhətlərini, təsəllisini eşitmişdi, bununla belə əsl həqiqəti tam çılpaqlığı ilə sonra anlamışdı və onda elə bil ürəyinə göz basmışdılar — yana-yana inləyib ağlamışdı. Bəli, Elməddini həbs eləmişdilər. O, axşamlar evə gəlməyəcəkdi, gələ bilməyəcəkdi. Və, ümumiyyətlə, haçan qayıdacaqdı! Qayıdacaqdımı? Bu suallar onu üzüb əldən salır, cavan gəlin ev-eşiyə sığışmır, o biri yandan da Məleykənin tanış, mehriban; «Ürəyimə damıb, sən xoşbəxt olacaqsan, qızım», — sözləri qulaqlarından çəkilib getmir, elə hey səslənir, səslənirdi. Cəmi bircə ay yaşamışdılar. Ancaq bu bir ay hər ikisinin həyatının elə şirin, dadlı, məhəbbət və nəvazişlə dolu günləri olmuşdu ki, bütöv ömrə dəyərdi, doymamışdılar, bezməmişdilər. Can deyib, can eşitmişdilər. Cavan ömründə çox fırtınalardan keçmiş, dünyanın acısını-ağrısını duymuş, heç yerdə əsl rahatlıq və səadət tapmamış Elməddin Siminlə yaşadığı o günlərin ləzzətindən, bəxtəvərliyindən məst olub hər şeyi unutmuşdu. Deyib-gülmüş, şer oxumuşdu — gülüşləri, şerlərinin istisi evin dər-divarına hopmuşdu, stolun üstündə büllur güldandakı qızıl güllərdə yaşayırdı, Siminin ürəyində, qulaqlarında həmişəlik məskən salmışdı. Simin isə o ötən bir ayı bəxtəvərlik uyğusunda, dünyanın isti-soyuğundan xəbərsiz məsum körpə kimi uyumuşdu—yuxu idi bu aləm onun üçün. Buraya — Elməddinin evinə düşməsi həqiqətdən çox yuxuya bənzəyirdi. Və buna görə də o, indiyəcən, Elməddin polislər tərəfindən aparılanacan bunu xəyal, nağıl, şirin röya hesab eləyib heç nə düşünməmişdi. Ancaq indi... onun bura gələn yolu fikrində canlanırdı. Onda ilk gənclik duyğuları təzəcə oyanmağa, ər, ailə həyatı barədə yenicə düşünməyə başlamış qız, uğurlu bir təsadüf üzündən Elməddinə rast gəlmiş, gözü ilə gördükləri, Zərrintac xanımın onun barəsində danışdıqları Simində güclü bir maraq oyatmışdı. Elməddinin qələm əhli, rəssam olması qızı lap

valeh eləmişdi. O, şerin, sənətin nə demək olduğunu hələ tam mənası ilə, bütun incəliklərinə qədər anlamaqdan hələ uzaq idi; qəribə idi ki, qəlbində lap ağlı az-maz söz kəsəndən musiqi çalanlara, oxuyanlara, şer deyənlərə sonsuz maraq və qibtə çırağı şölələnmişdi və o, belə adamları xəyalının sehrli dünyasında ilahiləşdirmişdi, onları nə isə qeyri-adi adam kimi təsəvvür eləmişdi. Ömründə ilk gördüyü şair-rəssam Elməddin olmuşdu. O da belə xeyirxah, atasının dostu, hamisi, incəqəlbli, həssastəbiətli bir adam çıxmışdı. Atası hələ neçə il qabaq Elməddin haqqında anasına, uşaqlarına elə həvəslə, elə minnətdarlıq hissilə o qədər danışmışdı ki... Vətənyarın — onun əziz qardaşının adını da o qoymuşdu. Payı-hədiyyəsi... Bir dəfə də onlara gəlmişdi atası ilə. Onda Siminbər Elməddinə heç yaxşı baxa da bilməmişdi. Elməddini Siminbər Zərrintacgilə gələndən, daha doğrusu, o, həbsdən azad olunub qayıdandan sonra düz-əməlli görə bilmişdi, onun başqalarından zahirən heç nə ilə fərqlənmədiyini hiss eləyib buna əvvəlcə təəccüblənmiş, sonra isə, sevinmşidi.

Simin hələ orada ikən Elməddinə qulluq etdikdə özündə nə isə qəribə sevinc duyardı, onun yeməyinə-içməyinə xəlvətdən heyran-heyran baxardı. Hərdən yazı masası arxasında işlərkən görmək müəs-sər olanda Simin quşa, kəpənəyə dönüb onun başı üstə dayanmaq, yazdıqlarına baxmaq, oxumaq arzusu ilə yanardı. Zərrintacın Elməd-dinin üzünə qapı açmadığı gecə isə, onun qız ürəyində sönməz bir məşəl yandırmışdı. Bu məşəlin yanğısı xoş idi, şirin idi, ancaq əzablı idi. Hələ ürəyinin sehrli aləmindən xəbərsiz olan, çarpaşıq duyğularını anlamağı bacaramayan Simin o məşəlin oduna həm yanırdı, həm də qızınırdı. Sonra yeyilməmiş düşbərə, şer kitabı, şəkil... O gecə qızın qəlbində Zərrintaca qarşı doğulmuş nifrət, qəzəb... Bunlar elə bil, gizlində korun-korun yanan həmin ocağın üstünə yağ tökmüşdü, daha da gücləndirmişdi, şöləsi qızın yanaqlarında, qara gözlərində par-par parlamışdı, elə parlamışdı ki, bunu Elməddin özü də görmüşdü.

O nagahani toy məclisindən günlər, həftələr keçdikcə aydın olmuşdu ki, Simin Elməddinə həqiqətən layiq qız imiş, hətta onun gözlədiyindən də artıq imiş... Təzə gəlin ailədə elə saf, gözəl bir şərait yaratmışdı ki, Elməddin bundan yaxşısını heç təsəvvürünə də gətirə bilməzdi. O, Zərrintacın yanında kirayənişin kimi yaşamışdı,

orada heç nəyi yox idi — kitab-dəftərindən başqa heç nəyi yox idi. Amma burada nə vardısa özünün idi — bu, onun qəlbini qürur hissilə doldururdu. Simin ev-eşiyi tər-təmiz saxlayırdı, səliqəsinə söz ola bilməzdi. Elməddinin qulluğunda əli sinəsində dayanırdı; vaxtlı-vaxtında yeməyi, istirahəti... Simin bir növ özünü fəda eləyirdi Elməddinə və bundan, hiss olunurdu ki, əvəzsiz bir zövq alırdı. İşləməsi, yazıb-yaratması üçün hər cür şərait yaratmışdı. Bazar-dükan qayğısından azaddı — bu işlərin hamısını ƏHədulla can-dildən özü eləyirdi. Uzun illərin əzab-əziyyətindən, sıxıntısından Elmməddin indi-indi xilas olmuşdu — insan kimi rahat yaşamağa başlamışdı. Düşünürdü ki, nəhayət, taleyi üzünə gülüb, Siminbər kimi bir ömür-gün yoldaşı tapıb. Qəlbi Siminə qarşı minnətdarlıq duyğusu ilə dolu idi. Onun Siminə məhəbbəti elə dərəcəyə gəlib çıxmışdı ki, Əfsanəni də unutdurmuşdu! Unutdurmuşdu? Bundan nə Elməddinin özünün xəbəri vardı, nə Siminin!

Elməddin Simini əzizləyirdi, nəvazişli sözlər deyirdi, neçə şer yazmışdı ona, həzin, pıçıltıyabənzər bir səslə o şerləri Siminə oxumuşdu. Qulluğunda dayanmışdı lazım olanda. Həyəti özü şumlamışdı, ağac əkmişdi, qızılgül kolları əkmişdi. Bir azdan o kollar gül açacaqdı — Elməddinsiz...

Bu hiss Simini dəhşətə gətirmişdi və təzədən hönkürtü vurub ağlamağa başlamışdı — atasının gəlişindən xəbəri də olmamışdı.

— Nə olub, qız? — deyə Əhədulla əlindəki dolu zənbili yerə qoyub həyacanla soruşanda o, atasına sığınıb:

— Elməddini apardılar, qibləgahım! — demişdi.

— Kim apardı, qız?

— İki polis gəlmişdi, apardılar...

Əhədullanın bədəni süstləşmişdi. Bir anda fikri pərişan olmuş, qızının, kürəkəninin taleyini düşünüb darıxmışdı, Əhədulla neçə il idi Elməddini tanıyırdı, o dəfə də həbs olunmağının şahidi idi, bilirdi ki, o da, Şəfi də, tanımadığı başqa yoldaşları da nə isə ayrı məsləkin adamlarıdı, onlar nədənsə hamı kimi düşünmür, hamı kimi ancaq özü üçün yaşamırlar. Deyəsən, hökumət onları düşmən hesab eləyir. Yoxsa niyə həbs eləmişdilər o dəfə hər ikisini? Niyə Şəfini vurdular? Niyə indi gəlib Elməddini aparıblar? Qoy olsun, hər halda onlar

dəyanətli adamlardı, mərd adamlardı. Əhədulla Elməddinin dalınca ölümə də gedər. Əvvəl bir dost, xeyirxah bir insan kimi gedərdi, indi bunlardan əlavə də qohumu idi. Qızının ürəklə ağlaması onun qəlbini parçalasa da, o, özünü ələ alıb Siminə təsəlli vermişdi: Darıxma, qızım. Adamın yaxşı günü də olar, pis günü də. Yaman günün ömrü həmişə az olur, bala. Ağlama. Elməddin, elə oğuldu ki, cəfasını çəkməyə dəyər.

— Mən onsuz, tək neyləyəcəyəm, qibləgahım?

— Tək niyə olursan, qız? Bəs biz adam deyilik? Uşaqlardan ikisini-üçünü gətirəcəyəm yanına, gecələr özüm də burda qalacağam! — deyə Əhədulla ona toxtaqlıq vermişdi. — Məgər qibləgahın ölüb?

Simin bu sözləri eşidib rahat olmuşdu bir az. Əhədulla həqiqətən də dediyi kimi eləmişdi. Simini tək qoymamışdı.

Həyat bu kiçik həyətdə öz qaydasına düşmüşdü. Ancaq Simin hər gün, hər saat Elməddinin yolunu gözləyirdi. Onun axırıncı dəfə alıb gətirdiyi güllər solmuşdusa da, Simin onları atmamışdı. «Nə qədər gəlməyib, saxlayacağam», — deyə hər baxanda kövrəlirdi, xatirələr qanadında çox da uzaq olmayan, o günlərə qayıdırdı. Başını qarışdırmaq üçün Elməddinin kitabxanasındakı kitablardan götürüb oxuyurdu.

Məleykə xanım — dərdinin böyük olmasına baxmayaraq, tez-tez ona baş çəkirdi, Şəfinin salamını yetirirdi ona. Məleykə, sadəcə olaraq, Siminə vurulmuşdu. Qabiliyyəti, mehribanlığı Məleykənin ürəyincə idi. Simin arıqlamışdı, solmuşdu, ancaq təmkinini itirməmişdi. Məleykə xanımın söhbətlərindən başa düşmüşdü ki, onun ərini oğru kimi, əyri kimi həbs eləməyiblər, onu ağıllı, böyük, qorxulu adam bilib həbs eləyiblər.

— Mən sənə deyəndə ki, bunlar vətən əskərləridi, belə şeyləri nəzərdə tuturdum, qızım. Onlar həmişə topsuz-tüfəngsiz döyüşdədilər. Onları öldürə də bilərlər, qızım. Onlar ölsə də, şərəfli ölümdü onlarınkı, bala.

Məleykənin sözlərini sükutla dinləyən Simin o gedəndən sonra xeyli təskinlik tapırdı, hətta özündə bir qürur da hiss eləyirdi.

Əhədulla hər dəfə qapıdan içəri girəndə Simin atasının üzünə sual dolu baxışlarını zilləyirdi; «Elməddindən nə xəbər var»?. «Necədi»?

— Hələ heç nə məlum deyil.

Ancaq yazın yağışlı günlərinin birində Əhədulla tutqun qanıqara halda içəri girmiş, stul çəkib lal-dinməz oturmuş, çay istəmişdi qızından. Simin piyaləyə çay töküb qabağına gətirəndə kişi:

— Bir dəst yorğan-döşək hazırla, bala. Elməddinə iş kəsdilər, — dedi astaca.

Piyalə Siminin əlindən düşüb çilik-çilik, oldu, qara gözləri doldu.

Özünü ələ al, qızım. Boş şeydi. Cəmi bir il iş veriblər.

— Bir il? — Simin yaş içində boğula-boğula heyrətlə içini çəkdi. — Bir il?

— Hə, bir il nədi ki? Onun da iki ayı gedib. Papağını fırla, bir də gördün, on ay da gəlib keçdi.

— Axı... günahı nədi onun, qibləgahım? Ədalət yoxdu məgər dünyada?

— Elməddinin günahı elə budur ki, o da soruşur: niyə ədalət yoxdur!

Simin qıçları vurulmuş kimi taqətsiz halda kətilin üstünə çökdü.

***

Zərrintac xanım Elməddinin evlənməsi xəbərini də, həbs olunması xəbərini də birdən — elə bu gün eşitmişdi. Sübhan söyləmişdi. Çox seyrək-seyrək olan görüşlərində və söhbətlərində Sübhan Zərrintac xanımın öz keçmiş ərinə necə böyük nifrət bəslədiyini çoxdan duymuşdu. Bunun səbəbi Sübhana tamamilə aydın idi. Elməddin onu boşamaqla tək Zərrintacı yox, bütün şəhər camaatını heyrətə sala biləcək bir iş tutmuşdu. Sübhan özü də Elməddini yaxşı tanıdığından əvvəllər, ayrıldıqlarını eşitdikdə, onu qınamışdı, hətta ürəyində «axmaq» da adlandırmışdı. Ancaq sonralar o, taleyin hökmü ilə Zərrintac xanımın, özü demişkən, əlinə keçəndə Elməddinə haqq qazandırmışdı. Əlbəttə, bu barədə o, Zərrintaca heç nə deməmişdi, deyə də

bilməzdi. Sübhan, müti olduğu qədər də, ağıllı idi, ürəyindəkilərini həmişə, hər yerdə dilinə gətirməzdi. O, bu gün Elməddinin müha-kiməsində iştirak etmiş, Əhədullanı görmüş, təfsilatı ondan öyrənmişdi. Elməddinin həbs olunmağından xanımın könlünün xoş olacağını evlənməyindən isə yanıb-yaxılacağını irəlicədən yəqin bildiyindən xəbərin ikisini də birdən ona çatdırmağı qərara almış və axşamçağı zəng edib əhvalatı bildirmişdi. Zənni onu aldatmamışdı, Elməddinin həbs edilməsini eşidən kimi sevinc içində:

— A... haçan? Elə bu gün? Nə yaxşı, nə yaxşı? Ona bu da azdır, o dəfə qibləgahım buraxdırdı, ağzında şirə qaldı. İndi görüm kim buraxdıracaq. Qoy çürüsün, ağlı gələr başına... — Zərrintac xanımın sevinci telefonun dəstəyindən aşıb-daşırdı. Sübhan qadın qəlbinin belə kinli-küdurətli olduğunu eşitmişdi, ancaq görməmişdi. Zərrintac onun üçün maraqlı bir kitab idi, onu hər gün bir az oxuyub öyrənmək istəyirdi, varlığının, əxlaqının, düşüncələrinin əsas mahiy-yətindən xəbərdar olmaq istəyirdi. Sanırdı ki, bu kitabda həyatın çox şübhəli sirləri var və onları öyrənmək hardasa, haçansa Sübhana gərək ola bilər. Sonra o, ikinci xəbəri söyləmişdi. Zərrintacın nitqi tutulmuş, kəkələmiş, handan-hana:

— Nə danışırsan? Evlənibmiş? Əhədullanın qızına? O mənim qulluqçum olan qıza?.. Hə, bəs belə de!!! Belə de!!! Külü qoyum onun kişi başına! Simin nə qızdı ki, gedib onu alıb! Yenə bir fərli-başlı qız olsaydı, məni yandırmazdı. Sən görməmisən ki, o qızı? Yox? Görməsən yaxşıdı, bir idbarın biri idi. Mən kişi olsaydım, yer üzündə bir o qız qalsaydı, bir də mən, ona heç gözümün ucuyla da baxmazdım, — deyib qəlbinin zəhərini tökmüşdü. Yanında olmasa da Sübhan səsindən Zərrintac xanımın necə yaman hala düşdüyünü aydınca hiss edirdi. Yanında olmaq, ona bu vəziyyətində baxmaq istərdi. Sonra nədənsə yazığı gəlmişdi Zərrintaca, otaqda kimsə varmış kimi, göz vurub söyləmişdi:

— Eh, əlbəttə, Elməddin axmaqdı, onun ağlı olsaydı, gündə milyon dəfə sizin başınıza dolanardı.

— Eybi yoxdur. Deyir, köçdüyün yurdun qədrini, düşdüyün yurdda bilərsən... — Zərrintac xanımın telefonda səsi titrəmişdi və o, dəstəyi asmışdı. Neçə dəqiqə oturduğu kresloda ölü kimi hərəkətsiz

qalmışdı. Düşüncələri pırtlaşıq düşmüş kələf kimi idi. Bilmirdi sevinir, ya kədərlənir. Anlar, dəqiqələr keçdikcə sevinci, şadlığı əriyib yox oldu, ürəyində kədərli bir duyğu oyanıb onu məngənə təki sıxmağa başladı. Demək, evlənib! — Bu fikir idi onu əzən, öldürən. Onunla tanış olduğu günlər yadına düşdü, toyu yadına düşdü. Kədərli gözlərini dolandırıb ilk dəfə onunla baş yastığa qoyduğu çarpayıya baxdı və Elməddinin nəfəsini üzündə, əllərini sinəsində, belində hiss eləyib süstəldi, gözlərini qeyri-iradi, yuxu dərmanı atmış adam kimi, yumub o aləmə getdi. Və indi Elməddinə bəslədiyi nifrəti unudub xəyalında onun güclü, qüdrətli qolları arasında hiss elədi özünü, xoş bir duyğu, vücudunu yandırıb-qarsdı. Elə bil, çəkisizlik şəraitində, yuxu, xəyal aləminəbənzər bir dünyadaydı. Ancaq bu qiyabi səadət çox çəkmədi, o gözlərini açanda otaqda tək və kimsəsiz olduğunu görüb tamam yad bir aləmə düşmüş kimi döyükdü. Və özünü bədbəxt hiss elədi. Bu hiss onun bədənini soyutdu, içəri isti olsa da o, üşüdü. Canını qızdırmaq üçün ayağa qalxaraq o biri otaqdakı soyuducudan viski şüşəsini götürdü, stolun üstünə qoydu. Piyalə gətirdi, mətbəxdən, günorta yeməyindən qalmış qovrulmuş əti, pamidor, xiyar götürdü...

Viskidən piyaləsinə töküb başına çəkdi. Təzə xiyarın nazik dilimini narın duza batırıb ağzının acısını aldı.…Və birdən tək yeyib-içməyin çansıxıcı olduğunu xatırlayıb Sübhana zəng çaldı, onu yanına dəvət elədi. O gələnəcən Zərrintac bir piyalə də viski içmişdi — ancaq halında heç bir dəyişiklik hiss eləmirdi. Sadəcə olaraq, keyləşmişdi azca. Sübhan içəri girəndə stolun üstündə viski şüşəsi, yemək-filan görüb məsələni başa düşdü. «Xanım ya dərdindən, ya da sevincindən belə eləyir»— deyə ürəyindən keçirdi.

— Nə durmusan qapıda heykəl kimi? Gəl otur, bu gün sənlə yeyib-içəcəyik, Sübhan. Gecəni də burada qalacaqsan. Bu gecə — yaxşı yadında saxla — tək bu gecə sənənəm. Başa düşürsən?.

Sübhan qulaqlarına inanmasa da:

— Bəli, xanım!.. — dedi və o pərişan görkəmli qadının daha nə isə eşitmək istədiyini duyub əlavə elədi: — Siz deyəndən sonra mənim nə ixtiyarım var, xanım?!

Zərrintac təmiz, səliqəli geyinmiş, sifətində nəyəsə heyrətlə baxan bir uşaq təəccübü və qəribə bir təbəssüm həkk olunmuş Sübhana baxıb baxışlarını aşağı endirdi.

DÖRDÜNCÜ FƏSİL

Hökm oxunan günü, axşam Elməddini, Əhədulla bir dəst yorğan-döşək gətirəndən sonra şəhər həbsxanasından Poli-çərxi həbsxanasına gətirmişdilər. Bu həbsxana ona tanış idi, iki-üç il əvvəl də burada yatmışdı. Onu təkadamlıq kamerada saxlayırdılar. Kiçik, hündür divarlı, əl çatmayan yerdə bir dənə dairəvi pəncərəsi olan bir otaq idi — qapısı dəmir idi. İçərinin döşəməsi sement idi. Ancaq taxt qoyulmuşdu divarın dibinə. Yanında taxtadan düzəldilmiş, əl vuranda cır-cır cırıldayan stol vardı. Divarlar kömürlə, mıxla yazıq-yazıq idi. Burada vaxtilə yatanlar adlarını, həbs olunma və çıxma tarixlərini yazmışdılar. Eləsi var idi ki, bu otağa düşmə tarixini yazmışdı, çıxma tarixini yox. Elməddin əyri-üyrü xətlərə göz gəzdirə-gəzdirə düşünürdü ki, yəqin buraxıldığını eşidib sevincək olublar bələləri, ya da... Ya da gözlənilmədən çıxarılıblar, bir daha bura qayıtmayıblar! Hərəsi bir insan taleyi idi, təklik, əzab-əziyyət tarixi idi bu yazıların.

Poli-çərxi həbsxanasında, demək olar ki, bu illər ərzində Heç bir dəyişiklik olmamışdı. Amirsahib və Şəfini rəhmsizcəsinə döyüb dırnaqlarını çıxaran Dostməmməd hələ burada idi. Onlar Elməddini görən kimi tanımışdılar. Müşayiətçi zabitin təqdim etdiyi sənədləri oxuyan həbsxana amiri yanındakı zabitə müraciətlə:

— Bu ağanı təkadamlığa sal! - demişdi. — Kimsə ilə danışmağa ixtiyarı yoxdur. Gündə yarım saat havaya çıxartmaq olar, — ciddi nəzarət altında, əlbəttə. Kitabdan, kağız-qələmdən istifadə etməsi qəti qadağandır. Aydındır?

Zabit dabanlarını bir-birinə vurub şıqqıldatmışdı.

— Bəli, sahib?

Sonra amir sahib Elməddinin üst-başına, yorğun sifətinə baxıb:

— Ağıllanmadın, eləmi? — deyə soruşmuşdu. Elməddin amirin səsindəki kinayəni duyub kinayə ilə cavab vermişdi:

— Mən dəli olmamışdım, amir sahib!

Amir qabağındakı kağızlara nə isə bir də diqqətlə baxmışdı və sual etmişdi:

— Yenə yazıb-pozurdun, şəkil-məkil çəkirdin, eləmi?

— Polis aparana qədər hə, amir sahib!

Amir yenə nə isə mənalı-mənalı gülümsünmüşdü: Ümid eləyirəm bu dəfə burdan çıxandan sonra daha yazmazsan, çəkməzsən...

—…

— Apar! — deyən amirsahib söhbətin bitdiyini bildirərək üzünü zabitə tutmuşdu. Havaya çıxarılan vaxt Dostməmmədlə arabir dəhlizdə, həyətdə rastlaşırdı. Dostmədməd ona baxıb müəmmalı-müəmmalı qımışırdı, Elməddin isə yaman əsəbiləşirdi. İçində sonsuz bir nifrət qaynayırdı ona qarşı. Adamdan çox vəhşi təsiri bağışlayırdı Dostməmməd. Elməddin hiss eləyirdi ki, əgər imkanı və ixtiyarı olsa, o, Dostməmmədi uf demədən öldürə bilər, rəhmi gəlməz.

Dustaqlardan çoxu—köhnələri tanıyırdı onu. Təzə gələnlərə onun buraya ikinci dəfə düşdüyünü söyləyirdilər. Kiminin yazığı gəlirdi, kimi isə ona rəğbətlə, məhəbbətlə baxırdı. Elməddinin dəyanətli, mərd olması, o vaxt öz dostunu — şairi satmaması dustaqlar içində dərhal yayılmışdı və hamı onu əsl kişi, əsl mərd hesab eləmişdi. Bu dəfə isə nə üstündə həbs olulduğunu hələ bilmirdilər. Məqam, fürsət axtarırdılar ki, öyrənsinlər; nəzarət güclü idi. Bu, bir tərəfdən Elməddini çox sıxırdısa, o yandan da özünə, tutduğu doğru yoluna inamını artırır, dözümlü, səbirli olmaq hissi aşılayırdı. «Qorxurlar demək! Məni də ustad kimi təhlükəli hesab eləyirlər demək!» — deyə düşünürdü.

Günləri ağır keçirdi. Gecələrini oyaq qalırdı — taxtabiti yatmağa aman vermirdi. Taxtın üstünə uzanan kimi saysız-hesabsız qaniçən həşarat canına daraşırdı, bədənini dalayırdı. Qırmaqla qurtaran deyildi zəhrimar! O vaxta qədər çırpınıb çapalayırdı ki, tamam əldən düşürdü, vucudunda hey-hərəkət qalmırdı, gözləri öz-özünə yumulurdu. Ondan sonra yorğan-döşəkdə yox, quru sementin üstündə tirtap uzanırdı. Nə zaman yatdığını bilmirdi. Yeməklərin karsızlığından yox, yuxusuzluqdan arıqlayıb üzülmüşdü. Üzünü saqqal basmışdı. Qırxdırmaq da istəmirdi. Həbsxana dəlləkxanasına gedə bilərdi — ancaq güzgüdə özünü görməkdən qorxurdu. Bilirdi ki, tanınmalısı

qalmayıb — bu da ona bir dərd olacaq. Yaxşı ki, xəyallar, xatirələr, dərdlər varmış; Simini yadından çıxara bilmirdi, gecə-gündüz fikri onun yanında idi. «Görəsən neyləyir? Xalqın uşağını da bədbəxt elədim. Gərək evlənməyəydim. İndi asudə oturardım burda, o da dalımca göz yaşı tökməkdən azad olardı. Bu yolun yolçusu gərək ailə qurmasın məqsədə çatanacan. Amma Simin gözəldi, ağıllıdı. Şükür ki, tək də deyil. Atası-anası yanındadı. Korluq çəkməyə, darıxmağa qoymazlar».

İkinci dərdi, qayğısı Şəfi idi. Ziyaülhəqqin, Əhədullanın dediyinə görə, ustad yaxşı idi. Ölməmişdi — bu, Elməddin üçün nəyə desən dəyərdi. Ancaq onu yandıran bu idi ki, qatil tapılmamışdı, görünür, heç tapılmayacaqdı da. Bir də bu yandırırdı ki, Elməddin onun yaralı, nasaz vaxtında yastığının yanında ola bilməmiş, qulluğunda dura bilməmişdi. Qoymamışdılar. Ziyaülhəqqin mülahizəsi, dərindən düşünəndə, Elməddinin ağlına batırdı; Şəfinin vurulması ilə Elməddinin həbs olunması arasında nə isə gizli bir əlaqə vardı — bu, düşünülmüş, planlaşdırılmışdı deyəsən qabaqcadan, hətta ustadın əlahəzrət tərəfindən qəbul olunması ruznamələrdə şəkillərinin verilməsi də nə isə irəlicədən düşünülmüş, qurulmuş bir tədbirə daha çox oxşayırdı. Fikirləşmək üçün vaxt çox idi. Kağızı, qələmi olsaydı, yaza da bilərdi. Ancaq bundan məhrum idi. Çörək əvəzinə, qaynar su əvəzinə kağız-qələm versəydilər, gözəl olardı. Yeməyini bir parça kağıza, qələmə dəyişməyə razı idi. O düşünürdü, dodaqları şer pıçıldayırdı. Qələmsiz, kağızsız yazdıqlarını əzbərləyirdi, unudulmasın deyə hər gün təkrar eləyirdi. «Sağlıq olsun, çıxandan sonra köçürərəm» — deyirdi. Yaddaşı yazılmamış maqnitofon lentinə oxşayırdı. Və bu, onu çox sevindirirdi.

Tez-tez gülünc mühakiməsi yadına düşürdü. Çeşməkli, tosqun hakimin onu nəyin bahasına olursa-olsun, həbs etmək, iş kəsmək cidd-cəhdi açıq-aşkar hiss olunurdu. O, fikirlərini əsaslandırmaq üçün əlinin altındakı ruznaməyə — Əli Tüğyanın məqaləsinə müraciət edir, ondan sitatlar oxuyurdu:

— Hə, buna, müttəhim, necə baxırsınız?

Böhtandır, — Mən o hekayəni yazarkən Əli Tüğyan cənablarının dediklərinin heç birini nəzərdə tutmamışam!

— Nəzərdə tutubsunuz-tutmayıbsınız, bunun bizə dəxli yoxdur. Sizin hekayəniz bizim dövlətimizin əsasını sarsıtmağa, dövlətlə, hökumətlə xalq arasında nifaqa, qan döyüşünə çağırışa yönəlmişdi. Buna nə deyirsiniz?

Mən həyatın kiçicik bir parçasını yazmışdım, möhtərəm hakim.

— Bəs elə isə, nə üçün xurma yeyən dükançının adını Dövlət xan qoymusunuz?

— Elə-belə. Soltan xan qoysaydım, məsələnin mahiyyəti dəyişirmi?

— Onda, bəlkə də, belə üsyankar səslənməzdi sizin cızmaqaranız!

— Sonra «Qanuni-əsasi»dən, onun mətbuat, söz azadlığı haqqındakı maddələrindən sətirlər oxunur, Elməddin bu maddələri pozmaqda təqsirləndirilirdi. Elməddin o gün verilən ittihamdan anlamışdı ki, o, cəmiyyətin pozucu ünsürü imiş!

Bu sözlər yadına düşəndə Elməddin niyə təkadamlıq kamerada yalqız saxlandığının səbəbini anlayırdı. Sən demə, dustaqları bu «pozucu ünsürdən» qoruyurmuşlar!!

Elməddin bir dəfə hava almağa çıxarılanda ayaqyolunun divarının dibində barmaq boyda kömür qırığı tapmışdı, dustaqlardan, kiminsə cibindən düşübmüş. Sevinc içində götürüb cibinə qoymuş, vaxtı qurtarıb otağına qayıdandan sonra, dəmir qapı ilə üzbəüz divara ustadın şəklini çəkmişdi. Onun gözlərini rəsm eləyəndə birdən tutulub dayanmışdı, axı indi ustadın sağ gözü yox idi. O, əl saxlayıb taxtın üstündə oturmuş, onunla tanış olduğu gündən bəri keçirdiyi günləri, söhbətlərini xatırlamış, xəyalın aynasında şairin adamın ürəyinin içinə nüfuz edən mənalı, qəşəng gözlərinə tamaşa eləmiş, sonra onun qanlı sifəti nəzərində canlanmışdı. Bəli, bu həqiqət idi — ustadın sağ gözü yoxdu və heç vaxt da olmayacaqdı.. Birdən o ayağa qalxmış, divara yaxınlaşmış, ustadın gözlərini çəkmişdi. Divardan Şəfi əvvəllər olduğu kimi, indi də mehriban-mehriban ona baxırdı. Burda onun iki gözü də var idi və Elməddin düşünürdü ki, çıxandan sonra, yaxşı kağız tapacaq və ustadının şəklini elə beləcə də yaradacaq, evindən asacaq.

Kömürün yarısı qalmışdı. Elməddin gizləmək istəyirdi, ancaq fikrini dəyişmiş, yan divara Siminin şəklini rəsm eləmişdi. Bu «kəşfindən» xoşu gəlmişdi. İki əziz adamı vardı — ikisi də yanında idi. İndi tez-tez onlarla danışır, məsləhətləşir, dərdi-dil eləyirdi. Şəkillər elə canlı çıxmışdı ki. …

Bu da bir təsəlli idi dörd divar arasında. Sonra təsəlli verən ikinci hadisə də olmuşdu. İsti yay günlərinin birində nəzarətçi Elməddini yenə həyətə çıxartmışdı. O, kənarda tək gəzinirdi. Bir az aralıda, söyüd ağacının altında dustaqlar cəmləşib oturmuşdular. Elməddin gözucu nəzər yetirib gördü ki, saqqallı kişi dizinin üstünə qoyduğu kağızdan nə isə oxuyur, yanındakılar da diqqətlə qulaq asırlar. Onu çölə çıxaran zabit bunu hiss edib uzaqdan qışqırmışdı:

— Ey, orda neynəyirsiniz?

Qıraqda dayanmış oğlan, astadan yoldaşlarına nəsə deyib ucadan gülə-gülə söyləmişdi:

— Heç, zabit sahib. Papağımıza xurma çərdəyi yığırıq!

— Nə?

— Deyirəm papağımıza xurma çərdəyi yığırıq.

Zabit, görünür, dustağın dediklərindən heç nə başa düşməmişdi, çiyinlərini çəkmişdi. Ancaq Elməddinin qulağı bu sözləri alan kimi, hər şeyi anlamışdı. Yuxusuzluğu da, taxta-bitinin bədənini dalamağı da, əzabları da yadından çıxmışdı. Demək, «Pərçəm» həbsxanaya gəlib! «Xoş gəlibsən, əzizim!» — deyə pıçıldamışdı özü-özünə. O gün Elməddin üçün əvəzsiz bayram olmuşdu həbsxanada. Heyf ki, sevincini bölmək üçün bir həmdəm tapmamışdı. Fərəhini divardakı rəsmlərlə — ustadı Şəfi ilə, arvadı Siminbərlə bölüşdürmüşdü. «Həbsxanalarda məhkumlar da papağına xurma çərdəyi yığır, ustad. İndi bütün məmləkət papağına xurma çərdəyi yığır deyəsən, ustad, gözün aydın. Sənin həsrətiylə yaşadığın o müqəddəs günə — qəzəb dalğasının qalxacağı, tufanın qopacağı günə az qalır deyəsən, ustad!»

Ancaq, sən demə, nəzarətçi zabit dustaqların ruznamə oxuduğunu görüb usta tərpənmiş, kimsəyə bir söz demədən, onlar baraklarına gedəndən sonra iki-üç xidmətçi ilə birgə içəri girib həmin saqqallı məhkumu yaxalamış, üst-başını, şeyləri axtarmış, ruznamə-

dən kəsilib götürülmüş «Xurma çərdəyi» hekayəsini tapmış, kişini isə huşunu itirənəcən döymüşdü. «Pərçəm»in həbsxanaya necə gətirildiyini, kimin gətirdiyini boynuna almamışdı. Həbsxana rəisi bu hadisədən sonra nəzarəti bir az da gücləndirmiş, «şuluq adamları» ayırmışdı. Ancaq hansı yollasa «Xurma çərdəyi»nin müəllifinin Elməddin olduğunu dustaqlar öyrənmişdilər və ona xüsusi rəğbət bəsləməyə başlamışdılar. Bunu görən, hiss eləyən rəis Elməddini daha çox «qorumağa» səy eləyirdi. Havaya çıxarılmaq vaxtını, dəyişmişdi — indi o, gəzintiyə aparılanda dustaqlardan heç kəs daha onu görə bilmirdi.

Yanına da kimsəni buraxmırdılar. Altı ayı tamam olanda Əhədulla Ziyaülhəqqin köməyi ilə, görüşə cəmi bircə saatlıq icazə almışdı. Meyvə, yemək, dəyişək gətirmişdi. Onun Elməddinin yanına gedəcəyini irəlicədən bilən Siminbər yalvarıb-yaxarmışdı ki, mən də getmək, Elməddini görmək istəyirəm. Əhədulla əvvəl razılıq verməmişdi, ancaq sonra ürəyi dözməmiş; qızını da maşına mindirib Poli-çərxiyə gətirmişdi. Görüş çox təsirli olmuşdu — Simin ərini görən kimi ağlamışdı. Atası yanında olduğundan həya eləyib Elməddinin boynuna sarılmaq, üz-gözündən öpməkdən özünü güclə saxlamışdı. Əhədulla iləsə qucaqlaşıb-öpüşmüşdü Elməddin. Elməddin Siminbərə təpədən-dırnağa nəzər salanda onun hamilə olduğunu, qarnının üstünü örpəyinin ucu ilə örtməyə çalışdığını görüb o qədər sevinmişdi, o qədər həyəcanlanmışdı ki, gözlərində sevinc yaşları parlamışdı... İlk anlarda danışmağa, söz söyləməyə heç birinin iqtidarı olmamışdı, elə parlayan, yaşla dolu baxışlarını bir-birinə zilləyib baxışmışdılar. Onlara söhbət eləmək imkanı vermək üçün, Əhədulla qəbul otağının o biri güncünə çəkilmiş, yalnız bundan sonra Elməddin onun isti, balaca əlini əlinə alıb:

— Necəsən, gülüm? — deyə soruşmuşdu.

— Mən yaxşıyam, sən necəsən, əzizim? — deyə Simin də pıçıltı ilə danışmışdı. — Arıqlamısan, Elmi. Allah cəzalarını versin. İncidib-eləmirlər ki?

— Yoox...

— Tez-tez yuxuma girirsən, Elmi.

— Sənin şəklini çəkmişəm otağımın divarına; sənin və ustadın... Hər gün sizinlə danışıram, dərdləşirəm, gülüm... Simin nəmli gözləri ilə gülümsünmüşdü. Elməddin bayaqdan ürəyinə sığışmayan sevincini nəhayət dilinə gətirmişdi:

— Səni təbrik eləyirəm, əzizim, — deyə o, Siminin sinəsindən aşağısına işarə eləmişdi. Gəlinin yanaqları qızarmışdı, gözləri həya ilə alışıb-yanmışdı.

— Sağ ol, mən də səni təbrik eləyirəm. Ata olacaqsan. Elmi.

— Mən ata, sən ana... — Ani sükut. — Darıxırsan mənsiz, Simin.

—Çox, lap çox, əzizim. Ev-eşiyə sığışmıram, inan. Səlmi ilə Həlimə başımı qatırlar, ev işlərində mənə kömək eləyirlər. Məleykə bacı tez-tez gəlir bizə. Ustadı soruşuram — deyir yaxşıdır. Ruznaməniz də çıxır. — Bu xəbər Elməddini lap sevindirmişdi.

— Nə yaxşı, nə yaxşı!..

Onlar xeyli söhbət eləmişdilər. Əhədulla vaxtın azaldığını hiss eləyib yaxın gəlmiş, Ziyaülhəqqin tapşırıqlarını yavaşca, nəzarətçi və başqaları eşitməsin deyə bir-bir ona yetirmişdi. Ayrılmaq istəməsələr də ayrılmışdılar.

Elməddin öz otağına xoş əhvali-ruhiyyə ilə qayıtmışdı, gətirilən xörəkdən doyunca yemişdi və şirin xəyallara dala-dala taxta çarpayıya uzanmışdı...

Ancaq bu gəliş nə qədər xoş və unudulmaz olsa da ondan sonra elə bir hadisə baş vermişdi ki, Elməddinin bütün xəyallarını da, az qala bütün həyatını da alt-üst eləmişdi. İki gün keçmişdi. Səhər tezdən, adi vaxtından qabaq, təkadamlığın qapısı cingilti ilə açılanda Elməddin buna təəccüb elədi. Üç nəfər nəzarətçi içəri girdi. Elməddin yerdə, sementin üstündə uzanmışdı, qalxıb oturdu, hələ tamam ayılmamışdı, yarıyuxulu idi. Aşağıdan-yuxarı zabitə və yanındakılara baxırdı mat-mat. Zabit onun qarşısında dayandı:

— Yerdə niyə yatırsan?

— Taxtabitinin əlindən.

— Yerdə yoxdu?

— Var, ancaq ora nisbətən azdı, zabit sahib.

O, zabitlə danışarkən birdən gördü ki, qalan iki nəfər onun taxtının üstəki yorğan-döşəyi, altdakı səbətin içini axtarırlar. Ürəyi çırpındı, ancaq bu, ani sarsıntı idi. O arxayın idi ki, heç nə tapa bilməyəcəklər — çünki özü heç nə yazmamışdı, yanına gələnlər isə ona nə ruznamə, nə kitab gətirmişdilər. Ona görə Elməddin laqeyd və saymaz bir ədayla qalxdı, kürəyini divara söykəyib:

— Zabit sahib, ağalar belə nə axtarırlar?—deyə qımışa-qımışa soruşduqda zabit nəzarətçilərə sarı döndü:

— Ümumi qaydadır, yoxlayırıq. Bilirsən, bəzən dustaqların yanına gələnlər qadağan olunmuş şeylər gətirirlər. Məsələn, məktub, kitab, ruznamə...

Zabitin sözü ağzından qurtarmamış nəzarətçilərdən biri — gödəkboylu, iri, sallaqdodaqlı kişi əlində bir vərəq kağız və dörd qatlanmış ruznamə tutduğu halda zabitə yaxınlaşdı:

— Bunları səbətin içindən, meyvələrin altından tapdım, zabit sahib. Zabit onun əlindəkilərə fikir vermədən Elməddinə sarı dönüb rişxənd dolu bir təbəssümlə baxdı və sonra nəzarətçinin irəli uzatdığı vərəqi, ruznaməni ondan aldı.

Əvvəlcə vərəqi gözünə yaxın tutdu. Elməddinin rəngi saralmışdı. Onun nə vərəqdən, nə ruznamədən xəbəri var idi, «Yəni onları — Əhədulla ilə Simin gətirib? — deyə tez-tez fikrində dolandırdı. — Bəlkə onlar gətiriblər, bəs mənə niyə heç nə deməyiblər? Yox, bu ola, bilməz, ola bilməz! Axı Simin də, Əhədulda da dedi ki, «Pərçəm» çıxır! Yəni, indi zabitin əlində tutduğu ruznamə «Pərçəm»di?... Bu nə isə qurğuya oxşayır.» Zabitin əlindəki vərəqə gözucu baxdı. Şer idi. Zabit vərəqi oxumağa başladı:

Dər mohite ke, pəsənde həme divanəgərist,
Aqel anəst ke, dər kesvəte Məcnun başəd:
Xosrove keşvəre ma ta bovəd in şirinkar,
Lalesan dideye mərdom həme gülgün bəşəd.
Üzre təqsir-həmixahəd o kuyəd məmur,
Ki cinayət həsəbül əmre hümayün başəd.
Hər ke zin piş cəvan mord və çenin ruz nədid,
Bayəd əz mərg becan maker o məmnun başəd,

Layeqe şah bovəd Qəsr[1], nə hər zendani,
Hakeme cameə gər millət o qanun başəd.
Fərroxi əz kərəme şah şode Qəsrneşin,
Be to in mənzele nov fərrox o meymun başəd.[2]

Şeri zabit çox rəvan oxudu. Misralar Elməddinə tanış gəlirdi. Haçansa, gərək ki, ustadın kitabxanasından götürdüyü divandan oxumuşdu. Hə, elədir ki, var. Fərruxinin şeridir — gözəl şair olub. Bu şer də gözəl sənət əsəridi. — Şair onu zindanda yazmışdır. Bircə anda Fərruxinin mübarizə və faciələrlə dolu həyatı gəlib Elməddinin gözləri önündən keçdi. Elməddin gördüyü şairlərdən Şəfiyə, oxuduğu şairlərdən isə Fərruxiyə pərəstiş eləyirdi. Həyatında, şerində onlara oxşamaq istəyirdi.

Zabit onun qarışıq fikirlərini qırdı:

— Bu şeri sən yazmısan? Elməddin özünə gəlib:

— Yox, ağa. O şer İranın böyük şairi Fərruxinindir. Axırda adını da çəkir, — görmürsən?

— Bəs bu şer burda nə gəzir?

— Bilmirəm. Mənim ondan xəbərim yoxdur, zabit sahib!

— Onu sənə kim gətirib? Arvadın? Qaynatan?

---

[1] Q ə s r — Tehranda zindan adıdır.

[2] Şer — XX əsrin məşhur inqilabçı şairi, 1908-ci ildə Yəzd hakimi tərəfindən ağzı sözün həqiqi mənasında tikilən, 1939-cu ildə Rza şahın göstərişi ilə Qəsri — Qacarda venasına hava buraxılaraq, vəhşicəsinə öldürülən Mirzə Məhəmməd Fərruxi Yəzdinindir.

Şerin tərcüməsi:

«Hamının divanəlik xoşladığı bir mühitdə ağıllı o adamdır ki, Məcnun (dəli) paltarı geymiş olsun. Nə qədər ki bu şirinkar bizim məmləkətin padşahıdır, xalqın gözü lalə kimi qırmızı olacaq. Məmur öz təqsiri üçün üzr istəyir və deyir ki, bu cinayət əlahəzrətin əmri ilə olmuşdur. Hər kim ki bundan əvvəl cavan ölmüş və belə günü görməmişdir, o gərək öldüyünə şükür eləsin və şad olsun. Əgər cəmiyyətin hakimi millət və qanun olsaydı, Qəsr zindanı hər məhbusa deyil, şahın özünə layiq olardı.

Fərruxi şahın kərəmindən Qəsrneşin olmuşdur; sənin bu yeni mənzilin mübarək olsun...»

— Yox, onların belə şerlərdən heç xəbəri də yoxdur, — kişi tamam savadsızdır, arvadım da... hələ təzə-təzə kitab oxumağa başlayıb, zabit sahib.

Zabit vərəqi büküb cibinə qoydu:

— Bəs bu nə ruznamədir? — deyərək qatını açdı. Elməddin o dəqiqə iri qara hərifl ərlə yazılmış «Pərçəm» sözünü oxudu və bu, özünə qəribə gəlsə də, ürəyində bir sevinc duydu. Simin, Əhədulla düz deyirmiş, «Pərçəm» çıxırmış, «Pərçəm» oxunurmuş. Zabit ruznamənin adını astaca dilinə gətirdi:

— «Pərçəm».. hm... Bəs belə. Cavan oğlan... Bəs belə!!! Sənin işin fənadır, çox fənadır!

— Niyə, zabit sahib? — Elməddin onun həqiqəti dediyini başa düşsə də soruşdu: — Mən neyləmişəm ki?

— Bəs bunları görmürsən, hələ bir soruşursan da? Sən üç suala cavab verəcəksən — bunları sənə kim gətirib — bu bir. Bunları sənə kim göndərib — bu iki. Bunları sən burada — dustaqxanada kimə verəcəkdin — bu da üç?!

Bu sözləri eşidəndə Elməddin sarsıldı — demək, bu işə arvadını, qaynatasını da qoşmaq istəyirlər. Çöldəki yoldaşlarımı — Şəfini, «Pərçəm»çiləri də. «Yox, yox! — dedi öz-özünə ürəyində və zabitin gözlərinin içinə şax baxa-baxa: — Bunları, zabit sahib, indicə bax bu iki ağa gətirdi bura — bu bir — söylədikdə zabit, dönüb yanındakılara nəzər saldı və mənalı-mənalı:

— Hə. —dedi — Siz gətirmisiniz? Ağa deyir siz gətirmisiniz!

Elə bu vaxt gödəkboylu, sallaqdodaqlı nəzarətçi irəli yeridi və altdan-yuxarı Elməddinə dirəşdi:

— Nə? Nə dedin? Bir də təkrar elə dediklərini? Elməddin sakitcə:

— Siz gətirdiniz indicə: — deyə müxtəsərcə cavab verəndə gödək kişi iri yumruğunu Elməddinin qarnına nə təhər vurdusa o, «axx» eləyib ikiqat olaraq dizləri üstə çökdü, başını sement döşəməyə qoyub ilan kimi qıvrıldı. Gödək kişi, bu azmış təki, boynunun ardından da bir təpik ilişdirdi və:

— Pədərsuxtə, o sözləri bir də dilinə gətirsən dilini çəkib boynunun ardından çıxardaram — dedi.

Elməddin özünə gələndə kamerada heç kəs yox idi, — qapı bağlı idi.

BEŞİNCİ FƏSİL

Həmin gün Elməddinin yeməyini vermədilər, havaya da çıxartmadılar. Evdən gələn xörəkdən soyuyub qaxaca dönmüş tikə kababdan, qurumuş təndir çörəyindən bir az yedi — candərdi yedi. İştahası yox idi. Qarın nayihəsini dolaşan sancı çəkilib getmirdi. Elə bil, içərisinə zəhər tökmüşdülər — yandırırdı, doğrayırdı. Ağrıdan bir yerdə qərar tutub dayana bilmirdi. Gah uzanırdı, gah gəzinirdi. Fikirləşməkdən başı şişmişdi. Yaranmış vəziyyəti götür-qoy edir, ancaq axırını bir yana çıxartmağa müvəffəq olmurdu. Həbs olunmağının səbəbi elə orda — məhkəmədə məlum olmuşdu — «Xurma çərdəyi»nin qurbanı idi, həbsxanada təkadamlıqda da elə buna görə yatırdırdılar. Bəs bu şer, ruznamə nə məsələ idi? — bununla neyləmək istəyirdilər? Bəlkə bu yolla onun həbs müddətini uzatmaq, onu illər uzunu dörd divar arasında saxlayıb çürütmək istəyirdilər? Bəlkə tək dustaqlardan deyil, şəhərdən, cəmiyyətdən, dostlarından, ailəsindən ayırmaq, uzaqlaşdırmaq istəyirdilər?!

Bu qayğılar, cavabsız suallar saatlar keçdikcə onu yorub əldən salır, namüəyyən hisslər məngənəsində çırpınan ürəyi az qala partlamaq dərəcəsinə gəlirdi. Qəzəbdən dodağını çeynəyirdi. Ancaq çarəsizlik, gücsüzlük önündə aciz olduğunu dərk etdikdə süstəlir, dözmək, səbir etmək, bu oyunun axırının nə ilə bitəcəyini gözləməkdən başqa çıxış yolu olmadığını anlayıb taleyi ilə barışırdı.

Yoxlamadan sonra çox uzun, əzablı, saatlarının ucundan daş asılmış bir gecə keçdi. Səhərisi, saat ona qalmış, Elməddini kamerasından çıxartdılar, rəisin otağına gətirdilər.

Rəis, eynən o vaxt, Şəfi ilə onu üzləşdirərkən mizin arxasında necə oturmuşdusa, indi də elə oturmuşdu. Sanki bu iki-üç ildə heç yerindən tərpənməmişdi. Başını sol çiyninə tərəf əyərək kök, yoğun barmaqları arasında tutduğu on iki rəngli qələmlə nə isə yazırdı. Cavan nəzarətçi içəri girəndən sonra, rəisin məşğul olduğunu görüb, hay-küy salmadan, yavaş səslə:

— Rəis sahib, «iyirmi bir»i gətirmişəm sizin əmrinizlə! — dedi. «İyirmi bir» — Elməddinin nömrəsi idi. Rəis başını qaldırıb nəzarətçinin böyründə dayanmış Elməddinə gözucu nəzər yetirib:

— Otur! — deyə qabağındakı mizin aşağı ucundakı kətili göstərdi və üzünü nəzarətçiyə tutaraq: — Sən gedə bilərsən! — söylədi. O, dabanlarını bir-birinə vuraraq şaqqıldatdıqdan sonra çıxdı, qapını örtüb dəhlizdə dayandı. Rəis hələ yazısını qurtarmamışdı, ona görə otaqda sakitlik idi! Elməddin qapı ağzında, dəhlizin sement döşəməsində asta-asta var-gəl eləyən gözətçinin addım səslərini eşidirdi. Və istər-istəməz bu çağırışın nə üçün olduğu, nə ilə qurtara biləcəyi barədə düşünürdü. Elməddin artıq təcrübəsindən bilirdi ki, bu otaqda rəislə müttəhimlər arasında bu və ya digər məsələ haqqında söhbət gedir, əvvəl çox mədəni şəkildə suallar verilir, istədikləri cavabı aldıqda hər şey yaxşı qurtarır — yəni nə rəis əsəbləşir, nə müttəhim döyülür; yox, əgər, müttəhim «düzgün» cavab vermirsə, onda rəis hirslənir, rəis hirsləndisə, pəzəvəngi Dostməmməd içəri gəlir və söhbət başqa cür davam edir. Çox vaxt öz ayağı ilə bu otağa girən dustaq, burdan necə çıxdığını heç cür xatırlaya bilmir. Bunları Elməddin başa düşürdü.

Rəis qələmini yerə qoydu, kürəyini kreslosunun söykənəcəyinə dirəyib şirin-şirin gərnəşdi. Eynəyinin altından ət basmış gözlərini qıyaraq Elməddinə xeyli diqqətlə baxdı, iə üçünsə gülümsədi və gər səslə:

— Eşitmişəm sən yaxşı şəkillər çəkirsən, eləmi? — deyə söhbətə başladı.

Elməddin çiynini çəkdi:

— Nə bilim, hərdən çəkirəm.

— O divardakı şəkilləri sən çəkmisən, eləmi.

— Hansı divardakı, rəis sahib?

— Otağındakıları deyirəm! Uşaqlar yaman tərifləyirdilər.

— Hə... Kömür qırığı ilə...

— Kimdi onlar? Biri, deyəsən, şair dostundu. Eləmi?

—…

— Amma o dəfə bir-birinizi tanımadığınızı deyirdiniz.

— Onunla məni burda siz tanış elədiniz. Biz sonra dost, olduq. İndi danmıram. O, ustadımdı, məmləkətin böyük söz sənətkarıdır.

— Bəs o qadın kimdi? Arvadınızdı, eləmi?

— Bəli...

Rəis susdu, gonbul şəhadət barmağı ilə mizin şüşəsini döyəclədi, sonra siqaret yandırıb damağına qoydu, tüstünü sağ cəhəngindən havaya buraxıb mülayim-tərzdə dedi:

— Rəssamlıq Allah vergisidi, hər adam şəkil çəkə bilməz. Sənin yerinə olsaydım, ancaq elə bu işlə məşğul olardım. Şöhrəti şöhrət, pulu da ki, pul.

— Bilirsən səni bura niyə gətizdirmişəm?

— Bilirsən?

— Bəli!

— Niyə?

— Əvvəl sorğu-suala, sonra, əgər sizi təmin eləməyən cavab versəm, döydürməyə!

Rəisi gülmək tutdu. İri qarnı atıla-atıla uğundu.

— Vay səni!.. Yox, düz tapmadın. Mən səni ona görə çağırtdırmışam ki, mənim şəklimi çəkəsən. Bu gün mənim anadan olan günümdü, altmış yaşım tamam olur. İstəyirəm... sən... mənim şəklimi çəkəsən!.. Çəkərsənmi?

Elməddin dizləri üstünə qoyduğu qandallı əllərini yuxarı qaldırdı:

— Belə??

— O, yox. Bu saat əmr verərəm dəstbəndini açarlar! — Bunu deyib o, mizin sol böyründəki düyməni basdı, iki dəqiqə keçməmiş qapı açıldı və Dostməmməd içəri daxil oldu.

Rəis Dostməmmədə:

— Onun əllərini aç, o kağız-qələmi də qabağına qoy, mənim şəklimi çəkəcək, — dedi.

— Beçeşm, rəis sahib!—Dostməmməd dustağa sarı dönəndə Elməddini gördü, daha doğrusu, tanıdı. Elməddin onun gəlişindən üşürgələndi, vücudunu soyuq bir gizilti gəzib-dolaşdı. Yenə o qanlı gün — Şəfinin döyüldüyü gün gəlib yadına düşdü

— O, köhnə dost. Bu oğlan məni yaman çox istəyir, rəis sahib. Baxışlarından bilirəm. Əgər təklikdə əlinə düşsəm, məni bağrına basıb öpər, — dedi. Elməddin onun səsindəki kinayəni duyub üzünü yana çevirdi. Dostməmməd baxışları ilə rəisə işarə eləyib qımışdı. Sonra dəstbəndi biləklərindən çıxartdı, stolun üstünə qoydu. Hardansa eni, uzunu bir metrə yaxın olan qalın kağız gətirdi, stolun üstünə qələm atdı. Elməddin haçandı qələm-kağız görməmişdi. Əli qələm üçün gicişirdi elə bil. Kağız o qədər ağ və gözəl idi ki, ürəyində xoş duyğular oyatmışdı. O, sağ əlinin keyimiş barmaqlarını üç-dörd dəfə açıb, yumdu, sonra əlini ağ kağızın üstündə gəzdirdi. Yaxşı gül çəkmək olardı bu kağızda, ustadın, Siminin şəklini çəkmək olardı bu kağızda. Elməddinin ürəyi dolu idi — yazdığı şerləri bura köçürmək olardı; xırda xətlə yazsaydı, hamısı yerləşərdi. Ancaq o, indi rəisin şəklini çəkməli idi... Ürəyi istəmirdi, ancaq kağız, qələm həsrəti o qədər güclü idi ki, fikrində rəisin şəklini çəkməyə razılaşdı və qələm götürdü. Rəisə, onun gözlərinin içinə, sifətinə, burnuna bir dəfə diqqətlə baxdı. Sonra qələmi kağız üzərində asta-asta gəzdirməyə başladı.

Bu zaman Dostməmməd rəisə nəzər yetirdi və Elməddinin sağ əlinə işarə elədi. Rəis gözlərini qırpmaqla «hə» dedi. Bu gizli işarəni Elməddin tutdu, ancaq mənasını başa düşmədi. Ona elə gəldi ki, Dostməmməd nə isə əlinin qabiliyyətini tərifləyir rəisə. Buna əhəmiyyət verməyərək rəisin üzünün çizgilərini, qaşlarını kağız üzərinə köçürür, tələsmir, arxayın-arxayın işləyirdi. On-on beş dəqiqəyə şəkil hazır oldu. Elməddin onun yaxşı çıxmasına qətiyyən çalışmamışdı, sadəcə ümumi oxşarlıq yaratmağa cüzi səy göstərmişdi.

Vərəqi rəisə tərəf uzatdı. O, şəkli alıb baxdı:

— Hə. Oxşayır. Afərin! — Dostməmməd də boylanıb vərəqə nəzər yetirdi, dodaqlarını büzüb:

— Pis deyil. Ancaq daha yaxşı çəkə bilərdi... — söylədi. Elməddin dillənmədi. Rəis şəkli bürmələyib arxasındakı pəncərənin qabağına qoyduqdan sonra:

— Hə, işimizin birini gördük, qurtardıq. İndi əsl mətləb üstünə gələk, — dedi, — Hə, necə bilirsən, Dostməmməd?

— Əlbəttə, gərək çoxdan başlayaydıq, intəhası sənin rəsmin qabağa düşdü.

Elməddin diqqətlə qulaq asırdı. Zənnində yanılmadığını başa düşmüşdü. İndi o şer məsələsi, «Pərçəm» məsələsi ortaya atılacaqdı. Dünən onun otağında nahaq yerə axtarış aparmamış, nahaq yerə onun səbətinin içindən qadağan olunmuş ədəbiyyat — Fərruxinin şerini, «Pərçəm» ruznaməsini «tapmamışdılar».

Dünən gödəkboylu, sallaqdodaq nəzarətçinin onu döyməsi yenidən yadına düşdü və qarnındakı sancılar təzələndi. Sözlərini xatırladı: «Bir də o sözləri dilinə gətirsən, dilini çıxardaram!» Və o, ağrı, əzab həkk olunmuş gözlərini rəisə zillədi, bayaq söylədiklərini təkrar eşidən kimi oldu: «Yox, düz tapmadın, mən səni ona görə bura cağırtdırmışam ki, mənim şəklimi çəkəsən.» Elə onda rəisin yalan danışdığını hiss eləmişdi — ancaq buna inanmaq istəməmişdi. «Yekə kişidir, nə üçün yalan danışsın, onu ki məcbur eləyən yoxdur?» — deyib onun sözlərinin həqiqət olacağına inanmaq istəmişdi. Lakin indi deyir əsl mətləbə keçək!.. Bu ikiüzlülük, hiyləgərlik onda ikrah hissi doğurdu. Və həmin ikrah duyğusu onun gözlərinə yazıldı elə bu an. Rəisin rəsmi, gər səsi Elməddini fikrindən ayırdı:

— Şəkil üçün sağ ol. İndi isə zəhmət olmasa bizi başa sal görək bax bunları — o, «Pərçəm» ruznaməsini və şeri siyirmədən çıxarıb stolun üstünə atdı, — bax bu zir-zibili sənin otağına kim gətirib?

Sual dünənki sual idi. Cavabı da dünənki oldu:

Mən dünən bu suala cavab verdim, rəis sahib! O, ruznaməni də, o şeri də mənim otağıma dünən sizin nəzarətçilər gətiriblər, onlardan mənim qətiyyən xəbərim yoxdur. Heç əlimi də vurmamışam, inanın, rəis sahib!

Rəis üzünü Dostməmmədə tutdu:

— Düz deyir?

— Yox. Yalan deyir, rəis sahib! — Bunu deyib o, qəzəblə irəli cumdu, Elməddinin qolundan yapışıb qaldırdı və qeyzlə: — Sənə dünən demədilər ki, o sözü dilinə gətirmə? — deyə bağırdı.

— Dedilər.

— Yenə təkrar eləyirsən?

— Mən həqiqəti deyirəm. Onları sizin... — Dostməmməd Elməddinə sözünü bitirməyə aman vermədi, iri, kobud yumruğu onun çənəsinin sol tərəfini tutdu və o, tappıltı ilə yerə sərildi. Dodağı partlamışdı, ağzından qan axırdı. Huşsuz halda arxası üstə uzanmışdı. Sol əli qan axan ağzında idi, sağ əli yanına düşmüşdü. Dostməmməd yaxın gəldi, əyilib Elməddinin sifətinə nəzər saldı: o, pıçıltıyabənzər səslə təkrar edirdi:

— Xəbərim yoxdur, xəbərim yox...

Birdən Dostməmməd ayağını qaldırdı, altı dəmir vallı, ağır çəkməsi ilə Elməddinin yanına uzanmış qoluna, düz biləyinin üstünə zərblə bir təpik ilişdirdi və bilək sümüyünün şıqqıltı ilə sındığını hiss elədi. Elməddin vəhşi bir səslə «vay» deyib bağırdı, yerində qıvrıldı, qıvrıldı, sonra təzədən bayıldı...

Çoxmu belə qalmışdı, azmı, bilmirdi. Gözlərini açanda başı üstə başqa adam gördü. Deyəsən o, həbsxana həkimi idi.

Rəisin ona dediyi bu sözləri güclə ayırd eləyə bildi:

— Bu heyvan vurub onun qolunu sındırıb. Xahiş edirəm onun biləyini mən deyən kimi bağla, sərtəbib sahib!

— Axı bu, cinayətdir, rəis sahib!

— Bağla deyirəm sənə!

Və həkim onun sağ əlini sarıdı. Sonra onu kamerasına aparıb atdılar, qapını üzünə bağladılar...

Qonşu kamerada yatanlar onun qışqırığına dan yeri ağaranacan göz yuma bilmədilər...

ALTINCI FƏSİL

Axşam saat on birdə Əbdül, görünür, təklikdən sıxıldığından, ya bəlkə çoxdan baş çəkmədiyini xatırladığından gözlənilmədən gəlmiş və ilk dəqiqələrdə onu da, Heyranı da həyacanlandırmış Zərrintac xanımı, oturub xeyli ordan-burdan söhbət eləyəndən, kiçik qardaşını doyunca oynadıb, öpüb-oxşayandan, Heyranla ətraflı tanış olandan, evləndiklərini biləndən, yeyib-içəndən sonra yola salırdı. Zərrintac xanım atası öləndən sonra birinci dəfə idi ki, burada bu qədər oturmuş, Əbdüllə içmişdi. Eyvandan həyətə düşəndə səndələ-

yirdi. Əbdül yıxılacağından qorxub ehtiyatla onun qolundan tutmuş həyətdə dayanan maşının yanına gətirmişdi, qapısını açıb sükanının arxasında oturtmuşdu.

— Arvad, yaxşı arvaddı, Əbdül. Dünyaya çox oxşayır. İçəri girəndə elə bildim odur, qayıdıb gəlib. O paltarı, o qızılları sən veribsən ona?

— Hə, xanım, sizin ürəyinizə bələd olduğum üçün acığınıza gəlməyəcəyini bilib verdim, geysin. Bacısınındı, qoy geysin.

— Yox, bacısının deyil, Əbdül. Qibləgahımındı hamısı. Onun gələndə nəyi var idi ki! Heç nəyi yox idi.

— Elədi, xanım. Mən uşağın xatirinə.

— Hə, hə, bilirəm. Ümumiyyətlə, yaxşı eləmisən. Qoy geyinsin, yaşasın. Xoşuma gəldi. Uşağa çox yaxşı baxır.- halaldı ona. Amma kəbininizi kəsdirəndə gərək mənə xəbər eləyəydin. Gəlib sizi təbrik eləyərdim.

— Düzü, ürək eləmədim, utandım həm də. Zərrintac xanım güldü, şəhadət barmağını Əbdülün burnunun ucuna toxundurdu:

— Ay xatakar, ay xatakar! Yax...şı.. mən..getdim...

— Amma gərə qalaydın, xanım. Səhər gedərdin...

— Yoox. Yoox...

O, çəkib qapını örtdü, maşını işə salmağı ilə darvazadan çıxmağı bir oldu. Əbdül arxasınca tışırdı:

— Ehtiyatlı sür, xanım! — Ancaq o eşitmədi. Əbdül darvazanı bağladı. Həyətdə gəzindi bir az. Kefi kök idi — ən çox qorxduğu şey bu görüş idi. Zərrintac xanım onun Heyranı — Dünyanın bacısını evə gətirməyə əvvəldən razılıq vermişdi, ancaq evlənmək məsələsindən xəbərsiz idi. Əbdül o vaxt atasının ölümündən sonra, Zərrintacın dediyi sözləri unutmamışdı: «Bu evə başqa qadın ayağı dəyməməlidi. Dəysə, özündən küs!» Və o qorxu həmişə ürəyinin başından daş kimi asılıb qalmışdı. Əbdül indi sərxoş olsa da xanımın acıqlanmadığını, sözünü unutduğunu görüb çox sevinirdi. «Yaxşı adamdı, kinli deyil xanım. Allah onu xoşbəxt eləsin.» — deyə düşünə-düşünə, fit çalaçala pilləkənləri qalxdı, içəri keçdi. Heyran süfrəni, qab-qacağı yığışdırmışdı, uşağı yerinə salıb yatırtmışdı. Özü də soyunub yorğan-döşəyə girmişdi. Açıq saçları ağ balışın üstünə tökülmüşdü. Onu da

əhvalı yaxşı idi. Sifətinə sevinc çilənmişdi, iri, yaraşıqlı gözləri gülürdü. O da Əbdül kimi bu görüşdən bərk nigaran idi. Olmadı belə, oldu elə, Zərrintac xanımın acığı tutdu, Əbdülü də qovdu, onu da — neyləyəcəkdilər?! Amma şükür, hər şey yaxşı qurtarmışdı. Heyran Zərrintac xanımın xoşuna gəlmişdi. Elə xanım da Heyranın xoşuna gəlmişdi. Amma Heyran Zərrintacın danışığından, rəftarından, gözlərinə həkk olunmuş kədərdən başa düşmüşdü ki, o, bədbəxt qadındır. Yazığı gəlmişdi ona. Görünür, içməyi də elə bundandır. Görünür, xoşbəxtlik varlılıqda, kasıblıqda deyil. O, düşünə-düşünə paltarını soyunan Əbdülə baxırdı. Heyran fikir vermişdi: Əbdül içəndə çox şən olurdu, deyirdi, gülürdü, lətifələr danışırdı, yorulub əldən düşənəcən onu yatmağa qoymurdu. Bu gecə isə kefi iki qat əla idi — həm içmişdi, həm də Zərrintacın qorxusundan canı qurtarmışdı.

— Hə, qohumun necədi, xoşuna gəldi?

— Gəldi, Əbdül. Yaxşıdı, allah onu xoşbəxt eləsin, Əbdül.

— Eləsin, amin!

— Ancaq içməyindən zəhləm getdi. Qadın da içərmi? Axı...

— Rəhmətlik Nəcməddin özü öyrədib. Əhvallı qızdı. Deyir gərək evlənəndə mənə deyəydin, gəlib sizi təbrik edərdim.

— Biz də qəribə evləndik — «toyumuzda» səndən, məndən bir də uşaqdan başqa heç kəs yox idi.

— Eh, onlar boş şeydi. Təki adam xoşbəxt olsun, Heyranım mənim. Sən mənə de görüm xoşbəxtsənmi?

— Çox, əzizim. Bundan böyük xoşbəxtlik təsəvvür eləmirəm də, istəmirəm də. Allah bu səadəti bizə çox görməsin, Əbdül.

Əbdül soyunub Heyranın yanına girdi, onun dodaqlarından, gözlərindən, sinəsindən öpdü:

— Yavaş, nə fısıldayırsan, uşaq oyanar indi!—deyə Heyran onu özündən kənar eləmək istədi, ancaq bacara bilmədi. Əbdül onu qolları arasına alıb özünə tərəf çəkdi və məst halda dedi:

— Sənə qurban olum, Dünyam mənim! — Heyran səksəndi, bədənindən bir əzab rişəsi keçdi.

— Nə? Nə dedin? — deyə başını yastıqdan qaldırdı və çəpəki Əbdülə baxdı. — Dediyini bir də təkrar elə? Əbdülün fısıltısı kəsildi, dayanıb dinşədi.

— Nəyi təkrar eləyim?

— İndicə dediyini!

Nə dedim ki? Dedim ki, sənə qurban olum, Heyranım mənim!

— Yox, elə demədin. «Dünyam mənim» dedin, Əbdül!

— Mən?

— Hə, sən!

— Elə şey olmaz.

— Vallah, elə dedin!

— Yəqin çaşmışam!

— Yox, çaşıb-eləməmisən. Elə həqiqəti demisən, Əbdül. — Heyran inciyib ondan üzünü çevirdi. Əbdülün sərxoşluğu harasa uçdu və o, pərt halda dikəlib oturdu. Baxışlarını dolandırıb Dünyanın divardakı şəklinə ötəri nəzər saldı. Dünya xanım divardan ona baxırdı, gözlərində təbəssüm... Ancaq bu təbəssümdə Əbdül acı bir istehza duydu nədənsə, məzəmmət hiss elədi və dözməyib günahkar baxışlarını dolandırdı. Heyranın ağ, açıq çiynindən tutdu:

— Heyran.

—…

— Sənin-ləyəm, niyə dillənmirsən, Heyran? — O, Heyranın çiynini silkələdi.

— Əl çək məndən: özün də dur burdan. Eşidirsən, dur burdan. Gözlərsən nə vaxt Dünya gələr, onu qucaqlayıb o sözləri deyərsən.

Nagahan Əbdülün dilindən çıxan «sənə qurban olum, Dünyam mənim» kəlmələri Heyranın ürəyini alt-üst eləmişdi, azca əvvəl qəlbini, ömrünü işıqlandıran bəxtəvərlik duyğusunu, qara bir dumana bürümüşdü, fikrini qarışdırmışdı. Heyran lap ilk günlərdən bu evdə gizli bir sirrin olduğunu duymuşdu, bəzi şeylər ona pərdəli, dumanlı görünmüşdü. Dünya niyə bu cah-calalı qoyub getmişdi—özü də uşağını qoyub getmişdi. Bunu hər ana eləməzdi axı! Dünya heç eləməzdi — o, bacısının lap uşaqlıqdan ağıllı olduğunu yaxşı xatırlayırdı. Sonra... Nəcməddin kimi dünyagörmüş, iradəli, dəyanətli kişi niyə özünü öldürmüşdü? Dünyanın ayrılığınamı dözə bilməmişdi?

Yox, bu da ağlabatan şeyə oxşamır. Bəs atasız-anasız böyüyən uşaq niyə Nəcməddinə yox, Əbdülə daha çox bənzəyir. Qaşları, burnu, çənəsi, gözləri, əlləri eynən Əbdülün deyilmi? Əbdül Nəcməddini canından çox istəyir — yıxılanda, ayağına tilişkə batanda kişi az qalır dünyanı dağıtsın. Bu, ağa, xanım uşağına bəslənən məhəbbət deyil, bu, doğma övlada, ciyərparaya bəslənən dilsiz sevgiyə oxşayır. Heyran bunu da hiss eləmişdi ki, Əbdül Dünyanın adını xüsusi ehtiramla çəkir, ondan danışanda səsi titrəyir, az qalır ağlasın. Ola bilər, Dünya onunla bir nökər kimi çox yaxşı rəftar etmiş, incitməmiş, ərinə döydürməmiş ailənin bir üzvü kimi baxmışdı. Ancaq Əbdülün onun adını çəkərkən keçirdiyi həyəcan, səsində duyulan minnətdarlıq hissi nə isə bunlardan daha yüksək bir hissin ifadəsinə bənzəyirdi!

Bütün bu cavabsız suallar Heyranı çoxdan düşündürürdü, o, burda nə isə bir sirr olduğunu — hökmən bir sirr olduğunu tez-tez fikrinə gətirir, narahat olurdu, lakin bacardıqca onlardan uzaqlaşmağa çalışırdı, unutmaq istəyirdi. Neçə dəfə ürəklənib Əbdüldən həmin narahatedici suallara cavab almaq istəmişdi, lakin, Əbdülün onsuz da ona düzgün bir söz deməyəcəyini yəqin edib susmağı məsləhət bilmişdi. «Sirr heç vaxt axıracan pünhan qalmır, gec-tez, haçansa, lap adi bir təsadüf üzündən açılıb faş olur!» — deyərək gözləmiş, hər şeyi zamanın ixtiyarına buraxmışdı. İndi, budur, neçə ay ər-arvad kimi bir yerdə yaşayandan sonra, Əbdül ilk dəfə idi ki, Heyranı əzizləyəndə, sinəsini, dodaqlarını, gözlərini öz həris öpüşlərinə qərq edəndə çaşıb ona «Dünyam mənim!» deyirdi. Heyranın fikrincə bu, adi səhv deyildi, çaşmaq da deyildi, bu, keçmişin, hansı uzaq və xoşbəxt anınsa təzədən yaşanması idi, təkrarı idi. Bu anda o, bacısı Dünyaya nə qədər oxşasa da, Heyran deyildi, Dünyanın özü idi Əbdül üçün! Neçə dəfə, lap ilk vaxtlar Heyranda da belə hallar olmuşdu — ona elə gəlmişdi ki, yanında uzanan, nə isə şirin sözlər pıçıldayan Əbdül deyil, Cabbardı. Dəfələrlə çaşıb az qala «Cabbar, bəsdi», ya «Cabbar, əzizim» deyəcəkdi, lakin vaxtında dilini saxlaya bilmişdi və buna çox sevinmişdi—hər necə olsa, Əbdülün xatirinə dəyə bilərdi. «Hələ də unutmayıb, hələ də mənə onun kimi baxır!» —deyə fikirləşərdi. Ona görə, Heyran Əbdüllə danışanda, yatağında həmişə

sərvaxt olmağa, elə səhvdən özünü qorumağa çalışmışdı. Gec-tez belə olacağını bilirdi Heyran. Xüsusilə, Əbdül içəndə elə bir anın baş verə biləcəyini ürəyinə gətirib onun hər sözünü, hər hərəkətini diqqətlə izləyirdi. Və ürəyində allaha yalvarırdı ki, belə şey olmasın; «heç nə bilmədən yaşamaq, bilib əzab içində yaşamaqdan min dəfə yaxşıdır! Aman allah, həyat nə qədər qatma-qarışıq, dumanlı və mürəkkəbmiş! Budur, mən... mən Cabbar yazığın sağlığında da, öləndən sonra da and içmişdim ki, öldüyüm günəcən mənə yad kişinin əli dəyməyəcək. Yəqin Əbdül də Dünyaya and içibmiş. Yəqin Dünya da Nəcməddinə and içibmiş. İlahi, bəs kim düz danışır, kimə inanasan? Niyə qoymursan hər kəs öz sözünün üstündə dursun, təmiz olsun, andına sadiq qalsın, öləndə də günah içində, vicdan əzabı çəkə-çəkə ölməsin, sənin hüzuruna da günahkar kimi yox, alnıaçıq, üzüağ gəlsin, niyə qoymursan, ilahi?» ...

Əbdül də susmuşdu — Heyranın sözləri onu ayıltmışdı. Sözü ağzından çıxartmışdı. «İçəndə həmişə belə oluram. — elə bil, dilim iradəmə, ağlıma tabe olmur. Ya bəlkə əksinədi? Dilim ürəyimdəkini deyir. Gizli saxlamalı olacağım şeyi bir də görürsən demişəm. O dəfə də belə oldu. Ağam məni çox içirtdi. Dünyanın qonşu oğlanla başlayan və mənə olmazın əzab verən him-cimini şişirtdim, böyütdüm, heç bilmədim də ağama haçan demişəm! Ondan sonra hər şey pozuldu, məhv oldu — Dünya da, qonşu oğlan da öldürüldü, ağam da özünü məhv elədi. Günhakar kim idi?! İndi də belə. Yox, deyəcəyəm çaşmışam. Bəlkə açıb Heyrana deyim həqiqəti? Gör necə də qısqanır? «Gələndə onu qucaqlayıb o sözləri deyərsən!» Bacısına. da qısqanır. «Gələndə!» O yazıq gələcəkmi ki... Yox, Heyran, o heç vaxt gəlməyəcək, gələ bilməyəcək. Yazıq inanır ki, Dünya qayıdıb gələcək! Yalan yalan doğurur, bir dəfə yalan danışan adam, o yalanı doğrutmaq üçün min yalan da quraşdırmalı olur və axırda bu yalanlar içində də itib-batır! — ağam rəhmətliyin dilindən eşitdiyim bu sözlər necə də doğru imiş».

Beləliklə, Heyranı inandırmaq üçün yenə yalan!

— Heyran! Mənə bax, gör nə deyirəm.

— Mənə heç nə demə. Saxla, o gələndə deyərsən, — deyə Heyran çımxırdı və ağlamağa başladı. Əbdül səsini çıxartmadı. «Qoy

ağlayıb toxtasın» — deyə düşündü. Doğrudan da, qadın çiyinləri atıla-atıla xeyli göz yaşı tökəndən sonra, köpü alınmış tuluq kimi, sakitləşdi və fikrə getmiş Əbdülə sarı dönüb: — Mən hər şeyi bilirəm, Əbdül, — dedi, — xahiş edirəm mənə yalan danışmayasan.

Əbdül onun saçlarını qorxa-qorxa sığallamaq istədi, amma Heyran əlini geri itələdikdə çarəsiz adam kimi:

— Nəyi bilirsən, Heyran, qurban olum? — söylədi. — Burada nə var axı?

— Mən yaxşı bilirəm ki, sən bacımı sevirmişsən, onunla yaşayırmışsan, bu uşaq da sənin uşağındır, Əbdül. Dünya baş götürüb qaçıb—yəqin yazıq öldürüləcəyindən qorxub başını götürüb qaçıb... Nəcməddin də bunu bilib özünü öldürüb?. Hə, nə gözlərini döyürsən? Düz demirəm?

Heyranın sözləri onu tərksilah eləmişdi. Bunları o, haradan bilə bilərdi? Bilənlər o dünyada idi. Təkcə Əbdüldən başqa heç kəs bu sirrdən xəbərdar deyildi axı? Yox, o sadəcə olaraq fərz eləyir, belə ola bilər — düşünür. «Mənim dediyim bircə sözdən çıxartdığı nəticələrdir bunlar — necə də düz tutub hər şeyi. Və Əbdül Heyranın ağlına, məntiqinə heyranlığını bildirmək istədi, ancaq bunun da yeri olmadığını fikirləşib onu sakitləşdirməyə, inandırmağa çalışdı:

— Əzizim, sənin dediklərindən tək bircə şey düzdü.

— Nədir?

— O budur ki, həqiqətən mən Dünya xanımı sevirdim, Heyran. Bu, dilsiz, cavabsız bir məhəbbət idi, mən ona heç nə deyə bilməzdim — mən nökər idim, o xanım. Arada da Nəcməddin kimi zəhmli, zabitəli bir kişi vardı. O mənə gözünün ucuyla da baxmazdı, Heyran. Mən yana-yana, qovrula-qovrula yaşayırdım. Onun vüsalına mən ancaq gecələr, şirin röya aləmində qovuşa bilirdim, yalnız onda o gözəl məxluqu ağuşuma alıb, əzizləyirdim: «Sənə qurban olum, Dünyam mənim!» — deyirdim. Bu adət ordan qalıb başımda, Heyran, inan.

Heyran ona qəribə bir diqqətlə qulaq asırdı. Gah Əbdülün necə ustalıqla yalan toxuduğuna təəccüb eləyirdi, gah da dediklərinin həqiqət olduğuna inanmaq istəyirdi.

— O, müəmmalı şəkildə yoxa çıxanda mən də az qala dəli olmuşdum, elə bil dünya uçmuşdu, altında qalmışdım. Həyət-baca

mənə yad görünürdü. Amma neyləyə bilərdim? Ağam onu lap çox istəyirdi, o dözmədi, özünü öldürdü, ancaq mən yaşadım.

—Yaxşı, tutaq bu nağıla inandım, bəs de görüm bu uşaq sənə niyə belə oxşayır? Buna nə deyirsən? Əbdül ani fikrə gedib cavab verdi:

— Əvvələn, xanım yerikləyəndə bazardan ona turşunu mən almışdım. Ağam özü göndərmişdi, ikincisi yəqin... uşaq mənim üzümə tərpənib. Deyirlər, ana bətninə düşən uşaq ilk dəfə tərpənəndə anası kimə baxsa, ona da oxşayır uşaq. Belə bir şey eşidibsən?

— Eşitmişəm, ancaq...

— Nə ancaq, qurban olum. Sən belə axmaq şeyləri çıxart başından. Dünya xanım hara, mən hara? Mən heç onun dırnağına da layiq deyiləm, Heyran. Sən bilirsən, sən görməmişdin, Dünya necə gözəl idi, necə ilahi bir məxluq idi, görməmişdin. Görsəydin, sən də qadınlığınla ona vurulardın. — Birdən Əbdül onu həddən çox tərifə uyduğunu və bununla da işləri təzədən korlaya biləcəyini düşünüb ustalıqla:— elə sənin kimi gözəl idi, Heyran! — dedi. — Sən ona o qədər oxşayırsan, birinci dəfə gələndə uçundum, öldüm, elə bildim odur! Allah onu məndən aldısa, qismətimə səni yetirdi, gülüm! O kişi bir yandan bağlayırsa, bir yandan da açır!

— İnanmaq istəmirəm, Əbdül. Yalandı dediklərin.

— İnanmırsan?

— Yox.

— Bəs neyləyim sən inanasan, Heyranım mənim? — O, Heyranı qucaqladı, sinəsinə sıxdı, tellərini oxşadı. — Heyran şəkklə yəqin arasında qalmış adam kimi şübhə ilə onun gözlərinə diqqətlə baxdı — onlarda həqiqət axtardı. Deyirlər, göz ürəyin aynasıdır. Ancaq Əbdül onun gözlərinin içinə şax baxırdı, bu Heyranın qəlbindəkiləri, bir az əvvəl həqiqət saydığı şeyləri heçə-puça döndərdi. Və o, dərdli-dərdli, nəyisə itirəcəyindən qorxmuş kimi ona sığındı:

— Onda and iç, Əbdül! — deyə Heyran şübhələri tamamilə qəlbindən qovmaq arzusu ilə astaca dilləndi və bunun, bayaqkı düşüncələrinə zidd olduğunu da xatırladı.

— Nəyə and içim, gülüm? — deyə. Əbdül, nəhayət, dəhşətli xatadan qurtarmış insan təki sevinc içində xəbər aldı. O hiss edirdi ki,

Heyranı inandırıb. O fikirləri onun başından çıxarmaq üçün kiçik bir təkan — and içmək gərəkdi. İndi o, nəyə desən and içməyə hazır idi.

— Ən müqəddəs sandığın, ən çox sevdiyin şeyə and iç, Əbdül.

Əbdül tərəddüdsüz:

— Sənin əziz canına and içirəm, Heyranım mənim. — dedi.

Bu, Heyrana ləzzət elədi. Demək, Əbdülün müqəddəsi, əzizi Heyran idi. Əbdül yük altından qurtarmış təki dərindən köksünü ötürüb:

— İndi inandın? — dedikdə o:

— Hə! — söylədi. — Ancaq, Dünya qayıdıb gələndə ondan soruşacağam, Əbdül.

Əbdül gözlərini yummaqla «yaxşı» — dedi və gizli bir ah çəkdi.

SƏKKİZİNCİ FƏSİL

Hava çoxdan qaralmışdı. Ay qaranlıqda tutqun şəkildə görünən dağın zirvəsindən iki adam boyu yuxarı qalxmışdı. Göydə irili-xırdalı ulduzlar sayrışır, yerdə zəif külək əsir, burula-burula dağların arasına doğru uzanan asfalt yolla irəliləyən qara maşının açıq pəncərəsindən içəri dolur, boğuq bir uğultu əmələ gəlirdi. Ziyaülhəqq sükan arxasında, Şəfi ilə Bəbir arxada oturmuşdular. Maşın Kabil-Bəhram yolu ilə şütüdükcə, hava daha da sərinləşirdi. Bu gəzinti Bəbirin istəyi ilə təşkil olunmuşdu. Ertədən Ziyaülhəqqə tapşırmışdı ki, saat doqquz üçün ustadı evdən çıxartsın, dörd divar arasında qalıb darıxır, həm görüşərik, söhbət edərik, həm də «dustağın» eyni bir az açılar. Demişdi ki, mən «Pamir» kinoteatrının aşağısında sizi gözləyəcəyəm.

Ustad «gəzinti» xəbərini böyük sevinclə qarşılamışdı. Ayda bir dəfə, iki dəfə Bəbir belə atüstü görüşməyi lazım və faydalı hesab edirdi. Məleykə xanım da buna artıq adət eləmişdi. Ziyaülhəqqdən başqa kimsənin üzünə qapı açmırdı, kimsəyə inanmırdı. Şəfi onunla gedəndə arvad arxayın olurdu.

Ziyaülhəqq şəhərdən çıxıb aşırımı aşandan sonra sürəti azaltmışdı. Daha külək içəri dolub deyilən sözü adamın ağzından qapıb aparmırdı.

Bəbir arxa oturacaqda, Şəfinin sol tərəfində əyləşmiş, sağ qolunu onun çiyninə qoymuşdu, aram, sakit bir səslə danışırdı:

— ...Məzari-Şərifdə, Qəndəharda, Heratda və Qəznidə, aldığım son məlumata görə, vəziyyətimiz o qədər də pis deyil. Firqənin yerli hövzələrində olan yoldaşlar fəal işləyir, yeri gəldikcə, etibarlı, sınanmış adamları öz cərgələrinə cəlb edir, məqsəd və məramımızı səbirlə onlara başa salırlar. Sənin «Pərçəm»in çox yaxşı oxunur. Amma yoldaşlar çox haqlı olaraq tirajın azlığından şikayət eləyirlər, — bir ruznamə beş-altı adama! Doğrudan çox azdır. Ümumiyyətlə, mənə elə gəlir ki, təkcə bir ruznamə ilə iş aşmayacaq. Ondan başqa bizə sadə dildə yazılmış siyasi kitablar, kitabçalar hökmən lazımdır. Ruznamədə yazdıqlarımız azdır, təbii ki, kifayət deyil. Biz gərək bu məsələni təxirə salmadan həll eləyək, çünki ruznamədə biz hər şeyi deyə bilmirik, deyən kimi, görürsən nə həngamələr çıxır ortalığa.

— Mən sənin tamamilə şərikəm, Bəbir can. Ruznamənin tirajını nəyin bahasına olursa olsun çoxaltmalıyıq. Bu öz yerində. Qaldı ki, siyasi ədəbiyyat məsələsi, məncə, hələlik sənin yazılarını, çıxışlarını, lap elə məclisdəki son nitqini də ayrıca kitabça şəklində çap eləyib yaymaq lazımdır. Onları bir dəfə ruznamə səhifəsində oxumaq az şey verər camaata. Kitab ruznamədən çox yayılır, çox yaşayır.. Bunu lap tez eləmək olar, mətbəədə işləyənlərimiz yaxşı uşaqlardı, gecəni gündüzə qatıb buraxa bilərlər. Ancaq tək bununla iş aşmaz. Sən də, Ziyaülhəqq də rus dilini gözəl bilirsiniz, məncə rus dilindən Leninin bir sıra əsərlərini — məsələn, «Dövlət və inqilab»ı və s.-ni dilimizə çevirə bilərsiniz, mükəmməl də olmasa, bizim şəraitimizə münasib yerlərini hələlik bizim adamlarımızın ixtiyarına vermək çox faydalı olar!

— Doğrudur. Mən «Nə etməli»dən müəyyən fəsilləri mütaliə etmişəm və sizə tanış olan «Nə etmək lazımdır?» məqaləmi də elə onun təsiri altında yazmışdım. Lenin zəkası dəryadır, o dəryanın zərrələrini xalqımıza çatdıra bilsək, böyük inqilabi iş görümüş olarıq.

— Bəli, ancaq bəla burasındadır ki, xalq savadsızdır, oxuyanımız, başa düşənimiz azdır! — deyə Ziyaülhəqq qeyd elədi.

Bəbir davam etdi:

— Biz hələlik o azlığa söykənməliyik, Ziya! Bir savadlını başa sala bilsək, onun beynini nurlandıra bilsək, o, ətrafına işıq saçacaq, başına adamlar toplanacaq, pərvanə işığa gələn kimi!

— Ustad düz buyurur, hələlik sizin məqalələrinizi ayrı-ayrı risalələr halında çap edib yaymaq gərəkdir. Xüsusilə on çıxışınız, Bəbir can, üstündən neçə ay keçməsinə baxmayaraq hələ də dillərdə dastandır. Siz təsəvvür edirsinizmi, bizim ən kasıb əfqanımızın nəyi də olmasa, bir radioqəbuledicisi var. Siz nitq irad eləyən gün mən maşınla şəhəri gəzirdim. Hər tində, hər küçədə, bazarda, dükanlarda camaat toplaşıb sizə qulaq asırdı. Sevincdən parlayan o gözləri gərək siz özünüz görəydiniz — xalq yalan eşitməkdən bezib, həqiqət eşidəndə, öz dərdini eşidəndə, adamlar uşaq kimi necə sevinirdilər, axı siz deyən o sözləri heç kəsdən eşitməyiblər!

—Amma gərək siz də, — Bəbir qəmli-qəmli gülümsündü — siz də o məclisdə olaydınız, görəydiniz ki, cənab nəxost-vəzir üz-gözünü turş alça yemiş adam kimi necə turşutmuşdu, əlacı olsaydı, məni elə ordaca güllələrdi. Həm də tək o yox, onun qulbeçələri də. Tənəffüsdə mənə dedilər ki, əlahəzrət özü də mənə diqqətlə qulaq asırmış. Əvvəl, mən başlamamışdan qabaq, əmisi ilə — marşal Şah Vəlixanla söhbət edirmiş, mən başlayan kimi əlini çənəsinə qoyub axıracan qulaq asıb, sonra isə Şah Vəlixanın qulağına nə isə pıçıldayıb — ikisi də gülüb.

— Eybi yox, Bəbir can —deyə Şəfi Bəbirin səsindəki kədəri duyub dilləndi. — Qələbə — son gülənindir!

— Ziya sən qərargahla əlaqəni dərinləşdirə bilibsən, ya yox? — deyə Bəbir qolunu ustadın çiynindən çəkib irəli əyildi.

— Bəli. Ora atdığım qarmaq etibarlıdır. Cəkrən[1] Əbdülqədir mənim köhnə dostumdur — onunla bir yerdə Rusiyyətdə oxumuşuq. İndi o hərbi hava və havadan müdafiə qüvvələri qərargahın baş zabitidir. Kabilin, Bəhramin, Qəndəharın, Məzari-Şərifin və Şindandın hava meydanlarının xəritələri, təyyarələrin, hərbi sursatın miqdarı, texniki personalın sayı, ən başlıcası isə pilotların siyahısını bu

[1] Cəkrən — mayor.

günlərdə gətirəcəkdir — söz verib. Ancaq komandan Əbdülrəzzaq xandan gərək vaz keçək.

— Niyə?. — Şəfi soruşdu.

— Ona görə ki, o, əlahəzrətin ən yaxın adamıdır. Kiçik bir şey hiss eləsə, hesab edin ki, əlahəzrətə belə deməmiş, özü Əbdülqadir xanı otağındaca güllələyəcək. Ona görə tapşırmışam ki, son dərəcə ehtiyatlı olsun.

— Bəli, düz eləmisən. Hərbi hava qüvvələri əlahəzrətin möhkəm düyünlənmiş sağ yumruğudur ki, istədiyi vaxt havaya qaldırıb bizim başımıza od ələyə bilər. O yumruğu — o qüvvəni onun əlindən almaq bizim üçün çox vacibdir. Bu general Əbdülrəzzaq xanı mən nə qədər çalışıram, təsəvvürümə gətirə bilmirəm. — Necə adamdır?

— General Əbdülrəzzaq xan ortaboylu, kök, iriqarınlı, qara bir kişidir. Yaxşı ingiliscə bilir, azca rusca da başa düşür. Çox zəhmli kişidir, bütün zabitlər ondan tük salır. Əsli deyəsən Heratdandır.

— Bəs müavini kimdir?

— Müavini general Asəf xandır. Məhəmməd Asəf xan. O, mülayim, gülərüz bir kişidir. Əbdülrəzzaq xandan yaşlıdır. Sadəlövh və təmizürəkli bir adamdır, daha Əbdülrəzzaq xan kimi tündməcaz, qanunpərəst, qəddar deyil.

— Əbdülqədir xan cavandır?

— Elə mən yaşda olar!

— O da təyyarəçidir?

— Yox. O, radar mütəxəssisidir — Şurəvidə bu sənəti öyrənib. Təyyarələri kəşf eləyən mürəkkəb texnikanın dilini, yalan olmasın ana dilindən yaxşı bilir. Əvvəl qüvvəyi-radarda, Qəznidə işləyirdi, sonra Kabilə gətirdilər — general Əbdül Əziz xanın yanında işlədi bir müddət. Sonra da Baş qərargaha apardılar. Bir eybi var ki, çox cılızdır, arıqdır. Deyəsən, mədə xəstəliyi var.

— Onu başa sal, özünə fikir versin. Mənim adımdan tapşır. Bəlkə, bir köməyə ehtiyacı var, onu da öyrən. Elə adamları biz qorumalı və qədrini bilməliyik, Ziya! Elə deyilmi, ustad?

— Əlbəttə, əlbəttə!

— Baş üstə, deyərəm! — deyə Ziyaülhəqq Bəbirin tapşırığını yerinə yetirəcəyini bildirdi. — Özü də ədəbiyyatı — şeri yaman sevir

Əbdülqədir xan! Ustadın şerlərinin çoxunu əzbər bilir. Elməddinin son hekayəsi ona o qədər ləzzət eləyib ki, hər dəfə görüşəndə onu soruşur.

Elməddinin adı ortalığa gələndə Bəbir də, Şəfi də, qeyri-ixtiyari ah çəkdi. Bəbir siqareti yandırdı, tüstünü sümürdü, havaya buraxıb:

— Ondan bir təzə xəbər yoxdur ki? — deyə soruşdu.

— Yox. Ciddi rejimdə saxlayırlar. Evdən gedən məktubları vermirlər, ondan da məktub gəlmir. Yanına altı ayı tamam olanda bircə dəfə arvadını, qaynatasını buraxıblar. Onu da çox böyük çətinliklə, ali məhkəmədə işləyən bir tanışımın xahişilə ala bildik.

— Ona heç cür kömək eləyə bilmədik, — dedi Bəbir. — Gücümüz çatmadı. Barı ailəsindən xəbəriniz varmı?

— Var. Yaxşıdı ailəsi. Elməddinin bir qızı dünyaya gəlib, heç özünün xəbəri yoxdur. Bizim Məleykə tez-tez baş çəkir.

— O, nə yaxşı, nə yaxşı. Demək Elməddin ata olub!

— Bəli. Vaxtına az qalıb, bir aydan azca artıq qalıb, deyəsən. Gələr, inşallah.

— Təki sağ-salamat qayıtsın, — dedi Ziyaülhəqq...

Maşın sağında-solunda yaşıl ağaclar olan yolla irəliləyirdi. Kəndin içindən keçirdilər. Gecənin qaranlığında adda-budda evlərdən işıq gəlir, it hürürdü.

DOQQUZUNCU FƏSİL

Gün günortadan keçəndə iyirmi bir nömrəli kameranın dəmir qapısı cinkilti ilə açıldı. Ortalıqda var-gəl eləyən; hövlündən ürəyi bir tikə olmuş Elməddin ayaq saxlayıb alaqaranlıqda gələnin kim olduğunu ayırd etmək istədi — bu qapı dünən beləcə açılmalı idi, onu çağırmalı, vaxtının qurtardığını deməli idilər. Ancaq onun gözü yolda qalmışdı, gələn olmamışdı, ötən gecə öz əzabları, acı xəyalları və tutqun, nagüman sevincləri ilə həbsxanada keçirdiyi bu bir ilin əzablarından, ağrılarından dəhşətli və uzun olmuşdu. Əvvəllər «bir gecə bir ildən uzun ola bilər» desəydilər, şübhəsiz, inanmazdı. Ancaq, indi inanmışdı buna.

Gələn, əlitüfəngli nəzarətçi idi. Onun yoğun gövdəsini qapı ağzında görən kimi tanıdı. Burada növbə ilə keşik çəkən bütün nəzarətçilərin arasında, az-çox insaflısı, vicdanlısı bu ortayaşlı, qabaq dişlərinin ikisi çürüyüb tökülmüş, enlisifətli kişi idi — Elməddin adını da bilmirdi, amma on il sonra da görsəydi, tanıyardı. Bu həmin kişi idi ki, ay yarım bundan qabaq, onu hava gəzintisinə çıxaranda, həyətin ortasında arxadan yavaşca, demək olar ki, pıçıltı ilə demişdi:

— Özünü ələ al, dustaq oğlan, yersiz hərəkət-zad eləmə, sənə bir şad xəbər verəcəyəm.

Elməddinin qəlbi çırpınmış, qulaqları guruldamışdı:

— Arxayın ola bilərsən, — ayaqlarını yerə ehtiyatla basa-basa arxaya dönmədən dillənmişdi: — Eşidirəm, de!

— Sənin qızın olub. Gözün aydın.

— Qızım olub?

— Hə.

— Kim dedi?

— Qaynatan gəlmişdi; sənինlə görüşə icazə vermədilər. Kişi mənə yalvardı ki, imkan düşsə sənə çatdırım. Dedi ki, yoldaşın da, uşağın da sağ-salamatdı, darıxmasın.

— Çox sağ ol, kişi, — deyə Elməddin hər şeyi unudaraq sevindiyindən az qala atılıb-düşəcəkdi, lakin özünü birtəhər saxlamışdı. Ciyər dolusu nəfəs almış, sol əlilə pırtlaşıq saçlarını daha da qarışdırmışdı. «Qızım dünyaya gəlib, aman allah, mən ata olmuşam, ata olmuşam» — deyərək, açıq-firuzəyi göylərə baxmışdı:

— Sənin muştuluğun məndə, kişi. İndi bir şeyim yoxdu, sənin xəcalətindən haçan olsa çıxaram, — astaca söyləmişdi.

— Heç nə lazım deyil. Mən muştuluğumu almışam — qaynatan verdi.

Bu xəbər Elməddini o qədər sevindirmişdi ki, sağ əlinin şikəst edilməsinə görə dörd ay yarımdan çox çəkdiyi o dəhşətli sarsıntını da unutmuşdu, kamerasına qayıdandan sonra, Siminbərin divardakı cansız şəklini öpmüş və qeyri-iradi ağlamışdı. «Balam dünyaya gəlib, mən isə burada — dörd divar arasında qalmışam. Xoş gəlibsən, bala, bu ağrılı-acılı dünyamıza. Qədəmlərin uğurlu olsun, özün xoşbəxt olasan, ay mənim üzünü görmədiyim körpəm, — deyə var-gəl eləyə-

eləyə düşünmüşdü. — Görəsən gözəldi, sağlamdı? Gözəllikdə, ağılda anasına oxşasa yaxşıdı, tək gözləri mənim gözlərimə oxşasın, vəssalam». Sonra xatirələri vərəqlənmiş, neçə illər bundan qabaq biçarə qardaşı Yusifin ölümündən azca irəli, «oğlum olsa adımı qoyarsan» deməsi yadına düşmüş və kövrəlmişdi təzədən. Haçansa, Yusifin sözləri və yoxluğu onu yandıran anların birində özünə söz vermişdi ki, evlənsəm, oğlum olsa hökmən adını Yusif qoyacağam. İndi acı bir hisslə bunu da düşünmüşdü ki, oğlan olmadı, heyf. Qardaşımın adı yerdə qaldı. Sağlıq olsun, qardaş.

O gündən sonra daha böyük səbirsizliklə günlərini saymış, vaxtın tez gəlib keçməsini arzulamışdı.

Elməddin Dostməmmədin dəmir dabanlı ayaqqabısı ilə sındırılmış, çilik-çilik edilmiş bilək sümüklərinin həbsxana həkiminin təzyiqi altında pis bağlanması nəticəsində əlinin əyri bitməsini əvvəllər heç cür sinirə bilməmişdi. Tərsinə bitmiş, indi daha nə qələm, nə fırça tutmağa qabil olmayan əlinə baxıb çox məyus olmuş, silahı əlindən alınmış bir əskər kimi özünü gücsüz və qüdrətsiz hesab eləmiş və qəlbində bu faciəsinə acı göz yaşları axıtmışdı. Həmin günü bütün təfərrüatı ilə yadına salanda rəisin nə üçün ona şəkil çəkdirdiyinin, Dostməmmədə baxıb sağ əlinə işarə ilə göz vurduğunun mənasını anlamışdı. Və başa düşmüşdü ki, bu da, ustada atılan güllə kimi, irəlicədən düşünülüb, sonra həyata keçirilib. «Ustadın sağ gözü, mənim sağ əlim. Əcəb mübarizə üsuludur. Yox, bununla bizi susdura bilməzsiniz, ağalar. Görürsünüz, ustad yenə «Pərçəmi»i çıxardır, o biri gözünü də tökəsiniz, o, ruznaməsini nəşr edəcək. Nə qədər-nəfəsi var, o dönməyəcək bu yoldan. Siz mənim sağ əlimi şikəst elədiniz, mən də təslim olmayacağam. Sol əllə yazmağı və çəkməyi öyrənəcəyəm. Onu da qırsanız, kəssəniz, lap dişimlə yazacağam, ağalar. Bu zülmdən ölənəcən yazacağam» — deyə yavaş-yavaş, günlər keçdikcə o, bədbin fikirləri özündən uzaqlaşdırmış, sol əlini işlətməyə, divara barmağı ilə hərflər yazmağa, xətlər çəkməyə başlamışdı, o. vaxtdan bütün günləri məşq eləməklə keçmişdi — bu, həm də onun başını qatmışdı, vaxtın hiss olunmadan sovuşmasına kömək eləmişdi. Qızı anadan olanda o, artıq qələmsiz, fırçasız, kibrit çöpü ilə yazmağı, şəkil çəkməyi öyrənmişdi. Düzdü,

bu çətin başa gəlirdi, əli əsirdi, xətlər əyri düşürdü, sürət az idi — amma hər halda yaza biləcəyinə, şəkil çəkə biləcəyinə inanırdı və bu, onu dözümlü eləyirdi. Bütün bu müddət ərzində Elməddin özünün nə qədər səbirli olduğuna heyrət eləmişdi. Ürəyindəki kin, qəzəb, o qədər güclü idi ki, bağrının çatlamadığına, yaşadığına heyrət eləmişdi — insan necə də dözümlü olurmuş! Bunu o, son altı ayda tam aydınlığı ilə dərk eləmiş və sevinmişdi. Nəzarətçi:

— Haydı, hazırlaş, şələ-küləni yığışdır, — deyəndə Elməddin qımıldanmadı, durduğu yerdəcə sakit-sakit onun üzünə baxıb susdu; — inanmırdı? Yaxud nəzarətçinin nə dediyini eşitməmişdi? Yox, eşitmişdi, inanırdı da. Hələ bir gün də vaxtından keçdiyini yaxşı bilirdi.

— Nə gözlərini döyürsən, eşitmirsən? Yoxsa bura çox xoşuna gəlib, evinə-eşiyinə getmək istəmirsən, hə?

— Yox, niyə ki? Nəzarətçi onun bu xəbəri belə soyuqqanlıqla qarşılamasına təəccüb etdi, ətli gözlərini geniş açaraq:

— Heç sevinmirsən deyəsən, oğlan? — dedikdə o, şikəst övladına baxıb xəcalət çəkən ata kimi başını aşağı salıb sağ əlinə baxdı və ah çəkdi. Sonra geri çevrildi, arxadan — divardan sanki baxışlarını ona zilləmiş ustadın şəklinə nəzər saldı, bir an dodağaltı nə isə pıçıldadı və çevrilib Siminə baxdı, nə fikirləşdisə, irəli yeriyib qolunun dirsəyilə onun rəsmini divardan sildi. Kameranın alaqaranlıq içinə ötəri nəzər salıb qapıdan çıxmaq istəyəndə nəzarətçi:

— Şələ-küləni də yığışdırsana! — dedi. Elməddin taxtın üstündəki yorğana, balışa gözünün ucuyla baxıb:

— Lazım deyil, — söylədi.

Nəzarətçi başını yırğaladı, ancaq danışmadı.

İki-üç dəqiqə sonra Elməddin rəisin otağında idi. O yenə-neçə ay bundan qabaq olduğu kimi, öz köhnə kreslosunda oturmuşdu. Bu dəfə yazmırdı, elə bil Elməddinin yolunu gözləyirdi.

Elməddin salam vermədi. Qəhərdənmi, qəzəbdənmi dolmuş baxışlarını rəisin düz gözlərinin içinə zillədi, baxdı, baxdı.

Rəis bu baxışlarda nə isə qeyri-adi bir şey duyub kirpiklərini yayındırdı və ayağa qaxdı. Gülümsəməyə çalışaraq:

— Hə, şair, demək, gedirsən? — dedi, sözlərinin çox yersiz və mənasız olduğunu duymuş olmalı idi ki, tez əlavə elədi: — Vaxtın qurtardı. Özüm də, görürəm, mənə çox qəzəbli baxırsan. Elə baxma, cavan oğlan. Hiss eləyirəm, əlinin şikəst olmasından çox pərtsən. Elə deyilmi?

—…

— O əl sənin başını gec-tez xəncər ağzına verəcəkdi. Şükür elə ki, başın salamatdı. O əlsiz başın yaşayır, amma başınsız əlin yaşaya bilməzdi. Düz demirəm?

—…

— Daha yazmazsan, daha çəkməzsən. Elə deyilmi?

—…

Elməddin rəisin ona uzatdığı kağızı alıb otaqdan çıxanacan kəlmə də kəsmədi, ancaq dişi alt dodağını kəsmişdi.

***

Elməddin evə çatanda axşamçağı idi. Darvazanın qapısı bağlı idi. Hasarın üstündən boylandı. Həyətdə sakitlikdi, kimsə görünmürdü — evin qapısı da bağlı idi: Elə bil burada adam yaşamırdı, sakinləri harasa köçüb getmişdilər. Elməddinin ürəyi sıxıldı, başı gicəlləndi. «Yoxsa onlar murdar əllərini mənim evimə uzadıblar? Yox, bu, ola bilməz. Bəlkə anasıgilə gediblər?..» Fikri dağınıq halda zəngi basdı, ürək çırpıntısı ilə gözlədi, Ah, budur, qapı açıldı, Siminbər artırmaya çıxdı, küçəyə tərəf baxdı. Hasarın son kərpicindən azca yuxarı kiminsə başının qaraldığını görüb qaça-qaça darvazaya sarı gəldi və həyəcanlı bir səslə:

— Kimdi? — deyə soruşdu.

Elməddin zarafat eləmək fikrinə düşüb səsini dəyişməyə çalışaraq:

— Allah qonağı istəməzsinizmi, xanım?—deyə yoğun səslə xəbər aldıqda Siminbər onu tanıdı və cəld bir hərəkətlə qapını aça-aça:

— Allahına da qurban olum, qonağına da! — söylədi. Onlar üzüzə dayandılar: bu, çox çəkmədi, beş-altı saniyənin içində Elməddin Siminin solğun, ağarmış sifətinə, sevincindən parlayan gözlərinə,

Simin isə onun saqqalı üzünə, boy-boxununa, gülən gözlərinə baxa bildi və hər ikisi eynn vaxtda, eyni həyəcanla «Elməddin!», «Simin» deyərək biri-birinə sarıldı. Qapı cırıltı ilə arxalarınca örtüldü və onlar həyətdə qaldılar. Elməddin onun çiyinlərindən tutub kənarda saxladı və simasına diqqətlə baxıb:

— Siminim, əzizim, — dedi.

Siminbər gözləri yaşla dolmuş halda:

— Xoş gəlmisən, Elmi! — söylədi, — həmişə evində-eşiyində!

— Həmişə sənin yanında, gülüm! — deyə Elməddin gülümsündü.

— Amin, əzizim, amin!

Siminbər də kənara çəkilib ərini başdan-ayağa gözdən keçirdi və ürəyi ağrıdı. Elməddinin saqqalı lap uzanıb sinəsinə düşmüşdü, gözləri əvvəlki kimi parlayırdı, pencəyi-şalvarı əzik-üzük və çirkli idi. Simin onu bu kökdə görüb ah çəkdi.

Sonra onun sağ əlindən yapışıb:

— Burda niyə dayanmışıq, gedək evə! —dedi və elə bu zaman Elməddinin əli ovcunun içində ona qəribə göründü, o qorxu və dəhşətlə onun əlini azca yuxarı qaldırdı.

— Vay, bu nədir, Elməddin? — deyə az qala qışqırmaq istədi. Elməddin əlini onun ovcundan çəkib arxasında gizləməyə çalışdı, ancaq gec idi. Və həm də «bunun nə mənası var,— deyə düşündü. — Gec-tez görəcək, biləcək!». Onu sakitləşdirmək üçün sağ biləyini irəli uzatdı:

— Nə olub ki? Mənim əlim elə əvvəldən belə idi də, — deyə zarafata salmaq istədi. — Görməmişdin?

— Yoox!—deyə Simin çaşbaş qaldı. — Yox, məncə, belə deyildi.

Elməddin Siminin şəklə yəqin arasında qaldığını görüb gülə-gülə:

— Gör sənin gözünü məhəbbət nə qədər tutubmuş ki, əlimin əyri olduğunu da görməyibsən, — söylədi.

Simin onun əlini ovcunun içinə qoyub baxdı, baxdı və birdən-birə nə dəhşətli hadisə baş verdiyini anlayıb hönkürə-hönkürə:

— Bunu onlar eləyiblər, aman allah! — dedi və başını aşağı əyib Elməddinin tərsinə.bitmiş əlindən öpməyə başladı.

Elməddin o biri əlilə onun başını qaldırdı və ciddi bir görkəm alıb:

— Hə, əzizim, — dedi, — onlar elədi. Ancaq sən darıxma, əzizim. Onlar əlimi qırdılar ki, yazmayım, çəkməyim.

— Əlləri qurusun görüm onların! — Sonra üzünü göyə tutdu: — İlahi, əgər varsansa, bu zülmü yerdə qoyma, bu axşamın sahibi, səndən istəyirəm, bu zülmü yerdə qoyma! — Elməddinə yaşlı gözləri ilə baxdı: — Doğrudan, daha yaza bilməyəcəksən, çəkə bilməyəcəksən, Elmi?

Elməddin sol əlini irəli tutdu:

— Bəs bu nədir, Simin? Onların acığına yazacağam da, çəkəcəyəm də, əzizim. Bir ölümə çarə yoxdur. Sevin ki, sağ-salamat gəlmişəm, Simin! Sevinmirsən?

— Sevinirəm, Elmi. Sevinirəm, əzizim, Bu günü mən səbirsizliklə gözləmişəm, əzizim. Özü də tək mən yox, qızımla birgə gözləmişik, Elmi!

— Səni təbrik eləyirəm, ay mənim körpəmin anası!

— Mən də səni təbrik eləyirəm, ay mənim körpəmin atası! Gedək, gedək, uşağı tək qoymuşam, darıxar!.. — deyə onun şikəst qolundan tutub içəri aparanda Elməddin soruşdu:

— Bəs niyə təksən, qızlar hanı bəs?

— Anamgilə gediblər, axşam gələcəklər!

Simin Elməddini kəllə otağa gətirdi, balaca, taxtadan düzəldilib üstü ağ, qırmızı, yaşıl rənglərlə naxışlanmış yüyürüyü görən kimi ürəyi içəridə nanə yarpağı kimi əsdi, pəncələri üstə ehtiyatla yaxına gəldi. Beşikdə, güllü yorğançanın içində bir körpə başı gördü, əyildi. Əl boyda kiçik sifətdə iki xırda göz işıldayırdı; Elməddin əl vurmağa qorxurmuş kimi kənardan baxdı, baxdı. Gülümsündü. Çağa da ilk dəfə gördüyü bu saqqallı kişiyə baxırdı. Onun baxışında nə sevinc vardı, nə qorxu. Bu vaxt Simin əyilib uşağı qucağına götürdü və:

— Qibləgahın gəlib, qızım, — dedi. — Niyə sevinmirsən? Bu sənin qibləgahındı.

Sonra çağanı Elmədinin qolları arasına qoydu. Elmədin salacağından ehtiyat edirmiş kimi, onu sinəsinə bərk-bərk sıxıb xırdaca alnından öpdü:

— Xoş gördük, qızım.

— Xoş günün olsun, qibləgahım!— deyə Simin uşaq səsi çıxartmağa çalışaraq cavab verdi; guya bu sözləri çağa deyirdi.

Elmədin Siminin bu hərəkətinə güldü və sevinc içində:

— Ay allah, qızım nə yaxşı, danışır! — dedi. Hər ikisi güldü. Sonra Simin uşağı ərindən aldı. Stolun üstündəki saata baxıb:

— Bunun yemək vaxtıdı, qoy əmizdirim! — dedi və çarpayının qırağında əyləşib: — Sən üzünü o yana çevir! — deyə əlavə elədi.

— Niyə ki?

— Görmürsən, əmizdirirəm?

— Hə, başa düşdüm, — deyə Elmədin gülə-gülə gözünü onlardan çəkdi. Evə göz gəzdirdi. Otaqlar tərtəmiz idi. Pəncərə ağzına qoyulmuş dibçəklərdəki çiçəklər evi daha da yaraşıqlı göstərirdi. Birdən Elmədinin gözü mizin üstündəki güldanda qalıb qurumuş qızıl güllərə sataşdı. Bu, o güllər idi ki, həbs olunmamışdan bir gün əvvəl bazardan Simin üçün alıb gətirmişdi. Qurumuşdular, ancaq Simin onları atmamışdı. Elmədinin ürəyi riqqətə gəldi və o, qeyri-iradi geri döndü; Simin sol döşünü köynəyinin yaxasından çıxartmışdı, uşaq marça-marçla ana südü əmirdi. Simin başını qaldıranda Elmədini onun uşaq əmizdirməsinə baxdığını görüb əlilə döşünün üstünü örtməyə çalışdı. Ərinin yanında birinci dəfə uşaq əmizdirdiyindən utanırdı. Bu, nədənsə Elmədinə ləzzət elədi, kövrək bir səslə:

— Bu gülləri niyə atmamısan, Simin? — deyə xəbər aldıqda o:

— Onlar sən alan güllərdi, Elmi. Atmağa qıymadım, — söylədi və onun baxışlarından məmnun olduğunu görüb fərəhləndi. — On ildən sonra da gəlsəydin, yenə saxlayacaqdım. Gəlib o gülləri elə oradaca görəcəkdin, Elmi!

— Sağ ol, əzizim — ona elə gəldi ki, bu məqamda qəlbindəkiləri ifadə edə biləcək başqa söz tapmaq mümkün deyil.

— Qızın qəşəngdi, Elmi?

— Hə. Sənin kimi qəşəngdi, Simin!

— Sənə oxşayır, Elmi. Deyirlər, atasına oxşayan qız xoşbəxt olur. Bu düzdü, Elmi?

—Nə bilim, sınamamışam. Təki sən deyən olsun, Simin. Yaxşı bəs adını nə qoymusan mənim ceyran balamın?

— Adını? — Simin nazik qaşlarını yuxarı qaldırdı,— Adını hələ qoymamışıq, Elmi.

— Necə yəni qoymamışıq? Uşaq iki aydı adsızdı? — dedisə də, burda da Siminin ağıllı tərpəndiyini anlayıb sevindi.

— Hə, Elmi. Səni gözləyirdim. Atam, anam, qızlar — hərəsi bir ad fikirləşmişdi. Dedim yox. Uşağın adını atası gələndən sonra qoyacağıq..

— Bəs sən nə fikirləşmisən, Simin? Hansı addan xoşun gəlir? Sən nə desən o olacaq, Simin. Oğlan olsaydı, ölən qardaşımın adını nəzərdə tutmuşdum. Olmadı. İndi sən nə ad desən o da olacaq!

Simin bic-bic gülümsündü:

— Yenə bir şey fikirləşmiş olarsan!..

Elməddin pəncərənin qabağına gəldi. Həyətə baxdı. Düşündü ki, bəlkə anasının adını qoysun — Səbihə! Ya bəlkə Əfsanənin? Yox, bu Siminin ürəyinə pis gələ bilər! Yaxşısı budur Simin özü qoysun, nə istəyir elə də çağıraq uşağı!

Simin ərinin fikrə getdiyini görüb mehribanlıqla, nəvazişlə:

— Elmi, mən istəyirəm bilirsən qızımın adını nə qoyaq?— deyə soruşdu.

Elməddin ürək çırpıntısı içində ona sarı döndü:

— Nə, Simin?

— Deyirəm, Əfsanə qoyaq qızın adını, Elmi!

— Əfsanə?— Elməddin bu sözü Siminin dilindən eşitdiyinə inanmadı və təzədən soruşdu: — Əfsanə? — Hə, -Elmi, Əfsanə. Əfsanə yaxşı addı, Elmi. Bilirəm, sənin də xoşun gəlir bu addan.

Elməddinin qaşları çatıldı, gözləri dumanlandı, sol əlilə top qara saqqalını didişdirdi, «bu qız adamın ürəyini oxuyur elə bil» — deyə düşünə-düşünə qeyri-iradi ah çəkdi:

— Hm. Nə deyirəm, — dedi. — Düzü, elə indicə ürəyimdən keçirtdim bunu. Ancaq...

— Ancaq nə?

— Dedim bəlkə... heç lazım deyil.

— Yox, Elmi. Uşağın adını elə Əfsanə qoyaq.

— Mən razı, Simin. Sağ ol, əzizim. Qoyaq adını Əfsanə. Qoy onun kimi gözəl, ağıllı olsun, ancaq... ancaq taleyi ona oxşamasın.

—Amin, — dedi Simin. Sonra qucağındakı körpəni döşündən ayırdı, sinəsinə sıxıb yumru yanağından öpdü və Elməddinin qucağına ötürdü. — Al, Əfsanə balamı, adı qoyulmağı münasibətilə maç elə uşağı, qibləgahı.

Elməddin uşağın tüklü alnından öpdü və:

— Xoşbəxt ol, qızım, Əfsanəm, — dedi və sonra Simini də özünə tərəf çəkib ürəyinin başına sıxdı, elə sıxdı ki, bu hərəkətində onun məhəbbəti də, inamı da, minnətdarlığı da ifadə olunmuşdu elə bil.

— Yavaş, Elmi, qabırğalarımı əzərsən. Ədə, yavaş, uşağı salarsan.

Bu hadisə — yəni Siminin uşağa Əfsanənin adını verməsi Elməddinin ürəyindəki məhəbbəti daha da alovlandırdı: onun qəlbinin böyüklüyünə, alicənəblığına heyran oldu. İstər-istəməz yadına Zərrintac xanım düşdü. Bəli, Zərrintac Əfsanənin adını belə dilinə gətirmirdi. Sözü-söhbəti ortalığa gələndə gözlərini qıyaraq, qısqanclığını mümkün qədər gizləməyə çalışaraq, «o qız» — deyərdi. Nə vaxtsa Əfsanənin şəklini çəkib mizin üstünə qoymuşdu — bu, onun acığına gəlmişdi, əvvəl şəklin üzünü divara tərəf çevirmişdi, əri qaytarıb yerinə qoyandan sonra isə, o evdə olmayanda Əfsanənin şəklini cırıb atmışdı. Yox olmuş, taleyi kəm, bəlkə indi sümükləri də çürümüş bir zavallı, nakam gəlinə qısqanmışdı. Amma Simin... Amma Simin gör nə elədi? Eləməddinin ürəyini oxudu, arzusunu başa düşdü, qızına Əfsanənin adını verməyi təklif elədi. Elməddin arvadının alicənəblığı barədə düşünürdü ki, Simin çağanı beşiyinə qoyub ərinə sığındı:

— İndi su qoyub səni çimizdirəcəyəm, Elmi. Saqqalını qırxarsan, olarsan yenə əvvəlki Elməddinim. Yoxsa bu saqqal səni lap qoca göstərir. Paltarını dəyişərsən. Sənə yaxşıca qulluq eləyərəm. Əmələ gələrsən. Sonra, imkanın olanda səndən bir xahiş eləyəcəyəm, Elmi.

— Nə xahişdi o, mənim əzizim?

— Sonra deyərəm.

Elməddin onun isti nəfəsini uda-uda, saçlarını tumarlaya-tumarlaya:

— Yox, elə indi de, Simin! — deyə əl çəkmədikdə o:

— İstəyirəm mənim böyük şəklimi çəkəsən, Elmi! —dedi və tez də peşman oldu: —Yox, yox. Allah məni öldürsün. Elmi, sən allah, məni bağışla. Tamam yadımdan çıxmışdı. — O, ah çəkib Elmədinin sağ əlinə baxdı:

Elməddin onu başa düşdü:

—Çəkəcəyəm, Simin. Sənə dedim ki, qəm yemə. Sol əlimlə yazmağı da, çəkməyi də öyrənmişəm, gülüm. Simin:

— Doğru deyirsən, Elmi? Ya məni sakitləşdirmək üçün belə söyləyirsən? Sən allah düzünü de! — deyə sevincqarışıq bir inamsızlıqla xəbər aldı.

— Vallah düz deyirəm. Çəkəcəyəm. Yazacağam. Sənin böyük şəklini çəkəcəyəm, Simin.

— Bilirsən, çərçivəyə salacağam, bax, burdan — o, mizin söykəndiyi divarı göstərdi — sənin gözünün qabağından asacağam. Özü də bilirsən necə çəkəcəksən?

— Yox!

— Mənim qucağımda Əfsanəmiz olacaq — ana-bala, ikimiz. İkimiz bax ordan sənə baxacağıq, sən də bizə baxıb yazıb-yaradacaqsan.

Elməddin sevinc içində güldü:

— Elə bu?

— Yox, — o, nazla başını təzədən ərinin sinəsinə söykədi. — İstəyirəm öz Əfsanənin də şəklini çəkəsən, Elmi! Elə bizimki boyda. Necə yadında qalıb, elə. Ölübsə, ruhu şad olar. Sağdırsa, yuxusuna girər, sevinər. Allah da sənə həmişə kömək olar, Elmi.

Elməddin kədərli düşüncələrə daldı, Əfsanə qırıq-qırıq lövhələrdə gözlərinin qabağından keçdi, köks ötürüb qəmli-qəmli gülümsündü:

— O da baş üstə, mənim ömrüm-günüm. Sənin ürəyinə qurban olum.

— Allah səni bizə, — mənə, o körpəmizə çox görməsin, əzizim. Mən sənlə fəxr eləyirəm, Elmi. Sənin əlini qırıblar zalımlar. Demək səndən də qorxurlar. Sən mənim iftixarımsan, Elmi. Böyüyəndə qızın da sənlə fəxr eləyəcək, kitablarını oxuyacaq, yerə-göyə sığışmayacaq, necə ki, mən indi yerə-göyə sığışmıram.

— Eh, əzizim. Mən hələ fəxr eləməli neyləmişəm ki? Sənətkarlar olub dünyada ki, mənim yaşımda ölüb gediblər — amma cahan indi də onlara pərəstiş eləyir. Rus şairi olub — Puşkin, otuz yeddi yaşında öldürüblər. İran şairi olub — Eşqi, iyirmi doqquz yaşında öldürüblər, Fərruxi — iyirmi yaşında ağzını tikiblər: Böyük Azərbaycan şairi olub — Nəsimi, qırx altı yaşında dərisini soyublar.

— Nə oldu ki, ay Elmi, bu biçarələrin hamısını elə cavan-cavan öldürüblər ki.

— Hə, əzizim. Əsl şairlərin çoxu öz əcəliylə ölmür. Simin. Onlar xalqlarının danışan dili olublar. Onlardan ağalar qorxduqları üçün öldürüblər, Simin. Həqiqəti yazdıqları üçün öldürüblər. Ustadın gözünü də həqiqəti gördüyü üçün çıxartdılar, əzizim.

— Sənin sağ əlini də həqiqəti yazdığın üçün qırdılar, eləmi?

Elməddin başını aşağı salıb köksünü ötürdü...

ONUNCU FƏSİL

Cümə günü — istirahət günü idi. Zərrintac xanım mərkəzi kinoteatrda göstərilən amerikan filminə tamaşa edib gəlmişdi. İlıq yaz günəşi günorta yerində idi. Saat biri, namaz vaxtını xəbər verən və şəhərin yuxarı hissəsində qoyulan, hər gün eyni vaxtda atılan toplar üç dəfə yenicə səslənmişdi, susmuşdu — hələ gurultusu Zərrintacın qulaqlarından getməmişdi. Zərrintac xanımı gün əzirdi, xumarlandırırdı. Kresloda oturub gözlərini yummuşdu və bir az əvvəl baxdığı film haqqında düşünürdü ki, həyət qapısının cırıltı ilə açıldığına və kiminsə qorxaq, ehtiyatlı addımlarla irəli gəldiyini hiss edib fikrindən ayrıldı. Qarşısında iyirmi beş, iyirmi altı yaşlı, sifəti ay parçası kimi ağ və işıqlı olan, ancaq çirkli, süzülmüş paltar geymiş bir qadın görəndə maraqlandı, lakin yerindən heç qımıldanmadı da.

Qadın cürətsiz qədəmlərlə yaxınlaşdı, iri, qara gözlərini utancaqlıqla Zərrintac xanıma dikib yavaşdan:

— Salam, xanım! — dedi.

Zərrintac xanım dodaqlarını tərpətməyə ərinərək başının yüngülcə hərəkətilə onun cavabını verib daha nə deyəcəyini, nə üçün gəldiyini bildirəcəyini gözlədi. Qiyafəsi kasıbda olsa, o, dilənçiyə oxşamırdı. Çirk, toz-torpaq içində olsa da, Zərrintac ürəyində iqrar elədi ki, gözəldi. Qadının çaşıb qaldığını, susduğunu görüb özü dilləndi:

— Nə istəyirsən? . Qadın yenə çarəsiz halda:

— Mən... mən... — deyə kəkələdi və nəhayət, fikrini məqsədini dilinə gətirə bildi, — mən iş istəyirəm, xanım... Mənə dedilər siz təksiniz, bəlkə qulluqçuya-zada ehtiyacınız oldu...

— Kim dedi?

— Tanımıram, vallah, xanım. Cadənin[1] o başında bir arvad söylədi.

Zərrintac ani fikrə getdi. Tək yaşamaq onu lap bezdirmişdi. Dururdu özünü görürdü, otururdu dizini. Bəlkə elə bu qızı götürüb saxlasın. Bir qarın çörək yeyəcək. Qulaq yoldaşı olar — o da darıxmaz. Bu məqsədlə onu söhbətə tutmağı qərara aldı:

— Hardansan, qız? Şəhərdənsən?

— Xeyr, xanım. Qəryədənəm.

— Hansı qəryədənsən, qız?

— Uzaqdı bura, xanım, çox uzaqdı. Bəlkə heç adını da eşitməyibsiz. Balaca bir qəryədi, Ədnan qəryəsi...

— Ədnan? — deyə bu sözü eşidəndə Zərrintac xanım dikəldi və o dəqiqə yadına düşdü ki, Elməddin də deyəsən axı o Ədnan kəndindən idi. Marağı daha da artdı və xəbər aldı:

— Adın nədi, qız?

— ... Adım Əfsanədi, xanım!

— Əfsanə? — deyə o, yenə təəccübünü gizləyə bilməyərək ucadan soruşduqda Əfsanə heç nə başa düşməyib eyni sakit səslə:

[1] Cadə — yol.

— Bəli, xanım, Əfsanədi, — dedi. — Necə məgər, xanım, pis addı?

— Yox, yox... — Zərrintac xanım çaşdığını bildirməməyə çalışaraq: — Lap əla addı, qız. Əfsanə gözəl addı, — dedi və susdu. Zərrintacın ürəyi şiddətlə döyünürdü, Təsadüfə bax, zamanın gərdişinə bax! Heç şübhəsi yox idi ki, bu, Elməddinin itkin düşmüş Əfsanəsi idi, öz əl-ayağı ilə gəlib çıxmışdı bura. Bu həmin Əfsanə idi ki, Eləməddin onu heç cür unuda bilmirdi, hələ zifaf gecəsi də — onunla ilk dəfə baş yastığa qoyanda da çaşıb Zərrintac xanıma «Əfsanə» demişdi və onun ürəyinə dağ çəkmişdi. Sonralar da neçə dəfə çaşmışdı, Zərrintacı «Əfsanə» deyə çağırmışdı. Hələ şəklini də çəkib gözünün qabağına qoymuşdu utanmaz-utanmaz. Doğrudur, həmin şəkli Zərrintac tikə-tikə edib küləyin ağzına vermişdi, ancaq Elməddinin ürəyindən silə bilməmişdi.

Ona neçə şer yazmışdı. O həsrəti, o itkini sızıldaya-sızıldaya yad etmişdi. Bəli, deyəsən, bu, həmin Əfsanə idi. Zərrintacın ürəyində nə zamansa doğulmuş, sonralar zəifləyib öləzimiş qısqanclıq və intiqam hissi təzədən oyandı, gözlərini dumanlandırdı və o, bu duman içindən qabağında dayanan Əfsanəyə diqqətlə baxdı, Elməddinin nə zamansa çəkdiyi o şəkli nəzərində canlandırıb tutuşdurdu. Bəli, o idi. Qaşları, gözləri, üzünün cizgiləri... İndi bir az arıq idi. Bütün bunlara baxmayaraq Zərrintac, içindəki kini, küdurəti gizləyərək, həlim səslə soruşdu:

— Bəs nə əcəb buralara gəlib çıxmısan, qız? — o, «Əfsanə» sözünü dilinə gətirmək istəmirdi.

— Eh, başına dönüm, xanım, bu uzun əhvalatdı. Danışsam başağrısı olar, xanım.

— Yox, yox, danış, maraqlıdı.

Əfsanə bir az duruxdu. Düşündü ki, danışsa bəlkə xanım onu qulluqçuluğa qəbul edər, çünki şəhərə gəldiyi on səkkiz gündə biçarə olmazın əziyyət çəkmiş, ac qalmışdı, xəlvət bir dalan tapıb gecələrini orda səhər eləmişdi, şorgöz kişilərin, hərcayi cavanların gözündən yayına-yayına qorxu içində günlərini keçirmişdi. O, belə getsə məhv olacağını fikirləşirdi. Ona görə necə olursa-olsun, bir adama sığınmalı, kiməsə inanmalı idi. Həmin fikirlə də Əfsanə başına gələn

qəzavü-qədəri müfəssəl Zərrintac xanıma nəql elədi. Zərrintac xanım sözünü kəsmədən, suallar vermədən qızı axıra qədər dinləyib əmin oldu ki, səhv etməyib. Bu elə Elməddinin Əfsanəsidir, yox ikən belə Eləməddinin ürəyində yaşayan, dilindən düşməyən, Zərrintacın isti gəlinlik yatağına, evinə xəyal şəklində gəlib girən Əfsanə idi.

«Hə... Belə. Nəhayət, sənin özünü də görmək bizə qismət oldu. Nəhayət, gəlib çıxdın. İndi Elməddin dayansın, baxsın görsün onun qəmli ürəyinə necə dağ çəkirəm — çalın-çarpaz dağ. Düzdü evlənib. Bir kasıb qız alıb, deyirlər. Amma bilirəm səni ondan da çox istəyir yenə. Ona «ləzzət» eləyəcək, ömrü boyu unutmayacağı bir dərs verəcəyəm, Mənə də Zərrintac xanım deyərlər, mən ağayi Nəcməddinin qızıyam» — deyə ürəyində ölçüb-biçən Zərrintac xanım ayağa durdu, onu tanıdığını və Elməddinin bu şəhərdə olduğunu, nə zamansa ona ərə getdiyini bildirmədən Əfsanəyə dedi:

— Hə, həyatdı, qız. Təəssüf eləməli ömür sürmüsən. Ancaq neyləyəsən? Tale adamın özündən asılı deyil, əksinə, insan taleyin quludur.

— Düzdü, xanım.

— Heyf ki, mənim qulluqçuya ehtiyacım yoxdu. Ancaq görürəm qəşəng qızsan, həm də dərdlisən, sənə kömək eləyərəm.

Əfsanə adını bilmədiyi bu zəngin xanımın sözlərindən dirçəldi. «Heyf ki, mənim qulluqçuya ehtiyacım yoxdu» sözlərindən doğan ümidsizliyin qatı dumanını qovdu, sevindi:

— Ömrün uzun olsun, xanım. Xoşbəxt olasan, xanım. Zərrintac xanım Əfsanənin bu sözlərinə kinayə ilə güldü:

— Bizim bir tanışımız var, ona sənin kimi cavan və qəşəng bir qulluqçu lazımdı. Elə hesab elə ki, cənnətə düşəcəksən. Yağ içində böyrək kimi üzəcəksən. Qoca kişidi, ona qulluq eləyən gərəkdi... Qoy zəng eləyim, səni tapşırım, get. Ya bəlkə elə özü gəlib apardı.

— Təşəkkür edirəm, xanım.

Zərrintac yuxarı evə qalxdı. Əfsanə tək qaldı.

Zərrintac xanım dəstəyi götürub nömrəni yığdı.

— Alo, ağayi Siracəddin?

— Bəli, eşidirəm, Kimdi danışan? — deyə Siracəddin xırıltılı səslə xəbər alanda. Zərrintac özünü nişan verdi:

— Mənəm, ağayi Siracəddin, Zərrintac xanımam. Nəcməddinin qızı.

— Hə, xoş gördük səni. Nə əcəb səndən bizi yad eləmisən? Necəsən?

— Yaxşıyam, ağa!

— Mənə dair qulluğunuz, xanım... Yoxsa mənim təklifimi qəbul etdiniz? Hə?

— Yox, ağa. O, baş tutan sevda deyil. Yox, yox, o barədə gəl danışmayaq!

— Bəs... onda mənə dair qulluğunuz?

— Bilirsiz... — o, fikrini izah eləməkdə çətinlik çəkdiyindən duruxdu, sonra əlavə elədi: — Bilirsiz, bir cavan qız gəlib, cavan, nazənin bir gəlindi. Qulluqçu olmaq istəyir. Heç kəsi yoxdu. Dedim sizə bəlkə gərək olar, ağa.

Siracəddin sevinc içində:

— Afərin. Bəlkə nədi, bilirsən necə gərəkdi?.. Neçə yaşı olar?—deyə xəbər aldı.

— İyirmi beş, iyirmi altı ancaq olar, ağa.

— Sən ona heç nə demə, qızım. Mən bu saat gəlirəm.

— Deməmişəm, ağa. Sadəcə sizə qulluqçu lazımdı demişəm, vəssalam.

— Afərin, afərin!..

— Sizdən bir qız almışdıq, bir qız da veririk... — deyə axırda Zərrintac şadlığından zarafat da eləməyi unutmadı.

Əfsanə pilləkənləri tappıltı ilə enən Zərrintacın üzünə intizarla baxır, tanımadığı «bu xeyirxah» qadının nə xəbər verəcəyini səbirsizliklə gözləyirdi. O, Əfsanəyə çatmamış:

— Bəxtin yamanca gətirdi, qız. Ağa indicə gələcək, səni aparacaq. Çox sevindi, lap çox! — dedi.

Əfsanənin qəmli sifətində, yorğun, yuxusuz gözlərində zəif bir şadlıq şöləsi parladı və o, Zərrintac xanıma minnətdarlıq hissilə baş endirdi:

— Sizin bu iltifatınızı heç vaxt unutmaram, xanım... Zərrintac özündən razı halda, Əfsanənin çətin başa düşə biləcəyi ikibaşlı, ikimənalı bir cümlə işlətdi:

— Dəyməz, qız. Borcum idi...

Ağayi Siracəddin günorta yeməyini yesə də adəti xilafınca evə getməmişdi. Saat yarım bundan qabaq, Zərrintac xanımın «tapıntısını» öz maşınında buraya gətirən o, görüb-götürmüş, təcrübəli Hürriyyət xanımın nə vaxt gəlib onu çağıracağını gözləyirdi. Bugünkü «müftə ov» onun çox xoşuna gəlmişdi. Gözəyarı varəndaz eləmişdi, hürkütməmək üçün oğrun-oğrun Əfsanənin sifətinə, saçlarına, sinəsinə, ayaqlarına nəzər salmış, məmnun qalmışdısa da,«tam yoxlama» əməliyyatını da keçirməyi lazım bilmişdi. Onun fikrincə, buraya qədəm basan, ya gətirilən hər qızın, qadının əsl qiyməti məhz bu yoxlama zamanı bəlli olurdu və onu ancaq özü icra eləyirdi; çünki bu əməliyyatdan o, sözlə ifadə edə bilməyəcəyi bir həzz, zövq alırdı.

Tez-tez saata baxır, geniş, bəzəkli otaqda gəzinir, təzə qadına tamaşa eləmək üçün darıxırdı. Nəhayət, qapı müticəsinə döyüləndə ağayi Siracəddin kabinetinin ortasında ayaq saxlayıb nigarançılıqla:

— Buyur! — dedi.

Hürriyyət xanım ehmalca qapını aralayıb ağsaçlı, uzunsov başını içəri uzadaraq:

— Təşrif gətirib baxa bilərsiz, ağa! — Dedi. Gözləməkdən səbri tükənmiş Siracəddin yarısını çəkib qurtardığı siqarını külqabına basdı, donqarlaşmış belini düzəldərək tələsik addımlarla otaqdan çıxdı, qapını qıfıllayıb, açarı cibinə qoydu. Hürriyyət arvad onu qabağa buraxaraq dalınca az qala yüyürə-yüyürə təzə qızı tərifləməkdən dil boğaza qoymurdu.

— Cır-cındır içində olasan, özün də belə gözəl olasan, mənim heç ağlıma gəlməzdi, ağa. Maşallah, bir gözəldi, bir gözəldi, adam baxmaqnan doymaq bilmir. Mən arvadlığımnan istəyirdim qızın ağ mərmər kimi bədənini gəmirəm.

— Əşi, elə şey olmaz?!

— And olsun bizi xəlq eləyənə ki, belədi, ağa. Hələ ağayi Nəcməddinə verdiyin o Dünya qızdan sonra buraya belə qadın ayağı dəyməyib, ağa.

ON BİRİNCİ FƏSİL

Ağayi Siracəddin, Hürriyyətin böyük həvəslə tərifləyiyi qızın doğrudan da gözəl olarsa, «işlərinin» xeyli yaxşılaşacağını düşünüb qımışdı:

— Təki elə olsun.

Onlar həyətin o başına getdilər. Ağ daşdan hörülmüş tikilinin qənşərində ayaq saxladılar. İçəridən su şırıltısı, su şappıltısı gəlirdi. Kiminsə çimdiyi aydın idi: bəli, Əfsanə idi, çimirdi.

— Yazıq çirk içində idi, ağa, allah göstərməsin, dilnən deməyə gəlməz, — deyə Hürriyyət arvad ağayi Siracəddinin qulağına pıçıldadı. O, arvadın dediklərinə fikir verməyərək göy rəngli qapının sağ tərəfinə keçdi, əlini kvadrat şəkilli kəsiyin üstünə toxundurdu, balaca, taxta qapıcıq açıldı. Kibrit qutusundan azca böyük olan bu deşikdən içəri aydın görünürdü. Anadangəlmə çılpaq olan Əfsanə uzun, ağ vannanın içərisində su pərisi kimi uzanmışdı. Qara, xeyli vaxt daraq, su görməyən saçları yumşalıb açılaraq qara parça kimi sinəsinin üstünə, çiyinlərinə və su üzərinə tökülüb dalğalanırdı.

Ağayi Siracəddin belə vəziyyətdə «yoxlamasını» heç cür, yerinə yetirə bilməyəcəyini anlayıb gözünü kimsənin görmədiyi gözlükdən ayıraraq yanında dayanıb ağasının sifətində yaranacaq dəyişiklikləri izləməyə çalışan Hürriyyətə sarı döndü:

— Bu zalımın qızı camış kimi ağnayıb suda, heç nə görmək olmur, get onu qaldır, görək bu dünyada nə var, nə yox?!

— Beçeşm, ağa! — deyib Hürriyyət əlində saxladığı açarla qapını açaraq içəri girdi. Çıqqıltını, ayaq səsini eşidəndə Əfsanə hürkmüş ceyran təki başını qaldırdı, qapıya sarı baxdı. Gələnin Hürriyyət olduğunu görüncə sakitləşdi. Hürriyyət kranı burub suyu kəsdi. Şırıltı dayandı. Ağayi Siracəddin Hürriyyətin səsini eşidirdi.

— Hə, necəsən? Deyəsən heç sudan çıxmaq istəmirsən, a?

— Bəli, xanım. Canım dincəlir.

— Hələ sənin canın çox dincələcək, qız! — deyə o, Zərrintac kimi ikibaşlı söz atdısa da, Əfsanə heç nə anlamadı. Sadəlövhlüklə xəbər aldı:

— Siz ağanın xanımısınız, eləmi? Yaxşı, mehriban adama oxşayır.

— Hə, mən onun arvadıyam — o, nədənsə gülə-gülə onun sinəsinə şappıltı ilə bir yüngül sillə vurdu. — Ağa da lap yaxşı adamdı, — sonra o, Əfsanənin qolundan tutub qaldırmaq istədi. — Bir ayağa qalx görüm.

Əfsanənin yanaqları istidən, buxardan pörqdüyünə görə arvadın sözlərindən pul kimi qızardığını ayırd etmək mümkün deyildi. Ancaq üzündəki yazıqlıq ifadəsindən, üryan canını büzülərək suyun içində gizləməyə çalışmasından başa düşmək çətin deyildi ki, o, neçə də xəcalət çəkir utanır.

— Dur ayağa — demədim sənə? — Hürriyyətin hökmlü səsi eşidiləndə o:

— Utanıram axı, xanım! — dedi.

— Nədən utanırsan, qız? Mən kişi-zad deyiləm ki, utanasan. Mən də sənin kimi arvadam da.

— Nə bilim.

— Dur, dur, kürəyini də kisələyim, üzünü o yana çevir, divara... Hə, bax, belə... Düz dayan, əllərini yanına sal. Hə, bax, belə... - Hürriyyət arvad əlini yüngülcə Əfsanənin kürəyində çiyinlərində gəzdirə-gəzdirə onu vannanın içində o yan, bu yana, fırlayır, deşikdən diqqətlə baxan ağayi Siracəddinə göz vururdu: «Hə, necədi? Xoşuna gəlir!»..

Ağayi Siracəddin kirpik çalmaqla razılığını bildirdi və yer yanırmış kimi, ayağının birini götürüb o birini qoydu. Hürriyyət deyirdi:

— Hə, daha bəsdi, yaxalan çıx. Bundan belə həftədə ən azı iki-üç dəfə çimərsən. Vaxtın olsa, hər gün. Eşidirsən? Təmizliyinə, geyiminə, ətrinə fikir ver. Sənin kimi qızdan gərək gül ətri gəlsin. Yadında saxla ki, ağanın təmizlikdən yaman xoşu gəlir.

— Baş üstə, xanım.

— Bax, bu sənin təzə donun, bu zircamən[1], o da ayaqqabın, corabın, ətrin...

[1] Zircamə — alt paltarı.

Mıxçadan asılmış ipək don, alov rəngli alt paltar, divarın dibinə qoyulmuş bir cüt yaşıl ayaqqabı, qara corab və taxtın üstündəki balaca ətir şüşəsi Əfsanənin gözlərini elə qamaşdırmışdı ki, əslində Hürriyyət arvadın dediyini yaxşı dərk eləmirdi, fikrən o, bu gəlin libasına bənzəyən yaraşıqlı, gözqamaşdıran paltarı artıq geymişdi, üstündən ətir də vurmuşdu. Ətrin nə iyi verdiyini hələ bilmirdi, ancaq «ətir» sözü onu uzaq keçmişlərə — qəryədə olarkən Yusifin ilk dəfə alıb gətirdiyi o ətrin yanına, o ətirli günlərə aparmışdı. İndi burnuna həmin ətrin qoxusu gəlirdi

O geyinirdi.

Hürriyyət arvad ən yaxşı əsərini nümayiş etdirmiş rəssam kimi özündən razı idi. Ağayi Siracəddin də dünyanın ən nadir sənət nümunəsini görmüş həssas tamaşaçı kimi, ürəyində rahatlıq, gözəllik duyurdu. O, həyətdə son tapşırıqlarını verirdi:

— Hər şeydən əvvəl yeməyinə-içməyinə fikir ver. Ürəyi istəyirsə, al. Meyvənin bahalığına baxma. Aldır, ver yesin. İçkisini hər gün bir az artır, qoy açılışsın. Bu gecə dincəlsin, sabah günorta yeməyindən sonra mənim otağıma gətirərsən. Çaşıb mənim icazəm olmadan kimsəni yanına buraxarsan ha... — Ağayi Siracəddin gülümsündü, — Ya Museyi-Kazım, sənə demək nə lazım? Özün qayda-qanunu məndən yaxşı bilirsən...

— Gözüm üstə, ağa...

Ağayi Siracəddin cibindən bir dənə göy iyirmilik çıxarıb Hürriyyətin ovcuna basdı və uzaqlaşdı. Arvad iyirmiliyi görüb dodağını büzdü və mızıldandı:

Xəsis köpək!..

...Hürriyyətin Əfsanəni hamamdan sonra gətirdiyi otaq balaca, lakin səliqəli idi. Pəncərənin qabağındakı taxta çarpayının üzərinə çəkilmiş qar kimi ağ örtük ortalıqda qoyulmuş kiçik girdə miz, iki stul, çarpayı qənşərindəki bədənnüma güzgü buranı son dərəcə yaraşıqlı göstərirdi

Əfsanənin rəngi-ruyu açılmışdı, yanaqları qızarmışdı, gözləri elə bil dirçəlmişdi, neft tökülmüş çıraq kimi, nuru çoxalmışdı. Neçə gün çəkdiyi aclıqdan, yuxusuzluqdan, çirkdən əziyyət görmüş bədəninin əzaları, yeyəndən, çiməndən sonra sanki kiriyib toxtamışdı...

Hürriyyətin gətirdiyi qızarılmış toyuq əti, isti çörək, göy-göyərti, məltə[1] ona ləzzət eləmişdi....

— Ye, iç, sonra yat, dincəl. Səhər görüşərik! — deyə gedən Hürriyyət arvad Əfsanəyə çox qayğı göstərmişdi və bu, Əfsanədə ağanın da Hürriyyət arvadın da xeyirxah insanlar olmasına bir əminlik yaratmışdı. «Dünyada yaxşı adamlar çoxdu, Allah köməkləri olsun?» — deyə düşünən Əfsanə, yenicə düşdüyü bu mühitdə həyatının necə keçəcəyi barədə nigarançılıqla götür-qoy edir, təhlükəli heç nə ağlına gətirmirdi. Sadəcə olaraq, deyəsən, taleyi üzünə gülmüşdü. Yaşayardı burda, şəhərə alışardı, sonra yəqin imkanı olacaqdı ki, şəhərdə olan Elməddini soraqlasın, tapsın. Onu tapsaydı, daha heç dərdi olmazdı. Elə onun sorağına gəlmişdi şəhərə — radioda verilən şerini eşitmişdi və inanmışdı ki, o burda olacaq, mütləq burda olacaq. Əfsanə düşüncələrə dalmışdı. Bu zaman Hürriyyət xanım yenidən geri qayıtdı: çarpayısında uzanmış Əfsanə yerindən qalxdı.

— Darıxmırsan ki? — deyə xəbər aldıqda o:

— Yox — dedi.

Hürriyyət arvad kiminsə onu izləyəcəyindən qorxurmuş kimi, çevrilib qapıya, pəncərəyə baxıb ucadan əlindəki göy cildli qalın kitabı stolun üstünə qoyaraq söylədi:

— Bu kitabı qoyuram bura, oxuyarsan, darıxmazsan. Çox maraqlı kitabdı.

Çox sağ ol, Hürriyyət xanım.

— Amma hökmən axıra qədər oxu ha! — deyib Əfsanənin başa düşməyəcəyi tərzdə göz vurdu və tələsik qapını çırpıb getdi.

Bayırda mülayim, sakit bir yaz gecəsi vardı. Qara-tutqun rəngli göydə iri, parlaq ulduzlar sayrışırdı. Əfsanə pəncərədən səmaya baxırdı. Kitab oxumağa heç həvəsi yoxdu, yatmaq istəyirdi — çünki neçə gündü belə rahat yorğan-döşəkdə yatmamışdı, özü da beləcə rahat çimməndən sonra. Lakin Hürriyyətin gətirdiyi kitab onu maqnit kimi cəlb edirdi. Hələ üstəlik arvadın müəmmalı şəkildə «amma hökmən oxu ha!» — deməsi də Əfsanəni tərpətmişdi. Əlini uzadıb kitabı götürdü, çarpayısına uzandı. Açıb oxumağa başladıqda.,. onun

[1] Məltə — apelsin.

kitab yox, albom olduğunu görüb təəccübləndi... «Bu necə kitabdı?» — deyə beynində dolandırdı. Albomun hər səhifəsinə iki-üç böyüklü-kiçikli şəkil yapışdırmışdı. Əfsanə o an qıpqırmızı qızardı; qeyri-iradi olaraq dodaqlarından bu sözlər çıxdı:

— Buy, ətiniz tökülsün, — dedi, — bunlar lap anadangəlmə lütdülər ki?.. — Əvvəl büküb kənara atmaq istədi, ancaq nə isə gizli, daxili bir maraq onu bu fikirdən daşındırdı və o, ağır-ağır, necə deyərlər, tər tökə-tökə albomu vərəqləməkdə davam etdi. Orda çoxlu çılpaq kişi-qadın şəkilləri vardı.

— Buna bax ey, həyasız necə də hırıldayır, — deyə o, diqqətini qəşəng bir qızın şəkli üzərində saxladı. — Elə bil, heç arvad deyil. Sən allah, bir buna bax a, yekə kişidi, lüm-lüt durub adamın gözünün içinə baxır. Utanmaz!

Əfsanə ömründə ilk dəfə belə əcaib-qəraib şəkil albomu gördüyündən bir uşaq marağı ilə tamaşa edirdi: çimçəşə-çimçəşə, bəzən ikrah hissilə. Bir-birini film kadrları kimi əvəz edən şəkillər sanki gözlərinin nurunu aparmışdı, ağlını, şüurunu kütləşdirmişdi, bədənində xoş gizilti ilə bərabər qəribə bir ağrı da əmələ gətirmişdi. «Xudaya, insanda gör nə axmaq, alçaq fitrətlər var imiş!» — deyə beynində çırpınan hiss, sanki birdən-birə onu ayıltdı və o, dünyada ən dəhşətli bir yerə düşdüyünü anlayıb sarsıldı. Əl-ayağı süstəldi, vücudunu soyuq tər basdı; qorxudanmı, həyəcandanmı əsməyə başladı: ona elə gəldi ki, indicə Meymun kimi lüt-üryan kişilər bura hücum eləyəcəklər, əyninə geydiyi alov rəngli alt paltarlarını çıxardacaqlar və onunla da burada təsvir olunan qadınlarla etdikləri kimi, iyrənc, əzablı rəftar edəcəklər. Və bu an onun qəlbində, indiyə qədər xeyirxah, rəhmdil adamlar təki cilvələnən Zərrintac xanım, Siracəddin, Hürriyyət arvada qarşı tüğyan eləyən bir nifrət hissi doğdu və Əfsanə, hirsindən, hikkəsindən «kitabı» mizin üstünə çırpdı. Bu zaman albom ağzı üstə çevrildi və arasından iki bükülmüş bir kağız düşdü. Qulaqlarında qeyri-iradi olaraq Hürriyyət arvadın söylədiyi: «Bu kitabı axıra qədər oxu ha!» — sözləri səsləndi. O, titrək əlini uzadıb mizin məxmər örtüyü üstündən kağızı qaldırdı, qatını açdı. Gözləri yaşardığından əvvəlcə oxuya bilmədi. Ovcunun

içi ilə nəmli gözlərini sildi və iri hərflərlə yazılmış kağızı höccələyə-höccələyə nəzərdən keçirməyə başladı:

«Mən görürəm sən çox təmiz, məsum bir gəlinsən və ağanın danışdığına görə, cavan yaşından başın çox bəlalar, müsibətlər çəkib. Sənin qara taleyin çox cəhətdən mən bədbəxtin taleyinə oxşadığına görə sənə yazığım gəldi, qızım! Sən yəqin bilmirsən və təsəvvür eləmirsən ki, hara gəlib düşübsən. Yoxsa özünü elə sakit aparmaz, bunca xoşbəxt saymazdın. Bura qadın heysiyyəti və namusunun hərraca qoyulduğu ən təhlükəli bir bazardı, qızım. Mən də sənin kimi bura gələndə gənc idim, gözəl idim, sonra məhv olmuş ömrümə, gəncliyimə gizlin-gizlin axıtdığım göz yaşlarımdan başqa heç nəyə gücüm çatmadı.

Əgər burdan xilas olmaq istəyirsənsə, gecəyarı köhnə paltarlarını (çarpayının altındadır) geyin, qaç. Təzə paltarlarında qaçsan, səni tez tapıb yenidən bura gətirəcəklər. Məhv olmamaq, ayaqlar altında tapdalanmamaq, heysiyyətini, şərəf və ləyaqətini uca tutmaq istəyirsənsə, qaç. Nə qədər ki, əldən-ələ düşməyibsən, uzaqlaş bu insan ruhunu çirkablar içində ayaqlayan xarabadan. Sonra gec olacaq, qızım. Yazıqsan, heyfsən, qızım. Bu kağızı cır at. Ələ keçsə, məni məhv edərlər. Allah köməyin olsun, bala». — Əfsanənin ürəyi sıxıldı və o, taqətsiz halda kürəyini divara söykəyib için-için ağlamağa başladı...

«Ey tanrım, mənə çəkdirdiklərin hələ bəs deyil? Mənim nə günahım var?» — deyir və hıçqırırdı.

ON İKİNCİ FƏSİL

Qəribə idi — bu günlər Əfsanə Elməddinin yadına tez-tez düşürdü. Bəlkə ona görə ki, Siminin xahişi ilə onun şəklini çəkmişdi, başının üstündən asmışdı — indi Əfsanə, qucağında körpə tutmuş Siminbərlə birgə qarşı divardan hər gün öz məhzun baxışlarını ona zilləyib baxır, baxırdı. Elməddin hər ikisinin rəsmini həbsxanadan çıxandan sonra, sol əlilə çəkmişdi. Özü də hiss edirdi, baxanlar da

deyirdi ki, rəsmlər pis çıxmayıb, canlıdır, səbirlə, təmkinlə işlənib. Ancaq solaxaylığı da öz işini görmüşdü. Həmin şəkillər indikindən qat-qat gözəl ola bilərdi, daha ürəyəyatımlı ola bilərdi. Sol əli qələm, fırça tutmuşdu, ancaq sağ əli də ağrımışdı; onun həbsxanadan şikəst qayıtması bütün dostları kimi, Ziyaülhəqqə də böyük dərd olmuşdu, cavan, qəşəng, qabiliyyətli oğlanın beləcə ömrü boyu şikəst qalmasına dözməmiş, Şəfi ilə məsləhətləşəndən sonra, qonşuluqlarında yaşayan qoca sınıqçını Elməddinin yanına gətirmişdi. Kişi Elməddinin çəpinə bitmiş əlinə baxandan sonra qaşlarını çatmış, kiməsə puştuca söymüş, Elməddinə demişdi: «Burda elə bir şey yoxdu, azca dözümlü olsan, düzəldərəm. Hə, necəsən, dözümlü oğlansan, ya ağciyər?» «Nə bilim, usta» — deyə sual dolu nəzərlərlə Ziyaülhəqqə baxmışdı. Onun əvəzinə Ziyaülhəqq dillənmişdi: «Əlbəttə, dözümlü oğlandı, usta. O, bizim hamımızdan dözümlüdü. Sən işində ol, usta». Usta ilə əvvəlcədən söhbət eləmişdi, usta heç baxmamış demişdi ki, «Gərək biləyini təzədən qıram, sonra düz bağlayam. Başqa əlacı yoxdur — ömürlük elə qala bilər». Ziyaülhəqq Elmdddinə təfsilatı başa salıb qorxuzmadan irəlicədən razılığını vermişdi. Ağ saqqalı sinəsinə tökülən, iri sümüklü, saqqalı bir kişi olan sınıqçı Ziyaülhəqqin bir daha baxışları ilə verdiyi icazəni görəndən sonra, elə söhbət eləyə-eləyə, böyük pəncəli əlilə Elməddinin biləyini çox münasib bir fəndlə elə qırmışdı ki, oğlan «vay!»— deyib qışqırmışdı; ağrı o qədər şiddətli olmuşdu ki, az qala ürəyi gedəcəkdi, alnına, sifətinə tər damcıları gəlmişdi. «Yox, maşallah, ürəkli oğlan imişsən, balam!» — deyə usta onu tərifləyə-tərifləyə biləyinə yumurta sarısından düzəltdiyi hansı dərmanısa sürtmüş, əlinin üstündən və altından iki gödək taxta parçası, qoyub sarımış, iyirmi bir gündən sonra gəlib açacağını söyləmişdi. Həmin o iyirmi bir gün ərzində Elməddin sümük ağrılarına dözə-dözə o şəkilləri çəkmişdi. İş başını elə qatmışdı ki, çox vaxt ağrısını da unutmuşdu. Simini, qucağındakı körpəni, itkin Əfsanəni hər gün bir az qəlbindən, gözlərindən, yaddaşından qalın, ağ kağızın üstünə köçürmüş, onlar canlandıqca Elməddin sevinmişdi, fərəhlənmişdi. Simin Elməddini körpə kimi əzizləmiş, başına dolanmış, ağrılarına da, sevinclərinə də şərik olmuşdu. Vaxt tamam olandan sonra Ziyaülhəqq ustanı

gətirmiş, əlinin sarığını açdırmışdı — Elməddin əlini əvvəlki vəziyyətində görəndə çəkdiyi ağrıları, iniltiləri unudub hədsiz dərəcədə sevinmişdi. Ziyaülhəqqin üzündən öpmüş, ustaya minnətdarlığını bildirmişdi. Ziyaülhəqq ustaya lazım olduğundan çox pul verəndə usta götürməmişdi, «bu çoxdur, ağa! — söyləmişdi, bu zaman Zizaülhəqq zarafata salıb: «Götür kişi, bu əl adi əl deyil ey, çoxlarının başından çox qiymətli əldi, kişi!» Usta onlara dua-səna eləyə-eləyə çıxıb getmişdi.

Sonra həyat adi qaydasına düşmüşdü. İşi, yazı-pozusu, ailəsi. Hər şey, hər şey istədiyi kimi idi. Təkcə Əfsanə son günlər ona rahatlıq vermirdi — nə xəyalından çəkilib gedirdi, nə gözlərinin önündən. Bəzən ona elə gəlirdi ki, indicə qapı açılacaq və Əfsanə içəri girəcək. Bu hisslərini, düşüncələrinn Siminə söyləmək istəmirdi. «Bəlkə də Simin onun şəklini mənə çəkdirməsəydi, gözümün qabağından asmasaydı, belə olmazdı» — deyə hərdən düşünür, Əfsanənin şəklinə bəzən baxmamağa çalışırdı — ancaq bu, mümkün olmurdu, bir də özünü onda tuturdu ki, qəmli baxışları Əfsanənin rəsminin cizgiləri üzərində gəzir, baxdıqca gözləri yol çəkir... hətta elə anlar olur ki, Əfsanə lap canlanır, sanki divardan qopub səssiz addımlarla ona sarı gəlir, yanında dayanıb heç nə demədən... xısın-xısın ağlayır...

Gözü yollardan yığılmışdı, məqsədinə çatmış, itiyini, tapmış adam kimi bəxtəvər olmuşdu. Balaca Əfsanə onun dəfələrlə uçub dağılmış könül otağında nurlu bir çıraq yandırmışdı, gəlişi ilə ömrünü bahara döndərmişdi. Körpə dünyaya qədəm basmamışdan o, Əfsanənin adını səssiz-səmirsiz, ancaq ürəyində dilinə gətirərdi, özü deyib özü eşidərdi həyatının əfsanəsinə dönmüş bu gözəl adı; Yuxularında görərdi onu ancaq və ayılandan sonra da Siminin ürəyini bilsə də, çox vaxt arvadına heç nə deməzdi, fikirli-fikirli gəzib-dolanardı. Elməddinin bir Əfsanəli dünyası vardı — onu ancaq özü bilirdi, özü görürdü — bu dünya onun xəyal dünyasına, düşüncə dünyasına çevrilmişdi; usananda, çətinliyə düşəndə Elməddin o dünyaya sığınar, isinər, təskinlik tapardı. Bu gizlin, xəyali, əfsanəli dünya onun içində idi, ömrünün bir gözəl, şirin parçasına dönmüşdü, hətta onunla birgə həbsxanalara da düşürdü, yenə ayrılmırdı.

Bir də aşkar, həqiqi Siminli dünyası vardı Elməddinin. Bu dünya nəvazişlə, məhəbbətlə dolu idi, balaca Əfsanənin qığıltısı, gülüşü ilə dolu idi. İndi Elməddin hər gün, hər saat «Əfsanə» sözünü eşidirdi xanımanında. Gah özü deyirdi, gah da Simin çağırırdı bu adı. Hər dəfə də o gül kimi ətirli, məstedici, şirin kəlməni eşidəndə Elməddin daxili bir ehtizazla titrəyir, ötən günlərinə ani də olsa, dönür, fikri, xəyalı, gözləri dumanlanır, kövrək, həzin xatirələr sözsüz-sovsuz dilə gəlib qəlbini göynədirdi. Belə hallarda o, ciyərparasının qonur gözlərinə, xınayı saçlarına baxıb fikrə gedirdi, xoşbəxtlik hüznlü bir xatirəyə qarışıb daha da şirin olurdu. Bu cür anlarda Simin ərinə göz qoyur, onun haldan-hala düşən sifətinə, xəyalpərəstliklə alışıb-yanan gözlərindəki nisgilə nəzər salır. Elməddinin zahirən burda olduğunu, huşunun-xəyalının isə itkin düşmüş Əfsanəsinin yanına qanadlandığını anlayır və mənalı-mənalı gülümsünüb susmaqla kifayətlənirdi. O, mənən ucalıqda dayanan bir qadın kimi ərinin hisslərini, ürəyini başa düşür və qiymətləndirirdi. Sevinirdi ki, nə yaxşı iş görüb uşağın adını Əfsanə qoyub, nə yaxşı iş görüb o nakam bədbəxt gəlinin şəklini ərinin özünə böyütdürüb divardan — Elməddinin başının üstündən asdırıb. Bəli, Simin belə etdiyinə görə özündən çox razı idi və buna uşaq kimi sevinirdi. Bəli, bu balaca, qəşəng körpənin simasında, divardan asılan o portretin varlığında Əfsanə təzədən Elməddinin ocağının başına qayıtmışdı, köhnə, əziz xatirələrini ölməyə, uçub getməyə, unudulmağa qoymamışdı. Bax, buna görə Elməddinin gözü artıq yollardan yığılmışdı, daha nigarançılıq yox idi: — Əfsanəsi gəlmişdi, Əfsanəsi...

...Elməddin idarəyə kefi kök, damağı çağ gəlmişdi. Hər günkü adəti üzrə Simin tezdən oyanmış; çay-çörək hazırlamış, üzbəüz oturub birlikdə səhər yeməyi yemişdilər. Sonra Elməddin barmaqlarının ucunda qızının beşiyinə yaxınlaşıb əyilərək mışıl-mışıl yatan körpənin yanağından ehmalca bir busə almışdı. Qapının ağzında Simin dabanlarını qaldıraraq sağ yanağını Elməddinə tərəf tutmuş və o da azca aşağı əyilib Simini öpmüşdü.

İndi də həmişəki kimi yoldaşları onu gülərüzlə qarşılamışdı, deyib-gülmüş, görəcəkləri işləri planlaşdırmışdılar.

Elməddin Şəfinin stolunun arxasında otururdu. «Pərçəm»in gündəlik işlərini, dostlarının — Bəbirin və Şəfinin tapşırığı ilə o görürdü. Elməddin həftədə iki-üç dəfə ustadın yanına gedir, ruznamənin növbəti nömrəsində dərc olunacaq materialları saf-çürük eləyir, Şəfi ona lazımi tapşırıqlarını verəndən sonra o, evə qayıdırdı. Ruznamə yenə Şəfinin imzası ilə çıxırdı.

Redaksiyaya təzə bir işçi də qəbul olunmuşdu — bu, Anahita xanım idi. Bəbir onu yaxşı tanıyırdı, hələ Kabil Universitetində oxuyarkən arıq, ucaboy, gözlərində həmişə ciddi bir ifadə olan bu qızın qələmi Bəbirin çox xoşuna gəlmişdi — o, əsasən əfqan qadınlarının tarixi keçmişini sevə-sevə qələmə alır, yazılarını dövri mətbuatda çap etdirirdi. Şəfi vurulandan, Elməddin həbs olunandan sonra Bəbir ona «Pərçəm»də işləməyi təklif etdikdə Anahita xanım sevinmiş və razılıq vermişdi. Xoşbəxtlikdən, Anahita ağıllı, zəkalı qadın olmaqla yanaşı, həm də mehriban bir insan kimi də az müddətdə «Pərçəm»çilərlə qaynayıb-qarışmış, bütün yoldaşların dərin hörmətini qazanmışdı. Hamı ona «bacı» deyə müraciət edirdi. Elməddin də həbsxanadan çıxandan, əli sındırılıb-sağalandan sonra onunla burda tanış olmuşdu və başa düşmüşdü ki, Anahita xanım onu qiyabi surətdə çoxdan tanıyır — yazılarını oxuyur, karikaturalarını görüb.

Anahita xanım tez-tez məqalələr yazırdı. Şəfi, Bəbir onları əlyazmasında oxuyur, məsləhət verirdi. Anahitanın heç yadından çıxmaz — bir dəfə Bəbir onun məqaləsinin qırağına öz dəst-xətti ilə belə bir cümlə yazmışdı: «Qadınlarımızın qəhrəmanlıqla dolu keçmişindən yazmağın xoşuma gəlir, Anahita xanım. Ancaq mən istərdim ki, siz öz ana və bacılarınızın bugünkü hüquqsuz günlərindən də, onların bugünkü dərd-lərindən də yazasınız...»

Bəbirin bu sözləri Anahitanı çox düşündürmüşdü və o, tarixi unutmamaqla müasir əfqan qadınlarının ictimai vəziyyətini əks etdirən məqalələr yazmağa başlamışdı.

«Pərçəm» ara-sıra həmin məqalələri öz oxucularına təqdim edir və beləliklə, ruznamə qadınlar arasında da oxunmağa başlayırdı. Bəbir də, Şəfi də buna yüksək qiymət verirdi.

Elməddin siqaretinə axırıncı qüllabı vuraraq külqabına basıb söndürdükdən sonra əllərini bir-birinə sürtüb: «Hə, işimizə başlaya

bilərik!» — dedi. Saat on birdə Munis mətbəədən təshih olunmalı materialları gətirmişdi. O, qurğuşun qoxulu sutunları diqqətlə oxumağa, getmiş səhvləri düzəltməyə yenicə başlamışdı ki, yan otağın qapısı açıldı; məktublar şöbəsinin müdiri, arıq, çeşməkli oğlan kimsənin diqqətini işdən yayındırmamaq üçün az qala barmaqlarının ucunda Elməddinin yanına gəldi və stolun üstünə ağzı bağlı bir zərf qoydu. Yavaşcadan dedi:

— Sənə gəlib!

Elməddin əvvəl oğlana baxıb başı ilə «çox sağ ol!» söylədi, sonra zərfə göz yetirdi. Məktub yazanın adı tanış deyildi, Müqimxan adlı adamdan gəlmişdi, ünvansız idi. Elməddin nigaran-nigaran zərfin qırağını cırdı, içindəki kağızı çıxardıb ürəyi əsə-əsə nəzərdən keçirdi. Məktubda yazılmışdı;

«Ağayi-möhtərəm Elməddin xan! Bu məktubu alanda heç də təəccüblənməyin və mənim kim olduğumu axtarıb tapmaq üçün əbəs yerə başınızı sındırmayın. Çünki mən, aşağıda görəcəyiniz bəzi mülahizələrə görə, əsl adımı yazmamışam, ancaq sizi çox yaxşı tanıyıram və dərdinizi, başınıza gələn o ağır fəlakətləri bilirəm. Bilirəm ki, siz Əfsanə adlı sevgilinizi axtara-axtara bu şəhərə gəlib çıxmısınız. Bilirəm ki, siz gecə də, gündüz də onun haqqında düşünürsünüz, onu tapmaq üçün siz hər şeyinizdən keçməyə hazırsınız — çünki onu siz çox sevirsiniz: o sizin həyatınız, ömrünüz olub, allahınız olub, əlçatmaz arzunuz olub. İndi mən çox həsrət, ayrılıq iztirabı çəkmiş könlünüzü sevindirmək istəyirəm: Əfsanə tapılıb. Onu sizin üçün mən tapmışam...»

Bura çatanda Elməddin özündən asılı olmayaraq az qaldı qışqırsın. Gözləri böyüyüb hədəqəsindən çıxdı. Elə həyəcanlandı ki, dili tutuldu, səsi batdı. Stulunun arxasına söykənib gözlərini yumdu. Əfsanə son dəfə gördüyü kimi xəyalında canlandı, tutqun duman içində incik baxışlarını ona zilləyib susdu, sonra hara isə çəkilib getdi. Sarsıntılı anlar handan-hana ötdü, başını döndərib qarşısındakı stolun arxasında oturan Anahitaya tərəf baxdı. O hər şeydən xəbərsiz, öz işilə məşğul idi... İradəsini toplayıb məktubun gerisini oxumağa davam etdi:

«Bəli, gözlərin aydın, ağayi Elməddin! Sənin Əfsanən tapılıb. O burdadı, şəhərdədi. Bu şəhərdə hamının çox yaxşı tanıdığı ağayi Siracəddinin yanındadı. Mən ora, onun camaat arasında «gözəllər yuvası» adlanan mənzilinə tez-tez gedirəm — beşgünlük dünyadı, yaşamaq, kef çəkmək lazımdı, mən də cavan adamam. Bəli, orada mən sənin Əfsanənlə tanış oldum. Açığını deyim ki, ağlıma gətirməzdim ki, bu qəşəng, su sonası kimi yaraşıqlı qız sənin sevgilin ola bilər. Çox gözəldi, həqiqətən. Elə xoşum gəldi ki, ayrılmağa ürəyim gəlmədi Birinci gecəni səhərəcən onun yanında qaldım. Düzdü, qoca Siracəddin bunun üçün məndən çoxlu para qopartdı. Ancaq dəyərdi. Özümlə, qəlbimlə bacara bilmədim, gündüz də qaldım, ikinci gecə də. Yaxşıca içirtdim. Pis içmirmiş. Qadın kimi söz ola bilməz— dünyanın ləzzəti varmış onda. Mən indiyə qədər hələ belə işvəli-nazlı, yataqda gözəl olan ikinci bir qadına təsadüf etməmişəm, inan. Və indi düşünürəm ki, sən nə qədər axmaq və ağılsız adam olubsan ki, «qardaşımın arvadıdı» — deyə ondan imtina eləyibsən. Ondan mən heç cür keçməzdim.. Nə isə, üçüncü gün tamam sərxoş olandan sonra öz dərdini açıb danışdı. Ağlaya-ağlaya, sənə nifrətlər yağdıra-yağdıra danışdı. Yalnız bu zaman başa düşdüm ki, üç gün, üç gecə öz şirin vüsalı ilə məni məst eləyən bu huri sənin sevdiyin, həsrətindən Məcnun kimi çöllərə düşdüyün, kəndbəkənd, şəhərbəşəhər gəzdiyin Əfsanə xanım imiş!.. Düzdü, bir az dilxor oldum, ancaq nə etmək olardı — olan olmuş, keçən keçmişdi. Özü də mən yəqin ki, birinci deyildim—mənə qədər çox kişiləri, o öz vüsalı ilə xoşbəxt eləyib yəqin...»

Daha gözləri heç nə görmədi, hərflər əriyib qarışdı, kağız qapqara qaraldı. O, müvazinətini itirib başını stolun üstünə qoydu və inildədi. Səsə Anahita döndü, onu bihal görüb həyacanla qışqırdı:

— Elməddin, Elməddin...

Ancaq ondan cavab çıxmadığını görüncə tələsik yanına cumdu, əlini çiyninə qoyub silkələdisə də, o, ölü kimi səs-səmir vermədi. Bu zaman Anahita o biri otaqdakıları köməyə çağırdı.

..Böyük çətinliklə Elməddini ayıldandan, məktubla tanış olandan, bərk sarsılmış, əzizi ölmüş hala düşən oğlana ürək-dirək, təsəlli verəndən sonra, Anahita tələsik zəng çalıb belə işlərdə ən

yaxşı məsləhətçi, ən ürəkli köməkçi olan Ziyaülhəqqi təcili surətdə yanına çağırtdırmış, əhvalatın nə yerdə olduğunu izah eləyib tələsik tədbir görməyi və Əfsanəni oradan xilas etməyi tapşırmışdı, Ziyaülhəqq özünəməxsus soyuqqanlıqla Anahitanın sözlərini dinləmiş və sonra Elməddinin qolundan tutub:

— Gedək — demişdi. Maşını Ziyaülhəqq özü sürürdü. Elə sürürdü ki, sanki haradasa yanğın baş vermişdi, onu söndürməyə tələsirdi. Elməddin dinib-danışmırdı, küçələrə baxırdısa da, nə adam görürdü, nə maşın görürdü. Məktub onun bütün fikirlərini, fikirləri nədir, hətta, həyatını yerlə yeksan eləmişdi. Elməddinə ömrü boyu çox zərbələr dəymişdi, məhvedici zərbələr dəymişdi, ancaq, o düşünürdü ki, bundan ağırı olmamışdı. Əfsanə kimi gözəl, munis bir varlığı yad, tanımadığı, hərzə, əyyaş, sərxoş adamların qucağında təsəvvür etməkdən də öldürücü, zəhərləyici şey təsəvvür eləyə bilməzdi. Qəlbini yandırırdı, həyata, özünə, insanlara qarşı qəribə bir nifrətlə dişlərini bir-birinə sıxmışdı. Və eyni zamanda başında dolandırırdı, çırpınırdı ki, bu zəhər, əzab dolu məktubu kim yaza bilərdi, əgər dost idisə, nə üçün belə açıq-saçıq yazırdı hər şeyi? Əfsanə içir, aman allah! Gör həyat və əclaf insanlar gül kimi təmiz, büllur kimi ləkəsiz Əfsanəni axır nə günə saldı, necə çirkablar içinə atdı, aman allah! Əgər düşmən idisə, kim idi? «Günahkar mənəmmi, adətlərimizdimi? Kimdi, kimdi?» — deyə o, əzab, qısqanclıq və nifrət içində qovrula-qovrula küt baxışlarla yola baxırdı.

Maşın ikimərtəbəli, daş hasarlı bir binanın qənşərində dayananda, Elməddinin qəlbi kəsilib atılmış toyuq başı kimi fəryadla çırpınırdı. Ziyaülhəqqin düşdüyünü görüb Elməddin də qapını açıb çıxdı. Ziyaülhəqqin qanı qaralmışdı, qəzəbli idi. O yanında olduğuna görə Elməddin azca toxtaq idi. Bilirdi ki, Ziyaülhəqq əgər Əfsanə burdadırsa, nəyin bahasına olsa da onu tapacaq, görüşəcəklər onlar. Ziyaülhəqqin hünərinə və qabiliyyətinə az-çox bələd olduğundan bu əminlik indi, o, əlini qapının düyməsinə basanda daha da artdı.

Qapını ucaboy, arıq, saçları ağarmış bir qadın açdı. Bu, Hürriyyət arvad idi. Tanımadığı adamları görəndə, şübhəli-şübhəli diqqət yetirdi. Ziyaülhəqq tutqun, əsəbiliyini büruzə verən bir səslə ona müraciət etdi:

— Ağayi Siracəddin burdadır?

— Xeyr, ağa. Səhər gedəndi.

— Harda olar indi?

Ziyaülhəqq Eləməddinin qəmli sifətinə baxdı, bir anlığına nə edəcəyini ölçüb-biçdi, qadın qapını ehmalca örtüb çəkilmək istəyirdi ki, Ziyaülhəqq əl atıb saxladı:

— Bura bax, arvad. Sənə əlim-ayağım dəyməmiş, sözsüz-sovsuz get içəridən Əfsanəyə de, geyinib gəlsin bura.

Bu ötkəm-ötkəm deyilmiş sözləri eşidəndə Hürriyyətin qara qorxusu bir az çəkildi və o, mülayim tərzdə:

— Hansı Əfsanə? — deyə xəbər aldı.

— Neçə Əfsanə var ki, burda?..

— Bağışlayın, — deyə Hürriyyət suala cavab verməmiş yavaşcadan soruşdu: — Siz onun nəyisiniz ki?!

— Qohumuyuq — deyə Ziyaülhəqq Elməddini qabaqladı, — çox yaxın qohumuyuq. Eşitmişəm ki, gəlib biçarə bura düşüb.

Elməddin bayaqdan danışmasa da, indi özünü saxlaya bilməyib yalvarıcı tərzdə:

— Kömək elə, onu xilas eləyək, sənə hörmət eləyərəm, xanım. Heç kəsdən, heç nədən qorxma, kömək elə bizə, — söylədi. — Çoxdan burdadı? Nə vaxt gəlib?

Hürriyyət Elməddiiin danışığından, səsindəki titrəyişindən, yalvarışından anlamışdı ki, bu ucaboy, bığlı, yaraşıqlı cavan oğlan Əfsanənin dastanındakı oğlandı ki, gəlib çıxıb. Və xeyirxah iş gördüyü üçün, Əfsanənin qaçmasına imkan yaratdığına görə öz əməlindən çox razı qaldı; onun qaçdığını biləndə ağayi Siracəddinin hirslənərək ağzına gələni dediyini, bununla da ürəyi soyumayıb şillələdiyini, ağrılarını unudub sevindi. Hələ bu ağa ona bəxşiş də verəcəkdi. Amma o heç nə gözləmirdi. Onun Əfsanəyə sadəcə yazığı gəlmişdi — istəməmişdi ki, o cür gözəl bir qadın bu çirkab içində çürüyüb məhv olsun. Ziyaülhəqq öz aləmində «hərəmbaşı» hesab elədiyi, şəhərdə çox qızların, qadınların məhz bu cür «ifritələr» vasitəsilə aldadılıb belə yerlərə gətirildiyini bildiyi üçün Eləməddinin onunla yumşaq tərzdə danışdığından acığı gəldi və ona tərs-tərs baxıb dişini-dişinə sıxaraq:

— Tez ol, arvad, qızı get gətir!—deyə çımxırdı. Ona cavab olaraq Hürriyyət gülümsündü və mehriban-mehriban cavab verdi:

— Əfsanəni on beş gün qabaq gətirdi ağayi Siracəddin, qardaş. Ona da ağayi Nəcməddinin qızı Zərrintac xanım zəng eləmişdi, qızı o vermişdi ağaya.

—Zərrintac? — Elməddinin gözləri heyrətdən böyüdü.

— Bəli Zərrintac xanım. Ağayi Siracəddin getdi, qızı maşınla gətirdi, mənə təhvil verdi. Düzü, oğul, ona yazığım gəldi, heyfim gəldi, qıymadım o burda çürüsün. Çimizdirdim, paltarını dəyişdirdim, yedirtdim. Tifil ac imiş. Neçə vaxt imiş nə yaxşı yeyirmiş, nə də rahat yatırmış. Şəhərə təzə gələn, qohumu-simsarı olmayan adam necə olar? Qərəz, yazığım gəldi — elə o gecə qaçırtdım. Başa saldım ki, qaçsın canını qurtarsın. İmkan yaratdım, qapını açıq qoydum, köhnə paltarlarını verdim, gecəyarı qaçdı — daha hara getdi, deyə bilmərəm. Mənim əlimdən gələn bu idi, bunu da elədim. Səhər ağayi Siracəddin məni döydü, söydü, itin sözünü dedi.

— Deyirsən, o, burda heç qalmadı, hə? — Elməddin nigaran-nigaran soruşduqda Hürriyyət:

— Yox, bala, günortadan sonra gəldi, gecəyarı getdi, — dedi və Elməddinin nədən nigaran olduğunu anlayıb əlavə etdi, — arxayın ol, oğul, burda ona bir kişinin də əli dəyməyib. İnandığımız haqqı, dəyməyib!!

Elmədinin üstündən dağ götürüldü elə bil. Rahat nəfəs aldı, dolub-tutulmuş sifətində küclə seziləcək bir təbəssüm dolandı. Bu, Ziyaülhəqqin də gözündən yayınmadı, o gizli əminlik, rahatlıq onun da ürəyinə axdı, qırışığı açıldı.

— Çox sağ ol, ay bacı, təşəkkür edirəm! — dedi Elməddin və bir dənə qırmızı beşyüzlük çıxardıb arvadın ovcuna basdı. — İmanın kamil olsun, arvad!

— Allah köməyin olsun, oğul. Ziyaülhəqq xəbər aldı:

— İçəridə çox qadın var?

— Nə bilim, ay qardaş, var da.

— Bura bomba qoyub partlatmaq lazımdı. Ağayi Siracəddinləri də camaatın gözü qabağında dar ağacına çəkmək gərəkdi. Namus dəllalı, dəyyus, qurumsaq!!! — deyə Ziyaülhəqq siqaret alışdırdı.

Hürriyyət arvad «bomba», «dar ağacı» sözlərindən qorxuya düşmüş təki o yan — bu yana baxdıqda Elməddin dostunun qoluna girdi:

— Gedək! — dedi. — Bunlarda günah yoxdu, Ziya, Bu zavallılarda heç bir günah yoxdu. — Azca susduqdan sonra söylədi: — Demək, Əfsanə şəhərdədi. Nə yaxşı?

— Yerin deşiyində olsa da onu qurdların əlinə düşməmiş, tapmaq lazımdır.

ON ÜÇÜNCÜ FƏSİL

Axşam Elməddin evə gələndə Simin ərini pərişan, yorğun, qanıqara görüb təəccübləndi. Heç vaxt o, işdən belə qayıtmamışdı. Nə qədər əzgin, dilxor olsaydı da, həyətə girən kimi Elməddinin üzü gülərdi, hər dərd-sərini unudub deyər, danışar, qızını oynadar, Siminlə zarafat eləyərdi. Lakin indi o, fikirli, çaşqın görünürdü. Bu həssas Siminbərin nəzərindən qaçmadı:

— Gözümə kefsiz dəyirsən, Elmi? Nə olub sənə?!.

— Mənə? — O, yuxudan ayılan kimi oldu.— heç nə...

— Yox, sənə nə isə olub, Elmi!.. Nə hadisə üz verib?..

Elməddin, səhər məktubu oxuyandan sonra, özünü tanıya bilmirdi — gah sevinmişdi, gah pərt olmuşdu, sarsılmışdı. Əfsanənin Siracəddinin əlindən qaçıb qurtardığını eşidəndə isə yenə şadlığından yerə-göyə sığışmamışdı. Sonra təzədən dərdə-qəmə batmışdı. Təəccüb eləyirdi ki, insan bir gündə necə də haldan-hala düşə bilərmiş, necə də bir-birinə zidd fikirlərlə yaşaya bilərmiş! Siminin ürəyinə, xasiyyətinə bələd olsa da, yenə nigaran idi; görəsən. Əfsanənin tapılması xəbərini necə qarşılayacaqdı? Hər necə olsa, qadındı və Elməddinin onu bir vaxtlar dəlicəsinə sevdiyini bilirdi! Qısqanmayacaqdı ki? Düzdür, indiyə qədər o, Əfsanəni həmişə hörmətlə yad eləmişdi, şəklini böyütdürmüşdü, uşağın adını Əfsanə qoymuşdu. Ancaq bunlar o zaman olmuşdu ki, Əfsanə yox idi ortalıqda, təkcə adı qalmışdı Əfsanənin. Ölmüş, yaxud itkin düşmüş bir bədbəxt qadının adını, Elməddinin könlü xoş olsun deyə, yaşatmağa, ehtiramla yaşatmağa nə vardı ki? İndi isə o sağ idi, o, şəhərdə idi, gec-tez, tapacaqdı onu Elməddin. Onda vəziyyət necə olacaqdı? Evdə, cavan ər-arvad arasında bir soyuqluq, bir

nifaq yaratmayacaqdı ki, bu xəbər? Elməddin bax, bir də buna görə pərişan idi.

— Bilirsən, Simin, Əfsanə tapılıb! — deyə uzun sürən sükutdan sonra Elməddin məsələni açıb deməyi lazım bildi və bu sözləri söyləyərkən arvadının gözlərinin içinə baxdı.

Simin, əzizinin tapıldığı xəbərini eşidirmiş kimi, gözlənilməz şadlıq içində;

— Nə danışırsan, Elmi? — dedi və uşaq təki irəli cumub ərinin boynuna sarıldı, üzündən öpdü. — Sağdı, Əfsanə? Səni təbrik eləyirəm, Elmi? Demək, sağdı!

— Hə, Simin... Sağdı. — Siminin sevinci ona da sirayət etdi, gülümsündü.

— Bəs hanı?

— Şəhərdədi.

— Harda yaşayır, Elmi?..

— Harda?.. Küçələrdə...

— Nə danışırsan, küçədə də adam yaşayar?

— Bizim məmləkətdə yaşayar, Simin!..

— Sən onu görübsən?..

— Yox. hələ görə bilməmişəm...

— Bəs sənə kim dedi, Elmi?

— Bir nəfər görüb... — deyə Elməddin hələ təfsilatı açmamağı üstün tutdu.

— Bəs niyə dayanmısan? Dur get, tap gətir evə, Elmi. — Simin bu kəlmələri elə ürəklə söylədi ki, səmimiyyətinə inanmamaq olmazdı və Elməddin əyilib bu sözləri deyən dodaqlarından öpməməyi bacarmadı.

— Sağ ol, Simin! Sənin nə gözəl ürəyin varmış, əzizim!

Sonra çay süfrəsi başında, Elməddin əhvalatı bütünlüklə açıb arvadına söylədi. Simin qızın başına gələn müsibətləri eşidəndə kövrəldi. Əfsanənin ordan qaça bilməsinə, ona köməklik eləyən arvadın xeyirxahlığına sevinirdi.

— Yazıq qızın başı nə bəlalı imiş, aman allah, — deyirdi. — Bəs indi neyləmək fikrindəsən, Elmi?.. Onu küçələrdə qoymaq olmaz

ki. Axtarıb tapmaq lazımdı. Şəhərdə bizdən başqa kimi var ki, o biçarənin?!

— Heç kəsi yoxdu, Simin, Anahita xanım bacım olsun, radio ilə elan verdirib. Mən polisə də xəbər vermişəm. Sabah ruznamədə də elan çıxacaq — axtarış elanı... Özüm də Ziyaülhəqqlə səhər şəhəri gəzəcəyəm, bazarlara, küçələrə baxacağıq. Bəlkə rastımıza çıxdı...

— Hə, hə... Aman allah, nə yaxşı oldu, nə yaxşı oldu. Sağmış, Fəlakətzədə sağmış...

...Əfsanənin şəhərdə peyda olması xəbərini eşidəndə Şəfi də, Məleykə də yaman fərəhlənmişdi: ancaq bir azdan Məleykə xanım qayğılı-qayğılı ərindən soruşmuşdu:

— Bəs indi necə olacaq, Şəfi?

— Nə necə olacaq, Məleykə?!

— Deyirəm tutaq ki, Əfsanəni tapdınız, Elməddin də gətirdi evinə.

— Hə də, gətirəcək də, çöldə qoymayacaq ki onu?!

— Elə məni də nigaran eləyən budu də. Əfsanə onun kəbinli arvadıdı. Arada da Simin var — bir-birlərini də elə istəyirlər ki... Qorxuram, evin nizamı, sakitliyi pozula, Şəfi...

— Pozulmaz, məncə.

— Axı Əfsanə ilə Elməddin arasında böyük məhəbbət olub. Səncə, onlar üçü bir damın altında yaşaya bilərlər?

— Niyə yaşaya bilmirlər ki?!

— Eh, Şəfi. Sən qadın ürəyinin sirlərini az bilirsən deyəsən?! Gör hələ Simin nə hala düşəcək. Əfsanə biləndə ki, Elməddin evlənib, nələr çəkəcək. İki qadın, bir kişi... Belə ailələrdə heç vaxt rahatlıq olmur. Deyirəm, bəlkə Elməddin Əfsanəni də arvad kimi qəbul elədi, hə?

— Eləməz, məncə, Məleykə. Eləsəydi, elə o vaxt eləyərdi, daha o yazığı da, özünü də çöllərə salmazdı. Yox, eləməz!.. Əfsanə yaşayar onlarda, Siminə kömək eləyər, uşağı oynadar — öz adaşını... Bir qarın çörək yeyəcək... Sonrasına da baxarıq, bəlkə baxtı açıldı, birinə ərə getdi — cavan gəlindi...

...Əfsanə isə bir iynəyə dönmüşdü, tapılmırdı ki, tapılmırdı. Polis axtarırdı, radio ilə gündə üç dəfə elan verirdilər, qəzetlər axta-

rırdı. Elməddin Ziyaülhəqqlə, gah də Əhədulla ilə şəhərin küçələrini maşınla əldən salmışdılar. Yox idi. Elməddin hər axşam yorğun-arğın evə dönəndə Simin onun tək gəldiyini görüb məyus olurdu. Ürək-dirək verirdi: «darıxma, tapılar! — deyirdi— Ruznamə oxumur, radioya qulaq asmır, haradan biləcək biçarə ki, onu axtarırsan?» .

Dünən, çarəsiz qalan Elməddin, vaxtilə Ətiqullanın onu apardığı «Münsif» hotelinə də getmiş, xidmətçi qadını aldadaraq bütün qızlara baxmış, «mənim zövqümcə olan yoxdur!» —deyib çıxmışdı. Ötən üç həftənin içində Elməddin qəlbən qocalmışdı.

...Cümə günü Ziyaülhəqqlə Elməddin maşınla yenə şəhərə çıxmışdı. İstirahət günü olduğundan şəhərdə qaynama-canlanma var idi. Ziyaülhəqqin yanında əyləşmiş Elməddin dörd-gözlə gəlib-keçənlərə fikir verir, müxtəlif qiyafəli, çarşablı-çarşabsız qadınların arasında Əfsanəni axtarırdı. Sonradan gedib Hürriyyətdən Əfsanənin nə geydiyini öyrənməyi işi xeyli asanlaşdırmışdı. Demək, onun çadrası yox idi. Əynində boz rəngli köhnə paltar var idi, başına qara örpək örtmüşdü. İndi Elməddin bu nişanda qadınlara daha çox nəzər yetirirdi. Ziyaülhəqq küçələrin sol tərəfinə baxırdı. Birdən maşın yerində mıxlanıb dayandı — Elməddinin başı az qala maşının qabaq şüşəsinə dəymişdi.

— Neynirsən, Ziya! — dedi qorxu içində Elməddin.

— Bir o gələn qadına bax!

— Hanı?

— Sol tərəfdə, səki ilə yeriyir, üzü bəri gəlir. Elməddinin ürəyi çırpındı, irəli əyilib gözlərini qıyaraq diqqətlə tamaşa elədi və vəhşi bir səslə:

— Odur! — deyə bağırıb özünü maşından necə atdısa, ayağı nəyəsə ilişib yıxıldı. Ancaq tez qalxdı və qara örpəkli qadına sarı yüyürdü.

Ziyaülhəqq düşməmişdi, açıq pəncərədən bu qəribə görüş səhnəsinə tamaşa eləyirdi. Elməddin çatdı, qadın dayandı. Elməddin nə dedisə, o, əlini alt dodağına aparıb ani çaşqınlıqdan sonra onun üstünə atıldı; elə küçənin ortasında, gəlib-gedənlərin təccüblə çiyinlərini çəkmələrinə qanrılıb, maraqla baxmaqlarına əhəmiyyət vermədən bir-birini qucaqladılar. Əfsanə başını Elməddinin çiyninə

qoymuşdu, kürəyi qalxıb enirdi, yəqin ağlayırdı. Elməddin titrəyən əlini onun qara örpəyində gəzdirirdi, nə isə deyirdi. Sonra hər ikisi bir addım geri çəkildi, gözlərinə inanmırmış kimi, baxışdılar, bu görüşün yuxu yox, həqiqət olduğunu anlayıb bir daha sarmaşdılar.

Ziyaülhəqq maşını fırlayıb yanlarında dayandıranda, Elməddin sanki yuxu aləmindən ayıldı. Ziyaülhəqqin gülümsər sifətini görüb özünə gəldi və Əfsanənin əlindən tutub maşına sarı çəkdi. Maşının dal qapısını açdı, hələ də gözlərindən sevinc yaşları axan Əfsanə duruxub minmək istəmədiyini bildirəndə:

— Min, min Əfsanə! — dedi. — Özgə adam deyil, dostumdu. Əfsanə mindi, Elməddin yanında əyləşdi. Ziyaülhəlqq geri qanrılıb:

— Əfsanə xanım bizim şəhərə xoş gəlib! — dedikdə o, başını tərpədərək astadan pıçıldadı:

— Çox sağ olun!

— Səni axtarmaqdan Elməddin yazıq əldən-ayaqdan düşdü.

— Sən məndən də çox əziyyət çəkmisən, Ziya. Axır ki tapıldın, Əfsanə, ay mənim itkin gəlinim...

Əfsanə örpəyinin ucu ilə gözlərinin yaşını sildi, heç nə demədi.

ON DÖRDÜNCÜ FƏSİL

Ziyaülhəqq Elməddinin təkidinə baxmayaraq, maşından düşmədi. Gülə-gülə dedi:

— Sabah gələrik, yorğunsunuz, rahatlanın, özünüzə gəlin. Ancaq gərək sən, Əfsanə xanımın tapılması şərəfinə yaxşı bir qonaqlıq hazırlayasan.

— Gözüm üstə, Ziya. Mən sənə çox borcluyam, qardaş. Get Şəfiyə də xəbər ver, qoy o da sevinsin. Nigarandı yaman!!!

— Oldu! Xudahafiz!

O gedəndən sonra həyət qapısının ağzında tək qalanda Əfsanə başı ilə evə işarə edib:

— Bura haradı, Elmi?—deyə soruşdu. Onun neçə illər üzünü görmədiyi, səsini eşitmədiyi Əfsanənin dilindən çıxan bu «Elmi»

sözü qəlbini titrətdi, başını dumanlandırdı, bir anlığına, təzədən o ötən, bir daha geri qayıtması-mümkün olmayan əziz, şirin günləri xatırlatdı; ah çəkdi və köksündən qopan səsə ayılıb Əfsanənin sualına cavab verdi:

— Mənim evimdi, Əfsanə... Keç içəri...

Elməddin qabağa düşdü, qapını açdı, Əfsanə arxasınca həyətə girdi. İlk qədəm basdığı həyət Əfsanənin xoşuna gəldi, gül ətri gərgin əsəblərini oxşadı... Qəribə, naməlum bir dünyanın qapısı önündə dayanan adam kimi qorxu, həyəcan içində hər şeyə göz qoya-qoya addımlayırdı.

Simin pencərədən baxırdı. Elməddinin bir qadınla içəri girdiyini görmüşdü. Lakin nə üçünsə yerindən tərpənə bilmirdi. Elə bil, ayaqlarını bağlamışdılar. Ona yəqin idi ki, gələn Əfsanədi. Maraqla diqqətlə baxırdı — sifətinə, gözlərinə, əllərinə baxırdı, yerişinə baxırdı. Anlar keçirdi. O, sehrlənmiş kimi hələ də dayanmışdı. Halbuki o, Əfsanə bu həyətə qədəm basarkən qabağına qaçacağına, bağrına bacacağına, üzündən öpüb: «Xoş gəlmisən, bacım!» — deyəcəyinə qəlbində dönə-dönə söz vermişdi. Bəs indi nə olmuşdu? Hansı bir sehr onu yerə, döşəməyə mıxlamışdı?!

Onlar artırmaya çıxanda Elməddin evdəki sakitlikdən şübhələndi. «Yəqin yatıblar!» — deyə ürəyindən keçirtdi və səsləndi:

— Simin, ay Simin...

Səsi Simini silkələdi elə bil, o döşəmədən qopub özünü bayıra atdı, Elməddinin yanında dayanan və nə üçünsə qaşları çatılmış Əfsanəni görəndə qeyri-iradi bir sevinclə:

— Gözün aydın Elmi! — dedi. — Nəhayət, tapıldı Əfsanə...— sonra ona sarı yeridi, neçə gün təklikdə özünə təlqin etdiyi kimi, Əfsanəni qucaqladı, üzündən öpdü və həyəcanla pıçıldadı: — Xoş gəlibsən, bacı! — dedi, —Xoş gəlib səfa gətirmisən!..

Gözlənilmədən içəridən çıxan və onu ağuşuna alan bu qəşəng gəlini görcək Əfsanənin ürəyində sanki nə isə titrəyib gizildədi və Elməddini görəndə duyduğu xoşbəxtliyin, bəxtəvərliyin üstünə zəif bir kölgə salıb keçdi. Lakin, işin nə yerdə olduğunu anladığından, özünü ələ alıb:

— Xoş günün olsun, bacı! — söylədi.

— Bəs Əfsanə hanı, Simin? — deyə Elməddin aradakı gərginliyi azaltmaq və Əfsanəni sevindirmək üçün soruşdu:

— Evdədi.

«Əfsanə» sözünü eşidəndə təzə qonaq əvvəl Elməddinə baxdı, onun çaşdığını, nə danışdığını bilmədiyini güman elədi və istədi ağzını doldurub: — Mən... mən burdayam... — desin, ancaq Siminin tələsik «Evdədi» — söyləməsi onun ürəyindən qopmuş sözləri dodaqlarında dondurdu. Bu zaman balaca, totuq bir qız uşağı böyük otağın qapısı ağzında göründü, ayaq üstə dayana bilməyib oturdu, əllərini Elməddinə sarı açdı. Elməddin əyilib onu qaldırdı, üzündən öpdü və sonra körpəyə diqqətlə baxan Əfsanəyə tərəf döndü:

— Bu, bizim qızımızdı, Əfsanə. Sənin adını qoymuşuq ona. Simin — anası özü təklif elədi... Sənin adaşındı, Əfsanə.

Əfsanə əllərini irəli uzatdı:

— Gəl qucağıma, gəl, qızım!..

Balaca Əfsanə atasının boynunu qucaqladı, getmək istəmədi. Əfsanənin qolları boşalıb yanına düşdü; yad xala idi, birinci dəfə görürdü. Getmədi...

İzahatsız da hər şey aydın idi; Elməddin evlənib, Elməddin artıq yoxdu onun üçün. Simin — bu cavan, qəşəng gəlin onun arvadıdı, bu balaca qız — Əfsanə də onların qızıdı» Sağ olsun, yenə unutmayıb — adımı uşağına verib. Hər gün xatırlamaq üçün. Deyir, Siminin təklifi ilə sənin adını qoymuşuq... O da sağ olsun. Görünür, Elməddin hər şeyi — onların macərasını söyləyib Siminə.

Bir az sonra, o biri otaqda özünün divardan asılmış portretini görəndə də, Əfsanənin qəlbini həzin bir xatirə titrətdi. Və onda, illər keçsə də, insan dəyişsə də, qocalsa da məhəbbətin ölməzliyinə olan inam bir az da artdı. Bəli, məhəbbət ölmür, yaşayır və yaşadır. Necə ki, bu illər ərzində Elməddin onu rədd eləsə də, Yusifin — qardaşının qeyrətini ayaqlayıb keçməsə də Əfsanə onu qəlbinin dərinliyində, şirin bir mahnı kimi, həsrət dolu bir musiqi sədası kimi yaşatmışdı, sönməyə, ölməyə qoymamışdı. Çətinə düşəndə, dar ayaqda, təkliyin, ehtiyacın məngənəsində sıxılıb əziləndə oduna qızınmışdı; gücü, qüvvəti tükənəndə Elməddinin adı ona mətanət bəxş eləmişdi, dözüm vermişdi. Haradasa çox istədiyi bir adamın olduğunu düşünüb

ovunmuşdu. Görünür, Elməddin də o ayrılıq illərini beləcə yaşamışdı — şəklini çəkməklə, uşağına sevdiyi, ancaq vüsalına çatmadığı sevgilisinin adını qoymaqla... Bunlar məhəbbət deyildi, bəs nəydi?!

Otaqlara, səliqə-sahmana nəzər saldıqca ürəyinə doğma ocağın ilıq istisi axıb dolurdu. Hər şeyi yerli-yerində idi. Çox da təmtəraqlı olmayan evdə, Əfsanə hiss eləyirdi ki, böyük səadət yaşayır, məhəbbət yaşayır. Xatırladı ki, o vaxt, aradakı təmiz sevgiyə baxmayaraq, özündən asılı olmayaraq. məcburiyyət qarşısında Yusifin arvadı kimi Səbihənin ocağının başına gətiriləndə Elməddin artıq idi; əzablarına, sarsıntılarına baxmayaraq, artıq idi. Heç kəs bunu ürəyinə gətirmirdi, ancaq təkcə Elməddin başa düşürdü ki, qardaşı ilə Əfsanənin səadətində o artıqdı... İndi də Əfsanə artıq görünürdü. Elməddinin, Siminin bu rahat, isti ocağına baxanda özü anlayırdı ki, artıqdı. Həmin hiss — artıqlıq hissi, Əfsanənin neçə illərdən bəri sevinc dadmamış, yalnız yarım saat, bir saat bundan qabaq tapdığı səadətin xoş duyğuları ilə çırpınan qəlbini sıxır, incidirdi. Beş-on dəqiqənin içində, düşdüyü təzə şəraitdə böyük sürətlə, bir-birini təqib edərək gəlib-gedən bu hisslər tufanının təzadlı sarsıntıları keçəndən sonra Elməddin də, Əfsanə də, Simin də, xəyalət-düşüncə aləmindən ayıldılar, bir-birinə baxıb gülümsündülər. Və sanki bununla da Əfsanənin gəlişi ilə yaranmış beş-on dəqiqəlik çaşqınlıq aradan götürüldü, az qala hər üçünün gözündə əşyaları ora-bura qaçan, alt-üst olmaq dərəcəsinə gələn ev öz adi qaydasına düşdü, toxtadı. Onların içində birinci Elməddin vəziyyətdəki qeyri-adiliyi görüb üzünü Siminə tutaraq ərkyana:

— Hə, niyə durmusan, Simin? — dedi. — Su hazırla Əfsanə əl-ayağını yusun. Sonra yemək işinə bax.

— Bu dəqiqə, Elmi, — deyə Simin tərpəndi. — Gəl, Əfsanə, gəl bura, bacı:

Əfsanə gözlərini divardakı şəkildən ayırıb siqaret sümürən Elməddinə, mənalı bir nəzər saldı, başını aşağı endirib Siminin dalınca eyvana çıxdı...

Elməddin yazı masasının arxasında oturdu. Elə taqətsizdi ki, yeriməyə belə halı yox idi. İllər boyu hər gün bir az gərilib tarımlaşmış əsəbləri sanki qəfildən boşalmışdı, bütün vücudunda anlaşıl-

maz bir boşluq əmələ gəlmişdi. Hərdən gözlərini dolandırır, başı üstəki Əfsanəyə baxır, indi gördüyü Əfsanə ilə o zaman xəyalan yaratdığı gəlin arasında nə fərq olduğunu aydınlaşdırmaq istəyirdi, ancaq heç nə alınmırdı. — İndi gördüyü Əfsanə sanki bir zamanlar onun sevdiyi, həsrətilə yaşadığı gəlin deyildi; elə bil nə isə yadlaşmışdı. Düzdü, sifəti də, qaş-gözü də, hətta səsi də dəyişməmişdi, ancaq bununla belə bu, o Əfsanə deyildi, yox, o deyildi. Zahirən o idi, ancaq batinən... Elməddin burada duruxurdu, gözləri yol çəkirdi, istər-istəməz neçə gün bundan əvvəl aldığı o mübhəm məktubu xatırlayırdı. «Görəsən o, şəhərə gələnəcən harda imiş, başına nə müsibətlr gəlib görəsən? İndi insanlar canavar olublar—tək, dəstədən ayrı düşmüş bir quzu görən kimi didib-parçalamağa hazırdılar. Güclü gücsüzü, çarəli çarəsizi yeyir; parçalayır. Əfsanə də evdən baş götürüb gedəndə — indi ona aydın idi ki, məhz bu, belə olub — körpə quzu idi, çarəsiz, kimsəsiz bir cavan idi...» — deyən Elməddinin fikri naməlum yollarla dağı-aranı gəzib geri qayıdırdı — «hər necə olsa da Əfsanədi, mənim Əfsanəmdi, qayıdıb gəlib...»

Yarım saat keçməmiş, Simin də, Əfsanə də Elməddin olan otağa qayıtdı. Əfsanə əl-üzunü yumuşdu, əynindəki çirkli, süzük-süzük olmuş donunu dəyişmişdi. Simin ona öz paltarını geyindirmişdi— keçən ay tikdirdiyi açıq-qırmızı donu Elməddin o saat tanıdı və bundan çox sevindi. Çünki o, köhnə paltarında çox pis görünürdü, bəlkə də dilənçiyə oxşayırdı. Əfsanə özü də bunu hiss edirdi və Elməddinin qabağında utanıb sıxılırdı. Simin o biri otaqda, şkafdan bu donu çıxarıb:

— Al, dəyiş paltarını! — deyəndə tərəddüd eləmişdisə də, Siminin çox ürəkdən etdiyi bu təklif önündə dayanmamışdı, köhnəküləsini çıxarıb təzəni geyərək güzgüdə özünə baxandan sonra, gözlərini yaşardan minnatdarlıq hissilə dönüb Siminin boynunu qucaqlamış, üzündən öpmüşdü:

— Sağ ol; ay bacı! — demişdi, — xoşbəxt olasan, gəlin!

O indi də, təzə paltarında Elməddindən utanırdı nə üçünsə. Paltar əyninə qaydasında olsa da, nədənsə onu elə bil sıxırdı və ya elə sanırdı ki, əynində heç paltar yoxdu — o, Edməddinin qənşərində çılpaq dayanıb. Odur, ki, əllərini tez-tez gah sinəsində çarpazlayır,

gah da daraqlayıb qarnının üstünə qoyurdu. Elməddin bu sıxıntını hiss elədiyindən ona baxmamağa çalışırdı və ürəyində Siminin hərəkətini təqdir edir, düşünürdü: «Mən ona çox əzəb vermişəm, Simin. Onun həyatını bəlkə də mən belə tar-mar eləmişəm. İnsanlıq naminə, ləyaqət naminə o hər cür yaxşılığa layiqdir, Simin. Elə hesab elə ki, o da sənin bacındı, sənə pənah gətirib. Onun burada bizdən başqa kimi var, nəyi var?! Mən bundan sonra, ömrüm boyu onun qulluğunda dursam da, verdiyim əzabların yanında heç nədi, Simin. Mən sənin ürəyinə inanıram sən məni başa düşürsən, Simin elə deyilmi?» — Elməddin bu sözləri ürəyində öz-özünə pıçıldayırdı və ona elə gəlirdi ki, Simin qəlbindən keçənləri eşidir. anlayırdı. Simin də özünü xoşbəxt sayırdı. Bayaqkı gərginlikdən əsər-əlamət qalmamışdı: onun üzünü nurlu bir təbəssüm işıqlandırırdı xeyirxahlıq, alicənablıq elədiyini özü də başa düşürdü və belə etməyi ilə ərinin könlünün xoş olduğunu görüb bir az da qayğıkeş, bir az da mehriban olmağa çalışırdı.

— Xörəyin hazırdı, Simin? — Elməddin Əfsanənin ac ola biləcəyini düşünüb xəbər aldı.

— Hə, hazırdı, keçin yemək otağına.

Ara qapıdan yan otağa keçdilər. Üstünə süfrə salınmış girdə stolun üstündə boşqablar, çəngəl-qaşıq düzülmüşdü, çörək qoyulmuşdu. Simin bunları nə vaxt hazırlamışdı, heç biri bilmirdi.

— Otur, Əfsanə. Bax, sənə bəri başdan deyirəm, qətiyyən sıxılıb eləmə, buranı öz evin hesab elə.... Qəryədəki evimizi satmışam, bu xanimanı onun puluna almışam, Əfsanə. Orda sənin də haqqın vardı. Demək istəyirəm ki...

— Əfsanə bayaqdan ilk dəfə ağız açıb sual verdi:

— Bəs Səbihə xala?

— Səbihə xala ömrünü bizə bağışlayıb getdi, Əfsanə... Əfsanə tutuldu, nazik, ancaq gecə şaxtalarından çatlamış dodaqları səyridi. Səbihə arvadın səsi, sifəti xəyalında canlandı. İl yarımacan bir yerdə yaşamışdılar, tük qədər onu incitməmişdi, qəlbinə dəyməmişdi Demək Əfsanə çıxıb gedəndən sonra onun gəlin köçdüyü o ev-eşik, həyət-baca dağılmışdı.

— Haçan olub bu hadisə, Elməddin? — o, kədər içində soruşdu.

— Çoxdan... Elə o vaxt sən qeybə çıxanda mən səni axtarmağa getdim. Arvad yazıq tək qaldı. Elə tək də, kimsiz-kimsəsiz dünyadan köçüb...

— Yazıq arvad!.. — deyib Əfsanə gözlərinin yaşını sildi. Bu zaman Simin buluda çəkilmiş plovu ortalığa qoydu, səbzi-qovurmanı gətirdi... Düyünün xoş ətri otağa doldu.

— Hə, bismillah eləyin! — dedi! — Hə, niyə durmusan, Əfsanə bacı, başla, sən allah, burda özgə adam yoxdu.

— Düz deyir, Əfsanə... Sən allah, çəkinmə heç nədən. Əvvəl çörəyimizi yeyək, sonra danışarıq. Danışarsan görək bu neçə ili hardaydın, başına nələr gəlib, haralarda olubsan?!

— Eh, nə danışacağam... — dedi Əfsanə! Elməddin etiraz eləmək istəyirdi ki, telefon səsləndi. O, ayağa qalxaraq:

— Siz çörəyinizi yeyin... — deyərək iş otağına keçdi. Zəng eləyən Şəfi idi. Elməddini Əfsanənin tapılması münasibəti ilə təbrik elədi, sonra xəbər verdi ki, saat səkkizdə hamımız təcili orada (yerin adını demədi, çünki Elməddin «oranın» hara olduğunu yaxşı bilirdi) olmalıyıq.... Yarım saatdan sonra Şəfi onu gözləyir. Elməddin «yaxşı» deyib qayıtdı. Qadınlar xörəklərini yeyirdilər. O da gəlib tələsik getməli olduğunu bildirdi, bir neçə qaşıq plov yedi və durdu.

— Məni bağışlayın, — deyə Əfsənədən də (əsas Əfsanə idi) Simindən də üzr istədi, — mən gedirəm. Siz yaxşı-yaxşı, nuşcanlıqla şamınızı eləyin, oturun, dərdləşin. Mən işdi, gec gəlsəm nigaran qalmayın. İşə bax ki, neçə il ayrılıqdan sonra bir yerdə bir tikə çörək yeyəcəkdik, o da qismət olmadı.

— Yazan belə yazıb, Elməddin! — deyə Əfsanə qaşığı əlində donmuş halda cavab verdi. — Nə səndə günah var, nə də ki, məndə. — O, ah çəkdi. Simin Əfsanənin çox, lap çox bədbəxt olduğunu sanki indicə anladı və ona elə yazığı gəldi ki boğazı kilidləndi. Qaşığını yerə qoyub Əfsanəyə ürək-dirək vermək üçün:

— Üç dörd saatdan sonra gələcək, bacı, — dedi. Belə şeylər tez-tez olur. Bir də görürsən gedir, bütün gecəni qayıtmır. Səhərəcən yolunu gözləyirəm, yerinə qor duşmüş adam kimi çalıxıb-çapala-

yıram. — Birdən Simin anladı ki bunları demək istəmirdi, nə isə ayrı şey deyəcəkdi. Hə, xatırladı və əlavə elədi: — Darıxma bacı, bundan sonra həmişə bir yerdə çörək yeyəcəyik. Üçümüz də bir süfrə başında.

Elməddin razılıqla gülümsündü və qızını öpüb anasına verərək evdən çıxdı.

ON BEŞİNCİ FƏSİL

Balaca Əfsanə artıq oynayıb yorularaq anasının çarpayısında yuxuya getmişdi. Papaqlı gecə lampasını yandırmışdı Simin — otaq zəif, mavi işıq içində mürgü vururdu. Ara qapı açıqdı. Siminlə Əfsanə Elməddinin iş otağında kresloda əyləşib çay içə-içə söhbət edirdi. Təzə evin gəlini öz sadəliyi, mehribanlığı ilə köhnə evin gəlininin elə xoşuna gəlmişdi ki, elə bilirdi onu çoxdan, lap uşaqlıq vaxtından tanıyır. O, qəlbiaçıqlıqda, xeyirxahlıqda dayısı Həzrətgülün ikinci arvadı Nazənini xatırladırdı. Buna görə Əfsanə ilk dəqiqələrdə hiss elədiyi sıxıntı məngənəsindən azad olmuşdu, özünü sərbəst aparırdı. Hər kəlməbaşı ona «bacı» deyən bu cavan gəlini, həqiqətən, bacı sayırdı. Siminin danışığından aydın olmuşdu ki, Elməddin Əfsanə ilə olan macərasını yerli-yataqlı arvadına danışıb. Simin bu əhvalatları elə təfsilatı ilə bilirdi ki, sanki özü də orada — Ədnan qəryəsində imiş, hadisələr gözünün qabağında baş veribmiş. Bəli, Simin Əfsanənin həyatını, itkin düşdüyü günə qədər bilirdi. Ancaq ondan sonrası... Elməddin üçün də, Simin üçün də, elə kənd camaatı üçün də müəmma olaraq qalırdı, maraqlı bir kitabın açılmamış bir səhifəsi kimi. Simin bu müəmmanı Əfsanənin öz dilindən eşitmək istəyirdi.

— Can bacı, sənin həyatın lap dəsmal götürüb ağlamalıdı. İnanırsan, Elməddin bu neçə ili itiyi itmiş adam kimi yaşayıb. Onun dərdi mənə də sirayət edib — mən də gecə-gündüz sənin fikrini çəkmişəm. Özün bu evdə olmasan da, adın, sözün, söhbətin dilimizdən əskik olmayıb. Kişiyə təsəlli olsun deyə uşağın adını «Əfsanə» qoydum, sənin şəklini mən böyütdürdüm asdım divardan. Mən, cavan da olsam, başa düşürdüm ki, sən Elməddinin ürəyinin ən müqəddəs hissi, arzususan. Onu çox istədiyim üçün hissləri də, arzuları da mənə

əzizdi, bilirsənmi? Elməddini mən üç-dörd ildi tanıyıram, ancaq sən məndən də qabaq tanıyırsan, yaxşı tanıyırsan — o, gözəl insandı, Əfsanə. Qəlbi dağ qarı kimi, bulaq suyu kimi təmizdi, xeyirxahdı, mərddi, namuslu-qeyrətlidi. Onda padşah qururu var, bacı. Var-dövlətə əyilən-satılan deyil. Məndən qabaq biriynən evlənmişdi — milyoner qızı idi. Ancaq külbaş, Elməddinin qədrini, qiymətini bilmədi, burunladı. Ayrı kişi olsaydı, o var-dövlətin xatirinə əri yox a, nökəri də olmağa razı olardı. Amma o tüpürdü, çıxdı.

Əfsanə Siminin Elməddin barədəki söhbətini dinləyirdi; ona elə gəlirdi ki, Simin Əfsanənin nə zamansa tanıdığı, sevdiyi Elməddin haqqında yox, Allah haqqında danışır. Həm də elə aludəliklə, məhəbbətlə danışırdı ki, gözləri parlayırdı. Simin Elməddini sevirdi, pərəstiş eləyirdi, Əfsanənin sevdiyindən çox sevirdi. Qəlb ağrısı ilə olsa da, Əfsanə ürəyində bunu etiraf etməyə bilmirdi. Elməddin Simindən əvvəl də bir qadın alıb. Bu o qadındı ki, Əfsanə iş axtara-axtara onun qapısına gedib. O da, danışığından Əfsanənin Elməddinnn Əfsanəsi odduğunu bilib və onu... ağayi Siracəddinin yanına göndərib. Sonra da... Elməddinə Əfsanə haqqında nalayiq sözlər yazıb. Bəli, tale Əfsanəni təsadüfən Zərrintacla üzləşdirib. Bəli, Elməddin elə məkrli və alçaq təbiətli bir qadınla evlənib... Ancaq xoşbəxt olmayıb, xoşbəxt ola bilməyib. Neynək, əgər Simin onun Elməddinini bəxtəvər eləyibsə, nə eybi? Bu, daha yaxşı. O, xoşbəxt olmağa layiq insandı...

— Mən də onun xoşbəxtliyini istəmişəm həmişə, Simin. Sən hər şeyi təfsilatı ilə bildiyin üçün sənlə açıq, pərdəsiz danışa bilərəm. Sən mənim o qədər xoşuma gəlibsən ki, elə bilirəm doğmaca bacımsan. — Çox sağ ol, bacı...

— Biz bir-birimizi çox istəyirdik. Ancaq tale bizi ayırdı, özü də həmişəlik ayırdı. Bu illər ərzində həmişə onu düşünmüşəm, xatırlamışam. Özümdən çox, ondan nigaran olmuşam. Daima fikrimdə dolanıb ki, görəsən başına nə gəldi, halı-günü necədir? Bax, bu gün rahatlandım və nədənsə mən də xoşbəxt oldum. Ona görə ki, o, sənin kimi gözəl, ağıllı bir qadının əlinə düşüb, sən onu bəxtəvər eləyibsən. Kim bilir, bəlkə heç mən də, arada elə böyük məhəbbətin olmağına baxmayaraq, Elməddini sənin kimi bəxtəvər eləyə bil-

məzdim. Sənə, sənin ürəyinə baxıram və anlayıram ki, yox, sənin kimi bəxtəvər eləyə bilməzdim.

Əfsanənin onu belə qiymətləndirməyindən Simin gül kimi açıldı:

— Bəs necə oldu ki, sən birdən-birə qeybə çıxdın, bacı?... Qalsaydın bəlkə... — Əfsanə piyaləni götürüb çaydan iki-üç qurtum içdi, əslində o, vaxt qazanmaq istəyirdi, o günlərə fikrən qayıdıb xatırlamaq istəyirdi.

— Yox, qala bilməzdim, Simin... — o, köks ötürüb davam etdi — sən məndən xeyli cavansan, bəlkə də sən hələ belə şeylər barədə düşünməyibsən... Sənə deyim ki, qadın ürəyi sirli, müəmmalı, qəribə bir aləmdir. Hər qadın ürəyi yazılmamış, oxunmamış bir kitaba bənzər. Sən elə bilirsən ki, biz qadınlar öz ürəyimizin içindəkiləri, kənardan baxanlardan yaxşı başa düşürük? Yox, bacı. Çox vaxt biz özümüz də öz ürəyimizdən baş açа bilmirik. Doğru deyirsən, qalsaydım, bəlkə də Elməddini — «sındırardım», min işvə-nazla, bəlkə də bir sehrli sözlə, baxışla ona, qardaşının arvadı olduğumu unutdurardım, aradakı daş hasarı uçurardım. Amma qəlbimdə, o vaxta qədər görmədiyim, varlığından belə xəbərsiz olduğum bir hiss baş qaddırdı — bu, qurur hissi idi. Bu hiss məni enməyə, alçalmağa qoymadı. Bilirsən, kəbinimiz kəsiləndən sonra neçə gecə biz ikimiz bir otaqda yatdıq. Ancaq inanırsan ki, o mənə əlini də toxundurmadı, telimə belə dəymədi. O gecələr mən də qəribə hisslər keçirirdim. Mən o yorğan-döşəkdə Yusiflə yatmışdım. O yorğan-döşəkdə yenə mən vardım, ancaq Yusif yox idi. Elməddin soyunub yanıma gəlməli idi, o isə gəlmirdi. Hərdən anlaşılmaz qorxu canımı sarırdı. Düşünürdüm ki, Elməddin yanıma gələn kimi, qapı açılacaq və Yusif əlində qılınc içəri girəcək, mənə baxıb: «Vəfan bu imiş?» — deyəcək Elməddinə: - «Əcəb biqeyrət qardaşsanmış!» — söyləyəcək və hər ikimizi doğrayacaq. Halbuki, Yusifi çoxdan dəfn eləmişdik, yazıq çoxdan çürümüşdü də. Və üstündən xeyli keçəndən sonra, dərk elədim ki, Elməddin düzgün hərəkət eləyib, məni də günaha batırmayıb, özünü də. Mən indi Yusifin ruhu qarşısında günahkar deyiləm. Yəqin Elməddin də. Çünki bizim qadınlarımızın belə adəti var: ər evinə çadra ilə gəlirik, ər evindən kəfənlə çıxırıq...

— Bu çox gözəl adətdi, bacı.

— Bəli, qadın namusu hər şeydən qiymətlidi, Simin. Namusuna xəyanət eləyən — özünə xəyanət eləyir. Dünyada alnıaçıq, uzüağ yaşamaqdan böyük səadət tanımıram mən. Yoxsul olmaq, yarıac-yarıtox yaşamaq eyib deyil, ancaq namussuz yaşamaq üfunət içində yaşamaq kimi bir şeydir. Rişxəndli, tənəli baxışlar altında ömür sürməkdənsə, ölüm min dəfə yaxşıdır, bacı. Ərinin namusunu, lap ölmüş olsa belə, qoruyan qadın mənim aləmimdə hər cür ehtirama layiqdir.

— Düz deyirsən, bacı,

— Nə isə, o qürur hissi mənim bütün vücuduma bir vəlvələ saldı və mən çox istədiyim, gözlərimin giləsi hesab elədiyim Elməddindən qəlbən küsdüm, incidim. «Gözümün giləsi» dedim, yadıma düşdü. O vaxt Elmi, mən ona «Elmi» deyirəm, xətrinə dəymir ki, Simin?.. Dilim öyrəşib, bacı, məni qınama, sən allah. — Yox, nə danışırsan, elə mən də Elmi deyirəm ona.

— Hə, o vaxt mənə bir şer yazmışdı. İndi də yadımdadı. Deyirdi ki:

Sehrsən, əfsunsan, tanrısan, nəsən?
Varmısan, yoxmusan! — inanmaq olmur.
Eşqinin oduna yanmaq nə xoşdur!
Amma hicranına dayanmaq olmur.

Bağrında gəzdirər sevən sevəni,
Gözümün içinə qoymuşam səni,
Elə məst edibsən, ay gülüm, məni,
Məstlik yuxusundan oyanmaq olmur.

Məhəbbət əzabla əkiz yaranıb,
Həsrətin əlilə saçım daranıb,
Vücudum kül olub, ürəyim yanıb —
Daha özgə oda heç yanmaq olmur.

Şeri eşidən kimi Simin ayağa qalxdı. Əfsanə təəccüblə:.

— Hara gedirsən, Simin? — deyə xəbər aldı.

— O şeri mən də oxumuşam.

— Sən də oxumusan?

— Hə. Elminin kitabında çıxıb. Sən bilmirsən? Axı Elminin kitabı çıxıb.

— Yox, bilmirəm. Hardan bilərdim, bacı?

Simin gedib divarın dibindəki kitab şkafından balaca bir kitab çıxartdı, gətirib Əfsanəyə verdi:

— Bax, budu: «Əfsanəli mahnılar!» O şer də burda var...

— «Əfsanəli mahnılar»?

— Hə.

Əfsanə göy cildli kitabı aldı, üstünü oxudu: Elməddin. «Əfsanəli mahnılar»... Sonra qeyri-iradi bir hərəkətlə kitabı dodaqlarına yaxınlaşdırıb öpdü, sinəsinin üstünə qoydu.

— Elə o vaxtdan yazırdı. Düzdü, mənə vermirdi, ancaq mən taxçada gizlədiyi dəftərçəsini xəlvətdə götürüb oxuyurdum.

— İndi, maşallah, lap çox yazır. Ruznamələrdə, jurnallarda çap eyləyirlər, radioda oxuyurlar...

— Düzü, mən ondan əlimi tamam üzmüşdüm. Ancaq lap bu yaxınlarda Elməddinin radio ilə verilən şerlərini eşitdim. Bilməzsən, nə qədər sevindim. Köhnə dərdlərim yenə qövr elədi, keçən xoşbəxt günlərim yadıma düşdü. Elməddin öz qəmli gözlərilə, dərdli, ahnaləli vücudu ilə gəlib durdu gözümün qabağında; xəlvət bir guşəyə çəkilib doyunca ağladım. Radioda oxunan şerlərin çoxunu hələ o zaman mənə yazmışdı. Əzbərləmişdim o vaxt. Təzədən eşidəndə dəli oldum. Məni qınamışdı, onu atdığımı, unutduğumu düşünüb tənəli sözlər demişdi. Bir bəndi indi də yadımdadı:

Taleyimin üzü sərtdir,
Eşqindən dönən namərddi.
Unudulmaq yaman dərddi,
Gülüm, başına gəlməsin.

Bu sözləri radioda məlahətli səslə şer oxuyan qızın dilindən təzədən eşidəndə varımdan yox oldum və o anlarda həqiqətən

unudulmağın yaman, dözülməz dərd olduğunu dərindən-dərinə bir daha başa düşdüm və bədənim, ürəyim gözəgörünməz bir odun içində zəbanə çəkib yandı. Ancaq, mənmi unutmuşdum, omu? Eh, Simin, nə isə...

— O şer də bu kitabda var.

— Yox a?

— Hə.

Əfsanə gözləri dolmuş halda ah çəkdi və qəhərdən boğula-boğula astadan söylədi:

— Mən çox şadam, bacı. — O, kitabı vərəqləmək istəyəndə Simin yalvarıcı səslə:

— Sonra oxuyarsan, — dedi. — Danış, sən allah. Elə maraqlı danışırsan ki, elə bilirəm nağıla qulaq asıram.

Əfsanə yenə kitabı sinəsinin üstünə qoyub özünü ələ alandan sonra təbəssümlə davam etdi;

— Onu deyirdim axı. Elməddindən ürəkdən küsdüm, incidim. O zaman düşünürdüm ki, bu da məhəbbət. «Sevirəm, sənsiz dünya mənim üçün heç nədir!» — deyən adam indi mənə belə etinasızlıq göstərir, mən soyunmuşam, yerimə girmişəm, bu isə gəlmir. Təhqir olunmuş hesab elədim özümü. Təhqir edilmiş qadın, sevən-sevilən bir qadın heysiyyətinin tapdandığının nə demək olduğun anlamaq üçün o hissləri, allah göstərməsin, gərək adam özü yaşasın. Həyat gözlərimdə bütün mənasını itirdi; ruhən, qəlbən öldüm. O gecələrdə Elməddin məni oda atıb diri-diri yandırsaydı, bundan min dəfə yaxşı olardı, Utandığımdan Səbihə arvada da heç nə deyə bilmirdim. Dərdimi içimdə çəkirdim, yana-yana, qovrula-qovrula. O qürur məni Elməddinə yanaşmağa da qoymurdu. O vaxt Elməddinin bu hərəkəti mənə qəribə və anlaşılmaz görünürdü. Ancaq sonralar başa düşdüm ki, məhəbbətdən də böyük, müqəddəs hisslər varmış. Bu, qardaş namusu, ana-bacı namusu, insan ləyaqəti imiş. Nə isə, təhqir olunmuş qadın mənliyimi alçaltmamaq üçün ürəyimdə hər şeylə vidalaşdım; həyatla, arzularımla... Özümü Daşlı çaya atıb məhv eləmək, birdəfəlik bu dünyanın əzablarından — axı mən gözümü açandan nə gün görmüşdüm ki? — qurtarmaq qərarına gəldim və Elməddinə əl boyda bir kağız yazıb səhəngi götürərək coşub-daşan, qurbanlıq

istəyən Daşlının sahilinə gəldim. Ağlayırdım, göz yaşlarım yanaqlarımı yandırırdı. Çayın qırağında səhəngi yerə qoyub oturdum. Qıjıltı ilə axan, iri daşları baş-başa vurub şaqqıltı ilə aparan lilli sulara baxdım. Su elə sürətlə axırdı ki, baxışlarımı aparırdı. Göz yaşı tökə-tökə bir neçə andan sonra vücudumun o quduz suların ağuşunda olacağını təsəvvür eləyib hönkürtü vuranda... arxa tərəfdən səs eşidib qanrıldım. Başım üstə ucaboylu, uzun tumanlı, başına altdan araqçın qoyub üstdən cuna bağlamış tanımadığım bir qadın dayanmışdı. Yaşı altmışı haqlamış olardı, üzü qırışlarla örtülmüşdü, araqçının altından çıxmış birçəkləri dümağ idi. Bizim qəryənin adamı deyildi. Ondan azca aralı bir xırda araba dayanmışdı. Arabaya hündür, boz rəngli Həmədan ulağı qoşulmuşdu. Arabada 13—14 yaşlı bir oğlan oturub bizə sarı baxırdı. Arvadın əlində paxır, qara satıl vardı. Görünür, çaydan su götürüb ulağa vermək istəyirdi. O, ağladığımı görüb üzümə diqqətlə baxdı: yəqin görkəmimdəki biçarəlik, yazıqlıq ona təsir eləmiş olmalı idi ki, həlim bir səslə:.

— Niyə ağlayırsan, qızım? — deyə xəbər aldı. Mən hıç-qırığımda davam edərək cavab vermədim. İki-üç saniyə susub heç nə söyləmədi, çayın sahilinə enib satılı su ilə dolduraraq geri qayıdanda yenə yanımda ayaq saxladı, yaş əlləri ilə qaşlarını sığalladı və arabada oturmuş uşağı səslədi:

— Ay bala, ay Şahin, gəl suyu apar ver o heyvan içsin...

Oğlan arabadan atılaraq qaça-qaça yanımıza gəldi, satılı götürərək mənə ötəri nəzər salıb geri qayıtdı.

Arvad məni diqqətlə süzdükdən sonra:

— O gözlərinə heyfin gəlsin, qızım, ağlama! — dedi. —Bu dünyanın işi ağlamaqla düzələn deyil, bala.

Tanımadığım bu yad qadının sözləri elə bil məni silkələdi, ayıltdı, Özümü öldürmək istəyirəm? Ağlayıram? Guya mən ölsəm dünya qara keyəcək? Ağlasam, xoşbəxt olacağam? Və birdən beynimdə, ürəyimdə belə bir fikir yarandı ki, başımın üstündə dayanan qadın Allah-taala tərəfindən məni bu dözülməz həyatın, çəkilməz işkəncələrin əlindən xilas etmək üçün göndərilmiş bir məxluqdur. Səsindən, danışığından yaxşı adama oxşayırdı. Hər halda o ilk anlarda mənə belə gəlirdi və sonrakı hadisələr də mənim birinci

təəssüratımın yanlış olmadığını sübuta yetirdi. Fikirləşdim ki, qıjıltı ilə axan o suların qoynunda ölməkdənsə, daşlara çırpılıb parça-parça olmaqdansa, bu qəryədən çıxıb getmək, uzaqlaşmaq min-dəfə yaxşıdı, Həzrətgülün ocağının başına qayıtmaqdan, Elməddinin o rəhmsizliyinə, dönüklüyünə, biganəliyinə dözməkdən çox-çox yaxşıdı. Qoy axtarsın Elməddin məni, qoy axtarıb tapmayandan sonra yanıb-yaxılsın, bir dizinə, bir başına vursun, əli heç yerə çatmasın. Gedəcəyəm, bu qarı məni aparsa gedəcəyəm, qulluqçusu olaram, bircə qarın çörəyi yəqin ki, məndən əsirgəməz. Ağlıma gələn bu fikri nə zaman dilimə gətirdim, heç bilmirəm:

— Xala, — dedim — mən yetim bir qızam, dünyada kimim-kimsənəm yoxdu, məni özünlə apar, xala. Mən burda qalsam, öldürəcəyəm özümü, xala. — Bir an sonra belə söylədiyimə təəccüb elədim, ancaq daha demişdim, ürəyimin sözünü demişdim. Arvad göz yaşları içində dediyim bu sözləri eşitdikdə qarşımda çömbəldi, uzun, arıq, qara damarlı görünən əlini başıma çəkib:

— Ağlama, qızım! — söylədi və mən o səsdə qəribə bir doğmalıq, mehribanlıq duydum; elə bildim, möcüzə oldu, bu, tutqun bir xatirə kimi yaddaşıma həkk olunub qalmış anamdı — hardansa ağır gündə olduğumu hiss eləyib dadıma çatmaq üçün gəlib. Düzdü, qocalıb; saçları ağarıb, mənim xatırladığım anamdan onda zahirən heç bir əsər-əlamət yoxdu — təkcə səsi... səsində bir analıq vardı. Başqa bir dünyadan gəlmiş adama oxşayırdı həqiqətən. O öz qəribə səsilə təkrar elədi:

— Ağlama, qızım. Adam canına qəsd eləməz. O canı sənə verən kişi var, nə vaxt lazım bilsə, onda da o canı səndən alacaq. İntihar acizlərin işidi, qızım, dözümsüzlərin işidi. Deyirsən bu qəryədə heç kəsin yoxdu? Bəs sən burda neyləyirsən, bala? Bu səhəng nədir bəs?

Mən ani olaraq duruxdum və qarının nə demək istədiyini o dəqiqə başa düşdüm, başıma gələnləri çox qısa şəkildə ona söylədim. Arvad fikrə getdi, baxışlarını qaldırıb qəryəyə sarı boylandı və:

— Hə, belə-belə işlər, qızım. Sənin başın bəlalı imiş, — dedi. — Bəs səni axtarmazlar?

— Axtarmazlar, xala. Kim axtaracaq məni, kimə lazımam? Ən çox istədiyim adamım o idi — mən Elməddinin adını da dilimə gətirmədim — o idi, o da mənimlə belə rəftar elədi. Mən ona lazım deyildim daha. Lazım olsaydım... — Mən təzədən hönkürtü vurub ağlamağa başladım. O, elə bil, hər şeyi ölçüb-biçirdi, düşünüb götür-qoy eləyirdi. Bu anlar mənə nədənsə çox uzun və üzücü göründü. Nəhayət, qarı dilləndi:

— Razısansa, bizimlə gedək. Səni saxlaram bala, qalarsan bizdə, sən də olarsan mənim balam.

Sevincimdən:

— Çox sağ ol, ay xala! — sözlərini necə dediyimi indi də xatırlamıram.

— Amma çox uzaqda oluruq, qızım.

— Eybi yoxdur, bu yerlərdən nə qədər uzaq alsaq, o qədər yaxşı olar.

— Hə, onda dur, dur gedək, yolçu yolda gərək.

Biz ayağa qalxaraq arabaya sarı gəldik. Oğlan satılı uzunqulağın qabağından götürdü və dal təkərin üstündəki dirsəyə keçirtdi. Mənim də arvadla bərabər arabaya mindiyimi görəndə nə isə heyrətlənmiş halda qəşəng, uzun kirpikli qonur gözlərini dolandırıb mənə ötəri nəzər saldı, ancaq heç nə demədi.

— Sür, bala, — dedi arvad, — bu qız da bizimlə gedəcək. Kimsəsizdi.

Oğlan dönüb təzədən mənə baxdı; mənə deyəndə, təkcə yaşlı gözlərimə baxdı və tez də üzünü çevirib uzunqulağa şaqqıltılı bir qırmanc çəkdi.

Arvad arabada, dizlərinin yanında mənə yer verəndən sonra:

— Nəvəmdi, — dedi, — yanımda qalır...

— Allah saxlasın! — dedim.

..Adı Reyhan olan bu qadının danışığı qəribə idi, elə bil, bizim millətdən deyil. Özbək də deyildi, türkmən də deyildi, onlardan bizim tərəflərdə çox görmüşdüm, bəzi sözlərini də öyrənmişdim. Reyhan arvadın danışığı tamam ayrı cür idi, sözləri xüsusi ləhcə ilə tələffüz eləyirdi, kəlmələri axtara-axtara danışırdı. Nəvəsi ilə hərdən öz dillərində söhbət eləyəndə, mən zənnimdə yanılmadığımı başa

düşdüm. Reyhan anamın — doğrudan da o, mənə ana oldu sonralar — uzun, iki gündən çox çəkən yolumuzda elədiyi söhbətdərdən məlum oldu ki, o əslən türkdü, dediyinə görə ulu babaları Qarabağın Şişə şəhərindən köçüb gəliblər. Qarabağ deyilən qəryəni də onlar salıblar. Qəryə çox səfalı, bağ-bağatlı bir qəryədi. Yol qırağında yerləşir. O qəryədən başqa burda iki başqa türk qəryəsi də var. Birinin adı Nənəkçidi[1], o birinin Təpə[2]. Bu üç qəryənin camaatı eyni millət olduğuna görə axtarıb bir-birini tapıblar. Gəl-getləri, qohumluqları var.

Bu qəryələrin camaatı çox təmiz, qeyrətli, qonaqpərvər bir camaat idi. Birinin toyu hamının toyu idi, birinin yası hamının yası idi. Qızlarını öz oğlanlarına verərdilər, bizimkilərdən qız almazdılar. Qarabağ qəryəsinin bir ağsaqqalı vardı — ucaboy, saqqalı, dümağsaçlı bir kişi idi. Adına Adışirin ağa deyərdilər. Onun sözü qarabağlıların böyüyü üçün də, kiçiyi üçün də qanun idi. Reyhan anamın palçıqdan tikilmiş iki çeşməli bir evi, beş-on qoyun-keçisi, bir uzunqulağı, bir çəribə[3] qədər də torpağı vardı. Əri yoxdu, lap cavan vaxtı ölmüşdü. Saçının birini ağ, birini qara hörüb ərə getməmiş, tək oğlunu böyütmüşdü: üç il əvvəl oğlu Talıb sil[4] xəstəliyindən vəfat etmiş, gəlini Sona isə çox sevdiyi ərinin ölümündən sonra havalanmış, özünü yandırmışdı. Reyhan arvad nəvəsi Şahinlə bir damın altında tək qalmışdı. Güzəranları babat idi — südü, yağı, pendiri, qaymağı olardı Reyhan arvadın həmişə. Qarabağ camaatının acı-toxu bilinməzdi. Kimin nəyi yoxdusa, olanlar verərdi.

Mən Reyhan arvadı ömrüm boyu unutmayacağam, Simin. Gözəl, mehriban insan idi — öz yaxşılığı ilə, qayğıkeşliyi ilə o, mənə Səbihə arvadı da unutdurmuşdu. Mənə qızım deyirdi həmişə. Onlarda qaldığım illər ərzində bircə dəfə də xətrimə dəyən söz çıxartmadı dilindən. Mən də ona övladlıq elədim, evin, həyat-bacanın bütün işini özüm görürdüm, əlini ağdan-qaraya vurmağa qoymurdum. Şahinlə əl-ələ verib bütün işləri görürdük. Şahin də, uşaq olmağına

[1] Kabilin qərbində təbrizlilərin yaşadığı kəndin adı.
[2] Kabilin Daruləman rayonunda təbrizlilərin yaşadığı kəndin adı.
[3] Çərib — 0,2 hektar sahədir.
[4] Sil — vərəm xəstəliyi.

baxmayaraq, çox ağıllı, xoşxasiyyət bir oğlan idi. Dərslərini yaxşı oxuyurdu şagirde-dərəcəye-əvvəl[1] hesab olunurdu. Özü də qəşəng idi — qapqara, şəvə kimi saçları, qonur gözləri vardı. Elə utancaq idi ki, heç olmayan kimi. Qızdan betər utancaq idi. Mənimlə danışanda tər tökərdi. Nənəsi onun bu xasiyyətindən söz düşəndə heyfsilənə-heyfsilənə deyərdi: «Bu uşağın axırı nə olacaq, heç bilmirəm. Xalqın uşağı gözdən tük qapır, bu isə, biri ilə danışanda az qalır üzünə ələk tutsun».

Orada yaşadığım müddətdə camaatla qaynayıb-qarışdım; hamı nədənsə mənə hörmət eləyirdi. Bilmirəm qərib olduğuma görə idi, nə idisə, uşaqdan-böyüyə bütün Qarabağ camaatı mənə bacısı, qızı kimi baxırdı. Dəlisov cavanlardan bir-ikisi adətləri xilafına, mənə evlənmək də istəmişdi razı olmamışdım. Demişdim mən ərə getməyəcəyəm, vəssalam. Çəkilib oturmuşdular yerlərində.

Reyhan arvad başıma gələn əhvalatı bilirdi deyə məni darıxmağa qoymurdu, söhbətlə başımı qatırdı, dərdimi unutdururdu. Əvvəllər çox darıxırdım, ürəyim hövl eləyirdi, istəyirdim ordan da baş götürüb qaçam. Ancaq hara, kimin yanına? Belə anlarda Reyhan arvad qəmimi-ələmimi gözümdən oxuyur təsəlli verirdi... Elə bilirdim anamdı — yanımdadı. Uşaq kimi ona sığınıb ağlayırdım, ürəyim boşalırdı, təskinlik tapırdım. Qərəz, beləcə yaşayırdım o mehriban ailədə, o mehriban camaatın arasında. Elə yaşayacaqdım da ömrümün axırına qədər. Ancaq gözlənilməz bir hadisə üz verdi, Simin!

— Amman allah, yenə nə oldu, bacım?

— Hə, gözəl günlərin birində, keçən il elə bu vaxtlar birdən hiss edədim ki, Reyhan arvadın gözəl nəvəsi, o qız kimi utancaq oğlan mənə vurulub.

— Elə şey olmaz! O ki səndən çox kiçikdi?

— Mən də onu həmişə uşaq hesab eləyirdim. Mən onlara gələndə onun on üç, on dörd yaşı ancaq olardı. Amma axı aradan illər keçmişdi, Bığ yeri qaralmışdı, səsi kallaşıb dəyişmişdi. On ikinci sinifdə oxuyurdu. Lakin mən yenə Şahini uşaq sanırdım, sən deyən

[1] Birinci dərəcəli əlaçı şagird.

kimi. Ancaq gördüm elə vurulub, elə vurulub ki, heç özündə-sözündə deyil. Bilirsən, sevmək adamın öz əlində deyil ki. Sevgi-məhəbbət xəbərsiz-ətərsiz, icazəsiz-filansız gəlir, bacım. Şahin mənim gözümdə uşaq idi, ağzından süd iyi gəlirdi hələ. Demək olar ki, gözümün qabağında böyümüşdü. Onu, kiçik qardaş hesab eləyirdim özümə. Ancaq onun mənə vurulduğunu hiss eləyəndə əvvəl gülmək tutdu məni, buna bir əyləncə kimi, başqarışdıran bir oyun kimi baxdım. Düzdü, üzünə heç nə vurmurdum, işarə belə eləmirdim. Lakin içəridə, ürəyimdə nə isə qəribə bir ləzzət duyurdum. Özümü elə əvvəlki kimi sərbəst aparırdım, deyirdim, gülürdüm. Mən dəyişməmişdim, necə vardımsa eləcə idim. Dəyişən o idi. İri, qonur gözləri tez-tez yol çəkirdi, sinəsindən odlu-alovlu ahlar qopurdu. Yeməyindən, yatmağından olmuşdu yazıq uşaq.. Dərsləri başına girmirdi, oxuyurdu, özünü öldürürdü, ancaq yadında heç nə qalmırdı. Bostanda şum eləyəndə, tağlara arxdan su verəndə, ot biçəndə... bir də gördüm ki, kənarda dayanıb həsrətlə mənə baxır. İlahi, o gözlərdə elə böyük və dərin bir həsrət vardı ki, onu heç nəylə, hətta mən özüm də yox eləyə bilməzdim, silə bilməzdim. Ürəyi sanki gözlərində yanırdı, qəlbinin yanğısı bəbəklərində şölələnirdi, səssiz-səmirsiz kirpiklərini isladan göz yaşları olmasaydı, bəlkə də... nə bilim, kor olardı yazıq. Sadəcə baxırdı, köks ötürürdü, hisslərini gizləməyə, ört-basdır etməyə çalışırdı, çünki utanırdı. Ancaq gözləri onu satırdı. Axı «göz ürəyin aynasıdı» deyirlər. Bu hikmətə mən onda inandım, bacı...

Məhəbbət dilini lal eləmişdi — mənə heç nə deyə bilmirdi. Elə içəridə közərə-közərə, tüstülənə-tüstülənə qalmışdı.. Nənəsi Reyhan da Şahinin nəsə gizli mərəzə tutulduğunu hiss eləyirdi, nigarançılıq çəkirdi, lakin ağlına gətirmirdi ki, o, bu hala eşqin ucundan düşüb. Mən də Reyhan nənəyə heç nə demirdim; arvad çox ciddi idi belə məsələlərdə, hətta çox sərt idi. Bilsəydi, Şahini yaxşıca kötəkləyərdi, gününü göy əskiyə düyərdi. Bunu isə mən istəmirdim. Şahinə yazığım gəlirdi. Bilirsən, sən özün də indi yaxşı başa düşərsən ki, sevən adamın ürəyi şüşə kimi kövrək olur, bir ehtiyatsız sözdən sına bilir. Mən artıq bu hikməti yaxşı başa düşmüşəm, anlamışam ki, səni çox, canından, gözündan, ömründən çox sevən adama gərək heç vaxt zülm eləməyəsən; zülm eləsən, onun ahı gec-

tez səni tutar, heç zaman xoşbəxt ola bilməzsən, bacı. Bu, məhəbbətin yazılmamış, əsrarəngiz bir qanunudur, Simin. Şahin mənə qəlbini açmasa da bütün varlığımla hiss eləyirdim ki, o məni ilahi, qeyri-adi bir məhəbbətlə sevir; onun məhəbbətində şəhvani heç nə yox idi, bilirdim. O heç özü də anlamırdı ki, məni niyə sevir, nəyimi sevir və bu sevgi onu xoşbəxt eləyər, ya bədbəxt eləyər? Bunu da düşünmürdü o! Ancaq sevirdi, mən onun üçün əlçatmaz bir varlıq idim — yanında idim, ancaq nə əli çatırdı, nə də bir söz deyə bilirdi. Mən kim idim? Bədbəxt olmuş, sevdiyindən əli həmişəlik üzülmüş, sevdiyi tərəfindən rədd edilmiş nakam, sınıq ürəklə yaşamağa məcbur olmuş bir gəlin idim. Bir üzüm qız idi, bir üzüm gəlin. Mənim də ürəyim vardı, hisslərim vardı, mən də insan idim. Yer üzündəki bütün insanlar kimi, mənim də sevmək, sevilmək istəyim vardı ürəyimdə. Ancaq bu arzular, bu duyğular həyatın amansız əlləri ilə məhv edilmişdi, tar-mar olmuşdu, bacım. Şahinin mənə vurulduğunu bilən günəcən mən cansız cəsəd kimi, kölgə kimi yaşamışdım. Mənim ancaq dərdli, kədər dolu, göz yaşlarından ibarət bir keçmişim vardı, mən bu keçmişimlə yaşayırdım. Mənim sabahım yox idi, gələcəyim yox idi, bacı. İstəmirdim də. Həyatdan, dünyadan naümid olan bir insanın qəlbi təzədən bir də çətin dirilir, arzularla dolur, gözləri nurlanır! Ancaq Şahin — o anlaşılmaz hisslərinin əlində ixtiyarsız yanıb qovrulan Şahin, özüm də duymadan mənim qəlbimdə nə isə başaçılmaz, «qarışıq bir dünya yaratdı; məni təzədən bu aləmə qaytardı. Yetim olsam da, bu qəryədə doğma, munis bir adamım olmasa da, dünya gözlərimdə gözəlləşməyə başladı. Daha tez-tez keçmişimi yad edib göz yaşı tökmürdüm, qəmli, pərişan üzüm yavaş-yavaş gülmək öyrənirdi. Ona görə yox ki, mən də Şahini istəyirdim, onun mənim ömür-gün yoldaşım olacağını heç ağlıma belə gətirmirdim.. Yox, düzü, bu fikirlərdən çox uzaq idim. Sadəcə olaraq Şahin mənim üçün maraqlı bir sinema[1] idi, kitab idi —baxırdım, oxuyurdum və dərdlərimi unudurdum. Səndən gizləmirəm: hərdən ürəyimdə ona qarşı sevgiyəbənzər bir hiss oyanırdı, istəyirdim onu bağrıma basıb öpəm, kədərli, nəmli gözlərini busələrə qərq

[1] Sinema — film.

edəm. Çünki o, böyük məhəbbətin, istəyin mükafatı ancaq bu ola bilərdi. Lakin özümü saxlayırdım, «olmaz» — deyirdim o, uşaqdır, o başa düşməz məni, gözündə alçalaram, pis qadın təəssüratı yaranar onda mənə qarşı. Və sonra gərək mən ölüb yerə girəm. «Olmaz!» — deyirdim, Yusifin ruhu məndən inciyər. «Olmaz!» — deyirdim, mən Elməddinin kəbinli arvadıyam — baş yastığa qoymasaq da, o kişinin adı var üstümdə. «Olmaz!» — deyirdim, — məgər qadın namusunu çöldə qoymalıdı, hər «sevirəm» deyənin ayaqları altına atılmalıdı? Qadın, namusunu hər kəsdən artıq özü üçün qorumalıdı, çünki namusdu qadının ən böyük var-dövləti, mənliyi, qüruru. Alın açıqlığı namusudu qadının!

— Axırı nə oldu, bacı? — deyə Simin maraqlı bir nağıla qulaq asırmış kimi, hövsələsini basa bilməyib Əfsanəni mətləb üstünə qaytarmaq istədi. Əfsanə gözlərini dolandırıb divardakı şəklinə baxaraq ah çəkəndən sonra qəmli-qəmli sözünə davam etdi:

— Lap yaxınlaracan, mən şəhərə gələn gündən bir-iki gün qabağacan elə beləcə yaşayırdım. Şahin sevməyində, sevə-sevə susmağında idi. Mən də, düzü, son vaxtlar çox fikirli olmuşdum, bu işin axırının yaxşı nəticə verməyəcəyini hiss eləmişdim. Qorxu, qəribə bir qorxu düşmüşdü canıma. Şahindən — onun qəmli gözlərindən, ağlayan sifətindən, adamı uzaqdan-uzağa yandırıb-yaxan ahlarından qorxmağa başlamışdım. Hərdən mənə elə gəlirdi ki, özüm də hiss eləmədən qarış-qarış, addım-addım gedirəm, gedirəm Şahinə sarı. O uşaq sehrə dönüb, əfsuna dönüb çəkir məni özünə tərəf. Ondakı gücə, dözümə, qüdrətə heyrət eləyə-eləyə özüm əriyirəm, gücsüzləşirəm və «getmirəm», «istəmirəm» deyə-deyə gedirəm. Belə çarpaşıq, dolaşıq hisslər aləmində yaşadığım günlərin birində qəribə bir hadisə oldu. Gecəyarıdan keçmişdi. Çardağın üstündə yatmışdım. Əslində yatmamışdım, gözlərimə yuxu getmirdi. Baxışlarımı ulduzlara zilləyib düşünürdüm, göylərdə öz ulduzumu arayırdım. Qəribə idi ki, onu tapmaq, milyon ulduzun içində öz ülkərimi görmək, onun işıqlımı, sönükmü olduğunu görmək arzusu baş qaldırmışdı ürəyimdə. Ulduz çox idi, adı yox sanı yox. Hansının üstündə qərar tutub: «O mənim ulduzumdu!» — deyəydim?

Elə bu vaxt çardağın qırağında xışıltı eşitdim. Kimsə nərdivanla çardağa çıxırdı. Ürəyim əsdi əsim-əsim. İstədim qışqırıb hay salam; Gözucu baxanda Şahinin yavaş-yavaş yuxarı qalxan başını gördüm və bir az toxdadım. Ancaq ürəyimin guppultusu qulaqlarımda səslənirdn yenə. Düzü, o an bilmədim sevinirəm, ya qəzəblənirəm — bunu ayırd edəcək halda deyildim. Amma bu yadımdadı ki, hələ qəryəmizdə olarkən, Elməddinlə nigahımız oxunandan sonra yataq otağımda yerimə uzanıb onu gözləyərkən keçirtdiyim hisslər idi bu an yaşadığım hisslər. Bir az qorxu vardı, bir az sevinc vardı onda. Elə bil, səsim batmışdı, elə bil, yorğan-döşəyimə yapışmışdım. Elə bil, düşünmək qabiliyyətimi Allah əlimdən almışdı. Sadəcə onunla göz-gözə durmaqdan qorxaraq gözlərimi yumdum. Yox, özüm yummadım, sanki əfsunlu nəfəsi dəydi üzümə, gözlərim öz-özünə qapandı. Heç nə görmürdüm, ancaq elə bil, min yerdən gözüm vardı, mini də Şahini görürdü. Ayaqlarının ucunda, ehtiyat edə-edə yaxınlaşdı; başımın yanında dizlərini yerə qoyub çömbəltmə oturdu. Yazıq sinədolusu belə nəfəs almağa qorxurdu elə bil. Bunu yəqin məni oyatmamaq üçün eləyirdi. Nəfəsini də sinəsində dustaq eləmişdi yazıq... Ay işığında üzümə baxırdı. Anlar, dəqiqələr sarsıntı içində əriyib gedirdi, o isə, donmuş kimi, daşa dönmüş kimi lal-dinməz başım üstə oturmuşdu. Nəfəsinin üzümdə gəzdiyindən hiss eləyirdim ki, əyilib mənə baxır — yəqin qaşlarıma, gözlərimə, balış üstünə tökülmüş tellərimə baxırdı. Bu nə idi? Sifətimə isti yağışmı yağırdı? Mən ömrümdə isti yağış yağdığını görməmişdim. Yox, bu, yağış deyildi, o idi, Şahin idi, başım üstə durub ağlayırdı. Mən qadınam, sənə deyim ki, o an mən əsl xoşbəxtliyin nə demək olduğunu anladım. O qədər sevdiyimə baxmayaraq. Elməddin də məni heç vaxt belə xoşbəxt eləməmişdi, eləmədi də yəqin ki, heç vaxt da eləyə bilməzdi: o anda nə isə dillə izah etmək mümkün olmayan ilahi bir səadət vardı, bir daha təkrar olunmaz, o şirinlikdə, o gözəllikdə heç vaxt təkrar olunmaz. O isti göz yaşı o aylı gecəni mənim ömrümün ən əziz gecəsi kimi beynimə, xatirəmə həmişəlik yazıb. Onu heç nə, hətta ölüm də, hətta Şahin özü də poza bilməz...

Sonra bir titrək əlin qorxa-qorxa tellərimdə gəzdiyini duydum, sonra bir cüt isti dodağın alnıma ehmalca toxunduğunu hiss elədim...

Və sonra o, ayağa qalxdı, şıqqıltı salmamağa çalışaraq, sakit addımlarla nərdivana sarı getdi... Mən yaxşı ki, məst olmuşam, özümdə olmamışam, yoxsa, Allah göstərməsin, dəhşət ola bilərdi, onu geri çağıra bilərdim, bağrıma basıb əzizləyə bilərdim, xoşbəxt edə bilərdim — özümün sonrakı bədnamlığımı, bədbəxtliyimi düşünmədən bunları eləyə bilərdim. Sonralar başa düşdüm ki, belə sehrli anlar insan həyatında bir dəfə olur — ya udursan, ya uduzursan...

Mütəəssir olmuş Simin ağlamaqdan özünü güclə saxlayaraq dedi:

— Bədbəxt çox sevirmiş səni.

— Hə, çox sevirdi. Bu, onun ilk məhəbbəti idi, özü də uğursuz ilk məhəbbəti. Ömrü boyu bəsidi. Ömrü boyu yadına düşdükcə yanacaq, lap qocalıb saç-saqqalı ağaranda da xatırlayıb kövrələcək, Simin. İlk məhəbbət heç vaxt unudulmur...

— Sonra nə oldu bəs, bacı?

— Sonra? Sonra heç nə... Səhərəcən ilan vuran yatdı, mən yox. Səhər açılanda mənim qərarım qəti idi — burda qala bilməzdim. Ya qalıb bədnam olmalı, ya da getməli idim. Mən ikincisini seçdim. Elməddinin xəyalı burda mənə kömək oldu; iki gün əvvəl radio ilə şerlərini dinləmişdim. Fikirləşirdim ki, şəhərdədi, necə olsa tapa biləcəyəm.

— Bəs necə ayrıldınız, bacı?

— Bu, müsibət idi, Simin. Səhər çay-çörək süfrəsi arxasında oturanda Şahin üzümə baxa bilmirdi. Yəqin utanırdı. Ancaq arzusuna çatmış adam kimi, kefi kök idi. İki stəkan şirin çay içdi, yarım dənə təndir çörəyi yedi. Reyhan arvad da bunu görüb sevinirdi, çünki Şahin nə vaxtdan belə iştahla çörək yeməmişdi. Mən ona çox baxırdım, gözlərinə tamaşa eləmək istəyirdim — onun qonur gözlərindəki xoşbəxtliyi görüb rahat getmək istəyirdim. Ancaq o mənə baxmağa cəsarət eləmirdi. Mən onun sağ əlinə baxırdım — o əl axşam, ay işığında mənim tellərimi sığıllamışdı. Mən onun gözlərinə? baxırdım — o gözlər üzümə isti yağış çiləmişdi. Mən onun nazik, yaraşıqlı dodaqlarına tamaşa eləyirdim — o bir cüt dodaq mənim alnımdan qorxa-qorxa öpmüşdü, ancaq hərarətini indi də hiss eləyirdim, elə bilirdim o isti göz yaşları, üzümü yumağıma baxmayaryaq, hələ də

yanaqlarımda qalır, dodaqları yenə alnıma toxunur, əli yenə. saçlarımda gəzir...

Getmək söhbətini Şahinin yanında açmadım, bilirdim qanı qaralacaq. O, həyətə çıxandan sonra Reyhan arvada mətləbimi söylədim. Razı olmurdu. «Getmə!» — deyirdi, — sənə öyrəşmişik, qızım!..» Mən Elməddinin şəhərdə olduğunu, indi nə isə böyük vəzifə sahibi olduğunu, radioda danışdığını, onun yanına mütləq gedəcəyimi qətiyyətlə bildirəndən sonra o, çarəsiz qalıb razılıq verdi. Xeyli dil-ağız təşəkkür səna eləyəndən sonra Reyhan arvadla vidalaşdım. Yazıq arvad məndən ayrılanda ağladı, cibimə əlli rupi qoyub dedi;

— Bizi unutma, qızım. İmkanın olanda ərini də götür, gəl bizə, həmişə əziz qonağımsınız. Özündən muğayat ol...

— Çox sağ ol, ana, — dedim, — sizi ömrüm boyu unutmayacağam. Tanrı sizə yar olsun...

Biz artıq həyətdə idik. Əhvalatdan xəbərsiz olan Şahin bostanda əlində bel nə isə qazırdı. Reyhan arvad onu səslədi. Gələndə isə gözlənilmədən dedi:

— Əfsanə gedir, bala. Onu yola sal...

Şahin əvvəlcə heç nə başa düşmürmüş kimi, donuxub qaldı, qabaqca nənəsinə baxdı, sonra mənə. Bayaqdan arzuladığım, xoşbəxtlik-həkk olunduğunu görmək istədiyim o gözlər mənə zillənəndə artıq onlarda sevincdən, bəxtəvərlikdən əsər-əlamət qalmamışdı. Nənəsinin sözlərini eşitdikdən cəmi bircə an sonra o gözlərə yenə əvvəlki kədər — silinməz kədər kölgə salmışdı. Yəqin sarsıldığından olardı ki, heç nə deyə bilmədi, «hara gedirəm, niyə gedirəm?» — deyə sorğu-sual eləmədi. Mən Reyhan arvadla bir daha vidalaşandan sonra içinə pendir-çörək, göy-göyərti qoyulmuş balaca səbəti məndən alan Şahin böyrümə düşüb lal-dinməz addımladı... Evləri ucqarda olduğundan əsas yola çıxmaq çox da çətin deyildi. O, cığırla qabaqda gedirdi, mən dalınca. Addımları qətiyyətsiz idi. Hiss olunurdu ki, ayağının biri gedir, biri yox. Mən arxadan onun kürəklərinə, cod, qara saçlarına tamaşa edə-edə addımlayırdım. Elə bil, məndən küsmüşdü, heç danışmaq da istəmirdi. Əsas yola çıxanda qoşalaşdıq, çiyin-çiyinə yeridik. Gözucu baxdım — yanaqlarında yaş gilələnmişdi. Düzü, mən

özüm də yaman kədərlənmişdim. Hara gedirdim, kimin yanına gedirdim? Özümü təzədən od-alovun içinə atmırdımmı? Başıma kim bilir nələr gələcəkdi?.. Bu sualların heç birinə cavab tapa bilmədən addımlayırdım. Yanımca lal-dinməz, ağlaya-ağlaya yeriyən Şahinə yazığım gəlsə də, təsəlliverici bir söz tapıb deyə bilmirdim, dilim qıfıllanmışdı elə bil. Onun niyə ağladığını bilsəm də, səbəbini soruşmaq istəyirdim, ancaq tamam ayrı söz çıxdı ağzımdan:

— Daha qayıt, Şahin,... Özüm gedərəm... — Əlimi səbətə uzatdım. O dayandı və bayaqdan birinci dəfə mirvarili kirpiklərini qaldırıb üzümə baxdı, titrək səslə:

— Getmə! —dedi... —Getmə! — Səsi, sözləri, vücudu da titrəyirdi. Ağlar gözləri də yalvarırdı: «Getmə!»..

— Niya ağlayırsan, Şahin?

— Getmə!.. — dedi. Elə bil, başqa söz bilmirdi.

— Yox, getməliyəm! —söylədim. Və bu sözü söyləyəndə özüm də qeyri-iradi doluxsundum, hiss.ə qapılmamaq üçün, ondan daha çox özümə eşitdirmək üçün qəribə bir tərzdə ucadan: «Getməliyəm!» — deyə təkrar etdim və qəti hərəkətlə səbəti əlindən aldım. Sonra sol əlimi onun boynunun dalına salıb başını özümə tərəf çəkdim və... eynən Şahin kimi, eynən o öpən yerdən — alnından öpdüm. O döyüküb çaşqın halda mənə baxdı, yaş içində parıldayan gözlərinə qəribə bir təbəssüm qondu və sevindi. Mən daha onun gözlərinə baxmamaq üçün, utanmamaq üçün, fikrimdən dönməmək üçün dəhşətli bir yerdən uzaqlaşırmış kimi tələsik, hüzn dolu bir səslə:

— Sağ ol, Şahin! — deyib demək olar ki, qaçmağa başladım. Xeyli uzaqlaşandan sonra addımlarımı yavaşıdıb geri baxdım: o, donmuş kimi yolun ortasında dayanmışdı, sağ əlnni alnına — öpdüyüm yerə qoymuşdu. Əlimi havada yellədim, «xudahafiz» dedim astaca.

O isə qışqırdı:

— Əfsanə, getmə! Mən əlimlə «yox!»— söylədim. O yenə qışqırdı:

— Harda olsan gəlib səni tapacağam, Əfsanə!

— Yazıq! — dedi Simin.

— Səsi indi də qulaqlarımdadı.. — deyə Əfsanə ah çəkib susdu.

ON ALTINCI FƏSİL

Elməddin xoruzun ilk banında qayıdıb gəlmişdi. Başı çatlayırdı, beynində dəyirman daşının uğultusuna bənzər bir səs vardı. Neçə illər tutqun bir ümidlə gözlədiyi bu qəribə görüş axşamını, tərsliyə bax ki, o, Əfsanənin yanında keçirə bilməmişdi. Çağırıb aparmışdılar, neçə saat iclasda oturmuşdu, mübahisələr olmuşdu, natiqlər kəskin, maraqlı çıxışlar eləmişdi, ancaq Elməddin, tamam başqa bir dünyadan gəlmiş adam kimi, laqeyd, küt nəzərlərlə adamlara baxmış deyilənləri dinləmiş, lakin heç nə başa düşə bilməmişdi Cismən burda otursa da, fikrən evdə, Əfsanənin, Siminin yanında olmuşdu. İndi, o gurultulu, mübahisəli məclisin qurtarmasından iyirmi-iyirmi beş dəqiqə keçsə də, Elməddindən soruşan olsaydı, bircə dənə də dəqiq şey deyə bilməzdi, hamısını qatıb-qarışdırar, baş-ayaq danışardı.

Həyətə girən kimi qəlbi sıxılmışdı — işıqlar sönmüşdü, yəqin ki, Əfsanə də, Simin də yatmışdı. Halbuki, Elməddin onların, xüsusilə Əfsanənin bu uzun ayrılıq illərindən sonra əvəzsiz bir nemət, misilsiz bir səadət kimi ələ düşmüş, şirinliyi, acılığı hələ bilinməyən bu əsrarəngiz görüş gecəsi əsla yatmayacağını, oturub Siminlə söhbət edəcəyini, onu gözləyəcəyini düşünmüşdü. Elməddinin aləmində, bu gecə yatdı yox idi, bu gecə düz səhərəcən üzbəüz oturacaq, başlarına gələn əhvalatları, olub-keçənləri — hər şeyi, hər şeyi lap birinci gündən sonuncu günəcən bir-birinə danışacaqdılar, gah sevinəcək, gah da kövrəlib susacaqdılar, bir-birinə doyunca, bu sonsuzluq kimi uzun görünən, hicran illərinin tüstü kimi acı həsrətini yox edəcək göz də, ürək də toxtayınca baxacaqdılar. Ancaq işə bax ki, itirdikləri səadətin, bəxtəvərliyin müqabilində çox kiçik görünən bu səadət də onlara nəsib olmamışdı. Elməddin qayıdıb gəlincə Əfsanə öz dərdli macərasının tarixçəsini Siminə nəql eləmiş, Simin də Elməddinin başına gələnləri ona danışmış, sonra xeyli gözləmiş, qonağın tez-tez əsnədiyini görən ev sahibəsi onun üçün kiçik otaqda yer salmış, neçə gecə Kabilin küçələrində, dalanlarda səhəri demək olar ki, diri gözlü

açan, yorğun yuxusuz olan Əfsanə yatağına girib yatmışdı. Yatmışdımı? Yox, azca əvvəl, Siminlə danışarkən o, həqiqətən yuxudan sarı ölürdü. Lakin yumşaq, təmiz yorğan-döşəyə girən kimi elə bil yuxusu ərşə çəkilmişdi, yorğunluğu da harasa uçub getmişdi. Bu evə ayaq basandan gördüklərini, eşitdiklərini, hiss elədiklərini dərk etmək istəyirdi, anlamaq istəyirdi, ancaq, fikirləri bir-birinə qarışır, düyün düşür, Əfsanə tora düşmüş balıq kimi çalıxıb-çapalayırdı. İlk təəssüratı o qədər güclü və mürəkkəb idi ki, ildırım sürəti ilə bir-birini əvəz edən, hərəsi bir cür gözqamaşdıran o təəssüratların heç birisinin üstündə ani də olsa qərar tutub dayana bilmir, hisslər axıb gedir və bu, onu az qala ağlamaq dərəcəsinə gətirirdi. Kim bilir, görəsən indi o yatan bu yorğan-döşəkdə Elməddin haçansa yatmışdımı? Yorğan-döşək, qəribə idi ki, ona doğma, əziz görünürdü. Elə bil, Elməddinin nəfəsi hopmuşdu ona, Əfsanə sinəsinə çəkdiyi yorğanı iyləyirdi, qəlbi sakitləşirdi. —Yadına neçə illər qabaq, Elməddinlə kəbini kəsilən gün soyunub girdiyi yorğan-döşək düşürdü. Onda həmin yorğan-döşəkdən, balışdan Yusifin iyini duymuşdu Əfsanə. Lakin indi ancaq Elməddinin qoxusu gəlirdi, ancaq Elməddinin! Yusifin bədəninin iyini illər çoxdan qovub harasa aparmışdı, unutdurmuşdu.

Bir az əvvəl, yerində çapalayan, yata bilməyən Əfsanə, həyətdə hənirti eşidəndə ayağa qalxmış, pəncərəyə yaxın gəlmiş, alnını şüşəyə söykəynb çölə baxmışdı. Qaranlıqda Elməddini boy-buxunundan tanımış, ürəyi sinəsində aramsız çırpınmışdı. Hə, odur. Gəldi. Heç dəyişməyib Elməddin: Yerişi, duruşu, danışığı... elə həmən həməndi. Ancaq bir az kökəlib, kişiləşib. Bax, odur, özü evin qapısını açdı, içəri keçdi. Dəhlizdə işığı yandırdı, dayanıb dinşədi. O biri otağın qapısı cırıltı ilə açıldı—deyəsən Simin oyanmışdı. Elədir, odur. Əfsanə onun yuxulu səsini eşitdi:

— Sənsən, Elmi?.. Nə gec gəldin, əzizim?..

Əfsanə bu sözü eşidəndə sanki balacalaşdı, büzüşdü, üşüdü, taqətsiz halda qayıdıb yerinə girdi və qəribə idi ki, onların danışığını eşitməmək üçük yorğanı başına çəkdi. Buna baxmayaraq, Elməddinin bu sözlərini qulağı çaldı:

— Əfsanə hanı bəs?

—Yatıb!..—dedi Simin əsnəyə-əsnəyə.

— Harda?

— O otaqda... — Simin yəqin ki, əlilə kiçik otağı göstərdi. — Yazıq yaman yorğun idi, yuxusuz idi. —Nə üçünsə qəlbinin cırmaqlandığını hiss edən Əfsanə başını balışın altına soxdu və daha onların nə danışdıqlarını eşitmədi.

Ortalıq otağın işığı yanırdı. Elməddin yanını pəncərənin qırağına söykəmiş, əllərini sinəsində çarpazlamışdı. Yuxusuzluqdan idimi, yorğunluqdan idimi—gözləri qızarmışdı, Simin aşkar görürdü ki, halı özündə deyil, həmişəki Elməddin deyil. Neçə dəfə olub ki, o, beləcə yığıncaqdan gec gəlib. Ancaq bu cür olmayıb — deyib, gülüb, zarafat eləyib Siminin içərisində nə isə narahat bir duyğu oyandı; bəlkə o, Əfsanəni görüb bu hala düşüb? — Lakin Simin bütün iradəsini ələ alıb-onun üçün qorxulu olan bu fikri özündən uzaqlaşdırmağa çalışdı və Elməddinin vəziyyətindəki dəyişikliyi, pərişanlığı axşamkı yığıncaqda nə isə xoşagəlməz bir hadisə olması ilə bağlayıb mümkün qədər toxtaq bir şəkildə:

—Yoxsa... bir hadisə üz verib, Elmi? — deyə soruşanda Elməddin huş aləmindən ayrılıb hərəsan:

— Nə? Nə dedin? — dedi.

— Heç, deyirəm, bəlkə bir hadisə olub, fikirlisən.

— Yox, yox, heç bir şey olmayıb... Bərk yorulmuşam, yuxudan sarı ölürəm...

— Yerin hazırdı, niyə dayanmısan, soyun yat.

Elməddin pəncərədən qopdu, o biri otağa keçdi, elə qaranlıqda soyundu, ikiadamlıq taxta çarpayıda, divarın dibində uzandı. Simin əyilib beşikdəki uşağa baxdıqdan sonra, lal-dinməz onun yanında özünə yer elədi. Elməddin arxası üstə uzanmışdı, yorğanı sinəsinin üstünə çəkmişdi — qaranlıqda gözünü yumub-yummadığını Simin görə bilmirdi. Siminin ürəyi dolu idi — Əfsanə həyatını danışandan sonra gəlinin ona yazığı gəlmişdi, hətta yanında neçə dəfə gözləri də dolmuşdu, ancaq özünü birtəhər saxlamışdı. Onu yerinə salıb yatırdıqdan sonra elə hey Əfsanə barəsində düşünmüşdü... «Bədbəxt gözünü açandan bir gün görməyib — allah göstərməsin. Tale adamın yazısını belə yazınca öldürsə yaxşıdı. Nə günahı vardı axı onun?

Yox, gərək ona həyan olaq, qoymayaq fikir etsin, kimsiz-kimsəsiz qadındı — demişdi; gözləmişdi əri gələndə danışdıqlarının hamısını ona söyləsin. Qoy Elməddin də bilsin. Bilsin ki... Lakin Elməddin qayıdıb heç nə soruşmamış yıxılıb yatdı — doğrusu, bu, Siminin heç xoşuna gəlmədi. İki-üç dəfə qəsddəndi ki, özü ordan-burdan söz salıb Əfsanənin hekayətini danışsın, ancaq fikrini dəyişdi. Elə bu zaman Elməddin yerində qurcalandı, səsini kimsənin eşidəcəyindən qorxurmuş kimi astaca:

— Danışdın onunla? — deyə xəbər aldı.

— Hə, Elmi.

— Haradaymış bu vaxta qədər?..

— Burda, — Simin qaranlıqda əlini alnından qaldırıb yana uzatdı, — Qarabağ qəryəsində...

— Qarabağ qəryəsində?.. Bizim bu Qarabağ qəryəsində? — Elməddin dikəldi: — Nə danışırsan, Simin?

— Hə, burdaymış yazıq.

Elməddinin içini təəssüf yandırıb-yaxdı. Əfsanə lap yaxında imiş — Qarabağ qəryəsi Kabilin lap yaxınlığındadı axı.

O elə o vaxt Əfsanəni axtara-axtara Kabilə gələndə bu Qarabağ qəryəsindən keçməmişdimi? Sonra, neçə dəfə öz maşınında — Nəcməddinin Dəftərində işləyəndə Bəhram şəhərinə gedərkən Qarabağdan keçməmişdimi? Pay atonnan! Dünyanın işinə bax, sən allah. Gör nə qəribə, möcüzəli dünyaymış bu dünya?

— Ora necə gəlib düşüb axı o? Danışmadı?

— Danışdı, Elmi. Ancaq indi sən yorğunsan axı. Yat, səhər danışaram sənə, ya da özü danışar.—Yox, indi danış, Simin! Onsuz da yata bilməyəcəyəm, danış.

Simin dikəlib oturdu və ani fikrə gedərək diqqətini cəmləyib sonra Əfsanənin əhvalatını Elməddinə nağıl eləməyə başladı. Elməddin diqqətlə qulaq asırdı, Simin danışdıqca o fikrən həmin o çağları, özünün «toy» gecəsindən sonra keçirdiyi anlaşılmaz ziddiyyətli anları, Əfsanənin günlərin birində qəfildən yoxa çıxmasını xatırlayırdı, Reyhan adlanan arvadı nəzərində canlandırmağa çalışırdı. Qəribə idi ki Simin Şahinin adını çəkəndə Elməddinin ürəyi qısıldı — elə bil başına kimsə küt bir şeylə zərbə endirdi. Nəfəsi

tıncıxdı. Yalnız bu zaman o başa düşdü ki, Əfsanənin məhəbbəti ürəyindən çıxmayıb — o ilk məhəbbət, o uğursuz, o nakam məhəbbət hələ də yaşayır onun qəlbində. Qısqanclıq deyilən acı bir hiss içini yandırıb keçdi. Şahin onun Əfsanəsini sevirmiş, aman allah? Bəs görəsən Əfsanə necə? Simin Əfsanənin bu məhəbbəti hiss elədikdə Qarabağdan getmək qərarına gəlməsini söyləyəndə Elməddin rahat nəfəs aldı, elə bil boğazından yapışıb onu boğmaq istəyən əl boşalıb süstəldi, Elməddinin pərişan, dərdli ürəyi sevindi. Və Əfsanənin təmizliyi, dəyanəti onun sinəsini qürur hissilə doldurdu. Demək, Əfsanə bu illər ərzində heç kəsə uymayıb, heç kəsin olmayıb — fikrində, xəyalında onu, ancaq onu yaşadıb, sevib əzizləyib. Demək, radio ilə Elməddinin şerlərini eşidəndən sonra orda qalmaq istəməyib. Kabilə qaçıb gəlib — Elməddini tapacağına inamla gəlib!..

«Gəldin, tapdın, Əfsanə. Amma necə? Yanında arvadı, qızı! Ürəyində sən, ancaq yanında arvadı, qızı! Yox, belə demək olmaz, Simin də ürəyimdədi. Sənin xatirən ürəyimdə idi, Əfsanə, sənin xəyalın ürəyimdə idi! İndi necə olsun, Əfsanə?» — Elməddin Siminə qulaq asa-asa öz-özünə danışırdı. Aman allah, dünya necə mürəkkəb, anlaşılmaz imiş? Sevinirdn. Sevinirdi ki, nəhayət o itkin düşmüş Əfsanəsi gəlib çıxmışdı, evindəydi, gözünün qabağındaydı. Bu günü o nə qədər arzulamışdı?! Çaşmışdı. Çaşmışdı ki, indi necə olacaqdı? O vaxt Əfsanənin kəbini ona kəsilmişdi, o vaxt da, indi də Elməddinin kəbinli, halal arvadı idi! Amma axı o, qardaşının da arvadı olmuşdu — ona qardaşın nəfəsi toxunmuşdu, o, bax, indi o yan otaqda yatan Əfsanə onun əziz Yusifinin namusu idi! Bəs necə olsun, aman allah? Bu sual o zaman da qarşısında durmuşdu — ancaq onda Elməddinin cavabı çox aydın idi və hərəkəti ilə də sözünü demişdi. Bəs indi? İllər keçmişdi aradan. Elməddinin başına işlər gəlmişdi — bir dəfə evlənmişdi, ayrılmışdı, ikinci dəfə də evlənmişdi, qızı vardı. Əfsanə də «dünyanı» gəzib gəlmişdi, ərə getməmişdi, ləyaqətini, təmiz adını qorumuşdu, onu ilk gənclik məhəbbətilə sevən Şahini ağlar qoyub Elməddinin sorağına qaçmışdı. Bunlar yaxşıdı. Amma bir şey dəyişməmişdi — o, Elməddinin qardaşının arvadı olmuşdu. Və bu, həmişə də belə olaraq qalacaqdı — bunu heç kəs heç zaman dəyişə bilməyəcəkdi.

Simin susmuşdu, Elməddin ürəyində götür-qoy eləyirdi, axırını isə bir yana çıxara bilmirdi, ona görə tez-tez ah çəkir, çətin məsələ qarşısında qalmış məktəbli kimi təntiyirdi. Və onun bu halı Siminin həssas gözlərindən yayınmırdı. Bir qadın kimi o da yaranmış vəziyyətin gərginliyini anlayır, ərinin düşdüyü böhranlı halı dərk edir, özü haqqında da düşünməli olurdu. Siminin qəlbi təmiz idi, hiylə, məkr deyilən şeylərdən xəbərsiz idi, həyatda belə dolaşıq işlərlə qarşılaşmamışdı; buna görə də onun aləmində indi ərini təntidən bu qəfil görüşü o, asanlıqla həll etmək əzmində idi. Bu işi bir də o asanlaşdırırdı ki, Simin ərini çox istəyirdi, onun üçün hər şeydən, hətta öz səadətindən də keçməyə hazır idi. Təki Elməddin xoşbəxt olsun, arzusu ürəyində qalmasın, fikri cəm olsun, oturub işləyə bilsin. Elməddinin evinə gələndən onun bütün qayğısı, ciddi-cəhdi ancaq bu olmuşdu, başqa heç nə! İndi, Əfsanə peyda olandan sonra, Elməddin necə istəsə, elə də olmalıdı. Məsələ burasında idi ki, Elməddnnin nə istədiyi, nə düşündüyü, Əfsanə barəsində nə fikirləşdiyi hələlik ona məlum deyildi — bu, onu qeyri-müəyyən vəziyyətdə qoymuşdu. Simin aydın hiss edirdi ki, həmin qeyri-müəyyənlik Elməddinin özünü də çox sıxır. Odur ki, gəlin, nəyin bahasına olursa-olsun, ərini bu dolaşıq, gərgin vəziyyətdən qurtarmaq, hər şeyi bəri başdan aydınlaşdırmaq məqsədilə söhbətə girişməyi lazım bilərək soruşdu:

— Hə, nə fikirləşirsən, Elmi? Görürəm, çox pərişansan, Elmi!

— Mən? — o, yuxudan ayılmış adam kimi hərəsan dilləndi. — heç nə! Elə-belə...

— Yox, Elmi. Sən özündə deyilsən, əzizim. Ya işində bir hadisə baş verib, ya da.

— Ya da nə?

— Ya da ki, Əfsanənin gəlişi səni çaşdırıb, Elmi!

—…

— Düz demirəm?

— İşimdə heç nə baş verməyib, bundan arxayın ola bilərsən.

— Demək, qalır ikinci məsələ... Əfsanə məsələsi...

— Əfsanənin də elə nigaran olmalı bir məsələsi yoxdu, Simin! Tapılmağına, sağ-salamat olmağına çox sevinirəm—bədbəxt qadındı. Bizdən başqa kimsənəsi yoxdu yazığın.

— Elədir, Elmi, — ani sükutdan sonra o, Elməddinə bir az yaxın oturub davam etdi, — mən istəyirəm açıq danışaq, Elmi!

— Açıq?

— Hə də.

— Yəni indiyənəcən üstüörtülü danışırdıq?

— Yox, mən o cür demirəm ey... Bilirsən nə cür deyirəm?

— Nə cür deyirsən?

— Demək istəyirəm... demək istəyirəm ki, sən mənə düzünü söyləyəsən, Elmi. Sən Əfsanəni yenə sevirsən?

Elməddin birdən-birə cavab verə bilmədi, susub qaranlıqda Siminin gözlərinin içinə baxmaq və o ləkəsiz aynalarda yazılanları, həkk olunanları oxumaq istədi, ancaq bu mümkün deyildi. Qəribədi ki, elə bu an Simin də onun gözlərinə baxmaq istəyirdi, nə isə oxumaq istəyirdi. Təəssüfləndi ki, gərək işığı əvvəldən yandıraydı, işıqda söhbət edəydilər, onda bəlkə də heç sözə ehtiyac qalmazdı. Elməddin çətin sual qarşısında idi — əsl həqiqəti desinmi? Desə Simin küsməzmi, inciməzmi? Qadındır, hər necə olsa, qadınlar qısqanc olur. Başa düşərmi onun ürəyini? Düzdür, indiyə qədər o qısqanclığını—Əfsanəyə qısqandığını büruzə verməyib. Əksinə, həmişə ondan hörmətlə danışıb, şəklini böyütdürüb, qızımıza onun adını verib! Amma axı bunlar o zaman olub ki, Əfsanə ortalıqda yox idi. İndi isə o burdadır. İndi buna necə baxacaq Simin?

Yalanmı danışsın? «Sevmirəm» desinmi? Axı belə deyil. Yox, Simin ağıllı qadındır, onu başa düşər; düzlükdən böyük təmizlik yoxdur — deyirlər.

— Hə, Simin, sevirəm, əzizim, sevirəm. Bu, sənin acığına gəlsə də, deməliyəm: sevirəm. Mən ümumiyyətlə yalan danışmağı xoşlamıram, yalan danışanlardan da zəhləm gedir. Sənə yalan danışsam özümə də nifrət eləyərəm.

— Yox, Elmi. Yalan danışma, heç vaxt yalan gətirmə dilinə, qurban olum. Sən desəydin də ki, mən onu sevmirəm, buna mən inanmazdım. Üstəlik sən də yalan danışdığına görə gözümdən

düşərdin. Sənin məhəbbətin gözlərinə yazılıb, sənin məhəbbətin pərişan üzünə, kədərli ahlarına yazılıb. Dillə, sözlə o məhəbbəti gizləmək olmaz — bunu tək sən yox, heç kəs gizləyə bilməz. O ki qaldı mənə, deyirsən acığına gəlsə də.. Yox, əzizim, acığıma gəlmir mənim. O ürək — sənin ürəyin əvvəl onun olub; mən sonradan gəlmişəm o ürəyə. Gec gəlib yuxarı başda oturmuşam. Sənin səadətin, bir olan Allah bilir ki, mənim üçün hər şeydən əzizdi, Elmi. Sən necə istəsən elə də et. İstəyirsən... — O, bir az duruxdu, barmaqlarını şaqqıldatdı, sonra, asta, hüzn dolu səslə davam etdi: — İstəyirsən, mən çıxım gedim, o qalsın...

— Yox, yox, sən nə danışırsan Simin? Bu fikri başından çıxart, özü də həmişəlik çıxart, Simin.

— Onda... istəyirsən... onu da al. Qoy iki arvadın olsun, Elmi. Azdı iki arvadlı kişi? Biri də sən ol, Elmi. Mən bunu ürəklə deyirəm, inan. O olar böyük xanım, mən olaram kiçik xanım. Əl-ələ verib yaşayarıq — o yazıq da xoşbəxt olar, sən də...

Elməddin eşitdiklərinə inanmaq istəmirdi. Bu balaca, cavan qadının nə boyda ürəyi varmış, aman allah. Yox, yəqin Simin onu sınamaq üçün belə sözlər deyir — yoxsa... hansı qadın bilə-bilə, öz əlilə səadətini, xoşbəxtliyini başqasına verməyə razı olar? Hansı qadın? Elməddin hələ belə şey görməmişdi, eşitməmnşdi. Əfsanənin dayısı Həzrətgülün arvadları — Xədicə ilə Nazənin bir-birinin kölgəsini də qılınclamırdımı? Yaxud Ətiqullanın dörd arvadı qısqanclıq üzündən, heçin-puçun üstündə tez-tez küsüb atalarının evinə getmirdilərmi? Simin gör nələr deyir amma?

— Bu sözləri sidqi-dildən söyləyirsən, Simin?

— Əlbəttə, Elmi. Mənim dilimdəki ürəyimdəkidi həmişə, vallah. İnanırsan?

— Niyə, inanıram, ancaq...

— İnanmağın gəlmir, hə?

— Hə.

— Bax, mənim səndən və Əfsanəmizdən çox istədiyim adam yoxdu dünyada. İkinizin də əziz canına and içirəm, Elmi, bunlar mənim ürək sözümdü.

Elməddinin ürəyi sevinc hissilə dolduğundan az qala dili ağzında təpimişdi. Susdu, dilini çıxarıb dodaqlarını yaşladı və sonra əlini irəli uzadaraq Siminin başını özünə tərəf çəkib sinəsinə sıxdı:

— Sağ ol, Simin. Belə düşündüyünə görə gözlərimdə daha da ucaldın, əzizim. Qəlbi dəryamsan mənim, ağıllımsan mənim. Ancaq qulaq as, gör nə deyirəm.

— Eşidirəm, əzizim, — onun səsi Elməddinin sinəsi üstündən gəldi.

— Mən onu çox istəyirəm, Simin. O mənim ilk məhəbbətimdi, mən bu dünyaya, bu aləmə, şerə, lap elə sənin yanına da onun məhəbbətindən doğulub gəlmişəm. O mənim üçün əlçatmaz, ünyetməz məhəbbət ilahəsi olub. Həmişə onu axtarmışam, yuxumda da onu axtarmışam bu illər ərzində. Ancaq niyə? Nə üçün? Heç özüm də bilməmişəm. İndi də onu istəyirəm. Ancaq niyə istəyirəm — bilmirəm. Bu dünyadan köçəndə də yəqin bir gözüm onu axtaracaq. Bircə şeyi bilirəm ki, mən onu özümə arvad eləyə bilmərəm. Onda da eləmədim, indi də eləyə bilmərəm —çünki o mənim qardaşım arvadı olub. Bax, bu sədd, bu sərhəd mənim əl-qolumu bağlayıb — elə o vaxtdan bağlayıb, ömürlük bağlayıb. Mən qəlbimin istəyinə, ürəyimin hökmünə qılınc çəkmişəm, o istəyi, o nakam duyğunu qəlbimin dərinliklərində öldürmüşəm. Amma ölmür o. Mən qılıncladıqca o dirçəlir, pöhrə verir, qalxır, yaşayır, «mən də varam» — deyir və mənə əziyyət verir, düşündürür, bəzən ağladır da, Ancaq mən... təslim olmuram o hissə, olmayacağam da, Simin! Mən Əfsanəni alsaydım, elə o vaxt alardım. Onda ürəyim qəbul etməmişdi, indi də etməz. Çünki mənim ürəyim elə həmin ürəkdi, əqidəm də elə həmin əqidədi, Simin.

Elməddin arxasını divara söykəyib asta-asta danışdıqca qəlbi bugünkü qatmaqarışıq, dolaşıq hisslərdən kövrəlmiş Siminin gözlərindən ixtiyarsız axan yaş ərinin tüklü sinəsini isladırdı. Heç bu anlarda özü də bilmirdi, niyə ağlayırdı. Sevinc yaşları idimi bu yaşlar — ərinin ona bəslədiyi böyük məhəbbətmi, sədaqətmi onu beləcə kövrəltmişdi?

Ya illər uzunu sevdiyindən ayrı düşmüş, başı, ürəyi müsibətlər çəkmiş, nəhayət, çox gec, vaxtsız-vədəsiz — evlənəndən, körpəsi

dünyaya gələndən sonra yeganə tapındığı, inandığı əziz adamını tapmış və daha ona qovuşmaq imkanını tamamilə itirmiş Əfsanənin halınamı ağlayırdı? Ya da bəlkə odla su arasında qalmış, nə edəcəyini kəsdirməyən Elməddinin vəziyyətinə acıyırdı? Bilmirdi.

Hava yavaş-yavaş işıqlaşırdı.

ON YEDDİNCİ FƏSİL

Gec yatdıqlarına baxmayaraq, Simin hamıdan tez oyanmışdı, mətbəxdə çay qaynatmış, stolun üstünə stəkan-nəlbəki düzmüş, çörək, yağ-pendnr, bal qoymuş, üzünə milçək-filan qonmasın deyə dəsmal sərmişdi. Səhər yeməyinin vaxtı əslində çoxdan keçmişdi. Saat ikiyə işləyirdi — Elməddin şirin-şirin yatmışdı. Simin ev-eşiyi yığışdırandan, həyət-bacanı süpürəndən sonra tək qalıb darıxdığı üçün yavaşca, barmaqlarının ucunda Əfsanənin otağına girdi. Əfsanə, görünür, bərk uyumuşdu, Siminin gəldiyindən heç xəbəri də olmamışdı — çünki nə tərpəndi, nə də qımıldandı. Başı da, sinəsi də açıq idi. Hörülmüş, uzun saçlarının biri ağ balış üstündə qara ilan kimi qıvrılmışdı, əynindəki gecə köynəyinin üçbucaq şəkilli yaxasından ağ sinəsinin bir parçası görünürdü. Arxası üstə yatmışdı, sol biləyini də alnına qoymuşdu. Ayaq tərəfdə dayanan Simin aram-aram nəfəs alan, ağ, qəşəng sifətində əzablı-ağrılı bir ifadə həkk olunan (bu, deyəsən, onu daha da gözəlləş-dirirdi) Əfsanənin həqiqətən gözəl olduğunu elə bil indi, bax bu anlarda görüb hiss elədi. Dünən gələndə deyəsən o belə gözəl deyildi, axşam, ikisi üzbəüz oturub söhbət eləyəndə də bu cür deyildi. Amma indi... Simin istər-istəməz bir qadın kimi özünü bu yatmış, bu dərdli gözəllə müqayisə elədi, müqayisə elədi və anlaşılmaz, qəlbinə yad bir sıxıntı içində istər-istəməz üstünlüyü Əfsanəyə verdi. Və bu an Əfsanə ona Simindən qüdrətli, Simindən ağıllı göründü; ona elə gəldi ki, bax, bu qabağında yatmış gözəl qadın illərin arxasından, uzaq-uzaq yerlərdən məhrumiyyətlərə dözə-dözə, onun-bunun qoltuğuna sığına-sığına, Şahin kimi sevən bir cavanı rədd edib gözüyaşlı qoyaraq, Siracəddin kimi bir «əjdahanın» torundan xilas olaraq bura — Elməddinin ocağının başına nahaq gəlməyib, əbəs gəlməyib. O gəlib ki, Siminin Elməddinini — demək, səadətini əlindən alsın,

xoşbəxtliyini uçurub dağıtsın. «O mənimdir, Simin!» — deyərək hər şeyi alt-üst eləsin. Bu acı fikirlər ürəyini cırmaqladı, gözləri qaraldı, başı gicəlləndi. Əfsanə elə bil yatağında əriyib yox oldu, yerində nə isə qara, qatran kimi qapqara bir vücud qaldı —yalnız bu zaman, səhərə yaxın Elməddinin Əfsanə barəsində dediyi sözlər yadına düşdü, qulaqlarında səsləndi və onu bu qara fikirlərin zəhərli caynağından qopartdı: «Mən Əfsanəni alsaydım, elə o vaxt alardım. Onda ürəyim qəbul etməmişdi, indi də etməz. Çünki mənim ürəyim elə həmin ürəkdi, əqidəm də elə həmin əqidədi, Simin!» Bu sözlər onun beynini, baxışlarını durultdu, hövllənib tez-tez çırpınan ürəyi qara, qorxulu təhlükənin sovuşduğunu hiss edib adi qaydasına düşdü. Yatağında uzanmış Əfsanə də o qara, qatran kimi qapqara vücuddan dönüb əvvəlki Əfsanə oldu — saçı yenə ilan kimi qıvrılıb yatmış, əli alnında, sinəsinin bir parçası açıq... Əfsanə oldu. Və Simin onun ağ sifətinə həkk olunmuş ağrılı əzablı ifadəni daha aydın oxudu və onun nəfəs almağında da, sifətində də bir yazıqlıq, bir bədbəxtlik gördü, onun haqqında belə düşündüyünə görə utandı Simin! Balacalaşdı, cılızlaşdı, çirkinləşdi Simin! Özünü, qəlbini indiyə qədər yaxşı tanımadığına heyrət içində gözünü döydü. Daha bundan sonra belə qara fikirləri yaxına buraxmayacağına, bu cür alçalmayacağına səssiz-səmirsiz and içdi.

Qəhərləndi, boğazı acışdı və öskürdü. Səsə Əfsanə gözünü açdı — uzun, qatlama kirpiklərini qaldırıb ayaq tərəfində Simini görəndə.... yuxulu-yuxulu gülümsündü. Simin irəli gəldi, döşəyinin yanında diz çöküb:

— Sabahın xeyir, bacım!—dedi. Əfsanə dikəldi, dikələndə ağ balış üstündə qıvrılıb yatan qara ilan kürəyinə düşdü və o, yuxudan doymadığını bildirən bir tərzdə şirincə əsnəyib:

— Aqibətin xeyir, Simin! — söylədi.

— Necə yatmısan?

— Çox pis. Demək olar ki, heç yatmamışam, bacı!

— Niyə ki? Yerin narahat idi?

— Yox. Əksinə, yerim çox rahat idi. Ürəyim, beynim narahat idi. Nə isə bu gecə ömrümün ən oyaq, ən ağır gecələrindən biri idi.

Bütün həyatım gəldi düşdü yadıma, bütün olub-keçənlər gəldi düşdü yadıma. Yuxum ərşə çəkildi.

— Hə, bacım, sənin həyatın qəribə həyat olub. İnanırsan, elə mən də bu gecə səhərəcən sənin barəndə düşünmüşəm. Ancaq... nə etmək olar, olan olub, keçən də keçib. Keçmişi unudub yaşamaq lazımdır.

— Keçmiş unudulmur, insanın ömrü keçmişdən ibarətdir, gələcək isə naməlum bir şeydir. Mən çox çalışmışam, keçmişimi unudub rahat yaşayım — amma bacarmamışam.

— Belə deməyimə baxma, mən də bilirəm ötənləri unutmaq olmur. Düzü, istəyirəm sənə təsəlli verəm, ancaq heç bilmirəm bunu necə eləyim. Deyirlər, təsəlli hər necə olsa, adamın dərdini yüngülləşdirir.

— Əslində, yox, Simin! Bu, ancaq təsəlli verən adamın səni istədiyini bildirir, vəssalam. Yoxsa, təsəlli dərdi-zadı yüngülləş-dirmir, Simin! Mən belə təsəlliləri çox eşitmişəm. Başa düşmüşəm ki, mənə təsəlli verənlər məni istəyən, mənə yazığı gələn adamlardı. Sağ olsunlar, elə sən də təsəlli üçün sağ ol, Simin!

— Sən də sağ ol, bacı. Darıxma, görərsən, hər şey yaxşı olacaq... Bir yandan bağlayan fələk, bir yandan açır, deyirlər. Əfsanə yanına qoyduğu donunu götürüb geyinə-geyinə:

— Elməddin yaman gec gəldi, — dedi.

— Hə. Sən yatandan azı iki saat sonra qayıtdı.

— O gələndə oyaq idim.

— Hə? Oyaq idin?

— Hə.

— Sənin yatmağına çox peşman oldu.

— Niyə ki?

— Nə bilim. Nə isə... gərək yatmayaydıq, gözləyəydik. Mən həmişə gözləyirəm. İntəhası, sən yorğun idin deyə...

— Hələ yatır?

— Yatır. Biz hava işıqlaşanacan söhbət eləmişik. Sənin hekayətini danışdırıb mənə, qulaq asıb. Çox pərişan idi. Söhbətimiz qurtarandan sonra da, hiss eləyirdim ki, yazıq yata bilmirdi, sudan çıxarılmış balıq kimi çırpınırdı yerinin içində.

—…

— Qalx, qalx, bacı. Acından birtəhər oldun. Gün günortadan keçib, biz hələ səhər yeməyimizi yeməmişik.

— Qorxma, bir gün gec yeməklə bizə heç nə olmaz!.. Əfsanə qalxdı, donunu səliqəyə saldı; əyildi yorğan-döşəyini yığışdırıb yükə qoysun, Simin qabağına keçdi.

— Yox, özüm eləyəcəyəm. Sənin işin olmasın, bacı. Sən get əl-üzünü yu, irahlan. Mən də indi gəlirəm.

— Çox sağ ol, Simin! —deyib Əfsanə otaqdan çıxdı. Simin yorğan-döşəyi yığışdırıb yükə qoydu, otağı süpürdü, sonra Əfsanənin dalınca getdi. Əfsanə həyətdə, dirəyə vurulmuş əlüzyuyanın qənşərində dayanıb yuyunurdu. Simin əlində tiftikli dəsmal gəlib böyründə dayandı. Əfsanə üzünü, əllərini qurulayıb Siminə razılıq hissilə baxaraq gülümsündü.

...Süfrə başında sükut içində oturmuşdular. Məlum idi ki, deyib-danışmalı söz çox idi, lap çox idi, ancaq heç biri nədənsə dinib-danışmırdı. Lal-dinməz yeyib-içir, düşünür, gözləri yol çəkir və arada da bir-birinə mənalı-mənalı baxıb gülümsünürdülər. Simin ərinin böyründə əyləşmişdi, Əfsanə Elməddinin qənşərində. Sükut həqiqətən cansıxıcı idi. Simin bir növ bu söhbətdə özünü kənar adam sayırdı, illər uzunu ayrı düşmüş, bir-birinin həsrətilə yaşamış iki sevgilinin görüş məqamında sir-sifətinə baxmaq, nədən danışdıqlarını dinləmək Simin üçün, həyata təzə atılmış cavan bir qadın kimi son dərəcə maraqlı idi. Tərslikdən də onlar ağızlarına su almış kimi susurdular. Bu sükut Siminə mübhəm və müəmmalı görünürdü, çünki çox gözəl bilirdi ki, ikisinin də ürəyi doludu, deyiləsi sözləri çoxdu. Bunu da bilirdi ki, onlar indi qəlblərində danışırlar. Birdən Simin başa düşdü ki, avamlıq eləyir, o, bu məclisdə artıqdı; qəfil durub getmək istədi, lakin fikirləşdi ki, bu işi ustalıqla eləmək lazımdı, yoxsa Elməddinin də, Əfsanənin də xətrinə dəyə bilər, duşünə bilər ki, Simin qısqanır. Odur ki, o, işgüzar bir xanım ədasıyla süfrəyə göz gəzdirdi, yeməkdən əl çəkdiklərini görüb:

— Niyə yemirsiz? —deyə soruşduqda Əfsanə:

— Doydum mən, — dedi, — çox sağ olun, süfrəniz dolu olsun. Elməddin güldü:

— Mən də yemirəm —Sonra üzünü Siminə tutub əlavə elədi. — Əfsanə elə təşəkkür eləyir ki, guya qonaq gəlib bizə.

Əfsanə başını qaldırıb Elməddinin üzünə baxdı, sifətində bir təbəssüm gəzdi, ancaq heç nə deyə bilmədi. Simin söylədi:

— Qonaq niyə olur? Bura onun öz evidi.

— Əlbəttə, Əfsanə, mən elə dünən dedim, bura sənin öz evindi — istədiyin kimi ye, iç, yat, ürəyin nə istəyir, onu da elə,

— Sizdən çox razıyam, sağ olun! —deyə Əfsanə qabağına tökülən çörək qırıntılarını barmağının ucuyla cəmləməyə başlayanda Simin əsl məqamın yetişdiyini duyub ayağa qalxdı, stolun üstünü yığışdırdı — stəkan-nəlbəkini güllü siniyə qoyub mətbəxə apardı. Sonra vedrədən tökülən suyun şırıltısı eşidildi, qab-qaşıq dınqıldadı — bununla o, bildirmək istəyirdi ki, mən məşğulam. İndi stol arxasında ikisi qalmışdı. Elməddin titrəyən barmaqları arasında tutduğu siqaretin boz tüstüsü arxasından Əfsanəyə baxırdı, alnına, qaşlarına, solğun yanaqlarına, hələ də qız dodaqları kimi təravətli olan dodaqlarına, qız döşü kimi xırda, bərk və köynəyin yaxasını qabardan döşlərinə nəzər salır, o vaxt — Həzrətgülün dükanında gördüyü, öz evlərində gördüyü o Əfsanə ilə indi qarşısında əyləşən Əfsanəni fikrinin güzgüsündə yan-yana qoyub müqayisə eləyir, dəyişib-dəyişmədiyini yoxlamağa çalışırdı. Yox o qədər də dəyişməmişdi Əfsanə. Sadəcə olaraq uşaqlıq, ilk gənclik dünyasından ayrılmışdı, sümüyü bir az iriləşmişdi, azca kökəlmişdi. O vaxt üzündə, gözlərində həkk olunub qalmış utancaqlıq, hürkəklik deyəsən azalmışdı. Sərbəst olmuşdu deyəsən Əfsanə. Lakin birdən Elməddinin ürəyinin başı göynədi, sızıldadı, Ay aman, Əfsanənin gözəl saçlarının ortasında — tağının sağa ayrılmış hissəsində ağ tüklər dəydi gözünə Elməddinin! O, siqareti dodaqları arasından çəkdi, gözlərini qıyıb diqqətlə baxdı, baxdı. Yox, gözləri onu aldatmırdı. Əfsanənin saçına dən düşmüşdü, ay allah, dən düşmüşdü. Öpüb-oxşaya bilmədiyi, ancaq bir dəfə yuxusunda çəmən ətri kimi bihuşedici rayihəsindən məst olduğu, şaxtaya düşmüş adam əli kimi əsim-əsim əsən əlilə qorxa-qorxa sığal çəkdiyi o ipək tellərə indi dən düşmüşdü. Əfsunlanmış kimi Elməddin nəzərlərini Əfsanənin tağından çəkə bilmirdi. Heyrətini də bildirməyə taqəti yox idi. Elə bil heyrəti də içində

donub qalmışdı — sözləri kimi. Tükün kökdən, dibdən ağarmağa başladığının fərqinə yalnız indi vardı. Heç görməmişdi — bu həqiqəti indicə dərk elədi və gözlərinin qabağındaca beş-on ağ tük artıb çoxaldı, çoxaldı; Əfsanənin bütün saçları ağardı sanki birdən-birə. Və Elməddinin sinəsindən ixtiyarsız dərin, yandırıcı bir ah qopduqda Əfsanə baxışlarını qaldırdı və onun dumanlı nəzərlərinin saçlarına zilləndiyini görüb sözsüz də hər şeyi başa düşdü, asta, kədərli bir səslə:

— Saçlarımın ağlığına baxırsan? — deyə soruşdu. Elməddin nitqi batmış kimi başını yavaş-yavaş tərpətdikdə Əfsanə eyni mükəddər ahənglə: — Hə, — dedi, — ağarır saçlarım, Elmi!

— Sənin nə yaşın var ki, saçların ağarmağa başlayıb — nəhayət Elməddin dilləndi və sanki buna bənd imiş kimi, Əfsanənin iki-üç saniyə bundan qabaq tamam ağarmış təki görünən saçları yenə əvvəlki halına düşdü və Elməddin azca rahatlandı, sonra əlavə elədi: — Zəmanənin üzü qara olsun, Əfsanə!

— Hə... Bir az zəmanə ağartdı, bir az da...

— Bir az da... — O susub Əfsanəyə günahkar kimi baxdı.

— Bir az da... bir vəfasız vardı bu dünyada, bir az da... o ağartdı, Elmi. — Elməddin Əfsanənin bu sözlərindən tutuldu, nitqi yenə batdı, içinin hərarəti dodaqlarını qurudub bir-birinə yapışdırdı. Aydın idi: Əfsanə onu vəfasızlıqda təqsirləndirirdi, etibarsız sayırdı onu. Elməddin üçün bundan böyük mənəvi cəza ola bilməzdi. Biləyi sındırılanda hiss elədiyi ağrı bu ağrının yanında bir anda unuduldu, heç oldu. Çünki bu zərbə onun ürəyinin başına dəymişdi — ona görə belə bərk incitdi Elməddini. Və yalnız indi başa düşdü ki, Əfsanəyə necə böyük zülm eləyib, ürəksiz olub, aciz olub, lap vicdansız olub! Gör quzu kimi sakit, həlim, hər haqsızlıqa susub dözən Əfsanə nələr çəkib ki, indi bu sözləri Elməddinə söyləməyə özündə cəsarət tapır? Hər şeyin bir həddi-hüdudu olduğu kimi, dözümün də, səbrin də həddi olmalıdı — o həddi keçəndən sonra daha insan heç nədən qorxmur, çəkinmir, utanmır, çünki daha itirəcəyi bir qiymətli şey yoxdu ki, onun üstündə əssin, onun xatirinə sussun. Əfsanə yazıq adam olub, dilsiz-ağızsız adam olub — amma indi Elməddinə vəfasız deyir! Haqqı yoxdumu? Var, var! Düz deyir Əfsanə! Elməddin ancaq

öz ürəyinin səsini dinləyib onun taleyi barədə hökm çıxaranda, özünün düşündüyü kimi hərəkət eləyib və bunu yeganə düzgün yol sayıb! Əfsanənin ürəyinin sözünü, istəyini, fəryadını eşitməyib, eşitməyi bacarmayıb, daş olub, kar olub, duyğusuz olub! Amma Əfsanə onu necə istəyirmiş, aman allah? Necə mərd imiş, necə namuslu imiş. O, ümidə, işığa doğru uzanan əllərini — yeganə pənahgahı Elməddinə çatdırmaq üçün nələrə dözməyib, aman allah. Neçə il ona doğru qaçıb, yıxılıbsa da, yorulubsa da, qalxıb yenə ona tərəf yüyürüb; nəfəsi, taqəti çatdıqca yüyürüb, yüyürmək imkanı olmayanda da sürünüb, dizin-dizin sürünüb.

Bütün bunları Elməddin sanki indi başa düşdü, indi duydu, cavab vermək, izah eləmək istədi, ancaq gördü ki, yalnız bu anlarda dərk elədiyi həqiqətləri ifadə eləyəcək söz tapmaqda aciz qalacaq, bəlkə də heç o hissləri, o peşmançılığı, o yanlış düşüncələri çatdıra biləcək söz yoxdu yer üzündə?!

Əfsanə onun ağarmış üzünə, dolub dumanlanmış gözlərinə baxa-baxa hiss elədi ki, illərdən bəri qəlbini didib-parçalayan, ona gecə də, gündüz də rahatlıq verməyən təklikdə, dəli kimi öz-özünə danışanda çox söylədiyi bu acı sözü — nəhayət bu gün, bax elə indicə istəməyə-istəməyə Elməddinə söylədi və o sözü deyəndən sonra sanki ürəyi boşaldı, ruhu çırpıntıların əlindən xilas olub rahatlıq tapdı. Və eyni zamanda bunu da başa düşdü ki, o söz Elməddini öldürdü — diri gözlü öldürdü. Peşman oldu dərhal. Aradakı gərginliyi azaltmaq üçün kədərlə:

— Bağışla, Elmi!.. — dedi. — Bir söz idi, ağzımdan çıxdı. Hər şey kimi onu da unut getsin...

—…

ON SƏKKİZİNCİ FƏSİL

Elməddin döyülmüş, əzgin adam kimi yataq otağına girdi, soyunub çarpayısında uzandı, üzünü də, kədərli və dilxor vaxtlarında olduğu kimi, divara çevirdi. Simin yanına gələndə onu uzanmış görüb təəccübləndi.

— Bıy, sən təzədən yatdın? Elməddin çevrilmədən;

— Hə, — dedi, — yuxudan doymamışam.

— Yaxşı, yat, dincəl...

Ani sükutdan sonra Elməddinin gər səsi eşidildi:

— Pul götür, Simin, o qızı da sal yanına, çıxın şəhərə, ona yaxşı, özü bəyənən əyin-baş al, ayaqqabı, corab... Nə lazımsa...

— Sən də getsəydin, yaxşı olardı, Elmi.

— Yox, onsuz da mənim başım elə şeylərdən çıxmır. Körpəni də götürün, qoy bir az hava dəysin...

— Yaxşı!

Əfsanə getmək istəmirdi. O da Elməddin kimi öz otağında uzanmışdı. «Bunlara nə olub?» — deyə Simin ürəyindən keçirdi və bir şey başa düşməyib təklifində israr etdi.

— Tənbəllik eləmə, bacı. Hava da yaxşıdı, çıxaq bir az şəhəri gəzək, həm də bəzi şeylər alacağıq. İstəyirəm sən də yanımda olasan. Elməddin dedi ki, səni də götürüm.

Əfsanənin həvəsi heç olmasa da, naçar qalxdı. Simin balaca Əfsanəni də geyindirib qucağına almışdı. Çöl darvazanı örtüb çıxanda Əfsanə əllərini irəli uzadıb:

— Ver adaşımı mən götürüm! — söylədi. Simin körpəni ona verdikdə Əfsanə onu oxşadı, üzündən öpdü: — Sən mənim qəşəngimsən, zərifimsən, ceyran. Sən də xalanı maç elə. Bax, belə, mən səni maç eləyən kimi. Ay sağ ol, ay sağ ol. — Uşağın onu öpməyindən sevinən və əhvali-ruhiyyəsi tamam dəyişən Əfsanə körpəni sonsuz bir istəklə bağrına basdı və təzədən qırmızı yanağından öpdü. Əfsanə böyrüncə addımlayan, bu iki Əfsanənin hərəkətlərinə fikir verib sevinən Siminə üzünü çevirib:

— Anası, atası kimi mehribandır, Allah saxlamış! — dedi.

— Mehriban olasan, xalası, sağ ol.

Onlar gəzə-gəzə, söhbət edə-edə küçədən-küçəyə, dükandan-dükana adlayırdılar. Keçdikləri küçəni, gördükləri binanı Əfsanəyə tanıtdırmaqla Simin onun fikrini dağıtmağa çalışırdı.

— Bura Ləbi-dərya deyirlər. Kabil çayı budur. Suyu az olur, yazbaşı dağlarda qar əriyəndə az-maz suyu olur, qalan vaxtlar, sızqa bulağa oxşayır.

— Mən elə bilirdim Kabil çayı nəhəng bir çaydır. Bizim Daşlı çaydan da nəhəngdir. Sən demə...

— Bu, mərkəzi poçtxanadır. Onun qabağında cəm olan adamlar da cürbəcür şəkillər, açıqcalar satırlar.

— Hm.

— Bax, o geniş meydanın o tərəfindəki mücəlləl binanı görürsən, ora «Ərke-şahi»dir — əlahəzrət orada yaşayır.

— Hə? — Əfsanə o tərəfə boylandı və yadına düşdü ki, neçə gün bundan qabaq həmin binanın yanından keçib. Gör ha, heç bilməyib ki, əlahəzrət orada yaşayır.

— Şəfi — Elməddinin ustadı bura gəlmişdi də. Əlahəzrətin özüylə oturub söhbət eləmişdi neçə saat. Sonra ruznamələrdə şəkilləri çıxmışdı.

— Şəfi kimdi?

— Şəfini tanımırsan? Böyük şairdi, bacım, Elməddinin ustadıdı — onun bu mərtəbəyə gəlib çıxmasına o kömək eləyib. Böyük qardaş kimi, ata kimi xətrini çox istəyir Elməddin. Bizdə evdə neçə kitabı var — verərəm oxuyarsan. Biçarəni az qala öldürüb balalarını yetim qoymuşdular. Anası namaz üstə imiş, tikəsi ovsanaya düşüb, sağ qaldı.

— Niyə öldürürlər ki, onu?

— Bilirsən, o da, Elmi də, onların böyükləri var — Bəbir, Nur Məhəmməd — bunlar hamısı istəyirlər ki, bu dünyanı uçurtsunlar.

— Bu dünyanı uçurtsunlar? — Əfsanə uşağı sağ döşünün üstünə alıb, təəccüblə soruşdu, — necə yəni dünyanı uçurtsunlar, bacı?

Simin güldü:

— Mən də əvvəl sənin kimi təəccüb elədim. Sonra başa düşdüm əsl mətləbi.

— Nədi ki, əsl mətləb?

— Əsl mətləb budu, Elmi deyir biz ki bu cür yaşayırıq, bu düz deyil. Ədalətsizlik üstündə qurulub bizim məmləkətdə insan yaşayışı. Biri toxdu, beşi acdı. Birinin beş imarəti, min cərib torpağı var, yüzünün, mininin başını daldalamağa daxması da yoxdu, o, quldu, nökərdi. Bax bu cür dünya onların — Şəfigilin, Elmigilin xoşuna

gəlmir. Onlar bax bu dünyanı uçurtmaq istəyirlər. Hamının bərabər, hamının xoşbəxt olması üçün əlləşirlər. Odur ki, başda oturanlar da bunları məhv etmək istəyirlər. Bax, Şəfi iki dəfə, Bəbir üç dəfə, Nur Məhəmməd altı dəfə, Elmi iki dəfə həbs olunub. Şəfini öldürmək istəyiblər — gözünü çıxardıblar. Elminin qolunu qırıblar. Bir yoldaşları var — Mir Xeybər Əkbər, onu da uzağa, Paktiyaya bir növ sürgün ediblər.

— Belə de... İndi başa düşdüm.

— Ona görə bizim adamların taleyi həmişə tükdən asılıdı — hər dəqiqə ölüm, hər dəqiqə həbs gözləyə bilər onları.

— Hm. Başa düşdüm.

— Mən də əvvəl heç nə başa düşmürdüm. Zərrintac — Elminin keçmiş arvadı deyirdi ki, sənə nə düşüb axı, ay Elməddin! Onda mən ona şərik idim. Amma sonra Elmi məni başa saldı ki, bu işi sən görmə, mən görməyim — bəs kim görməlidir? Onda ağlıma batdı, bacı. Onda anladım ki, Elmi böyük adamdı — buna sevindim, bacı. Ona olan hörmətim, məhəbbətim birə on qat artdı...

—…

— Ancaq bunları heç kəsə demə, bacı. Səni özümünkü hesab eləyirəm, ha!

— Nə danışırsan, Simin? Mən...

— Bilirəm, deməzsən. Hər ehtimala qarşı deyirəm... hə, bax, bu Qari-Aman mağazasıdı. Burda nə desən tapmaq olur — hamısı da xarici maldı. Bir bura girək, görək təzə nə var, nə yox...

Mağazaya girdilər. Şüşə vitrinləri cürbəcür göz qamaşdıran reklamlarla bəzədilmiş Qari-Aman mağazası doğrudan da çox zəngin idi. Uzun salon dövrələmə müxtəlif qadın, kişi paltarları, ayaqqabı, parça, ətriyyat şeyləri ilə dolu idi. Piştaxtaların arxasında dayanmış cavan oğlanlar alıcılara can-dildən qulluq eləyir, şirin alver gedirdi. Döşəmə o biri dükanlar kimi çirkli deyildi, süpürülüb su çilənmişdi. Haradasa qoyulmuş maqnitofondan hind musiqisi eşidilirdi. Elə gözəl və səliqəli idi ki, girən çıxmaq istəmir, yubanır, nə isə almağa həvəs göstərirdi.

Simin özünü irəli verdi, ömründə belə zəngin mağaza görmədiyindən ağzı açıla qalmış Əfsanənin böyrünə toxunub dalınca gəl-

məyinə işarə elədi — qadın paltarları asılmış şöbənin qabağına çatdılar. Xeyli götür-qoydan sonra, Əfsanənin etirazlarına baxmayaraq, iki dəst yaxşı, bahalı parçadan tikilmiş don, baş örpəyi, ayaqqabı, alt paltarı, corab aldılar. Oğlan alınan şeyləri səliqə ilə büküb bağladı, Simindən pulunu alıb təşəkkür elədi.

Mağazadan çıxdılar, tələsmədən, asta addımlarla evə sarı üz tutdular «Spinzər-hotelin» yanından keçəndə birdən Simin ayaq saxladı, Əfsanənin qoluna toxunub:

— Bir ora bax! — dedi.

— Hara?

— O maşını görürsən? Balaca, ağ maşını deyirəm ey.

— Hə. hə.

— İçəridə, sükan arxasında oturan o qıza yaxşı-yaxşı bax! Gör tanıya bilərsən?

Əfsanə beş-altı addımlıqda dayanmış ağ maşını tapdı, içəridəki qızı gözü aldı. Kim idisə, sarı saçlarını açmışdı, çiyninə tökmüşdü. Maşından musiqi sədaları ətrafa yayılırdı.

Əfsanə tanıya bilmədi.

— Kimdi ki o?

— O... Elminin keçmiş arvadıdı, Əfsanə. Zərrintac xanım dediyim budur də. Səni «xoş» qarşılayan, ağayi Siracəddinin yanına göndərən, sənin haqqında Elməddinə o məktubu yazan qadın budur.

— Hə? — Bu zaman Zərrintac, adət etdiyi kimi, başını yırğalayıb saçlarını tərpətdi, Əfsanə birdən söylədi: — Hə, düz deyirsən, özüdü ki, var. Məni elə qarşıladı, dindirdi ki, mən dedim yazığı gəldi mənə. Sən demə, arada iş varmış. Sən demə, iblis məndən Elməddinin hayıfını çıxmaq istəyirmiş. Mən də nə bilim, sevinəsevinə, razılıq eləyə-eləyə getmişəm. Allah o arvadın atasına rəhmət eləsin. O olmasaydı, mən məhv olmuşdum...

Əfsanə nə fikirləşdisə, birdən uşağı Siminin qucağına atdı:

— Bir bunu tut, onun üzünə tüpürüb gəlirəm, — dedi. Simin həyəcanlandı, canına qəribə bir qorxu düşdü və bu qorxu altında Əfsanənin qabağını kəsdi:

— Səni and verirəm allaha, bacı, getmə. İşin olmasın. Allah onun cəzasını onsuz da verib. Dəymə. Ondan xeyir gəlməz bizə.

— Qoy gedim, Simin. Qorxma, heç nə olmaz.

— Sən Elminin canı, getmə, Əfsanə.

Əfsanənin ayaqları süstəldi. Dayandı. Bağlamanı Siminin əlindən aldı, qəzəbini içində udsa da;

— İmkanım olsaydı, onu bu saat parçalardım, — deməkdən özünü saxlaya bilmədi. Ancaq bu zaman qəribə bir hadisə oldu — heç kəsin gözləmədiyi yerdə, Zərrintac xanım maşının qapısını açdı, yerə düşüb düz onlara sarı gəlməyə başladı. Bunu görən Simin çaşdı. Sən demə, Zərrintac xanım uzaqdan Simini tanıyıbmış. Onlar yerindən tərpənməmiş, Zərrintac xanım özünü yetirdi.

Və gülə-gülə:

— O, xoş gördük səni, Siminbər xanım! — dedi və onu, qucağındakı uşağı, yanındakı arvadı təpədən-dırnağa süzdü. Onun səsində də, üzündə də qəribə bir rişxənd duyulmaqdaydı. Bunu Simin də, Əfsanə də hiss elədi, ancaq heç nə bildirmədən, söhbətin nə ilə qurtaracağını gözlədilər.

— Sağ olun, xanım.

— Bu qəşəng uşaq kimindi, qız? Simin yenə rişxəndlə gülümsündü:

— Elməddinin qızıdı, xanım.

— Yəni sənlə onun də?

— Bəli, xanım.

— Hm... — Zərrintac xanım maşının açarını barmağının ucuna fırladı, ayağının birini götürüb o birini qoydu. Və tikanlı-tikanlı;

— Elə mənim evimdə başlamışdız gizli fəaliyyətə? Simin qıpqırmızı qızardı:

— Bu nə sözdü, xanım? Sizə heç yaraşmır belə sözlər!

Əfsanə bayaqdan alt dodağını dişiylə sıxaraq susur, qulaq asırdı. Ancaq Zərrintac xanımın bu sözünə dözə bilmədi qəzəblə:

— Bura bax! — dedi. Elə bil bayaqdan Zərrintac Əfsanəni görmürdü, səsi çıxan kimi ona sarı döndü və alınıb nazilmiş qaşlarını dartıb alnının ortasına qaldırdı və:

— A... sən kimsən? Ay qız, bu kimdi? — dedi və son sözləri Simindən soruşdu. Cavab almamış: —Dayan, dayan, sən Əfsanə deyilsən? — dedi.

— Bəli, mən Əfsanəyəm, sənin ağayi Siracəddinə satmaq istədiyin Əfsanəyəm, xanım. Amma alçaq niyyətiniz baş tutmadı. Namus dəllalı!

Zərrintac xanım sakit, ancaq neştərli bir ədayla güldü:

— Hə, belə de! Elməddin indi ikinizi də saxlayır?

— Bəli! — Simin dedi. — İkimizi də saxlayır!

— O kəççi bir məni saxlaya bilmədi, sizin ikinizi necə saxlayır görəsən?

— Lap əla! — Əfsanə acıqlı-acıqlı söylədi. — Lap əla saxlayır, xanım.

— O kişidi yəni? — deyə Zərrintac xanım nədənsə söhbəti davam etdirməyərək (deyəsən Əfsanənin qırımından qorxdu) birdən-birə dönüb maşına tərəf uzaqlaşdı. Siminin, Əfsanənin nə dediyini eşitmədi. Zərrintac maşına minib qapını örtəndə dodaqaltı:

— Dayanın, sizin ikinizi də mələr qoymaq mənə borc olsun! — söylədi.

...Elməddin evdə yox idi. Stolun üstünə məktub yazıb qoymuşdu: «Mən şəhərə getdim. Gec gəlsəm, nigaran qalmayın.» Simin kağızı oxudu və qaşları çatıldı. Sonuncu söz nəzərini xüsusilə cəlb etmişdi. Əvvəllər belə hallarda da yazardı, ancaq onda «nigaran qalma» yazardı. Lakin indi... «qalmayın».., Demək, o, Əfsanəyə də müraciət eləyirdi, indi onun da nigaran qalacağını bilirdi. Simin ah çəkdi, unutmağa çalışdı. Körpəsini döşünə salıb əmizdirdi, paltarını dəyişdi. Yerinə saldı. Balaca Əfsanəyə hava dəydiyindən və yorulduğundan tez yuxuya getdi. Simin Əfsanənin otağına keçdi. Nədənsə ürəyi əsirdi, əsirdi ki, indicə Əfsanə Elməddini soruşacaq. Soruşsa... demək, hələ də maraqlanır, demək, hələ də əl çəkməyib, göz çəkməyib ondan, Ancaq Əfsanə heç nə xəbər almadı. Bu, Simini sevindirdi, gümrahlaşdırdı.

— Bəs niyə oturubsan, bacı? — deyə döşəkçənin üstə əyləşib kürəyini divara söykəmiş Əfsanədən soruşdu.

— Bəs neyləyim?

— Dur paltarlarını geyin, baxaq, görək necə yaraşır?

— Yaraşdı-yaraşmadı, daha almısan, — dedi. Simin hiss elədi ki, geyim, pal-paltar onun gözündə yoxdu. Qadın olasan, paltar üçün

əldən-ayaqdan getməyəsən, bu, ağlabatan iş deyildi. Həddindən artıq bədbəxt qadının gözündə geyim, bəzək heç nədir — bunu Simin az yaşı ilə başa düşürdü. Bədbinliyi, bədbəxtlik hissini Əfsanənin ürəyindən çıxartmaq, unutdurmaq lazım idi — Simin bunu da anlayırdı. Odur ki, israr elədi:

— Sən allah, dur ayağa, geyin görək. — irəli yeriyib qolundan tutdu, qaldırdı. Sonra bağlamanı açdı. — Çıxart əynindəkini, bax, bunu gey... Yoxsa utanırsan məndən? Yaxşı mən çıxıram, sən əynini dəyiş. — Simin getdi. On-on beş dəqiqədən sonra qayıdanda Əfsanəni az qala tanımayacaqdı. Qırmızı, üstü güllü don elə bil əyninə tikilmişdi. Dikdaban çəkmə boyunu bir az da uca göstərirdi. Simin ona arxadan baxdı, gülümsündü:

— Mübarəkdi, bacı. Sənə necə gözəl yaraşır, Əfsanə! Elməddin gələndə səni heç tanımayacaq.

— Elməddin evdə yoxdu məgər?

— Yox. Şəhərə gedib. Vallah, tanımayacaq. Hə, bax, indi oldun əsl şəhər qızı. Sağlığına qismət olsun, toya-düyünə geyəsən, Əfsanə!

— Çox sağ ol, bacı. Sən mənə elə xəcalət verirsən ki, ömrüm boyu bu xəcalətdən çətin çıxa biləm, Simin!

— Heç bir xəcaləti-zadı yoxdu. Allah haqqı, elə bilirəm sən də mənim bacımsan, özü də böyük bacımsan.

— Ömrün uzun olsun, bacım... Bu ara həyətdən səs eşidildi:

— Kim var, kim yox?

Simin səsindən anasını tanıdı. Arvad əlindən tutub gətirdiyi Vətənyarla nəsə danışa-danışa içəri girdikdə Simin Əfsanənin yanından qışqırdı:

— Burdayıq, madərcan, bura gəl-

Fatimə — iri gövdəli, başı örtüklü qadın qapı ağzında görünəndə Simin irəli cumdu, anasının boynunu qucaqladı, üzündən öpdü, sonra əyilib qardaşının alnından öpdü:

— Xoş gəlibsiz, — dedi. Sonra üzünü təzə paltarda ortalıqda heykəl kimi donub qalmış Əfsanəyə tutub: — Anamdı, bu da qardaşımdı. Adını Elmi qoyub — Vətənyar! — söylədi və anasına sarı dönərək Əfsanəni də anasına tanıtdırdı: — Bu qəşəng gəlin də...

Əfsanədi. Elməddinin... — duruxdu, nə deyəcəyini düşündü və — qardaşı arvadıdı, — söylədi. Fatimə başını tərpətdi, irəli yeriyib Əfsanənin üzündən öpdü:

— Xoş gəlmisən, qızım.

— Xoş günün olsun, — söylədi Əfsanə...

Fatimə də Elməddini tanıyan bir çox adamlar kimi, Əfsanənin kim olduğunu qiyabi surətdə bilirdi. Daha doğrusu, Elməddinlə onun macərasından xəbərdar idi. Qızının dilindən «Əfsanə» sözünü eşidən kimi arvadın hafizəsində vaxtilə eşitdiyi əhvalatlar canlandı və dalağı sancdı. Sonra münasib bir məqam axtarıb Əfsanənin boy-buxununu nəzərdən keçirdi, o da, qızı kimi, etiraf elədi ki, Əfsanə gözəldi. Və burada o, ana qəlbinin həssaslığı ilə, təcrübəli bir qadın kimi, qızının indiyə kimi çox razı qaldığı ailə həyatının üstündə qara buludlar dolaşdığını hiss elədi. Əslində, Fatimə arvadın əvvəldən Elməddin sarıdan beli bağlı deyildi. Üzə vurmasa da, açıb ağartmasa da, bu nigarançılıq həmişə arvadın ürəyində yaşamışdı — düzdü, qızı ondan çox razı idi, ondan danışanda dili ağzına sığışmırdı. Öz yaxşı söhbətləri ilə — Elməddinin təmizliyindən, qayğıkeşliyindən, mərdliyindən elədiyi söhbətlərlə Simin anasının qəlbindəki o gizli nigarançılığı, qorxunu qovub pərən-pərən eləyirdi. Ancaq indi Əfsanəni görəndə həmin hiss yenə qayıdıb gəldi — Əfsanə gözəl idi. Fatimə qorxdu ki, Elməddin o gözəllik qarşısında dayana bilməsin, təslim olsun. Onda... Siminin günü gün olmayacaqdı bu evdə, onda Siminin ömrü ömür olmayacaqdı bu xanimanda! Fatimə belə hiss edirdi ki, Simin bu məsələlər barədə düşünmür yəqin — çünki anasının fikrincə, o, hələ uşaqdı. Başa salmaq, qızın gözünü açmaq lazımdı — Fatimənin qənaəti belə idi. Ona görə də, bir azdan — Vətənyar yuxudan oyanmış balaca Əfsanə ilə oynayanda, Əfsanə öz otağına çəkiləndən sonra Fatimə Simini yanına çağırıb oturtdu, sözü hərləyib-fırlayıb əsl mətləbin üstünə gətirdi:

— Yaxşı, qızım, deyirsən bu Əfsanə Elməddinin qardaşı arvadıdı?

— Hə.

— Bəs onun qardaşı ölməmişdi?

— Ölüb!

— Bəs onu Elməddin almamışdı?

— Yox.

— Bə deyirdin alıb axı!

— Almışdı deyəndə ki... kəbinləri kəsilib, ancaq Elməddin qəbul etməyib, deyib o mənim qardaşımın arvadıdı, mən onunla yaşaya bilmərəm.

— Bə onda... bura niyə gəlib o?

— Gəlib də. Bəs hara gedəydi? Yazığın heç kəsi yoxdu — ümidi gələn bircə Elməddindi.

— Hm....

— Necə məgər ki?

— İndi həmişəlik burda qalacaq?

— Hə. Bəs harda qalsın, madərcan?

Fatimə qızının sadəlövh danışığından hirsləndi:

— Cəhənnəmdə qalsın, gorda qalsın!

— Sus, madər, yavaş. Eşidər, ayıbdı.

— Nə ayıbdı, qız? Sən dünyaya avam gəldin, deyəsən elə avam da kedəcəksən. Ay qız, sən bir fikirləşmirsən ki, odla pambığı bir yerdə saxlamaq xatalıdır? Cavan qadın, cavan kişi. Onların bir yerdə nə işi ola bilər axı? Bir də gördün şeytan yoldan çıxartdı, yapışdılar bir-birindən, sən qaldın qapı dalında. Onda nə olsun? Axı, sənin uşağın var, bala. Özünü düşün, uşağını düşün!

— Yox, madər, sən Elməddini tanımırsan. O, dünyasında elə iş tutmaz. Əfsanə də elə qadın deyil.

— Ay avam, ay avam. Avamlıqda qibləgahına çəkdin! Məni bu yandırır. Baxarsan, o, sənin ərini əlindən almasa, səni ağlar qoymasa, onda mən Fatimə deyiləm. Baxarsan, görərsən. Sən indi onları gərək gözdən qoymayasan, imkan verməyəsən xosunlaşsınlar, bir-birini imsiləsinlər. Yoxsa başına, dizinə döyə-döyə qalarsan, məndən deməkdi, qız!..

O gün... Fatimə arvad... Siminin ürəyinə şübhə toxumu səpib getdi.

ON DOQQUZUNCU FƏSİL

Əfsanə son dərəcə mürəkkəb, ziddiyyətli, sevinc dolu, eyni zamanda kədərli, illərdən bəri arzuladığı, can atdığı, indi isə baş çıxara bilmədiyi, anlamadığı, buna görə də qaçmaq istədiyi, lakin niyə, hara, kimin yanına qaçacağını bilmədiyi dolaşıq bir aləmə düşmüşdü. Bu aləm onun üçün maraqlı idi, yeni idi. Bu aləmdə hamıdan — Reyhan anadan da, Şahindən də gizli saxladığı xəyal dünyasının baş qəhrəmanı — Elməddin yaşayırdı; o Elməddin ki, həsrətini çəkə-çəkə ömrünün ən əziz, ən şirin bir parçasına çevrilmişdi — bax, həmin Elməddini tapmışdı Əfsanə. Bu evə qədəm basanacan onun üçün ancaq bir məsələ mövcud idi. Elməddini görmək, onunla danışmaq, onun gözlərinə baxmaq... vəssalam. Daha sonra nə olacaqdı, nə ola bilərdi — bunlar barədə düşünməmişdi Əfsanə. Ancaq indi görürdü ki, yox, bu görüş o fikirləşdiyi qədər də asan deyilmiş — burda neçə-neçə həlli müşkül suallar varmış! Əfsanə Elməddini görüb toxtamışdı, qəlbini illər boyu sıxıb əzən həsrəti-qubarı azalmışdı. Aşkarda, xəlvətdə, Əfsanə Elməddinə çox baxmış, gözünün həsrətini öldürmüşdü. Amma yenə narahat, yenə nigaran idi. Həyatda insaflı, mürüvvətli olmağı hər şeydən üstün tutan və insanlardan da çox zaman bunu uman Əfsanə Elməddinin, o, evdən çıxıb gedəndən sonra başına gələnləri, çəkdiyi əziyyətləri, mənəvi əzabları gecələr yatağına uzananda da, tək qalanda da götür-qoy eləyir, ölçüb-biçir, onun haqlımı, haqsızmı olduğunu müəyyən etməyə çalışır gah haqq qazandırır, gah da ittiham edirdi. Həyat bir dənizdi — onun nəzərində, — bu dənizin fırtınalı qoynuna düşən adam məhv də ola bilər, yarımcan halda özünü birtəhər sahilə də çatdıra bilər — dəyişib əclaf da, yaxşı insan da ola bilər. Bəli, həyat, bir-birinin dalınca qanad açıb sürətlə uçan illər insanın tək zahirində, saçlarında, üzündə əl gəzdirmir, o eyni zamanda insanın ürəyini də, hisslərini də yonub-baltalayır, ya büllurlaşdırır, ya kobudlaşdırır — axırı ki, nə isə dəyişilir, nə isə ölüb gedir, nə isə doğulur! Əfsanə ömrünün-gününün elə vədəsini yaşayırdı ki, dünyanın kitablara yazılmamış bu hikmətini başa düşürdü və bu mizanla Elməddinə baxanda onda müəyyən dəyişikliklər görürdü. Bunu, əlbəttə, təbii sayırdı

Əfsanə. Elməddin kişiləşmişdi, Elməddin artıq uşaq atası idi, onun indi özünə görə adısanı vardı. Kənddə beş-on adamın tanıdığı, qardaşının haqqını tapdadığı və böyük-kiçik gözlədiyinə görə məhəbbətini belə dilinə gətirməyən, üstünə su səpilmiş ocaq kimi korun-korun yanan, başıaşağı Elməddin deyildi. Elməddin, Siminin də danışdığına görə, özünün də müşahidə etdiyinə görə, qarşısına nə isə çox ali, uca bir məqsəd qoymuş, bu yolda həbsxanalardan, ölümündən belə çəkinməyəcəyinə and içmiş tamamilə yeni bir adama çevrilmişdi. İndi onun, dünən Əfsanənin tapılması münasibətilə nə qədər xərc çəkib təşkil etdiyi böyük qonaqlıqda gördüyü kimi, necə də şan-şöhrətli, mehriban əqidə-məslək dostları vardı ki, Elməddin onlarla fəxr eləyirdi. Şəfi kimi böyük sənətkarın dostu olmaq məgər hər kəsə nəsib olan səadət idi? Əfsanə özü də, dünəndən bəri Elməddinin bu cah-cəlalına baxıb uşaq kimi sevinirdi və düşünürdü ki, Elməddinin bu mərtəbəyə gəlib çıxmasında hardasa, nədəsə onun da kiçik bir payı var. Ya bəlkə heç yox idi? Olsa da, olmasa da, Əfsanə Elməddinin bu gününə, bu məqamına baxıb fərəhlənirdi. Ancaq, hiss edirdi ki, bu fərəh azdı, onun qəlbindəki boşluğu doldura bilmir, kədəri, qüssəni tamam silib apara bilmir — bu onu ağrıdırdı. Nəydi bu boşluq, nədəndi? Heç özü də düz-əməlli baş çıxarda bilmirdi. Bax, buna da sevinirdi ki, Elməddinin indi Simin kimi mehriban, ağıllı, həssas yoldaşı var, inanırdı ki, Simin ona qəlbən bağlıdı, onu xoşbəxt edib. Gül parçası kimi Əfsanəsi var Elməddinin! Siminin təkidiylə bu adı seçiblər! Bunlar az idi? Hələ, Simin ona öz bacısı kimi baxır: bir «bacı» deyəndə, necə deyərlər, beşi də ağzından düşürdü — o gün bazara apardı, Əfsanəni təpədən-dırnağa bəzəndirdi, geyindirib-keçindirdi. Bunu kim edərdi? Hətta doğma qardaşarvadı da eləməzdi! Bütün bunlar da hardasa sevinc idi, fərəh idi, dərindən düşünəndə adamı mütəəssir edir, göz yaşardırdı. Lakin... lakin həmin boşluq dolmurdu, həmin o adsız qüssə-kədər çəkilib getmirdi, aman allah!

Neçə gündü burda idi, öz ürəyinə də baxırdı, Elməddinin, Siminin ürəyinə də. Öz ürəyini görə-görə baş çıxara bilmirdi — Siminin, Elməddinin sözlərini eşidirdi, hərəkətlərini görürdü, gözlərini görürdü. Elməddin, şübhə yox idi ki, bu günlərdə çox tutulmuşdu, kədərli idi — gah üz-gözündən sevinc yağırdı, gah da

fikir dəryasına qərq olurdu. Yaz havasına bənzəyirdi. Dolurdu, boşalırdı. Demək olar ki, bir gözü ağlayırdı, bir gözü gülürdü Elməddinin. Deyirdi. Danışırdı, qonaqlıqda şer söyləyirdi, ancaq Əfsanə bütün bu hərəkətlərin, sözlərin, hətta səsinin, gülüşünün arxasında ən həssas adamların duya biləcəyi bir nisgil, bir qüssə oxuyurdu. Özü də Əfsanə anlayırdı ki, bu sınıqlıq, bu qırıqlıq Elməddində o, onu «vəfasız» adlandırandan sonra əmələ gəlib. «Gərək belə deməyəydim— dilim quruyaydı, lal olaydım, gərək belə deməyəydim» — deyərək peşmançılıq hissi keçirirdisə də, əli heç yana çatmır, yanıb yaxılayaxıla qalırdı.

Otağına qapılıb Elməddinin «Əfsanəli mahnılar» kitabını oxuyurdu, şerlərin «ürəyinə» girir, onları dərk etməyə çalışırdı. Şerlərin bir çoxu əvvəldən, lap Ədnan qəryəsindən ona tanış idi — bilirdi ki, Elməddin bu şerlərn ona yazmışdı o vaxt. O yazılarda nakam, sızıltılı bir məhəbbətdən söz açılırdı — onlarda qəribə bir göynərti, qəribə bir sızıltı vardı ki, istər-istəməz adamı kövrəldirdi. Onlar Əfsanənin həyatının ötən çağlarını yadına salırdı. Bax, bu şerəcən — «Sən» şerinəcən Ədnanda yazılmışdı, sonrakılar isə Əfsanə itkin düşəndən, yoxa çıxandan sonra qələmə alınmışdı — həmin kövrəklik, həmin nisgil, həsrət daha da alovlanmışdı, necə deyərlər, alovun dilləri ərşə dayanırdı. On-on beş şer bax həmin illərin — Əfsanə yoxa çıxan illərin məhsulu idi. Sonra... birdən-birə elə bil o kədər hardasa qırılmışdı, yorğunluq, məyusluq əmələ gəlmişdi, küskünlük, taleyin hökmü ilə barışmaq hissi doğulmuşdu.. Burda Əfsanə həsrəti qurtarırdı elə bil! Demək, sonra Zərrintac xanım peyda olubmuş — çünki şerlər «dirilmişdi», sevinclə bəzənmiş elə bil! Bax, bu şerlər. Əfsanə oxuduqca and içə bilərdi ki, ona yox, Zərrintaca yazılıb. Bu əsərlərdə Elməddin xoşbəxtdi, bəxtəvərdi. Yox, budur, yenə hardasa Əfsanə yada düşüb — ürəyi göynəyib sızsız sızıldayıb Elməddinin! Sonra kimsə yenə o hissi boğub, öldürüb.

Az sonra giley-güzar dolu şerlər... Bunlar Zərrintacdan ayrılandan bəri yazılıb şübhəsiz! Peşmançılıq?! Kimdənsə, kimin xatirəsindənsə üzr istəmək meylləri, yalvarış! Bu yenə Əfsanədi... Sonra isə... Simin gəlir — Siminə həsr olunmuş şerlər gəlir! Elməddin yəqin özü də hiss eləmədən, sevgilərinin tarixçəsini

qələmə alıb — bəlkə indi özünü dindirsən, ayrı şeylər deyər. Amma onlar düz olmaz, düzü burda yazılanlardı, bəli, burda yazılanlardı. Əfsanə şerləri oxuduqca Elməddinin ürəyinin döyüntülərini eşidir, harda bu ürəyin «Əfsanə», harda «Zərrintac», harda isə «Simin» pıçıldadığını duyurdu. Və bu hiss Əfsanənin qəlbini istər-istəməz sıxırdı ki, Əfsanə yavaş-yavaş unudulurmuş, Əfsanə yavaş-yavaş uzaqlaşırmış! Kim bilir, bu vaxt Elməddinin gecə-gündüz, yuxularında belə dilinin əzbəri olan bu gözəl ada qayıdış olacaqdımı? Olmasaydı, nə etmək olardı? Ürəyə ki zor yoxdu. Olacaqdımı bundan sonra? Nə xeyri vardı! Gec deyildimi? Gec idi, gec idi, çox gec idi. Ancaq Elməddinin hərdən ona zillənən, dilsiz-ağızsız ağlayan gözlərini nəzərində canlandıranda Əfsanənin ürəyi azca da olsa isinirdi; o baxışlarda Əfsanə sönməz bir həsrət oxuyurdu, bu həsrət böyük idi, bu həsrət sönənə, ölənə oxşamırdı, bu həsrət ona sükut içində də, söz-söhbət arasında da nə isə çox sirli şeylər pıçıldayırdı. Bu o anlar idi ki, Elməddin hər şeyi — qardaşını da, arvadını da, qızını da unudurdu, bunlar Elməddini o illərə aparırdı, hər cür maneələri qırır, dağıdıb-parçalayırdı. Ancaq öz baxışlarını özü tutan kimi, elə bil yuxudan ayılırdı, səksənib ətrafa baxır, nəzərlərini yerə dikib qızaran kimi olurdu. Əfsanə bunun mənasını çox yaxşı başa düşürdü: demək, Elməddinin ürəyində hələ də gizli mübarizə gedirdi. Demək, məhəbbət ölməmişdi, məhəbbət yaşayırdı. İlahi məhəbbət ölmürmüş, sönmürmüş! Düşüncələrinin bu yerində Əfsanə qeyri-iradi olaraq Qarabağ qəryəsindən çıxarkən gözüyaşlı, cavabsız qoyub gəldiyi Şahini xatırlayırdı. Şahin... yəqin özündən də xəbərsiz ona vurulan, niyə, nə üçün sevdiyini belə bilməyən Şahin gəlib gözlərinin qabağında dururdu, o aylı-ulduzlu gecə xəyalında canlanırdı, çardağın üstündə başını üzünə tərəf əymiş, Əfsanə oyanmasın, görməsin, bilməsin deyə nəfəsini də içinə çəkmiş, gözlərindən isti yağış yağdıran o vurğun cavanın qorxa-qorxa alnından öpməyini yadına salırdı və indi başa düşürdü ki, Şahinə necə böyük zülm olub, Şahin necə böyük həsrətin əlində tək-tənha qalıb! Dözəcəkmi o cavan bu həsrətə? Dəli olacaqmı? Unudacaqmı? Kaş unuda biləydi, kaş unutmağı bacaraydı! Amma yox, bu, çətin məsələdir — unutmaq asan olsaydı, Elməddin Əfsanəni çoxdan unudardı — daha indi də...

üstündən uzun-uzun illər keçəndən sonra da bax beləcə, həsrətin əlnndə qovrula-qovrula, kəsilə-kəsilə qalmazdı. Yox qalmazdı! Şahinin yolun ortasında, Əfsanə onun alnından öpüb qaçandan sonra qışqıra-qışqıra dediyi sözlər indi — bu neçə vaxtın ərzində birinci dəfəydi ki, qulaqlarında səslənirdi: «Getmə, Əfsanə!», «Harda olsan gəlib səni tapacağam!..» Bəlkə, Əfsanə nahaq o cavanı elə ağlar qoyub gəlmişdi? Bəlkə o, Əfsanəni xoşbəxt edəcəkdi? Bəlkə, Əfsanə onu sevəcəkdi — xoşbəxt edəcəkdi? Bəs yaş fərqi? Yox, boş şeydi. Azdımı özündən on, iyirmi, hətta otuz yaş kiçik qız alan kişi? Nə olar ki, qadın kişidən yeddi-səkkiz yaş, lap on yaş böyük olanda? Niyə elə ola bilir, belə yox, niyə axı, niyə? Ürək istəsə... Bəli, bəli, ürək istəsə... Bax, budur əsas məsələ.. Əfsanə Şahinə uşaq kimi baxmışdı, onu evin kiçik uşağı hesab eləmişdi həmişə. Birdən-birə Şahin... ona vurulmuşdu. Birdən.. o gəlib, dediyi kimi, Əfsanəni tapdı. Bəs onda? Onda da... yox!!!

Elməddinin qanadı altında olmaq, onun quruca səsini eşitmək, işə getdiyini görmək, işdən döndüyünü görmək, sevən, qayğılı gözlərinə oğrun-oğrun olsa da baxmaq Əfsanə üçün səadət idi. Bu, bəs idi Əfsanəyə.

Əfsanə belə düşünürdü.

DÖRDÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Reyhan nənə qapını itələyib açmaq istəyəndə qarşısında ağappaq bir adam görüb səksəndi və:

— Bismillah!—dedi. Qar adam arvadın qorxduğunu o dəqiqə — səsindəki həyəcandan duyub:

— Ay arvad, qorxma, mənəm! — söylədi və güldü. Reyhan nənə əlini ürəyinin üstünə qoyub zənlə qapı ağzında dayanan adama nəzər salaraq:

— Bıy, ay uşaq, sənsən? Ay saqqalın ağarsın, adam gələndə bir öskürməz — səs eləməz? Ürəyim düşmüşdü ki? — Deyərək ayağını astanadan dişarı qoyaraq çoxdan bəri görmədiyi nəvəsinin — Şahinin boynunu qucaqladı, şaxtadan donmuş üzündən öpdü və qolundan tutub içəri sürüdü:— Gəl, gəl, dondun sən, bala!

Şahin içəri keçdi, qapının ağzında üst-başının qarını çırpdı, papağını çıxartdı. Şahinin qara, qalın qaşlarına, yenicə qoyduğu və ona çox yaraşan bığlarına qırov qonmuşdu, yanaqları alma kimi qızarmışdı. Ayaqlarını daş döşəməyə çırpa-çırpa əllərini ağzına tutub hovxurdu:

— Necəsən, ay nənə, qadan alım?

— Əşi, necə olacağam? Çox pis! Məni qoyubsan tək-tənha, çıxıb gedibsən, neçə aydı, məndən xəbərin yoxdu, bilmirsən ölmüşəm, qalmışam. Gözüm yollarda qalıb, bu həftə gələr, gələn həftə gələr.

— Nənə, vallah, dərslərim çoxdu. Gələ bilmirəm. Keçən həftə gələcəkdim. Onda belə. Yol-riz bağlı oldu, serviz-filan işləmədi, qaldım kəsilə-kəsilə. Yoxsa... mən sənin gözlərini yolda qoyarammı heç? İstəyirdim lap pay-piyada gələm..

— Yox, yox, qadan alım, elə şey eləmə. Qışdı, yalquzağa-zada rast gələrsən, dədəmin çırağı sönər.

Şahin nənəsilə danışa-danışa ayaqqabılarını balapuşunu soyundu, xalı döşənmiş yerə keçdi. Otaq isti idi, buxarı yanırdı. Ocağın

üstündəki qara çaydan cızıldayırdı. Şahnn ocağın qabağında çömbəlib əlini oda tutdu — kərmə odu əlini isitdi az sonra və barmaqları gizildəyəndə oğlan ayağa qalxdı. Çəkilib döşəkcənin üstündə oturdu.

— Puhəntunda[1] dərslərin-zadın necədir, a bala?

— Yaxşıdı, nənə. Sən məndən nigaran olma ey.

— Təki olsun, bala, təki olsun...

...Üç il qabaq günəşli bir yaz səhəri, Əfsanə gözlənilmədən Qarabağdan gedən gün Şahin demək olar ki, mənən ölmüşdü. Ötən illər ərzində Şahin Əfsanəyə elə bağlanmışdı və son bir neçə ayda elə vurulmuşdu ki, bu həyəti, bu evi onsuz təsəvvür etməyi belə ağlına gətirə bilməzdi. Uzun müddət elə sanmışdı ki, o, dünyaya gəlməmişdən əvvəl də Əfsanə bu evdə olub, haçansa, lap qoca vaxtı bu dünyadan köçəndə də o, elə bu evdə olacaq — özü də belə qəşəng, belə qənirsiz. Hər şey dəyişəcək, solub-saralacaq, ölüb gedəcək — təkcə Əfsanə bax beləcə, gördüyü kimi, xüsusilə, son aylar gördüyü kimi qalacaq. Halbuki Əfsanə onun gözünün qabağında bu yurda qədəm basmışdı. Bəs bu təsəvvür, bu hiss onda nədən əmələ gəlmişdi? Bilmirdi. Bəli, həmin o yaz günü Əfsanə gedəndən və Şahin bu gedişə qəti inanandan sonra onun elə bir müsibəti başlamışdı ki, bunu dillə demək heç cür mümkün deyil — bu dərdi kənardan baxan, görən əsla olduğu kimi izhar eləyə bilməz; buna şübhə yoxdur — məsələ burasındadı ki, həmin fəlakəti, həmin ağrını olduğu kimi bəyan eləməyə Şahinin özünün də — o dərdi çəkən oğlanın özünün də gücü-qüdrəti çatmazdı. Şahin o gün, o anlarda çəkdiyi bütün əzablarını, müsibətlərini ancaq belə qiymətləndirə bilərdi: «Ölsəydim, bundan min dəfə yaxşı olardı. Tikə-tikə doğrayaydılar məni, təki gözlərimin qabağında Əfsanə olaydı — onda cınqırımı da çıxarmazdım. Məni öldürəydi, sonra çıxıb hara istəyirdi gedəydi». Amma belə olmamışdı, Əfsanə onu gözüyaşlı (yazıq utandığından aşkarda — onun hüzurunda ağlaya da bilmədi, gözlərinin selini xəlvətdə ürəyinə axıtdı), həsrət içində çırpına-çırpına, hicran ümidinə, dəli kimi öz-özünə danışmaq ümidinə, dərdini o gəzdiyi bağ-bostana, həyət-bacaya, yatdığı çardağa söyləmək

[1] Puhəntun — darülfünun.

ümidinə qoyub getmişdi. Özü də həmişəlik getmişdi, geri qayıtması göyün yerə enməsi kimi bir şey idi. Getmişdi, sözü, gülüşü, qəmli gözləri, həmişə çatılı olan gözəl qaşları, boy-buxunu yaddaşında qalmışdı Şahinin. Bir də axırıncı gecə qorxa-qorxa, uçuna-uçuna çardağa çıxaraq dodaqlarını ehmalca toxundurduğu alının hərarəti qalmışdı hafizəsində; bir də yolun ortasında, o dəhşətli, daha doğrusu dəhşətini o anlarda hələ tam hiss eləmədiyi o ayrılıq anında Əfsanənin alnına toxunan dodaqlarının istisi qalmışdı yaddaşında. O, yolda əvvəlcə sürətlə, sonra yavaş-yavaş addımlayıb uzaqlaşdıqda, uzaqlaşıb gözdən itdikdə, xeyli müddət nə baş verdiyini dərk etmədən, key kimi, durduğu yerdəcə donub qalmış, Əfsanənin uçub həmişəlik getdiyini anlayandan sonra isə, az qala hərəsindən bir pudluq daş asılmış kimi ağır görünən ayaqlarını sürüyə-sürüyə həyətə qayıtmış, nənəsinin üzünə belə baxmadan (sanki Əfsanənin getməsində Reyhan arvad günahkar idi — özü günahını bilmirdi yazıq) içəri keçib taxtın üstündə üzüqoylu uzanmışdı; nə yaşamağa həvəsi, nə danışmağa, durub bir iş görməyə hövsələsi qalmışdı. Yemək barədə heç söz də ola bilməzdi. Yuxu isə... Düz üç gün yuxu aləmi ilə ayıqlıq arasında qalmışdı. Reyhan arvad əvvəlcə uşağın bu hala düşməyindən yamanca qorxmuşdu. Ancaq çox keçməmiş, dünyagörmüş arvad, nəvəsinin birdən-birə beləcə tutulub qaralmağının, «ölüb o dünyalıq» olmağının səbəbini başa düşmüş, həm gülüb sevinmiş, həm də nigaran qalmışdı. Gülüb sevinmişdi ona görə ki, Şahin onun nəzərində hələ uşaq idi, hələ «ağzından süd iyi gəlirdi». Kişiləşib qurban olduğum. Bir buna bax, ay qırışmal, bir qarış boyu var, aşiq olur. Vay səni şeytan!» Nigaran qalmışdı ona görə ki, son vaxtlar arvad uşağın nazilib-incəldiyini görür, bir gizli mərəzə tutulduğunu güman eləyirdi, ancaq səbəbini ağlına gətirə bilmirdi. İndi, Əfsanə çıxıb gedəndən sonra bu səbəb aydın olmuşdu — ancaq arvad qorxurdu ki, onun getməyi ilə «uşağın başı pozular», «xəyalı çaşar» — əli hara çatardı?.. Bax bu, Reyhan aravadı qorxuya salmışdı. Uşağı belə halda görəndə Əfsanəyə rast gəldiyi günə lənət yağdırırsa da, tez peşman olurdu. Çünki Əfsanənin haqqında pis fikirləşməyə ürəyi gəlmirdi — Əfsanə onun nəzərində son dərəcə ağıllı, mehriban, qayğıkeş, işli-güclü bir qadın idi. Başıaşağı olması, şit-şit

hərəkətlər etməməsi, ləyaqətini qoruması Reyhanın çox xoşuna gəlirdi. Arvad hardasa öz təbiəti ilə Əfsanənin arasında bir oxşarlıq, lap eynilik görürdü və qəlbində ona, valideyininə min afərin deyirdi. Hərdən, düzü, ürəyindən keçirirdi ki, adamın belə bir gəlini ola, nə yaxşı olar? Şahin də böyük deyil ki, elə alam onun üçün, qala, yaşaya. Yetim, kimsəsiz qızdı, Allaha da xoş gedər. Ancaq Şahin ondan çox uşaq idi. Üstəlik də, Əfsanə onun qonağı idi — qonağa belə təklif eləməzdilər!

Ancaq, illər öz işini görübmüş, sən demə. Şahin nənəsinin ürəyindən keçirtdiyini, amma dilinə gətirmədiyini, taleyin hökmü ilə yerinə yetirmək arzusuna düşübmüş, sən demə. Lakin gec, çox gec başa düşmüşdü bu məhəbbəti Reyhan nənə. Bəlkə də bir az əvvəl bilsəydi, Əfsanə ilə danışardı, başa salardı, getməyə qoymazdı — bəlkə elə o yetim qızın qismətində Şahin varmış. Yoxsa tale Əfsanənin o vəziyyətində — ölümün dəhşətli ağuşuna atılmaq istərkən nə üçün onlara tuş eləmişdi? Bunda məgər bir hikmət ola bilməzdimi? Nə isə, olan olmuş, keçən keçmişdi!

Üçüncü gün Şahin, sonralar nənəsinin zarafata salıb hərdən dediyi kimi «div yuxusundan» ayılmışdı. Heç nə olmamış kimi, durub çörəyini yemiş, həyət-bacaya əl gəzdirmiş, dərslərini hazırlamış, sonra məktəbə getmişdi. Reyhan heç nəyi açıb ağartmamış, uşağı utandırmaq istəməmişdi. Arvad sevinmişdi ki, şükür, böhran, sarsıntı tez keçib getmişdi. Əslində isə heç nə keçib getməmişdi—sadəcə, Şahin canını dişinə tutaraq, şax gəzmək, fikir çəkdiyini bildirməmək istəmişdi; elə «o div yuxusu»na getdiyi anlarda özü üçün qəti qərar qəbul etmişdi — məktəbi qurtaran kimi şəhərə gedəcək, Puhəntuna imtahan verəcək, oxuyacaq və yerin deşiyində də olsa Əfsanəni axtarıb tapacaq. O, yalan deyirdi — ərini tapmamışdı, bəlkə heç əri yoxdu onun. O sadəcə olaraq, Şahindən qaçmışdı, vəssalam, Şahin belə düşünmüşdü onda və bütün fikri-zikri də bu istiqamətə yönəlmişdi. Çörək yeməyi də, oxumağı da, yaşamağı da, adicə nəfəs almağı da yalnız bu məqsədə çatmaq üçün idi, yalnız bu məqsədə. Bilirdi, nənəsi onu oxumağa buraxmaq istəməyəcək, ancaq Şahin gedəcək, öldü var, döndü yoxdur — deyəcək. Şəhər çox uzaq da

deyil, iki həftədə, üç həftədə, ən uzağı ayda bir dəfə gələr nənəsinin yanına, işini görər, köməyini eləyər, yenə təzədən gedər məktəbinə.

Ancaq həmin il arzusu baş tutmadı — imtahanların axırıncısından aşağı qiymət aldı, qəbul eləmədilər onu Puhəntuna. O kəsilən kimi Qarabağa qayıtmadı, şəhəri — nabələd olmağına baxmayaraq, ələk-vələk elədi, bazarları, küçələri axtardı, axtardı Ancaq Əfsanə iynə olub yoxa çıxmışdı elə bil. Naümid olub qəryəyə qayıtdı. Qəbul olunmamağına Reyhan arvad bir növ sevindisə də, Əfsanəni tapmamasına təəssüfləndi. Sonra fikirli-fikirli:

— Mən bilirəm, bala, sən o qıza görə şəhərə belə can atırsan. Ancaq nahaq yerə. Onun əri var. Yəqin indi onu tapıb, barışıb. Bəlkə uşağı da var indi. Axtarma onu, oğul, — dedi.

Ancaq bu sözləri Şahin eşitmədi. Daha doğrusu, eşitmək istəmədi. Bir il sərasər başını kitabdan ayırmadı, gecəni gündüzə qatıb oxudu, öyrəndi. İmtahan vaxtı yenə, Reyhan arvadın sözünə qulaq asmayıb özünü şəhərə saldı. Bu dəfə bəxti gətirdi. İmtahanları tək özünün yox, Puhəntun müəllimlərinin də heyrətinə səbəb olacaq bir müvəffəqiyyətlə verərək tələbə adı qazanmışdı. İndi bir il dörd ay idi, Puhəntunun ictimaiyyət fakültəsində oxuyurdu — Şahin Qarabağ qəryəsindən son illərdə Puhəntuna daxil olmuş ikinci adam idi. Bu, qəryədə Reyhan nənənin də, Şahinin də hörmətini-izzətini göylərə qaldırmışdı. «Kəllədi» — deyirdi Qarabağ camaatı Şahin barəsində. Şahin şəhərin ucqarında, Karteyi-məmurin adlanan küçədə, qoca bir qarının evində yaşayırdı. Ayda iki yüz əlli rupi pul verirdi qarıya. Əvvəldən də söz verdiyi kimi, imkanı olduqca nənəsinə baş çəkir, istirahət gününü arvadın yanında keçirirdi. Səhər tezdən isə, yola çıxır, servislərin birinə minərək şəhərə — düz birbaş Puhəntuna gəlirdi.

Başını dərsləri, yoldaşları, kitablar, qaynar gənclik həyatı nə qədər qatsa da, ürəyinin dərinliklərində gizlənmiş pünhan bir ağrı ona rahatlıq vermirdi — bu, Əfsanə dərdi idi, bu, Əfsanəsizlik idi. Şəhərə tez-tez çıxırdı, gözü gəlib keçəndə, qulağı səsdə olurdu. Hərdən ona elə gəlirdi ki, möcüzə baş verəcək, birdən Əfsanə onu özü çağıracaq — «Şahin, Şahin» — deyəcək və o, qanad açıb ona sarı uçacaq, onsuz yaşamağın müsibət olduğuna and içəcək, yalvaracaq.

Ancaq günlər, həftələr, aylar qanadlanıb gedir, möcüzə isə baş vermirdi. Şahin dərsdə oturanda da, kitabxanada da, gecə yatanda da möcüzənin baş verəcəyini intizarını çəkirdi. Şahinin timsalında Əfsanənin dalınca gəzən yeni bir Elməddin peyda olmuşdu. Şahin özü də bilmədən Elməddinin yerini tutmuşdu bu şəhərdə. Əfsanə bilmirdi ki, Şahin, adını gündə milyon kərə ürəyində deyə-deyə onu axtarır. Şahin bilmirdi ki, Elməddinin gözləri daha yollardan, küçələrdən yığılıb!

Şahin bilmirdi ki, indi Əfsanə...

...Hər dəfə gələndə olduğu kimi, bu dəfə də, Reyhan arvad, Şahinin dərslərini soruşub hər şeyin qaydasında olduğunu öyrənəndən sonra, sözü hərləyib-fırlayıb Əfsanənin üstünə gətirdi:

— Qızı görə bilmədin ki, ay ömrüm-günüm? Şahin güllü piyalədəki çayın axırıncı qurtumunu içib piyalənn süfrənin üstünə qoydu və ah çəkdi:

— Yox, nənə. Şəhər böyük, adam çox. Kimdən soruşasan? Yeri bilinmir, yurdu bilinmir!.. Hə, ay nənə, yaxşı yadıma düşdü, onun ərinin adı nə idi? Deyirdi Kabildə, ha! Bir cür adı vardı ey. Yadında qalmayıb ki? Nə isə... «din»lə qurtarırdı ey...

— Yadımdadı, bala. Elməddin idi gərək ki, hə, Elməddin idi.

— Hə, hə, düzdü, Elməddin...

Şahin bu adı yadında saxlamağa çalışdı. Yeganə açar bu ola bilərdi — Əfsanəni tapmaq üçün yeganə yol ancaq bu ola bilərdi. Elməddini hər halda şəhərdə tanıyan olardı. Necə olsa neçə il şəhərdə yaşamışdı, Əfsanənin dediyinə görə, şair idi. Tanımayan olmazdı. Bu fikir ağlına gec gəldiyinə görə, özünü çox danladı. Buna baxmayaraq kefi duruldu Şahinin. Nənəsi toyuq şorbasını qaba çəkib ortalığa qoyaraq:

— Ye, ay ömrüm-günüm, — söylədi və özü də süfrənin o biri qırağında əyləşib: — Kabildə nə var, nə yox? — deyə soruşdu. Şahin yeyə-yeyə dedi:

— Kabildi də, nənə.

— Ora da qar düşüb?

— Müsibət, ay nənə. Təzə-təzə yol-riz açılır.

— Bazar necədi? Bahalıqdı?

— Qış ki düşdü, qar ki yağdı, hər şey bahalaşır.

— Pulun-zadın çatır? Korluq çəkərsən ha, birdən? Şahin loğmasını udub gülümsündü:

— Sənin kimi nənəsi olan korluq çəkər? Bilirəm pulumuz var, ona görə qarnıma korluq vermirəm, nənə.

— Ay xatakar, deyəsən pul qoparmaq istəyirsən məndən hə?

— Ta səndən də qopartmayım, kimdən qopardacağam? Əlahəzrətdən? — Reyhan arvad çönüb qapıya baxdı, sanki kimdənsə qorxurdu:

— Sən canın, ay bala, onlarla işin olmasın. Onların bostanına daş atan hələ gora salamat baş aparmayıb! İşin olmasın bala, başını sal aşağı, kitab-dəftərini oxu, vəssalam. Özləri bilərlər. Camaat necə, biz də heylə.

Şahin qəsdəndi ki, Puhəntunda son günlər əmələ gələn canlanmadan, müəllimlərin, tələbələrin getdikcə güclənən narazılığından, bəzi dərslərin hökumətin siyasətinə, bahalığa, aclığa etiraz əlaməti olaraq pozulmasından, Puhəntun cavanlar təşkilatının apardığı gizli işdən hətta ona da bu gizli təşkilatın üzvü olmağı təklif edildiyindən söz açsın, danışsın, ancaq fikrini dəyişdi. Onsuz da Reyhan arvad bu söhbətin mənasını-məğzini başa düşməyəcəkdi: ondan əlavə belə işlərdə nənəsinin həmişə özünü qırağa çəkdiyini, «bizə nə var, özləri bilərlər, biz qərib adamlarıq» fikrində olduğunu bilirdi. Üstəlik arvad nigaran qalacaqdı — Şahindən nigaran qalacaqdı. Odur ki, söhbəti dəyişdi:

— Qəryədə nə var, nə yox, ay nənə?

— Sağlıqdı eyzən, qurban olum. Təzə bircə xəbərdi ki, Məşdi Qafarın kiçik oğlu Kabildə hansı mehmanxanadasa işləyir axı, hə. O danışırmış ki, Kabildə bir qarabağlıya rast gəlib — əsl qarabağlıya ey, babayın yerlisinə.

— Yox, əşi?

— Vallah.

— Kabildə nə gəzirmiş o?

— Deyir nə bilim Şura hökuməti işləməyə göndəribmiş. Tanış olublar. Deyir, hündür, yaraşıqlı, çalbaş bir kişiymiş. Bizim əsl vətənimizdən gəlibmiş.

— Gətirəydi bura da. Biz də əsl qarabağlı görəydik də.

— Nə bilim, deyir, vətənə gedirmiş. Adı da Ağazadəymiş— deyir. Bircə gecə qalıb mehmanxanada, səhər də çıxıb gedib.

— Heç darıxırsan, ay nənə, vətən üçün?

Reyhan arvad fikrə getdi, əlini ağarmış birçəyində gəzdirə-gəzdirə:

— Mən burda anadan olmuşam, ay oğul, bura da mənim üçün vətənin. Ancaq baban elə vətən-vətən deyə-deyə dünyadan köçdü. Vəsiyyət də eləmişdi ki, işdi, imkan olsa, yol-zad açılsa, gedəsi olsaz, mənim heç olmasa sümüklərimi aparın Şişədə — Cıdır düzündə basdırın hə, rəhmətlik baban belə vəsiyyət eləmişdi, bala, — söylədi.

Şahin ah çəkib ayağa durdu.

İKİNCİ FƏSİL

Gecədən xeyli keçmişdi. Ətraf da, kiçik həyət də, iki kiçik pəncərəsindən işıq gələn tək otaq da bayırdakı qar kimi yumşaq bir sükut içində mürgü vururdu. Təkcə küncdəki dəmir buxarı üstündəki kiçik bir çaydan aramla öz «mahnısını» oxuyurdu. Bəbir bu axşam sükunətinə qərib bir həzinlik gətirən zümzüməni dinləyə-dinləyə sol əlini alnına qoyub miz arxasında işləyirdi. Bu, həmin otaq idi ki, atasından küsüb ayrılandan sonra kirayələmişdi, neçə il burda təktənha yaşamışdı, kişi ilə barışandan sonra isə həmin xudmann otağı əldən verməmiş, oranı özü üçün ehtiyat iş mənzili eləmişdi. Yazmaq istəyəndə, tək qalıb düşünmək istəyəndə o bura çəkilir, bəzən günlərlə çölə çıxmırdı. Belə hallarda Hikmətəli axşamlar onun yeməyini, içməyini hazırlayıb bura gətirir, qapıdan verib gedirdi. Bəbir bəzən gizli iclaslarını da burada keçirirdi.

Bu axşam saat səkkizdə stol arxasında idi. Bel-buxunu, qələm tutan barmaqları ağrıyırdı. Yorulduğunu hiss eləyib qələmi yerə qoydu, şirincə gərnəşdi. Çaydanın cızıltısı güclənmişdi, «Bir piyalə qəhvə içmək pis olmaz!» — deyə fikrindən keçirirdi, ayağa qalxmaq istəyirdi ki, küçəyə baxan, qalın pərdəli pəncərənin şüşəsi astaca döyüldü. Qeyri-iradi pəncərəyə sarı boylandı, özündən asılı olmayaraq bədənindən soyuq bir gizilti axıb keçdi. Gecənin bu vaxtı kim

ola bilər! Ürəyinə gəldi ki, ya Şəfidi, ya Ziyaülhəqdi. Yox, ola bilməzdi — çünki onlar gündüz burda idilər, Hikmətəli? O da bir az əvvəl gedib! Başqa buranı heç kəs tanımır! Demək kimdisə yad adamdı. O tez stolun üstəki vərəqləri büküb xalçanın altına təpdi, Leninin kitabını rəfdəki kitabların arasında gizlədi və sonra bu hərəkətinə özü də güldü: «Guya onlar gəlsələr bunları axtarıb-tapmayacaqlar? Eh, boş şeydi», — deyib iki pəncərənin arasına gəldi və şüşənin qabağına keçmədən (hər ehtimala qarşı, birdən vurarlar!) yavaşca xəbər aldı:

— Kimdi?

Çöldəki adam, görünür, ayağının birini götürüb o birini qoyurdu — şaxtadan donub bərkimiş qar xırıldadı və Bəbir ehtiyatla deyilmiş bu sözləri eşitdi:

— Mənəm, Bəbir can, Mir Əkbərəm...

Bəbirin ürəyi bərk-bərk çırpındı və o, pəncərənin pərdəsini nə vaxt çəkib çölə, qaranlıqa baxdığını bilmədi — ancaq şüşələr şaxtadan naxışlanmışdı, qara kölgədən başqa heç nə görə bilmədi. Tez qapıya qaçdı, pencəyi çiyninə salmağı belə unudaraq həyətə çıxdı, kiçik darvaza qapısını açıb qarşısında... ortaboylu, balapuşunun yaxasını qaldırmış, iri, alınlı, qalınqaşlı adamı görcək tanıdı.

— Bəbir can!

— Miri, Mir Əkbər!

Onlar elə darvaza ağzında bir-birini qucaqladılar. həsrətləri «Bəbir can!», «Miri, Mir Əkbər!» — sözlərində ifadə olunmuşdu elə bil.

...Mir Əkbər Bəbirnn ən ağır, çətin günlərinin dostu idi. Qəlbi təmiz, məkrin, hiylənin nə olduğunu ancaq kitablarda oxuyan Mir Əkbər uzaq Puştu kəndlərinin birində anadan olmuşdu, ağlı söz kəsəndən qəryələrində, sonra Paktiyanın mərkəzi sayılan Kərdiz şəhərində saysız-hesabsız zülmlər, haqsızlıqlar görmüşdü və bunlar onun cavan, bərkə-boşa düşməmiş ürəyində dövlət məmurlarına, qəryədarlara, hakimlərə qarşı sonsuz bir nifrət oyatmışdı. O, adi kəndli, adi əmələ olmaq istəmirdi, o, lap uşaqlıqdan — hərbi geyimli bir zabit gördüyü gündən hərbçi olmaq arzusu ilə yaşamışdı və bu arzu onu hərbi litseyə çəkib gətirmişdi, çalışqanlığı, istedadı

sayəsində oranı bitirən kimi hərbi Puhənzəyə[1] daxil olmuşdu. Orada qabaqcıl fikirli gənc zabitlərlə tezliklə qaynayıb-qarışmış, Kabilin ictimai həyatında fəal iştirak etməyə başlamış, Kabil Puhəntununun tələbələrinin rejim əleyhinə yönəlmiş qeyri-mütəşəkkil çıxışlarında iştirak etmişdi. O, yaxşı natiq idi, danışanda ucadan, aydın, sərrast danışırdı — məntiqi çox güclü idi. O zaman çox cavan olan Mir Əkbər irticanın necə də qorxulu olduğunu, min bir hiylə ilə danışan dilləri susdurduğunu, dörd divar arasına salıb illərlə məhbus saxladığını eşitmişdi, ancaq görməmişdi.

Və bilirdi ki, elə onun dərs oxuduğu məktəbin divarları arasında istixbaratın[2] satqın xəfiyyələri var, onun hər addımını izləyir, yazır, lazımi yerinə çatdırırlar.

Məktəbi bitirən ili, o, dəvahim bridmən[3] rütbəsini yenicə almışdı, az sonra buraxılış imtahanları verib şəhadətnamə alacaqdı. Lakin.. Lakin elə bu ərəfədə, gözlənilmədən, gecə yatdığı yerdə polis və istixbarat işçiləri gəlib apardılar... Mir Əkbər hara yazdı, kimə yazdı, həbs olunmasının səbəbini aydınlaşdırmaq istədi, ancaq heç yerdən, heç kəsdən cavab ala bilmədi və bu minvalla düz altı il həbsxanada saxladılar. Məhkəməsi olmadı, günahı üzünə oxunmadı Mir Əkbərin. Qəribə idi ki, atası, anası, qardaşı da dalınca gəlmədi. Bu, ilk vaxtlar onu çox göynədirdi; ona elə gəlirdi ki, ailəsi ondan üz döndərib. Səsi heç yerə çatmırdı — xariclə zərrəcə əlaqə saxlamağına imkan vermirdilər. Kabil həbsxanalarında isə, evdən yemək, paltar, pul gəlməsə, yaşamaq çox çətindi — bu, ölüm, aclıq adlı qorxulu kabusla hər gün pəncə-pəncəyə gəlmək kimi bir şeydi. Ancaq Mir Əkbər iradəsinin və sağlamlığının hesabına hər məhrumiyyətə dözürdü, susurdu — çünki başqa çarəsi də yox idi. Üç ildən çox keçəndən sonra tamamilə təsadüfən, həbsxanaya düşmüş həmyerlilərinin biri vasitəsilə öyrəndi ki... öyrəndi ki, tutulandan çox keçməmiş onun ailəsinin hamısını... məhv etmişlər! Bu, xəbər, təbii ki, onu çox sarsıtdı — zindanda, öz xəlvət guşəsinə çəkilib günahsız öldürülmüş ata-anasının,

[1] Hərbi Puhənzəy — hərbi məktəb.
[2] İstixbarat — kəşfiyyat idarasi.
[3] Dəvahim bridmən — leytenant

qardaşlarının yasını saxladı — doyunca ağlayıb ürəyini boşaltdı. Onların ölümünə bir oğul kimi təəssüflənsə də, özünü günahkar saymadı — necə deyərlər, canını dişinə tutub dörd divar arasında yaşadı; o, həmin bu ağır günlərində həbsxana yoldaşlarının təsəllisini, qayğıkeşliyni, maddi və mənəvi dayaq olduqlarını görüb təskinlik tapdı. O, dostlarından ən çox qəlbi yanan, onun dərdini öz dərdi hesab edən bir nəfər Mir Əkbərin ürəyində, həyatında, yaddaşında ömürlük qaldı. Bu, Bəbir Karmənd idi. O da xeyli vardı həbs olunmuşdu. Bəbir Mir Əkbərin o ağır müsibətini öz söhbətləri, ağıllı və dərin mühakimələri, insan cəmiyyət, təbiət haqqında maraqlı mülahizələri ilə hiss olunacaq dərəcədə yüngülləşdirdi. O ağır dərd demək olar ki, onları qardaşlaşdırdı, doğmalaşdırdı. Bəbir onu, imkanı daxilində, pulsuz, yeməksiz qoymadı. Evdən nə gəldisə, qardaş kimi, yarı bölüb yedilər və bir-birinə dayaq oldular. Hətta əllərinə düşən kitabları da ruznamələri də yarı bölüb mütaliə edirdilər. Mir Əkbər yaxşı ingilis dili bilirdi. Başqa dustaqlardan və nəzarətçilərdən gizli söz-söhbətləri olanda onlar ingiliscə danışırdılar.

Həbsxanada Mir Əkbər çox şeyi başa düşdü. Sən demə, mübarizə özü də mükəmməl bir elm imiş, onun da sirrləri, üsulları, taktikası varmış: mübarizədə, xüsusilə sinfi mübarizədə, ədalətlə haqsızlığın, zənginliklə yoxsulluğun qanlı-qadalı dönüşündə «babam mənə kor dedi, hər yetəni vur dedi» fəlsəfəsi yaramaz; burada ağıl, tədbir, birlik, nəzəri silah, ən ümdəsi, xalqın ürəyinə yol tapmaq, düşmənin zəif və həssas yerini bilmək, məqam seçmək və s. və s. hikmətlər varmış ki, Mir Əkbər bunları bilmirmiş. Bəbir hər gün, hər həftə, imkan düşdükcə bu məsələlər barəsində söhbətlər aparırdı. Bəbir onun üçün bu dörd divar arasında əməlli-başlı bir məktəb, bir müəllim oldu və Mir Əkbər Bəbirə bir ustad kimi baxmağa başladı. Bəbir həbsxanadan özü üçün təkcə dost, qardaş yox, həm də bir məslək sirdaşı, mübarizə yoldaşı tapdığına çox sevindi. Bu dostluq Mir Əkbər altı il üç ay mühakiməsiz yatdığı həbsxanadan çıxandan sonra da kəsilmədi, davam etdi, möhkəmləndi.

O, azad olunanda Daxili İşlər Nazirliyinə ərizə yazıb hərbi sistemdən tamamilə azad olunmağını xahiş etdisə də, bu, nəticə vermədi. İstəyinin əksinə olaraq, tam ciddi bir hiylə işlədərək xətərli

bir ünsür kimi həmişə göz qabağında, nəzarət altında saxlamaq, fəaliyyətini məhdudlaşdırmaq məqsədilə Daxili İşlər Nazirliyi onu rütbəsini bərpa etmək şərtilə jandarm və polis idarəsinə işə götürdü. Orada Mir Əkbər düz on il işlədi — zabitlərə ingilis dilindən dərs deyirdi. Heç vaxt yüksək vəzifə vermədilər ona. Bu uzun illəri böyük sıxıntı, kədər içində yola salan Mir Əkbərin qazandığı ən yüksək rütbə — turən[1] rütbəsi oldu, vəssalam-

Komandanlığın, yüksək rütbəli sahibmənsəblərin ona şübhə ilə, inamsızlıqla, bəzən təhqirəbənzər etimadsızlıqla baxmaqlarından başqa bu on ildə heç bir fərəh hiss eləmədi. Daim nəzarət altında olduğundan o, yaman gününün dostu, ustadı saydığı Bəbirlə də çox gec-gec, böyük çətinliklə görüşür, dərdləşirdi. Əynindəki paltar onu sanki sıxırdı — nədənsə onu gecəykən hərbi geyimli şəxslər həbsxanaya aparan vaxtdan onda bu formaya qarşı kəskin bir nifrət oyanmışdı. Mir Əkbərə elə gəlmişdi ki, bu libası geyən adamlar xalqın dostu yox, düşmənidir, onun əl-qolunu bağlayan, arzusunu boğan bir dəstədir bu adamlar. O, sonrakı illərdə Kabildə işlərkən çox adamların bu libası geyənlərdən qorxduğunu, çəkindiyini, hətta onlara gizli bir nifrətlə baxdığını dəfələrlə görmüşdü. O libas, o geyim sanki camaatla hökumət, dövlət, heyəte-hakimə arasında zahirən çox yumşaq və yüngül, əslində isə çox möhkəm bir sədd idi. Hər səhər yerindən qalxarkən geyinəndə, axşamlar yatağına girərkən soyunanda bu fikir istər-istəməz yadına düşürdü və özünə nifrət eləyirdi — bu paltarın əlində aciz qaldığına, onu çıxarıb insan kimi rahat yaşamaq haqqını ala bilmədiyinə görə yanıb-yaxılırdı və təəssüflə köks ötürürdü. Həqiqətən bu libas sanki onun bədəninə yapışmışdı — heç cür çıxarıb ata bilmirdi. Daha doğrusu, qoymurdular. Dəfələrlə istefa ərizəsi yazmışdı, Daxili işlər nazirinə də, hərbi nazirə də... ancaq hər dəfə rədd cavabı vermişdilər.

Mir Əkbərin qəlbi, Bəbir kimi nisbətən azad fəaliyyət üçün çırpınırdı. Və o, bəzən özünü saxlaya bilməyib, hətta jandarm və polis baş idarəsinin iclaslarında kəskin çıxışlar edirdi. Həqiqəti deyirdi, həqiqəti gözəl deyirdi və bu çıxışlar «libas məngənəsində»

[1] Turən — kapitan.

sıxılan bir çoxlarının ürəyindən tikan çıxarırdı, bir çox yatanları ayıldırdı. Getdikcə Mir Əkbərin nüfuzu polis və jandarm nəfərlərinin arasında artırdı, hasarlar, bağlı qapılar arasından çıxıb şəhərə yayılırdı bu şöhrət. Bəbir ona onsuz da az olan görüşlərində ehtiyatlı olmağı tapşıranda o, əsəbi halda:

— Nə qədər susmaq olar, qardaş! Daha bıçaq sümüyə dayanıb, — deyirdi və hirsindən az qalırdı ağlasın. Komandanlıq, irtica, hakimiyyət başında olanlar Mir Əkbərin günü-gündən artan şöhrətindən ehtiyat eləyib gözlənilmədən, müəmmalı bir şəkildə onu Kabildən Paktiyaya «ezam» etdilər. O, tələsik, arvadı və dörd körpəsiylə birlikdə, demək olar ki, zorla Kabildən uzaqlaşdırıldı.

Mir Əkbər o kedən getdi — düz bir il yarım onun Kabilə gəlməsinə, əlaqə saxlamasına, hətta, məktublaşmasına belə icazə vermədilər. Dostlar beləcə ayrı düşdülər...

İndi budur, Mir Əkbər gəlib. Özü də... mülki paltarda...

...Qabaq-qənşər oturmuşdular. Bir-birinə baxıb gülümsünürdülər. Mir Əkbərin qara, cod saçlarına dən düşmüşdü. İri, girdə sifəti qaralmış, alnındakı qırışların sayı çoxalmışdı. Bəbir bu qəşəng, gözəgəlimli oğlanın yavaş-yavaş qocaldığını ürək ağrısı ilə hiss edir, qəlbində halına acıyırdı. Bütün yoldaşlarının içində ən çox mənəvi zülm çəkəni Mir Əkbər idi — buna baxmayaraq o, ruhdan düşməmişdi, sarsılıb sınmamışdı, inamını-ümidini itirməmişdi. Bu, Bəbirin xoşuna gəlirdi.

— Mən çox şadam, Miri, sən, nəhayət, qayıdıb gəlmisən, qardaşım.

— Hə, axır ki, əjdahanın əlindən yaxamı qurtara bildim — istefa kağızıma qol çəkdilər. İndi mülki adamam, azad adamam, Bəbir can.

— Çox şadam, Miri. Necə oldu ki, buraxdılar?

— Vəzarətdə işləyən məmurla dil tapdım axır ki. Bir az da maya qoydum. Sənədimi imzaladı.

— Hə, hə. Başa düşdüm. Demək rüşvət vermisən?

— Neyləyim, ömür verməkdənsə, rüşvət vermək yaxşıdı, qardaş! Mənim ömrümün ən yaxşı vaxtlarını bu qansızlar zay elədilər, yelə verdilər.

— Keçən keçib. Keçənə təəssüflənmə, Miri. Min təəssüf bir gününü geri qaytara bilməz.

— Elədir.

— Haçan gəlmisən?

— Elə bu gün.

— Uşaqları da gətirmisən?

— Hə.

— Bəs hara düşmüsən?

— Elə öz köhnə daxmama.

— Bəs buranı necə tapdın, Miri?

— Əvvəl sizə getdim. Qibləgahınla görüşdüm. Kişi qocalıb yaman.

— Hə.

— Məni görüb çox sevindi. Xeyli söhbət elədik. Danışıqlarından elə başa düşdüm ki, kişi dönüb bizim adam olub!

— Bəs nə bilmisən? O bizi döndərə bilmədi, amma biz onu döndərdik. İndi, necə deyərlər, bizim məsləhətçimizdi qibləgahım.

— Onun təcrübəsi, biliyi bizim karımıza gələcək, məncə!

— Mən də elə düşünürəm, Miri. Çayını iç, soyutma. Ya bəlkə qəhvə dəmləyim sənin üçün? Birdən ac olarsan, ha!!

— Yox, yox. General həzrətləri ilə şam eləmişəm. Haçandı kişi ilə çörək kəsmirdim — zorla yedirtdi. Elə çay içəcəyəm.

— Necə istəyirsən, qardaş. Yaxşı, Paktiyada nə var, nə yox? Bizim puştu qardaşlarımız neyləyirlər?

— Eh, Paktiyada xanlar, məliklər, qəryədarlar bir tufan qoparır, bir zülm eləyir ki, ağla gəlməz. Kimsədən qorxmurlar, çəkinmirlər, bir sözlə, zülm ərşə dayanıb!

— Bəs camaat? Camaat susur elə?

— Hələ ki, susur.

— Bəli, hələ ki... Amma bir az sonra susmayacaq. Daha dözməyəcək. Bizim mətbuatı necə, oxuyurlarmı?

— Oxuyurlar. Az gəlir ora bizim ruznamələrimiz. Ancaq oxuyurlar. Bu yaxında Kərdizdə «Pərçəm»i satan uşağı, elə bazarın ortasında şəhər valisi o ki var, döydürmüşdü, həbs elətdirmişdi,

gətirib zirzəmiyə salmışdılar. Təşkil, elədim, qaçırtdım — getdi. Bir sözlə, Paktiyada qanundan-filandan əsər qalmayıb, qardaş.

— Eh, qanun. Nə qanun? Qanun indi, su kimi bir şeydir, Miri, qanun həmişə üzü aşağı axar, yuxarı axmaz. Yəni qanun həmişə aşağı təbəqəni sıxmağa, əzməyə, nəfəs çəkməyə qoymamağa xidmət edib.

— Bəbir can, burda nə yenilik var, işləriniz necə gedir? Mənim demək olar ki, ruznamələrdə yazılanlardan başqa, heç nədən xəbərim yoxdur. Bir ətraflı danış, sən canın.

Bəbir piyalələrə təzə çay süzüb təxminən bir saata qədər Kabildəki yeniliklərdən, hezbin işindən, Şəfidən, Elməddindən Mir Əkbər üçün söhbət elədi. Belə məlum oldu ki, vəziyyət gərgindir, işləri yaxşılaşdırmaq, təkmilləşdirmək günün ən vacib və təxirəsalınmaz vəzifələrindəndir. Axırda dedi:

— Sənin gəlməyin lap yerinə düşdü, Miri. Mənim bəzi planlarım var, yoldaşları yığarıq bir yerə, məsləhətləşərik, görək neyləmək olar!!

— Lap yaxşı, Bəbir.

ÜÇÜNCÜ FƏSİL

Puhəntunun qabağında böyük, ucu-bucağı görünməyən izdiham uğuldayırdı. Qar ərimişdi, yer palçıq idi. Ancaq heç kəs ayağının palçığamı, suyamı batdığına fikir vermirdi. Təkcə tələbələr deyildi, yoldan keçənlər də, siyasətdən, yığışıb mitinq eləyənlərin nə istədiyindən, bəzən sözlərindən də baş çıxarmayan boş-bikar adamlar da maraq üçün dəstəyə qaynayıb-qarışmışdılar. Can cana, kürək sinəyə, nəfəs nəfəsə toxunurdu. Əllərində ağlı-qaralı dəyənək tutmuş polis nəfərləri sakit-sakit durub baxırdılar. Haçandı şəhər də, polislər də belə mühazirə görməmişdi. Puhəntunun lap qapısı ağzında, həyətdə taxtadan qayrılmış mizə oxşar qurğunun üstünə çıxan natiqlər ucadan qışqıra-qışqıra danışır, ürəklərini boşaldanda, səsləri xırıldamağa başlayanda hoppanıb yerə düşür, onu başqa bir natiq əvəz eləyirdi. Danışanların sırasında adlı-sanlı professorlar da, cavan tələbələr də vardı. Hər çıxış edən özünün natiqlik bacarığını nümayiş elətdirir, dolu, məzmunlu

cümlələrlə müəllimlərin, tələbələrin tələbini bəyan eləyir, kəskin şüarlar söyləyirdi. «Maaş artırılsın!» «Puhəntun müəllimlərinin və tələbələrinin iş, yaşayış tərzi yaxşılaşdırılsın!», «Bizim hüquqlarımıza hökumət təcavüz etməsin!» «Qanuni-əsasidə yazılan söz azadlığı quru söz olaraq qalmasın!» və s. və s.

Deyilən hər şüara izdiham qışqırıqla qüvvət verirdi. Elməddin lap kürsünün yanında dayanmışdı. Ət çəpərini yarıb bura gələnəcən möhkəmcə tərləmişdi, pencəyinin düymələri qırılıb kim bilir harda düşmüşdü. «Pərçəm»çilər belə bir izdiham olacağını irəlicədən bilirdilər. Bəbirin tapşırığı ilə, hələ üç ay bundan qabaq Puhəntunda fəaliyyət göstərən yoldaşlar belə bir tədbiri keçirmək üçün ciddi hazırlaşmışdılar. Hezbin baş katibi Nur Məhəmmədii imzası ilə Bəbirin yazıb hazırladığı məktub-təlimat gizli surətdə dəstənin iclasında oxunub müzakirə olunmuş, çıxışçılar müəyyən edilmişdi. Elməddin isə Bəbirin və Şəfinin göstərişilə buraya, müzahirənin gedişindən ruznamə üçün məlumat yazmağa göndərilmişdi. O, danışanların sözlərini, şüarlarını cib dəftərçəsinə yaza bilməzdi — bu, dərhal, şübhə doğurardı. Odur ki, o hər sözü yadda saxlamağa çalışırdı. Başdan-ayağa diqqət kəsilmişdi. Qulaq asdıqca hiss eləyirdi ki, deyilən sözlər nə qədər həqiqət olsa da, odlu-alovlu olsa da nə isə bir çatışmazlıq var. Və ya sözlər istənilən təsiri bağışlamır. Niyə? Elməddin birdən tapdı: Onlar dərdlərini deyirlər, ancaq əsl nöqtəni elə bil söyləməyə çəkinirlər — onların söylədiklərinin açıq, ümumi bir nəticəsi var və bircə sözlə ifadə olunur — zülm! Bax bu sözü deyən yoxdur. Elməddinin beyni uğuldadı. O da çıxış edəcək, iki gün əvvəl yazdığı şeri oxuyacaq — çünki şer daha sərrastdır, daha çox müəssərdir, şeri hamı sevir. Amma o məsləhətləşməmişdi, Şəfidən icazə istəməmişdi, bilmirdi ki, bu çıxışa onun haqtı var, ya yox? «Eh, nə olacaq, qoy olsun, sözü yeri gəldi, məqamı gəldi, gərək deyəsən!» — deyə düşündü, hisslərini cilovlaya bilmədi və bir də onda ayıldı ki, kürsünün üstünə çıxıb!.. Ucsuz-bucaqsız izdihama baxıb bir an duruxdu, udqundu. Şer də yadından çıxdı. Amma xoşbəxtlikdən, tez yadına düşdü.

— Hüzzare-möhtərəm! Mən bu xoş və məsuliyyətli gündə yenicə yazdığım şeri sizə oxumaq istəyirəm, — deyib başladı:

Zalimin qəlbi yox, qulaqları kar!
İnsafdan, mürvətdən uzaqdır zalim.

İzdiham uğuldadı. Sürəkli alqışlar o qədər güclü idi ki, o, sözünün ardının eşidilməyəcəyini görüb susdu. Elməddin fikrində yanılmadığını başa düşüb çox sevindi, ürəyi fərəhlə, gözləri işıqla doldu.

...Şahin kürsüdən on beş-iyirmi addım aralı dayanmışdı. Ömründə birinci dəfə belə mərəkə gördüyündən hər şey onun üçün maraqlı idi. Hiss edirdi ki, deyilənlər ürəyindəndi, ona görə də yanındakı yoldaşları kimi ürəklə də əl çalırdı. O qədər çəpik çalmışdı ki, ovcunun içi göynəyirdi. Danışanlardan bir müəllim və bir tələbədən başqa heç kəsi tanıya bilməmişdi, axırıncının şer söylədiyini başa düşəndə ürəyi uçundu və o dəqiqə Elməddin yadına düşdü. Bu kimdisə şairdi yəqin, o, Elməddinin tanışı ola bilər. «Şairlər gərək bir-birlərini tanısınlar» fikrilə yanındakı oğlandan onun hansı şair olduğunu soruşdu. Heyf ki, oğlan da tanımadı. Adını xəbər aldı, adını da ətrafındakılardan heç kəs bilmədi. Bu zaman o, yoldaşlarından ayrıldı, adamların arasıdan güc-bəla ilə sivişib irəli yeridi, o zaman gəlib çıxdı ki, artıq Elməddini cavanlar qolları üstündən yerə qoymuşdular. Tövşüyürdü. Şahin lap yaxınlaşdı. Onu atıb-tutan cavanlardan kimsə şairə müraciətlə:

— Şer lap yerinə düşdü, ağayi Elməddin! — deyəndə... Şahinin qəlbi çırpındı. Sevindiyindən bilmədi neyləsin... Daha Elməddinin o cavana nə dediyini eşitmədi, onsuz da günortadan bəri bu gur izdihamın içində səsə düşmüş qulağı gur-gur guruldayırdı. Ona bir anlığa elə gəldi ki, elə Əfsanənin özünü tapıb — onda, Əfsanəni tapanda necə sevinərdisə, bax, indi də eləcə sevinirdi. Ona diqqətlə baxır, gözlərinin rəngini, qaşlarını, saçlarını yadında saxlamağa çalışırdı. Qəribə bir qorxu hiss edirdi — birdən onu bu izdihamın içində itirə bilər. Heç olmasa sonra, haçansa, hardasa rast gələndə tanıya bilsin. Onun nəzərində Elməddin qəşəng oğlan idi, şerindən də hamının xoşu gəlmişdi — deməli yaxşı da şairdi. Demək, budur Əfsanənin əri. Dünyanın ən xoşbəxt adamı. Sevdiyinin sevdiyi. Həsrətini çəkdiyi gözəlin illərlə, uzun illərlə həsrətini çəkdiyi insan.

Görəsən, Əfsanə şəhərə qaçıb gedəndən (Şahin məhz belə düşünürdü — qaçıb gedəndən) sonra Elməddini tapa bildimi? Tapıb da sakitləşdimi? Kaş tapaydı! Yox, tapsa... bu, o deməkdi ki, əlvida, Əfsanə! Axı Elməddin onun əridi! Yox, yox. Qoy belə olmasın, qoy Əfsanə Elməddini tapa bilməsin, axtarsın, axtarsın, ancaq hələ tapa bilməsin. Qoy onu Şahin Elməddindən qabaq tapsın, onu görsün, sevdiyini, onsuz yaşaya bilmədiyini söyləsin, başa salsın. Əfsanə onu başa düşər, sevər, qəbul edər. Bu çalpaşıq fikirlər məngənəsində çapalayırdı Şahin. Gözləri Elməddinə baxırdı, ancaq onun yanında Əfsanəni də görürdü. Elə anlaşılmaz hisslər keçirirdi ki, bu dəqiqə öz-özündən də baş açа bilməzdi.

Yaxınlaşıb Əfsanəni ondan soruşmaq istəyirdi, ancaq utanırdı, elə bil tilsimə düşmüşdü. Nə danışa bilirdi, nə də susmağa hövsələsi çatırdı. Həyəcan içində ayağının birini götürür, o birini qoyurdu. Nəhayət, axşam düşüb hava tutqunlaşmağa başlayanda, Elməddin təklənib seyrəkliyə çıxanda, Şahin də dəstədən ayrılıb dalınca düşdü. Elməddinin yerişindən də bilinirdi ki, kefi kökdü. Əlində tutduğu köhnə ruznaməni sağ qıçına vura-vura şəhərin içinə doğru addımlayırdı. Şahinlə onun arasında beş-altı addım məsafə vardı. Şahin ha çalışırdı bu fasiləni qısaltsın, ona çatsın, ancaq bacarmırdı. Qəribə bir mütilik, utancaqlıq onun ayaqlarına sanki buxov vurmuşdu.

Elməddin isə... hiss eləmişdi ki, arxasınca kimsə gəlir, şübhə yoxdur ki, onu izləyir bu adam. Həmin fikrinin düz olub-olmadığını yoxlamaq üçün iki-üç dəfə səmtini, yolunu dəyişdi. Dalınca gələn adam da eynən onun kimi elədi. Daha Elməddində şübhə yeri qalmadı. Özünü danlamağa başladı. Nahaq çıxış eləmişdi. Danışmasaydı, heç kəs onu təqib etməyəcəkdi. Bəlkə heç burda olduğunu da bilən olmayacaqdı. Amma indi, güdürdülər, demək, hara getdiyini kimlərlə əlaqə saxladığını yoxlamaq istəyirdilər. Və kim bilir, bu özbaşına, icazəsiz çıxış ona və yoldaşlarına nəyin bahasına başa gələcəkdi... Əvvəlki qərarına görə, Şəfinin yanına getməli idi. Bu fikrini dəyişdi. Evə də getmək istəmirdi.

Cadeyi-Nadirpuştunda fürsət tapıb gələn adama baxa bildi və tanıdı. Bu, bayaq, camaatın arasında, iki-üç addımlığında dayanıb ona diqqətlə tamaşa eləyən, söhbətlərə qulaq asan qəşəng bığ yeri yenicə

tərləmiş oğlan idi. Elədir ki, var. Şübhə yox, o, sazmane-əmniyyənin işçisidir və onu təqib edir!

Bu şübhəli, qorxulu fikirlər hələ çox davam edə bilərdi, ancaq Şahinin qəti hərəkəti buna son qoydu. Şahin birdən-birə addımlarını yeyinlətdi, Elməddinə çatdı və tam arxayın bir səslə:

— Ağayi Elməddin, bağışlayın, sizi bir dəqiqə... — dedi. Elməddin dayandı və elə o an ürəyindən: «Mənim adımı da bilir, hərif» — deyə keçirtdi və təəccüblə qaşlarını çataraq:

— Buyurun, ağa! — söylədi.

— Üzbəüz dayandılar. Şahin nə deyəcəyini, hardan başlayacağını sanki unutmuşdu — bir anlığa gözlərini döyə-döyə Elməddinin sual dolu sifətinə nəzər saldı. Elməddin hövsələsiz halda:

— Mən sizi dinləyirəm, ağa! — dedikdə Şahin onun əsəbilnyinin səbəbini dərhal başa düşdüyündən gülümsündü:

— Ürəyinizə ayrı şey gətirməyin, ağayi Elməddin. Mən... Mən Şahinəm.

— Kim?

—…

— Kimsiniz dediniz?

— Şahinəm mən... Bəlkə də... Siz məni heç tanımırsınız... Amma mən sizi yaxşı tanıyıram... Əfsanə... sizin haqqınızda mənə çox danışıb, ağayi Elməddin...

Qarşısındakı oğlanın dilindən «Əfsanə» sözünü eşidən kimi Elməddinin sinirləri boşaldı, gərginliyi harasa uçub getdi və o, rahat nəfəs aldı. Deyəsən, bir «Şahin» adı da eşitdi! «Şahin?» «Şahin kimdi?». Yaddaşının səhifələri külək əlinə düşmüş kimi sürətlə vərəqləndi və hardasa, hansı nöqtədəsə o adın üstünə işıq düşdü və tam aydınlığı ilə oxundu. Bəli, bu Şahin həmin Şahin idi, Əfsanənin uzun illər evlərində qaldığı Reyhan arvadın nəvəsi Şahin idi. «Deməli, belə! Bax, bu oğlandı sənin Əfsanəni sevən, Elmi — gözlərini yaxşı-yaxşı aç, yaxşı-yaxşı bax!» Qəlbi qəribə bir hissin — özünün də anlamadığı bir hissin təsiri altında sıxıldı Elməddinin. Ona elə gəldi ki, qabağında dayanan bu arıq, ucaboy cavan oğlan hardansa, naməlum bir aləmdən gəlib onun rahatlığını, səadətini, şirin yuxusunu, sevincini — çox çətinliklərdən sonra tapdığı bütün bu

xoşbəxtlikləri əlindən alıb aparsın! Üzündə bir qətiyyət var bu oğlanın. Qırımından iradəli, möhkəm, sözünün üstündə duran adama oxşayır! Elməddin ona qarşı anlaşılmaz bir nifrət hiss elədi. Çevrilib getmək istədi, ancaq qəfil yadına düşdü ki, bu, kobudluq, mədəniyyətsizlik olar; üzünü görmədiyi o Reyhan arvadın Əfsanəni ölümün cəngindən qurtarması illərlə onu öz balası kimi qanadı altına alıb saxlaması müqabilində Elməddinin belə eləməsi çox böyük hörmətsizlik, qədirbilməzlik olardı. İndi Reyhan arvadın nəvəsi durmuşdu qənşərində — heç olmasa ona hörmətini, razılığını bildirməli idi Elməddin. Bundan əlavə, açıb-ağartmasa da, hətta Siminin özünə də (Əfsanəyə deməzdi) etiraf eləməsə də, qəlbindəki şübhə ona rahatlıq vermirdi Əfsanə tapılandan sonra. Elə bil beyninin, qəlbinin içində bir qurd gizlənmişdi — bu, şübhə qurdu idi. Hərdən tərpənirdi, ona əziyyət verirdi — bu zaman o, Əfsanəyə inamsız baxışlarla baxırdı, belə gözəl bir qadının indiyənəcən kiminsə əlinə keçməməsinə inanmaq istəmirdi. İkinci bir adam, şahid yox idi ki, Əfsanənin dediklərinin həqiqət olduğunu təsdiq eləsin, yox idi. Bax indi, belə bir adam öz əl-ayağı ilə gəlib çıxmışdı, sanki göydən düşmüşdü. Eyni zamanda bunu da dərk edirdi ki, soruşmaq da qorxuludur. Birdən bu uşaq... (o Əfsanə kimi onu uşaq hesab eləyirdi nədənsə) elə şey deyər ki, Əfsanənin yalanı çıxar, Əfsanə gözündən düşər. Onda gərək Əfsanə şələ-küləsini götürüb rədd olub getsin — başqa yolu yoxdur. Elməddinin gözündə Əfsanənin təzəlikcə, o tapılandan sonra daha da gözəl, daha da sevimli eləyən bir də onun təmizliyi idi, namusunu qoruması idi, Elməddin istəmirdi ki, fikrində, xəyalında bu uca mərtəbəyə yüksəltdiyi, dözüm timsalı saydığı Əfsanə birdən-birə o ucalıqdan düşüb çilik-çilik olsun, dağılsın və Elməddinə təzə bir dərd olsun. Çaşıb qalmışdı: maraq da güclü idi, qorxu da...

Şahin Elməddinin haldan-hala düşdüyünü, nə edəcəyini bilməyən adam kimi çaşdığını görürdü, səbəbini heç cür anlaya bilmirdi. Bəlkə yorğundu? Bəlkə... deyirlər axı şairlər «birtəhər» olurlar? Oğlan tərəddüd içində:

— Ağa... bağışlayın, mən sizi deyəsən narahat elədim!..— dedi və təzədən baş əyib: — üzr istəyirəm! —deyərək çıxıb getmək istəyəndə Elməddin sanki yuxudan ayıldı:

— Dayan, Şahin! Şahin dayandı.

— Sən... o Reyhan arvadın nəvəsi Şahinsən? Elə deyilmi?

— Bəli, ağa!—deyə Şahin sevinc içində dilləndi və ona lap yaxın gəldi. Elməddinin bu sözləriidən dərhal başa düşdü ki, Əfsanə Elməddini tapıb, ona nənəsi haqqında da, Şahin barədə də hər şeyi danışıb. Tapıb — deməli, Əfsanə onun arvadıdı. Tapıb, — deməli, o, Əfsanədən əlini ömürlük üzməlidi. Bu ani fikir Şahinin ürəyini boşaltdı — Elməddinin dalınca gəlməyinə peşman oldu, çox peşman. Gəlməsəydi, bu həqiqəti bilməzdi, gəlməsəydi, ümidlə, intizarla yaşardı, həsrətlə yaşardı, haçansa tapacağına inana-inana yaşardı. Bundan sonra nə yaşadacaqdı onu? Heç nə! Öldü hamısı... Məktəb də, arzuları da, səadəti də... Yaşa görüm bundan sonra necə yaşayırsan, Şahin!

Elməddin onun qoluna girdi. Neçə addım sakit-sakit getdilər — heç biri hardan, nədən başlayacağını bilmirdi. Axırda, Elməddin ağlına gələn ilk sualı verdi:

— Reyhan xala necədi?

Elməddinin danışmağa söz tapdığına Şahin də sevindi, dərdini unudub:

— Yaxşıdı, ağa. — dedi. — Elə hər dəfə şəhərdən qəryəyə gedəndə məndən soruşur ki, Əfsanəni görə bildinmi? Deyirəm yox, ay nənə. Bugünkü təsadüf olmasaydı, sizi tapa bilməyəcəkdim.

— Şəhərdə yaşayırsan?

— Oxuyuram. Puhəntunda oxuyuram, ağa.

— Hə, lap yaxşı... Deməli, bugünkü müzahirədə sən də iştirak eləmisən.

— Bəli, ağa. Siz çox gözəl şer oxudunuz. Hamının xoşuna gəldi, ağa:

Zalimin qəlbi yox, qulaqları kar!
İnsafdan, mürvətdən uzaqdır zalim!

— Görürsüz, əzbərləmişəm də.

Elməddin mehriban-mehriban gülümsündü:

— Mən səni Puhəntunun həyətindən çıxandan görürdüm. Hiss edirdim ki, bir nəfər naşünas adam gəlir dalımca. Düşündüm yəqin

sazmane-əmniyyənin adamlarındandı. Odur ki, yolumu tez-tez dəyişirdim...

— Yox, mən.. siz şer oxuyanda fikirləşdim ki, şairsiz. Elməddini tanımış olarsız. Ona görə yaxın gəldim. Orda öyrəndim ki, ağayi Elməddin elə sizsiniz. Çox sevindim. Dedim sizdən Əfsanəni soruşaram... Odur ki, araxanızca gəlirdim.

— Bəs niyə yaxınlaşmırdın?

— Nə bilim, ağa. Düzü, utanırdım, ürək eləmirdim.

— Nahaq. Kişi də kişidən utanar? Kişi gərək cəsarətli olsun, Şahin. Məqamında, yerində utanıb sözünü deməyən adam sonra çox əzab çəkir, qardaş! Bəzən ömrü boyu əzab çəkməli olur. O, Əfsanənin taleyi həll olunanda — hələ o vaxt qardaşı Yusifin qabağına çıxmamasını, dərdini, qəlbini açmamasını, sonralar isə bu qətiyyətsizliyi üzündən min müsibət çəkməsini nəzərdə tuturdu. Şahin cavab verdi:

— Bəli, düz deyirsiz, ağayi Elməddin. Elə bir iş mənim də başıma gəlib. — Şahin də vaxtında ürəyini Əfsanəyə açmamasını nəzərdə tuturdu: hər ikisi bir-birindən xəbərsiz eyni şeydən üstü-örtülü danışırdı. Elməddin Yusifin, Şahin Əfsanənin qabağında susmuşdu bir vaxt.

— Odur ki, qətiyyətli olmaq lazımdı həyatda, ŞaHin!

Elməddinin burnuna kabab iyi gəldi. İndi yadına düşdü ki, səhər yediyinin üstündədir. Yəqnn Şahin də ac olar. O, Şahinin qolundan tutub onu kababxanaya sarı çəkdi:

— Gəl bir şam eləyək, həm də söhbətimizi davam etdirək.

...Onlar kababxanada iki saatdan çox oturdular. Elməddin Şahini danışdırdı. Şahin əhvalat necə olmuşdusa, eynən Əfsanə söyləyən kimi Elməddinə nəql elədi. Və Elməddin inandı ki, Əfsanə təmizdi, həyatında kimsə ilə durub-oturmayıb. Bu onun kefini lap durultdu. Şahin danışığında bircə şeyi — özünün Əfsanəni sevməsini gizləyirdi. Elməddin isə... bunu bildiyini büruzə vermirdi. Bəlkə... uşaqlıq, ilk yeniyetməlik hissi olub, keçib gedib! Təzədən yadına salmağın nə mənası vardı ki? O bunun əvəzinə Reyhan arvadın alicənablığından çox razılıq elədi, minnətdarlığını bildirdi. Özü isə, Əfsanəni necə tapmağını müxtəsərcə söylədi. Kefi yaxşıdır Əfsa-

nənin. Taleyindən razıdır... sizi, xüsusilə Reyhan nənəni tez-tez xatırlayır. Elməddinə gəlincə o da Şahinlə tanış olmağına çox şaddır. Vaxtı, imkanı olanda o, Əfsanəni də götürüb Qarabağ qəryəsinə, o peyğəmbər kimi təmiz, xeyirxah arvadın—Reyhan nənənin ziyarətinə gələcək. Onun da — Şahinin də boş vaxtı olanda Elməddingilə gəlsin. Bu da onun ünvanı...

Hər şeydən danışdılar. Şahin Əfsanəyə salam da göndərdi. Ancaq yazıq yenə bilmədi ki, Əfsanə... Elməddinin arvadıdı ya yox. Çünki Elməddin söhbətində nə Siminin, nə qızının adını çəkdi.

Şahin nigaran ayrıldı Elməddindən.

ON DÖRDÜNCÜ FƏSİL

«Pərçəm»in redaksiyasında yığıncaq vardı. Ziyaülhəqq Şəfini maşınla gətirmişdi. Bəbir özü gəlmişdi. Hər kəs öz yerini tutub oturmuşdu. Anahita əlində qələm, qabağında kağız, Şəfinin böyründə əyləşmişdi. Mir Əkbər Xeybər və Elməddin yanaşı idilər. Bəbir isə Şəfinin sağ tərəfindəydi. İclas başlanmamışdan əvvəl Bəbir yoldaşlarla xudmani söhbət etmiş, iş-gücü, ailə vəziyyəti ilə maraqlanmışdı. Elməddin gözlərini Bəbirdən çəkə bilmirdi. Hər hərəkətinə, hər sözünə fikir verirdi. Məqalələrini oxuduğu, qorxmazlığını eşitdiyi Bəbirin bu qədər sadə və mehriban olduğunu ağlına gətirməmişdi. Onunla söhbət eləyəndə Bəbir gözlərinin içinə diqqətlə baxa-baxa:

— İgidin adın eşit, üzünü gör, — demişdi. — Sənin işlərin xoşuma gəlir, rəfiq Elməddin. Ancaq Puhəntun müzahirəsində çıxış etməyin yersiz idi, dostum. Biz qətiyyən özfəaliyyətə yol verə bilmərik. Hər birimiz ürəyi istəyəni, ağlı kəsəni eləsə, onda... bizim işimizdə bir hərc-mərclik əmələ gələr ki, bu da bizə ancaq ziyan vura bilər.

Elməddin başını aşağı salıb:

— Elədir, rəfiq Bəbir. Bir də elə səhvlərə yol vermərəm, — söyləmişdi.

Şəfi eynən taxmışdı. Şikəst gözünün üstünə kiçik tənzif yapışdırmışdı. Haçandı bu otağa gəlməmişdi. Haçandı hamı ilə birlikdə

danışmamışdı, qəribsəmişdi bir növ. O, sol qolundakı saata nəzər salıb Bəbirə baxaraq:

— Başlayaqmı? — dedikdə Bəbir əlində tutduğu yazılı vərəqlərdən gözlərini çəkərək başını tərpətməklə «hə!» — cavabını verdi. Şəfi boğazını arıdıb:

— Əziz yoldaşlar, bugünkü cələsəmizdə ruznaməmiz üçün rəfiq Bəbir Karməndin yazdığı baş məqalə oxunacaq. Anahita xanım, xahiş edirəm, siz qeyd edin...

— Baş üstə! — Anahita xanım mizin arxasında yerini rahatladı və nə isə yazmağa başladı. Bəbir başladı!

— Məqalənin adı belədir: «Milli qüvvələrə əsaslanmaq qələbənin əsas amilidir!»

«Keçmişdə elə şəxslər vardı ki, siyasi fəaliyyətdə milli qüvvələrə arxalanmır və deyirdilər, milli dirçəlişə arxalanmaq olmaz. Məmləkətin daxilində, öz qüvvələrimizə arxalanaraq istibdadı sərnigun etmək olmaz. Buna görə də xarici qüvvələrə arxalanmaq və inqilabi məmləkətə xaricdən varid etmək lazımdır!»

Məqalə uzun idi, ancaq Bəbir elə oxuyurdu ki, bu uzunluq hiss olunmurdu, həm də o, məntiqlə, yerli şəraitə uyğun olaraq hökmlərini elə əsaslandırırdı ki, hər kəs yaranmış mövcud ictimai vəziyyətdə yeganə və əsas qüvvənin məhz milli qüvvələr olduğuna inanırdı.

— Bəbir deyirdi:

—«...Milli azadlıq mübarizəsinin tarixi bu həqiqəti sübut edir ki, ən düzgün və təsirli siyasət, milli qüvvələrə — daxili qüvvələrə istinad etməkdir. Ancaq məmləkətin öz xalqı yerli şəraitdən istifadə edərək əsarət zəncirlərini qıra bilər, qul olmaq boyunduruğunu kənara ata bilər. Bu da diqqətəlayiqdir ki, biz belə deyərkən heç də mübarizəmizi dünya xalqlarının və dünya mütərəqqi qüvvələrinin mübarizəsindən təcrid etmirik, ayrı təsəvvür etmirik. Çünki beynəlxalq imperializmlə — bu qüdrətli, sitəm görmüş bütün xalqların qəti düşməni olan imperializmlə mübarizə təklikdə aparıla bilməz. Əfqan xalqı imperializm əleyhinə mübarizədə tək deyildir: bütün sülhsevər və mütərəqqi millətlər, dünyanın bütün mütərəqqi qüvvələri — sosialist ölkələrindən tutmuş kapital ölkələrinin fəhlə sinfi, Asiya,

Afrika və Latın Amerikası xalqlarına qədər — imperializmə qarşı mübarizə aparan bu qüvvələrin hamısı Əfqan xalqının dostudur və onlarla beynəlxalq əlaqələri, həmkarlığı hər vasitə ilə genişləndirmək bizim milli mənafeimizə tamamilə uyğundur.»

Sonra Bəbir istibdad əleyhinə mübarizədə milli qüvvələrə arxalanmağın əsas yollarını, prinsiplərini şərh edirdi, mübarizə illərində və hətta qələbə əldə edildikdən sonra da qarşıda böyük çətinliklər durduğunu söyləyirdi:

«...Yaddan çıxarmaq lazım deyildir ki, Əfqanıstanda milli azadlıq hərəkatının tam qələbəsinə nail olmayınca məmləkətin orta əsr geriliyindən xilas olmaq mümkün deyildir. Bu mühüm cəhəti də unutmaq olmaz ki, qələbəyə təkcə inam bəsləmək və milli qüvvələrə istinad prinsipini qəbul etmək kifayət deyildir. Bizim milli inqilabımızın yolunda çox böyük maneələr və çətinliklər vardır ki, gərək indidən onların hamısını nəzərə alaq, onlara qarşı qorxusuz-hürküsüz, qəhrəmancasına mübarizə aparmağa hazır olaq. Daxili və xarici mürtəcelərlə mübarizəni asan iş hesab etmək olmaz. Mürtəcelər heç vaxt öz xoşuna təslim olmurlar, yalnız birliklə, əl-ələ verməklə, bütün xalqı səfərbər etməklə qələbə çalmaq mümkündür.»

Bəbirin məqaləsi bu cümlələrlə bitirdi:

«...Biz mübarizə yolunda çətinliklərlə qarşılaşarkən, ən ağır günlərimizdə belə gərək qələbəyə inamımızı itirməyək, öz gücümüzün zəifliyindən məyus olmayaq, xalqa, onun qüdrətinə inanmaqdan əl çəkməyək, gec-tez bu iftixarla dolu mübarizəmizin xoşbəxt günlərlə nəticələnəcəyini unutmayaq, çünki tarixin yaradıcı qüvvəsinə arxalanmaq, Əfqan xalqının milli qüdrətinə əsaslanmaq, mübarizədə ardıcıllıq, dönməzlik və nəhayət, bu əziz vətənə bəslədiyimiz sönməz məhəbbət bizi qələbəyə çatdıracaqdır. Əfqanıstanın geniş xalq kütlələri ayağa qalxanda, qəflət yuxusundan ayılanda, mütəşəkkil olanda, birləşəndə və bizim onlarla «peyvəndimiz» baş tutanda — ancaq bu zaman biz «müşkülat dağlarını» aradan qaldıra biləcəyik.»

Bəbir axırıncı vərəqi əvvəl oxuduğu vərəqlərin üstünə qoyaraq «vəssalam!» deyib gülümsündü. Oturdu.

Şəfi qalxdı:

— Kimin sualı, qeydi, təklifi var? Yerdən hamı bir nəfər kimi!

— Yaxşıdı, — dedi.

— Elə isə... məqalə bəyənilsin, «Pərçəm»in gələn nömrəsində çap olunsun. Anahita xanım, zəhmət olmasa, — o, Bəbirin qabağından əlyazmasını götürüb Anahitaya verdi, — zəhmət olmasa, üç nüsxədə təyp[1] edin, bir nüsxəsi bizdə qalsın, ikisini müəllifə verərik — iki nüsxə bəsdi? — deyə Bəbirə müraciət etdikdə üzünün tərini dəsmalla silən Bəbir:

— Hə, bəsdi — söylədi.

— Onda elə isə, ikinci məsələyə keçirik. Bu məsələ mənim özümlə əlaqədar olduğu üçün sözü verirəm rəfiq Bəbir Karməndə,

Bəbir dəsmalını cibinə qoyub durdu:

— Siz yaxşı bilirsiniz ki, bizim ustadımız, məmləkətimizin böyük şairi Məhəmməd Şəfi yoldaş, neçə müddətdir ki, sevimli «Pərçəm»imizin müdiri-məsuldur. O, demək lazımdır ki, öz işinin öhdəsindən vicdanla, əsl qeyrətli vətəndaşa laybq bir şəhamətlə gəlmiş bu çətin, hələ də qorxu, məhrumiyyətlərlə dolu vəzifəni heç nəyini əsirgəmədən, hətta həyatını belə təhlükə altında qoyaraq ləyaqətlə yerinə yetirmişdir. Biz — hezbin Mərkəzi Komitəsi onun bu əvəzsiz xidmətlərini yüksək qiymətləndiririk və minnətdarlığımızı bildiririk. Sağ olun, Şəfi can. Nur Məhəmməd yoldaş mənə icazə vermişdir ki, sizə onun da təşəkkürünü yetirəm.

Oturanlar əl çaldılar. Şəfi eynəyin altından tək gözü ilə oturanlara baxıb razılıqla gülümsünürdü. Bəbir davam etdi:

— Deməliyəm ki, son vaxtlar baş verən bəzi gözlənilməz hadisələr — ustada irtica tərəfindən qəsd edilməsi və bizim tapşırığımızla onun necə deyərlər «guşənişin» olması — onun normal yaşayıb-işləməsi üçün xeyli çətinliklər törətmişdir. Biz, yoldaşlarla belə məsləhətləşdik ki, şairə, kömək məqsədilə onu «Pərçəm»in müdiri-məsulu vəzifəsindən azad edək. Şəfi ilə bu barədə söhbətimiz olub, o özü də bu fikrə razıdır. — Sonra o, yenə dönüb üzünü böyründəki şairə tutdu: — Biz səni müdiri-məsul vəzifəsindən azad edirik, amma... hezbin əskərliyi vəzifəsindən yox, ha!.. Sən bizim hezbin ləya-

[1] Təyp — makina.

qətli mərd əskərisən və ümid edirəm ki, biz səni həmişə öz sıralarımızda görəcəyik.

— Çox sağ olun, yoldaş Bəbir. Məni, çox xahiş edirəm, ev dustaqlığından da azad edin. Çünki belə yaşamaq olmaz, mən dözə bilmirəm daha.

— Yaxşı, Şəfi. Ancaq qoy bir az da keçsin.

— Nə qədər axı?

— Məsələn, bir ay... qoy keçsin... Sənin həyatın bizim üçün çox qiymətlidir, ustad. Biz səni qorumağa, yaşatmağa borcluyuq.

— Təşəkkür edirəm, Bəbir!

Bəbir yaxın gəldi, onun əlini sıxdıqda şair ayağa durdu. Bü zaman Bəbir bir qardaş məhəbbətilə onun alnından öpdü. Şəfi həyacanlandı, təəssüfləndi. Qəribə bir kədərlə yoldaşlarına baxdı. Onların da üzündə nə isə... anlaşılmaz bir təəssüf oxudu şair. Ancaq belə kiçik hisslərlə yaşayan deyildi deyə tez toxtadı və heç nə olmamış kimi Bəbirin üzünə baxdı. Bəbir dedi:

— Bu yaxınlarda bizim ən fədakar yoldaşımız, bizim hərəkatın ən böyük möhnətkeşi Mir Əkbər Xeybər yoldaş, bildiyimiz kimi, qeyri-rəsmi sürgündən qayıdıb gəlmişdir. Onun gəlişi bizim hamımız üçün — onun dostları üçün böyük bayramdı, məncə. Həyatını, keçdiyi şərəfli, mübarizə və məhrumiyyətlərlə dolu ömür yolunu siz yaxşı bilirsiz. Biz belə məsləhət görürük ki, ustad Şəfinin yerinə dostumuz Mir Əkbəri təyin edək. Mən ümid edirəm ki, o bu vəzifənin öhdəsindən layiqincə gələr. Çünki nəzəri cəhətdən çox savadlıdır, həm də gözəl qələmi var Mir Əkbərin. Etirazınız yoxdur ki, yoldaşlar!

— Yox, — dedilər.

— Onda, izn verin Mir Əkbər Xeybər yoldaşı «Pərçəm»in yenn müdiri-məsulu seçilməsi münasibətilə təbrik edək və ona öz çətin, mürəkkəb, lakin şərəfli işində müvəfəqiyyətlər arzu edək.

Oturanlar yenə əl çaldılar. Şəfi də əl çaldı. Bəbir irəli çıxıb Mir Əkbərə sarı gedəndə o tez ayağa qalxıb irəli gəldi və Bəbir onun əlini sıxdı, eynən Şəfi kimi, onun da alnından öpdü:,

— Təzə nömrə sənin imzanla çıxacaq. Hezbin Mərkəzi Komitəsinin sənin tərcümeyi-halın və fəaliyyətin barədə hazırladığı

bu mətni də həmin nömrədə verərsən, — dedi Bəbir, ona üç səhifəlik bir mətn uzatdı. Mir Əkbər vərəqləri alıb:

— Etimad üçün sağ olun, mən çalışacağam ki, bu etibarınızı doğruldum.

— Biz buna inanırıq, Mir Əkbər!

BEŞİNCİ FƏSİL

Əfsanənin zahirən günü-güzaranı yaxşı idi, hətta həsəd aparmalı idi. Yemək-içmək, pal-paltar dərdi çəkmirdi. Evin iş-gücünü könüllü surətdə öz boynuna götürmüşdü. Zərrintac xanımın neçə il əvvəlki qulluqçusu Siminbər indi xanım olmuşdu — Əfsanənin xanımı. İnsafən, Siminbər buna heç cür razı deyildi, yetimin ürəyinə pis gələr deyə özünü xanım kimi aparmırdı. Bacardıqca ona bacı gözüylə baxır, arada ayrı-seçkilik eləmirdi. Amma di gəl ki, Əfsanə özü buna imkan vermir, hər işi özü görməyə, Simini əlini ağdan-qaraya vurmağa qoymurdu. Simin Əfsanənin canfəşanlıq dərəcəsinə qədər gələn bu hərəkətinin səbəbini anlamırdı, anlaya bilmirdi. Bu, təkcə Əfsanənin özünə bəlli idi — Elməddin də başa düşməzdi bunu. Əfsanə bütün bunları boş qalmamaq, düşünməmək, bərk yorulmaq, axşamlar yerinə girən kimi daş tək düşüb şirin yuxuya getmək xatirinə eləyirdi. Axşamacan biçarə yanını yerə qoymurdu, paltar yuyur, evləri silir, təmizləyir, sonra həyətə keçir, şum eləyir, gül sulayır, xəzəl süpürürdü, qışda qar təmizləyirdi. Bir sözlə, bir saat bekar qalmaq istəmirdi. İstəyirdi ki, yorulub əldən düşsün, təki beynini çulğalayan, ona rahatlıq verməyən o dəhşətli, üzücü fikirlər qəlbinə yol tapmasın, yuxusunu ərşə çəkməsin, şirin gecələrini zəhərə döndərməsin. Ancaq, heyhat! Ürəyinin, fikirlərinin əlində aciz idi Əfsanə, uşaq kimi, qoca kimi aciz idi. Gündüzlər o cür yorğun olduğuna baxmayaraq, gecələri də diri gözlü açırdı, gözlərini yumsa da fikri, beyni səhərəcən oyaq qalırdı. Odur ki, əsəbləri sim kimi gərilmişdi, toxunsaydın qırılardı, toxunmasaydın min yerindən sel-su töküb min fəğan qoparardı. Özünü tox tuturdu, şax tuturdu, Siminlə, Əfsanə ilə deyib-gülürdü — ancaq bir Allah bilirdi ki, bunlar ona nəyin bahasına başa gəlir! Arıqlamışdı. Qəşəng sifəti nazilib

uzanmışdı, gözlərinin lap dərinliyində ilk gənclik illərində — Elməddindən əli üzülüb Yusifə arvad olan vaxtda, Yusif öləndə, Elməddin onu «toxunulmaz» elan eləyəndə həkk olunub qalmış o sehrli kədər bir az da çoxalmışdı, qəlizləşmişdi. Daha o gözlərin, kirpiklərin, qaşların gözəlliyi o kədəri həssas adamın yanında gizləməyə qadir deyildi. Elməddin bunu görə bilməzdi. Çünki Əfsanənin gözlərinin içinə şax, dik baxa bilmirdi, cəsarət eləmirdi. Qorxurdu sanki kimdənsə! Simindən? Yox! Bəlkə Əfsanədən? Yox! O, özündən qorxurdu. Qorxurdu ki, Əfsanənin bəbəklərinin içinə yazılmış o həsrəti görər və dayana bilməz. Görər, hər şeyi — Siminin də, Yusifin xatirəsini də unudar və... Yox, yox bunu istəmirdi Elməddin! Bax, bundan qorxurdu Elməddin.

Onun gözlərinə baxan bu kədəri görməyə qadir deyildi. Hətta ən çox baxan Simin də... hər baxanda o, ancaq bunu düşünürdü ki, ölmüşün gözləri mənim gözümdən qəşəngdir. Və bu hiss onun baxışlarını da, qəlbini də dumanlandırırdı, daha o, gözlərin dərinliyinə, içinə nüfuz edə bilmirdi. Bəli, Əfsanənin burada zahirən günü xoş keçsə də, əslində yanar bir vulkan içinə, təlatümlü bir dəniz qucağına düşmüşdü elə bil. Həqiqət, onun çəkdiyi əzablar ağır idi, adam qocaldan idi, ürək parçalayan idi.

Əfsanə sonralar, bu evə gələndəi xeyli sonra başa düşdü ki, Elməddini — gözünün, bəxtinin ilk ovu olan bu qəribə xasiyyətli, qəribə taleli oğlanı təkcə elə-belə, sadəcə görmək, səhərlər işə yola salmaq, axşamlar evə qayıdanda qarşılamaq, onunla qorxusuz-hürküsüz kəlmə kəsmək, sağ-salamat olduğunu bilmək səadət deyilmiş, bu, səadətin ancaq kiçik bir parçası imiş, doyulmaz, əlçatmaz, ürəktoxtamaz cüzi bir hissəsi imiş! O zaman Elməddinlə danışanda belə demişdi — ancaq bu yanlış imiş, yalan imiş! Yəqin bunu ona görə belə deyibmiş ki, bir zamanlar, Qarabağ qəryəsində öz acılışirinli xəyallarına sığınanda bunların həsrətini çəkirmiş və elə bilirmiş, səadət elə budur! Lakin sən demə, bütün bu şeylər əsl səadət ola bilməzmiş. Əsl səadət qaynayıb-qarışmaq, bir-birinin ürəyinə, mənliyinə, hisslərinə hopmaq, iki canda bir ürək olmaq imiş! Yoxsa, burada hansı xoşbəxtlikdən danışmaq olardı ki, sən, bir damın altında yaşasan da, əzizin, ümidgahın, sığınacağın hesab elədiyin, illərlə

həsrətilə yaşadığın, sinəni yarıb bağrının içinə qoymaq istədiyin adama yaxın düşə bilməyəsən, dərdini deyə bilməyəsən, dərdli vaxtında başını sinəsinə söykəyib ürəyin boşalınca ağlamayasan, nəfəsini ciyərlərinə çəkib illərin həsrətini — hicranı canından çıxarda bilməyəsən, ya onun başı ağrıyanda əlini alnına qoyub «Ağrıların mənə gəlsin!» deyib gözlərindən öpməyəsən... Bunlar olmayandan sonra hansı səadətdən danışmaq olardı?.. Bu nə səadət idi ki, sənin sevdiyin, gözünün qabağında başqa birisinin ağuşuna girsin, sənə deyiləsi nəvazişli sözləri ona desin, sən isə, divarın o tayında yanıb yaxıla-yaxıla qalasan, tüstün təpəndən çıxsın, heç kəs görməsin, fəryadın göylərə ucalsın, kimsə eşitməsin! Bu nə səadət idi?

Əfsanə qadın idi, insan idi, gəncliyinin ən yaxşı dövrünü yaşayırdı və bəlkə bu ən yaxşı dövrdən də bir az o yana keçmişdi. Elməddinin ailə həyatı indi onun gözləri önündə cərəyan eləyirdi və onun Siminlə xoş rəftarının, mehribanlığının, gəlinin ərinə bəslədiyi səmimi hisslərini hər gün, hər axşam bir zərrəsini görür, bunların nə demək olduğunu yaxşı başa düşürdü. Darılmamağa, tox dayanmağa çalışırdı belə anlarda. Ancaq hiss edirdi ki, içəridə nə isə uçub dağılır, qəlbi əriyib suya dönür və o, durduğu yerdə bədbəxtləşir, yetimləşir, kimsəsizləşir; ona görə çox vaxtı onlardan tez ayrılıb ya başını işküclə qatmağa çalışır, ya da öz otağına çəkilib Elməddinin kitabxanasından götürdüyü kitablardan birini oxuyurdu. Düzdü, fikri dağınıq olduğundan, qulaqları tutulduğundan heç nə başa düşmürdü oxuduğundan, ancaq kitabı əlindən yerə qoymurdu. Axşamlar ər-arvad işıqları söndürüb yatandan sonra, arada iri bir mətbəx və iki qapı olmasına baxmayaraq, gecənin sakitliyində onların danışığını eşidəndə, Əfsanə dəli olmaq dərəcəsinə gəlirdi, sözləri ayırd eləyə bilmirdi, dediklərindən heç nə başa düşmürdü, ancaq bununla belə, gələn səs onun əsəblərində dəli küləklər teleqraf tellərində tufan qoparıb min hava çalan kimi oynayır, sızladırdı qəlbini. Elə bil, qapılar, divarlar aradan götürülürdü, işıqlar yanırdı. Əfsanə onları — Elməddinlə Simini çarpayıda yatıb qucaqlaşan, nəfəs-nəfəsə verib bir-birini əzizləyən görürdü. Hissiyyatı qəribə bir sehrlə ər-arvadın qırıq-qırıq, hərdənbir eşidilən səsini sanki tutqunluqdan, xırıltıdan, xışıltıdan silib təmizləyir, aydınlaşdırırdı. Ancaq o bilmirdi ki, bu

sehrli hissiyyat onu aldadır, eşitdiyi ancaq səsdi, söz deyil. Əfsanə xəyalının, duyğularının, təsəvvürünün gücü ilə o səsləri sözə çevirir eşidirdi. Onda yadına biçarə Yusiflə keçirdiyi o yuxu kimi günlər gəlib düşürdü, sevməsə də, öyrəşməsə də, onun o uzaq gecələrdə dediyi sözləri təzədən eşidirdi, iri, kobud əllərinin sinəsində gəzdiyini, nəfəsinin sifətini boyun-boğazını yandırdığını xatırlayırdı. Qəribə idi, onda Əfsanə bunları demək olar ki, hiss eləməmişdi, qiymətləndirməmişdi onda, Əfsanə Yusifin əvəzinə Elməddini görmüşdü yanında xəyalən! Elməddini? Hə, onu, onu. O Elməddini ki, o zaman, Əfsanə Yusifin odlu nəfəsini üzündə-gözündə hiss edərkən divarın bu tayında eynən indi Əfsanə eləyən kimi, əzab, həsrət, ağrı içində qovrula-qovrula yanağını balışa söykəyərək isti göz yaşları tökürdü, səhərəcən yerinin içində çırpınır-çapalayır, anasında şübhə doğurmasın deyə ah-uf da eləyə bilmirdi. O Elməddin ki, günügündən sarılıq azarına tutulmuş adam kimi saralıb-solurdu, arıqlayırdı. Səbihə arvad uşağın nə isə sağalmaz bir mərəzə tutulduğunu güman eləyib xiffət çəkirdi. Onda Əfsanə Elməddinin nələr çəkdiyini, belə təsəvvür eləyə bilməzdi, ağlına da gətirə bilməzdi bu, necə əzablı şeymiş! Onda Əfsanənin Elməddinə yazığı gəlirdi — sevgilisinə qovuşmayan bir adama yazığı gələn kimi. Ancaq indi, özü o günə düşəndən sonra, təzədən, üstündən neçə illər keçəndən sonra Elməddinə, o vaxtkı Elməddinə yazığı gəlirdi. Bu, nə qəribə tale idi, aman allah!.. Onda Əfsanə özündən asılı olmayaraq, Elməddinə çəkdirmişdi, əzab vermişdi, indi Elməddin Əfsanəyə əzab verirdi.

Nə yaxşı ki, balaca Əfsanə varmış. Elə bil, Allah bu məsum, qəşəng körpəni ona təsəlli tapmaq, baş qarışdırmaq üçün dünyaya gətirmişdi. Çox şirin olmuşdu, ağıllı-ağıllı danışırdı, birlikdə ikisi gəzməyə çıxırdı, atasından-anasından çox mehrini Əfsanəyə salmışdı. Sadəcə, Əfsanə Əfsanə üçün göydən düşmüş bir nemət idi, ona görə qızcığazı çox sevirdi. Əfsanə, lap çox. Öz balası kimi. Son vaxtlar yanında yatırdırdı.

Əfsanə bu evə düşdüyü gündən keçən illər ərzində o, açıb-ağardılması mümkün olmayan, qürurunu sığışdırıb dilinə gətirə bilmədiyi gizli qısqanclıq hissi qəlbinə yol tapan gündən bəri barmaqla sayıla biləcək qədər gecə əsl yuxu yatmışdı, əsl yuxunun nə

olduğunu bilmişdi. O da... Elməddin harasa... gedib axşam evə gəlməcəyini bildirəndə... və həqiqətən evə gəlməyəndə. Bax o axşam Əfsanə daş kimi düşüb ağır div yuxusuna getmişdi. Və səhərlər də... gülərüzlə durmuşdu. Bu onun özünə qəribə gəlmişdi — bu qədər əziz olan adamı — Elməddin... evdə gecələməyəndə o rahat yata bilirmiş! O, hardasa oyaqdı, işləyir, yuxusuzdur — eybi yoxdur— burda Əfsanə əvəzində rahat yatır!.. Bu nə anlaşılmaz hiss idi? Əfsanə Elməddini sevmirdi? Xeyr, məsələ burada... Elməddinin... Siminin yanında olmasında imiş, sən demə! Bunlar azmış. kimi, Əfsanənin əhvalına soğan doğrayan, daha doğrusu, onu dərin düşüncələrə salan başqa bir hadisə də baş verirdi son vaxtlar. Siminbər deyəsən, hamilə olmuşdu. Hamiləliyin ilk günləri, ilk həftələri idi deyə tez-tez öyüyürdü, qusurdu. Sifətini mərci dənəsindən kiçik, mərci rəngli çillər basmışdı. Əfsanə, üzü çilləşmiş, tez-tez gözləri yaşarıncaya qədər öyüyən Siminə paxıllıq hissilə yox, qəribə bir qibtə ilə baxırdı. Simin xoşbəxtdi, anadır, Əfsanə kimi gözəl-göyçək uşağı var... Səkkiz-doqquz aydan sonra ikinci dəfə ana olacaq. Ana olmaq isə, Əfsanənin fikrincə, böyük səadətdi. Ana olmaq — barlı ağac olmaq deməkdir. Canından-qanından əmələ gəlmiş körpəni bağrına bas, duz kimi yala, süd qoxulu nəfəsini ud, əziyyətini çək, böyüt... sonra da... boy-buxununa bax, fəxr elə, de ki, bu mənim balamdı, bu mənim ciyərparamdı. Bundan da böyük səadət olarmı qadın üçün? Əfsanənin saçlarına vaxtsız dən düşmüşdü, ancaq o, hələ ana olmamışdı, o şirin səadəti dadmamışdı. Yusifdən uşağı olmamışdı, sonra da...

Bu barədə düşünəndə hərdən dəli bir istək qəlbini sarırdı. Ey kaş, nə olaydı, Elməddin bütün buxovları qıraydı, Yusifi unudaydı, heç olmasa bir günlüyə unudaydı, bircə gecəliyə, çox istəmirəm, bircə gecəliyə, Simin yatandan sonra, xəlvət onun otağına gələydi, onu öpüb oxşayaydı, əzizləyəydi, o ağrılı-acılı həsrəti canından çıxaraydı, sonra, lap səhərə yaxın gedəydi, daha heç vaxt gəlməyəydi, heç üzünə də baxmayaydı, dindirməyəydi, təki birgecəlik onu xoşbəxt eləyəydi, o birgecəlik vüsalın bəhrəsi olan bir körpə gələydi dünyaya. Əfsanəyə qulaq yoldaşı olaydı, Əfsanə... bütün ömrünü uf demədən ona sərf edərdi; qız olsun, oğlan olsun, fərqi yox idi. Ancaq oğlan olsa, adını Elməddin qoymağı arzulayırdı Əfsanə!

Heyf ki, bu ancaq gizli bir istək idi, kimsəyə açılası, deyiləsi mümkün olmayan bir istək idi və az sonra Əfsanə belə düşündüyünə görə özünə nifrət eləyirdi, hətta, kiminsə yanında bəraət qazanmaq, təmizə çıxmaq istəyirmiş kimi, dodaqaltı: «Yox, hətta o, yanıma gəlsə də qoymaram, qovaram. İnan ki, qovaram!» — deyirdi. Əfsanə özünün bu hökmünə inanırdı da, həqiqətən qovacağına inanırdı. Çünki xasiyyətini yaxşı bilirdi. Qürurlu olmuşdu Əfsanə. Qəlbinin istəyinin üstünə, lap bir cəllad sərtliyi ilə, qılınc çəkməyi bacarardı. Qarabağ qəryəsində onu sevən, evlənmək istəyən oğlan dövlətli idi, özü də qəşəng idi. Əfsanə onu iki-üç dəfə lap yaxından da görmüşdü və qəribə bir ürək çırpıntısı ilə əsmişdi onu hər görəndə və neçə müddət fikrindən çıxara bilməmişdi. «Hə» deyə bilərdi, kim bilir, bəlkə də xoşbəxt ola bilərdi. Çünki ürəyi laqeyd deyildi ona qarşı. Anlayırdı ki, bu, hələ əsl məhəbbət olmasa da, sabah əsl məhəbbətə çevrilə bilər. Ancaq... Əfsanə... istəyə-istəyə, «Yox», — deyib durdu, boğdu bu istəyi ürəyində, üstünə su töküb söndürdü alışmaq istəyən o ocağı. Bu hökmünə, hərdən yadına düşəndə təəssüflənsə də, peşman deyildi. Qətiyyətindən özünün də xoşu gəlirdi.

Sonra... Şahin... Eh, yenə Şahin, o bədbəxt «uşaq» hardan gəlib yadına düşdü? O lap dəli-divanə idi, o, Əfsanəni bir allah kimi sevirdi, sevirdi və qorxurdu, utanırdı. Əfsanədə də anlaşılmaz bir maraq yaranmışdı Şahinə qarşı. Bu maraq hərdən lap güclənirdi, həddini aşmaq dərəcəsinə gəlirdi, bir qadın kimi hissləri dilə gəlib danışır, sızıldayırdı, xüsusilə son gecə. Şahin qorxa-qorxa onun yanına, çardağa çıxanda... Onda lap son həddi idi, onda cəmi bircə an... bircə an qəflət eləsəydi, hissini cilovlamasaydı, qollarını açıb Şahinin boynunu qucaqlaya bilərdi, çəkib bağrına basa bilərdi... Və onda... bəlkə hər şey başqa cür olardı. Elməddini görə bilməzdi, Siminlə tanış olmazdı... və... bəlkə də bu mənəvi sıxıntıları çəkməzdi. Bax, o anda da Əfsanə... qürurunu qoruyub saxladı, sındırmadı özünü. Və indi, üstündən nə qədər vaxt keçəndən sonra Əfsanə öz dəyanətinə baxıb sevinirdi — bütün çəkdiklərinin müqabilində o dəyanət, o dözüm, o ağıl Əfsanəni çox ucalarda saxlamışdı. İndi o, açıq ürəklə, təmiz vicdanla Elməddinin gözlərinin içinə şax baxa bilirdi. Məgər bu az idi? Məgər vicdanı təmiz və rahat olmaq kiçik

xoşbəxtlikdi? Məgər Elməddin də belə eləyə bilməzdi? Bax, ona görə Elməddin indi Əfsanənin üzünə dik baxmağa ürək eləmirdi. Hardasa özünü günahkar sayırdı. Qadın olsun, kişi olsun — fərqi yoxdur, insan dəyanəti, insan mərdliyi həmişə başı ucalıqdır, başqalarından seçilməkdir, üstün olmaqdır. Siyasətdə də dəyanətli, dönməz olmaq hər kəsin işi deyil, amma bu iki şeydə dəyanətli, dönməz olmaq hər cür ehtirama, hörmətə layiqdir! Belə fikirləşəndə Əfsanənin yadına yenə Şahin düşürdü. O qabaqlar Elməddin bir axşam evə gələndə Əfsanəyə və Siminə danışmışdı ki, Şahin gəlib çıxıb Kabilə. Onun danışığından məlum olurdu ki, Əfsanəni axtarırmış neçə müddətdi. Şahinin adını eşidərkən Əfsanənin bədəni isinmişdi, fikri dumanlanmışdı, zahirən burda otursa da fikrən Qarabağ qəryəsinə qanadlanmışdı, orda keçirdiyi illəri xatırlamışdı və qəribə idi ki, o illərin bir-birinə oxşar yeknəsəq günlərindən ancaq axırıncı gün — Şahinin çardağa çıxdığı və həsrətlə əyilib üzünə isti yay yağışı tökdüyü gün və səhəri yola çıxarkən yalvarış, fəryad səslə arxadan «Getmə, Əfsanə!», uzaqlaşanda isə, «harda olsan gəlib səni tapacağam!» — deməsi bütün təfərrüatı ilə xəyalında canlanmışdı. Demək, gəlib. Demək, şəhərdədi. O söhbətdən sonra bir gün özünü bunda tutmuşdu ki, bu sıxıntılı, düşüncəli günlərində hətta özünün də xəbəri olmadan Şahinin yolunu gözləyir, gözü qapıda qalırdı Deyəsən Elməddin Şahinə ünvanını verdiyini də söyləmişdi. Hə, hə, verib. Bəs hanı, bəs niyə gəlib çıxmır? Ona indi, üstündən neçə il keçəndən sonra baxmaq Əfsanə üçün maraqlı olardı. Amma Şahin yox idi, gəlmirdi. Şahinin yolunu gözləmək də Əfsanə üçün bir əyləncə, bir məşğuliyyət olmuşdu. «Görünür, hisləri dəyişib, ölüb. Ona görə gəlmir!» — deyə hərdən nisgil içində ah çəkirdi. Ancaq Əfsanə bilmirdi, bilə də bilməzdi ki, Şahinin hissləri ölməyib, o ilk yeniyetməlik məhəbbəti yana-yana məşələ çevrilib, Şahinin yeganə arzusuna, məqsədinə çevrilib — gecə də, gündüz də Əfsanə barəsində düşünür Şahin. Bilmirdi, bilə də bilməzdi ki, Şahin hər gecə. yolun uzaqlığına baxmayaraq, qara, yağışa baxmayaraq, Əfsanə yaşayan binanın yanına gəlir, uzaqdan da olsa, onun pəncərəsinə həsrətlə baxır, baxır, o, işığını söndürənəcən dayanıb otağın içinə tamaşa eləyir, sonra, ürəyində qurban-sadağa gedə-gedə mənzilinə qayıdır.

O bilmirdi ki, neçə dəfə gündüzlər Şahin Əfsanəni bir kiçik qızla gəzməyə çıxanda görüb — ancaq yanaşmağa cəsarət eləməyib.

Əfsanə bunu da bilmirdi ki, bir dəfə polis, hər gecə nə isə bu məhəlləyə gələn, bir saat, saat yarım bir yerdə dayanan, dalbadal siqaret çəkən və sonra çıxıb gedən Şahindən şübhələnib yaxalamış, sorğu-sual eləmiş, polis məntəqəsinə aparacağı ilə hədələmiş, nəhayət, ondan əlli rupi qopartdıqdan və məsələnin məhəbbətlə bağlı olduğunu biləndən sonra buraxmışdı. Bütün bunları Əfsanə bilmirdi, hardan da biləydi...

ALTINCI FƏSİL

Mir Əkbər uzun illərin ayrılığından sonra, nəhayət, ürəyi istəyən kimi, azad yaşamağa müvəffəq olduğuna görə hədsiz dərəcədə bəxtiyardı. Jandarm libasını əynindən çıxarmışdı, qəlbi daş, vicdanı kor, qulağı kar adamlardan — jandarm və polis amirlərindən, nəfərlərindən uzaqlaşmışdı, öz məslək və mübarizə dostlarına qovuşmuşdu, hər gün onların yanında idi, dərdləri-sərləri bir idi, istədiyi, sevdiyi, həsrətini çəkdiyi işi görürdü — bu onun üçün nəyə desən dəyərdi. Əslində, sən demə, heç bir xidmət, fədakarlıq itmirmiş, unudulmurmuş. Onun kiçik, gərəksiz hesab elədiyi xidmətləri də sən demə, hezbin, burdakı yoldaşların nəzərindən qaçmırmış; yaşadığı günlər, gördüyü işlər, sən demə, elə onun həyatı imiş, tərcümeyi-halı imiş. Bunu Mir Əkbər o vaxt iclasda Bəbirin təqdim etdiyi, az sonra, özünün redaktorluğu ilə nəşr olunan «Pərçəm»in birinci və dördüncü səhifələrində çıxmış məqaləni oxuyanda bir daha başa düşmüş və sevincdən gözü yaşarmışdı. Həmin nömrədə, baş məqalə kimi, Bəbirin yoldaşlara oxuduğu kəsərli məqalə dərc edilmişdi, onun altında isə Mir Əkbərin şəkli və tərcümeyi-halı çıxmışdı. Burada onun bütün həyatı, ailəsinin başına gələn müsibət, həbsxana illəri, polis və jandarm idarəsindəki məcburi xidməti, inqilabi fəaliyyəti, sürgün olunması və s. qeyd edildikdən sonra deyilirdi:

«Mir Əkbər Xeybərin əfqan xalqının demokratik hərəkatının meydana gəlməsi və təkamülündə çox böyük və təsirli xidmətləri vardır. Buna görə də, o, istefaya çıxandan indiyə qədər əziz, igid,

sadiq, təvəzökar, alim və vətənpərvər bir yoldaş kimi əfqan xalqı ilə, əfqan xalqının demokratik hərəkatı ilə sıxı əlaqədə fəaliyyət göstərir və bu hərəkatın rəhbərlərindən biri kimi kargər sinfinin idoelogiyasını, onun elmi dünyagörüşünü müdafiə edir və Bəbir Karməndin döyüş dostu kimi qorxmadan çalışır.

Mir Əkbər Xeybərin qırx dörd yaşı var, evlidir, dörd uşaq atasıdır. Kiçik bir otaqdan başqa heç bir şəxsi mülkiyyəti yoxdur. Özünün, ailəsinin minimum təminatı zəmanənin gərdişinin əlindədir...»

O, işindən ləzzət ala-ala, həyatından razı halda yaşayırdı. Doğrudur, yoxsulluq, ailənin dolanışıq ehtiyacı onu çox sıxırdı, məyus eləyirdi — arvadın, uşaqların hərəsinin bir dərd-səri vardı, onları yedirtmək, geydirmək lazım idi. Ancaq o, dildə də olsa ailəsinə təskinlik verir:

— Darıxmayın, balalarım, yaman günün ömrü az olar, — deyirdi. Xanımı da, uşaqları da, hər bu sözü eşidəndən sonra, xeyli gözləyirdilər, susurdular, ancaq sonra başa düşürdülər ki, bu yaman günlərin heç sonu yoxdur deyəsən!

Bu sıxıntılara baxmayaraq Mir Əkbər qətiyyən ruhdan düşmür, gecəni-gündüzə qataraq işləyir, yoruldum demirdi. Mir Əkbər gələndən sonra «Pərçəm» bir az kəskinləşmişdi — onun səhifələrində indi daha kəsərli məqalələr, şerlər, hekayələr çıxırdı. Şəfinin yazıb-yaratmağa vaxtı çoxalmışdı. Tez-tez siyasi məzmunlu şerlər gətirirdi. Elməddinin də bir neçə hekayəsi dərc olunmuşdu, müəlliflərin sayı artmışdı. Nur Məhəmmədin ayrılıqdan sonra nəşr etdiyi «Xalq» ruznaməsi altı nömrə çıxandan sonra hökumət tərəfindən bağlanmışdı. Çünki Nur Məhəmməd hezbin proqramını bütünlüklə iki dildə — puştu və dəri dilində nəşr etmişdi, bu isə hökuməti qorxuya salmış və «Xəlq»i qadağan eləmişdi.

Mir Əkbər işə başlayandan doqquz ay keçmiş «Pərçəm»in də, necə deyərlər, başına bir qəziyyə gəldi. Bu, o vaxt idi ki, bütün dünya zəhmətkeşləri Leninin anadan olmağının yüz illiyini qeyd etməyə hazırlaşırdı. Rəsmi dövlət ruznamələrində — «Ənis»də, «İslah»da, jurnallarda arasıra, əsasən, xarici mətbuat səhifələrindən götürülmüş, tərcümə edilmiş kiçik məlumatlar verilirdi bu barədə. «Pərçəm» o böyük bayrama biganə qala bilməzdi. Bəbir gecəni gündüzə qatmış,

Leninin həyat yolunu, mübarizəsini işıqlandıran iri bir məqalə yazmışdı: «Leninin şərhi-halı» adlanan bu yazını Bəbir elə böyük bir məhəbbət və ehtiram hissi ilə qələmə almışdı ki, kim oxusaydı, ya kimin yanında oxusaydın, onda dünya zəhmətkeşlərinin dahi rəhbərinə sönməz bir sevgi, hörmət yaranardı. Bəbir məqaləni bu sözlərlə bitirmişdi: «Lenin peyğəmbəre əsre mast. Dorud be ruhe Lenin!»[1]

Məqaləni Mir Əkbər oxuyub bəyənmiş, redaktə etmiş, makinada Anahita çap edəndən sonra mətbəəyə göndərmişdi. Növbəti nömrədə məqalə dərc olunmuşdu. Əsl məsələ də burdan başlamışdı. Ruznamə satılıb yayılandan bir gün sonra şəhərdə bir hay-küy qopmuşdu ki, gəl görəsən. Sən demə, ruznamə ruhanilərin əlinə düşübmüş. İyirmi il nəcəfuləşrəfdə təhsil almış, otuz ilə yaxın Kabildə əyləşib məmləkətin bütün ruhanilərinə rəhbərlik edən Şeyxül İslam cənabları Bəbirin məqaləsini oxuyub hədsiz dərəcədə qəzəblənmiş, xüsusilə Leninin peyğəmbər adlandırılması onu lap hövsələdən çıxarmış və o, ağzı köpüklənə-köpüklənə, minbərə çıxıb Məhəmməd peyğəmbər səllallahu əleyhüssəlamın ruhunu təhqir edən bu bidinləri, başda Bəbir olmaqla, təkfir etmiş, «o fitnə-fəsad yuvasını, şeytan ocağını» — yəni «Pərçəm»in redaksiyasını dağıtmağın, o sözləri yazan dinsizi tutub cəzasına çatdırmağın savablığını bildirmişdi.

Başı əmmaməli, əli təsbehli, qara camaatın gətirdiyi nəzir-niyazı həzmi-rabedən keçirən mollalar, himə bənd imiş kimi, şəhərin küçələrinə çıxmış, əvvəlcə ancaq özlərnndən ibarət olan dəstələri, «Dini-islamın şərəfini qorumaq hər müsəlmanın vicdani işidir», «Dini-islam əldən gedir», «Dinsizlərə ölüm» şüarlarının təsiri altında getdikcə böyüyüb gurlaşmış, bikarlar, küçədən keçənlər, ibadət etməkdən dizləri, dilləri qabar olanlar onlara qoşulmuş və böyük bir izdiham ələlə gəlmişdi. Dəstə... yavaş-yavaş, şişib küçələrə sığmaya-sığmaya «Pərçəm»in redaksiyasına yaxınlaşmışdı.

Xoşbəxtlikdən, mətbəədən çıxıb bazara çörək almağa gedən Munis o qızğın, yerlə-göylə əlləşən dəstəni görmüş, şüarları eşitmiş

[1] *Tərc.* «Lenin — əsrimizin peyğəmbəridir. Leninin ruhuna eşq olsun».

və burada nə isə... xoşagəlməz bir iş olacağını hiss edib tələsik, başılovlu, nəfəsinn çiyinlərindən ala-ala özünü redaksiyaya yetirmiş, Mir Əkbərə, Bəbirə, Anahitaya, Elməddinə məsələni başa salmışdı. Onlar əvvəl inanmaq istəməmiş, ancaq oğlan ətraflı danışandan sonra, qaçıb dağılışmışdılar. Hərə bir tərəfə. Yarım saat keçməmiş dəstə «Pərçəm»in qapısını, pəncərələrini sındırıb dağıtmış, heç kəsi tapa bilməyib iki saata qədər nifrinlə dolu şüarlar deyərək, nəhayət, ilkindi çağı dağılışıb getmişdi.

«Pərçəm» altı ay susmuş, təhrriyyə heyəti altı ay evdən-eşikdən qaçaq düşmüşdü.

Sonra isə... «Pərçəm» hökumət tərəfindən tamam qadağan edilmişdi. Oxucularının gözu ruznamə satan uşaqların əlində idi, ancaq «Pərçəm» yox idi, daha olmayacaqdı...

YEDDİNCİ FƏSİL

İsti iyul ayının ikinci yarsının ikinci günü məmləkətə heç kəsin ağlına gəlməyən, çoxlarının gizli arzusu olan, ancaq kimsəyə etibar edib demədiyi bir xəbər ildırım sürətilə yayıldı: «Əlahəzrətin taxt-tacı devrilmişdir. Şahlıq-üsulu-idarəsi ləğv edilmişdir. Əfqanıstan respublika olmuşdur. Əlahəzrətin doğma bacısı oğlu Sərdar Məhəmməd məmləkətin rəisi-cümhurudur. O Sərdar Məhəmməd ki, düz on il baş nazir olub.»

Bu xəbər bütün məmləkəti silkələmişdi. Uşaq da, böyük də sevinirdi. Sevinməyənlər də vardı, təbii ki, Əlahəzrəti sevənlər, onu allahın kölgəsi hesab edənlər, uşağının adını əlahəzrətin adıyla çağıranlar sevinmirdi, təbii ki! Dostları, övladları qohum-əqrəbası yas içində idi.

Təbii ki, bu hadisə bir evin içində baş verən hadisə deyildi, gizli qala bilməzdi — əhvalatı elə həmin gecə əlahəzrət eşitmiş və çox pis hala düşmüşdü. Bacısı oğlunun bu xəyanəti onun bütün əhvalını pozmuşdu, az qala ürəyini partlatmışdı. Zarafat deyildi, taxt-tac əldən getmişdi, o taxt-tac ki, düz qırx il, lap cavanlığından — on doqquz yaşından ona nəsib olmuşdu. Ömrünün qırx ilini burada —

«Ərke-Şahi»də Dilguşə sarayında, şad-xürrəm yaşamışdı, xoş günlər görmüşdü, burda da qocalmışdı. Vaxtilə bu sarayda əvvəllər sepəhsalar Nadir xan, sonra isə əlahəzrət Nadir şah adlanan atası, ondan qabaq isə məşhur Əmənulla xan yaşamışdır. O Əmənulla xan ki, qırx dörd — qırx beş il əvvəl Bəceyi Səkonun Nadir xanın hakimiyyət uğrunda apardığı vuruşlarda davam gətirə bilməyib, nəhayət, İtaliyaya getməyə məcbur olmuşdu. Getmişdi və ölən günəcən vətənə həsrət qalmışdı. Qürbətdə də ölmüşdü, sümüklərini beş-altı il əvvəl vətənə gətirib dəfn eləmişdilər. Bu barədə düşünəndə əlahəzrətin canına bir üşütmə düşmüşdü, öz aqibəti gözünün qabağına gəlmişdi. Ancaq neyləmək olardı — qazanın hökmü beləymiş yəqin. Onun qüdrəti taxt-tacında imiş, sən demə. Özü adi bir adam imiş — vəssalam.

Sərdar Məhəmməd siyasət aləmində bişmiş adam idi. O, başa düşürdü ki, indiki dünyada şahlığın vaxtı çoxdan keçib. O, daha yaşamağa qadir deyil. Odur ki, yeni yol seçmək, əsrlə, zamanla ayaqlaşmaq lazım idi. Bunun üçün Sərdar Məhəmməd usta tərpənib Əfqanıstanı müstəqil cümhuriyyət, özünü isə rəise-cümhur[1] elan etdi və beləliklə, həm qaynayıb-çalxanan əfqan cəmiyyətini, həm də əlahəzrəti devirmək, yeni, demokratik əsaslar üzərində bərqərar olan bir quruluş yaratmağa can atan və əslində Sərdar Məhəmməddən çox güclü olan demokratik qüvvələri sakitləşdirməyə imkan tapdı. Və elə iş başına gəldiyi ilk günlərdə, xalqı, zidd qüvvələri sakitləşdirmək məqsədilə xeyli yağlı vədlər, xüsusilə torpaq islahatı keçirəcəyi vədini verdi... Bu işə başladı da. Hilmənd vilayətində... yeddi minə qədər kəndliyə torpaq verildi... və bununla bu iş bitmiş oldu. Böyük torpaq sahiblərinin hüququna toxunulmadı — bacarmadı, çünki onlar güclü idilər və elə Sərdar Məhəmməd özü də onlar kimi iri torpaq sahələrinə malik idi. Çox çəkmədi ki, onun ikibaşlı siyasət yürütdüyü də aydın oldu — belə ki, Sərdar Məhəmməd həm sosialist ölkələrinin təmənnasız və qardaşlıq yardımından, həm də sərmayə dünyasının ölkələrindən istifadə etməyə, borc almağa başladı.

[1] Rəis-cümhur — prezident.

Tezliklə, ilk vaxtlar dövlətin tərkibinə seçilmiş demokratik fikirli adamlar da müəyyən bahanələrlə uzaqlaşdırıldı. Sərdar Məhəmməd bütün hakimiyyəti öz qoca, artıq titrəməyə başlayan əllərində cəmləşdirdi.

Xalqın savadlı adamları, xüsusilə demokratik cəbhədən olanlar — Bəbir, Nur Məhəmməd, Mir Əkbər, Şəfi, Süleyman Layiq və başqaları artıq anlamışdılar ki, vətənin xilas yolu bu deyil, bu, elə əvvəlki quruluşdu, intihası adı başqadı. Şah yoxdur, əvəzində rəisi-cümhur var. Vəziyyət elə həmin vəziyyətdi. Ağıllı adamlar rastlaşanda, vəziyyətdən danışanda qorxa-qorxa, o yan-bu yana baxa-baxa astadan belə deyirdilər: «Xər həmən xər əst, vəli çuləş digərəst»[1]. Məmləkətdə elə vəziyyət yaranmışdı ki, bəziləri əlahəzrətin devrilməsinə təəssüflənirdi. «Köçdüyün yurdun qədrini, düşdüyün yurdda bilərsən!» — deyib keçən günləri, keçən vaxtları həsrətlə xatırlayan az deyildi.

Yığıncaqlarda, mühazirələr qadağan edilmişdi. Xusüsi ruznamələr, sol və cəsarətli çıxışlar eləyən ruznamələr rəisi cümhurun xüsusi göstərişi ilə bağlanmış və susdurulmuşdu. Rövşənfikir adamların bir çoxu həbs edilmişdi.

Beləliklə, Sərdar Məhəmməd, təbliğat maşınının, dövlət ruznamələrinin, radionun gecə-gündüz bar-bar bağırıb məmləkətdə böyük dəyişikliklərin yaranmasını söylədiyinə baxmayaraq, xalqın qəlbinə yol tapan, onun dərdli ürəyini ovudan bir yol tuta bilmədi.

Hezbin işi, bu şəraitdə, daha da ağırlaşmışdı. Vəzifə daha da dəqiqləşmişdi. Mübarizə daima kəskin xarakter almalı idi. Hezbin proqramında qarşıya qoyulan yüksək amal — yeni, bərabər, humanist bir cəmiyyət yaratmaq amalı yerinə yetməyincə silahı yerə qoymaq olmazdı. Yox, qətiyyən olmazdı.

Bəbirin və yoldaşlarının qəti qərarı belə idi.

[1] *Tərc:*«Eşşək həmin eşşəkdir, ancaq çulu başqadır».

SƏKKİZİNCİ FƏSİL

Hava ilıq yaz günəşi ilə könül oxşayırdı. Həyətdəki ağaclar yamyaşıldı, gül kollarının üstünə elə bil yaşıl-qırmızı parça sərmişdin. Elməddin fpkirli-fikirli kiçik bağçada gəzinirdi. Qanıqara idi — Simin uşaq xərc eləmişdi. Üç aylıq körpə varlıq, anasının ehtiyatsızlığı üzündən — ağır yük qaldırdığından tələf olmuşdu. Simin çoxlu qan itirdiyindən zəif düşüb yatmışdı. Əfsanə ona tez-tez şərbət içirir, yeməyinə xüsusi fikir verirdi. Simin sakit ola bilmirdi, dalbadal köks ötürür, bunu böyük itki hesab eləyirdi. Əfsanə nə qədər təskinlik verirdisə, gəlin aram olmurdu. Onun bu qanıqaralığı Elməddinə də pis təsir eləmişdi. İki gün idi qaşqabağı açılmır, fikir xəyaldan ayrılmırdı. «Dünyaya gəlməmiş ölən körpəmə» adlı qəmli bir şer də yazmışdı. Şerdə oğul həsrətilə yaşayan bir atanın ürək çırpıntıları, övladının xoş gələcəyi haqqında xoş, şirin düşüncələri qələmə alınmışdı.

Əfsanə içəridə — yatağında uzanmış Siminbərə, eyvanda, həyətdə Elməddinə təsəlliverici sözlər deyirdi, ancaq elə bil, ər-arvad onu eşitmirdi, sanki, «eh, sən nə bilirsən, övlad nə deməkdi, ay yazıq!» — söyləyirdi ürəyində. Nədənsə Əfsanəyə elə gəlirdi ki, Elməddin uşağın tələf olmasından çox, arvadının çəkdiyi əziyyətə heyfslənir, yanıb-yaxılır. Və o, bunda sonsuz bir məhəbbət görürdü, bu canıyananalıq, qayğıkeşlik hardasa Əfsanənın gözlərini duman-landırır qəlbini qəribə bir kədərlə doldururdu. O, belə anlarda özünü dünyanın ən bədbəxt qadını sayırdı. Hərdən anlaşılmaz bir ürək çırpıntısı ilə gözləyirdi ki, bax, indi Simin xəstədir, qan itirib zəif düşüb, başı öz hayındadı, qeyri-iradi bir qadın marağı ilə gah onun, gah bunun ağzına, gözlərinə baxan Simin indi, demək olar ki, çarpayıdan düşə bilmirdi, Əfsanə qızın da yatdığı vaxtlar olur, — bax belə anlarda, dəqiqələrdə, saatlarda, Elməddin ona lütflə, mehriban-lıqla baxa bilər, heç olmasa şirin-şirin söhbət edə bilər, ya özündə bir cəsarət, qüdrət tapıb onun otağına keçə bilərdi. Belə arzu ilə yaşadığı günlər çox olmuşdu, ancaq hamısında ümidləri, intizarları boşa çıxmışdı. Simin elə bil Elməddini əfsunlamışdı. Əfsanəyə olan məhəbbətini, marağını öldürmüşdü, soyutmuşdu. Əfsanə bunu özü

üçün ən böyük dərd eləyib yaşayırdı, ağrılı qəlbinin giziltilərini ovuda-ovuda yaşayırdı. Doğurdanmı, onun hiss etdikləri həqiqət idi, ya ona elə gəlirdi? Doğrudanmı Elməddin, Əfsanəyə olan sevgisini tamam itirmişdi? Bax bu həqiqəti Əfsanə bilmirdi, başa düşmürdü, şəklə yəqin arasında çırpına-çırpına qalmışdı.

Belə günlərin birində — Elməddin bağçada gəzərkən həyət darvazası döyüldü. Elməddin əlindəki gül qıçasını burnuna yaxınlaşdırıb iyləyə-iyləyə:

— Kimdir? — dedikdə:

— Ağayi Elməddin, mənəm! — deyən səsi eşitdi və o dəqiqə — cəmi bircə dəfə söhbət etdiklərinə baxmayaraq — tanıdı. Bu, Şahin idi. Elməddin darvaza qənşərinə gəldi, qapını açdı və onlar köhnə tanışlar kimi çox səmimi görüşdülər. Elməddin ona «xoş gəldin!» elədi. Qolundan tutub həyətə — tut ağacının altındakı stolun yanına gətirdi. Oturdular. Şahin bir az kökəlmişdi, ətə-qana dolmuşdu. Əyninə təzə, mil-mil parçadan tikilmiş kostyum geymişdi. Papaqsız idi, uzun, qara saçlarını arxaya daramışdı. Üzü tər-təmiz qırxılmışdı. Deyəsən, elə dəlləkdən çıxıb birbaş bura gəlmişdi. Üstündənbaşından ətir iyi gəlirdi. Şahin həyətə girəndə dayanıb pərişan-pərişan əlində gül tutan Elməddinə tamaşa eləyirdi. Əfsanə öz otağında idi, pəncərənin qabağında ürək çırpıntısı ilə gözləyirdi ki, heç olmasa uzaqdan, gül kollarının arasından qanrılıb ona baxdığını görsün, sadəcə gülümsünsün, heç nə istəmir, gülümsünsün içəri keçəndə əlindəki o tək qızılgülü ona versin. Heç nə deməsin, eləcə verib getsin öz sevimli arvadının yanına. O, bu təmənnada ikən, dünyanın işinə bax ki, Şahin gəlmişdi. Onu Elməddinlə mehriban görüşən görərək Əfsanənin ürəyi əsmişdi. Şahindi? Hə, hə, odur, özüdür. Ay aman, necə böyüyüb necə yaxşılaşıb, kişiləşib! Əvvəlcə qeyri-iradi olaraq, otaqdan çıxıb onun qabağına qaçmaq, əl verib «xoş gəldin!» demək, hal-əhval tutmaq, Reyhan ananın kefini soruşmaq istədi, yerindən qopdu da. Ancaq iki addım atmamış dayandı. «Yox, hara gedirəm, buna Elməddin necə baxar?» — deyə düşünərək fikrini dəyişdi, təzədən pəncərə önünə gəlib azca aralıda dayanaraq baxmağa başladı. Maraqlı bir şeyin şahidi oldu beş-altı dəqiqənin içində Əfsanə: Şahinin bir gözü elə qapıda-pəncərədə idi. Şübhə yox idi ki,

Əfsanəni görmək istəyirdi. Yazıq gör neçə il idi ki, onu görmürdü! — Əfsanə belə düşünürdü. Elməddin də gözlərini tez-tez qapı-pəncərəyə tərəf dolandırdı. Şübhəsiz, bilmək istəyirdi ki, Əfsanə Şahinin gəldiyindən xəbərdardımı, ona baxırmı, necə baxır? Məhəbbətləmi, maraqlamı, yaxud sadəcə hörmətlə? Axı Elməddin Şahinin Əfsanəyə vurulduğunu bilirdi və indi, Elməddinin evində Əfsanənin bu cavan oğlana bəslədiyi münasibəti bilmək, yəqin ki, Elməddin üçün çox maraqlı idi.

Əfsanəni xəyal öz zərif qanadlarına alıb Qarabağ qəryəsinə, ömrünün orda düşüb qalan günlərinə aparmışdı... Bax, indi, həyətdə Elməddinlə oturub söhbət eləyən, arada oğrun-oğrun bu tərəfə göz yetirən Şahin onda, Əfsanəyə necə vurulmuşdu, ilahi? Gəlib. Görəsən niyə gəlib —bir işi var, ya Əfsanəni görmək üçün gəlib? Əfsanəni görmək istəyən oğlan çoxdan gələrdi. Gör Elməddinlə görüşdüyü vaxtdan nə qədər keçib? Amma demişdi: «Səni harda olsan, axtarıb tapacağam, Əfsanə!» Bəli, demişdi. Nə olsun ki, adamlar çox söz deyirlər, and da içirlər, ancaq... hamı sözünün üstündə dururmu?..

Şahinlə Elməddin nə danışdılarsa — yəqin ki, hələ əhvalpürsanlıq olardı — Elməddin üzünü evə tərəf tutub çağırdı:

— Əfsanə, Əfsanə!..

Əfsanə xəyal aləmindən ayıldı, tərpənti elədi ancaq yuxudan oyanmış balaca Əfsanə ondan qabağa düşdü, atasının yanına qaçdı, orda tanımadığı yad adamı görüb bir anlığına duruxdu, sonra Elməddinin qıçlarına sığınıb:

— Nədi, qibləgahım? — dedi.

— Qızınızdı, ağayi Elməddin? — deyə Şahin qəşəng geyinmnş, totuq, qırmızıyanaqlı, gözəl, xurmayı saçları arxada hörülmüş qıza baxa-baxa soruşdu.

— Hə, əmisi, qızımdı.

— Adı Əfsanədi? — Hə. Əfsanə qoymuşam adını. Şahin susdu. Elməddin qızına müraciətlə: — Get, Əfsanə xalana de, Şahin əmi gəlib! Gəlsin, görüşsün, həm də bir çay hazırlasın.

— Yaxşı — deyərək Əfsanə içəri cumdu...

İki kişi arasına sükut çökdü. Şahin münasib fürsət axtarırdı, ancaq hələ ki, o fürsət ələ düşməmişdi. Ürəyi dolu idi. Daha dözə

bilməyib gəlmişdi. Gəlmişdi ki, Elməddinlə açıq danışsın, başa salsın, əgər gec deyilsə... O bu gün evdən çıxarkən müti olmayacağına, heç nədən, heç kəsdən utanmayacağına and içmişdi, çünki onun taleyi həll olunurdu — ya hə, ya yox! O, bu gün bilməliydi hər şeyi, bilməliydi. Sözə başlamaq istəyirdi ki, Elməddin qəfildən Əfsanəni hayladı. Demək, indi o, onun əzizi, həsrətindən dəli-divanə olduğu, gecələrinin şirin yuxusunu ərşə çəkən Əfsanə gələcək... Gələcək, aman allah! Və o, Əfsanənin gözlərini görəcək, səsini eşidəcək — nə böyük səadətdi bu, ay allah! Şahinin ürəyi içəridə külək döyəcləyən tək yarpaq kimi əsirdi. Bacardıqca həyəcanını gizləməyə, ört-basdır eləməyə çalışırdı. Nə dərəcədə müvəffəq olurdu — deyə bilməzdi. Qarşısında oturan adi adam deyildi, şair idi — şairlər, söz ustaları isə, deyilənə görə, çox həssas və arif olurlar. Onlar üçün bir baxışı tutmaq, bir sözü eşitmək kifayətdi ki, insanın qəlbindəki ən gizli, ən məhrəm sirrləri belə anlasınlar, mənalandırsınlar, kəşf eləsinlər! Elməddinin indi onun baxışını tutması, sözünü yozması maraqlandırmırdı, onsuz da o, hər şeyi deyəcəkdi, çəkinmədən, utanmadan deyəcəkdi. Budur, Əfsanə gəlir... Yermi titrəyir, ilahi? Ya üstündə oturduğu stulumu laxlayır? O niyə belə uçunur — sanki kəpənəkdi, yüngül, qov kimi... Əfsanə xırda, tələsik, eyni zamanda tərəddüdlü addımlara yaxınlaşdıqca Şahin həqiqətən kəpənəyə dönürdü sanki, uçub ona sarı gedirdi, güclü günəş işığı altındakı qar kimi əriyib suya dönərək ona doğru axırdı... Arada dörd-beş addımlıq məsafə vardı, ancaq... Anlar keçirdi, o dörd-beş addım yol qurtarmaq bilmirdi, uzandıqca uzanırdı.

Necə qəribə, sehrli, şirin və əzablı anlar idi bu anlar, ay aman! Şahinin gözləri Əfsanəyə zillənmişdi. Amma onun gözlərini, qaşlarını, burnunu, dodaqlarını görə bilmirdi Şahin. Əfsanə yuxu aləmindəki kimi gəlirdi — bütöv gəlirdi. Əfsanə idi, lakin bu dönüb xəyal da ola bilərdi birdən-birə! Şahin sanki bax elə bundan qorxurdu. Və qız özünü elə unutmuşdu ki, Elməddinin ondan göz çəkmədiyini də görmürdü. Elməddin də anlaşılmaz halətdə idi. Bayaqdan, bu çağrılmamış qonaq gələndən bəri, sanki içini alt-üst çevirmişdilər. Danışırdı, gülürdü, Şahinə mehriban olduğunu göstərmək istəyirdi, zahirən şad idi. Ancaq hiss edirdi ki, içərisində ikinci bir Elməddin də var və

o, çox pərtdi, qanı qaradı, bax bu qarşısında oturan oğlanı görməyə belə gözü yoxdu. Bəli, indi burada, Şahinin qənşərində iki Elməddin oturmuşdu; görünən, deyən, danışan, bir də görünməz, susan, gizlənən, Şahinin gəlişinə əsla sevinməyən! «Ona bax, gör necə həsrətlə baxır qıza?.. Gör, gör! Hə, elə Əfsanə də uça-uça gəlir. Gülümsünür...» Nəhayət, Əfsanə mizə çatdı. Şahin, müqəddəs bir varlığa təzim edirmiş kimi, ayağa qalxıb Əfsanəyə baş endirdi. Əfsanənin həyəcanlı olduğu, uçunduğu rənginin ağarmağından, dodaqlarının qurumağından bilinirdi. O quru dodaqların arasından sakit, təmkinlə deyilmiş:

— Xoş kəlmisən, Şahin! — sözləri çıxanda Şahin o tanış, illərlə beynində yaşatdığı səsi tanıdı və yalnız indi inandı ki, qabağındakı elə o Əfsanədi. Daha bu, yuxu deyildi. Daha bu, xəyal da deyildi.

Toxtaq bir ədayla:

— Xoş günün olsun, Əfsanə! — deyə cavab verdi. — Necəsən, Əfsanə?

— Yaxşıyam. Siz necəsiniz, mənim Reyhan anam necədi, Şahin? Mən çox şadam ki, siz gəlibsiz...

— Sağ ol, Əfsanə. Mən də yaxşıyam, Reyhan anan da yaxşıdı. Elə səndən sarı nigarandı. Həmişə deyir ki, o qızı axtar tap, bala, gör, günü-rüzgarı necədi?.. Ağayi Elməddin söz vermişdi ki, səni də götürər, bizə gələr. Ancaq nəisə gəlib çıxmadız. Nənəm yaman qocalıb, Əfsanə...

— Allah onun ömrünü uzun eləsin, Şahin. Elməddin Allah şahididi ki, mən gecə də, gündüz də ona—sizə dua-səna eləyirəm. Siz olmasaydız, mənim indi sümüklərim də çürümüşdü. Otur, otur, niyə ayaq üstə durubsan, Şahin.

Şahin oturdu. Elməddinə baxıb gülümsündü.

— Qəryədə nə var, nə yox?

— Salamatlıqdır.

— Olsun, olsun.

Sonra... Əfsanə... ani sükutdan sonra:

— Maşallah, yekə kişi olubsan daha! — dedi. — Mən görəndə... uşaq idin.

— Nə bilim... İllər keçir də...

«Maşallah de, göz dəyər. «Yekə kişi olmusan». Hə, olub»— deyə ürəyində o sözlərə güldü; Elməddin qəribə bir sıxıntı içində... Nə isə etmək istədi ki, bu söhbət kəsilsin» ancaq nə? Qeyri-iradi heç luzum olmadan öskürdü və birdən:

— Bizə bir çay gətir, Əfsanə, zəhmət olmasa! — dedi. Və bunu tapıb deyə bildiyinə uşaq kimi sevindi. Çünki söz Elməddinin ağzından çıxmamış o:

— Bu dəqiqə! — deyib uzaqlaşdı.

— Hə, belə-belə işlər, Şahin kişi! — dedi Elməddin, hiss elədi ki, heç yerinə düşmədi bu sözlər. Namünasib danışdığını gizləmək üçün siqaret qutusunu çıxarıb stolun üstünə qoydu.

—Çəkirsən?

— Yox.

— Yaxşı eləyirsən. Zəhrimardı. — Belə deyə-deyə bir dənə siqaret yandırıb damağına qoydu.

— Bəs... yoldaşınız... Hanı, ağa? Heç gözümə dəymir?

— Hə? Yoldaşım? Hə... bir balaca nasazdı.

— Yastığı yüngül olsun...

— Sağ ol.

Əfsanə çay gətirdi. Özü də oturmaq istəyirdi, ancaq Elməddinin sərt baxışını görən kimi, heç nə demədən kölgə kimi hiss olunmadan çəkilib getdi. Elməddin yalnız Əfsanə gedəndən sonra bayaqdan qəlbini yoran nigarançılığın adını tapdı. O, Şahinlə üz-üzə, təkbətək qalmaqdan qorxurmuş, sən demə! Sövqi-təbiisi ilə başa düşmüşdü ki, bu «uşaq» buraya boş-boşuna gəlməyib. Onu ürəyi, məhəbbəti çəkib gətirib bura! Nə isə ciddi danışmaq üçün gəlib Şahin!.. Bax, bu qorxuzurmuş onu! Şahinin də ciddi danışa biləcəyi bircə məsələ vardı — Əfsanə məsələsi!..

O nə cavab verəcəyini dürüst müəyyənləşdirməmiş, Şahin boğazını arıdıb sözə başladı:

— Mən... Mən bura sizinlə danışmağa gəlmişəm, ağa!

— Mənimlə danışmağa?... Elə bayaqdan danışırıq da. — deyə Elməddin çaşqın halda cavab verdikdə o:

— Elə yox, — dedi.

— Hə?

— Bəli, ağa, mən çox vacib bir iş üçün sizin yanınıza gəlmişəm.

Elməddin siqaretinə dərin bir qüllab vurdu:

— Eşidirəm səni, Şahin kişi!

Şahin ilk sözlərini demək üçün susdu, haradasa yenidən vücuduna hakim kəsilib dilini bağlamağa hazırlaşan utancaqlığı, mütiliyi var gücü ilə özündən uzaqlaşdırmağa çalışdı və alnına tər gəldi. Sonra... sonra hər şey keçib getdi, dili açıldı. Danışdı. Elə danışdı ki... Elmədinin dayanıb qulaq asmaqdan özgə çarəsi qalmadı. Bu dərd ona tanış idi, onun oduna çox yanmışdı. Elməddin Şahinin gözlərinin içinə baxırdı — o gözlərdəki kədəri, məyusluğu, dərin məhəbbəti görür, hiss edirdi. Sözlərindəki səmimiyyətə inanmaya bilmirdi. «Siz məndən böyüksünüz, mən sizin yanınıza böyük qardaş kimi gəlmişəm, elə bilirəm ki, bir insan kimi, bir şair kimi məni başa düşərsiz, mən sizdən dönə-dönə üzr istəyirəm... Siz alicənab adama oxşayırsız ağa...» Sonra Şahin dərdini dilinə gətirmişdi. Neçə ildi bu Əfsanəni sevir. Başına gələn müsibətləri də bilir, elə Elməddinin dərdinə də şərikdi. Məhəbbəti, ilk sevgisi ürəkdə qalmaq dözülməz, sağalmaz, unudulmaz dərddi. Belə adamların az, çox az bir qismi dahi olur, böyük əksəriyyəti isə... dəli olur; həyatda. Ömür boyu sınıq, düşgün, itiyi itmiş adam kimi narahat yaşayır belə adamlar. Bu isə, həyat deyil, xoşbəxtlik deyil, sürünməkdi, hədər yaşamaqdı. Ağayi Elməddin lap əvvəl, qardaşının qabağında susmaqda səhv eləyib. Gərək ürəyini qardaşına açaydı, dərdini deyəydi. Qardaşı onu başa düşərdi və Şahin inanır ki, o, Əfsanədən əl çəkərdi, gedib başqa arvad alardı. Ona arvad lazım idi. Alardı başqasını. Elməddin də xoşbəxt olardı onda, Əfsanə də. Amma Elməddin düzgün hərəkət eləyib sonra, Əfsanəni almayıb. Qardaşının arvadıydı, namusuydu. Şahin özü də belə hərəkət eləyərdi. Ancaq... indi... Elməddinin arvadı var, uşağı var. Əfsanə, isə... tək-tənha qalıb... Neçə yaş ondan böyük də olsa, eybi yoxdu, Şahin onu xoşbəxt eləyər. Əfsanə ağıllı, namuslu qadındı, təmizdi, xoşbəxt olmağa layiqdi. Elməddin elə hesab eləsin ki, Əfsanə onun bacısıdı, qardaşının dul qalmış qadınıdı — bir böyük kimi, ağsaqqal kimi qabağa düşsün, onu ev-eşik, ailə sahibi eləsin. Bu, onun mənəvi borcudur, bundan Allah da, Əfsanə də, Şahin özü

də, Reyhan nənə də razı qalar. Şahinin ümidi bircə Elməddinə gəlir — ondan başqa bu müşkül işi həll eləyə biləcək ikinci bir adam tanımır Şahin!.. Şahin elə indi, bu dəqiqə ondan cavab istəmir. Fikirləşsin Elməddin — çünki Şahin bunu da çox yaxşı başa düşürdü ki, bu, Elməddin üçün asan məsələ deyil. Necə olsa sevib onu, bəlkə elə indin də sevir — evdə xanımıyla, Əfsanənin özüylə məsləhətləşsin, ölçüb-biçsin...

Şahin ürəyini boşaldıb qurtaranda... kirpiklərindən yaş damcıları asılmışdı və o, göz qırpan kimi, o iki damcı yanaqlarını yalaya-yalaya aşağı yuvarlananda... Elməddinin qəlbinin başı göynədi. Özünün o günləri gəlib yadına düşdü, eşitdikləri xatirələrinə qarışıb içini göynətdi. Və o, dərindən köks ötürüb əlləri ilə... başını tutdu, gözlərini yumdu... Gözü yumulu səssiz, uzaq illərin arxasında cərəyan edən bir filmə baxmağa başladı sanki...

...Başını qaldıranda.. Şahinin stulu boş idi.

DOQQUZUNCU FƏSİL

Əfsanə pəncərənin qənşərində dayanıb həyətdə, miz arxasında oturan Şahinlə Elməddinə tamaşa eləyirdi. Şahin nə isə danışırdı, Elməddin lal-dinməz qulaq asırdı. Görəsən, söhbət nədən gedirdi? Əfsanənin ürəyinə dammışdı ki, Şahin bura, Elməddinin yanına onun üçün gəlib. Yəqin indi də elə bu barədə odlu-odlu danışır. İstəyirdi orda ola, onun sözlərinə qulaq asa. Görə nə deyir, necə deyir? Ancaq bu mümkün deyildi. Bu ara balaca Əfsanə gəlmiş:

— Madərim səni çağırır, xala — demişdi. Əfsanə tələsik Siminin yanına cummuşdu.

— Nədi, Simin? — soruşmuşdu. — Nə olub?

— Ürəyim axır, mənə bir gilas şərbəti ver, Əfsanə.

— Bu dəqiqə.

O şərbət hazırlayıb gətirəndə Simin:

— Bəs Elməddinin yanındakı kişi kimdi? — deyə xəbər almışdı.

— Şahindi.

— Şahin? Şahin kimdi?

— Sənə haqqında danışmışam. Reyhan nənənin nəvəsi. Qarabağ qəryəsindən...

— Hə, hə. Yadıma düşdü. Səni sevən oğlan...

— Hm.

— Niyə gəlib görəsən?

— Nə bilim vallah.

— Yəqin sənin dalınca gəlib, — Simin şərbətin təsirindən çox, bu fikrin təsirindən dirçəldi. — Kaş dura biləydim, baxaydım, görəydim necə oğlandı?

— Yox, sənə hələ durmaq olmaz. Yat sən hələ. Oğlandı da.

— Qəşəngdi?

— Nə bilim, heç yaxşı fikir vermədim. Ancaq böyüyüb, kişiləşib...

Simin daha heç nə soruşmamışdı. Ürəyində Allaha yalvarmışdı ki, Şahin Əfsanənin dalınca gəlmiş olaydı. Onu alıb aparsaydı, yaxşı olardı. Simin uşaq deyildi, başa duşürdü görürdü ki, Əfsanə Elməddini sevir, çox sevir. Elməddin isə ona məhəl qoymur. Yazıq qadın əzab çəkə-çəkə qalıb. Simin bunu da başa düşürdü ki, özü Əfsanədən az əzab içində deyil. Fatimə arvada Allah kömək olsun — qızının fikrini çaşdırmışdı, ürəyinə qısqanclıq toxumu səpmişdi o vaxtdan. Simin səksəkə içində yaşayırdı. Ürəyində anlaşılmaz bir qorxu yaranmışdı ki, Elməddin... günlərin birində... Əfsanənin yanına gedə bilər! Simini unuda bilər!.. Əfsanə ərə getsəydi, çox gözəl olardı.

Əfsanə öz otağına çəkilib pəncərədən baxanda... görmüşdü ki, Şahin gedib. Elməddin isə... başını əlləri arasına alaraq tək oturub, Şahin niyə belə tez getmişdi? Heç xudafizləşməmişdi də. Bu, nə olan iş idi? Yox, burda nə isə başqa məsələ var. Bəlkə sözləri çəp gəlib? Bəlkə...

Əfsanə çəkələklərini sürüyə-sürüyə həyətə endi, Elməddinin yanına gəldi. O, ağır xəbər eşitmiş, sarsılmış adam kimi oturmuşdu, beli də elə bil bükülmüşdü. Görünür, çox pis halda idi ki, Əfsanənin gəlişindən də xəbər tutmamışdı. Əfsanə böyründə dayandı:

— Elmi, ay Elmi. Elməddin yuxulu adam kimi səksənmiş halda başını qaldırdı:

— Hə.

— Sənə nə olub?

— Mənə? Heç...nə!

— Bəs... gözlərin niyə qızarıb?

— Gözlərim qızarıb? — O, ovuclarının içi ilə gözlərini ovxaladı, elə bil, Əfsanə deyən qırmızılığı silib təmizləmək istəyirdi. — Heç, elə belə.

— Bəs... Şahin hanı?

— Şahin? Hə, Şahin... getdi. — Elməddin həqiqətən qızarmış gözlərini qaldırıb Əfsanəyə baxdı və nəzərlərilə stulu göstərərək zəif, taqətsiz bir səslə:

— Otur, Əfsanə... — dedi, — otur, sənlə söhbətim... var! Əfsanə qanrılıb qapıya, Siminin otağının pəncərəsinə qorxaq bir nəzər salıb əyləşdi. Elməddin siqaret yandırdı, Əfsanə gördü ki, kişinin əli əsir. «Yox, Elməddinə nə isə olub! Bu igid ölmüş hayandan gəlib çıxdı?» — deyə düşünən Əfsanə Elməddinə diqqətlə göz qoyub:

— Axı... sənə birdən-birə nə oldu, Elmi? Heç özündə deyilsən. O çərxi dönmüş sənə bəd xəbər gətirib? Elməddin dikəldi:

— Çərxi dönmüş kimdi?

—Şahini deyirəm də!

«Çərxi dönmüş. Demək, Əfsanə onu sevmir? Sevmir, Sevmir. Sevsəydi belə deməzdi!» — Elməddinin qırışığı azca da olsa açıldı. Əfsanənin üzündəki, gözlərindəki təşvişi, həyəcanı görüb sevinən Elməddin qəmli-qəmli gülümsündü:

— Hə, bəd xəbər gətirib, Əfsanə!

— Ürəyimə gələn başıma gəlir. Mən o saat elə belə də başa düşdüm. Yoxsa, sənə birdən-birə... nə oldu ki, tanınmalın qalmadı? Nə olub axı, nə deyirdi?

Elməddin ah çəkdi:

— O sənin dalınca gəlib, Əfsanə! O səni sevir... Əfsanə yerində qurcalandı. Qızardı. Ani olaraq susdu. Sonra:

— Bu sənin üçün təzə xəbərdi? Mən bunu arvadına da, sənə də demişdim. O, elə o vaxt, qəryədəykən məni sevirdi. Mən elə ona görə Reyhanın evindən qaçdım, Elmi! Sevir. Nə olsun sevir? Qız ağacı, qoz ağacı — deyiblər. Qızı, qadını çoxu sevə bilər, Baxır ki, qız kimi sevir?!

Elməddin lap dirçəldi:

— Qız... kimi sevir, Əfsanə?

— Qız onu sevməyəni sevir, sevəni yox, Elmi!

İkisi də susdu. Aydın idi. Qız — Əfsanə idi, sevməyən — Elməddin.

— Qız... səhv fikirləşir. Qızın... sevdiyi adam da onu sevir, çox, lap çox sevir. Gecə-gündüz onun haqqında fikirləşir, rahatlığı yoxdu, yuxusu yoxdu... Ancaq...

— Hə, bu ancaq məsələsi... uzun məsələdi. Sonrasını deməyə də bilərsən, Elmi onlar mənə məlumdu. Mən sənin qardaşının arvadı olmuşam, alnımda damğam var, üstümdə möhürüm var. Sənin isə arvadın, uşağın... Bunlar məlumdu, mənə, Elmi.

Elməddin təzə siqaret yandırdı. Həsrətlə Əfsanəyə baxdı — onun vücudunun əsdiyini, alt dodağının titrədiyini görüb sarsıldı. Ürəyində dəli bir istək qalxdı. Durub elə buradaca, həyətin ortasında o titrəyən, həsrətdən, məhəbbətdən sızım-sızım sızıldayan vücudu bağrına basıb öpmək, əzizləmək istədi, heç kəsdən utanmadan qorxmadan... Bəs... Simin? Simin kimdi? Kimdi Simin?! Yox, olmaz. Bu, bədnamlıq olar, bu, qeyrətsizlik, namussuzluq olar! Yox, yox, uzaq bu fikirdən, uzaq, uzaq!..

O dəhşətli, eyni zamanda cazibədar fikri başından çıxartmaq üçün Şahinin bir az əvvəl dediklərini yadına saldı, onun titrək, ağlar səsini, ağlar gözlərini xəyalında canlandırdı. Deməli idi, istəyinin üstündən qələm çəkməli idi; taleyinin qurduğu oyunla barışmalı idi. Onsuz da bədbəxt olan Əfsanəni təzədən bədbəxt etməyin, çürütməyin nə mənası vardı?

— Amma Şahin səni çox istəyir, Əfsanə!.. Elə danışırdı ki, lap yazığım gəldi ona! Yaxşı oğlandı Şahin. Cəsarətlidi, ən başlıcası isə... səni çox sevir, lap çox, məndən də çox, Əfsanə. Yazıqdı. O da yazıqdı... Deyir böyüyümüz ol, qabağa düş, ağsaqqalıq elə, bizi xoş-

bəxt elə... Bu sözləri ondan eşitmək də, sənə demək də mənim üçün çox ağırdı, Əfsanə!... İnan, çox ağırdı. Amma mən odla su arasında qalmış bir adam kimiyəm indi. Əslində nə dediyimi, nə elədiyimi bilmirəm, inan.

Əfsanə ona qulaq asırdı, gözlərində gilələnmiş yaş damcıları yanaqlarından axırdı. Hər şey indi ona gün kimi əyan idi. Elməddin onu — öz sevdiyini başqasına — Şahinə vermək istəyirdi. Acı təəssüf hissi içərisini zəhər kimi yandırırdı Əfsanənin. Kaş, bu sözləri ondan eşitməyəydi, qulaqları kar olaydı. Kaş, bu sözləri Elməddin deməyəydi, deyə bilməyəydi, dili lal olaydı. Yox, yox həqiqəti bilmək, nə qədər acı və ağır olsa da, xoşdur. Yalançı gümanlara, inamlara, xəyallara son qoyur həqiqət. Özü heç öz taleyi, məhəbbəti heç, — o, əvvəlcədən də, lap bura gəldiyi ilk gündən hiss eləmişdi ki, gec-tez belə olacaq, bu söhbət ortalığa gələcək. O bunu eşitməyə müəyyən qədər hazır idi. Ancaq bunu irəlicədən görməmişdi, anlamamışdı ki, bu sözlər Elməddini onun gözündən salacaq, kiçildəcək, cılızlaşdıracaq, lap öldürəcək. Demək o, Əfsanəyə onu hər gün görmək, qulluq eləmək səadətini də çox görür, onu bu evdən uzaqlaşdırmaq istəyir. Demək o, Elməddin üçün daha gərəksiz adamdı. Elməddin onsuz da yaşaya bilər, hələ rahat da yaşaya bilər. Bu hiss Əfsanənin — ilk gəncliyindən bu günə qədər Elməddinin xəyalı, arzusu ilə yaşayan, bir gün, haçansa, taleyin buraxdığı o yanlışlığın düzələcəyi, sevdiyinin vüsalına çatacağı ümidiylə çırpınan Əfsanənin ürəyini yandırdı və o, qarşısında oturan, insafla deyilsə, çıxılmaz vəziyyətdə qalan, çarpaşıq düşüncələrin içində, gözünün qabağında qocalan Elməddinə ağır, çox ağır sözlər demək, onu dönük, etibarsız adlandırmaq istədi. Bəli, bəli. Elə sadəcə deyəydi — çıx get. Bax beləcə desəydi, çox yaxşı olardı. Amma gör nə deyir? Şahin yaxşı oğlandı, Şahin yazıqdı... yəni ona ərə get, onun arvadı ol... Bax, bu nöqtə yandırdı onu. Lakin Əfsanə elə gərgin halda idi ki, ürəyindəkiləri nizama salıb deyə bilmirdi, hisslər də sözlər də sanki əriyib bir-birinə qarışmışdı. Bu dəm... dərdindən-qəmindən son vaxtlar çoxlu şer oxuyub şerpərəst olmuş Əfsanənin yadına Elməddinin kitabxanasından götürüb oxuduğu kitabların birindən

əzbərlədiyi bir şer düşdü və ona elə gəldi ki, həmin şer elə onun üçün yazılıb — onu Elməddinə desə, ürəyini boşaldar.

— O göy cildli kitabda bir şer var, Elmi. Yəqin oxumuş olarsan.

—…

— O şer mənim dərdimi izhar elədiyi üçün yadımda qalıb. Onu sənə demək istəyirəm, Elmi.

—…

Vicdanının gözü kormuş
Hayıf, indi düşdüm başa.
Zalım məni yaman saldı
Çiskin vaxtı dağa-daşa.

Yetim qaldı əlimdə gül,
Dəli oldu yazıq könül,
Ürək, qana dönüb tökül,
Gözlərimdən daşa-daşa.

Qaynayırmı içində kin?
Nə ağırmış müsibətin?
Sənin inci məhəbbətin
Dəyişildi qaşa-daşa.

Arzuların getdi bada,
Heç düşmürsən daha yada,
Diri gözlü atdı oda,
Gülüb dedi — indi yaşa!

Bu dünyanı dolanıb gəz,
Namərd mərdlik nədir bilməz,
Qədirbilməz qədir bilməz,
Nahaq döymə dizə-başa.

Şeri qurtarandan sonra Əfsanə ayağa qalxdı: ürəyi boşalmışdı sanki. Nəmli gözlərini Elməddinii ağarmış üzündə dolandırıb:

— Bax, belə! — dedi və qəmli-qəmli gülümsündü. Elməddin nəsə demək istədi, ancaq heç nə ağlına gəlmədi. Əfsanə örpəyinin ucuyla gözlərini, yanaqlarını silib bir də: «Belə» Elmi!» — deyərək getdi. Elməddin donmuş halda arxasınca baxa-baxa qaldı. Ancaq Əfsanə üç addım atmamış nə isə fikirləşib dayandı, geri qayıtdı və ani sükutdan sonra:

— Mənim... Ömrüm... az qalıb, Elmi. — dedi. — Ürəyim çürüyüb içəridə. Bilirsən də ki, səndən başqa bir kimsəm yoxdu dünyada. Bu, mənim çoxdankı arzum idi, arzu eləmişdim ki, qəbir evinə sənin çiynində gedim, Elmi. Heç olmasa bu arzumu yerinə yetirərsən, Elmi, — Susdu, udqunub boğazının qəhərini uddu, dedi: — Bir də... bu yaxında radiodan eşitdiyim bir şerin iki sətrindən xoşum gəlib. Sənlə mənim halıma çox uyğundu. Xahiş edirəm o iki sətir şeri mənim məzarımın üstünə yazdırarsan. Gərək ki, belə idi:

«Ayrılıq var — sonu şirin vüsaldı,
Ayrılıq var — sonu yoxmuş, ay aman!»

Yadında qalar? Bir də təkrar eləyirəm:

Ayrılıq var—sonu şirin vüsaldı,
Ayrılıq var — sonu yoxmuş, ay aman!

— bax bu sətirləri yazdırarsan sinə daşıma. Vəssalam. Səndən bu iki şeydən başqa heç bir təmənnam yoxdu, Elmi. Sənə verdiyim əzablar üçün bağışla məni, halal elə. Hər şey üçün çox sağ ol, Elmi. — Elməddinin vucudu titrədi. Beynində dəhşətli bir fikir gəzib dolandı: «Özünü öldürəcək!» Və o qışqırdı:

— Sən nə danışırsan, Əfsanə? Heç bilirsən nə danışırsan?

Əfsanə son dəfə ona ağlar gözləri ilə baxdı, cavab vermədi, ayaqlarını taqətsiz halda sürüyə-sürüyə evə getdi, qapını arxasınca örtdü.

— Əfsanə, Əfsanə!..

Cavab gəlmədi.

ON ÜÇÜNCÜ FƏSİL

Vaxt dolanıb keçdikcə Sərdar Məhəmməd bir tərəfdən hakimiyyətin ona bəxş etdiyi səadətdən, geniş imkanlardan, hamının onun qarşısında ikiqat olub əyilməsindən, sahibi-ixtiyar olmasından əvəzsiz bir nəşə alırdısa, digər tərəfdən daimi qorxu içində yaşaması kefinə soğan doğrayırdı. Hakimiyyəti çox asan ələ almışdı, ancaq görünür, onu əldə saxlamaq o qədər də asan deyilmiş. Uzun illər yüksək dövlət vəzifələrində çalışan, məmləkətin həm iqtisadi, həm də siyasi vəziyyətini çox gözəl bilən rəisi-cümhur anlayırdı ki, şahı qovmaq, məmləkəti cümhuriyyət elan etməklə mövcud vəziyyəti dəyişmək, artıq oyanmış, öz haqqını-hüququnu az-çox dərk etmiş və daha yağlı vədlərə inanmadığından tez-tez küçələrə çıxan, müxtəlif tələblər irəli sürən camaatı sakitləşdirmək mümkün deyil. Məhz bu fikir Sərdar Məhəmmədin canına gizli bir qorxu salırdı. O, yaxın adamları ilə tez-tez məsləhətləşsə də, ağıllı bir tədbir söyləyən adama rast gəlməyib məyus olurdu, belə hallarda çox vaxt təkbaşına qərarlar qəbul edir və onun yerinə yetirilməsinə çalışırdı. Əlində olan məlumatları saf-çürük eləyəndən sonra bu qənaətə gəlmişdi ki, bütün bu nümayişlərin — müzahirələrin yeganə təşkilatçısı və ilhamvericisi hezbi-demokrate-xəlqi-Əfqanıstandır. Bu, gizli fəaliyyət göstərən, gözəgörünməz orduya, puhəntuna, müxtəlif müəssisələrə uzanan təşkilatın, onun rəhbərlərinin işidir və nəyin bahasına olursa-olsun onu tapmaq, məhv etmək, ocağını söndürmək gərəkdir. Belə olmasa məmləkətin nizamı pozulacaqdır. Odur ki, o, lap bu yaxınlarda vəzirə-ümure-daxiləni, rəise-sazmane-əmniyyəni yanına çağırıb xeyli danladıqdan sonra, onları hezbin əsas başçılarını nə cür olursa-olsun, tapmaq, həbs etmək, cəmiyyətin müzür ünsürləri kimi xalqın gözü qabağında mühakimə edib güllələmək tapşırığı vermişdi. Daha başqa çıxış yolu yox idi — təşkilat getdikcə güclənir, nufuzu artırdı, əgər indi qarşısı alınmazdısa, sonra geç olacaqdı. Rəise-sazmane-əmniyyə general Əmir xan günortadan sonra rəisi-cümhurun qəbuluna gəlmişdi. Generalın yaşı altmışı haqlamışdı, başında bir dənə də qara tük yox idi, buna baxmayaraq,o, qəddini dik tutub həmişə şax yeriyərdi. Xırda, yanı qırışlarla örtülmüş

gözlərində daim gizli bir təbəssüm gəzirdi. Tədbiri, ağlı, çevikliyi ilə adi zabitlikdən bu rütbəyə qalxmışdı. Sərdar Məhəmməd onu gəncliyindən tanıyırdı və təsadüfi deyildi ki, onun bacarığına inanıb bu işi əsasən ona həvalə etmişdi.

General Əmir xan iki gün geçə-gündüz evə də getməmişdi, elə idarədə yatmışdı, ancaq çox iş görmüşdü. Hezbin fəaliyyəti rəhbərləri, əsas nüfuzlu üzvləri barədə illərlə açıq-gizli xəfiyyələrin müxtəlif vaxtlarda yazıb təqdim etdiyi məlumatlar əsasında bir səhifədən ibarət siyahi tərtib etmişdi; bu siyahidə Nur Məhəmmədin, Bəbirin, Mir Əkbərin, Şəfinin, Süleyman Layiqin, Ziyaülhəqtin və başqalarının adı yazılmışdı, səhifənin lap axırında Elməddinin adı qeyd olunmuşdu. Başqa bir-kağızda isə onları ələ keçirmək planı xırda xətlə, təfsilatı ilə şərh olunmuşdu.

Rəisi-cümhur onun salamına, təzim etməsinə məhəl qoymadan iri, tüklü əlinin işarəsi ilə «otur» söylədikdən sonra daz başına əl çəkdi və çeşməyinin altından Əmir xana diqqətlə baxdı:

— Hə, Əmir xan, buyur, eşidirəm səni, — dedi. Onun bu cür başlamasından Əmir xan anladı ki, kişinin qanı çox qaradır, və o, indi deyəsən, bu işdən başqa heç nə barədə düşünmür. Ona görə nazik, dərin qovluğu dizinin üstünə qoyub birbaş mətləbə keçdi:

— Ağayi rəise-cümhure-möhtərəmin hüzuri-mübarəkinə ərz edim ki, sizin tapşırığınıza binaən hezbin əsas rəhbərlərinin, nüfuzlu nümayəndələrinin siyahisini hazırlamışam. Bax budur o siyahi. — Qovluğun içindən çıxartdığı vərəqi Sərdar Məhəmmədin qarşısına qoydu. — Bu adamlar təşkilatın düşünən beyni, görən gözü, vuran əlidir. Bunları aradan götürə bilsək, təşkilat pərən-pərən düşüb dağılacaq, zərərsizləşəcək.

Sərdar Məhəmməd qalın, çal, qaşlarını çatıb adları bir-bir ürəyində oxuduqdan sonra başını qaldırıb generalın üzünə baxdı:

— Yaxşı, bunları necə aradan götürmək barəsində... fikirləşibsənmi, general?

— Bəli, sahib,..

— Necə? Planın hanı?

— Budur, — o, ikinci kağızı onun qabağına qoydu. Ancaq o, kağızı kənara qoyub təkrarən generala müraciət etdi, görünür, oxumağa hövsələsi çatmadı.

— Şərh elə görüm, general!

General boğazını arıdıb dili ilə qurumuş dodaqlarını isladaraq sözə başladı:

— Mən elə fikirləşirəm ki, o siyahidə adlarını qırmızı dairəyə aldığım adamlardan — Nur Məhəmməd, Bəbir və Mir Əkbər — bax, bunlardan birini terror edib öldürmək lazımdır. Bu üç nəfər hezbin ən mötəbər adamıdır. Bəli, onlardan birini — hansı olur-olsun, öldürmək gərəkdir. Onun dəfn günündə, bunların hamısı, o siyahidə qeyd olunanların hamısı onu son mənzilə yola salmağa gələcək. O zaman bizim adamlar gizli kameralarla bütün mərasimin, əz on cümlə, ölənin başına yığışan bütün yoldaşlarının, dostlarının şəklini çəkəcək. Dəfn mərasimi qurtarandan iki-üç gün sonra, kecə bir-bir başlarının üstünü kəsdirib qollarını qandallayacaq, düz birbaş Poli-Çərxi həbsxanasına göndərəcəyik. Üç-dörd gün sonra isə xalqın, yeni cümhuriyyətimizin düşmənləri kimi güllələyəcəyik. Vəssalam. Ancaq, gərək radio və mətbuat bu işdə bizə çox ciddi kömək etsin. Yoxsa, cənabi-ali yaxşı bilir ki, onların nüfuzu xalq arasında son dərəcə böyükdür, camaatın qəzəbinin qabağına dura bilmərik. Bəndənin planı belədir!

Sərdar Məhəmməd ayağa qalxdı, mizin arxasından çıxıb xalçanın üstündə gəzindi, əllərini arxasında daraqlayıb geniş, yaşıl həyətə açılan böyük pəncərənin qarşısına gəldi. Xeyli nəsə fikirləşdikdən sonra cəld bir hərəkətlə geri döndü:

— Çox sadəlövh plandır, general. Mən sizi təcrübəli, görüb-götürmüş bir hərbçi kimi tanımışam. Ancaq bu indi ərz elədiyiniz, uşaqcasına düşünülmüş bir oyundur.

— Sahib...

— Amma daha vaxt yoxdur. Su boğaza çıxmaq üzrədir. «Xəlq»çilərlə «Pərçəm»çilər birləşəndən sonra onlar çox güclü və tədbirli olmuşlar. Ona görə nəyin bahasına olursa-olsun bu qorxulu dəstənin başçılarını məhv etməli, o təşkilatın yuvasını darmadağın etməliyik. Tez və böyük sürətlə. Başa düşdün, general!?

— Bəli, cənabi-ali.

— Bütün məsuliyyəti boynuna almaq şərti ilə işə başla, icazə verirəm, general. Əgər müvəffəqiyyətsizliyə uğrasan... səni... öz əllərimlə güllələyəcəyəm. Eşidirsənmi, general?!

— Bəli, eşidirəm. — O, ayağa qalxıb Sərdar Məhəmmədin qənşərində farağat dayandı. — Eşidirəm. Əmr yerinə yetiriləcəkdir!

— Gedə bilərsən!!

...General Əmir xanın əmri ertəsi gün, axşamüstü yerinə yetirilmişdi. Sən demə, Mir Əkbərin, necə deyərlər, qaraçuxası yatıbmış. Vaxtsız və nagahani ölüm onun alnına yazılıbmış! Həmin gün Mir Əkbər evlərinin yanında, Kabil təyyarə meydanına gedən asfalt yolun kənarında salınmış istirahət parkına başmaq seyrinə çıxarkən... naməlum bir adam tərəfindən, arxadan, düz ürək nayihəsinə çox ustalıqla atılmış bir bıçaq zərbəsindən öldürülmüşdü. Bıçaq atan adam mülki paltarda imiş. İti və ağır zərbə gözlənilməz olduğundan Mir Əkbər heç cınqırını da çıxara bilməmiş, kökündən qopan nəhəng bir ağac kimi yerə yıxılıb can vermiş, qatil isə... aradan çıxmışdı.

Bəli, Mir Əkbər elə oradaca, dərhal ölmüşdü. Ömrünün çoxunu həbsxanalarda, sürgünlərdə, qəm-möhnət içində, ehtiyac pəncəsində yaşamışdı, rahatlıq, xoş gün nə olduğunu bilməmişdi. Yana-yana yaşamışdı, uzun müddət yandığını da görən olmamışdı; görəndə isə.., həbs etmiş, sürgünə yollamış, nəhayət də, öldürmüşdülər, çünki başa düşmüşdülər ki, o, təkcə özü üçün yanmır!

...Ev kiçik olduğundan, mafə həyətdə qoyulmuşdu. Meyit Ləbi-dəryada yerləşən uzun minərəli came-Məscidində yuyulandan sonra, evə gətirilmişdi. Bu sarsıdıcı xəbəri eşitmiş bütün dostları, o cümlədən Nur Məhəmməd, Bəbir, Şəfi, Süleyman Layiq, Ziyaülhəqq, Elməddin... bütün gecəni yatmamış, lazımi işləri görmüşdülər. Bunu onlar böyük itki hesab edir, yanıb-yaxılırdılar. Mir Əkbər yaxşı insan, ağıllı dost və həmməslək kimi hamısının ürəyində özünə topdağıtmaz bir yuva qurmuşdu. O, canından da, səadətindən də keçməyə hazır olan bir fədai idi. İndi... onu düşmən susdurmuş, qanına qəltan eləmiş, əbədilik onlardan ayırmışdı. Gecə, cənazənin yanında qəmli-qəmli oturmuş mübarizə dostları, kənar adamlar çəkilib gedəndən sonra bu hadisənin səbəblərini təhlil etmiş və bu qənaətə gəlmişdilər ki, Mir Əkbəri ancaq və ancaq dövlətin, əmri və

göstərişi ilə aradan götürüblər. Burada durub şəxsi qatil axtarmağın heç bir mənası yox idi. Ona görə öz qələm və mübarizə dostlarının dəfnini onun həyatına, ömrünə, işinə layiq bir şəkildə, cah-calalla keçirmək, həm də matəm mərasimini hökumət əleyhinə çevrilmiş nümayişə döndərmək qərarına gəlmişdilar. Mir Əkbərin böyüdülüb qara çərçivəyə salınmış neçə-neçə portreti elə gecə ikən hazırlanmışdı. Uzun, qırmızı parçaların üstünə düşünülmüş, mənalı şüarlar yazılmışdı. «Mir Əkbər Xeybərin—xalqımızın səadəti uğrunda mərd mübarizin xatirəsi qəlbimizdə əbədi yaşayacaq», «Mir Əkbər Xeybərin qatili mənfur Sərdar Məhəmməd hökumətidir!», «Qatillərə ölüm!» və s. və s. Cənazə dəfn olunmaq üçün şəhərin hansı küçələrindən aparılmalıdı — bunu da müəyyən etmişdilər; həyətdən çıxarıldıqdan sonra Mir Əkbərin cənazəsi dostların çiynində «Ərke-Şahi»nin qabağından keçməli, sonra Amerika səfarətxanasının qarşısında dayandırılmalı, şüarlar deyilməli idi. Natiqlər müəyyən edilmişdi. Sonra... qəbiristanda... böyük mitinq keçirilməli idi. Məzarının başında ən yaxın dostu Bəbir çıxış etməli, Şəfi, Süleyman Layiq elə bu gecə, ağlaya-ağlaya qələmə aldıqları şerlərini oxumalı idilər.

Sonra... Mir Əkbər çox sevdiyi, ağ günü üçün vuruşduğu və həyatını qurban verdiyi bu torpağa tapşırılmalı idi.

Kimlərdisə, çoxlu gül gətirmişdilər, cənazə, demək olar ki, qızılgül içində görünməz olmuşdu. Mərhumun iri, qara lentlə haşiyələnmiş şəklini cənazəniin baş ucuna, dikinə qoymuşdular. Çərçivədəki rəsmində qaşları düyünlü, baxışları sərt idi və o, bu sərt baxışların qabağında uzadılıb üstünə qara örtük çəkilmiş, güllər içində itib batmış adamın — özünün ayaqlarına zilləmişdi: elə bil, o da, başqaları kimi, kiminsə dəfn mərasiminə gəlmişdi.

Nur Məhəmməd, Bəbir, Şəfi, Süleyman Layiq, Ziyaülhəqq yanaşı dayanmışdılar. Elməddin qarşı tərəfdə, kürəyini damın divarına söykəyib siqaret çəkirdi. Şəfi ilə Nur Məhəmmədin gözlərindən yaş ixtiyarsız axırdı... Bəbir, Ziyaülhəqq, Süleyman Layiq bulud kimi dolub dayanmışdı.

İçəridə ağı deyib ağlayan arvadların yanıqlı fəryadı, oxşamaları ürək parçalayırdı.

Səur[1] günəşi günorta yerindən qərbə tərəf meyllənsə də, yenə adamların gözlərini qamaşdırırdı, kürəyini, başını yandırırdı.

Saat üçə qalmış kişilər həyətdən çıxdı, qadınlar vay – şivən qopara-qopara Mir Əkbərlə axırıncı dəfə vidalaşmaq üçün cənazəyə yaxınlaşdılar.

Mir Əkbərin cavan, ortaboylu arvadı Səlimə xatun üzünü cırmışdı, yanaqlarının dırnaq çəkdiyi yerlərindən şırım-şırım qan axırdı. O qədər ağı deyib ağlamışdı ki, səsi batmışdı. Əllərini irəli uzadıb xırıldaya-xırıldaya dizlərini isti torpağın üstünə qoyaraq başını ərinin örtülü üzünə söykəyib deyirdi:

— Bizi kimə tapşırıb gedirsən, Miri, qurban olum? Bu yetimləri kimin umuduna qoyub gedirsən, Miri can? Vay allah, öldüm, ay allah, yandım.

Dörd oğlu yan-yana dayanıb için-için ağlayırdı.

Arvadlardan kimsə Səlimə xatunun qolundan tutub qaldırdı:

— Daha bəsdi, Səlimə. Özünə, bu uşaqlara yazığın gəlsin, bacı.

— O uşaqlara Allahın yazığı gələydi gərək. Zalım fələyin yazığı gələydi gərək o uşaqlara.

Sonra... zənən-uşaq içəri çəkildi. Hardasa, lap yaxında, deyəsən damın üstündən verilən salatçının mükəddər səsi eşidildi.

Düz üç tamamda kişilər həyətə girdi. Bəbir, Nur Məhəmməd, Şəfi, Süleyman Layiq, Ziyaülhəqq, Elməddin:.. mafəni qaldırdılar.

Bir cavan oğlan Mir Əkbərin qara haşiyəli şəklini götürüb sinəsinə söykəyərək qabağa düşdü. Həyətdən çıxdılar. Adamlar... mafənin dalınca ağır-ağır addımlayırdılar. Aeroportdan şəhərə doğru uzanan asfalt yolla irəliləyən izdiham getdikcə böyüyürdü. Şəhərin içində... yoldan keçənlər dəstəyə qoşulur, izdiham daha da gurlaşırdı. Adamların xeyli hissəsinin əlində Mir Əkbərin portreti və şüarlar yazılmış transparantlar var idi. Küçələrdə maşın hərəkəti dayanmışdı. Polislər hər ehtimala qarşı, rəisin tapşırığına əsasən, yolların sağında və solunda ağac kimi bitib durmuşdular. Kabil hələ belə izdihamlı dəfn mərasimi görməmişdi. Otuz beş mindən çox adam Mir Əkbərin cənazəsinin dalınca ağır-ağır addımlayırdı.

[1] Səur — aprel.

Bu izdihamda nə isə qəribə bir təntənə və əzəmət vardı.

...Düz dörd gün sonra, çox məharətlə icra olunmuş əməliyyat nəticəsində, dəfn mərasimindən gizli surətdə əksləri alınmış adamlar, — Nur Məhəmməd, Bəbir, Şəfi, Ziyaülhəqq, Süleyman Layiq, Anahita gecə, demək olar ki, eyni vaxtda, hərəsi öz evindən çıxarılaraq, qollarına qandal vurulub Poli-Çərxi həbsxanasına aparılmışdı. Şəkli çəkilənlərdən təkcə Elməddin, gizli bir tapşırıqla Bəhram şəhərinə getdiyindən və orada gecələməli olduğundan ələ keçməmişdi. Bu, onun xoşbəxtliyindəndimi, bədbəxtliyi idimi—hələ bilmək olmazdı.

ON BİRİNCİ FƏSİL

Şahin neçə gün bundan qabaq gəlib gedəndən, Əfsanə pərişan və pəjmürdə halda o ittihamedici şeri oxuyandan, vəsiyyətini eləyəndən sonra Elməddinin ürəyi alt-üst olmuşdu. Qorxmuşdu. Əfsanənin danışığından belə yəqin eləmişdi ki, o daha dözə bilmir, daha belə yaşamaq ağır və mənasızdı, yəqin elə buna görə də özünü öldürmək fikrinə düşüb. Bu qorxu qəlbinə yol tapandan sonra Elməddin çaşqın halda iki-üç dəfə Əfsanə ilə söhbət eləmək, onu başa salmaq, o qorxulu qərardan onu daşındırmaq istəmişdisə də, bir nəticəsi olmamışdı — çünki Əfsanə dinləməmişdi onu, qəhər içində boğula-boğula yanından getmişdi.

Elməddin aralarında olan həmin söhbəti, çarəsiz qalıb Siminə açmışdı, heyrətlənən arvadına tapşırmışdı ki, Əfsanəni mümkün qədər tək qoymasın, nə vasitə ilə olursa-olsun, başını qatsın, bəlkə o, bu fikrindən daşındı. O vaxtdan Elməddin də, Simin də bir növ Əfsanənin gizli nəzarətçilərinə çevrilmişdi. Simin də, Elməddin də həqiqətən göz qoyub görürdülər ki, Əfsanə əvvəlki Əfsanə deyil, — onun içində nə isə qırılıb, sınıb dağılıb: baxışları da, səsi də qəmli olub. Həmişə xəyal aləmindədi, hər şeyə donuq və mənasız nəzərlərlə baxır. Söz deyəndə çox vaxt eşitmir. Siminin «axı sənə nə olub bacı?» — deyən sorğu-suallarını «heç» deyə cavabsız qoyur. Beləliklə, Şahin gəlib-gedəndən sonra, evdə son dərəcə gərgin bir

vəziyyət yaranmışdı. Hər gün, hər saat nə isə dəhşətli bir hadisə olacağını gözləyirdilər. Elməddin hər dəfə evə dönəndə qorxa-qorxa həyətə girirdi, Əfsanəni sağ-salamat görəndə rahat nəfəs alırdı.

Belə günlərin birində... gecəyarısı qayıtmış Elməddin Siminin həyətdə, ağac altında, taxt üzərində saldığı yerinə yarıbihuş-yarıayıq soyunub uzanmışdı. Yüngül meh əsirdi, söyüdün yaşıl yarpaqları asta-asta xışıldayır, Elməddini pərişan ruhunu oxşayırdı. İlahi, nə gözəl gecə idi, nə şairanə axşam idi bu axşam! Əslində dünən də, srağagün də gecə elə belə idi, sakitdi, aylı-ulduzlu idi, nəğməli, mehli idi. Ancaq o, buna fikir verməmişdi. İndi isə... o, ayrı fikrə düşmüşdü — bu gecə, lap səhərə yaxın, nə olacaq qoy olsun, o yavaşca qalxacaq, barmaqlarının ucunda Əfsanənin otağına keçəcək, onun vüsalına qovuşacaq. Onu da xoşbəxt eləyəcək, özünü də... Əfsanəni o müdhiş fikrindən daşındıracaq, o, bəxtəvər olacaq və yaşayacaq... Təki Əfsanə yaşasın, sonra kim nə deyir, desin, nə olur olsun. Bax, sakitlikdi — Əfsanə öz yerində, Simin öz otağında yatır. Yox, hələ tezdir, qoy bir az da keçsin... Şirin xəyal, gecənin sərin mehi yavaş-yavaş onun beyninin gərginliyini yuyub aparır və o, bir azdan qovuşacağı səadətin şirinliyindən məst olur, xumarlanırdı.

Gecənin nə vaxtı idisə — aman allah — Elməddin gördü ki, başdan-ayağa dümağ paltar geymiş, saçlarının hörüyünü açıb sinəsinə tökmüş Əfsanə ayaqları yerə dəymədən, sanki havada uça-uça taxta yaxınlaşdı, onun başı üstündə dayanıb təbəssümlə nurlanmış sifətinə baxdı, baxdı, sonra qətiyyətsiz bir hərəkətlə, utana-utana Elməddinin üstünə çəkdiyi ağ mələfəni qaldırıb yanına girdi. Bu gözlənilməz hərəkətdən, bəlkə də xoşbəxtlikdən Elməddinin dili tutuldu sanki, heç nə deyə bilmədi. Sonra... birdən Əfsanə çılpaq qollarını onun boynuna doladı, hərarətlə gözlərindən, dodaqlarından öpməyə və gözlərindən leysan yağışı tökməyə başladı. Titrək, təntimiş bir səslə, yavaşcadan pıçıldayırdı:

— Mən sənə qurban olum, mən sənə qurban olum.

Əvvəl çaşıb qalmış, nə edəcəyini, nə deyəcəyini belə bilməyən Elməddin handan-hana özünə gəlib qollarını Əfsanənin incə belinə dolayıb bərk-bərk sıxdı, çevrilib onun ağ sinəsindən, ağ buxağından,

gözlərindən öpə-öpə ağlamağa başladı. Bunu görən Əfsanə nəfəsi tıncıxa-tıncıxa pıçıltı ilə soruşdu:

— Daha niyə ağlayırsan, əzizim? Elməddin tövşüyə-tövşüyə:

— Gözlərimə inanmıram, Əfsanəm, — dedi, — yəni doğrudan bu sənsən?

— Mənəm, mənəm, ay mənim həsrətim, mənəm, gözlərinə inan! — deyə Əfsanə də pıçıltı ilə cavab verdi.

— Sən, sən mənimsən, Əfsanəm, daha səni heç kimə verən deyiləm.

— Mən də, Elmi. Mən...

Birdən... Elməddin hənirti duydu və gördü ki, ağ paltar geymiş Yusif taxtın ayaq tərəfində dayanıb onlara baxır. Saçı da ağarıb, saqqalı da... heç nə demirdi, ancaq iri gözlərindən gildir-gildir yaş axırdı.

Elməddin... dəhşət içində, qucağında nazlanan Əfsanəni kəskin hərəkətlə kənara itələyib vəhşi bir səslə:

— Yusif, qardaşım! — deyə bağırdı. Bağırdı, ancaq səsi çıxmadı. Və daxilində, hardasa, ilişib qırılan bu səsin vahiməsindən:.. gözlərini açdıqda... taxtın üstündə tək-tənha uzandığını görüb... sevindi. Nə Əfsanə vardı, nə Yusif. Alnını soyuq tər damcıları bəzədi... O qalxıb mələfənin ucuyla sifətini sildi, gördüklərinin, elədiklərinin hamısının yuxu olduğunu anlayıb dərindən nəfəs aldı...

— Şükür, yuxu imiş!.. — dedi öz-özünə. — Yox, yox! Çıxar başından bu iyrənc fikri. Elməddin, tamam-kamal çıxart! Əmr elədi özünə.

...Sonra Mir Əkbəri öldürdülər. O, az bir müddət ərzində Mir Əkbəri ciddiliyinə, mehribanlığına, başına gələn müsibətlərə görə sevmişdi. Yaşasaydı, lap yaxın dost ola bilərdilər. Amma, hayıf oldu — o, öz əllərilə, dostları ilə bir yerdə Mir Əkbəri torpağa tapşırdı. İndi də, üstündən dörd gün keçmiş, ustadını, Bəbiri, Nur Məhəmmədi tutublar, Süleyman Layiqi, Anahitanı, Ziyaülhəqqi tutublar. Təkcə o qalıb. Simin də, Əfsanə də əhvalatdan xəbərdardı. Məleykə başına gələn müsibəti danışmışdı onlara. Simin Elməddin üçün çox qorxurdu — ona elə gəlirdi ki, bax elə indicə onu da gəlib aparacaqlar. Elməddin Bəhramdan qayıdan kimi işin nə yerdə olduğunu

bilmişdi. Xəbəri eşidəndə sarsılmışdı. Qolu-qanadı qırılmış quş kimi, taqətsiz halda çarpayıya uzanmışdı, gecəni səhərəcən Bəhram şəhərində yatmadığından, yuxusuzluqdan taqəti qalmamışdı...

Əfsanə ürəyində neçə vaxtdan bəri gəzdirdiyi intihar fikrini keçən axşam yerinə yetirməyi qərara almışdı. Ancaq, görünür, tale onun ömrünün bir gün də artıq olmağını istəyirmiş. Həmin axşam Elməddin Bəhrama getdiyinə görə evə gəlmədi. Əfsanə onu axırıncı dəfə görmək, boy-buxununa, gözlərinə doyunca baxmaq, onun surətini gözlərinin aynasına, beyninə həkk eləyib özü ilə o dünyaya aparmaq istəyirdi sanki. Və o, Elməddini gözləməli idi. Görməli idi, sonra... köçməli idi dünyadan.

İndi, budur, şükür, sağ-salamat gəlib. Gördü onu, baxdı, səsini eşitdi. Yorğundu, qoy hələ yatsın, dincəlsin... Simin yoldaşlarının başına gələn qəzavü-qədəri həyəcanla ərinə danışarkən Əfsanə onun yanında dayanıb Elməddinə tamailə eləyirdi. Həsrətli baxışlarını ondan çəkmirdi. Elə hey baxır, baxırdı. «Bu gün, axırıncı gündü ki, sənin qonağınam Elmi. Sən bunu bilmirsən hələ. Sabah biləcəksən. Gözlərini məndən niyə yayındırırsan? Üzümə bax, Elmi, nə qədər bacarırsan çox bax, bir də məni görə bilməyəcəksən. Qoy mən də sənə doyunca baxım, Elmi. Mən də səni görməyəcəyəm daha, görə bilməyəcəyəm, qoy baxım, Elmi... Baxmırsan? Baxmırsan, baxma..

Mən baxıram, çünki mən səndən doymadım, doymamış da gedirəm. Eh, Elmi, Elmi... Əlvida, əzizim, əlvida. Mənim xahişlərim sənin yadından çıxmayıb ki? Yox?.. Bir də əlvida, mənim taleyimin işıqsız ulduzu, əlvida! Sənə də əlvida, Simin, mənə qismət olmayan bu səadəti sənə halal eləyirəm. Sən buna layiqsən...»

Əfsanə beləcə ürəyində vidalaşmışdı Elməddinlə Siminlə. Sonra balaca Əfsanənin yanına gəlmiş:

— Gəl gedək şəhərə, qızım, gedək səni bir az gəzdirim, — demişdi. — Qibləgahın da yorulub, qoy bir az yatıb dincəlsin. Geyin, gedək, qızım. — Əfsanə tələsik geyinmişdi, qaça-qaça anasının, atasının yanına gəlmiş və:

— Mən Əfsanə xala ilə şəhərə gəzməyə gedirəm, — demişdi, — mənə dondurma alacaq, sucaq[1] alacaq.

[1] Sucaq — saqqız.

Simin Elməddinin üzünə baxmışdı, Elməddin isə demişdi:

— Tək buraxma onu, sən də get, Simin. Mən yatmaq istəyirəm. Simin getmək arzusunda deyildi. Ona görə bir az ləng tərpəndi və həlim bir səslə:

— Elə yorğunam ki, Elmi, — dedi. — Ayaq üstə dura bilmirəm. Qorxma, ona heç nə olmaz. Şəhərdə neyləyə bilər? O, özünə nə eləsə, evdə eləyəcək — evdə də mən bircə an da onu gözdən qoymuram.

Siminin sözləri nədənsə Elməddinin ağlına batdı və daha sözü çevirmədi.

Əfsanə Siminin onlarla gedəcəyini gözləyirdi. Ancaq əslində istəmirdi ki, bu son gəzintidə Simin də yanında olsun. Tək olmaq istəyirdi, həm uşaqla, həm də şəhərlə — həqiqətdə isə dünya ilə vidalaşmaq istəyirdi. Simin isə buna bir növ mane olacaqdı. Ancaq gethaget məqamında Siminin tərpənmədiyini görəndə Əfsanə sevinən kimi oldu. Balaca Əfsanənin əlindən tutub... evdən çıxdı... Çıxarkən Siminə baxdı. Simin onun iri, yaraşıqlı gözlərində dərin, silinməz bir kədər oxuyub baxışlarını yayındırdı. Pərişan halda Elməddinə mane olmasın deyə Əfsanənin otağına keçdi və taxta çarpayının (Elməddin ona təzə çarpayı almışdı bu yaxınlarda) üstünə uzandı və gecəni səhərəcən yuxusuz qaldığından o saat yatdı.

...Elməddin daş kimi üzüqoylu düşüb yatmışdı. Kimsə onu silkələdi. Gözlərini açanda otaqda, başının üstündə tanımadığı iki kişinin dayandığını görüb hərəsan qalxıb oturdu. Ayaqlarını aşağı sallayıb qalxmaq istəyəndə sifəti qapqara, bığı isə çallaşmış kişi tapançasını irəli uzadıb;

— Zəhmət çəkmə, ağa! — dedi. — Elə otursan yaxşıdı... Yanındakı nisbətən cavan kişi qoltuğundan bir kitabça çıxartdı və Elməddin buna əhəmiyyət vermədən:

— Bağışlayın, siz kimsiniz və nə istəyirsiniz! —deyə soruşduqda tapançalı kişi tələsik dedi:

— Bunun əhəmiyyəti yoxdur, ağa! Əlində kitab olan kişi:

— Gəlmişik səni kitabının çıxmağı münasibətilə təbrik edək, ağayi Elməddin, — dedi.

Elməddin bir tapançaya, bir də kitaba baxıb acı-acı gülümsündü:

— Tapança ilə təbrik edirsiz məni?

— Hə, təsəvvür edin ki, bu, hələ heç kəsə nəsib olmayan bir səadətdir. — Hər şey aydın idi. Elməddinin bədənində soyuq bir gizilti gəzdi, soyuq tər gəldi alnına.

— Hm. Aydındı, o kitaba baxmaq olar?

— Niyə olmur, al bax!

Elməddin titrək əlini irəli uzatdı, kitabı aldı. Üstündə öz adı yazılmışdı. Elməddin. «Xurma çərdəyi». Bəli, bu onun kitabı idi. Yaxın vaxtlarda satışa çıxmalı idi. Üstünə özü şəkil də çəkmişdi. Bir xurma ağacıydı. Ağacın altında bir dilənçi oturmuşdu, papağını da qabağına qoymuşdu. Papağın içində... beş-altı xurma çərdəyi vardı... Bir xurma çərdəyi də dilənçinin başına dəymək üzrə idi, hiss olunurdu ki, indicə kişinin kəlləsinə, daha doğrusu, alnına dəyəcək... Elməddin kitabı görən kimi hər şeyi — tapançanı da, ölüm qorxusunu da unutdu, qəlbinə sonsuz, nəşəli bir sevinc hissi axıb doldu. Kitabı çıxmışdı... Bu, onun «Əfsanəli mahnılar» kitabından sonra nəşr olunan ikinci kitabı idi. O, sevinc içində:

— Çox sağ olun, ağalar! — dedi. — Siz həqiqətən məni sevindirdiniz. Mütəşəkkirəm. Belə şad xəbəri gətirdiyiniz üçün keçin, əyləşin, qonağım olun.

Tapançalı kişi onun sözlərini eşitmirmiş kimi:

— Sevindinmi, ağa? — dedi.

— Bəli, siz təsəvvür etməzsiniz necə sevindirdiniz məni.

— Biz də buna şadıq, ağa. Ancaq... indi başqa bir məsələ var, ağa!

— Buyurun.

Kişi cibindən bir tapança külləsi çıxartdı. Qurğuşun hissəsini ona göstərib:

— Bu nədir, ağa? — deyə soruşdu.

— O,.. — Elməddin kəkələyən kimi oldu... — o, güllədi.

— Nəyə oxşayır?

— Elə gülləyə.

— Yox, nəyəsə oxşayır bu.

— Nə bilim.

— Xurma çərdəyinə oxşamırmı, ağa?

— Oxşayırmı? Oxşayır, lap yaxşı oxşayır! Bəs sənin papağın hanı?

— Papağım?

— Papağımı neynirsən?

— Lazımdı.

— Odur, — o, mizin üstünə işarə elədi. Yanındakı kişi papağı gətirib Elməddinin böyrünə qoydu. Tapançalı dedi:

— Hə, bax, belə. İndi mən, özün yazdığın kimi, bu xurma çərdəyindən, — o, əlindəki gülləyə işarə elədi, — çox yox, üç-dörd dənə sənin başına vuracağam. Sən də, əgər bacarsan, o çərdəkləri bir-bir papağının içinə yığarsan. Sonra neylərsən özün bilərsən...

— Siz... — Elməddin udqundu. — Siz məni öldürməyə gəlmisiniz... Qanunsuz, hökmsüz... bu, cinayətdir.

— Sən öz ölüm hökmünü bax o kitabda... öz əlinlə yazıbsan, ağa.

— Mən...

Sözü ağzında yarımçıq qaldı... Kişi düz alnının qabağında tətiyi çəkdi və Elməddin... qışqırıb arxası üstə uzandı... Kitab əlindən... düşdü...

Güllə səsinə Simin oyandı və özünü Elməddinin otağına atdı. Qapıdan içəri girən kimi tanımadığı yad kişi ilə üz-üzə gəldi və qışqırıb geri qaçmaq istəyəndə... tapançalı kişi sol əlini irəli uzadıb ağzını tutdu. Simin çırpındı, çapaladı, ancaq kişinin əlindən çıxa bilmədi. Bu zaman cavan kişi pencəyinin cibindən çıxardığı tiyəsi par-par parıldayan bıçağı onun sol döşünün altından ürəyinə sapladı.

Simin xırıldadı və kişinin qucağından sürüşüb elə qapının ağzınaca düşdü, başı kəsilmiş toyuq kimi çırpınmağa başladı...

Çırpınıb-çırpınıb sakitləşdi...

Onlar tələsik otaqdan çıxdılar.

İyirmi dəqiqə keçməmiş həyətə şala bürünmüş bir kişi girdi. Həyətdə kimsənin olmadığını görüb evin qapısının ağzında dayandı. Sallaq bığını sol əlilə tumarladı — bu, əsəbilikdən idi, — yan-yörəyə boylandı, Salamat olan sağ üzünü ətrafa dolandırdı və astadan qapını tıqqıldatdı:

— Ay ev yiyəsi.

Səs gəlmədi. Bu zaman təkgöz kişi taxta qapını itələyib içəri daxil oldu. Kimsə yox idi. Mətbəx boş idi, yan otaq da boş idi. Sağ tərəfdəki otağa girəndə... qapının ağzında qan bulaşmış qadını və taxtın üstündə hərəkətsiz uzanmış Elməddini görüb qorxu içində nə edəcəyini bilmədi. Çaşqın halda qadının üstündən adladı. Yaxın gəldi, taxta çatanda, Elməddinin beyninin dağıldığını görüb iki addım geri çəkildi: «Bismillah»— dedi. Bu yazıqları öldürüblər ki?» Çıxıb qaçmaq istədi. Ancaq nə fikirləşdisə irəli yeridi. Əyilib Elməddinin qana bulaşmış sifətinə baxdı. Yox, çoxdan canını tapşırmışdı. Gördüyü qorxunc mənzərədən çaşıb nə edəcəyini unudan kişi əlindəki kiçik tapançanı şalvar cibində gizləyib Elməddinin aşağı sallanan ayaqlarının yanına düşmüş kitabçaya bir təpik ilişdirib dal-dalı çəkilərək otaqdan çıxdı. Dodaqaltı pıçıldayırdı: «Şükür sənə, Xudaya, bu dəfə günahsız qan tökməkdən məni xilas elədin!»

Qapının ağzında ayaq saxladı, kimsənin gəlmədiyini görüb, demək olar ki, heç nə olmamış təki, sakit addımlarla həyət qapısına tərəf yönəldi; xoşbəxtliyindən nə gələn vardı, nə gedən... Təkgöz kişi arxayın nəfəs aldı.

...Axşam çağı, Əfsanə uşaqla gəzintidən evə dönəndə Siminin və Elməddinin öldürüldüyünü görüb... vəhşi bir səslə qışqırdı. Ürəyi getdi, döşəməyə tappıltı ilə yıxıldı. Balaca Əfsanə isə... çığıra-çığıra küçəyə qaçdı...

ON İKİNCİ FƏSİL

Zərrintac xanım bir yerdə qərar tutub dayana bilmirdi, gah eyvana çıxır, qolundakı saata baxır, gah içəri keçib iri, bədənnüma güzgüsünün qənşərində dayanıb özünə baxırdı. Qapqara sürmə çəkdiyi gözləri qəribə bir parıltı ilə alışıb-yanırdı. Həmin o qəribə parıltılı gözlərilə güzgüdə ona tamaşa eləyən öz əksinə diqqətlə nəzər salır, üzündə, alnında, saçlarında ötən illərin qoyub getdiyi qırışlar, təkəmseyrək ağ tüklərə gözü sataşdıqca qəlbini anlaşılmaz bir kədər bürüyürdü. Zaman hiss olunmadan axıb getmişdi, ömrünün

ən şirin çağlarını çapıb-talayıb aparmışdı, zahirən o qədər dəyişməsə də, yaşı qırxı haqlamışdı. Neçə il bundan əvvəl gəldiyi qərarı — vətəndən çıxıb getmək qərarını yerinə yetirə bilmədiyinə, hərdəmxəyallıq elədiyinə indi çox təəssüflənirdi. Ayı aya, ili ilə, satmışdı, getməmişdi. Bunun bir səbəbi var —dövləti qoyub getməyə ürək eləməməsi olmuşdusa, digər səbəbi Sübhan olmuşdu. Sübhan Zərrintacın başını elə qatmışdı, onu özünə elə bağlamışdı ki, Zərrintac ondan qopub ayrıla bilməmişdi. O, «azad» bir qadın idi, Sübhan istədiyi vaxt yanında idi, ailə, uşaq məsuliyyəti yox idi. Arzu elədiyi şəkildə yaşayırdı Zərrintac xanım.

Ancaq son vaxtlar şəhərdə vəziyyət dəyişmişdi... Zərrintac hiss edirdi ki, məmləkətdə gec-tez böyük bir çaxnaşma düşəcək, vaxtilə Elməddinin qoşulduğu o «şərəşur» dəstə çox güclənib, həbs olunmalarına, öldürülmələrinə baxmayaraq, onlar tezliklə hakimiyyət başına gələcəklər və o zaman... hər şey dəyişəcək. Onda... Zərrintac kimi mal-mülk, torpaq, şirkət sahiblərinin günü-rüzgarı pis olacaq. Çox da ki, Şəfi, Bəbir atasının dostu olublar. Onlar belə şeylərə qiymət verən deyillər. Yox, daha bu məmləkətdə qalmaq olmaz. Buna gözü görə-görə özünü oda atmaq, başını bıçağa sürtmək demək olardı. Ona görə son aylar Zərrintac xanım, Sübhanın əliylə, bütün pullarını dollara çevirib xarici banklara köçürür, geç də olsa, nəhayət, öz çoxdankı arzusunu yerinə yetirmək istəyirdi. Sübhana-tapşırmışdı ki, Parisə uçan təyyarəyə bilet alsın. O da almışdı. İstəməyəistəməyə almışdı. Çox əlləşmiş, yalvarıb-yaxarmış; «Getmə, Zərrintac xanım!» — demişdisə də onu fikrindən döndərə bilməmişdi. «Uzun danışma, Sübhan. Faydası yoxdu. Mən getməliyəm. Axşam yanıma gələrsən — bu gecə, axırıncı dəfə sənin qonağınam. Ya nəsib, ya qismət, bir də məni görə biləcəksən, bilməyəcəksən — allah bilir!» — demişdi.

Zərrintac xanım atasının toy hədiyyəsi kimi ona aldığı maşını da, mülkü də satmışdı. Eləcə, qurulu. Bu gecə axırıncı gecəsiydi bu evdə. O, Kabillə də vidalaşmışdı. Kiminlə nə haqq-hesabı vardısa, çürütmüşdü. Təkcə bir nəfər qalırdı... Elməddin... hə, bir də qardaşı Nəcməddinlə görüşməli idi, ona bəzi məsləhətlər verməli, bir çox şeyləri başa salmalı idi.

...Təkgöz kişi darvaza ağzında görünəndə... Zərrintac xanım dirçəldi, sual dolu baxışlarını kişinin tay gözünə zillədi, ancaq bir söz soruşmağa dili gəlmədi. Təkgöz ağır yük daşımış adam kimi, eyvanın sütununa söykənib yastı papağını çıxartdı, alnının tərini barmağı ilə silib yerə çırpdı və gülümsünə-gülümsünə xanıma baxdı:

— Əmrinizi yerinə yetirdim, xanım!..

— Öldürdün?

— Bəli, xanım. İkisinin də işini bitirdim. Arvadı bıçaqla vurdum. Kişinin isə təpəsini verdim güllənin ağzına, beyni qatıq kimi dağıldı. Əlində bir kitab vardı, düşdü ayağının altına.

— Bəs uşaq necə oldu? O biri qadın... necə oldu?

— Uşaq-muşaq yox idi, başqa qadın yox idi, xanım. Elə ər-arvad ikisi idi. Arvadı məni görüb qışqırmaq, hay salmaq istədi — susdurdum. Kişiyə də heç aman vermədim taxtdan düşsün. Elə oradaca... vasil elədim cəhənnəmə.

Kişi gözləyirdi ki, Zərrintac xanım onun gətirdiyi bu xəbərdən çox sevinəcək. Ancaq o... donub qalmışdı. Elə bil, dili tutulmuşdu. Elməddinin öldürülməsi üçün o qədər pul verən, onun barəsində qəzəb və nifrətlə danışan Zərrintac xanım indi süstləşmişdi və təkgöz kişiyə hədəqəsindən çıxıb böyümüş, kədərli baxışlarla tamaşa edirdi. Bəli, o, kişiyə baxırdı, ancaq fikri neçə illər bundan qabaqkı günlərdə cövlan eləyirdi. Elməddini gördüyü, sevdiyi günləri, toylarını, onunla birgə keçirdiyi axşamları... — bütün yaxşı şeyləri yad eləyirdi və qeyri-iradi gözlərində yaş gilələnirdi. Kişi çaşıb qalmışdı. Qorxurdu. «Qəribə adamdı. Özü yalvarıb, pul verib ki, get öldür. İndi də... peşmandır, ağlayır... Qadın ki, qadın!» — deyə düşünən təkgöz Zərrintacı xəyaldan ayırmaq üçün öskürdü. Öskürək səsindən Zərrintac xanım doğrudan da səksəndi. Təzəcə görürmüş kimi, kişiyə diqqətlə baxdı və asta səslə:

— Lap öldü?— deyə soruşdu. İstəyirdi, çox istəyirdi ki, kişi, «yox, ölməyib!» — desin. Lakin o, bu istəyin üstünə su çiləyən bir cavab verdi:

— Hə, xanım. Elə o dəqiqə... Deyirəm, beynini dağıtdım...

Zərrintac xanım fırlanıb içəri keçdi, dərhal da əlində qəzetə bükülmüş pulları gətirdi və anlaşılmaz bir qəzəblə təkgöz kişinin üzünə çırpdı:

— Götür, rədd ol burdan, tez rədd ol, gözüm səni görməsin. — Qəzet açıldı, pullar — göy minliklər döşəməyə səpələndi. Kişi tələsik əyilib pulları yığdı. Yaxasından köynəyinin içinə doldurub... dalına baxmadan həyətdən çıxdı...

...Zərrintac xanımın qabağında, mizin arxasında qonurgözlü, uzunsifətli, saçları kəhrəba rənginə çalan, bığ yeri yenicə tərləmiş bir cavan oğlan əyləşmişdi. Qar kimi ağ köynəyin üstündən geydiyi qara pencək bədəninə kip oturmuşdu; oğlana son dərəcə gözəl yaraşır və onu da yaraşıqlı göstərirdi. Oğlan iri əllərini mizin üstünə qoymuşdu, həlqəsini şəhadət barmağına keçirdiyi açarları oynadırdı. Bu, ağayi Nəcməddinin yurdunda qalan, Dünya xanımın döşlərindən süd əmən, əvvəlcə Əbdülün, sonralar isə onunla bahəm Heyran xanımın min bir əziyyətlə böyütdükləri, oxutduqları balaca Nəcməddin idi. Böyümüşdü, bacısının sevincqarışıq bir kədərlə dediyi kimi, daha yekə kişi olmuşdu. Əbdül bütün həyatını ona sərf eləmişdi, gizli-gizli bir ata fərəhi duyaraq ömrünün yeganə sevinci olan bu uşağın hər nazına, hər şıltaqlığına, hər əzabına dözə-dözə böyütmüşdü onu, məktəb vaxtı çatanda məktəbə qoymuşdu, oğlan on iki il Nadiriyyə litseyində oxumuşdu, bu il məktəbi qurtaracaqdı. Nəcməddin ağa oğlu kimi böyümüşdü, ağa oğlu kimi tərbiyə almışdı. Ağayi Nəcməddinin oğlu olduğunu bilən hər kəs istər məktəbdə, istərsə şəhərdə ona hörmət eləmişdi. O böyük və nüfuzlu adın kölgəsi altında ərsəyə çatmışdı. Ağıllı oğlandı, qəribə məntiqi, mühakiməsi vardı. Yaşından çox bilirdi. Hər şeylə maraqlanar, hər şey haqda öz fikri olardı. Keçən il on səkkiz yaşı tamam olan gün bacısı Zərrintac xanım, Əbdül atasından qalan məktubu ona göstərmiş, bacısı hər şeyi ona izah eləmiş, başa salmışdı ki, sən çox böyük, nüfuzlu bir kişinin oğlusan, ondan sənə çoxlu pul, müəssisə miras qalıbdır və sən bunların sahibisən. Bu Sübhan isə sənin işlərini, sən həddi-büluğa çatanacan görüb. Bacının məsləhəti ilə. Bu Əbdül sənin dayəndir, o Heyran sənin xalandır — səni böyüdüblər. Zərrintac xanım axırda demişdi:

— Bu iki nəfərin — Əbdüllə Heyran xalanın sənin boynunda haqqı-sayı çoxdu, qardaş. Onlar sənə ata-ana əvəzi olublar — hər ikisinə hörmət eləmək sənin borcundu. O ki qaldı şirkətin işlərinə, istəyirsən günü bu gündən özün idarə et, istəmirsənsə, qoy elə Sübhan görsün o işləri — sənin köməkçin olsun. Etibarlı, halal adamdı Sübhan.

Nəcməddin deyilənlərin hamısına qulaq asmış, xeyli fikirləşəndən sonra yaşına yaraşmayan bir ciddiyyətlə:

— Qoy Sübhan hələlik öz yerində qalsın, — demişdi. — Ancaq mənim icazəm, sərəncamım olmadan heç nə etməməlidir. Mən hər işə əməlli-başlı varid olandan sonra bir qayda-qanun yaradaram.

Bu söhbətdən sonra Nəcməddin daha özünü uşaq kimi aparmaqdan əl çəkmişdi, ağır oturub-durmuşdu, özündə sonsuz bir qüdrət, ixtiyar hiss eləmişdi. Ağayi Nəcməddinin var-dövlətinin hesabını dəqiqləşdirmiş, nə qədər pulu, neçə müəssisəsi olduğunu, onlardan gələn gəliri Sübhana hesablatdırmış və pulun ümumi məbləğini öyrənəndən sonra yerə-göyə sığışmamışdı. O, indi boş vaxtlarını Sübhanın yanında keçirir, Dəftərin işləri ilə maraqlanır, müəssisələrə onunla birgə gedir və öyrənirdi. Var-dövlətin çoxluğu onu nə qədər məst eləsə də, təkliyindən çox sıxılırdı. Ata yox, ana yox, bircə bacısı var — o da ögeydi, nə üçünsə o qədər də mehriban deyil. Nəcməddin bu soyuqluğun səbəbini ögeyliklə əlaqələndirirdi.

İndi bacısı onu yanına çağıtdırmışdı. Güman ki, nə isə ciddi söhbəti vardı. Nəcməddinin gözlədiyi kimi də oldu. Zərrintac, xoş-beşdən, əhvalpürsanlıqdan sonra əsl mətləb üstünə gəldi:

— Bilirsən səni niyə çağırmışam, qardaş?

— Yox.

— Mən səhər gedirəm, ona görə sənlə həm görüşmək, həm də bəzi məsələlər barədə danışmaq istəyirəm.

— Hara gedirsən ki?

— Mən... Mən xaricə gedirəm. Parijə gedirəm.

— Orda nə var ki?

— Orda... — Zərrintac gülümsündü. — Orda həyat var, qardaş. Bu Kabilin hisindən, pasından uzaq olmaq, bir az da insan kimi yaşamaq istəyirəm.

— Məgər burda insan kimi yaşamaq olmur?

— Niyə, olar. Ancaq nə qədər olsa Kabil Parij deyil. Rəhmətlik qibləgahımız həmişə deyərdi, burda pul qazanasan, Parijdə xərcləyəsən. Yaşamaq-filan məsələnin bir tərəfidi, qardaş. Məni getməyə vadar eləyən daha ciddi səbəblər var.

— Nə səbəb?

— Siyasi məsələlərdi bunlar, Sən hələ cavansan, başa düşməzsən, amma indi Kabildə siyasi vəziyyət çox gərgindi. Əlahəzrət qoydu qaçdı, Sərdar Məhəmmədin də hakimiyyəti o qədər də möhkəm deyil, laxlayıb, Bu gün-sabah demokratlar, kommunistlər onun axırına çıxacaqlar. Onlar ki hakimiyyət başına gəldi, bizim kimi adamların işi fəna olacaq. Var-yoxumuzu, sözsüz, əlimizdən alacaqlar, deyəcəklər xalqın malıdır — özümüzü də ya öldürəcəklər, ya həbs edəcəklər. Başa düşürsən? Ya öldürəcəklər, ya həbs edəcəklər. Ona görə, mən neçə illərdi ki, atamdan mənə miras qalan pulları xarici banklara köçürmüşəm və bu mülkü də, maşını da satmışam, gedirəm. Sənə məsləhətim budur ki, sən də indidən ayıq ol, yavaş-yavaş pullarını dollara çevir — Sübhan sənə kömək eləyəcək — keçirt Şvetsariya bankına, lap istəyən olsa, şirkəti, müəssisələri yerli-dibli sat, elə ki gördün ara qarışdı, məssəb itdi, papağını götür, çıx məmləkətdən. Yoxsa qalıb burda məhv olarsan, səni səfil eləyərlər bunlar, Buna arxayın olma ki, sən Nəcməddinin oğlusan, sənə hörmət eləyib dəyib-dolaşmazlar. Yox, belə düşünsən, səhv etmiş olarsan. Mən bunları öz borcum bilib sənə deyirəm, istədiyimdən deyirəm, qardaş!

— Sağ ol, bacı. Ancaq... axı bura bizim vətənimizdi, bacı!

— Eh, nə vətənbazlıqdır, bala! Günün harda xoş keçdi, ora sənin üçün vətəndi.

— Nə bilim...

— Hər halda... vəziyyət belədir. Özün ağıllı oğlansan, baxarsan vəziyyətə, ölçüb-biçərsən. Mən hər halda Parijdən sənə məktub yazacağam, ünvanımı bildirəcəyəm. Lazım bilsən, gələrsə»... Amma

gəlməli olsan, Əbdülün, xalanın boğazını kəsib gəlmə — onlar üçün müəyyən qədər puldan-paradan qoy, onlar sənin əziyyətini çox çəkiblər.

Söz bura çatanda Nəcməddin başını qaldırdı və bacısına sınayıcı bir nəzər salaraq:

— İndi ki Əbdüldən, xalamdan danışdın, mənə bizim ailəmiz haqqında ətraflı söhbət elə, bacı, — dedi. — O evdə bir çox şeylər mənə sirli, müəmmalı görünür, atam haqqında, anam haqqında mənə əsl həqiqəti söylə, bacı. Sən gedəndən sonra yəqin bütün izlər itəcək və mən çox şeyi bilməkdən məhrum olacağam. Çox xahiş edirəm, bacı, nə bilirsənsə, mənə de.

Zərrintac xanım uzun bir siqar yandırdı, bununla o, əslində vaxt qazanmaq istəyirdi. Nəhayət, fikrini cəmləyib dedi:

— Sənin atan—mənim atam ağayi Nəcməddindi, qardaş. Yaxşı bir kişi olub. Ağıllı idi, pul qazanandı, əhli-zövq idi. Əsl insan kimi yaşamağı bacarandı. Mənim anam öləndən neçə il sonra o, Dünya xanımı sevdi — sənin ananı. Düzü, mən razı deyildim onu evimizə gətirsin, çünki kişi çox qoca idi, o isə demək olar ki, uşaq idi. Amma gördüm çox sevir—dəli idi dərdindən yazıq. Nəhayət, icazə verdim, gətirdi evə, İnsafən, Dünya xanım çox gözəl idi, ağıllı idi. Kişiyə də çox yaxşı baxırdı, istəyirdi qibləgahımı. Bir neçə il keçəndən sonra sən dünyaya gəldin və onların həyatına əvəzsiz bir şirinlik gətirdin. Kişi lap bəxtəvər olmuşdu, dönüb təzədən uşaq olmuşdu sevincindən. Sonra, birdən-birə nə oldusa — bax, bunu bilmirəm — Dünya xanım yoxa çıxdı. O yoxa çıxan, bilinmədi necə oldu. Öldümü, öldürdülərmi. Küsüb getdimi, oğurladılarmı? Bir Allah bilir. O gedəndən sonra kişi düşdü, yaman düşdü. Dəli kimi olmuşdu. Danışığını, dediyini bilmirdi, tez-tez sayıqlayırdı qızdırmalı adam kimi. O kağızı da — o vəsiyyətnaməni də elə o dəlilik anlarında yazmışdı. Heç üç ay keçməmiş... kişi özünü məhv elədi. Onsuz yaşaya bilmədi. Bax, belə... Mənim bildiyim bu qədərdi, qardaş. Ancaq mənə elə gəlir ki, o Əbdül çox şey bilir — sirr dağarcığıdı. O bilir Dünya necə oldu, hara getdi, ancaq demir. Bir dəfə soruşmuşam, and-aman eləyib ki, heç nədən xəbərim yoxdu; Amma yalan deyir, o çox şey bilir. Mən də sonralar maraqlanmadım, çünki mənə olan

olmuşdu— qibləgahım əlimdən getmişdi, heç kəs, heç nə onu geri qaytara bilməyəcəkdi. Taleyimlə barışıb susdum. Vəssalam.

— Sən bundan artıq heç nə bilmirsən?

— Yox.

— Bunları mən də bilirəm, bacı. Ancaq mənə elə gəlir ki, bizim ev sirlər yuvasıdı.

Zərrintac xanım yeni bir siqaret yandırıb damağına qoydu, havaya üfürdüyü tüstünün arxasından Nəcməddinin gözlərinə diqqətlə baxdı və onu şübhəli fikirlərdən (nə idi bu şübhəli fikirlər — Zərrintac özü də bilmirdi) uzaqlaşdırmaq üçün dedi:

— Olan olub, keçən keçib, Nəcmi. Sən başını boş şeylərlə yorma, yaxşısı budur ki, özün haqqında, öz gələcəyin haqqında düşün, qardaş. Sən hələ cavansan, həyatın irəlidədir

— Hə. Düzdü. Ancaq adam özünü yaxşı tanımalıdı, bacı. Özünün keçmişini hər kəs yaxşı bilməlidi — yoxsa yaşamaq mümkün deyil. Mənim anam... gecə-gündüz fikrimdən çıxmır. Mən onu ya tapmalıyam, ya bilməliyəm kim öldürüb. Öldürübsə... niyə öldürüb? Qəbri hardadı. Mən ancaq bundan sonra rahat yaşaya bilərəm. — Nəcməddin ayağa qalxdı: — Mən gedim...

Zərrintac da durdu:

— Gəl xudahafizləşək, qardaş. Mən səhər tezdən gedirəm. Dünyanın işini bilmək olmaz — bəlkə bir də görüşmədik.

— Səhər gəlib yola salaram səni.

— Yox, lazım deyil. Gəl səni maç eləyim. Özündən muğayat ol, qardaş. Sənə məktub yazacağam.

Qucaqlaşdılar. Öpüşüb ayrıldılar.

İkisinin də gözü dolmuşdu.

ON ÜÇÜNCÜ FƏSİL

Əfsanənin qəm qüssə ilə dolu ömür kitabına bu qara gün də yazılıbmış. Gözünün ilk ovu olan, sönməz, qaralmaz bir məhəbbətlə sevdiyi, taleyinin hökmü ilə ayrıldığı vüsalının həsrətindən şəvə saçlarına dən düşən, uzun illərin ayrılığından sonra tapdığı, ancaq yenə həsrət qaldığı, «yenə qardaş namusu» ehkamını qırmayan,

təmizliyi, mərdliyi üzündən öz istəklisini bir dəfə qardaşına «verən», bir dəfə Şahinə «təklif eləyən», yerdən-göydən, bəxtindən küsdüyünə görə «etibarsız, vəfasız» adlandırdığı və çiynində o dünyaya getmək arzusunu ağlaya-ağlaya bildirdiyi əziz Elməddinini öz əllərilə torpağa tapşırmaq da bu kədərli ömür dastanının bir səhifəsi olmalı imiş, sən demə.

...Əfsanə gözünü açdı, ayağa qalxdı, taqətsiz halda, ürəyi çırpına-çırpına, bayaq gördüklərinin yuxu olmasını arzu edə-edə... Elməddinə yaxın gəldi. Yox, o qan içində idi. Əli sinəsinin üstünə düşmüşdü. Gözləri açıq idi, ancaq qanla dolmuşdu. Əfsanə titrək əlini toxundurdu — əli soyumuşdu. Sanki indi o, Elməddinin öldüyünü başa düşdü və tələsik qolunu silkələməyə, onu oyatmağa çalışdı. Qışqırdı:

— Elmi, Elmi.

Ondan təbii ki, cavab gələ bilməzdi. Onda Əfsanə zar-zar ağladı:

— Sənə qurban olum, Elmi! Sənə hansı namərd qıydı, sən kimə neyləmişdin, ay qurbanın olum? — Çarpayıda, yanında oturdu, əyilib qanlı üzündən öpdü, öpdü. — Sağlığında səni doyunca öpə bilmədim, əzizləyə bilmədim, qoy indi öpüm. Elmi, qoy doyunca öpüm, Elmi, qoy doyunca öpüm, əzizim. — Əfsanə, həqiqətən, Elməddinin qanı qurumuş üzündən, dodaqlarından sonsuz bir həsrətlə öpürdü, doydum demədən öpürdü. Dikəldi, qapı ağzında uzanmış Simini görəndə, səksənən kimi oldu. Ona nə olub? O, niyə bura yıxılıb? Hə, yadına düşdü, — onu içəri girəndə görmüşdü, ancaq unutmuşdu. Aman allah, onu da öldürüblər. İkisini də birdən... Beyni açıldı, huşu duruldu: «Bəs qız hanı?».. — bu fikirlə o özünü dəli kimi çölə atanda... Məleykənin, Bəbrəkin, balaca Əfsanənin gəldiyini görüb dayandı...

Məleykə də ona qoşulub ağladı. Evdə təzədən vay-şivən qopdu. Bəbrək içəri keçdi — Siminin, Elməddinin meyitinə baxıb çıxdı. Az sonra... Əhədullanı, Fatiməni gətirdi. Fatimə qızının bədəni üstünə çöküb fəryad qoparanda... Əhədullanın səssiz-səmirsiz göz yaşı yanaqlarına axmağa başladı.

...Ertəsi gün... həyətdən iki meyit çıxartdılar. Adam az idi, qonum-qonşu gəlmişdi... Dostlarından heç kəs yox idi — həbsxanada idi hamısı...

Mövcud adətə görə, qadın qəbiristanlığa getməməli idi. Ancaq kişilər cənazələri qaldırıb həyətdən çıxanda Əfsanə də çarqatını çiyninə saldı:

Əhədulla çəp-çəp ona baxdı:

— Olmaz, qız!

Əfsanə başını mənalı-mənalı tərpətdi:

— Olar, əmi. Olar!

— Axı adət deyil.

— O adət deyil, bu adət deyil... Aman allah, bu nə tilsimdi Yox, qoy kim nə deyir, desin. Mən də gedəcəyəm. Mən öz əzizlərimi dəfn etməyə gedəcəyəm, kişi!

«Əzizlərim» — sözü Əhədullanın qəlbini yumşaltdı.

— Nə deyirəm, özün bilən... məsləhətdi,

Əfsanə tərpənəndə... balaca Əfsanə onun əlindən tutdu.

— Mən də gedirəm, xala!—dedi. Bu zaman Fatimə uşağın donunun ətəyindən yapışıb geri çəkdi.

— Sən getmə, qız.

— Yox, gedirəm. Xalamnan gedirəm, — söylədi və çırpınıb nənəsinin əlindən çıxdı, qaçıb Əfsanəyə çatdı.

Əfsanə... geri dönüb Fatiməyə küskün-küskün baxaraq;

— Dəymə, qoy getsin, xala, — dedi.—Adamın ata-anası hər gün ölmür. Qoy görsün, yadında qalsın.

Ancaq Fatimə qızının, kürəkəninin meyitini görəndən sonra deyəsən key kimi olmuşdu — Əfsanənin yavaşcadan söylədiyi bu sözləri ya eşitmədi, ya da başa düşmədi. Elə baxa-baxa qaldı. Əfsanə Əfsanənin əlindən tutub... kişilərin dalınca addımladı.

Ertədən... yanaşı iki qəbir qazılmışdı. Biri dərin idi əvvəlcə dərin qəbrə Simini qoydular, üstünü torpaqladılar Sonra Elməddinin cənazəsini qəbrə salladılar.

Əfsanə... uşağa görə hay-haray salmadı. Sakitcə, xısın xısın ağladı. Qəbir üstündə, təkcə bunu düşündü ki, kaş sənin yerinə mən öləydim, Simin. Heç olmasa Elməddinlə torpaqda yanaşı yatardım...

...Nə yaxşı ki, Əhədulla varmış. O, Elməddinin ən yaxın adamı kimi, qaynatası kimi, qəlbinə dəyən bu qoşa yaranın ağrısına kişi kimi dözərək o iki cavanın dəfninin əziyyətini çəkdi. Ağsaqqal kimi irəli durub yas məclisini yola verdi ilk böyük uşağını itirdiyindən heç cür toxtaya bilməyən arvadını, dünyada yeganə, əziz adamını itirdiyindən bərk sarsılan Əfsanəni, öz balası kimi ovundurmağa, təsəlli verməyə çalışdı.

Bəli, Əhədulla başa düşən insan idi. Əfsanənin Elməddinin, Siminin bu nagahani ölümündən yanıb külə döndüyünü görürdü... Onların — Elməddinlə Əfsanənin macərasın bildiyindən o bədbəxt qıza həmişə yazığı gələrdi. Üstəlik Əfsanənin bu dolaşıq, qatmaqarışıq dünyada hələm-hələm kişilərin qoruyub saxlaya bilmədiyi dəyanətini, mərdliyini, məhəbbətini yüksək qiymətləndirirdi. Buna görə Əhədulla Elməddindən sonra, onun vaxtilə elədiyi bütün yaxşılıqlarının əvəzini bu dərdli qadına qaytarmağın — borcundan ancaq bu yolla çıxmağın mümkün olduğunu da anlayırdı.

«Elə bilərəm öz qızımdı, öz bacımdı...» — deyə düşünürdü. Axşam hüzr yerinə gələn beş-altı qonum-qonşu çəkilib gedəndən sonra, Fatimə arvadın gözlənilmədən ortalığa atdığı çox mühüm məsələdə Əhədullanın bircə sözü kifayət oldu.

Fatimə arvad... evə, uşaqlarının yanına getmək istəyəndə... nəvəsini də özü ilə aparmaq istədi. Üzünü uşağa tutub:

— Geyin, bala, — dedi, — gedək.

— Hara, nənə?

— Gedək bizə. Daha sən burda qalmayacaqsan. Burda anan yox, atan yox. Orda yenə uşaqların yanında başın qarışar.

— Yox, mən getmirəm. Mən xalamın — Əfsanə xalamın yanında qalıram, — dedi uşaq.

— Kəs səsini. «Xalamın yanında qalıram». — deyə Fatimə uşağın üstünə çımxırdıqda... Əfsanə dilləndi:

— Fatimə bacı, qoy qalsın burda. Mən də təkəm.

— Yox, qız, sən nə danışırsan? O mənimlə gedəcək. Burda onun daha nəyi var?..

— Burda... mən varam, Fatimə bacı. Həm də bu, onun atasının evidi — qoy uşaq qalsın atasının xanimanında.

Fatimə daş atıb başını tutdu, iki ayağını bir başmağa dirəyib «yox!» — dedi. Bu zaman Əhədulla öskürüb sözünü söylədi:

— Qız burda qalacaq, Fatimə. Əfsanənin yanında. O da bizim uşağımızdı. Başa düşdün?

Bu söhbəti eşidən uşaq durub Əfsanənin yanına gəldi, ona sığındı. Əfsanə, anası kimi, onun ipək saçlarını sığalladı, əzizlədi. Uşaq pişik kimi bu nəvazişdən xoşhallanıb dedi:

— Mən həmişə sənin yanında qalacağam, xala.

— Əlbəttə, qızım. Sən həmişə mənim yanımda qalacaqsan... Mən səni böyüdəcəyəm, oxudacağam, qızım. Bu il səni məktəbə aparacağam, yazıb-oxumaq öyrənəcəksən, qibləgahının kitablarını oxuyacaqsan... Xoşbəxt olacaqsan, qızım.

Əl-ayaq çəkiləndən, tək qalandan sonra Əfsanə düşündü ki, mehrini ona salan o məsum körpənin xatirinə hər necə olursa-olsun bu Elməddinsiz dünyada yaşamaq, Əfsanəni yaşatmaq lazımdı. Axı o... çox sevdiyi Elməddinin yadigarı idi.

ON DÖRDÜNCÜ FƏSİL

Yaranmış siyasi vəziyyət çox gərgin idi — hezbin Əsas və nüfuzlu rəhbərləri Poli-çərxi həbsxanasına salınmışdı və son dərəcə ciddi nəzarət altında saxlanılırdı. Xariclə əlaqə saxlamaq qətiyyən mümkün deyildi. Yoldaşlardan təkcə dikərval Əbdülqadir xan — Mir Xeybərin dəfnində iştirak edə bilmədiyinə görə — şübhə doğurmamış və həbs olunmamışdı. Əbdülqədir xan neçə gün idi ki, gecə-gündüz narahat idi, dostlarını həbsxanadan xilas etmək yolları barədə düşünürdü. O anlayırdı ki, bu həbs adi həbs deyil, yoldaşlarının həyatı, ən ümdəsi isə, inqilabi mübarizənin müqəddəratı böyük təhlükə altındadı. Bu gün isə Daxili İşlər Nazirliyində işləyən dostlarından biri başılovlu yanına gəlmiş və xəbər gətirmişdi ki, həbsxanadakı yoldaşları dörd-beş gündən sonra, daha dəqiq, may ayının ikisində güllələyəcəklər. Sərdar Məhəmmədin əmri ilə, onların dövlət, rejim əleyhinə olmalarını sübut eləyən dəlilləri toplayıb hazırlayırlar, «sənədləri» qaydaya salırlar. Bu xəbər Əbdülqədiri lap sarsıtmışdı. Nə isə etmək lazım idi! Nə? Bax, bu məsələdə o,

tərəddüd edirdi. Təkbaşına, Mərkəzi Komitənin göstərişi olmadan hərəkət etmək təhlükəli idi, səhv eləyə bilərdi və bu, hezbə baha başa gələ bilərdi. Özü vəziyyəti təhlil edir, bu qənaətə-gəlirdi ki, daha məqam yetişib, susmaq mümkün deyil — qoşundan, hava qüvvələrindən, tanklardan istifadə etmək, Ərkə-şahini dağıtmaq, Sərdar Məhəmmədi aradan götürmək məqamı çatıb. Bəhram hava meydanında qırıcı təyyarələrdən bir neçəsini, bir ləvayi-tankı[1] ayağa qaldırsa, kifayətdir. Ancaq bunun üçün Mərkəzi Komitənin göstərişi, razılığı lazım idi — bu isə yox idi Əbdülqədirin əlində, ona görə... çaşıb qalmışdı. Mədəsi bərk incidirdi, daha dava-dərman da kömək eləmirdi. Ağrıdan qıvrılırdı. Buna fikir vermirdi. Dözürdü. Süddə həll olunmuş mumiya içmişdi, yenicə. Eyvanda oturub düşünürdü.

Bu zaman həyətə əynində köhnə paltar, saqqallı bir kişi girdi. Əbdülqədir qeyri-iradi əlini belindəki tapançasına vurub çəkdi. İndi vəziyyət elə idi ki, hər şey ola bilərdi — gələn qəfildən onu vura bilərdi, Şəfini vuran kimi, Elməddini öldürən kimi. Hər ehtimala qarşı ehtiyatlı olmaq lazım idi.

Gələn kişi sir-sifətindən məzlum adama oxşayırdı. Bu, Əbdülqədiri bir az sakitləşdirdi.

— Bağışlayın, bura dikərvəl Əbdülqədirin evidir? — deyə kişi astadan, taqətsiz halda soruşdu.

— Bəli. Mənəm Əbdülqədir.

Kişi həyətə göz gəzdirdi və lap yaxın gəldi:

— Dikərvəl sahib, Mən Poli-çərxidən gəlirəm. Məni ağayi Bəbir göndərib.

Bəbirin adını eşidən kimi, Əbdülqədir sevindi, ağrılarını unutdu. Ancaq özünü tox tutmağa, sevincini büruzə verməməyə çalışdı. Kişi heç nə demədən sol qolundakı saatı açdı, Əbdülqədirin qabağına qoydu və sonra əlavə etdi:

— Ağayi Bəbirdən məktub gətirmişəm.

— Hanı? — deyə Əbdülqədir bir şey başa düşməyərək saata baxıb soruşduqda o:

— Saatın içindədi, — dedi və özü stolun üstündən saatı götürüb baş barmağının uzun dırnağını salaraq alt qapağını ayırdı,

[1] Ləvayi-tank — Tank briqadası.

bükülüb əzilmiş kağızı çıxardıb ona verdi. Əbdülqədir kişiyə minnətdarlıqla baxdı və tələsik kağızı açdı — xətti o saat tanıdı. Xətt Bəbirin idi. Məktubu oxumamış:

— Çox, sağ ol, qardaş!—dedi. — Necədirlər özləri?

— Pisdilər. Döyürlər, incidirlər.

— Başqa bir söz demədilər ki?

— Yox, elə Bəbir dedi ki, bu kağızı mütləq sizə çatdırım.

— Təşəkkür edirəm, qardaş. Otursana.

— Yox, mən gedirəm. Üç ildi evdən çıxmışam, uşaqlardan xəbərim yoxdu. Evə getməmiş bura gəlmişəm. Əbdülqədir soruşdu:

— Dustaq idin?

— Hə, ağa.

— Nə üstə tutmuşdular?

— Eh, uzun əhvalatdı. Başınızı ağrıtmayım — həm də evdən sarı burnumun ucu göynəyir. Mən gedim.

Əbdülqədir bilmədi ona necə minnətdarlıq etsin. Birdən gözü miz üstdəki içi boş saata sataşdı. Ani fikirdən sonra cəld bir hərəkətlə qolundan öz saatını açıb kişiyə tərəf uzatdı:

— Yox, yox, ağa, lazım deyil.

— Götür, qardaş. Sənin bu yaxşılığını biz heç vaxt unutmayacağıq, qardaş, sağ ol.

Kişi çarəsiz qalıb saatı götürərək gedən kimi o, kağızı oxumağa başladı: Bəbir yazmışdı:

«Qədir can, salam! Bizim çoxdan gözlədiyimiz, uğrunda mübarizə apardığımız tarixi an yetişmişdir. Bu məktubu alan kimi, qəti hərəkət eləmək lazımdır. Hezbin həbsxanada olan Mərkəzi Komitə üzvlərinin hamısının fikrini sənə çatdırıram. Bu gecə, imkan olmasa, sabah axşam bizim adamlarımız olan tankçıların, təyyarəçilərin iştirakı ilə silahlı üsyana başlamalısan. Ərki mühasirə etmək, içəri keçmək və Sərdar Məhəmmədə təslim olmaq təklifi etmək lazımdır — əgər qəbul etməsə, saray havadan bombardman edilməlidir. Çalışmaq lazımdır, qan tökülməsin. Mümkün olmasa, qandan qorxmaq lazım deyil. Dinc əhaliyə qətiyyən tələfat verməyi qadağan edirik. Müdafiə nazirliyinin binasını, Kabil radiosunu ilk növbədə tutmaq lazımdır. Gecikmək olmaz, gecikmək ölümə bərabərdir. Ümid

edirik ki, sən və bizim azadlıqda qalan digər vətənpərvər yoldaşlarımız bu tarixi vəzifəni şərəf və ləyaqətlə yerinə yetirəcəksiniz.

Əfqanıstan xalq demokratik hezbinin Mərkəzi Komitəsi.

Əbdülqədirin gözləri parıldayırdı. İndi hər şey aydın idi, indi rahat hərəkət etmək olardı. O, bir cavan oğlan cəldliyi ilə qalxdı...

...Bir gün sonra, aprel ayının iyirmi yeddisində, səhər tezdən, saat altıda «Ərke-Şahi» dördüncü və on beşinci tank briqadasının tankları tərəfindən əhatə olunmuşdu. «Ərke-Şahi»dən azca aralıda, geniş meydanın sağ tərəfində yerləşən müdafiə nazirliyinin yaraşıqlı binasının çıxış qapısı və nazirin üçüncü mərtəbədə yerləşən kabineti, dördüncü tank briqadasının komandiri Aslan Vətəncarın əmri ilə atəşə tutulmuş, dağıdılmışdı. «Ərke-Şahi»nin dörd qülləsində yerləşdirilmiş maşındarçı[1] əskərlər, sarayı mühafizə dəstəsinin komandirinin göstərişi ilə tanklara və «Ərke-Şahi»nin üstündə uçan qırıcı təyyarələrə atəş açırdılar. Sarayda bir çaxnaşma əmələ gəlmişdi. Sərdar Məhəmməd səs-küyə yuxudan oyanmışdı. Qardaşı Məhəmməd Naib atışma səsini eşidən kimi onun yanına qaçmış və vəziyyəti danışmışdı. Sərdar Məhəmməd telefona əl atmış, ancaq zəng eləyə bilməmişdi — hərbi nazir Heydərxanın telefonu susmuşdu. Sarayın üzük qaşı kimi mühasirə olunduğunu və hər yerlə əlaqənin kəsildiyini anladıqda o, özlərini itirdiyindən qışqıra-qışqıra, ora-bura qaçışan arvad-uşağı — on səkkiz nəfər qadın, gəlin, oğul, qız, nəvə və s.-ni zirzəmiyə yığmağı qardaşına tapşırmışdı. Üstəlik demişdi ki, əgər vəziyyət gərginləşsə, onları yeraltı yolla, qonşuluqda yerləşən Fransa səfirətxanasına ötürmək məsələsini yaddan çıxarmasın.

Atışma davam edirdi. Şəhərə çaxnaşma düşmüşdü. Ədülqədir, Aslan Vətəncar, on beşinci tank briqadasının komandiri Məhəmməd Rəfi, üçü bir tankda «Ərke-şahi»nin dəmir darvazasını qırıb həyətə girmişdi. Qüllədəki maşındarçılar susmaq bilmirdi, onların səsini kəsmək lazım idi. Əbdülqadir ratsiya ilə şəhərin üstündə ora-bura şığıyan qırıcı təyyarəçilərə, tüləy[2] komandiri Ziyəddinə əmr verdi ki, sərrast atəşlə Ərkin qüllələrini vurub dağıtsın. Havadan Ziyəddinin

[1] Maşındar — pulemyot.
[2] Tüləy — eskadrilya.

cavabı eşidiləndən az sonra, hündür, yaraşıqlı dörd qüllə biçilib yerə töküldü, maşındarların səsi kəsildi. Sarayın həyətinə də bir neçə bomba düşmüşdü — saray mühafizə dəstəsinin çoxu qırılmış, qalanları isə qaçıb gizlənmişdi. Sərdar Məhəmmədin rəngi ağappaq ağarmışdı, dodaqları əsirdi. Bir yerdə qərar tutub dayana bilmirdi. Qardaşı onun yanında çarəsiz-çarəsiz vurnuxurdu. Birdən Sərdar Məhəmməd onun üstünə qışqırdı:

— Nə durub gözlərini döyürsən, arvad-uşağı yeraltı yolla ötür səfərətxanaya. Tez, yoxsa bu kafirlər onları qıracaqlar.

— Beçeşm, bu dəqiqə! — deyərək Məhəmməd Naib aşağı endi və beş dəqiqə sonra geri qayıtdı. Qayıdanda Sərdar Məhəmmədi yerində görmədi. Qışqırdı:

— Sərdar, Sərdar can!..

Sərdar, sən demə, pencərə qabağında dayanıb, şəhərə baxırmış. Heyf hərbi nazir — Heydərxan əlinə keçmədi, yoxsa... onu buradaca güllələrdi. Bu necə ordu saxlamaq, tərbiyə eləmək idi? Ordu hökumətin əleyhinə çıxır. Gör bu demokratlar, bu kommunistlər necə işləyiblər, hər yerdə adamları var — yəqin elə burda da, sarayda da adamları var onların. Var, var! — deyə o, pəncərənin qabağında düşünürdü. — Gərək bu hezbin rəhbərlərini həbs edən kimi güllələtdirəydim. Nahaq gecikdirdim. General Əmirxanın sözünə nahaq baxdım. Gərək elə o gün onların işini bitirəydim. Heç şübhəsiz, bu işi elə həbsxanadan təşkil eləyiblər!!

Daha çıxış yolu yox idi. Sərdar Məhəmməd prezident sarayına, öz kabinetnnə getdikdə... qardaşı da dalınca addımladı.

Kabinetdə Sərdar öz kreslosunda əyləşdi. Məhəmməd Naib yanında, ayaq üstə dayandı.

— Bəlkə... Nur Məhəmməd, Bəbir həbsxanadan qaçıb? — deyə Naib xəbər aldıqda:

— Qaça bilməzlər!— dedi. — Amma kaş qaçmış olaydılar və bura, bizim yanımıza gələydilər. Gəlsələr... İndi, gəlsələr, içəri girən kimi, hər ikisini vurmaq lazımdır. Bütün bu işlərin mayəsi onlardı. — Bu zaman salonun qapısı təpiklə açıldı. Və Nur Məhəmmədin, Bəbirin əvəzinə, üç zabit — Əbdülqədir, Aslan Vətəncar və Məhəmməd Rəfi əllərində tapança içəri girdi. Dallarınca əli avto-

matlı əskərlər otağa təpildilər. Bir an sükut oldu. Sonra Məhəmməd Rəfi qışqırdı:

— Rəis-sahib, təslim olun. Siz mühasirə olunubsunuz!.. Sərdar Məhəmməd, əsəbləri son dərəcə gərildiyindən və qorxudan tir-tir əsdiyindən, qəzəb içində boğula-boğula, cavab vermək əvəzinə, Məhəmməd Rəfiyə atəş açdı və onun sol qolunu güllə qırdı. Dalınca Məhəmməd Naib tətiyi çəkdi. Əbdülqədir «Atəş!» — deyə qışqırdıqda salonu dəhşətli bir uğultu bürüdü: əskərlər avtomatları işə saldılar.

Kiminsə gülləsi Sərdar Məhəmmədin tüksüz başının qafa tasını havaya sovurdu və o boyda bədən axıb kreslonun arxasına düşdü. Məhəmməd Naib başını prezident stolunun üstünə qoymuşdu — çırpındı, çırpındı, sonra döşəməyə düşdü.

Döşəmə qızıl qana boyanmışdı. Güllələr salonun zərli-naxışlı divarlarını da yaralamışdı. Əbdülqədir tez tankın içinə qaçdı, kiməsə əmr verdi ki, Kabil radiosunu susdursun — mikrofonlar olan otaqlara kimsəni buraxmasın!.. Cavab, gəldi ki:

— Kabil radiosu bizim əlimizdədir!..

Sonra Əbdülqadir «Ləvayi-Cəhare-tank!» — deyə qışqırdı, komandirin səsini eşidən kimi vəziyyəti soruşdu. Komandir dedi:

— Biz Poli-Çərxi həbsxanasının yanındayıq. Əmrinizi gözləyirik!..

Əbdülqədir qışqıra-qışqıra söylədi:

— Üç tankla darvazaları qırıb içəri keçin, dustaqların hamısını azad edin. Mühafizələrdən müqavimət göstərənini vurun. Yoldaşları — Nur Məhəmmədi, Bəbiri, Şəfini, Süleyman Layiqi, Anahitanı, Ziyaülhəqqi tankların kabinəsinə götürün, çıxın. Elə eləyin ki, birinin də burnu qanamasın,

— Beçeşm, komandan sahib!

Bir azdan — saat beşə qalmış Poli-Çərxi həbsxanasının dəmir darvazaları yerə düşmüşdü. Dustaqlar qışqıra-qışqıra, şüar deyə-deyə bayıra axışırdı.

— «Zendebad azadi»[1] —sözləri hər yandan eşidilirdi. Saqqallı cır-cındır içində olan dustaqlar, bir-birinin dalınca asfalt yolla şəhərə

[1] «Yaşasın azadlıq!»

doğru ağır-ağır irəliləyən üç tankı dalınca «Zendebad azadi», «Zendebad inqilab» — deyə-deyə, qucaqlaşa-qucaqlaşa, öpüşə-öpüşə addımlayırdılar. Ortadakı tankda Nur Məhəmməd və Bəbir gedirdi. Şəfi, Süleyman Layiq, Anahita, Ziyaülhəqq axırıncı tankda idi.

İkinci tankın sürücüsü — Qulam Məhyəddin adlanan leytenant özünün üzü tüklü, paltarları əzik-üzük, qeyri-adi sərnişinlərinə şəhərdəki hadisələri, «Ərke-Şahi»nin, Kabil radiosunun binasının tutulması təfsilatını vəcdlə danışırdı. Sən demə, Əbdülqədirin əmri ilə, Qulam Məhyəddin Müdafiə Nazirliyinin qapısını, nazirin kabinəsini atəşlə vurub dağıdan zabit imiş! Nur Məhəmməd elə tankın içində, yerinin dar olmasına baxmayaraq, qanrılıb Bəbirin tüklü üzündən öpdü, sonra, Qulam Məhyəddinin çiyninə şapalaqla vurdu:

— Afərin, afərin!!

Tanklar şəhərə girmişdi. Küçələrə çıxan şəhər adamları da dustaqlara qoşulur, izdiham getdikcə böyüyür, yola sığışmırdı.

Ratsiya səsləndi. Qulam Məhyəddin cavab verdi:

— Bəli, eşidirəm, dikərval sahib! Bəli, hər ikisi sağ-salamat mənim yanımdadır, dikərval sahib! Bəli, baş üstə, düz birbaş «Ərki-Şahi»yə!, oldu, dikərval sahib! — sonra dönüb Bəbirə, Nur Məhəmmədə müraciətlə:

— Dikərval sahib Əbdülqədir xandı! Deyir sizi birbaş «Ərki-Şahi»yə gətirim. Etirazınız yoxdur ki, ağayi Nur Məhəmməd? — deyə yaşlı adam olduğuna görə ona müraciət etdi:

— Yox! Ora gedək, elə deyilmi, Bəbircan?

— Elədir. Gedək, gedək, o zülm və haqsızlıq ocağını görək, minlərlə günahsız adamın günahına batmış cənab rəisi-cümhurun vücudu-mübarəkinə baxaq.

— Hə, elədir. Bəbir. Gedək. Amma afərin, Əbdülqədir xana! O, böyük qəhrəmanlıq göstərdi, çox böyük.

— Bəli, Nurcan! Əbdülqədir bizim inqilabımızın qəhrəman oğludur.

Bu zaman tank «Ərke-Şahi»yə daxil oldu — tırtıllar səslənib dayandı. Əbdülqədir, qolunu sarımış Məhəmməd Rəfi, Aslan Vətəncar yerdə, öz tanklarının yanında sırayla dayanmışdılar. Ətrafı əlisilahlı inqilab əskərləri əhatə eləmişdilər. Nur Məhəmməd, Bəbir

tankdan çıxıb, yerə atıldı. Əbdülqədir farağat dayanıb əskəri qaydada raport vermək istəyəndə Bəbir də, Nur Məhəmməd də irəli gəlib onu qucaqladılar, öpdülər.

— Sağ ol, Qədircan! Hezbimizin və xalqımızın tarixinə sənin adın qızıl hərflərlə yazılmalıdır.

Əbdülqədir sevinclə gülümsünüb başını aşağı saldı. Sonra onlar Aslanla, Rəfi ilə də öpüşdülər. Bu zaman Şəfi, Süleyman Layiq, Anahita, Ziyaülhəqq də o biri tankdan düşüb irəli gəldilər. Hərarətli qucaqlaşmalardan, öpüşlərdən sonra Bəbir əlini havaya qaldırıb ucadan, bütün saray həyətinə yayıla biləcək bir səslə:

— Zendebad inqilabe-səure ma! Zendebad mərdome-əyure Əfqanıstan![1] — söylədi.

Əskərlər yaylım atəş açdılar. Üç dəfə dalbadal eyni vaxtda açılan güllələr yavaş-yavaş yanıb tüstülənən bu zülm ocağının ölü sükutunu pozdu.

ON BEŞİNCİ FƏSİL

Elə həmin bu vaxt, şəhərdə baş verən hadisələrdən xəbərsiz olan Əbdül ortalıq otağa girəndə... qulaqlarına inanmadı. Yataq otağından tanış, doğma bir səs gəlirdi — Dünyanın səsi... Kimləsə, yad bir kişi ilə danışırdı Dünya xanım.

Əbdülün qıçları titrədi, tükləri biz-biz oldu. Hövllənmiş halda qanrılıb Dünya xanımın divardan ona baxıb gülümsünən şəklinə baxdı. Şəkil susurdu. Başını silkələdi — sanki qorxulu yuxudan ayılmaq istəyirdi. Yox, səs kəsilmirdi, səs gəlirdi və buna da şübhə yox idi ki, Dünyaydı danışan. Əbdül o səsi yüz il keçəndən sonra da eşitsəydi, dərhal tanıyardı, yüz qadının səsi içindən seçərdi onun səsini. Bəlkə Heyran idi? Yox, o, həyətdəydi — toyuq-cücəyə dən verirdi. Heyran ola bilməzdi.

Səs gələn otağa girmək üçün cəmi ikicə addım atmaq lazım idi — ancaq Əbdülün bədənində o ikicə addımı atmağa taqət yox idi, kişini elə bil yerə mıxlamışdılar.

[1]«Yaşasın bizim aprel inqilabımız». «Yaşasın Əfqanıstanın qəhrəman xalqı».

Dünya kiməsə deyirdi:

«— Mənim də ürəyim səni istəyir, lap çox, bilirsən? Yox, bilmirsən səni necə istəyirəm... ancaq olmaz...» Əbdül birdən hər şeyi başa düşdü — bu, o zaman, ağayi Nəcməddinin Dünya xanımdan şübhələndiyi vaxt qoşunun oğlu Vəlixanla danışığını gizli surətdə yazdığı maqnitofon lenti idi. Əbdül Nəcməddin dünyadan köçəndən sonra təsadüfən əlinə keçmiş o lent yazılarını bir-iki dəfə dinləyərək elə yataq otağında, alabəzək sandığın içində kişinin tapançası ilə birlikdə gizləmiş və sonra da tamam unutmuşdu.

İndi, üstündən uzun illər keçəndən sonra, Dünya xanımın səsini gözlənilmədən eşidən və bərk sarsıntı keçirən Əbdül birdən dəli kimi yerindən qopub özünü içəri atanda... Nəcməddinin ipək örtüklü çarpayısının üstündə oturduğunu, qabağına qoyduğu balaca maqnitofona qulaq asdığını gördü və özünə gəlməmiş aldığı ikinci ağır zərbədən nitqi batdı. Ayaqlarını aşağı sallamış, belini əymiş, əlini çənəsinə dayaq verib lenti diqqətlə dinləyən Nəcməddin Əbdülün belə hövlnak içəri təpilməsinə və onu görən kimi qapı ağzındaca donub qalmasına qətiyyən əhəmiyyət verməyərək mənalı-mənalı başını tərpətdi.

Bir neçə anmı, dəqiqəmi keçəndən sonra, Əbdül kəkələyərək soruşdu:

— Sən... sən... neyləyirsən, a bala?

Nəcməddin əlini çənəsindən çəkib kədərli-kədərli dilləndi:

— Gəl otur, kişi, gəl otur.

Nəcməddin — qolları üstündə böyüdüyü Əbdülə ağlı söz kəsəndən «Əbdül əmi» demişdi. Ancaq keçən il, on səkkiz yaşı bitəndən və Zərrintac xanımın, Sübhanın iştirakı ilə ağayi Nəcməddindən qalan vəsiyyətnamə ilə tanış olandan sonra, hərəkətlərində, rəftarında, oturuşunda-duruşunda müəyyən dəyişikliklər əmələ gələn oğlan ona arabir «kişi» də deyirdi. Əbdül təkcə özünə məlum səbəbə görə onu çox, lap çox istəyirdi. Onun Heyrandan uşağı olmamışdı, ona görə bu oğlan Əbdülü yaşadan, təsəllisi olan yeganə varlıq idi. Kişi bütün fikrini-zikrini, mehrini-məhəbbətini ona salmışdı. Bu məhəbbət o qədər ziyadə idi ki, uşaq özü bəzən bu sevgidən, mehribanlıqdan bezirdi, usanırdı, çiyrənirdi. Əvvəllər Nəcməddin buna əhəmiyyət

vermirdi. Lakin keçən ildən — əhvalatlar ona məlum olandan, Əbdülün onun atası, əmisi, qohumu deyil, adicə dayəsi olduğunu biləndən sonra ağıllı və dərrakəli oğlan olan Nəcməddin istər-istəməz bu qeyri-adi məhəbbət haqqında düşünməli oldu, çox baş sındırandan sonra bunu atası Nəcməddinin puluna-mülkünə Əbdülü də şərik eləməsi ilə bağladı. «Kişi, — düşünürdü, — o var-dövlətə görə ona belə bağlanıb. Yoxsa... adam özgə uşağını bu qədər sevməz, sevə bilməz!». Onda Nəcməddinin Əbdüldən zəhləsi getməyə başladı, onun hər sözündə bir gizli təmənna duydu oğlan. Ancaq çox keçməmiş, gördü ki, Əbdül gözü-könlü tox adamdı, dünya malında əsla gözü yoxdu — bax onda Nəcməddin şübhələndi. Bu şübhə o zaman daha dəhşətli şəkil aldı ki, onlar — Zərrintac, Heyran, Əbdül və Nəcməddin yadigar olsun deyə birlikdə şəkil çəkdirdilər. Bu şəkil evə gələn gündən Nəcməddin dərin duşüncələrə daldı, fikirli gəzib-dolandı. Çünki yanaşı oturmuş Əbdüllə Nəcməddin elə bil bir alma idi, yarı bölmüşdün. Bu o qədər qabarıq nəzərə çarpırdı ki, ən diqqətsiz adam belə o oxşarlığı görməyə bilməzdi. Hətta lap əvvəldə Dünya ilə Əbdülün yaxın olmağından şübhələnən Heyranın da o şəkil çəkiləndən sonra qanı bərk qaralmışdı, ancaq açıb-ağartmağı yersiz bilib susmuşdu. Nəcməddin evdə tək olanda dəqiqələrlə ağayi Nəcməddinin divardan asılmış şəkli önündə dayanır, özü ilə onu müqayisə eləyir, atası adlandırılan o nurani kişi ilə özü arasında heç olmasa kiçik bir oxşarlıq tapmaq istəyirdi, ancaq tapa bilməyib məyus olurdu. Amma bu başı dümağ ağarmış, beli donqarlaşmış, sinəsi içəri batmış Əbdülün qaşı, gözü, sifəti, çənəsi, hətta burnu da eynən Nəcməddininkinə bənzəyirdi, — yox bənzəmirdi, lap eyni idi.

O gün, Zərrintacla söhbət eləyərkən dediyi sirrlərdən, müəmmalardan biri, bəlkə də birincisi elə bu idi. Onu düşündürən müəmmalardan biri də bu idi ki, görəsən niyə ağayi Nəcməddin bu adicə nökəri özünün varına-yoxuna, malına-mülkünə şərik eləyib? Çox istəyirmiş onu? Sədaqətinə inanırmış? Bax, bu da müəmma idi. Hamı deyirdi ki, onun anası — gözəl Dünya xanım birdən-birə yoxa çıxıb! Niyə? Necə olub? Bəlkə öldürüblər? Öldürüblərsə — kim öldürüb? Sağdısa — hardadı?

Nəcməddini bu məsələ də çox narahat edirdi və nə Əbdülün, nə Heyranın bu cavan oğlanın ürəyində, beynində dolanan o dəhşətli suallardan xəbəri yox idi. Heç nə izsiz qalmır — Nəcməddin sakitcə, ehtiyatla kimsəyə heç nə demədən çalıxıb-çapalayır, həmin müəmmaların düyününü açmağa çalışır, ən ümdəsi isə, anasını axtarırdı. Sağdısa — hardadı. Niyə gedib? Ölübsə... heç olmasa... qəbrini tapsın, ziyarətgaha çevirsin. Ağayi Nəcməddinin — atasının qəbri üstünə getdiyi kimi, anasının da məzarının üstünə getsin!!

Dünən axşam təsadüfən əlinə keçən o lent yazısı Nəcməddinin bütün həyatını alt-üst eləmişdi. Əvvəl sevinmişdi — anasının səsini eşitmişdi. Özünü saxlaya bilməyib uşaq kimi ağlamışdı, «səsinə qurban olum, ay ana!» — demişdi. Ancaq lentdə yazılan danışıqlara axıra qədər qulaq asandan, iki-üç dəfə də yenidən dinləyəndən sonra oğlanın ürəyi az qala partlamaq dərəcəsinə gəlmişdi. O, daha uşaq deyildi, lentdəki o söhbətlərin mənasını, məğzini yaxşı başa düşürdü. Anasının o yad adama — Vəlixana, Vəlixanın ona dediyi o sözləri diqqətlə, dərindən götür-qoy edə-edə dinlədikdən sonra... Nəcməddin sıxılıb yumağa dönmüşdü, alnını soyut tər basmışdı. Təəssüf, xəcalət hissi qəlbini yandırıb-yaxmışdı. Döşlərində vaxtı ilə süd əmdiyi o qadının — indiyə qədər şirin bir həsrət, əlçatmaz arzu kimi qəlbində yaşatdığı, axtardığı, anadan söz düşəndə böyük nisgillə köks ötürdüyü və xatırladığı Dünya xanımın o böyük, ülvi heykəli uçub dağılmışdı, yerlə yeksan olmuşdu, təzədən itmişdi, təzədən ölmüşdü. Oğlanın ürəyində haçandan bəri yatan o arzu — anasını axtarmaq, heç olmasa qəbrini tapmaq və səcdə eləmək istəyi birdən birə sönmüşdü. Hamı deyirdi kn, Nəcməddin Dünya xanımı çox sevirmiş, allah kimi pərəstiş eləyirmiş. Bu məhəbbətin müqabilində isə.. o, xəyanət eləmək istəyirmiş elə kişiyə? İstədi, elədi — heç fərqi yoxdur! Demək, ağayi Nəcməddin şübhələnib — bu lenti qurub, onların danışdığını yazıb və təbii ki, sonra da... öldürüb! Sarsılıb — sonra özünü də öldürüb! Məntiq belə deyirdi Nəcməddinə! Bəli, belədir ki, var! Yox, elə qadının qəbri də lazım deyil kimsəyə! Hətta oğluna da... lazım deyil!...

Maqnitofonu Nəcməddinin qənşərində görəndə Əbdül zabitəsini, iradəsini, düşünmək qabiliyyətini itirərək müti bir qul kimi oğlanın əlilə işarə elədiyi yerdə oturdu, nə olacağını gözləməyə

başladı. Yaman qorxmuşdu Əbdül. Kələfin ucunun Nəcməddinin əlinə keçdiyini görüb bu işin heç də yaxşı nəticə verməyəcəyini kəsdirmişdi.

Maqnitofon lenti hələ də fırlanırdı. Dünya da, Vəlixan da danışırdı.

Nəcməddin Dünyanın səsinə işarə ilə:

— Bu, mənim anamın səsidir? — deyə soruşdu.

— Hə, bala, onun səsidir. Rəhmətliyin səsidi, — dedi və elə o dəqiqə səhv elədiyinn anlayıb xırp susdu.

— Rəhmətliyin? — deyə Nəcməddin düyməni basıb maqnitofonu söndürdü və təkrar soruşdu: — Rəhmətliyin? Dünya ölüb məgər?

Əbdül xırda, qonur gözlərini döyüb dinmədi.

— Sənin ləyəm, kişi! — Nəcməddinin demək olar ki, qəzəblə dediyi bu sözlərdən Əbdül səksəndi. — Dünya ölüb? — Daha o, «anam» demirdi.

— Hə, yox, — deyə Əbdül kəkələdi.

— Necə yəni «hə», «yox». Ölüb ya yox?

—…

Əbdülün danışmaq istəmədiyini görəndə Nəcməddin əsəbi bir hərəkətlə ayağa qalxdı, gedib qapının cəftəsini çəkib bərkitdi, qayıdanda pencəyinin qoltuq cibindən qara bir tapança çıxarıb qara maqnitofonun üstünə qoydu və yenə çılğın bir tərzdə:

— Bura bax, kişi, — dedi, — bu xanimanda, sənin iştirakınla, gözünün qabağında nə olubsa, bircə-bircə mənə danışmalısan. Eşidirsən? Danışmalısan, özü də düzünü danışmalısan, düzünü deməsən səni öldürəcəyəm, inan, öldürəcəyəm. Baxmayacağam ki, sən mənim üçün əziyyətlər çəkmisən.

Baxmayacağam.

Tapançanı görəndə Əbdül udqundu, rəngi ağardı. Yadına o an düşdü ki, bir dəfə də ağayi Nəcməddin kefinin kök günlərinin birində şərab içirtmək üçün Dünya xanımın hüzurunda onun üstünə beləcə tapança çəkmişdi. O qara tapançanı bir də Dünya öldürülən günü görmüşdü. Sonra bir dəfə də... Nəcməddin özünü vuran gün görmüşdü. Tapança həmin tapança idi — lentlərlə birgə o özü o vaxt

sandıqda gizləmişdi. Bax, bu hərəkəti ilə — cibindən tapançanı çıxarıb ortalığa qoymağı ilə Nəcməddin necə də ağayi Nəcməddinə oxşadı, aman allah!

«Yox, bu, ola bilməz. Axı sən onun oğlu deyilsən, mənim balam. Axı sən mənim ciyarparamsan, gözümün işığı, dizimin taqətisən, can bala. Məndə bu ürək yoxdu, olmayıb, səndə hardandı bu ürək, ay oğul? Sən hara, tapança çəkmək hara? Sən indi öz doğma atanla tapança ilə danışmaq istəyirsən? Hə, səndə günah yoxdu, oğul, mən özüm bədbəxt adamam, oğul, Sən hardan biləsən ki, mənəm sənin atan, o ağayi Nəcməddin deyil?! Hardan biləsən, can oğul?» — deyə bircə anın içində ürəyindən keçirən Əbdül bir gözü tapançada, bir gözü Nəcməddində titrəyirdi.

— Mən hər şeyi bilirəm, kişi.

— Əgər... əgər bilirsən, daha məndən niyə soruşursan, oğul.

— Mənə «oğul» demə. Eşidirsən? Demə «oğul» — deyə o əsəbiliklə qışqırdı, — nə «oğul», «oğul» salmısan? Mən sənin oğlunam?

Qəfil verilən bu sualdan kişi diksindi və əsib özündən çıxan və kim bilir, daha nələr eləməyə qadir olan bu uşağı bəlkə bu yolla sakitləşdirmək mümkün olduğunu ağlına gətirən Əbdül qeyri-iradi cavab verdi:

— Hə, bala. Sən mənim dost-doğma oğlumsan, qurban olum. Sən Dünya ilə mənim sevgimdən... yaranıbsan... Sən mənim...

Nəcməddin... ağır-ağır dikəldi, Əbdülün qabağına gəldi, onu təpədən dırnağa bir də süzdü. Kişi qorxu içində durmuşdu. Oğlunun qeyri-adi hərəkətlərinə baxırdı. Nə isə olacağını gözləyirdi. Əslində gözləyirdi ki, Nəcməddin əlini irəli uzadacaq və onlar — illərlə birbirinin yanında yad kimi yaşayan ata-bala kimi qucaqlaşacaqlar. Ancaq belə olmadı. Nəcməddin birdən əyilib kaseti götürdü, yerə atıb dəli bir hərəkətlə tapdalamağa başladı. Kaset sınıb xıncım-xıncım oldu, lent xalçanın üstünə çözələndi. Bununla da ürəyi soyumadı, lenti götürüb tikə-tikə eləyəndə... Əbdül dözmədi, özünü irəli verdi:

— Ay oğul, onun səsi... son yadigarı...

— Səsi də lazım deyil, səsi də qalmasın dünyada, — dedi, Nəcməddin. — Mənin anam yoxdu, mənim anam olmayıb, olmayıb.

— Mən...

— Mənim atam da yoxdu, yoxdu mənim atam. Sən yalan deyirsən, sən xəyanətkarsan, sən o kişiyə xəyanət eləmisən, sən iblissən, sən.. — deyə o, qəfil bir hərəkətlə tapançanı götürərək düz Əbdülün ürəyinin başına boşaltdı güllələri. Əbdül qışqırıb... əlini ürəyinin üstünə qoydu və divarın dibi ilə sürüşüb yerə düşə-düşə:

— Mənim balam... sən... neylədin..? — deyə bildi. «Doğma atanı... —Tapança Nəcməddinin əlindən yerə düşdü.

Əbdülün yaddaşı öləziyəndə, həyatı vərəq-vərəq olub alt-üst olanda, qısa, çox qısa bir an içində Dünya gözlərinin qabağında rəqs edib keçdi, sonra hardansa halsız, düşkün, Dünya xanımın qəbri ilə vidalaşmağa gələrkən qoca Nəcməddinin astadan dediyi bu sözlər yadına düşdü: «Qoy o… beləcə yaşasın. Nə qədər ömrün var, həyət-dəsən, bu qəbrə qulluq eləyərsən, qoymazsan itib-bata... Onun qəbir ömrü sənin ömrün qədər olsun, Əbdül. Sən öləndə... o da təzədən ölər, tamam ölər..»

İndi.. dünya Əbdülün gözündə qaralırdı və Dünya xanım da... təzədən ölürdü, həmişəlik ölürdü. Çünki onun qəbrinin yerini bilən yeganə adam — Əbdül can verirdi... Dünyanın qəbri də Əbdüllə birgə can verirdi. Dünyanın qəbri Əbdülün dağılmış ürəyində dünyadan həmişəlik gedirdi.

EPİLOQ ƏVƏZİNƏ

Dostlarının təşəbbüsü ilə, İnqilabi respublika hökumətinin qərarı ilə vaxtilə yaşadığı küçəyə Elməddinin adı verilmişdi. Cadənin sol tərəfində yerləşən, birmərtəbəli altıotaqlı ibtidai məktəb də Elməddinin adını daşıyırdı: — başqa inqilab şəhidləri kimi onun da adını əbədiləşdirmişdilər.

Balaca Əfsanə bu il birinci sinfə gedirdi. Şəfinin köməyi ilə «Elməddin məktəbi»nə kitabxanaçı vəzifəsinə düzələn Əfsanə hər gün tezdən oyanır, uşaqı geyindirib-kecindirir, yedirib-içizdirir, kiçik, yaraşıqlı çantasını götürür; Elməddinin yadigarını yanına salıb «Elməddin küçəsi»ndə fərəhqarışıq bir qüssə ilə addımlayaraq «El-

məddin məktəbi»nə yollanırdı. Dünən Elməddin insan idi, bu gün dönüb küçə olub, məktəb olub!..

Balaca Əfsanə hələ bunun nə demək olduğunu, atasından, anasından əli üzüləndən sonra, bunun necə böyük səadət olduğunu hələ dərk eləyə bilmirdi. Eybi yoxdur, vaxt gələr, hər şeyi başa düşər, anlar və onda əsl övlad məhəbbətilə sinəsi qurur hissindən qabarar.

Əfsanə üçün isə bu, indinin özündən də böyük, əvəzsiz bir səadət idi, fərəh idi, başucalığı idi.

Əfsanələr bir-birinə dayaq, təsəlli ola-ola yaşayırdılar. Əhədulla, Fatimə, Şəfi, Məleykə, onların uşaqları Elməddinin digər dostları tez-tez bu sakit, Elməddinsiz bütün yaraşığını itirmiş həyətə gəlir, Əfsanələrə baş çəkir, onları təklik, sıxıntı hiss eləməyə qoymurdular.

Əl-ayaq çəkiləndən, balaca Əfsanəni yerinə salıb yatırandan sonra, Əfsanə ömrünün ağır, nisgil dolu, əzab dolu, fərəhsiz yollarını düşünür, zahirən, adamlar arasında özünü tox tutsa da, qəlbən qocaldığını hiss eləyə-eləyə yaşayırdı!. Hər şeyinin Elməddini xatırlatdığı, ancaq Elməddinsiz olan bu həyət-bacada, ev-eşikdə ömür sürmək çətin idi, lakin bu çətinlikdə ağrılı-acılı bir şirinlik də var idi.

...Əfsanə həyətdə, əlində qayçı gül kollarının arasında gəzinir, vaxtilə Elməddinin öz əllərilə əkdiyi, Siminbərin suladığı həmişəbahar güllərinin ən yaxşılarını üzür, dəstə düzəldirdi. Əfsanə bu gün qəbir üstünə getmək istəyirdi çünki neçə gün qabaq danışıb pulunu verdiyi ustalar dünən Elməddinin, Siminin qəbirlərinin üstünü düzəldib qurtarmalı idi. Getmək, baxmaq istəyirdi.

O, son vaxtlar hər dəfə bağçadan gül dərəndə balaca Əfsanə sözsüz-sovsuz başa düşürdü ki, qəbir üstünə gedəcəklər. İndi də bağçaya, Əfsanənin yanına gəldi, açılıb qönçədən çıxmış güllərə baxa-baxa:

— Qibləgahımın yanına gedirik, xala? — deyə soruşdu.

— Hə, qızım. Gedək onları ziyarət eləyək, balası.

— Mən hazıram, xala.

— Ay barakallah, mənim ağıllı qızım.

Əfsanə doğrudan da hazır idi. Xalasının öz əlilə tikdiyi qara donunu geymişdi, başındakı qırmızı ipək lenti (onu məktəbə gedəndə

bağlardı) açmışdı. Bilirdi ki, qəbir üstünə gedəndə xalası da, o da qara geyinməlidi.

Əfsanənin kəsib-düzəltdiyi iri gül dəstəsini götürdü, bağçadan çıxdılar. Əfsanə otağa keçdi, az sonra qara libasda, qara örpəkdə geri qayıtdı.

— Hə, gedək, qızım.

...«Balayi-hasar» tərəfdə... düzənlikdə salınmış qəbiristanlıqda ölüm sükutu hökm sürürdü. Hava isti idi, kimsə gözə dəymirdi. Təkcə o başda... bir nəfər qəbirqazan kişinin qurşaqdan yuxarı çılpaq olan bədəni görünürdü. Əfsanə uşağın əlindən tutaraq, köhnə, yapıxıb az qala itmək üzrə olan qəbirlərin arası ilə yeriyirdi. Bəzi qəbirlərin üstündə yazılı başdaşları vardı — əyiləni də vardı, yıxılanı da...

Amma o tərəfdə, gündoğandakı qəbirlərin, demək olar ki, hamısı təzə idi — bunlar məmləkətin, xalqın tarixində yeni bir səhifə kimi yazılmış səur inqilabı günlərində, atışmalar zamanı ölənlərin — şəhidlərin qəbirləri idi. Yan-yana, səliqə ilə dəfn edilmişdilər.

Əfsanələr gəlib qıraqdakı iki qəbrin — Elməddin, Siminbərin qəbrinin yanında dayandılar. Əfsanə diqqətlə baxdı — ustalar işlərini çox səliqə ilə görmüşdülər. Hər iki qəbrin üstünə ağ daşdan başdaşı qoyulmuşdu — üzərinə adları, təvəllüd və vəfat tarixi yazılmışdı. Ancaq Elməddinin ağ mərmərdən olan sinə daşının üstündə Əfsanənin o vaxt Elməddinə vəsiyyət elərkən dediyi o iki misra şer də yazılmışdı. Həmin misraları Əfsanə ürəyindəcə oxudu:

Ayrılıq var — sonu şirin vüsaldı,
Ayrılıq var — sonu yoxmuş, ay aman!

Əfsanə dodaqaltı o sözləri bir də pıçıldadı, gözləri doldu. İçərisi, ürəyinin başı göynəyə-göynəyə: «Dünyanın işinə bax, Elmi. Bu sözləri sən mənim qəbrimin üstünə yazdırmalı idin, ancaq... tərsinə oldu, əzizim. — deyə düşündü. Bu ayrılığın həqiqətən sonu yoxdu, Elmi?

Sonra qucağındakı tər gülləri iki yerə böldü, yarısını Elməddinin, yarısını Siminin qəbri üstünə qoydu. Sonra, qüssədən, gərginlikdən nə edəcəyini bilməyərək əyilib böyründə lal-dinməz dayanan və kim bilir nələr düşünən, hələ həyatın bu cür işlərinə adi oyuncaq, əyləncə kimi baxan balaca Əfsanənin üzündən öpdü, çəkib sinəsinə sıxdı:

— Yaxşı düzəldiblər, — dedi, sanki öz-özünə danışırdı, — çox gözəl düzəldiblər.

—…

— Bu qəbirlərin yerini yaxşı yadında saxla, qızım. Unutma. Nə qədər sağam, nəfəsim gedir-gəlir, səni özüm bura gətirəcəyəm. Mən... mən olmayanda isə... özün gələrsən. Həmişə. Hər il, qızım. Lap qocalanda da... Söz verirsən, can bala?

— Hə, xala. Söz verirəm. Bəs bura — o şəhadət barmağını başdaşılarına, sinə daşına uzatdı. — Nə yazılıb xala?

— Sən hələ məktəbə təzə gedirsən, əlifbanı təzə öyrənirsən, qızım. Hərflərin hamısını keçib öyrənəndə... Özün oxuyarsan, başa düşərsən. Elə bir şey yazılmayıb, qibləgahının, madərinin adlarını yazdırmışam. Qoy itib-batmasın. Qəbri itmək, yaddan çıxmaq dərdlərin ən dəhşətlisidi, qızım.

Bu zaman balaca Əfsanə gündən qamaşan gözünün üstünə əlini qoyub uzağa baxa-baxa:

— Bıy, Şahin əmi gəlir, xala! — dedi.

Şahinin adını eşidən kimi Əfsanənin qəlbi qeyri-adi titrəyişlə çırpındı. Uşaq baxan səmtə boylandı. O idi. Şahin idi. Əlinin birində çəlik vardı — axsayırdı deyəsən. O biri əlilə də sinəsinə qızılgül dəstəsi sıxmışdı.

Elməddinin yasında yox idi — elə o gedən getmişdi. Əfsanə, özündən asılı olmayaraq, qəribə bir nisgillə yoluna baxmışdı hərdən. O ağır günündə — özünə qəsd eləmək istəyən günü, maraqlı idi ki, onu da görmək, onunla da vidalaşmaq istəmişdi nədənsə. Balaca Əfsanə ilə son dəfə şəhərə «gəzməyə» çıxanda da, küçələri fikirli gəzəndə də arzulamışdı ki, nə ola, birdən, lap təsadüfən Şahin qarşısına çıxa, onun gözlərinə son kərə baxa. O da yazıqdı — sabah ya haçansa eşidəndə ki, Əfsanə ölüb, yoxdur, onda o nə hala düşəcək aman allah? Haçansa belə ola biləcək bu faciəni Əfsanə qabaqcadan təsəvvürünə gətirib çox pərişan olmuşdu. Ancaq... Şahin görünməmişdi, gəlməmişdi. Taleyin gərdişi dönmüşdü, Əfsanə sağ qalmışdı, Elməddin, Simin dünyadan köçmüşdü. Sonra da gəlməmişdi. İndi gəlir. Axsaya-axsaya... Yəqin Səur hadisələrində onu da vurublar. Yəqin atışmalarda şikəst olub?.

Bu ara... Əfsanənin... pəjmürdə xəyalının güzgüsündə... Qarabağ qəryəsinin tozlu-torpaqlı yolu canlandı; Şahin, Əfsanə onun alnından öpüb uzaqlaşandan sonra, yerində heykəl kimi, əfsunlanmış kimi donub qalmışdı və dalınca qışqırırdı: «Getmə, Əfsanə!», «harda olsan, gəlib səni tapacağam.» Bu sözlər — neçə il qabaq deyilmiş bu həyəcanlı, yalvarış və məhəbbət dolu sözlər təzədən, tam aydınlığı ilə qulaqlarında səslənirdi. «Getmə, Əfsanə!», «Harda olsan, gəlib səni tapacağam!»

Əfsanə Elməddinin qəbrinə nisgilli bir nəzər saldı. Sanki qəbirdən səs gəlirdi — bu, Elməddinin səsi idi, deyirdi: «Şahin yaxşı oğlandı. Şahin səni çox istəyir, Əfsanə»...

Əfsanə hövllənmişdi. Bayaqdan dolmuş gözlərindən isti-şor göz yaşları axmağa başlamışdı.

Şahin... qəbirlərin arası ilə gəlirdi. Bəli, Şahin gəlirdi...

SON

Kabil – Yalta – Bakı
1967 – 1982

KİTABIN İÇİNDƏKİLƏR

ROMAN

Ayrılığın sonu yoxmuş 10

ƏLİBALA QÜDRƏT OĞLU HACIZADƏ

Ə S Ə R L Ə R İ
X CİLDDƏ

IV CİLD

Bakı – 2004

Nəşriyyatın direktoru: **Hafiz Abıyev**
Nəşriyyat redaktoru: **Qabil Xeyrullaoğlu**
Korrektor: **Günel Musayeva**
Operator: **İradə Həsənli**
Cildçi: **İlyas Cəlilov**
Çapçı: **Mircəlal Kazımov**

Çapa imzalanmışdır: 22.11.2004. Sifariş № 32. Formatı 84x108$^{1/32}$.
Həcmi 31,5 ç.v. Tirajı 1500 nüsxə.

Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi,
Bakı şəh. H.Cavid pr. 29 A. Tel.: 4393972